# AZƏRBAYCAN DRAMATURGİYASI ANTOLOGİYASI

DÖRD CİLDDƏ

IV CİLD

"ŞƏRQ-QƏRB"
BAKI
2007

Tərtib edəni və
bioqrafiyaların müəllifi: **Dilarə Məmmədova**

**ISBN 978-9952-34-136-2**

**894.361'2'008-dc22**
Azərbaycan dramaturgiyası

**Azərbaycan dramaturgiyası antologiyası.** Dörd cilddə. IV cild.
"Şərq-Qərb", Bakı, 2007, 584 səh.

Cildə Azərbaycan dramaturgiyasının nümayəndələrindən Aslan Qəhrəmanlı, Mustafa İskəndərzadə, Arif Abdullazadə, İnqilab Nadirli, Elçin, Hidayət, Əli Əmirli, Kamal Abdulla, Mənzər Nigarlı, Elçin Mehrəliyev, Firuz Mustafa, Əmir Pəhləvan və Elçin Hüseynbəylinin əsərləri daxil edilmişdir.

© "Şərq-Qərb", 2007

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
“**Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında**”
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# AZƏRBAYCAN DRAMATURGİYASI

Aslan Qəhrəmanlı
Mustafa İskəndərzadə
Arif Abdullazadə
İnqilab Nadirli
Elçin
Hidayət
Əli Əmirli
Kamal Abdulla
Mənzər Nigarlı
Elçin Mehrəliyev
Firuz Mustafa
Əmir Pəhləvan
Elçin Hüseynbəyli

# ASLAN QƏHRƏMANLI

(1939)

*Aslan Qəhrəman oğlu Qəhrəmanlı 1939-cu ildə Ağstafa rayonunun Yenigün kəndində anadan olmuşdur. 1961-ci ildə Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini bitirmişdir. Fizika-riyaziyyat elmləri namizədidir. Azərbaycan Dövlət Neft Akademiyasının "Tətbiqi riyaziyyat" kafedrasının dosenti vəzifəsində işləyir.*

*1985-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.*

*İlk əsəri – "Dağların mahnısı" hekayəsi "Gənclik" nəşriyyatının 1967-ci ildə buraxdığı "Gənc qələmlər" almanaxında çap olunmuşdur. O vaxtdan başlayaraq, bir çox hekayə, povest və pyesləri "Azərbaycan", "Ulduz", "Qobustan" jurnallarında, "Ədəbiyyat qəzeti"ndə işıq üzü görmüşdür. "Meteor yağışı" (1971), "Gültən" (1979), "Bir payız axşamı" (1981), "Müsabiqə" (1984), "Qızıl zəncirli açar" (1990), "Səni axtarıram" (1998) kitablarının müəllifidir.*

*Televiziya üçün yazdığı pyeslərdən "Spektr" (rejissor T.Tahirov), "Döngə" (rejissor H.Əbluc), "Bir otaqda beş nəfər", "Burulğan" (rejissor T.Vəliyev), "Müsabiqə", "Bir payız axşamı" (rejissor R.Həsənoğlu) Azərbaycan televiziyası ilə dəfələrlə göstərilmişdir. Lakin ən çox tamaşaçı rəğbətini üç hissəli "Səni axtarıram" (rejissor T.Vəliyev) pyesi qazanmışdır.*

*Bunlardan əlavə, onun radio üçün yazdığı 13 nağıl-pyes Azərbaycan radiosu ilə səsləndirilmişdir ("Daşa dönmüşlər şəhəri", "Yeddinci vəzir", "Şeytan", "Ceyran əfsanəsi", "Tutuquşu", "Qozbelin nağılı" və s.).*

# İFRİTƏ

(*Nağıl-pyes*)

## BİRİNCİ ŞƏKİL

Şəhər kənarında xarabalıq. Yarıuçuq qalaçanın içində
eybəcər bir ifritə qəhqəhə ilə gülür.

İ f r i t ə. Ha-ha-ha... Qırx qan eləmişəm, qırx birincisini də edəcəm. Ha-ha-ha... Qırx qan eləmişəm... Ha-ha-ha... Qırx birincisini də edəcəm... Ha-ha-ha... (*Fırlanıb yox olur.*)

Qaraxan qorxa-qorxa qalaçaya girir.

Q a r a x a n. Heç nə yoxdur içəridə. Hər şey çürüyüb toza qarışıb. Tavanın bir hissəsi uçub, amma divarlar pis deyil. Buranı təmir eləyib yaşamaq olar. Hayıf, pəncərəsi yoxdur. İçəri qaranlıq olacaq.

İfritənin səsi eşidilir.

İ f r i t ə. Şam yandırarsan, cavan oğlan, olar işıqlı.

Q a r a x a n (*qorxur*). Ey, kim var burada?

İ f r i t ə. Mənəm, oğlan. Adi bir pəri. Boylanma, görməyəcəksən. Bəs sən kimsən?

Q a r a x a n. Mən?! Canından bezmiş, var-yoxu əlindən çıxmış aciz bir bəndə.

İ f r i t ə. Qorxma, oğlan, mən sənə kömək edərəm.

Q a r a x a n. Sən görünsən, daha yaxşı olar. Mən görmədiyimdən daha çox qorxuram. Elə bilirəm, kimsə üstümə atılacaq.

İ f r i t ə. Sən məni qoca qarı kimi görmək istəyirsən, yoxsa cavan qız kimi? Mələk simasında görünüm, yoxsa (*gülür*) ifritə sifətində? Mən bir anda dəyişib istədiyim şəklə düşə bilirəm. İstəyirsən, əjdaha olum?

Q a r a x a n. Yox, yox! Necə varsan, elə də görünsən yaxşıdır.

İ f r i t ə. Əmr et, oğlan, həmişə qulluğunda hazıram.

Qəşəng bir qıza çevrilib oğlana tərəf gəlir.

Q a r a x a n. Xanım, səsindən bu qədər cavan olduğunu güman eləməzdim.

İ f r i t ə. Mən cavan deyiləm. Yeddi min ildir bu dünyada yaşayıram və heç bir qeyri-adi hadisə baş verməsə əbədi, yaşayacam. Mən ifritlər padşahı Mücərrədin qızı Mücərrəbəm.

Q a r a x a n. Deməli, sən ifritəsən? Pəri simasında görünən ifritə?

İ f r i t ə. Yoxsa xoşuna gəlmirəm?

Q a r a x a n. Əksinə. Sən çox gözəlsən. Əgər ifritələr belə gözəl ola bilirsə, görəsən onlardan niyə qorxurlar?

İ f r i t ə. Ağıllı adam heç cindən də qorxmaz.

Q a r a x a n. Sən məni aldadırsan. İfritələr eybəcər olur. Sən mələksən. Göyün yeddinci qatından gəlibsən ki, mənə kömək edəsən.

İ f r i t ə. Sənə nə kömək lazımdır, mənim ağam?

Q a r a x a n. Mən ağa deyiləm. Evsiz-eşiksiz lütün biriyəm.

İ f r i t ə. Sən tacir Toxtamışın oğlu Qaraxansan. Lüt deyilsən.

Q a r a x a n. Atam öləndə onun qırx tacir yoldaşı bizə gəldi, ağladılar, qırx gün, qırx gecə qara geyinib yas saxladılar. Sonra onlardan biri üç aşıq çıxardı, mənə qumar oynamağı öyrətdilər. Əvvəlcə bir az şirnikləndirib uduzdular, sonra isə bütün var-yoxumu uddular. Pullarımı, qızıllarımı qaytarmaq üçün evimi satdım, yenə də uduzdum. Anamla küçədə qalası olduq. Bir müddət heç vaxt saymadığımız kasıb qohumların evində yaşadıq. Anam dərddən öldü. Özümü qayadan atmaq üçün bura gəlmişdim. Xarabadakı qalaçanı görəndə yadıma düşdü ki, burada cinlərin, ərdövlərin yaşadığından danışırdılar. Canından bezmiş adamın heç nə vecinə deyil. Nə yaxşı ki, sənə rast gəldim. Əl-ələ tutaq, çıxaq gedək. Lap uzaqlara, başqa ölkələrə.

İ f r i t ə. Bəs özünü öldürməyəcəksən?

Q a r a x a n. Belə bir mələk bu dünyadadırsa, o dünyaya tələsməyin mənası yoxdur.

İ f r i t ə. Yaşımı yadından çıxartma. Təsəvvür elədiyin ən qoca qarıdan da qocayam mən.

Q a r a x a n. Sən qoca deyilsən. Əbədi yaşayan qocala bilməz. Mən qocalıb öləcəm, sən isə elə beləcə qalacaqsan.

İ f r i t ə. Mənim əsil sifətim başqadır, indi gördüyün deyil.

Q a r a x a n. Çox kifirsən?

İ f r i t ə. Mənə görə o qədər də yox. Amma çox Adəm övladı məni görəndən sonra o dünyalıq olub.

Q a r a x a n. Vay, mən səninlə evlənmək istəyirdim.

İfritə (*qəhqəhə çəkir*). Ha-ha-ha... Evlənmək? Sənin başın xarabdır, mənim ağam. Səfeh nağılları oxuyub elə güman eləmisən ki, insan mələklərlə, ifritələrlə evlənə bilər?

Qaraxan. Bəs onda niyə gözümə göründün?

İfritə. Yazığım gəldi. Vəziyyətini görüb sənə kömək eləmək istədim. Əmr elə, qulluğunda durum.

Qaraxan. Əvvəlcə süpürgədən-zaddan bir şey tap, döşəməni süpür, hörümçək torundan, cücü-mücü əlindən tərpənmək olmur. Mən də gedim meşədən ağac qırım, tavanın uçan yerini bağlayım.

İfritə. Süpürgə? Ağac? Bunların heç biri lazım deyil. (*Yerində fırlanır.*) Mən Mücərrədin qızı Mücərrəb əmr edirəm: Ey əcinnələr! Bu qalaçanı qaydaya salın. Yerə xalılar döşənsin, mütəkkələr qoyulsun. Süfrə açın. Şamları yandırın. (*Fırlana-fırlana ifritəyə çevrilir.*)

Qaraxan. Vay, bu nə eybəcərdir! (*Özündən gedib yıxılır.*)

İfritə. Cəhənnəmə vasil olsa, yenə neçə illər gözləməli olacam. Ey əcinnələr! Su verin. Bu nədir verirsiniz? Sərin bulaq suyu gətirin. Bax, belə. Üzünə su səpin, ayılsın...

Fırlanıb yenidən əvvəlki görkəminə düşür.

Qaraxan (*gözünü açır*). Mən haradayam? Aha, bu sənsən? Bayaq xarabadaydım, indi qəşəng otaqdayam. Bura haradır?

İfritə. Elə bayaqkı qalaça. Bir balaca qaydaya salmışıq. Qəfildən huşunu itirmişdin.

Qaraxan. Gözümə bir eybəcər ifritə görünmüşdü.

İfritə. Mənə oxşayırdı?

Qaraxan. Nə danışırsan? Qapqara çöp kimi nazik əyri qıçları vardı. Ordu batmışdı. Çirkli qarmaqarışıq saçlarının içində hörümçəklər tor qurmuşdu. Alt dodağı yer süpürürdü, üst dodağı göy. Ağzından iki əyri dişi bayıra çıxmışdı. Gözləri isə cəllad gözləri kimi soyuq və amansız idi. Aman Allah, yadıma düşəndə bədənimə vicvicə düşür.

İfritə. O mən idim.

Qaraxan (*dəhşətlə qışqırır*). Ola bilməz!

İfritə. Sakitləş. İnansan da belədir, inanmasan da. Mən doğrudan da ifritəyəm. Amma qorxma məndən.

Qaraxan. Nə yumşaq xalıdır bu xalı. Mütəkkəni başımın altına kim qoyub?

İ f r i t ə. Köməkçilərim. Əcinnələr.

Q a r a x a n. Sən doğrudan da ifritə olsan belə o sifətdə görünməməliydin. O, qorxunc olmaqdan çox iyrəncdir.

İ f r i t ə. O yox, mən. Mən ifritəyəm, bununla fəxr edirəm və heç kəsi aldatmaq istəmirəm.

Q a r a x a n. Yaxşı, mən gedim. Daha özümə gəlmişəm. (*Ayağa qalxır.*)

İ f r i t ə. Hara gedirsən? Özünü qayadan atmağamı? Bəlkə əcinnələrim bu işdə sənə kömək eləsinlər?

Q a r a x a n. Yox, hələ ölmək tezdir. Əlimə dəmir əsa alıb dünyanı dolaşacam.

İ f r i t ə. Dərvişlik sənə nə mal-dövlət, nə xoşbəxtlik gətirəcək.

Q a r a x a n. Bilirəm. Amma başqa çarəm yoxdur.

İ f r i t ə. Var. Mən deyənə razı olsan, bütün məmləkətin sahibi olarsan.

Q a r a x a n. Sən ifritəsən. Mən səndən qorxuram.

İ f r i t ə. Qeyri-adi qabiliyyəti olan məxluq adamlara yaxşılıq eləyir. Ondan qorxmaq lazımdırmı?

Q a r a x a n. Qalaçanı təmir elədiyini gördüm. Daha nə bacarırsan?

İ f r i t ə. Əmr elə görərsən.

Q a r a x a n. Mən qumarbazlardan intiqam almaq istəyirəm.

İ f r i t ə. Onlar qırx quldurdurlar. Mən onları yaxşı tanıyıram.

Q a r a x a n. Sən quldurlara heç nə eləyə bilməzsən?

İ f r i t ə. Yox, mən elə demədim. İntiqam sözü xoşuma gəlmədi. Əksinə, sən onlarla yaxınlaşmalı, dostlaşmalısan.

Q a r a x a n. Onlar mənim bütün var-dövlətimi udublar.

İ f r i t ə. Oğurlamayıblar. Udublar! Lap elə oğurlasaydılar, nə olardı?

Q a r a x a n. Cibimdə bir qara qəpiyim yoxdur.

İ f r i t ə. Həvəsdən düşmə. Olacaq. İndicə əcinnələr səni quldurların qəsrinə aparacaq və orada sən onların bütün var-dövlətini udacaqsan. Əcinnələrimdən ikisi sənin yanında olacaq, nə arzun olsa, yerinə yetirəcəklər.

Q a r a x a n. Deməli, mən aşıqları atanda, nə istəsəm, o düşəcək?

İ f r i t ə. Əlbəttə. Amma əvvəlcə əyləş. Doyunca ye. Görürəm, acından ölürsən.

Q a r a x a n. Süfrə boşdur.

İfritə. Ey əcinnələr, bu cavan oğlanın ürəyindən nə keçirsə, gətirin, yesin.

Qaraxan. Vay, bu yeməkləri kim gətirdi? (*Süfrədəki yeməklərdən yeyir.*) Ömründə belə dadlı kabab yeməmişəm.

İfritə. Qalaça bu gündən sənin iqamətgahındır. Əmr edəcəm, burada bağ salsınlar, binalar tiksinlər. İndi getməliyəm. Lazım olsam, çağırarsan. (*Yox olur.*)

Qaraxan. Qəribə işdir. İndicə buradaydı, yoxa çıxdı. Ey əcinnələr, süfrəni yığışdırın, su gətirin, əlimi yuyum... Vay, möcüzədir bu. (*Əlini yuyur.*) Su göydən öz-özünə tökülür. Afərin, ifritə Mücərrəb... Əcinnələr, indi məni qırx quldurun olduğu yerə aparın...

## İKİNCİ ŞƏKİL

Meşə. Əcinnələr Qaraxanı yerə qoyurlar.

Qaraxan. Gözümü yumdum, açdım, meşəyə gəlib çıxdım. Bəs quldurlar hanı? Görsələr, öldürərlər. Yox, mənim köməkçilərim var... Görəsən, bu nə qapıdır? İtələyim... Açılmır. (*Yerdən bir daş götürüb döyür. Quldurlardan biri qapını açır.*)

Birinci quldur. Olmaz!

Qaraxan. Ey əcinnələr! Bu qulduru o cökə ağacının budağından asın. (*Quldur bir anda göyə qalxır, boğazı ağacın haçasına keçir.*)

Birinci quldur. Vay-vay! Öldüm.

Qaraxan. Elə yox. Boğazından asmayın. Ayağından. Bax belə. O hələ bizə lazım olacaq.

İkinci quldur (*içəridən çıxır*). Bu nə səs-küydür?

Qaraxan. Dostunu görürsənmi? Təkcə darıxır. Bəlkə sən də ora çıxasan?

İkinci quldur. Sənə nə lazımdır?

Qaraxan. Yoxsa tanımırsan? Qumar oynamağa gəlmişəm. İstəyirəm sizi quru yurdda qoyam.

İkinci quldur. Pulun varmı?

Qaraxan. Var. Budur, bax. (*Qəflətən əlində peyda olmuş pul kisəsini göstərir.*) Sağ ol, əcinnə.

İkinci quldur. Yaxşı, keç içəri.

## ÜÇÜNCÜ ŞƏKİL

Quldurların yeraltı sarayı. Qaraxan içəri girir. Quldurbaşı lap yuxarı başda oturmuşdur. Süfrə yeməli şeylərlə doludur.

Q a r a x a n. Pis yaşamırsınız, ey quldurlar! Görürəm, tacir atamın dostları aşıq oynatmağı, oğurluq eləməyi, adam öldürməyi bacardıqları kimi yeyib-içməyi də xoşlayırlar. Ey tacir quldurbaşı! Əlini xəncərdən çək, nə qədər dartsan da qınından çıxara bilməyəcəksən. Səndə o güc haradandır?

Q u l d u r b a ş ı. A-a-a... Bu doğrudan da çıxmır.

Q a r a x a n. Heç biriniz yerinizdən tərpənməyin. Tərpənən meşədə ağacdan asılmış yoldaşının gününə düşəcək.

Q u l d u r l a r d a n  b i r i. Necə yəni tərpənməyəcək? Bax, mən tərpəndim. A-a-a... Hara dartırsan məni? Yox... İstəmirəm... Getmirəm...

Görünməyən əcinnə onu aparır. Qapı açılıb-örtülür.

Q a r a x a n. Mən bu saat sizin hamınızı öldürə bilərəm. Amma istəmirəm. Çünki mən də sizin kimi oyunçuyam. Siz məndən xeyli pul udubsunuz. Gəlmişəm, həm udduqlarınızı qaytaram, həm də bu cah-calallı sarayınızı ələ keçirəm. Belə bir şərt qoyuram. Üç aşıq atacağıq. Hər quldur bir dəfə atacaq. Əgər qırx dəfədən heç olmazsa birində bir aşıq toxan düşsə, bütün var-dövlətim sizin olur. Mən çıxıb bu ölkədən gedirəm.

Q u l d u r b a ş ı. Biz sənin bütün var-dövlətini udmuşuq.

Q a r a x a n. Bir adam ki, xəncəri belinə nə üçün bağladığını bilmir, o nə qanır dünyada nə var, nə yox! Mənim var-dövlətim Şişqayadakı qalaçadadır. Elə burada da bir az var. Baxın. (*Pul kisəsini açıb içindən qızıl çıxarır.*) Görürsünüz?

Q u l d u r b a ş ı. Bəs sən aşıq atanda toxan düşməsə necə?

Q a r a x a n. Tələsmə, ey quldurbaşı! Mən aşıqları üç dəfə atacam. Özü də buradan. Uzaqdan. Aşıqların hamısı hər dəfə toxan düşsə, bütün var-dövlətiniz mənim olur. Sizin ixtiyarınız mənə keçir. Yəni daha quldur yox, qul olursunuz.

Q u l d u r b a ş ı. Biz səni udmuşuq. Sən pis oynayırsan.

Q a r a x a n. Nə olar? Çıxarın aşıqları başlayaq.

Quldurlar bir-bir aşıqları atırlar. Hər dəfə də
uduzduqlarından heyfsilənirlər.

Q u l d u r b a ş ı. İki nəfər qaldı. Bilmirik onlar hardadırlar.

Q a r a x a n. Ağacdan asılıb özlərini günə verirlər. Gedin, gətirin onları. (*Quldurlar yoldaşlarını gətirirlər. Onlar da oynayıb uduzurlar.*) Siz uduzdunuz. Mənim var-dövlətim qaldı özümdə. Verin aşıqları bura. (*Aşıqları alır və uzaqdan xalçanın üstünə atır.*) Necə düşdü?

Q u l d u r l a r. Möcüzə... Üçü də toxan.

Q a r a x a n. Baxın. (*İkinci dəfə atır.*)

Q u l d u r l a r. Vay! Uduzuruq.

Qaraxan üçüncü dəfə aşıqları atır. Sükut.

Q a r a x a n. İndi mənim qırx qulum və çoxlu var-dövlətim var.

Q u l d u r b a ş ı. Mən qul olmaq istəmirəm.

Q a r a x a n. Bəs nə istəyirsən, zəif oyunçu?

Q u l d u r b a ş ı. Yol kəsib adam öldürmək, çapıb talan eləmək, qumar oynamaq...

Q a r a x a n. Bütün bu dediklərin qul olmağa mane olmur. Mənim əmrimlə bunların hamısını eləyə bilərsən. Əlbəttə, özünü yaxşı aparsan. Baş əy, görüm!

Q u l d u r b a ş ı. Hələ heç kəsə baş əyməmişəm.

Q a r a x a n (*acıqlı*). Ey qul, diz çök! (*Görünməyən əcinnə quldurbaşını dartıb irəli çəkir, diz çökdürür.*) Bax, belə. Sən əməllibaşlı kölə imişsən. Öp başmaqlarımı.

Q u l d u r b a ş ı. İyrənirəm.

Q a r a x a n. Necə?! (*Əcinnə quldurbaşını Qaraxanın başmağından öpməyə məcbur edir.*)

Q u l d u r b a ş ı. Öldürmə məni. Sənin qarşında ədəbsizlik eləmişəm. Yüz il də kölə olsam, günahımı yuya bilməyəcəyəm.

Q u l d u r l a r (*diz çökürlər*). Öldürmə bizi. Atan tacir Toxtamışın müqəddəs qəbri bizim səcdə yerimiz olacaq.

Q a r a x a n. Bu dəfə hamınızın günahından keçirəm. Yeyin, için, amma mənim razılığım olmadan heç bir xatalı işə girişməyin. (*Gedir.*)

Q u l d u r b a ş ı. Allah, sənə şükür. Getdi. Hamımızı qırmaq istəyirdi. Nədənsə bağışladı.

Q u l d u r l a r d a n b i r i. Amma əla oyunçudur!

## DÖRDÜNCÜ ŞƏKİL

Qaraxan qalaçanın qarşısında.

Q a r a x a n. Afərin, ifritə! Yəqin cənnət elə belə olur. Qəribə işdir. Bir gündə yoxdan belə səfalı bağ yaratmaq olarmış! Ağaclar nə tez böyüdü? Bülbüllər oxuyur. Hasarın hündürlüyünə bax! Vay, nə zəhmli qapıçı durub burada. Əlində də təbərzini. Yol ver, qapıçı, bura mənim sarayımdır.

Qapıçı kənara çəkilib baş əyir.

İ f r i t ə (*peyda olur*). Toxtamış oğlu Qaraxan! Razı qaldınmı? Bu saray şah sarayından pis deyil, eləmi?

Q a r a x a n. Bu möcüzəyə görə sənə təşəkkür edirəm. Min yaşa! (*Gülür.*) Mən nə danışıram? Min yaş sənin üçün nədir ki? Sən əbədi yaşamağa doğrudan da layiqsən.

İ f r i t ə. Elə bu cür kifir halda?

Q a r a x a n. Əməllərin səni gözəlləşdirir.

İ f r i t ə. Duman şah kimi tərifə qulaq asmağa hövsələm yoxdur. İş görmək lazımdır. Sən öz quldurlarına tapşır, Duman şahın xəzinəsini oğurlasınlar. Əcinnələr onlara kömək edəcək.

Q a r a x a n. Baş üstə. Sonra?

İ f r i t ə. Sonra şaha xəzinənin yerini deyərsən və o sənə sarayda yaxşı bir vəzifə verər. Qalan işlər mənim boynuma.

Q a r a x a n. Məqsədin nədir, ey ifritə?

İ f r i t ə. Məqsədim? (*Gülür.*) İstəyirəm ki, hakimiyyəti ələ keçirəsən.

Q a r a x a n. Mən? Yəni mən şah ola bilərəm?

İ f r i t ə. Sən mütləq şah olacaqsan! Çünki Mücərrədin qızı Mücərrəb belə istəyir. Qırx qan eləmişəm, qırx birincisini də edəcəm... (*Yox olur.*)

Q a r a x a n. Tacir Toxtamışın oğlu Qaraxan şah ola bilər? Niyə də olmasın?!

## BEŞİNCİ ŞƏKİL

Bəzədilmiş qalaçada hündür taxt üstündə Qaraxan əyləşib.
Onun qarşısında quldurbaşı diz çökmüşdür.

Q a r a x a n. Ey quldurbaşı! Var-dövlətimin çox olduğuna şübhə eləyirdin. O kor gözlərin gördümü bu cah-calalı? Sarayımın qoruyucuları sənin aciz quldurlarına tay edilə bilərmi?

Q u l d u r b a ş ı. Əlahəzrət, bağışla öz qullarından ən ölüvayını. Üç gün qabaq biz bu qalaçanın yanından keçmişik. Nə saray vardı, nə qülləli hasar, nə keşikçilər, nə də oxuyan quşlar. Möcüzədir, əlahəzrət.

Q a r a x a n. Qulaq as. Üç gündə bu cənnəti yaradan adam nə istəsə eləyə bilər. Razısan?

Q u l d u r b a ş ı. Bəli, əlbəttə.

Q a r a x a n. Ona görə həmişə öz ağana inan və ona səcdə elə. Bütün tapşırıqlarımı sözsüz yerinə yetir. Mən sənə xoşuna gələn işlər gördürəcəm. Bu gecə ilk xoruz banında öz dəstəni də götürüb Duman şahın xəzinəsini tamam boşaltmalısan.

Q u l d u r b a ş ı. Çətindir, ağa, vallah çətindir. Biz dəfələrlə bu fikrə düşmüşük, heç birində də alınmayıb. Xəzinə çox etibarlı yerdədir, həm də möhkəm qorunur.

Q a r a x a n. Mən nə istəsəm, o da olmalıdır. Qorxmayın. Elə edəcəm ki, siz xəzinəni daşıyıb aparanadək gözətçilər yerlərindən tərpənə bilməyəcəklər.

Q u l d u r b a ş ı. Birdən qışqırarlar.

Q a r a x a n. Quldurbaşı da belə qorxaq olar? Qışqırmayacaqlar da. Key-key üzünüzə baxacaqlar, nə danışa, nə tərpənə biləcəklər.

Q u l d u r b a ş ı. Elə olsa bu bizim əlimizdə su içmək kimi bir şeydir. Sonra neyləyək?

Q a r a x a n. Bütün xəzinəni aparıb Keçəldağdakı mağarada gizlədərsiniz. Sonra isə ölkənin hər yerinə dağılıb padşahın bacarıqsızlığı, ölüvaylığı və öz xəzinəsini qoruya bilmədiyi barədə ağlınıza nə gəlir danışarsınız.

Q u l d u r b a ş ı. Baş üstə.

Q a r a x a n. Dayan. Hələ hamısını dеməmişəm. Xəbər yaymalısınız ki, bir münəccim peyda olub. Varlı, qabiliyyətli, ağıllı, bilikli. Ölkəni ağır vəziyyətdən çıxara bilsə, o çıxaracaq. Qul olsanız da bu

məsələdə, yəni məni tərifləməkdə sizə tam sərbəstlik verirəm. Bircə şərtim var: xəzinə çox ehtiyatla daşınmalıdır. Bir qara qəpik oğurlansa və ya itirilsə, səni öz əllərimlə doğrayacam. Aparın qızılları mağaraya, orada gizlədin.

Quldurbaşı. Başqa qulluq yoxdursa, mən gedim.

Qaraxan. Yaxşı, get.

## ALTINCI ŞƏKİL

Duman şahın sarayı.

Şah. Vəzir, bir tədbir tök. Ölkə əldən gedir.

Vəzir. Ey müdriklərin ən müdriki, ağıllıların ən ağıllısı, güclülərin ən güclüsü...

Şah. Yaxşı, ətimizi tökmə. keç mətləbə.

Vəzir. Ey mərhəmətlilərin ən mərhəmətlisi, ədalətlilərin ən ədalətlisi!

Şah (*acıqlı*). Bəsdir!

Vəzir. Ey... Ey... (*Susur.*)

Şah. Nə oldu?

Vəzir. Çaşdırdın məni, əlahəzrət. Tərifləməyə də qoymursan. Mən belə danışmaqla qətiyyən yaltaqlanmaq fikrində olmamışam. Sadəcə ürəyimdən keçən fikirləri deyirəm.

Şah. Bütün xoş sözlərini dəfələrlə eşitmişəm. Təkrar eləməyin mənası yoxdur. Mən özüm də böyüklüyümü hiss edirəm. Amma vəziyyət ağırdır. Ölkənin xəzinəsi əldən gedir. Bir tədbir görmək lazımdır, sən isə başlayırsan, nə bilim, ey filankəslərin bəhmənkəsləri.

Vəzir. Tələsmə, şahım. Yanına xeyir xəbərlə gəlmişəm.

Şah. Xəzinə tapılıb?

Vəzir. Hələ yox. Amma tapılacaq.

Şah. Nədən bilirsən?

Vəzir. Şişqaya yanındakı qalaçada bir münəccim yaşayır. Camaat deyir ki, ağıl dəryasıdır. Dünyada bilmədiyi şey yoxdur.

Şah. Deməli, o da biliklilərin ən biliklisidir?

Vəzir. Təqsirkaram, şahım. Mən elə demək istəmədim. O, adi bir münəccim kimi biliklidir. Dünyada birinci şah olan Duman şahın

heç kəsinti dırnağı da ola bilməz. Kimdir o? Bir fağır falabaxan. Duman şah kimdir? Yerlərin, göylərin sahibi. Uzaqgörən, müdrik, dahi. Sənin saqqalından düşmüş bir tük onun beynindən qiymətlidir.

Ş a h. Vəzir, gopçu olsan da, sözlərin xoşuma gəlir. Amma çox tərifləyib şitini çıxaranda utanıram. Sonra da təvazökarlığı bir yana atıb fikirləşirəm ki, görəsən, mən olmasam, bu yazıq camaat neylər?

V ə z i r. Necə yəni sən olmasan? Heç ola bilərmi ki, belə bir zəka dünyadan köçsün? Dərhal Günəş tutular, Ay yoxa çıxar, ulduzlar yerə tökülər. Allah bizi o fəlakətdən saxlasın.

Ş a h. Yaxşı. Bunları çox deyibsən. Onsuz da bilirəm. Bəs biz o dediyin münəccimi çağırıb xəzinə oğrularını tapa bilərikmi? Bundan danış.

V ə z i r. Məncə, tapa bilərik.

Ş a h. Bəs mən on gündür, hər yerə soraq göndərmişəm ki, xəzinənin yerini, yaxud oğruları nişan verən adamı dünya malından qəni edəcəm, baş münəccim vəzifəsinə götürəcəm. O dediyin adam saraya niyə gəlmir?

V ə z i r. Yəqin xəbəri yoxdur. Carçının səsi Şişqayaya çətin çatar.

Q a p ı ç ı (*gəlir*). Münəccim Qaraxan Toxtamış oğlu hüzura gəlmək istəyir.

V ə z i r. O dediyim münəccimdir. Adını çək, qulağını bur.

Ş a h. Nə yaxşı oldu! Qapıçı, de gəlsin hüzura.

Qapıçı gedir. Az sonra Qaraxan gəlir, baş əyir.

Q a r a x a n. Əlahəzrət şahənşaha salam və ehtiram.

Ş a h. Deyirlər, gizli mətləbləri aşkar etməkdə tayın-bərabərin yoxdur.

Q a r a x a n. Elədir, şah.

Ş a h. Afərin, inamlısan.

Q a r a x a n. Şah həzrətləri, eşitdim ki, xəzinə oğurlanmışdır. Bu ölkədə yaşadığıma görə çox narahat oldum və bacardığım köməyi göstərmək borcumdur.

Ş a h. Sən oğruların kim olduğunu deyə bilərsənmi?

Q a r a x a n. Əlahəzrət şahənşah izin versə, elə indicə mən bunu ixtiyarımda olan bir ifritədən soruşa bilərəm. O, dünyada baş verən bütün hadisələrdən xəbərdardır.

Ş a h. Cinləri bura çağıracaqsan?

Q a r a x a n. Qorxmayın, onlar gözə görünmürlər. Biz yalnız bir ifritənin səsini eşidəcəyik.

V ə z i r. Əlahəzrət, bu çox maraqlıdır.

Ş a h. Düzü, mən cinlərin, ifritələrin varlığına inanıram, hətta onlardan bir az qorxuram da. Çox yox, lap azca. Amma mənim bir münəccimim vardı, həmişə deyərdi ki, cinlər nağıllarda olur.

Q a r a x a n. Əlahəzrət elə qanmaza necə münəccim deyir?

V ə z i r. Savadsızlığını hamımız bilirdik. Axırda da xəzinənin güdazına getdi. Oğruları tapa bilmədi, boynu vuruldu.

Ş a h. Ey münəccim, səni də xəbərdar edirəm. Xəzinə tapılmasa, boynun vurulacaq.

Q a r a x a n (*gülür*). Razıyam.

Ş a h. Çağır ifritəni.

V ə z i r. Bəlkə mən gedim?

Ş a h. Yox, belə vaxtlarda vəzir şahın yanında olmalıdır.

Q a r a x a n. Ey ifritələr! Mən Toxtamış oğlu Qaraxan əmr edirəm. Şahınız Mücərrədin qızı Mücərrəbi yanıma göndərin. Axtarın onu. Diqqətlə axtarın. Yeddi dəryanın o yanındakı cəzirədə, qırx pilləli sarayında olmalıdır. Tapdınızmı? Mən hiss edirəm. İfritələr padşahının qızı çağırışımı eşitdi... Gəlib çıxdınmı, ey Mücərrədin qızı Mücərrəb?

İ f r i t ə. Burdayam, mənim ağam. Əmr elə evlər dağıdım, tufan qopardım, gəmilər qərq edim. Əmr elə!

V ə z i r. Vay, mən qorxuram.

Ş a h. Sakit ol, görək xəzinənin yerini biləcəkmi?

Q a r a x a n. Ey ifritə! Sən dünyada nələr baş verdiyini görürsən. De görüm, əlahəzrət şahənşah Duman şahın xəzinəsini kim oğurlayıb?

İ f r i t ə. Ey mənim ağam! Xəzinəni bu ölkədə neçə illər talançılıq edən qırx quldur aparıb.

Q a r a x a n. İndi onlar haradadırlar?

İ f r i t ə. Dünənə qədər bu şəhərdəydilər, aranın sakitləşməsini gözləyirdilər ki, xəzinəni hissə-hissə başqa ölkəyə daşıyıb xırıd eləsinlər. Amma onlar eşidəndə ki, münəccimlər münəccimi Qaraxan Duman şahın yanına gəlmək fikrindədir, hamısı ölkədən qaçdı.

Q a r a x a n. Saraya gələcəyimi dünən səhər bir nəfərə demişdim. Xəbər nə tez yayılırmış!

V ə z i r. Deməli, oğruları tapa bilmədik.

Ş a h. Əşi, oğrular mənim nəyimə lazımdır? Xəzinənin yerini desin.

Qaraxan. Ey Mücərrəd qızı Mücərrəb! Xəzinə hara aparılıb?

İfritə. Xəzinə Keçəldağdakı mağaradadır. Üstündən bir dinar da xərclənməyib.

Şah (*sevinir*). Nə yaxşı oldu!

Qaraxan. Azadsan, ey ifritə! Öz sarayına gedə bilərsən. Atan şahənşah Mücərrədə salam deməyi unutma.

İfritə. Sağ ol, mənim ağam.

Qaraxan. Şah, eşitdiyin kimi xəzinə talan edilməyib.

Şah. Əla! Mən indi tapşıraram, onu əvvəlki yerinə daşıyarlar. De görüm, məndən nə istəyirsən?

Qaraxan. Heç nə.

Şah. Elə şey olar? Mən şah ola-ola səni mükafatsız qoya bilmərəm. Əslində xəzinənin onda biri sənə düşür.

Qaraxan. Ey şah, mənim kifayət qədər var-dövlətim var. Daha heç nə istəmirəm.

Şah. Yoxsa münəccim kimi sarayda qalıb işləmək də istəmirsən?

Qaraxan. Mən onsuz da münəcciməm. Həmişə də qulluğunda hazıram.

Şah. Belə olmaz axı. Ölkəyə ağıllı münəccim lazımdır ki, bir hadisə baş verəndə tədbir töksün.

Qaraxan. Əlahəzrət şahənşahın sözünü yerə salmaq olmaz. Yaxşı, sarayda münəccim işləməyə razıyam.

Şah. Münəccim yox, baş münəccim.

Qaraxan. Olsun. Mənim üçün fərqi yoxdur.

Şah (*sevinclə*). İfritələrə əmr verən münəccimi olan şaha heç kəs bata bilməz.

Vəzir. Elədir, şahım.

## YEDDİNCİ ŞƏKİL

Qaraxan və quldurbaşı.

Quldurbaşı. Ey böyük münəccim! Bu quldurlar sözümə baxmırlar.

Qaraxan. Niyə?

Quldurbaşı. İnciyiblər məndən. Elə bilirlər xəzinənin yerini mən xəbər vermişəm.

Q a r a x a n (*gülür*). Xəzinənin yerini! Axmaqlar! Onlar elə bilirdilər ki, Duman şahın xəzinəsini qara qaş-gözlərinə bağışlamışdım. Yaxşı, onda gedib təzədən oğurlasınlar və elə gizlətsinlər ki, tapmaq mümkün olmasın.

Q u l d u r b a ş ı. Bacarmazlar.

Q a r a x a n. Niyə?

Q u l d u r b a ş ı. Kömək etməsəydin, oğurlaya bilməzdik.

Q a r a x a n. Qulaq as. Xəzinə əmrimlə aparılmışdı, əmrimlə də geri qaytarıldı. Qırx quldur mənim qırx qulumdur, onlara de, özlərini qul kimi aparsınlar. Atam Toxtamışın qəbrinə and olsun, onların başına bir oyun açaram, anadan əmdikləri süd burunlarından gələr. Qulaq asmasalar, əcinnələri göndərərəm, başa düşərlər.

Q u l d u r b a ş ı. Yox, yox, əcinnələr lazım deyil, özüm başa salaram.

Q a r a x a n. Bilin ki, xəzinə bu ölkənin var-dövlətinin çox kiçik bir hissəsidir. Biz hakimiyyəti ələ keçirməliyik. Onda hər şey bizim olacaq. Sabahdan hər yerə xəbər yayarsınız ki, şah dəli olub. Gözünə cinlər, ifritələr görünür. Belə şah ölkəni idarə edə bilməz.

Q u l d u r b a ş ı. Anladım, əlahəzrət, anladım. Əhsən sənə. Mən fəxr edirəm ki, belə bir adamın köməkçisiyəm. Bu dünyadan köçənə qədər sənin qulunam. (*Diz çökür.*)

Q a r a x a n. Yaxşı, qalx ayağa. Ölkəni biz birlikdə idarə edəcəyik.

Q u l d u r b a ş ı. Mən ən kiçik vəzifəyə də razıyam.

Q a r a x a n. İndidən səni vəzir təyin edirəm. Get, tapşırıqlarımı yerinə yetir.

Q u l d u r b a ş ı. Baş üstə.

## SƏKKİZİNCİ ŞƏKİL

Duman şah bağçada gəzir. Qəfildən ifritə onun gözünə qəşəng qız sifətində görünür.

Ş a h. Yenə də o qızdır. Aman, ilahi, necə də gözəldir. Xanım, bircə kəlmə danış, səsini eşidim... Susursan?! Məni lap dəli eləyibsən. Nə yata bilirəm, nə dincələ bilirəm. Boğazımdan su da keçmir. Qoca vaxtımda belə aşiq olacağım heç ağlıma gəlməzdi.

V ə z i r (*gəlir*). Əlahəzrət, kiminlə danışırsan?

Ş a h. Bax, o gözəl xanımla. Getmə, ey pəri, yalvarıram. Razı ol, qırx gün, qırx gecə toy eləyim. Şah arvadı olmaq istəmirsən?

V ə z i r. Əlahəzrət, burda heç kəs yoxdur. Hansı gözəl qızdan danışırsan?

Ş a h. Yenə də çıxıb getdi. Onun dərdindən ölürəm, vəzir. Bir çarə tap.

V ə z i r. Kimsə səninlə gizlənqaç oynayır, ey müdriklərin ən müdriki, ağıllıların ən ağıllısı!

Ş a h. Ağıl qalmayıb məndə, vəzir. Zalım qızı hər gələndə ağlımın bir hissəsini də aparıb gedir.

V ə z i r. Münəccimlə məsləhətləşmək lazımdır. Birdən Allah eləməmiş, gözünə cin-şeytan görünər, ölkə batıb gedər. Necə ki, şəhərdə danışırlar.

Ş a h. Nə danışırlar şəhərdə, vəzir?

V ə z i r. Deyirlər zəkalılardan ən zəkalısı, fəzilətlilərdən ən fəzilətlisi şahənşah Dumanın gözünə cin görünür.

Ş a h. Bunu onlar haradan bilirlər. Mən ki bir kəsə deməmişəm.

V ə z i r. Yerlər qulaqlıdır, əlahəzrət.

Ş a h. Odur, baş münəccim gəlir. Bir daha öz qabiliyyətini göstərsin görək.

Q a r a x a n (*gəlir*). Böyük şaha hörmət və ehtiram. Vəzir, kefiniz yaxşıdırmı?

Ş a h. Bu bağçanın havası, hiss edirsənmi, necə ətirlidir, ey münəccim?

Q a r a x a n. Bəli, ey şah, bu güllərin, çiçəklərin iyi adamı məst edir.

Ş a h. Düz demirsən. Bu ətir gözəl bir qızın gəlişindən sonra bağçaya yayıldı.

Q a r a x a n. Hansı gözəl qız, əlahəzrət?

Ş a h. Bilsəydim, nə vardı ki? Vəziri elçi göndərərdim və elə həmin gün toy başlayardı.

Q a r a x a n. Özünü ələ al, əlahəzrət. Şahın bağçasında heç bir kənar adam ola bilməz.

Ş a h. Mən bu gözlərimlə onu bir həftədir, hər gün görürəm.

Q a r a x a n. Burada? Bu bağçada?

Ş a h. Hər yerdə. Yemək yeyəndə də, divanxanada da, hətta yataq otağında da.

Q a r a x a n. Allah, sən saxla. Yataq otağında naməhrəm qız? Bəs sonra hara gedir o qız?

Ş a h. Mən yaxınlaşan kimi yox olur.

Q a r a x a n. Əlahəzrət, bu əməlli-başlı xəstəlik əlamətidir. Pəri, cin adamın gözünə görünməz. Onların səsini, ən böyük münəccimlərin əmrilə, necə ki, mən əmr edirdim, eşitmək olar. Ruhun bədəni və ölçüsü olmur və ona görə də biz ifritələri, mələkləri görmürük. Məsləhətdir ki, şah bir müddət saraydan çıxmasın, heç kəsi qəbul etməsin. Mən rəml atıb, ixtiyarımda olan ifritələrdən soruşaram, görüm bu işə necə əncam çəkmək olar?! Allah bizi bəladan saxlasın.

V ə z i r. Əlahəzrət, mən sənsiz neyləyəcəm? (*Ağlamsınır.*) Biz hamımız sənsiz neyləyəcəyik? Günəş tutulacaq, aləm zülmətə qərq olacaq.

Ş a h. Vəzir, gic-gic danışma. Mənə nə olub ki, gözlərinin yaşını tökürsən? Bəyəm, ölmüşəm? Mən özümü çox yaxşı hiss edirəm.

Q a r a x a n. Əlbəttə, əlbəttə. Vəzir, şah deyəsən bizimlə zarafat edirmiş! Gözlərinə heç bir qəribə şey görünməyib! (*Gülür.*) Əlahəzrət bizi qorxutmaq istəyirmiş.

V ə z i r. Allah, sənə şükür! Deməli, dünya dağılmayacaq?

Ş a h. Rədd olun burdan! Tək qalmaq istəyirəm. Başqası yanımda olanda o qız gəlmir... Ey pərilərin ən qəşəngi, haradasan? Gəl, bircə kəlmə danış.

Q a r a x a n. Gedək, vəzir! Bir tədbir görmək lazımdır.

Vəzirlə Qaraxan gedirlər. İfritə gözəl qız sifətində görünür.

Ş a h. Xanım, yaxın gəl. Hətta cin olsan da səninlə evlənəcəm. Sən məni doğrudan da dəli eləmisən. Dillən, heç olmazsa, "yox" de.

Qız yox olur, az sonra qarı sifətində gəlir.

İ f r i t ə. Əlahəzrət şaha uzun ömür və cansağlığı arzu edirəm.

Ş a h. Qarı, sən bura necə gəldin?

İ f r i t ə. Mənim üçün maneə yoxdur, ey şah. Mən hər yerə gedə bilərəm.

Ş a h. Sən cinsən, yoxsa ifritə? Səsin tanışdır mənə.

İ f r i t ə. Mən ifritlər padşahı Mücərrədin qızı Mücərrəbəm.

Ş a h. Aha, yadıma düşdü. Sən sarayın baş münəccimi Qaraxanın ifritəsisən. O göndərib səni mənim yanıma ki, dərdimə əlac edəsən. Doğrudur?

İfritə. Yox, mən özüm gəlmişəm. Eşitdim, bu kaftar vaxtında eşqə düşübsən.

Şah. Bəs münəccim deyir ki, ifritə gözə görünməz.

İfritə. Mən hər adamın gözünə görünmürəm. O adamın gözünə görünürəm ki, onu özümə tabe eləyim. Sən mənə tabe olursanmı, Duman şah?

Şah. Axı mən şaham. Şah başqasına tabe olmaz.

İfritə. Onda öləcəksən.

Şah. Mən ölmək istəmirəm.

İfritə. Yaşamaq üçün mənimlə razılaşmalısan.

Şah. Mən bir sakit adamam. Vəzir, vəkil başıma oyun açır. Bir tərəfdən də sən göstəriş vermək fikrindəsən. Yaxşı, şərtin nədir?

İfritə. Ölkənin bütün ixtiyarını qırx quldura verməlisən.

Şah. Nə danışırsan, qarı? Xəzinəni oğurlayanlara? Heç elə şey olar?

İfritə. Onda vəsiyyətini elə.

Şah. Yox, öldürmə məni. O aşiq olduğum cananı ver mənə, çıxıb gedim bir uzaq kəndə, ömrümü sakitcə başa vurum. Bu qoca vaxtımda şahlıq nəyimə lazımdır?

İfritə. Deməli, o qızı sənə versələr, hakimiyyətdən əl çəkərsən?

Şah. Əlbəttə.

İfritə qəhqəhə ilə gülür və gülə-gülə fırlanır.

İfritə. İndicə sən öz sevgilini görəcəksən... Ha-ha-ha... Diqqətlə bax, ha-ha-ha... Tanıdınmı məni?.. (*Qəşəng qıza çevrilir.*)

Şah. Bu sənsən, ey pərilərin ən qəşəngi?

İfritə. Korsan? Görmürsən mənəm?

Şah. Qarı, necə oldu ki, belə cavanlaşdın?

İfritə. Mən hər şeyi bacarıram. Əsil sifətimi göstərəcəm indi sənə. Ha-ha-ha... (*Gülə-gülə fırlanıb ifritə sifəti alır.*)

Şah. Aman, nə iyrənc bir məxluq!

İfritə. Canın mənim əlimdədir. İndicə cəhənnəmə vasil olacaqsan. Bu qapqara kösöv əllərimlə boğacam səni. (*Şahın üstünə yeriyir.*)

Şah. Yox... yox... yox... Va-ay!!! (*Yıxılır.*)

İfritə. Əlimi vurmamış gəbərdi. Ha-ha-ha... Ha-ha-ha... Qırx qan eləmişəm, qırx birincisini də edəcəm... Ha-ha-ha...

## DOQQUZUNCU ŞƏKİL

Şah sarayı. Qaraxan, vəzir və əyanlar.

Q a r a x a n. Ağalar, çox böyük bir itki üz verib. Əlahəzrət şahənşah Duman ömrünü bizə bağışlayıb köçdü bu dünyadan. Vəziyyət həddindən artıq gərgindir. Aldığım xəbərə görə bəzi yerlərdə iğtişaşlar törədilib, əleyhimizə olan qüvvələr baş qaldırıb. İndi mən hakimiyyəti ələ alarkən sizin köməyinizə arxalanıram. Məni müdafiə edirsinizmi?

V ə z i r. Yaşasın Qaraxan şah!

Ə y a n l a r. Yaşasın!

Q a r a x a n. Vəzir, sən dünən belə danışmırdın. Hakimiyyətin varisi özünü hesab edirdin. Nə tez fikrini dəyişdin? Bəlkə səni şah elan eləyək?

V ə z i r. Yox, əlahəzrət, məndən şah olmaz. Həm də cindən, əcinnədən yaman qorxuram. Vəzirliyimdə qalsam, daha yaxşıdır.

Q a r a x a n. Bəla burasındadır ki, səndən vəzir də olmaz. Mən səni təlxək təyin edirəm. Çünki adama o qədər yaltaqlanırsan ki, adam dediklərini zarafat hesab edir.

V ə z i r. Razıyam, hökmdar, təlxək də olaram.

Q a r a x a n. Onda bir atıl-düş görüm.

V ə z i r. Eşq olsun ən varlı tacirlərin başçısı Toxtamışın oğlu şahənşah Qaraxana! Onsuz günəş tutular, ay görünməz, ulduzlar yerə tökülər. O bütün pərilərə, mələklərə, ifritələrə, cinlərə, ərdövlərə hökm edə bilir. Yaşa, min yaşa, zati-aliləri! (*Atılıb-düşür.*) Eşq olsun sənə!

Ə y a n l a r. Eşq olsun!

## ONUNCU ŞƏKİL

Şah sarayı. Qaraxan taxtda oturub. İfritə peyda olur.

İ f r i t ə. Təbrik edirəm, Qaraxan şah. Özünü necə hiss edirsən?

Q a r a x a n. Yaxşıyam. Amma heç bilmirəm, nədən başlayım.

İ f r i t ə. Çoxlu dar ağacları qursunlar. Edam kötükləri hazırlasınlar. Asılanları tez dəfn eləməyə qoyma. Yuxarıdan asılmış ölü, Adəm övladına çox yaxşı təsir edir.

Q a r a x a n. Vəzifələrdə kimlər olmalıdır?
İ f r i t ə. Qırx quldurdan başqa heç kim.
Q a r a x a n. Onda... Narazılıq artar. Keçmişdə vəzifədə olanlar üsyan edər.
İ f r i t ə. Vəzifədən çıxarılan adam sağ qalmamalıdır. Ölülərin üsyanı ancaq cəhənnəmdə qorxulu ola bilər.
Q a r a x a n. Yaxşı...
İ f r i t ə. Bir də yadında saxla. Xalq doyunca çörək yeməməlidir. Tox adamın fikrindən çox şeylər keçə bilər. Ac isə yalnız çörək barədə düşünür.
Q a r a x a n. Bunun ən yaxşı yolu hansıdır?
İ f r i t ə. Əhaliyə ağır vergi qoyulmalıdır. Vergi verə bilməyəni, yaxud vermək istəməyəni mütləq cəzalandırmalısan.
Q a r a x a n. Təkliflərin yerinə yetiriləcək.
İ f r i t ə. Daha sənə lazım deyiləm... Şişqayanın yanındakı qalaça yenə də uçub dağılıb. Lazım olsam, orada taparsan məni.
Q a r a x a n. Çox sağ ol, ifritə. Çox kömək elədin mənə.
İ f r i t ə. Hələlik...

## ON BİRİNCİ ŞƏKİL

Saray. Qaraxan şah taxtda oturub. Quldurbaşı vəzir libasında onun qarşısında dayanıb.

Q a r a x a n. Quldurbaşı, əmrimi yerinə yetirdinmi?
Q u l d u r b a ş ı. Bəli, əlahəzrət. Amma mən quldurbaşı deyiləm, vəzirəm.
Q a r a x a n (*gülür*). Mən yanılmamışam, vəzir! Sən əsil quldurbaşısan. Ölkəni talan eləyən qırx quldurun başçısı.
Q u l d u r b a ş ı. Əmrinə müntəzirəm, əlahəzrət.
Q a r a x a n. De görüm, vergiləri yığanda camaat neyləyirdi?
Q u l d u r b a ş ı. Ağlaşırdı, hökmdar.
Q a r a x a n. Vergiləri bir az da artırın. Deməli, hələ yığdıqlarından qalıb.
Q u l d u r b a ş ı. Artırarıq.
Q a r a x a n. Narazılıq eləyənlər barədə hansı cəzalar verilir?
Q u l d u r b a ş ı. Şahın fərmanındakı kimi qırx zopa vurulur. Bir sümük, bir dəri olanlar üçün bu qədər vurmağa ehtiyac olmur.
Q a r a x a n. Niyə?

Q u l d u r b a ş ı. Tez ölürlər.

Q a r a x a n. Zindanlarda dustaqlara verilən yeməyi azaltsınlar. Ölsünlər, canları qurtarsın.

Q u l d u r b a ş ı. Baş üstə.

Q a r a x a n. Yaxşı, get.

Quldurbaşı gedir, bir azdan keçmiş vəzir təlxək libasında gəlir.

V ə z i r. Dünyanın birinci, yox-yox, sıfırıncı hökmdarına atəşin salamlar!

Q a r a x a n. Niyə sıfırıncı?

V ə z i r. Çünki sıfır birdən də əvvəl gəlir. Həm də şah olmamış çöp kimi arıq idin, birə oxşayırdın, indi yumurlanıb sıfıra oxşayırsan.

Q a r a x a n. Yox, sən elə mənə birinci de.

V ə z i r. Birinci yaxşı çıxmır. Axırdan da birinci var. Bəlkə əvvəlinci deyim?

Q a r a x a n. Zəhləmi tökmə. De görüm, vergiləri vaxtında verirsənmi?

V ə z i r. Fərmana görə mən vergidən azadam, şahım. Vəzifəli şəxslər vergi vermir.

Q a r a x a n. Vəzifəli? (*Gülür.*) Təlxəklik nə vaxtdan vəzifə olub? Ölkədə qırx nəfər vəzifəli şəxs var. El arasında onlara qırx quldur deyirlər. Bəlkə sən qırx birincisən, ey təlxəklərin sonuncusu?

V ə z i r. Öldürtmə məni, yazığam. Bir sürü külfətim var.

Q a r a x a n. Fərmana görə vergi verməyənə qırx zopa vurulur. Cəllad! (*Cəllad gəlir.*) Bax, cəllad vəzifəli şəxsdir.

V ə z i r. Vay! Mən qırx zopaya dözə bilmərəm. Bu cəllad çox güclüdür. Rəhm elə, ey güclülərin ən güclüsü, ey cəlladların ən cəlladı! Qırx quldurun sıfırıncısı!

Q a r a x a n. Apar! Nə qədər səni tərifləsə, bir o qədər bərk vurarsan. Yazıqdır, elə vur ki, tez rahatlansın.

C ə l l a d. Oldu! (*Vəziri itələyə-itələyə aparır.*)

## ON İKİNCİ ŞƏKİL

Sarayda Qaraxan və quldurbaşı.

Q a r a x a n. Ey vəzir! Vergiləri yığa bildinmi?

Q u l d u r b a ş ı. Xeyr, əlahəzrət.

Q a r a x a n. Niyə? Vermək istəmirlər?

Q u l d u r b a ş ı. Heç nələri yoxdur. Hamısı dilənçidir.

Q a r a x a n. Yenə ağlaşırlar?

Q u l d u r b a ş ı. Yox. Daha ağlamalı bir şey qalmayıb.

Q a r a x a n. Deyəsən onlara yazığın gəlir.

Q u l d u r b a ş ı. Mən başımın tükü sayda adam öldürmüşəm. Heç vaxt heç kəsə yazığım gəlməyib. Mən bu ac camaatdan... qorxuram.

Q a r a x a n. Ac ancaq yemək barədə düşünür. Neyləyə bilər?

Q u l d u r b a ş ı. İndi daha düşünmür. Qarşısına çıxanı məhv eləyir.

Q a r a x a n. Səfeh! Sən ifritlər padşahının qızından çox bilirsən?

Q u l d u r b a ş ı. Mən heç nə bilmirəm. Mən görürəm.

Q a r a x a n. Sən korsan! Rədd ol!..

## ON ÜÇÜNCÜ ŞƏKİL

Xarabalıqda qalaça. Qaraxan dilənçi paltarında gəlir.

Q a r a x a n. Bir vaxtlar burada səfalı bir bağ vardı. Bülbüllər oxuyurdu. İndi bayquş ulayır. (*Qalaçaya girir.*) Qalaçada xalılar döşənmişdi, indi əqrəblər, hörümçəklər gəzişir. Ey ifritə! Buradasanmı?

İfritə görünür.

İ f r i t ə. Xoş gəlibsən, səfa gətiribsən. Sizlərdə əzizlərini bu cür qarşılayırlar, eləmi? Son nəfəsində gül camalımı görmək istəyirsən? (*Qəhqəhə ilə gülür.*)

Q a r a x a n. Səndən kömək istəməyə gəlmişəm.

İ f r i t ə. Sonun çatıb deyə gəlmisən. Mən əzabsız ölməyinə kömək elərəm. Vaxtında gəlibsən. Gözləyirdim səni, Qaraxan şah!

Q a r a x a n. Mən şah deyiləm, dilənçiyəm.

İ f r i t ə. Sən həm də şahsan. Dilənçilərin şahı yalnız dilənçi ola bilər. Var-dövlət yığa bildinmi, dilənçi şah?

Q a r a x a n. Yığmışdım, hamısını dağıtdılar, talan elədilər, yandırdılar.

İ f r i t ə. Talanla yığılan talan olunmalıdır, tacir Toxtamışın oğlu! Bu adi həqiqəti sən bilmirdinmi?

Q a r a x a n. Deməli, məni aldadıbsan, ifritə! O murdar, iyrənc boğazını bu əllərimlə boğa bilsəydim...

İ f r i t ə. Hər kəs öz işini görür, dilənçi şah! Mənim işim də budur. Ölkəni xarabalığa çevirdim. Ölən öldü, qaçan qaçdı. Sən də öz son mənzilinə gəlib çıxmısan.

Q a r a x a n. Bu dəfə sənin sözünə baxmayacağam. Ölməyib, yaşayacağam. Sənə və qırx quldura lənət oxuya-oxuya yaşayacağam.

İ f r i t ə. O vaxtlar sən özünü Şişqayadan atmaq istəyirdin. Arzun ürəyində qalmasın... Ey əcinnələr, onu qayadan atın!

Q a r a x a n (*özünü qoruyur*). Yox, yaxın gəlməyin... Vay! Hara qaldırdınız? Aparmayın... İstəmirəm... Aparmayın... Əl çəkin!.. Va-a-y... (*Əcinnələr onu qayadan atırlar.*)

İ f r i t ə (*qəhqəhə ilə gülür*). Ha-ha-ha... Qırx qan eləmişdim, qırx birincisini də elədim... Ha-ha-ha... Qırx bir qan eləmişəm, qırx ikincisini də edəcəm... Ha-ha-ha... (*Fırlanıb yox olur.*)

*iyun, 1996*

# MUSTAFA İSKƏNDƏRZADƏ

(1940)

*İskəndərzadə Mustafa Namaz oğlu – şair, tərcüməçi, dramaturq, ədəbiyyatşünas-alim. Ermənistanın Axta rayonunun Təkəlik kəndində anadan olmuş, 1946-cı ildə Azərbaycana Ağstafa rayonunun Vurğun qəsəbəsinə (keçmiş Kalininqrad) köçmüş, orada orta məktəbi (1958), M.F.Axundov adına APİ-nin dil və ədəbiyyat fakültəsini (1966), Moskvada Sov.İKP MK yanında Ali Partiya Məktəbinin mətbuat şöbəsini (1971) bitirmişdir. "Rus-Azərbaycan ədəbi əlaqələri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1985). Azərnəşrdə redaktor (1966-1969), bədii ədəbiyyat redaksiyasının müdiri (1971-1981), "Yazıçı" nəşriyyatında poeziya redaksiyasının müdiri (1978-1990), baş redaktorun müavini (nəsr üzrə), Azərbaycan EA Milli Münasibətlər İnstitutunda elmi işçi (1992-1993) işləmişdir. 1993-cü ildən Baş Sosial İdarəetmə və Politologiya İnstitutunun dosentidir.*

*"Baxışlar" (1966), "Mənim evrikam" (1971), "Bu ocağın odu sönməz" (1983), "Gözü yolda qalan var" (1988) adlı bədii kitabların və bir neçə pyeslərin müəllifidir. "Səni kim unudar" (1973) mənzum pyesi Naxçıvan (1974) və İrəvan Dövlət dram teatrlarında (1976) tamaşaya hazırlanmışdır.*

*Azərbaycan Yazıçılar Birliyinin üzvü (1974), Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanına layiq görülmüşdür.*

## SƏNİ KİM UNUDAR...

(*mənzum dram*)

İŞTİRAK EDİRLƏR

| | |
|---|---|
| Müşfiq | – şair |
| Dilbər | – Müşfiqin sevgilisi |
| Qurban, Sübhan, Vasili | – neftçi fəhlələr |
| Qəni | – şair, nihilist |
| Molla Mirağa | – maskalanmış dindar |
| Səfər | – əksinqilabçı, maskalanmış vəzifəli şəxs, nihilist |

## BİRİNCİ ŞƏKİL

(*pərdə açılarkən*)

Müşfiqin səsi

“Mən bir yüksəlişin sevdasındayam,
Siniflər döyüşü dünyasındayam.
İnsanı, zəhməti qiymətləndirən
Yaxşı adamların sırasındayam.”

Axşamdır. Sahil işıqları yanmışdır. Solda dəniz, bulvar, sağda Qız qalası və tikilməkdə olan əzəmətli bir bina görünür. Qəni səhnəyə daxil olub, üzünü qalanın sağ tərəfindəki evin eyvanına tutur və avazla oxuyur.

Qəni

Əzizim, sevgilim,
Ey mənim tər gülüm!
Ah, nola görəsən
Od tutub yanıram
Mən burda
Eşqindən.
Ah, nola sən bu an
Eyvana çıxasan.
Nazla gülümsünüb,
İşvəylə baxasan...

Molla Mirağa
(*Gəlir.*)

Görürəm, yamanca kəmhövsələsən,
Məsəl var: Təndirə düşər tələsən.

(*Görüşürlər.*)

Qəni

Nədənsə, Dilbərdən su içmir gözüm.

Molla Mirağa

Hər işi sahmana salaram özüm.

Qəni

Onu şair Müşfiq sevir deyirlər.

Molla Mirağa

Kim ona qız verər?
Sən tacir oğlusan, nəcabətin var.
Bizlərə bab deyil zatı, qırıqlar?!

Ayaq səsi gəlir. Hər ikisi diqqətlə baxır və səhnə arxasına çəkilirlər. Müşfiq əlində qələm-dəftər səhnəyə daxil olur və yazdığı şerin son iki misrasını öz-özünə təkrar edir.

Müşfiq

"Usta bir ev tikirdi, gözəl işdi gördüyü,
Sanki bir cift qaranquş yuvasıydı hördüyü."

Qələm-dəftəri cibinə qoyur və həmin evin ikinci mərtəbəsindəki pəncərəyə məftunluqla baxır.

Sən necə xoşbəxtsən, ey nurlu otaq!
Bəlkə də Dilbərim olub çilçıraq.
Yandırıb odlara munis qəlbini,
Məhəbbət nurunu qərq edib səni.

(*Dilbər içəridən pəncərəni açır.*)

Odur, o!
Bəxtimin gülgün səhəri.
Açır axşam-axşam pəncərələri.
Otağa sahilin havası dolsun.
Sən ey axşam mehi, üzün ağ olsun!

Yarın otağına yayıl o ki var!
Ora ruhumu da özünlə apar...
O sinə dolusu udduqca səndən
Süzülüm sevdalı ürəyinə mən.

Q u r b a n
(*Gəlir.*)

Burda neyləyirsən bu gecə vaxtı?

M ü ş f i q
(*Göstərir.*)

Mənim bəxt ulduzum hələ oyaqdı.
Sən bir o ay qonan pəncərəyə bax!
Mənim bəxt ulduzum ordan doğacaq!
Şəfəq süzüləcək nərgiz gözündən
Ondan sevgi nuru içəcəyəm mən!

Həyəcanlı musiqi sədaları altında səhnə qaranlıqlaşır və işıq Dilbərin üstünə düşür.

D i l b ə r

Ürəyim deyir ki, o gəlib yenə,
Əfsunlu sahilin dalıb seyrinə.
Gah onu unutmaq istəyirəm mən,
Gah da istəmirəm getsin gözümdən.
Bəlkə də sevgidi, məhəbbətdi bu?
Hər nəsə, bilirəm səadəti bu!

Səhnə işıqlanır, əvvəlki vəziyyət.

Q u r b a n

Görürəm, o qızın eşqi, xəyalı
Ayrı bir aləmə aparır səni.

Müşfiq

Bir yol görmək üçün o gül camalı
Yenə qanad açıb xəyal köhləni.
Yerlərdə, göylərdə çapacaqdır o,
Könül həmdəmini tapacaqdır o!

(*Dilbər içəridən pəncərəni örtür.*)

...Sən necə, ah, necə cürət eylədin,
Çıraqban könlümü zülmət eylədin.
Ümidlə baxarkən o pəncərəyə,
O ümid qapımı bağladın niyə?!

Qurban

O hardan bilsin ki, indi, burda sən
Yanıb öz-özünə şama dönürsən?!
Acizlik – arzunun önündə hasar,
Cəsarət zirvəyə kəsə yol açar.
Ona söz deməyə gəlmirsə dilin,
Ah-ufla de, nəyə yetişər əlin?

(*Sükut. Müşfiq son dərəcə dalğındır.*)

Müşfiq

Hər aşiqin bir canana meyli var,
Hər Məcnunu dağa salan Leyli var...
Sinəsində məhəbbətin dağları
Şirin dedi, Fərhad çapdı dağları.
Odur mənim xəyalımın qanadı.
Odur mənə sevdirən bu həyatı.

Qurban

Bəli, dostum, sevənlərçin bu dünya
Ən şirin şərbətdir, ən dadlı röya.

Görürəm coşmusan çaylar kimi sən,
Nolar, bir şeir de "Dilbərnamə"dən.

(*Müşfiq daha çılğın bir vəziyyət alır.*)

M ü ş f i q

Yaşamaq nə qədər şirin olsa da,
Yolunda canımdan keçməyim gəlir.
Gözlərin göllərdən dərin olsa da,
Sanıram çeşmədir, – içməyim gəlir.

Üzün ayparamı bulud saç altda?!
Qəlbinə səcdəyə ürəyim gəlir.
Kirpiyin yelpikmi qanad qaş altda?!
Dodağın laləmi? – dərməyim gəlir.

Sən necə şirinsən, necə nemətsən?!
Sənə qibtə edir, bağça da, bağ da.
Bəlkə sən dünyəvi bir məhəbbətsən,
Səninlə olmaqdır sənsiz olmaq da!

(*Dilbərin kölgəsi pəncərədən çəkilir.*)

M ü ş f i q

Getmə gözlərimdən, gözüm odlanar;
Ağzımda od tutub sözüm odlanar!
Sən xəbər tutunca,
Haya gəlincə
Könlümdə son inam, dözüm odlanar...

Q ə n i
(*Gəlir.*)

Burda öz-özünə yapışırsan nahaq,
O gözəl sənin yox, mənim olacaq.

M ü ş f i q
(*nifrətlə*)

Səninlə danışmaq istəmirəm mən?!

Q ə n i

Elə isə çıxar onu qəlbindən.

M ü ş f i q

O mənim könlümün nur məşəlidir!

Q ə n i

Bunun sözünə bax...
Çox gülməlidir.
Sən onu sevirsən, o başqasını.
İndi qarşılıqlı məhəbbət hanı?!
Məndə onun şəkli, məktubu da var.
Yayda, sağlıq olsun, toyumuz olar!

M ü ş f i q

Sus, belə sözlərə mən inanmaram!

Q ə n i

Mənim də yalanla heç yoxdur aram.

(*Dilbərin əksini göstərir.*)

Buna sözün nədir?

Q u r b a n

Kimdən almısansa, qaytar, geri ver!

Q ə n i

Bu mənə Dilbərdən bir xatirədir.
Məndə də qalacaq nə qədər sağam.
Onu gözüm üstə saxlayacağam.

Q u r b a n

Gözlə, gözlərinə birdən od salar,
Ürəyin alışar, sinən boş qalar!

(*Müşfiqlə Qurban gedirlər.*)

Q ə n i

Sənə dərd qalacaq bu boş sevgidən?
Onunsa vəslinə yetəcəyəm mən!

Gedir. Bu vaxt Dilbər əlində kitab küçəyə çıxır. Müşfiq qayıdır.

M ü ş f i q

Sizi görüb ayaq saxladım ki, mən...

D i l b ə r

Bir şeir eşitsən şeir sevəndən?..

M ü ş f i q
(*Özünü itirən kimi olur.*)

Deməli, sevirsən şeri sən də?!

D i l b ə r
(*mənalı*)

Qönçələr açılar bülbül ötəndə!
Quştək qanad açar hər gül, hər çiçək.

M ü ş f i q

Bu sözü necə də xoşdur eşitmək!
Aləm bağışladın sən mənə, Dilbər!

Dilbər

Hara gedirəmsə səndən deyirlər,
Hər sözün, hər şerin ruh verir mənə.
Hərdən qoşuluram “Küləklər”inə.

Müşfiq

Layiq olmasam da mən bu hörmətə.
Şübhəm yox sizdəki səmimiyyətə.
Bu gündən olmasın gərək dincliyim!
Gəl ey sevgili yaz – dəli gəncliyim,
Yarış meydanıdır bu yer, bu aləm.
Bu geniş dünyada hayana getsəm
“Qarşıma qələmim, dəftərim gəlsin!
Dadıma sanballı sözlərim gəlsin!”
Bu yeni, bu gözəl dövran eşqinə,
Min hünər sahibi insan eşqinə
“Şair yeni-yeni sözlər bulacaq,
Kainat olduqca şeir olacaq!”

Dilbər

Qoy səsi gur olsun şeir çeşmənin,
İlhamın çağlasın hər yerdə sənin.
Bilsən necə sevir səni cavanlar!
Bir gəlsən məktəbə qiyamət olar.

Müşfiq

Təşəkkür edirəm bu dəvət üçün...
Ən xoşbəxt günüdür bu gün ömrümün.
(*Mənalı bir görkəm alıb şeir deyir.*)
Kaş ki, bu sevdada şimşək olaydım.
Harda parlasaydım, görəydin məni.
Kaş ki, bir ətirli çiçək olaydım,
Sevgi gülşənindən dərəydin məni.
Hər axşam sahilə gedəydik qoşa,

Dönəydim yanında qanadlı quşa.
Mehtək toxunaydım şəlalə saça
İpək tellərinə hörəydin məni.

Ruhum səhər mehi, hüsnün təbiət,
Nə qədər oxşasam doymaram fəqət!
Daşa dəyməyəydi bu ilk məhəbbət,
Vüsalın qoynuna verəydin məni!

D i l b ə r

Kim nə deyər belə arzu-diləyə, –
O, ömrün yaz günü dönüb laləyə
Ümid çırağıtək yanır haçandır.
Onunla qəlb evi bir gülüstandır!

(*Bir-birini mənalı-mənalı süzürlər.*)

M ü ş f i q

Səni gözləyəcəm, Dilbər, bu axşam...

D i l b ə r

Əgər imtahandan uğurla çıxsam...

M ü ş f i q

Eh, sənin qarşında nədir imtahan
Qalibiyyət yağır baxışlarından.
Dövrün sınağından bu dövran kimi
Qalib çıxacaqsan hər vaxt, hər zaman!

Əl-ələ verib gedirlər. Qəni daxil olur.

Q ə n i

Tükəndi, qalmadı məndə səbr də,
Həyatda, sevgidə, işdə, seirdə

Ah, Müşfiq, önümə çəkilən sədsən!

(*öz-özünə*)

Qurtarmaq gərəkdir qəlbi bu dərddən!

Molla Mirağa gəlir.

M o l l a  M i r a ğ a
(*Müşfiqin arxasınca*)

Gördüm gözlərimlə axır ki onu.

(*Qəniyə*)

İndi rəqibini yaxşıca tanı!
Bu işə vaxtında çəkməsən əncam,
Əlin üzüləcək hər şeydən tamam...

Q ə n i

Çətin deyil onun başını əkmək.
Ancaq bilirəm ki, xəbər tutantək
Hirslənib minəcək qız cin atına.
Onda kim yetəcək mənim dadıma?

M o l l a  M i r a ğ a

Sən ondan qorxma heç, böyüyüyəm mən,
Bircə kəlmə desəm çıxmaz sözümdən.

Q ə n i

Sənin hər sözünə əməl edərəm,
Təki mənim olsun o nazlı sənəm!

M o l l a  M i r a ğ a

Sənə bəri başdan söz verirəm mən.

Q ə n i

Mənim kimliyimə sən ki bələdsən!

M o l l a  M i r a ğ a

Di get, işində ol!

Qəni gedir.

Nə yaxşı oldu!
Deməli, dinsizə tələ quruldu.

(*Müşfiqin qarasınca*)

Sözə baxmayırdı atan Qədir də,
İndisə rahatca yatır qəbirdə.
Gündə bir teatr, məktəb açardı,
Uşaqlar məsciddən ora qaçardı.
Bilməzdin artistdir, bilməzdin şair
Görərdin hərcayi şeirlər deyir,
Axır ki yerində oturtduq onu.

(*qəzəblə*)

Gedəndə yerində qoydu oğlunu...
Bir dayanın, sənə də gün ağlarıq biz!
Gərək yaşamasın bu eldə dinsiz!

Özündən razı halda gedir. Müşfiqlə Dilbər söhbət edə-edə qayıdırlar.

M ü ş f i q

İmtahanda çoxmu sıxdılar səni?

D i l b ə r

Əzbərdən deyəndə "Qafqaz" şerini
Müəllim fərəhlə ayağa qalxdı,
–Əhsən, qızım! – deyib əlimi sıxdı...

M ü ş f i q

Daha sən özün də müəlliməsən,
Mənə vermədəsən sevgi dərsi sən.
Bu gündən olacaq hər axşam-səhər,
Dilimdə, gözümdə, könlümdə Dilbər...

(*Hər ikisi gülümsəyir və skamyada otururlar.*)

D i l b ə r

Ləpələrə bir nəzər sal,
Elə bil ki, bu sularda
Gizlənibdi hicran, vüsal...

M ü ş f i q

Ləpələrtək mən də bu dəm
Bir sehrli sahildəyəm.
Bu sahildə könlüm, ancaq
Qərar tutub durmayacaq!
Duyğularım şölələnib
Ulduzlara dönəcəkdir!

D i l b ə r

Bircə şeyi unutma ki,
Tez yanan tez sönəcəkdir.

M ü ş f i q
(*Dərin xəyala dalır.*)

Böyük həqiqət var sözündə, Dilbər,
Onun qarşısında acizdir bəşər.
Həyatın dəyişməz qanunları var:
Tez açan gülləri şaxta tez vurar
Təzə yaz gələndə,
Aləm güləndə.

D i l b ə r

Bir bundan qorxuram, bir bundan mən də...

M ü ş f i q

Həyatda nə varsa, ötdükcə günlər
Anların hökmüylə dəyişər, dönər.

Bu, qanun olsa da, sevmirəm bunu,
İstərəm eşqimin sonsuzluğunu!

D i l b ə r

Bizə arxa olsa sədaqətimiz,
Əbədi yaşayar məhəbbətimiz.

*(ətrafı seyr edərək)*

Bu açan çiçəklər ah, nə gözəldir.
Elə bil hər biri incə qəzəldir.

M ü ş f i q
(*fərəhlə*)

Könlünə gül düşüb sənin deyəsən,
İndi əllərini öpər yasəmən.

(*Gedir.*)

S ü b h a n
(*Gəlir.*)

Yavaş, gül oğrusu, bağı az tala!
Qoymazsan ağacda bircə gül qala?

D i l b ə r

Sən gülü bacına qıymırsan, demək?

S ü b h a n
(*Tutulan kimi olur.*)

Heç elə şey olar,
Bu gül, bu çiçək
Səpilsin hər zaman qədəmlərinə!
Könlün nə istəyir qurbandır sənə!

M ü ş f i q

(*Əlində yasəmən qayıdır.*)

Buyur!

D i l b ə r

Çox sağ ol, təşəkkür!
(*Müşfiqin cızılıb qanamış biləyini görür.*)
Əlinə nə oldu?

M ü ş f i q

Əşi, boş şeydir.

(*Dilbər yaylıqla onun biləyinin qanını silmək istəyir, Sübhan qoymur.*)

S ü b h a n

Yaz vaxtı insanın qanı qaynayar,
Hamı vəcdə gələr, çalar-oynayar.
Qanqana qarışsa bugünkü gündə
Bir daha ayrılmaz dostlar ömründə!

(*Bıçaqla öz biləyini cızıb qanadır və Müşfiqin biləyini biləyinin üstünə qoyub sıxır.*)

D i l b ə r

(*həyəcanlı*)

Ağlına nə gəldi yenə, ay Sübhan?

S ü b h a n

Bunu necə deyim sənə, Dilbərcan.
Qatıb qanımızı, qardaş oluruq.
Bir əməl yolçusu, sirdaş oluruq!

M ü ş f i q

Daim qardaş olub bizim babalar,
Bölüb dərd-sərini ellər, obalar.
Ancaq hərdən girib araya şeytan
O subulandıran, o aravuran
Qardaş arasına fitnə-fel salıb.

D i l b ə r

Pislərin pisliyi özünə qalıb.

S ü b h a n

Daha bağışlayın, möhtərəm dostlar,
Mənim də yolumu gözləyənim var,
Buyurun, mənimlə gedək mədənə.

M ü ş f i q

Sən get, biz arxadan çatarıq sənə.

Sübhan gedir. Dilbər skamyaya əyləşib,
hörüklərinin birini naz ilə burur.

M ü ş f i q

Görəndə göz qoymaz
Ürəkdə söz qoymaz.
Nə edər anlamaz,
Halıma bir yanmaz
Minatək parlayıb
Alışan hörüklər.
Leyli xəyalı tək
Pərişan hörüklər.

Hər biri köksündə
Bir tər qövsi-qüzeh
Camal aydımı?
Sinən üstə axan

Qoşa nur çaydımı?
Zirvədən atdanıb
Çağlayan hörüklər,
Ruhumu özünə
Bağlayan hörüklər.

D i l b ə r
(*işvəli*)

Olmaya, küsdürüb səni bu saçlar?

M ü ş f i q

Ürəyim hər şeyi ona bağışlar.

D i l b ə r

Səndə söz varmış ki,
Demirsən niyə?

M ü ş f i q

Ruhuma dad verən bu gözəlliyə
Əllərim hələlik olsa da həsrət,
Xəyalımda onu oxşaram xəlvət.

D i l b ə r

Belə tələsməyə heç səbəb varmı?

M ü ş f i q

Məndə bu hiss-duyğu səbr qoyarmı?!

(*Hər ikisi düşüncəli və məsum. Müşfiq oynaşan ləpələri və Dilbəri məftunluqla süzür.*)

Üz-üzəyik,
Göz-gözəyik

Ləpələr dil açan yerdə,
Duyğular gül açan yerdə
Sular sənə baxar-baxar...
Gözlərindən şəfqət yağar.
Həzin-həzin meh əsərək
Deyər söyüd salxımıtək
Tez ol, dola qol boynuna,
Durma, sığın yar qoynuna!
Əllərində əlin olsun,
Dil-dil ötən dilin olsun...

(*Dilbər tutulur. Həyəcan içində qalxıb getmək istərkən ayağı skamyaya ilişir.*)

Uf, elə ütülək yeridin niyə?
Olmaya, bir xəta eylədi dilim?
Zərif qədəmini asta bas yerə,
Daşlar ayağını incidər, gülüm!

(*Dilbər skamyaya əyləşir və Müşfiqin dalğın baxışlarını görür.*)

Dilbər

Niyə şux çinarım qəddini əydi,
Yoxsa tərpənişim xətrinə dəydi?

Müşfiq

"Mən şirin ləhcəli bir bülbüləm ki,
Güllərdən küsərəm, səndən küsmərəm!
Məni öz canından artıq istəyən
Ellərdən küsərəm, səndən küsmərəm!"

Dilbər
(*mehribanlıqla*)

Unutmuşdum deyim sənə,
Üzümüzə gələn həftə
Olacağıq siz tərəfdə.

M ü ş f i q

Nədən ötrü?

D i l b ə r

Kəndlilərin arasında
Mədəni iş aparmağa.

(*Müşfiq tutulur.*)

İstəmirsən, yoxsa gedim,
Gözlərindən mən uzağa?

M ü ş f i q
(*həyəcanlı*)

Yenə hicran dağı gəlib
Düşəcəkdir aramıza.
Yenə həsrət alov olub
Od basacaq yaramıza?!

(*Həsrətin acısını sanki indi hiss edirlər.*)

D i l b ə r

Niyə baxışında bulud oldu qəm?
Niyə gözlərinə axıb doldu qəm?
Səndən ayrılsam da, əzizim, bu dəm
Sənin ürəyinə köçmək istərəm.

(*Başını Müşfiqin çiyninə söykəyir.
Müşfiq onun hörüklərini sığallayır.*)

M ü ş f i q

Belə yaxın olduq, bilməm, haçan biz,
O qədər doğmasan, o qədər əziz,
O qədər dadlısan, o qədər ləziz,
Səni şərbət kimi içmək istərəm.

(*Hər ikisi düşüncəyə dalır.*)

D i l b ə r

Dözə bilməyəcək sənsiz ürəyim...

M o l l a  M i r a ğ a
(*Gəlir.*)

Sənə haram olsun, suyum, çörəyim.
Niyə batırırsan adımızı sən?

D i l b ə r
(*şaşqın*)

Dayı, bu nə sözdür, gör nə deyirsən?!

M ü ş f i q

Bağışlayın, əgər varsa səhvimiz,
Xətalı bir iş ki, görməmişik biz.
Siz halal sevgiyə tutmayın irad,
İndi sevgi azad, məhəbbət azad!

M o l l a  M i r a ğ a

Azadlıq demir ki, olmasın ismət,
Tapdalanıb getsin ənənə, adət
Alar cəzasını kim pozsa onu!

M ü ş f i q

Hamı bilir kimin kim olduğunu.

M o l l a  M i r a ğ a
(*Dilbərə*)

Tez ol, düz evə get, gəlirəm mən də!
Daha abır-həya qalmadı səndə!

D i l b ə r

Dayı!..

M o l l a   M i r a ğ a

Kəs, yetər!..

(*Dilbər məyus gedir.*)

Vaxt ikən deyirəm, bu işdən əl çək!

M ü ş f i q

Eşqinə xəyanət eyləməz ürək!

(*Molla Mirağa gedir.*)

Tək bizikmi dünyada
Xəyalı pərişanlar?
Könlü-gözü odlanıb
Gizlicə alışanlar?
İçin-için sızlayıb
Qəlbiylə danışanlar?
Öz könül həmdəmini
Özgədən soruşanlar?!
(*salona*)
Təkcə siz anlarsınız
Bizi, ey həsrət qəmi,
Hicranı sovuşanlar,
Taleyi qovuşanlar,
Ulduzu barışanlar!

PƏRDƏ

## İKİNCİ ŞƏKİL

(*pərdə açılarkən*)

Müşfiqin səsi

“Əl çək bir dəfə də öz acığından,
Üz çevir gördüyün murdar yığından.
Bir az da danışsaq heç yaman olmaz
Bizim dövrümüzün yaxşılığından.”

Molla Mirağa
(*Səfərə*)

Çox şadıq, ay Şahbaz, bu xəbərlə sən
Həyata qaytardın bizi təzədən.
Deməli, nəyəsə hələ ümid var?

Səfər

Bəli, bu ümidlə yaşamaq olar.

Molla Mirağa

Yaşa, yaşa görüm səni min yaşa!
İnan hər cəhdimiz çıxmışdı boşa.
Xiffətdən od tutub yanırdı sinəm,
Bir bağlı qapıya dönmüşdü aləm,
Yenə üzümüzə sən açdın onu.

Qəni

Mən ölmüş bilirdim Şahbaz dayını.

Səfər

Yenə də Şahbazı ölü bil, Qəni.
Daha həmin adla çağırma məni.

Mən indi Şahbaz yox, Səfərəm, Səfər!

(*istehza ilə*)

Hökumət yolunda can qoyan əsgər!
Mən o Səfərəm ki, qoy bilsin hamı,
Bu yolda çürütdüm bir vaxt canımı!
Ha... ha!..

Q ə n i

Əgər birdən onlar bilsələr ki, sən...

S ə f ə r

Hardan biləcəklər?
İndi qəbirdən
Durub gəlsə belə rəhmətlik Səfər,
Şeytan da baş açmaz ki, bu sənədlər
Kimindir...

M o l l a  M i r a ğ a

Səndə lap fil ürəyi var.
Saxta sənədlə də yaşamaq olar?

S ə f ə r

Olar, lap bir az da o yana gedər!
Bu quru kağızlar, saxta sənədlər
İnan ki, hər yanda dadıma çatır.
Məni mənliyim yox, bunlar yaşadır!
Bunlarçın neçə il dolandım, gəzdim.
Səfər ölməsəydi, mən dirilməzdim.

(*hiddətlə*)

Daha mən ölü yox, diriyəm, diri!
Gərək öz əlimlə kommunistləri
Bir-bir şişə taxam, gözünü oyam,
Qapı-bacasını viranə qoyam.
Yazıla tarixə bu qisas-divan!

M o l l a   M i r a ğ a

Bu günü görsəydi rəhmətlik atan,
Yazığın gözünə işıq gələrdi.
Ömründə bir dəfə üzü gülərdi.
Nə qədər çalışdı, vuruşdu yenə,
Bütün əziyyəti qaldı özünə.
Yaxşı ki, sən o vaxt çıxdın aradan.

S ə f ə r

Heç vaxt öz borcunu unutmur insan.
Bəs sən nə zamandan molla olmusan?

M o l l a   M i r a ğ a

Elə o vaxtdan.
Gördüm ki, vəziyyət dəyişir yaman.
Gördüm ki, bir ayrı yol yoxdur daha.
Düşündüm sığınım qadir Allaha...

S ə f ə r

Allahla, imamla düzəlməz bu iş.
İndi siyasət də tamam dəyişmiş.
İndi dəstə yığıb dağa çəkilmək,
Kimisə qəflətən öldürüb, ölmək,
Ya mədən yandırmaq vaxtı deyildir,
İndi başqa zaman, ayrı dövrdür.
Daha cildimizi dəyişməliyik.
Gərək bilinməsin əsla biz kimik...

M o l l a   M i r a ğ a

Ağacı içindən qurd yeyən kimi,
Biz didib sökərik onun qəlbini!

Q ə n i

Onları yıxacaq sizdəki bu kin.

S ə f ə r

İntiqam hissidir ruhuma hakim!..
(*Əsəbi halda gəzinir.*)
Mən bu dəm
            püskürən
Vulkana bənzərəm, –
İstərəm
Bir tufan qoparım! –
Aləmi uçurum, dağıdım, talayım!
Dünyanı
        lərzəyə
                salsın hay-harayım!..

Q ə n i

Sizdəki qüdrətə heyranam, düzü!

S ə f ə r

Hələ deməmişik öz sözümüzü,
Hələ özümüzü göstərməmişik!

M o l l a   M i r a ğ a

Biz də fikrimizi sizə demişik,
Bir fayda vermədi, əfsus, cəhdimiz,
Qaldı gözümüzdə hər bir əhdimiz.
Dördəlli yapışıb ətəyinizdən,
Ümid gözləyirik, biz ümid sizdən.

S ə f ə r

Sizin köməyiniz olmasa, əgər,
Bizim də kündəmiz tutmaz, küt gedər.

M o l l a   M i r a ğ a

Bizim canımız da qurbandır sizə,
Əməl eyləyərik hər sözünüzə.

S ə f ə r
(*xeyli sükutdan sonra*)

Bu gündən olacaq sizin işiniz
Söz-söhbət gəzdirib
Aranı qatmaq,
Bəzi adamlara böhtan-şər atmaq...

Q ə n i

Eh, buna nə var ki, istəyirsiniz
Sabahdan günəşə qara yaxaq biz!

S ə f ə r

Gərək göz açmasın Müşfiq kimilər,
Onların üzünə gülməsin səhər.

M o l l a  M i r a ğ a

Olmasa da onu görməyə gözüm,
Yaxşı şahidiyəm bir şeyin özüm, –
Camaat içində hörməti çoxdur,
Guya, şair kimi əvəzi yoxdur.
Sözləri dolaşır dildə, ağızda.
Onun ucbatından bizim o qız da
Evdən baş götürüb tamam itildi.

Q ə n i

Komsomola keçib deyirlər indi.
Özü də qoşulub hər gün Müşfiqə
Gah mədənə gedir, gah da fabrikə.

M o l l a  M i r a ğ a

Hələ danışmağa bir dilin də var,
Sənin kimisinə haqq edir onlar.

Q ə n i

Məqam axtarıram, inanın, məqam.
Əgər mən onlara divan tutmasam!..

S ə f ə r
(*fikirli*)

Xalqın arasında onun hörməti
Artdıqca, artacaq daim şöhrəti.
Köklü palıd kimi atsa qol-budaq
Onu kəsib atmaq çətin olacaq.

Q ə n i

Bu haqda bəs nədir sizin fikriniz?

S ə f ə r

Tənqidi, böhtanı gücləndirək biz
Gərək ona qarşı...

Q ə n i

Məncə, hədərdi
O, vecinə almır heç bir tənqidi.

S ə f ə r

Necə, necə bəyəm?

M o l l a  M i r a ğ a

Yəni düşmək olmaz heç ona yaxın?

Q ə n i
(*Əlindəki qəzeti Səfərə verir.*)

Buyurun, baxın.

Səfər
(*Alıb oxuyur.*)

"Şair və canavar"...hm.

Müşfiqin səsi

"Ən acıqlı, ən zavallı bir gündə
Hansı bacı saç yolmuşdur önündə?
Bəlkə qəlbin bir sərt qaya daşıdır,
Basdırdığın bir yoldaşın başıdır.
Söylə kimin ayağından çəkərək,
Anlamadın bu dünyada duz-çörək..."

Səfər

Bu ki qoyub bizi qoz qabığına!

Qəni

Hələ yazdıqları dursun bir yana,
Görsəniz nə deyir çıxışlarında,
Onun kimliyini bilərsiz onda.

Molla Mirağa

Yenə nə söyləyir o zatıqırıq?

Qəni

Deyir sinfi düşmən bu günlər artıq
Dəyişir cildini, siyasətini,
Açıq bildirməyir öz niyyətini.
Özünü dost kimi göstərir bizə,
Gizlicə soxulur sıx cərgəmizə.
İyləyib-çüyləyir sirrimiz nədir,
Fikrimiz, dərdimiz-sərimiz nədir.
Yaxşı işimizə göz yumur qəsdən.
Yapışıb ən kiçik bir səhvimizdən
Dilə-dişə salıb yazır hər yana.
Yamanca inanır camaat ona...

Molla Mirağa

Deyəsən yetişib onun əcəli.

Səfər
(*hiddətlə*)

Tədbir görməliyik ona təcili!
Yoxsa bundan sonra çox baş aparar!

Molla Mirağa

Məgər səndə deyil külli-ixtiyar?

Səfər

Eh, sən deyən kimi olsaydı bu iş
Onda nə vardı ki,
Bir söz deməmiş
Bir anda neçəsi düşür üstünə.

Qəni

Orda da etiraz edən var sənə?

Səfər

Bəs necə, orda da nakəs az deyil,
Ondan söz düşəndə ötürlər dil-dil,
Deyirlər ən gözəl şairdir Müşfiq,
Təpədən dırnağa şeirdir Müşfiq!

Molla Mirağa

Əgər belədirsə, neyləmək olar?

Səfər

Hər müşkül işin də bir əncamı var.

(*fikirli*)

Onun barəsində bu gündən gərək
Şayiə çıxaraq,
Hamıya deyək
"Gizli təşkilat"a keçibdir o da...

Molla Mirağa

Buna inansalar o gedər bada...

Qəni

Bizim təşkilata keçibdir Müşfiq?

Səfər
(*kinayə ilə*)

Biz xalqa ən sadiq kommunistlərik,
Bağlıyıq bu Şura hökumətinə!

Molla Mirağa

Çatmaz heç siyasət siyasətinə.

Səfər
(*Qəniyə*)

Məni anladınmı?

Qəni

Elədir ki var...

Səfər

Onun son vaxtlar
Çıxan kitabını oxumusanmı?
(*Qəni cibindən bir kitab çıxarıb Səfərə verir.*)

Bu gündən gərək
Biz səy göstərək
İlan zəhərlənsin öz zəhəriylə!
Düşmən məhv edilsin öz xəncəriylə!
Batsın yurd-yuvası matəmə, yasa!

Q ə n i
(*Əlilə göstərir.*)

Bu şeri oxuyun, zəhmət olmasa...

S ə f ə r
(*Oxuyur.*)

"Olduqca qayğılı, olduqca qəmli,
Sadə mənzərəli, sadə görkəmli
Yalnız ağac baxır bir dağ başından,
O hansı əyyamın iğtişaşından
Hansı zəlzələdən olmuş müztərib?"

(*Qəniyə*)

Gör bir nələr yazır bugünkü gündə,
Yalqızlıq hiss edir yoxsa özündə?
Olmaya görməyir eli, obanı?
Zindana oxşadır bu xoş dövranı?

Q ə n i

Özü də sözünü eyhamla deyir,
Yoxsa nə üçündü bu bədbin şeir!

S ə f ə r
(*Oxuyur.*)

Zavallı qardaşım, böylə keçərsə,
Əbədiyyət sənə qanad da versə,
Səndən qalmayacaq nişan dünyada.
Dirilik eşqiylə coşan dünyada.

(*Şerin ardını öz-özünə oxuyur və sonuncu misranı ucadan elə deyir ki, səsi titrəyir.*)

“Bədbəxt bu dünyada tək yaşıyandır!”

(*Qəniyə*)

Bu yaxşı imkandır, gözəl imkandır!
Ona dərs verməyin vaxtı çatıbdır!

Q ə n i

O görmür zamanı, sanki yatıbdır.
İndi hər nə yazsaq yapışar ona.

Bu dəfə bir yanğı saldıq canına
Tüstüsü illərlə çıxar başından!

S ə f ə r
(*kağız-qələm götürərək*)

Yaxşı, gəl başlayaq, bizimdir meydan!

(*Hər üçü özündən məmnun.*)

PƏRDƏ

## ÜÇÜNCÜ ŞƏKİL

(*pərdə açılarkən*)

M ü ş f i q i n  s ə s i

“Cahan fikrimizlə süslənəcəkdir.
Hər zaman nəğməmiz səslənəcəkdir.
Bu dünya mehriban qucağımızda
Şən bir çocuq kimi bəslənəcəkdir.”

Bayıl. Neft mədənlərində fəhlə klubu. Axşamdır. Uzaqda buruqlar və boz təpələr görünür. Fəhlələr və özfəaliyyət dərnəyinin üzvləri.

Q u r b a n

Bu Müşfiq harada qaldı görəsən?

S ü b h a n

Darıxdın deyəsən?

Q u r b a n

Elədir ki var.

S ü b h a n

Onu yaman sevir bizim cavanlar.

Q u r b a n

Deyərlər, bağlıdır hörmət hörmətə,
O özü layiqdir bu məhəbbətə.

(*gənc fəhləyə*)

Sizə verməyib ki, təzə tapşırıq?

V a s i l i

Sabirdən bir səhnə hazırlamışıq.

Q u r b a n

Çağırın səhnəyə aktyorları,
O gəlincə sizi dinləyək, barı.

Hamı kənara çəkilir. İki aktyor-fəhlə bir kəndlini sürüyə-sürüyə səhnəyə gətirirlər. Müşfiq gəlir və dayanıb baxır.

B i r i n c i f ə h l ə
(*molla libasında*)

Görürsənmi bu nakəslər indi bizi salmır saya,
İtib gedib, üzlərində qalmayıbdı abır-həya.

S ü b h a n

(*ağa libasında, yanındakı nökərə*)

Elə vur, vur ki onu, hərzəvü-hədyan deməsin!
Özünə bir daha bu heyvərə, insan deməsin!

(*Kəndlini döyürlər.*)

"Vur, vur ki, gətirməyibdir arpa!"

K ə n d l i

İnsan dözəməz bu şarpa-şurpa!

A ğ a

Vur, vur ki, nə yağ verib, nə qaymaq!

K ə n d l i

Vurma ki, deyil inəklərim sağ!

A ğ a

Məşrutə bunu xərab edibdir!

K ə n d l i

Zülmün məni dilkəbab edibdir!

A ğ a

Hürriyyət edib bu şumu gümrah!

K ə n d l i

Fəryada yetiş, amandır, Allah!

(*Kəndli əldən düşüb zarıyır.*)

A ğ a

Dinmə!

K ə n d l i

Mütiyəm, kəsərəm sözlərim.

A ğ a

Görmə!

K ə n d l i

Baş üstə, yumaram gözlərim.

A ğ a

Bir söz eşitmə!

K ə n d l i

Qulağım bağlaram.

A ğ a

Gülmə!

K ə n d l i

Pəkey, şamü-səhər ağlaram.

A ğ a

Qanma!

K ə n d l i

"Bacarmam! Məni məzur tut,
Böyləcə təklifi-məhalı unut!.."

Q u r b a n

Yaxşı deyibdir!

M ü ş f i q
(*Səhnəyə gəlir.*)

Böyük fırtınadır şüurda Sabir!
Elə fırtına ki, qopar fikirdə.
Bir dönüş yaradar düşüncələrdə.

(*fəhlələrə*)

Çox yaxşı, çox gözəl, razıyam, əhsən!

Q u r b a n

Ay Müşfiq, hardasan, nə gec gəlmisən.

(*Görüşürlər.*)

M ü ş f i q

Necə keçirdiniz bugünkü günü?

Q u r b a n

İnsan ömrünü
Şərəfli işlərə həsr eləyəndə
Keçər toy-bayramtək ömür də, gün də.

S ü b h a n

Sənin kimi nikbin olsaydım əgər...

M ü ş f i q

Hər nikbin ürəkdə yaşar bir səhər,
Elə bir səhər ki, nəsibi bahar.

Q u r b a n

Həyatı çox sevir nikbin adamlar,
Acısı-şirini onlara baldır.

M ü ş f i q

Acısız bir həyat şirin xəyaldır...

M o l l a   M i r a ğ a
(*Gəlir.*)

Bəsdi tovladığın bu yazıqları,
Göydən başınıza daş tökər Tanrı!
Az çıxarın xalqı dindən, imandan,
Bir gün gözünüzü tutacaq Quran!..

M ü ş f i q

Quran yox, həyatda sizin kimilər
Qoymayıb zülmətdən göz aça ellər.
Bağlanıb üzünə bütün qapılar.
İndicə onların öz kitabı var...

M o l l a   M i r a ğ a

Girsin gözünüzə o kitabınız!

(*Hirsli gedir.*)

Q u r b a n

Xalqa əngəl olan bunlardır yalnız.

M ü ş f i q

Bunlar köhnəliyin caynaqlarıdır,
Həyatı həmişə geriyə dartır.
Fəqət qopmadadır əlləri ondan,

Qatartək irəli şığıyır dövran.
Sürət qatarıdır, bəli, bu həyat!
Qüdrətin var isə bacar ona çat!

Q u r b a n

O qədər yenilik baş verir gündə,
Başqa aləm görür insan özündə...

M ü ş f i q

Dolanıb ömürdən neçə il keçər,
Hər zəfər bu yerə təzə don biçər.
Üz tutar bu elə, obaya sarı
Bir gün Tərtər HEC-in gur işıqları.
Durar Mingəçevir Kürün önündə
Nəhəng pəhləvantək əli belində.
Kanallar çəkilər Milə, Muğana.
Ölü səhraları gətirər cana.
Vətən başdan-başa laləzar olar.
Bu eldə nə qüssə, nə də qəm olar!

Q u r b a n

Sizin necə böyük ürəyiniz var.
Necə də işıqlı diləyiniz var!
Hər söz ruha qanad, qola qüvvətdir!

M ü ş f i q

Bunlar xəyal deyil, bir həqiqətdir!

(*Hamı xoş bir xəyala dalır. Səhnə qaranlıqlaşır və uzağa işıq düşür. Süni gölün önündə SES və əzəmətli şəhərinin panoramı görünür. Müşfiqin fərəhli səsi yüksəlir.*)

"Eşidirəm adını,
Hiss edirəm dadını
İndidən damağımda.

Gözəl heykəlin gəlir,
Xəyal kimi yüksəlir,
Durur göz qabağımda.
Ətirlənir güllərin,
Sevdalı bülbüllərin
Ötüşür can bağımda.
...Dövlətinlə, varınla,
Xoşbəxt dalğalarınla
Gəl, ey Mingəçevir, gəl!
Ey işıqlı dövr, gəl!”

İşıq sönür, səhnə yenidən işıqlanır.
Əvvəlki vəziyyət.

S ü b h a n

Elə gəlir hər təzə gün,
Görürsən ki, arzun, eşqin
Tamam təzə don geyinir.
Hər hünərlə, hər zəfərlə
Könül gülür, qəlb sevinir.

M ü ş f i q
(*fərəhlə*)

“Hələ bunlar nədir ki...
Mənim könlüm deyir ki,
Böyük günlər, şanlı günlər, şən günlər,
Yoluna düşən günlər
Hələ qarşımızdadır!..”

Q u r b a n
(*İftixarla əlini Müşfiqin çiyninə qoyur.*)

Ana yurdun Müşfiqisən,
Şeir-sənət aşiqisən...

(*Vasili gəlir və Müşfiqə salam verir.*)

M ü ş f i q

Vasili, əzizim, xoş gördük səni!

V a s i l i

Xoş gördük, müəllim, əfv edin məni,
Çoxdandır baş çəkə bilmirəm sizə.

M ü ş f i q

İşlərin necədir, de, nə var təzə.

V a s i l i

Sağ olun, bitirdim bu il məktəbi.
Sizə minnətdardır bir fəhlə qəlbi.

M ü ş f i q

Mən çox şadam, indi demək,
Olar səni təbrik edək.

V a s i l i

"Qaya"nı jurnalda oxudum dünən,
Ürəyim dözmədi, ağladım da mən.
Uşaqlıq günlərim düşdü yadıma...
İndi sevinirəm öz həyatıma.
O vaxt siz rastıma çıxmasaydınız,
Mənim də həyatım, iqbalım yalnız
Olardı Mişkanın...

M ü ş f i q

Dostum, sənin bu xoş günün
İftixardır mənim üçün!

Hamının diqqəti onlardadır. Müşfiq Vasilini mənalı-mənalı süzür. Bu vaxt səhnənin bu hissəsi qaranlıqlaşır və o biri hissəsi işıqlanır. "Qız qalası"nın yanında bir neçə səfil uşaq çalıb-oynayır. Ötüb-keçənlər dayanıb baxır və papağını uzadan uşağa pul atırlar. Müşfiq gəlir və üz-gözündə acı təbəssüm dayanıb onlara tamaşa edir.

V a s i l i

(*oxuyur*)

Olmadı heç bizi
Hiss edən,
Bəxtimiz yoğruldu
Qüssədən.
Avarayıq, avara.
Ömür kəm, gün qara.

M ü ş f i q

(*Ona yaxınlaşır.*)

Dayan!
Adın nədir?

V a s i l i

Mənim?
Qəribə adamsan,
Mən nə bilim?
Yüz cürə çağırır
Uşaqlar adımı,
Deyim mən hansını?

M ü ş f i q

Birini.
Tanıyım
Bu adla mən səni.

V a s i l i

Mənim məşhur adım
Kot Vaskadır!

M ü ş f i q

Nə, Kot Vaska?

V a s i l i

Hə... həri!..

M ü ş f i q

Deməli, Vasili?

(*Uşaqlar Müşfiqin dövrəsinə toplaşırlar.*)

V a s i l i

Siz kimsiniz?

M ü ş f i q

Mən, müəllim.
Çox sevirəm uşaqları...

V a s i l i

Yalan danışmayın, barı.
Olmayıbdır bizi sevən.

M ü ş f i q

Səhvsən.
De görüm bir,
Heç məktəbdə olmusanmı?

V a s i l i

Oxusaydı əgər hamı
Olardımı məktəbdə yer?

B i r i n c i   o ğ l a n

Əyni-başı köhnə, cırıq,
Ayaqyalın, başıaçıq
Bizi ora
Qoyarlarmı?

M ü ş f i q

İstəsəniz,
Düzəldərik.
Sizi də uşaq evinə,
Çıxarsınız bir xoş günə.
Təzə paltar geyərsiniz,
Məktəbə də gedərsiniz.

V a s i l i

Sözün düzü,
Bir gün bizi
Milis tutub aparmışdı.
Qaçdıq ordan,
Sonra olduq çox peşman.
Axı, başlı-başına biz
Yaşamağa alışmışıq.

M ü ş f i q

Yox, bu cürə yaşamağın
Vaxtı çoxdan keçib artıq.
İndi heç kəs
Özbaşına qala bilməz.
Əgər ki, siz
Mən deyəni eşitsəniz,

Yaxşı təlim-təhsil alıb,
Böyüyüb boy atarsınız.
Arzunuza çatarsınız.
Hə, uşaqlar nə deyirsiz?

(*Uşaqlar bir-birinin üzünə baxırlar.*)

V a s i l i

Razıyıq biz!..

M ü ş f i q

Onda gedək!..

Sevinclə gedirlər. İşıq sönür və yenidən yanır. Əvvəlki vəziyyət.

M ü ş f i q

Afərin, Vasili.
Yaxşı qurtarmısan demək məktəbi!
Söylə, hansı peşə yatır könlünə?

V a s i l i

Məsləhət sizindir.

M ü ş f i q

Nə deyim sənə.
İndi hər sənətə ehtiyac çoxdur.
Hansını bəyənsən, heç sözüm yoxdur.

V a s i l i

Mühəndisliyədir həvəsim ancaq.

Q u r b a n

Bağ salmaq istəyən bağban olacaq.

V a s i l i

Bu sərv buruqlara baxdıqca hər dəm,
Özüm də bir buruq olmaq istərəm.

Q u r b a n

Sənin bu arzuna, eşqinə alqış,
Seçdiyin sənətdən ürəklə yapış!

M ü ş f i q

“Gözəldir bir uca əməl bəsləyib,
Bu əməl uğrunda qan-tərə batmaq.
Gözəldir günəşi, ayı səsləyib
Onları da bizim dəstəyə qatmaq.
Dövranla əl-ələ vermək yaxşıdır,
Hər bağdan bir çiçək dərmək yaxşıdır.”

Q u r b a n

Sirli dəfinədir bu torpaq, bu yer,
Onun qıfılını açan gərəkdir!
Alim-mühəndisi çox olan diyar,
Dünyanı yenidən yaradar, qurar.
Aləmə nur yağar əməllərindən...

M ü ş f i q
(*fəhlələrə*)

Sizə bir hədiyyə gətirmişəm mən...

(*Gedir. Ümumi sevinc və həyəcan. Qəni gəlir.*)

Q ə n i

Salam, fəhlə dostlar!

S ü b h a n

Əleykəssalam.

Q ə n i

İndi qəzetlər də sizdən yazırlar.

Q u r b a n
(*kinayəli*)

Yazarlar, yazarlar, onlara nə var,
Olanı-olmazı şişirdib bəzən
Filə döndərirlər milçəyi qəsdən.

Q ə n i
(*sərt*)

Fəhlə əməyidir ruh verən bizə.

(*fəhlələrə*)

Şeir də yazmışam şərəfinizə!

(*Oxuyur.*)

Hey, hey!..
Gözünüzə eynək taxın!
Axın-axın,
Mədənə yaxın gəlin, yaxın!
Dəstə-dəstə gəlin, gəlin!
Burada çalışın, yüksəlin
Buruqlar ucaldın
Buxtada, quruda,
Dəmir ürəkləriniz,
Polad biləkləriniz
Rövnəq versin bu yurda!

(*Qürurla fəhlələri süzür.*)

Hə, necədir?

S ə s l ə r

Mərhəba!

V a s i l i

Əhsən!

S ü b h a n

(*İrəli gəlir.*)

Heyif ki şerin bir az dayazdır.
Fəhlə həyatını gərək biləsən.
Müşfiqtək yazasan...

Q ə n i

Nə, Müşfiq?!
Onun sözlərində yenilik azdır.
O, göylər şairi bir eşqbazdır!

Q u r b a n

Sən nə danışırsan, onun hər sözü
Hünərə, zəfərə səsləyir bizi!

(*Müşfiq əlində tar gəlir.*)

M ü ş f i q

Bay, Qəni, sən hara, buralar hara?
Mədən yaraşarmı bu pal-paltara?!

Q ə n i

(*kinayəli*)

İş təkcə mədənə gəlməkdə deyil,
Ondan yaxşı əsər yazmaqdadır, bil!

M ü ş f i q

(*kinayə ilə*)

"Şairə ilhamdan maya gərəkdir!
Anasız çocuğa dayə gərəkdir!

Şairəm söyləyir yerindən duran,
Adamın üzündə həya gərəkdir!”

(*Gülüş. Qəni pərt olur. Birdən gözü Müşfiqin əlindəki tara sataşır.*)

Q ə n i

Bu tardan
Hələ sən
əl çəkməmisən?

M ü ş f i q

Mən onsuz keçinə bilmərəm heç vaxt,
Quş uça bilərmi, olmasa qanad?!

Q ə n i

Deyən, unutmusan o günkü günü?

M ü ş f i q

Verər haqq-ədalət bir gün hökmünü,
Eşqidir, ruhudur bu tar millətin.
Bil, əti dırnaqdan ayırmaq çətin!

(*ağır sükut*)

O köhnə dünyanı uçurduqsa da,
Bu yeni dünyanı biz qurduqsa da,
Ancaq işimizdə var elə nöqsan,
Onu bağışlamaz bizə heç zaman
Nə Vətən, nə də xalq, inanın buna!
Rəvamı toxunmaq elin ruhuna!

Q u r b a n

Həsrətli olana təsəlli verən,
Möhnətli olana sevinc gətirən
Bu tar niyə birdən yaramaz olsun?
Nə üçün köhnələn muğam, saz olsun?
Mən bu suallara tapmıram cavab!

M ü ş f i q

Heyif ki, hələ də bizim inqilab
Bir çox adamlara heç aydın deyil
Hələ bəziləri acıqca deyir
İnqilab – keçmişdən nə qalıb bizə
Məhv edib atmaqdır onu dənizə.

Q u r b a n

Belə üzdəniraq yenilikçilər
Eldə yaxşı nə var doğrayar, biçər.

M ü ş f i q

Torpağa bir şitil basdırmayan kəs
Bar verən ağacın qədrini bilməz.

Q ə n i

Tar başdan-ayağa qüssədir, qəmdir,
Bu gün ölkəmizdə başqa aləmdir!

M ü ş f i q

Tarı köhnəliyin qalığı sanmaq –
Elin sənətini danmaqdır, ancaq!

Q ə n i

Yaxşı, yedirərlər sənə sözünü!

M ü ş f i q

Riyalar yuyamaz haqqın izini!
(*Qəni hirsli gedir. Müşfiq onun arxasınca*)
Göylərin günəşi, ulduzu, ayı
Heç zaman heç yerdə sönməyəcəkdir!
Olsa da Vətənin beş-on bədxahı,
Tarix öz yolundan dönməyəcəkdir!

S ü b h a n

Ay Müşfiq, bir dindir yenə o tarı,
Ovutsun qəlbləri xoş sədaları!

Müşfiq "Yetim segah" çalır, onun həzin ürək pıçıltıları eşidilir.

M ü ş f i q

"Oxu, tar, oxu, tar.
Səni kim unutar?
Ey geniş kütlənin acısı, şərbəti –
Alovlu sənəti!.."

Tarın sədaları altında səhnənin bu hissəsi qaranlıqlaşır və o biri hissəsi işıqlanır. Müşfiqin xəyalında bir neçə gün bundan əvvəlki yığıncaq canlanır.

S ə f ə r

Ölkəmiz
böyük yüksəlişə
qoyubdur qədəm.
İndi
təpədən-dırnağa
dəyişir aləm.
Belə bir zamanda
muğamla,
bu ahu-fəğanla
Keçinmək yaramaz!
Əsrin gur səsinə
səs verməz
bu tar-saz!
Belə bir dövrdə
bu elə orkestr,
caz gərəkdir,
Şən avaz gərəkdir!

S ə s l ə r

Doğrudur, əhsən!

(*Əl çalırlar.*)

Q ə n i

Sizinlə razıyam mən də ürəkdən.
Şeir də yazmışam bu haqda hələ.

S ə f ə r

Şerini söylə.

Q ə n i

Sən illərdən bəri
İnlədin bu qədər,
          kəs yetər...
Bu həzin havalar,
Qəlbləri dağlayar,
İndi caz əsridir,
Şən avaz əsridir...

S ə f ə r

Alqış!..
Çəkil köhnə dünyanın
Köhnə mədəniyyəti,
Köhnə şeri, sənəti!
Yetər, geri çəkməyin,
Çəkməyin bu milləti!

(*Əl çalırlar. Müşfiq həyəcanla irəli gəlir.*)

M ü ş f i q

Dayanın!..
Ey bu gün
          dünəni lazımsız sananlar!

Minillik şeri, sənəti dananlar,
Dayanın!..
(*sükut*)
Könüllər nəğməsi muğamım,
Bu tapım,
Bu sazım,
Bu eşqim, avazım,
Coşdurub ilhamı,
Gəzmirmi dünyanı? –
Heyrətə salmırmı
Həm Qərbi, həm Şərqi?
Sevmirmi onları
Söz-sənət aşiqi?

(*heyrət*, *sükut*)

Ey Sabir qeyrətli,
Füzuli qüdrətli,
Əbədi şerim, sənətim
Sən indən belə də
Ellərə bel bağla,
Sellərtək coş, çağla!..
Əsrin gur səsini
Əks etdir özündə.
Hər yeni sözündə
Yerlərim dil açsın.
Göylərim gül açsın!
Oxu tar, sızla saz!
Susma, ey muğamım!
Hayınla,
Qıyınla,
Silkələ ən uca dağları,
Coşdur irmaqları!
Qoy qalxsın tufanlar,
Dağılsın dumanlar!
Nurlansın yollarım,
Güclənsin qollarım,
Şığıyım irəli!
Ardınca sabaha

Harayla bu eli!
Azadlıq əmriylə
Yaşasın, ucalsın millətim,
Şerim, sənətim!..
İmzamız parlasın
İmzalar içində!..

(*iğtişaş*)

Q ə n i

Millətçi fikirdir bu fikir səndə...

S ə s l ə r

Qızıl kimi sözdür, doğrudur, düzdür!

B i r   n ə f ə r
(*Qənini yaxalayıb*)

Bizim muğamımız, de, niyə pisdir?

(*iğtişaş*)

S ə f ə r
(*hiddətlə*)

Sən, demək, köhnəlik tərəfdarısan?

M ü ş f i q

Babalar yaradan sənət heç zaman
Nə köhnələ bilər,
Nə ölə bilər.
Əksinə, gün-gündən o cavanlaşar,
Gündə yeni üfüq fəth edib yaşar!

S ə f ə r

Xeyr, o yaşaya bilməz bir daha!
Açıq gözlə baxaq gərək sabaha.
İndi gecə-gündüz çalışırıq biz,
Köhnəlik donundan çıxsın elimiz!

M ü ş f i q

Xalqın yaratdığı hər canlı sənət
Ona göstəribsə illərlə xidmət,
O yenə yarayar elin işinə,
Güc verər zamanın hər gərdişinə!
Xalqın ruhu olan telli sazla, tar
Dursa pianoyla qoşa nolar?

(*ümumi həyəcan*)

S ə f ə r

Özbaşına olsa sənin kimilər!..

M ü ş f i q

Elin şərbətinə kim qatsa zəhər,
Bir gün özü içər!

S ə f ə r

Yaxşı baxarıq!..

Tarın sədaları altında həmin guşə qaranlıqlaşır və səhnə yenidən işıqlanır. Əvvəlki vəziyyət.

M ü ş f i q

İnqilab oyadan, zaman qaldıran
Bu xalqın gözləri açılıb indi.
O seçir yaxşıca ağı qaradan.

(*Qurbana*)

Bir xalq ki, yüksəliş atına mindi
Ona nəhayətsiz yollar göstərin,
Ona çıxılmamış yoxuşlar verin.
O aşar ən çətin aşırımları!
(*hamıya*)
Elin telli sazı, sədəfli tarı
Qoy öndə gurlayan zəng səsi olsun!
Həyat sellər kimi axsın, durulsun!

V a s i l i
(*Həyəcanlı daxil olur.*)

Təzə mədəndəki çən partlayıb,
Alov yeri-göyü ağzına alıb!

Q u r b a n

Siz bir işə baxın, yenə xəyanət!

S ü b h a n

Bu ki cinayətdir, əsil cinayət!
Yoldaşlar! Yanğını tezcə söndürək!
O başqa mədənə keçməsin gərək!

Fəhlələr hərəkətə gəlir. Həyəcanlı musiqi sədaları altında səhnə qaranlıqlaşır və uzağa işıq düşür. Gecə qaranlığında yanmaqda olan mədən mənzərəsi görünür. Yanğını söndürmək üçün yanğınsöndürənlər və fəhlələr böyük səy göstərirlər. Bu vaxt qəflətən güllə açılır. İşıq küncdə Molla Mirağanın üzünə düşür. O bir də atəş açır və qaranlıqda yoxa çıxır. İşıq Müşfiqin qucağına yıxılan Qurbanı göstərir.

M ü ş f i q
(*çılğın*)

Bu da bir cinayət, yeni xəyanət!
Mənə yönəlmişdi deyəsən bu qəsd!

Qurban

(*əli sinəsində kəsik-kəsik*)

Sənə tuşlamışdı namərd gülləni,
Xəbərdar eyləyə bilmədim səni.
(*Əli ilə Molla Mirağa qaçan tərəfi göstərir.*)
Onu tez haqlayın, qaçıb getməsin...

Müşfiq

Gərək cinayətin izi itməsin!

(*Bir neçə fəhlə qaranlıqda gözdən itir. Yanan çən söndürülür. Səhnə xeyli işıqlanır. Yanğınsöndürənlər his-, pasa batmış halda səhnəyə daxil olur və Qurbanı yaralı görürlər.*)

Sübhan

Ah, Qurban, qardaşım, yaran ağırdır?

Qurban

Hələ yaşamağa gümanım vardır...

Qurbanı aparırlar. Müşfiq bir anlığa səhnədə tək qalır. O, son dərəcə fikirli, kədərlidir.

Müşfiq

Hər igid bir şimşək,
Buluddan qorxmaz.
Yandırıb-yaxmasa zülməti, çaxmaz.
Qurbana qəsd etdi o mərdimazar,
Hələ başımızda çox macəra var!

Uzağa işıq düşür. Səfərin daz başı görünür.

Səfərin səsi

Özbaşına olsa sənin kimilər...

Müşfiqin səsi

Elin şərbətinə kim qatsa zəhər!
Bir gün özü içər!

Səfərin səsi

Yaxşı, baxarıq!..

(*Müşfiq dərin düşüncələr içində var-gəl edir.*)

Müşfiqin səsi

"Ah, mən gündən-günə bu gözəlləşən
İşıqlı dünyadan necə əl çəkim?
Bu yerlə çarpışan, göylə əlləşən
Dostdan, aşinadan necə əl çəkim?

Qarşımda dalğalı dərin bir ümman,
Ümmanı sarsıdır bir acı tufan.
Bəyaz köpükləri bir çiçək yanan
Şeirdən, xülyadan necə əl çəkim?

Xəzan acısına edib təhəmmül,
Gülün kölgəsində ötəndə bülbül
Həyat, həyat! – deyə çırpınır, könül,
Könüldən, sevdadan necə əl çəkim?"

Sübhan, Vasili və fəhlələr Molla Mirağanı və
Qənini əli-qolu bağlı halda gətirirlər.
Hamı pərişandır.

PƏRDƏ

## DÖRDÜNCÜ ŞƏKİL

(*pərdə açılarkən*)

Müşfiqin səsi

“Mən gəncəm, bilirəm, istiqbalım var,
Hələ bədr olmamış bir hilalım var.
Yelkənim açılır, qara yel, əsmə!
Mənim bu dəryada bir sandalım var.”

Müşfiqgilin evi. Səhərdir. Küçəyə açılan pəncərə önündə yazı masası, sağ tərəfdə kitab dolabı, sol tərəfdə isə divan vardır. Müşfiq bərk məşğuldur. O təzəcə yazdığı şeri diqqətlə nəzərdən keçirir.

Müşfiqin səsi

Bir xoş gündə, xoş anda
Qoynunda doğulanda
Arzum bu oldu mənim:
Yağış kimi ələnim,
Şəfəq kimi çilənim
Baharına, qışına.
Məhəbbətdən yoğrulum,
Məhəbbətlə yapılım
Torpağına, daşına.

Sonra vərəqləri yığıb qovluğa qoyur. Nə fikirləşirsə, üst-üstə yığılmış qəzetlərdən birini götürüb oxuyur və oxuduqca qanı bərk qaralır.

Müşfiq

Belə də, belə də haqsızlıq olar?!
Bu cür qəlbiqara, xəbis adamlar
Həyatda özünə necə yer tapır?
Hər ötüb-keçəni köpəktək qapır...

Durub var-gəl edir, sanki müşkül bir suala cavab axtarır. Bu vaxt qapının zəngi çalınır və gedib açır. Səfər daxil olur və salam verir.

S ə f ə r

Bilirəm siz məni gözləmirdiniz.

M ü ş f i q

Daim açıq olub qapımız bizim...

S ə f ə r

Buna yox sözüm...

(*sükut*)

Üzünüzə demək olmasın, dünən
Təzə şerinizi oxumuşam mən.
Çox xoşuma gəlib...
Hər bir fikriniz,
Elə bil yaranır zamanla əkiz...

M ü ş f i q

Təşəkkür edirəm...

S ə f ə r

Təşəkkür niyə?
Gəlməmişəm sənə tərif deməyə.

(*sükut*)

Açıq deməliyəm bu sözü, fəqət,
Xoşuma gəlmədi o,günkü söhbət.
Təəssüf edirəm bir şeyə, düzü;
Yaxşı anlamırıq bir-birimizi.

M ü ş f i q
(*mənalı*)

Bu dünyanın işi belədir, muğam
Bir-birini başa düşmür çox adam...

S ə f ə r

Yenə mübahisə etməyək bu gün,
Hər şeyi yaxşıca görürsən özün.
Bu dövran necə də dəyişir, dönür,
Gündə hər şey yeni donda görünür.
Gərək yaxşı baxaq bu olaylara.

M ü ş f i q
(*kinayəli*)

Yerini səhv salır ağ ilə qara?

S ə f ə r

Zamanın hər hökmü qanundur bizə,
Odur vüsət verən hər işimizə.
Biz də ayaqlaşaq onunla gərək,
Xalqa arxa duraq, kömək göstərək.

M ü ş f i q

Deməli, xor baxaq milli sənətə,
Xalqın yaratdığı mədəniyyətə?
Tör-töküntü yığaq yad süfrəsindən?

S ə f ə r

Eşit bu sözümü, unutma ki, sən
Bu cürə düşünən tək mən deyiləm!..
Bizə nə söyləyər bu dünya-aləm?

M ü ş f i q

Hörmət bəsləyirik hər bir millətə,
Hər eldə yaranan milli sənətə.

Yaxşını öyrənib biz yaxşılardan, –
Yaxına qoymarıq pisi heç zaman!

S ə f ə r

Sən bu həqiqəti çıxarma yaddan:
Coşqun selə bənzər bu yeni dövran.
O coşub-daşdıqca
Köhnə hər nə var
Bu eldən-obadan silib aparar!
Məncə, dərk etməyə bu həqiqəti
Çatmır təcrübəniz...

M ü ş f i q

Biz bu söhbəti...

S ə f ə r

Bir de, nə deyirsən qara çadraya,
O ləkə deyilmi yeni dünyaya?

M ü ş f i q

Əsrlərdən bəri o qara çadra
Üzdə ləkə olub, ürəkdə yara...

S ə f ə r

Demək, istəmirsən o çadranı sən?

M ü ş f i q

Bülbül xoşlanarmı qara qəfəsdən?!

S ə f ə r

O tükləri biz-biz çoban papağı
Deyilmi keçmişdən qalma göz dağı?

M ü ş f i q

Onu öz başına çoxu qoyubdur,
Çoxuna bəllidir onun vəfası.
O kişi başında qeyrət olubdur,
Nakişi başında töhmət yuvası!

(*sükut*)

S ə f ə r

Daha ehtiyac yox bir ayrı sözə...
Başqa bir məqsədlə gəlmişəm sizə –

(*Cibindən bir məktub çıxarıb Müşfiqə verir. Müşfiq oxuyur və qanı qaralır.*)

Onu hər kim yazıb,
Fərqi yox qəti.
Biz bilmək istərdik bir həqiqəti:
Belə bir təşkilat mövcudsa, əgər,
Onu nə məqsədlə təşkil ediblər?

(*sükut.*)

Adam sığışdıra bilmir ağlına –
Sənintək şair də üzv olub ona...

M ü ş f i q

Siz də inanırsız buna, deməli?

S ə f ə r

Çox şübhəli işdir bu iş, şübhəli...

(*sükut*)

M ü ş f i q

Birdən soruşsalar sizdən: kiməm mən?
Axı neyləmişəm?

Nə üçün, nədən
Bu qədər böhtana məruz qalmışam?
"Gizli təşkilat"ın üzvü olmuşam?
(*Ağır sükut.*)
Mən o insanam ki, o adamam ki,
Silmişəm gözümün yaşını çoxdan!
İşığa qovuşan elə odam ki,
Atmışam zülmətin daşını çoxdan.
Verib yeni dövran bu günü mənə.
Çıxıb elim-günüm xoşbəxt, ağ günə!
Kimdim o vaxtacan?
Deyim, sən də bil, –
Küçədə sahibsiz dolanan tifil...

Musiqinin və Müşfiqin həyəcanlı səsi altında səhnə qaranlıqlaşır və uzağa işıq düşür. Uçuq-çökük dağlı məhəllәsinin dalanları arası ilə cır-cındır içində bir uşaq ötüb-keçənlərin qabağına qaçır.

Mikayıl

Ey ağa, ey urus!
Papiros, satıram, papiros!..
(*Ötüb-keçənlərdən biri dayanıb*
*papiros alır, uşaq sevinir.*)
Ay ötən, ay keçən,
Tum alın, tum məndən...

Kimsə dayanıb tum alır. Uşaq sevinir. Səhnə qaranlıqlaşır və yenidən işıqlanır. Əvvəlki vəziyyət.

Müşfiq

Bir görün kim idim, kim olmuşam mən,
Anadan təzədən doğulmuşam mən.
Tutub əllərimdən qurtuluş mənim,
Anamdır bu yeni quruluş mənim.
Bu gün, bu saatçın ona borcluyam!
Bu xoşbəxt həyatçın ona borcluyam!

(*sükut*)

Sovet müəllimi, şairiyəm mən!
Mən nədən inciyəm, bir deyin nədən?

(*sükut*)

Səfər

Sizi anladım...
Bu haqda fikrimiz eynidir bizim.
Bu işi yoluna qoyaram özüm.
Sən belə şeylərə fikir vermə heç.

Müşfiq

Həqiqət yerini tapacaq tez-gec!

Səfər

Deyəsən çox yordu bu söhbət bizi.
Bəlkə sən açasan ürəyimizi,
Bir şeir oxuyasan.
(*saxta bir təbəssümlə*)
Ondadır hünər.
Daşa-torpağa da şeir can verər.

(*Əlindəki kitabı Müşfiqə verir.*)

Müşfiq

Nə deyirəm...

(*Kitabı alır və oxuyur.*)

Öz ömrümü, həyatımı
Ləyaqətlə yaşamaqçın
Mən gəlmişəm bu dünyaya!
Bir övladtək el yükünü
Mətanətlə daşımaqçün

Mən gəlmişəm bu dünyaya!
Ürək istər,
Ürək sevər
Kiminçünsə oda düşüm,
Əlim yansın.
Ürək qıyar,
Ürək qoyar
El yolunda candan keçim,
Bərk ayaqda
Çoxu mənə arxalansın!
Ürək qoymaz,
Ürək qıymaz
Göz kölgəli,
Üz ləkəli
Yaşayım mən!
Kimin isə minnətini,
Kimin isə töhmətini
Özümə bir dərd eyləyim,
Yük eyləyim,
Öz çiynimdə daşıyım mən!
Ürək sevər,
Ürək istər
Ömür eyləsin
Nəyi varsa ona qail,
Alnı açıq, üzü gülər!..

Səfər
(*mənalı*)

Həyat məramıdır, məncə, bu sözlər!
Bu həvəs, bu inam, bu eşq ilə siz
Hələ çox uzağa gedəcəksiniz!
Unutmayın sizin dostunuzam mən.
Dosta xətər yetməz dost əllərindən.
Yaxşı, sağlıqla qal!

(*Müşfiqə əl uzadır.*)

M ü ş f i q

Sağ olun...

Səfər gedir. Müşfiq fikirli-fikirli yazı masasına yaxınlaşır.

M ü ş f i q

Görəsən insanda neçə üz olar,
Xalqdan nə istəyir belə adamlar?!
Onların qəlbini kim anlayar, kim?
Necə sadəlövhdür mənim ürəyim!..

Bu vaxt yan otağın qapısı açılır və Dilbər ev paltarında
yuxulu və pəjmürdə bir halda daxil olur.
Hiss olunur ki, o hamilədir.

D i l b ə r

Bıy, sən evdəsən ki... sabahın xeyir...

M ü ş f i q
(*onu tutaraq*)

Nə olub, əzizim, bu nə deməkdir!

D i l b ə r

Bu gecə yuxumu yaman qatmışam,
Gördüm ki, sən yoxsan, qəmə batmışam.
Ancaq hamı şəndir,
Sanki bayramdır.
Dünya sevinc dolu bir ehtişamdır.
Mən isə hər şeyə biganə, yadam,
Sınıb yol üstünə düşmüş qanadam.
Mənə bir qurd gözlü riyakar baxır,
Hər sözü qəlbimi yandırıb-yaxır...

Dilbərin həyəcanlı səsi və musiqi sədaları altında səhnə qaranlıqlaşır və yenidən işıqlanır. Birinci şəkildəki səhnə. Ətrafdan şən musiqi səsləri gəlir. Əsgəri marş eşidilir. Geyimli-kecimli adamlar əllərində gül dəstəsi keçib gedirlər. Dilbər son dərəcə pəjmürdə evlərinə gedərkən Qəni gəlir.

Q ə n i

Dilbər...

D i l b ə r
(*Dönüb baxır.*)

Sənsən, Qəni?

(*Görüşürlər.*)

Q ə n i

Belə fikirlisən, qəmlisən nədən?

D i l b ə r

Müşfiq gedəndən
Dost-tanış yamanca unudub məni.

Q ə n i
(*iztirabla.*)

Qəmlənməyə dəyməz belə bir gündə,
Bu fikir-xəyallar can qoymaz səndə...

D i l b ə r

Vardımı xalqını sevən onun tək?!

Q ə n i

Olub-keçənlərə nə yan, nə dərd çək.
Rəva görməyirəm ondan ötrü sən
Yaslı adamlartək ömür sürəsən.

D i l b ə r
(*Tutulur.*)

Xoşdur yolunda lap canımı versəm!..

Q ə n i

Qıymıram bürüsün üz-gözünü qəm.
Bayram şənliyi var hər yanda indi,
Hamı nümayişə, sahilə gedir.
Sənsə...

D i l b ə r

Minnətdaram lütfünə görə,
Sevincim Müşfiqlə getdi son kərə.

Q ə n i

İnsan həyatında hər cür iş olar,
Səni bax, indi də sevən tapılar...

D i l b ə r
(*acıqlı*)

Bilmirəm dilindən necə var gəlir,
Müşfiqə sevgimi bu aləm bilir...

Q ə n i

Daha olan olub, yoxdur o artıq...

D i l b ə r

Tufanı qabaqdan hiss edən balıq
Deməli, üzübdür daha dərinə.

Q ə n i
(*iztirabla*)

Bu qədər əziyyət gəl vermə mənə.
Dilbər, bilməlisən bir həqiqəti,
Alma əlimizdən bu səadəti.
Mən səni sevirdim hamıdan əvvəl,
O mənim yolumda olmuşdu əngəl,
Üzürdü canımı həsrət, intizar...

D i l b ə r
(*hiddətlə*)

Qartal yuvasına heç bayquş qonar?!
Görünmə gözümə, çəkil, get, alçaq!

Q ə n i
(*sarsıntı ilə*)

Sənə yaxşılıqdı məqsədim ancaq!
Sözünə fikir ver, neyləyim ki mən
Çıxara bilmirəm səni qəlbimdən...

D i l b ə r
(*çılğın*)

Nifrətə layiqsən, nifrətə, eşit!
Dərdimin üstünə dərd gətirmə, get!

Q ə n i

İstədim hər dərddən qurtarım səni,
Dağıdım başından dumanı-çəni
Sən isə...
(*Gedir.*)

D i l b ə r

İtil get, binamus insan,
Dağlar yerindədir, uçsa da tərlan!

*Skamyaya oturub əlləri ilə üzünü tutur və ağlayır.*
*Bu vaxt kimsə Müşfiqin sözlərindən oxuyur.*
*Dilbərin gözü önündə Müşfiq canlanır.*

M a h n ı

“Bir dolu buludam uca göylərdə,
Bu qara baxtımla bizim ellərdə
Sən neyçin ağlarsan mən duran yerdə?
Dilbər, gözlərinin yaşına qurban!”

D i l b ə r
(*çılğın*)

Bu onun nəğməsi, onun sözüdür!

(*Diqqət kəsilir.*)

Aman! Yoxsa gələn onun özüdür!

M a h n ı

“Səni görmədən ölsəm,
Xəzan olub tökülsəm
Dadlı bahar çağımda,
Sənsiz qara bağlasın,
Bulud kimi ağlasın
Daşım da, torpağım da!”

D i l b ə r

Yox, yox! Məni qoyub getmə, əzizim!
Düşər qar-borana eşqimiz bizim!

V a s i l i

(*Əlində qəzet həyəcanlı gəlir.*)

Hanı Müşfiq?

D i l b ə r

Nə olub, Vasili?

V a s i l i

Tənqid eləyiblər yenə Müşfiqi.

D i l b ə r

Artıq nə fərqi...
Onu da...

V a s i l i

Necə?
Sən nə danışırsan?
Bu, ola bilməz!

Ağır sükut. Bu vaxt uzaqdan xorla nəğmə oxuyan məktəblilərin səsi eşidilir. Səs get-gedə yaxınlaşır.

D i l b ə r

Qulaq ver, onunmu səsidir bu səs?
(*Məktəblilərin nəğməsi*)
"Cahan fikrimizlə süslənəcəkdir,
Hər zaman nəğməmiz səslənəcəkdir.
Bu dünya mehriban qucağımızda
Şən bir çocuq kimi bəslənəcəkdir."

D i l b ə r

Yaşadar şairi bu el, bu torpaq!

V a s i l i

"Kainat olduqca şeir olacaq!"

D i l b ə r

Gedək nümayişə, Müşfiq ordadır,
Yenilməz, sarsılmaz sıralardadır!..

Səhnə qaranlıqlaşır və yenidən işıqlanır. Əvvəlki vəziyyət.

M ü ş f i q

Gör nədən qorxursan, bu ki yuxudur.
Yuxuda gördüyün tərsinə olur...

(*Dilbərə təskinlik verir.*)

Səni qara basıb, boş şeydir bunlar,
Hələ qarşıdadır gözəl dövranlar.
Hər şeyi özünə dərd etmə bir də.

(*işarə ilə mənalı*)

Sabahın anası,
Ana səbrdə,
Dözümdə hamıdan üstün olmalı.

(*ərklə*)

Mən səndə görməyim bir də bu halı.

Hər ikisinin eyni açılır. Dilbər Müşfiqin əlindən tutub divana sarı çəkir.

D i l b ə r

Bir əməlli-başlı danışmadın sən,
Gürcüstana dostluq səfərinizdən.

M ü ş f i q

Nolaydı görəydin o yerləri sən,
O uca dağların mavi gözündən

Bir işıq çəkilir şəhərə, kəndə.
O başsız çayları salaraq bəndə
Çəkib çıxarırlar yala, yamaca...

D i l b ə r

O Ritsa gölünə baxdın doyunca?

M ü ş f i q

Baxdın da sözdümü, qəlbdən vurulduq,
Şota ellərində coşduq, durulduq.
Gördük hər obada min hörmət, izzət.
Məncə qardaşlıqdır ən böyük qüvvət!

D i l b ə r

Həmişə dost olub gürcülər bizə
Ürəkdən yanıblar dərd-sərimizə...

M ü ş f i q

Bilsən necə gözəl şairləri var.
Orda çox sevilir sənət, sənətkar.
Bu səfər xoş ovqat bəxş etdi mənə
Ürəkdən vuruldum gürcü şerinə.

(*Hər ikisi bir anlıq xəyala dalır. Hiss olunur ki, Müşfiq şeir üzərində düşünür.*)

Eh, Dilbər, dövrümüz gözəl başlanır.
Nurlu sabahımız gün kimi yanır
Səma xəyalımın ənginliyində!
Görünməz dumanlar dərinliyində
Qəflətən batmasaq,
Yüz yaşayarıq.
Minillik bir ömrü biz yaşayarıq!

D i l b ə r

(*eyhamı anlayaraq*)

Təki qarışmasın, dönməsin ruzgar,
Bu yolda həm eniş, həm yoxuş olar.

(*Hər ikisinin qayğılı və dalğın baxışları bir-birinə dikilir.*)

D i l b ə r

Səbrli, dözümlü, iradəli ol!
Ən şərəfli yoldur sən tutan bu yol!

M ü ş f i q

Başqa bir yol varmı dözməkdən ayrı?!
Kabusa bənzəyən o buludları
Dağıda bilməsək öz başımızdan
Çıxıb məcrasından çay kimi dövran
Hələ çox yurdları viran qoyacaq.

D i l b ə r

(*təşvişlə*)

Rahat olacağıq, görən, biz haçan?!

M ü ş f i q

(*gərgin*)

Əzizim, sən məndən olma nigaran,
Qara yellər nə qoparar qayadan?!
(*Dilbərin saçını sığallayır.*)
Öncədən hər şeyi duyur ürəyim.
Oğlumuz olacaq deyir ürəyim...
(*Birdən susur. Elə bil ki, boğulur.*
*Acı bir fəryadla.*)
O günü görməsəm,
Onu görməsəm,

Sən onun adını qoyarsan Yalçın!
Böyüyüb boy atar o körpə laçın,
Hey çalıb çağırar könül tarımı,
Yaşadar mənim də arzularımı!

D i l b ə r
(*şaşqın*)

Ay Müşfiq, bilmirəm bu hal nə haldır?
Məndən söz gizləmə, de, hər nə vardır.

M ü ş f i q
(*əlindəki qəzetə işarə ilə*)

Bir görə bilsəydin neyləyir bunlar,
Ağa qara yaxır bəzi məlunlar.

D i l b ə r
(*qəzetə baxaraq*)

Səndən nə istəyir, axı bu zalım?

M ü ş f i q

Özüm də bilmirəm...

D i l b ə r

Pozulur halım...
Yəqin, suyumuzu bulandıran var.
Bir çarə tapmasaq, sonu pis olar.
İndi ki belədir, sakit yaz-yarat,
Baş qoşma onlara...

M ü ş f i q

Belədir həyat,
Daha alışmışam, mən necə sönüm,

Öz məslək yolumdan de, necə dönüm?
Heyif ki, bu yolda çox qadalar var,
Bizə şər-xətalar yeni tor qurar,
Onları tez yaxıb-yıxmaq gərəkdir,
Yeni zirvələrə qalxmaq gərəkdir!

D i l b ə r

Kaş dövran pozmasın iqtidarını!
Çıxarsın bahara arzularını!

Qapının zəngi çalınır. Müşfiq gedib açır. Vasili əlində təzə qəzet daxil olur və hər ikisi ilə görüşür.

V a s i l i
(*əlindəki qəzetə işarə ilə*)

"Səhər" poeması mükafat alıb.

(*Müşfiq alıb baxır.*)

D i l b ə r

Nə yaxşı, bu ki lap qiyamət olub!
Xoş xəbər olasan səni, Vasili.

M ü ş f i q

Sən gəldin Dilbərin açıldı eyni.

D i l b ə r

Bu gecə yuxuma girmişdin mənim.
Qorxudan indi də əsir bədənim.

V a s i l i

Nə? Yuxu görmüsən?
Gizləmə, danış!

D i l b ə r

Daha danışmağa halım qalmamış,
Nə varsa Müşfiqə söylədim indi.
O da gülüb mənə "boş şeydir" dedi.

M ü ş f i q
(*qəzeti Dilbərə verərək*)

Alıb tərif məni öz qanadına
Qaldırıb göylərin yeddi qatına.

D i l b ə r

Hər kimdir, sağ olsun onu yazanı,
Kişi xeyirliyə açıb ağzını.

M ü ş f i q
(*mənalı*)

Bir qəzetdə tərif, birində tənqid,
Qəribə olubdur ədəbi mühit...

D i l b ə r

Yaxşı ki, həyatda yaxşılar da var,
Onlarsız adamın axırı nolar?!

V a s i l i

Belə bədxahları kaş tutub bir-bir
Əlinə-qoluna salasan zəncir,
Atasan dənizə, suyun dibinə!

D i l b ə r
(*Gülür.*)

Gör bir nələr gəlir sənin qəlbinə...

Müşfiq

Bir bahar selidir bizim bu həyat,
Bizim hər birimiz bir dalğa-qanad,
Uçuruq, qoşuruq irəliyə biz.
Gül açıb güllənir əməllərimiz!
Heyif, yolumuzda çox əngəllər var,
Onlar kimi isə axardan qoyar.
Qarşı dura bilməz axına, ancaq!
Onları gur çaylar yuyub atacaq
Elə bu gün-sabah öz məcrasından!
O zaman insan
Şahintək qorxusuz qanad çalacaq,
Bütün bu kainat onun olacaq,
O, yollar ancaq, ulduza, Aya!..

Vasili

Kaş onda gələydik biz bu dünyaya!

Müşfiq

Hər dövrün özünün, gözəlliyi var.
Bu misilsiz günlər, bu sıçrayışlar
Bəşər tarixində olmayıb heç vaxt.
İnsanlar görməyib özünü xoşbəxt.

Dilbər

Bir-birindən gözəl gəldikcə günlər
İnsan yaşadıqca yaşamaq istər.
Buludlar keçdikcə başımız üstən
Xəyal qanad alır arzu-həvəsdən...

Qapının zəngi çalınır. Müşfiq gedib açır. Qurbanla Sübhan əllərində gül dəstəsi daxil olurlar.

Sübhan

Mədəndə eşitdik bu xoş xəbəri,
Gəldik təbrik edək ürəkdən səni!

Qurban
(*ucadan*)

Qoyun indən belə hər Müşfiq şeri
Bu ana torpağı, doğma vətəni
Bəzəsin, ucaltsın buruqlar kimi!

Vasili

Qoy Müşfiq ilhamı ilk bahar kimi
Dalğalar yaratsın, sellər gətirsin.
Sənət gülşənində güllər bitirsin!

Müşfiqlə Dilbər onlara
təşəkkür edirlər.

Müşfiq
(*Qurbana*)

Qardaşım, de, yaran ağrımır daha?

Qurban

Yox, əşi, yaxşıyam, şükür Allaha.

Sübhan
(*Müşfiqə*)

Sənə deyəcəyəm bir xoş xəbər də.
Nə boyun olursan?

M ü ş f i q

Borcun Dilbərdə.
Könlün nə istəyir, özün de, alsın.

S ü b h a n

Qoy Dilbər yaxşı bir şam hazırlasın!
Axşam gəlib yuyaq bu xəbərləri.
Böyük qonaqlığa dəyər hər biri!

D i l b ə r

Eh, buna nə var ki, dedim bəlkə sən
Bizdən bir at-dəvə istəyəcəksən!

Gülüş.

V a s i l i
(*Sübhana*)

Niyə oxu atıb, yayı gizlədin!

S ü b h a n
(*Müşfiqə*)

Sənin bədxahının, o nihilistin
Paxırı açılıb,
Xarabdır işi.
Gör necə bir cildə giribmiş "kişi"...

M ü ş f i q

Gözüm su içmirdi heç mənim ondan.
Onda nə qəlb vardı, nə də ki, vicdan.

O günü mənimlə necə danışdı!
(*Başını bulayır.*)
Məndən üzr istədi, mənlə barışdı.
Az qalmışdı ona lap inanım mən.
Adamda neçə üz olarmış görən?!

Q u r b a n

Bir qolçomaq imiş keçmişdə namərd,
Qaçıb Dağıstana bir xeyli müddət
Gizlində yaşayıb, bilən olmayıb.
Ölümü haqqında şayiə yayıb.
Sonra saxta sənəd keçirib ələ,
Qayıdıb döyüşə gəlib bizimlə.

M ü ş f i q
(*mənalı*)

Demək, boşa çıxdı yeni üsul da,
Hər şey aydın oldu bu duru suda!

(*hamıya*)

Xalq günəş kimidir, ona xor baxan,
Yanar atəşində onun bir zaman,
El kini dolutək yağar üstünə,
Nifrəti sel kimi axar üstünə,
İtirər izini eldən-obadan.
Qalmaz bu dünyada ondan bir nişan!..

Q u r b a n

Yenə şeir üstə köklənmisən sən.

D i l b ə r

Ay Müşfiq, nə olar, bir şeir desən!

Müşfiq
(*iftixar hissi ilə*)

Həyata, zamana verib imtahan,
Əməldən doymayan, işdən doymayan
"İrəli, qəhrəman xalqım, irəli!
Vaxtında qurtaraq böyük işləri.
Yolun haqq yoludur, hər imkanın var,
Aləmə nümunə bir dövranın var,
O səni göylərə qaldıracaqdır,
Dərin dəryalara daldıracaqdır.
Yüksəl, yüksəl mənim şöhrətli ölkəm!
Şeirdən, şairdən dövlətli ölkəm!.."
Mənə bu gedişdə siz olun qanad!

(*hamıya*)

"Sevgim mübarizə, sevgilim həyat!"

Hamının üz-gözündə coşqun bir ifadə.

PƏRDƏ

*1968-1972*

## ARİF ABDULLAZADƏ

(1940-2002)

*Abdullazadə Arif Əbdürrəhman oğlu – şair, nasir, ədəbiyyatşünas-alim, dramaturq – Şəki şəhərində anadan olmuşdur. Oradakı 11 saylı şəhər məktəbində, ADU-nun filologiya fakültəsində təhsil almışdır (1956-1961). Azərbaycan EA-nın əsaslı kitabxanasında, Nizami adına Ədəbiyyat Muzeyində redaktor-mütəxəssis, kiçik elmi işçi (1961-1962), Nizami adına Ədəbiyyat İnstitutunda elmi işçi (1962-1993), Müasir Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri işləmişdir (1993-2002). Filologiya elmləri doktorudur (1974). 14 elmi, ədəbi-bədii kitabların müəllifidir. Pyesləri Bakı və Şəki teatrlarında tamaşaya qoyulmuşdur.*

*Azərbaycan Yazıçılar Birliyinin üzvüdür (1969).*

## AQİLLƏR

*3 pərdəli komediya*

İŞTİRAK EDİRLƏR

Dərgah – Elmi-tədqiqat institutunun rəhbərlərindən biri (müdir, yoxsa müdir müavini olduğu bəlli olmur)
Murtuz – institutda şöbə müdiri
Nazilə, Firuzə, Nadir, Vasif, Səfi – həmin şöbənin əməkdaşları
Müşərrəf – institutun dissertantı
Portfelli kişi – kimliyi və nəçiliyi bilinməyən bir şəxs
Amir – jurnalın redaktoru
Məmmədəli, İsmət, Şirvan, Eldar – jurnalın əməkdaşları
Sürücü, iclas iştirakçıları

Əhvalatlar Bakıda vaqe olur.

## BİRİNCİ PƏRDƏ

Qapısı taybatay açıq olan otaq səhnənin nisbətən arxa hissəsində yerləşir və bu açıq qapıdan bu otaqdakı bir neçə masa və stullar tamaşa salonundan asanca görünür – ümumi iş otağını xatırladır. Səhnənin ön hissəsində bir-birindən bir az aralı iri gül dibçəkləri düzülmüşdür – dəhlizə bənzəyir. Otaqdakı masaların çoxu boşdur. Təkcə sağ küncdə qoyulmuş masanın arxasında ultra dəbdə geyinmiş bir qız, şəkilli jurnallara baxmaqla məşğuldur. Sol tərəfdə, qapıya yaxın küncdə isə arıq və cılız bir gənc üstünə xeyli kitab, jurnal və kağızlar qalanmış masaya döşənib hamını və hər şeyi unutmuş kimi nə isə oxuyub yazır. Telefon zəng çalır. Qız yerindən sıçrayıb dəstəyi qaldırır, cingiltili səslə danışmağa başlayır.

N a z i l ə. Alo? Aha. Privet. Culya sənsən? Necəsən Culinka? Belə də, niçevo. Hə. Hə. Kim? Böyük şef, liçnı sam? Necə? Şöbədə heç kəs yoxdu axı. Bura bax, o ki keçən həftə gəlməliydi. O boyda panika qaldırıb aləmi tökdüm bura. Düz işin axırınacan gözlədik, pristavlyayeş? Yenə gəlib çıxmadı. Bütün günümüz itib getdi, ehh... Nu ladno, zəng eliyərəm. Paka. (*Sərt hərəkətlə dəstəyi qoyub yenidən qaldırır, nömrəni yığıb yavaşdan, nazla danışmağa başlayır.*) Alo, Murtuz müəllim? Salam, Nazilə narahat eləyir, necəsiz? Sağ olun. Murtuz müəllim, bilirsiz niyə zəng eləmişəm? Eeee, indicə Culya zəng elədi ki, gəlirlər yenə. Onlar daaa, bəli, bəli, keçən həftə gözlədiklərimiz, şöbələri gəzəcəklər, gəlirsiz? Yaxşı, bu saat hamısına zəng eliyərəm. Sağ olun. (*Dəstəyi qoyub, yenidən qaldırır. Ucadan və tez-tez danışmağa başlayır.*) Alo, Fira, mənəm, Nazadı, tez uç bura, Fantomas v qorode! Hə, hə, gəlirlər, tez, tez! (*Tələsik yeni nömrə yığır, səsini bir az dəyişir.*) Nadir müəllim? Salam, Nazadı, tez işə gəlin, yoxlamadı, bəli, bəli, tez gəlin, Murtuz özü dedi. Sağ olun. (*Yenə nömrə yığır.*) Alo? Bağışlayın, Vasif müəllim evdədi? İnstitutdandı, hara gedib görəsən? Bəli, Nazilədi. Bağdadı? Bəs orda telefon-filan yoxdu? Hə, çox lazımdı. Heç, elə-belə deyin ki, "Fantomas v Parije", özü başa düşəcək. (*Gülür.*) Yox, Parijə göndərmirlər, işə çağırırlar. Sağ olun. (*Dərindən köks ötürüb yenidən nömrə yığır, əl-qol ata-ata tez-tez danışmağa başlayır, ancaq sözləri anlaşılmır, onun danışıq tempinə uyğun musiqi sədaları altında səsi eşidilməz dərəcəyə enir.*)

Nazilə telefonla danışdıqca dəhlizdə müxtəlif işçilər tələsə-tələsə sağa-sola qaçışırlar. Musiqi bu hərəkətləri də müşayiət edir. Bir azdan musiqi yavaş-yavaş azalır. İşçilər bir-bir gəlib otağa keçirlər.

V a s i f (*qapının ağzında görünür*). Privet!

S ə f i (*başını qaldırıb yorğun halda ona baxır*). Əleykümə-privet.

V a s i f (*rişxəndlə*). Yazırsan?

S ə f i. Hə.

V a s i f. Yaz, bala, yaz. (*Naziləyə yaxınlaşıb onun əlindən öpür.*) Necəsən, Nazoçka? Bəs hanı Fantomas?

N a z i l ə. Nə bilim hanı? Allah bilir, yenə hansı mərtəbədə ilişib qalıb. İşçiləri yığmaq üçün oçerednoy panikadı da.

V a s i f. Eh, əntiqə oturmuşdum özümçün bağda, televizorda detektiv, qabağımda da çeşski pivə. Elə bu vaxt qəfil telefon zəngi, qəfil proza – külək, yağış, sisli yollar. Az qala avariya eləmişdim və... köçmüşdüm bu fani dünyadan... Bura bax, Nazoçka, deyirlər təzə dissertant xanım gəlir şöbəyə, düzdü?

N a z i l ə. Hə, özü də lap əməlli-başlısından.

V a s i f. Əməlli-başlı dissertant?

N a z i l ə (*çılğın*). Xeyr, əməlli-başlı xanım.

V a s i f. Kimin xanımı?

N a z i l ə. Onu Murtuzdan soruş.

N a d i r (*qapıda görünür*). Gənc və ümid verən alimlərə salamlar. (*Əlindəki iri portfeli masanın üstünə qoyur.*) Yenə bu nə şuxurdu, balam?

V a s i f (*əlini ona uzadır*). Ooo, privetlər, privetlər, Nadir müəllim. Ölkədə nə var, nə yox?

N a d i r. Əşi, nə olacaq? Külək, yağış, fısqırıq. Belə havada adamı evdən çıxarararlar? Gül kimi oturmuşdum dəftər-kitabımın arasında qol-boyun, qurdalanırdım özümçün.

V a s i f. Yenə nə quraşdırırsan? Onsuz da heç biri çap olunmur, nə üzürsən dadlı canını?

N a d i r. Eh, mənə nə var ey, məhkəməlik adamam.

V a s i f. Necə?

N a d i r (*söhbəti dəyişmək niyyətilə*). Deyirlər təzə dissertant gəlib bizə...

V a s i f. Hə, özü də əməlli-başlısından. Olmaya tanıyırsan?

N a d i r (*əsəbi təbəssümlə*). Özünü yox, papaşasını.

V a s i f. Kimdi ki?

N a d i r. Onu tanımayana lənət.
V a s i f. Ay onu tanıyana lənət. Kimdi sən allah?

Nadir ağzını onun qulağına tutub nəsə deyir.

V a s i f. Tı çto?
N a d i r. Çto özünsən, əşyanın biri əşya! Xanım da ki, nə xanım!

Bayaqdan jurnala baxa-baxa özünü eşitməməzliyə qoyan Nazilə ehmalca başını qaldırıb, qulağını şəkləyir.

V a s i f (*maraqla*). Necə xanım?
N a d i r (*təntənə ilə*). Maral! (*Siqaret çıxarıb dəhlizə keçir. Vasif də onun arxasınca çıxır. Dəhlizdə dayanıb siqaret çəkə-çəkə söhbət edirlər, ancaq səsləri eşidilmir.*)
F i r u z ə (*sürətlə gəlir, dəhlizdəkilərə salam verib otağa keçir*). Salam. (*Çantasını masanın üstünə fırıldadıb Naziləyə yaxınlaşır.*) Bu nə işdi, ay qız?
N a z i l ə. Onu Culyanın şefindən soruş, sirləri birdir.
F i r u z ə (*yerinə keçib masanın siyirtməsindən kitab, jurnal, kağız, qələm çıxarır, pərakəndə halda masanın üstünə tökür*). Qoy görsünlər ki, işləyirik kak budto (*səsini qaldırır*), əşi, gələn deyil ey, vallah gələn deyil. Bir ildi eşidirik onun gəlməyini. Bu altı mərtəbə o qədər hündürdü ki, onu bir ilə çıxmaq mümkün olmaya?! (*Çantasından bir bağlama çıxarıb masanın üstünə qoyur.*)
N a z i l ə. O nədi elə?
F i r u z ə. Oyuncaqdı, dovşan balası.
N a z i l ə. Neynirsən onu?
F i r u z ə. Axşam qardaşımın dostu Orxan Dəmiroğlunun rajdeniyasıdı, ona aparacam.
N a z i l ə (*təəccüblə*). Bəstəkara da dovşan aparırlar?
F i r u z ə (*etinasız*). Niyə aparmırlar? O mənim rajdeniyama müğənni Baba Mirzəyevi gətirmişdi.

Nazilə qəhqəhə çəkib gülür.

F i r u z ə (*ciddi*). Bəs Murtuz müəllim gəlməyib?
N a z i l ə. Hamıdan qabaq ona zəng eləmişəm. Yəqin yenə unudub, huşu başında deyil ki. Bir də görürsən, özü sabaha iclas təyin edir, amma gəlib çıxmır.

F i r u z ə (*ehtiyatla çevrilib Səfiyə baxır*). Elə demə, ay qız, bilirsən onun nə qədər işi var?

N a z i l ə (*rişxəndlə*). Əlbəttə, əlbəttə. Kim nə deyir ki?

F i r u z ə. Dünən televizorda danışırdı Murtuz müəllim. Mama deyirdi ki...

M u r t u z (*ağır addımlarla gəli*r. *Firuzə onu görüb səsini kəsir*). Salamün əleyküm.

F i r u z ə (*əl-ayağa düşür*). Əleykü salam, Murtuz müəllim, necəsiz? Mələk xanım, uşaqlar necədir?

M u r t u z (*ciddi*). Sağ olun, babatdılar.

F i r u z ə (*eyni canfəşanlıqla*). Dünən baxdım sizə televizorda, elə gözəl danışırdız ki, adam valeh olurdu. Mama deyirdi ki...

Bu anda otaqdakıların səsi eşidilməz olur. Eyni anda dəhlizdə dayanıb söhbət edən Vasif, Nadir və Zahidin səsi ucalır.

V a s i f. Eh, fani dünya! Yerüz məlum, dünən "Növbahar"a getmişdim. Şəki kuxnası gəlib. Elə plovlar verirlər ki. Deyirəm ey, Şəki plovundan olmaz.

N a d i r. Xeyr, ən gözəl plov Qarabağda olur.

V a s i f. Əşi, nə danışırsan? Şəki plovuna çatan plov bütün dünyada yoxdur. Təkcə onun qazmağı nəyə desən dəyər.

N a d i r. Xeyr, əşi, Qarabağ plovunun ətri adamı bihuş edir, dadına-tamına da ki, söz yoxdur.

V a s i f (*özündən çıxır*). Buna bax ay, ədə, bəs Şəki plovunun zəfəranı?

N a d i r (*səsini qaldırır*). Bəs Qarabağ plovunun qarası?

Z a h i d. Qarabağda paxlalı plov olur?

N a d i r. Bəs necə? Paxlalı-şüyüdlü, özü də əməlli-başlısından.

V a s i f. Bəs lappalı plov?

N a d i r. Lappa nədi?

V a s i f. Həəə, görürsən, bilmirsən. Lappa, yəni lobya püresi.

N a d i r. Nə?

Z a h i d. Əslində Lənkəran plovu hamısından yaxşıdır.

V a s i f. Yəni, deyirsən Şəki plovundan da?

Z a h i d. Lap elə Şəki plovundan da!

V a s i f (*əsəbi*). Bu nə deyir ə?!

N a d i r (*yorğun*). Eh, mənə nə var ey, məhkəməlik adamam.

V a s i f. Yenə başladı. Bu nə məhkəməbazlıqdı eyy, başım çıxmır, "məhkəməliyəm, məhkəməliyəm". Sən hara, məhkəmə hara? Sən ki quzu kimi adamsan.

N a d i r. Vaxt gələr, başa düşərsən.

Z a h i d. Lənkəran plovunun düyüsü, bax (*çeçələ barmağını göstərir*), belə-belə durur padnosda.

V a s i f. Sən Şəki plovunu Şəkidə yemisən?

Z a h i d. Mənim Şəkidə nə işim var? Tutaq ki, yeməmişəm, nolsun ki?..

V a s i f (*özündən çıxır*). Necə yəni nolsun, necə yəni nolsun? Adə, sən bilirsən Şəkidə necə ocaq qazmaqları olur?

Z a h i d. Şəkidə çox şeylər olur, nolsun ki?

V a s i f. Yenə deyir, "nolsun". Sən öləsən bu məni özümdən çıxaracaq.

Başında əzik şlyapa, qoltuğunda iri portfel tutmuş
arıq bir kişi onlara yaxınlaşır.

P o r t f e l l i  k i ş i. Bağışlayın, bu hansı institutdur?

V a s i f (*təəccüblə*, *bir az əsəbi*). Elmi-tədqiqat institutu.

P o r t f e l l i  k i ş i. Onu bilirem eyy, adını soruşuram.

V a s i f. Adı?

Z a h i d. Adı...

N a d i r (*ucadan*). Kulinariya institutu.

Hamı gülüşür. Portfelli kişi təəccüblə onları süzüb uzaqlaşır.

V a s i f. Bəs düşbərə necə?

Z a h i d. Ən yaxşı düşbərə Bakı düşbərəsidir.

V a s i f. Xeyr, ən yaxşı düşbərə...

Portfelli kişi yenidən onlara yaxınlaşır. Hər üçü təəccüblə
ona baxıb susurlar. Eyni anda otaqdakıların səsi ucalır.

F i r u z ə. Murtuz müəllim, deyirlər bizə təzə dissertant gəlir.

M u r t u z (*qarşısındakı kağızları eşələyə-eşələyə dilucu*). Həə. Bu gün gərək ona mövzu təsdiq eləyək.

S ə f i (*başını qaldırıb maraqla*). Mövzu nədir?

M u r t u z. Nə bilim. Qoy gəlsin görək...

F i r u z ə. Yəqin çox talantlı qızdır. O gün mama deyirdi ki, papası...

Dəhlizdəkilərin yenidən ucalan səsi onun sözlərinin eşidilməyinə imkan vermir.

Z a h i d (*Firuzəyə işarəylə*). Ə, bu Firanızı niyə ərə vermirsiz ki, səsi kəsilsin?

V a s i f. Ər elə biri sən özün, al da, subay oğlansan.

Z a h i d. Bircə elə starı devamız çatışmırdı! Sən də söz dedin də.

V a s i f. Amma o "starı devanı" yaman dedin ha. Bu institutların yarısından çoxu elə starı devadı. Səbəbini deyə bilərsiz?

N a d i r. Canlarını elm yolunda qoyurlar daa bədbəxtlər.

V a s i f. Xeyr, əzizim, tapmadın. Məsələ bir az qəlizdir.

N a d i r. Hə, necə?

V a s i f. Bunların çoxu instituta laborant və ya dissertant götürülləndə əvvəl-əvvəl könüllərindən mənzilli aspirant keçir. Sonra iştahları böyüyür, kandidat nauk axtarırlar, doktorların içində subay qalanı varsa, ona da şirnikirlər. Və elə bu müddətdə neçə-neçə mühəndis, texnik, fəhlə, şofer, daha nə bilim kim, bu elm və şöhrət fədailərini özünə halalca arvad, ev-eşik sahibi, oğul-uşaq anası eləmək istəyir, ortaya adam salır, elçi göndərirlər. Bunlarsa nə qədər ki, hələ gəncdilər, gözəldilər burunlarını göyə tutub, əllərini yelləyirlər: xeyr, əzizim, mən elmi işçiyəm, hətta dissertasiya mövzum da var, fəhlə kimdi, şofer nəkarədi mənim yanımda, kirli-mazutlu stanok, puff! Beləcə burunları göydə, əlləri havada, bir də ayılıb görürlər ki, yaşları qırxı keçib, ətraflarındakı fəhlələr, şoferlər də dağılışıb gediblər ocaqlarının başına.

Gülüşürlər.

N a d i r. Yaxşı, çıxart o zibilindən birini görək.

Vasif siqaret paçkasını ona uzadır.

N a d i r. Nədi, "Yava"dı?

V a s i f. Hə, yaxşı siqaretdi.

Z a h i d. Əslində ən yaxşı siqaret "Opal"dı, boş və ucuz.

V a s i f (*özündən çıxır*). Nə danışırsan ə?! (*Köks ötürür.*) Siqaret deyilən şey "Malboro"dur, vəssalam. Çəkəndə elə bil konyak içirsən, dodaq öpürsən.

N a d i r. “Malboro”nu gərək ki, türk tütünündən hazırlayırlar, eləmi?

V a s i f. Hə, toçnı.

Z a h i d. Bəs onda türk siqaretləri...

P o r t f e l l i  k i ş i (*onlara yaxınlaşır*). Bağışlayın, axı bu institutun adı...

V a s i f (*onun sözünü kəsir*). Keçmədik işə?!

P o r t f e l l i  k i ş i (*şaşırır*). Axı bunu demək nə çətin işdir ki? (*Başını yelləyib uzaqlaşır.*)

R a m i z (*onlara yaxınlaşır*). Nədi ə, yenə nə baş-başa vermisiz?

N a d i r. Siqaret vitrini açmışıq.

R a m i z. Nə siqaret ə, sən tapıntılardan danış. Dünən elə qiymətli şey tapmışam ki, misli-bərabəri yoxdu elmdə.

N a d i r. Nədi o, dayı?

R a m i z. Dayı nədi ə? Dayını bir dəfə udaçnı evlənməynən də tapmaq olar. Bu başqa şeydi.

V a s i f. Onda vesli, vəzifəli qohumdu.

R a m i z. Ə yox ə, sən öl, vəzifə-filan vremenni şeydi. Mənim tapıntım əbədi şeydi, ömürlük.

Z a h i d. Ömürlük? Onda ya puldu, ya da yaltaqlıq.

R a m i z. Ə yox ə, sən öl, tapmadız.

V a s i f (*hövsələsiz*). Nədi axı?

R a m i z. Desəm, inanmazsız.

V a s i f. Bildim, bildim. Bir dayan görüm... Hə, tapdım: mənzilli canan.

R a m i z. Gic-gic danışma ə, Nadir müəllim qulağını bəri gətir (*nəsə pıçıldayır*).

N a d i r. Onu beş il bundan əvvəl tapıblar ki.

R a m i z (*özündən çıxır*). Ə yox ə, sən öl, kim tapa bilər onu, ora heç kəsin xodu yoxdur.

N a d i r. Zəfər Zeynallı. Jurnalda məqaləsi də çıxmışdı.

V a s i f. Həəə, bildim. Zəfərin tapdığını deyir?

R a m i z. Ə yox ə, sən öl, Zəfər başdan xarabın biridir, o nə tapa bilər axı?

N a d i r. Nə bilim vallah.

R a m i z. Ə yox ə, sən öl, Zəfər yaxşı oğlandır.

N a d i r (*çarəsiz*). Hə, elədir.

R a m i z. Ə yox ə, sən öl, səfeh adamdır.

N a d i r (*öz-özünə*). Keçmədik işə?!

Bu məqamda bir nəfər orta boylu, arıq bir kişi onlara yaxınlaşır.

A r ı q  k i ş i (*təngnəfəs*). Tez olun, tez olun, otaqlara keçin. Dördüncü mərtəbədədirlər. Cəld olun, keçin oturun, qarşınıza kitab-dəftər tökün, çayniki-filanı da gizlədin bir yerdə. (*Tələsik uzaqlaşır.*)

Hamı siqaretləri söndürüb otaqlara çəkilir.

V a s i f (*küncdəki masanın arxasında oturub işləyən Səfinin yanından keçə-keçə*). Hə, yazırsan?

S ə f i (*başını qaldırıb mat-mat ona baxır*). Hə.

V a s i f. Yaz, yaz. (*Səsini qaldırır.*) Adə, müdafiə elədin, oldun mən, sonra? Eh, fani dünya! (*Yerinə keçib oturur.*)

M u r t u z. Yaxşı, keçin oturun, nə qədər ki, hamı burdadır, bir xırda iclas eliyək.

Telefon zəng çalır.

M u r t u z (*dəstəyi qaldırır*). Alo? Bəli. Ooo, salam, hər vaxtınız xeyir. Dərgah müəllim, necəsiz, nə var, nə yox? Çox sağ olun. Necə? Hə, bir az nasazlamışdım, keçər. Hə, hə, bilirəm, kişi mənə də zəng eləmişdi. Nə bilim, gözləyirik də, hə, gəlməlidir. Əlbəttə, əşi, daa buna söz ola bilməz ki. Elədi, arxayın olun, əlbəttə. Sağ olun (*Dəstəyi qoyur.*) Hə, başlayaq, hansı işlərimiz var?

F i r u z ə (*nazla*). Murtuz müəllim, mənim kitabımı çapa göndərmək lazımdır.

M u r t u z. Göndərək də.

F i r u z ə. Çox sağ olun. İndii... lap elə... bu gün bu kitaba redaktor və rəyçilər təyin eləmək lazımdır.

M u r t u z. Eliyək də... Kimi istəyirsən?

F i r u z ə. Rəyçilərin biri institutumuzdan İlqar müəllim, kənardan da yuxarı mərtəbədəki Rüstəm müəllim. Redaktor da elə siz.

N a d i r. Əsər şöbəmizdə müzakirə olunub?

F i r u z ə (*tələsik*). Murtuz müəllim oxuyub daa, rəyçilərin də rəyi hazırdır.

V a s i f. Nadir, bəs sənin kitabın çapa hazır deyil?

N a d i r. Kitabım yox, kitablarım.

V a s i f. Bəs niyə çap olunmurlar?

N a d i r. Çünki... çünki mən məhkəməliyəm.

V a s i f. Yenə başladı. Eh, fani dünya!

M u r t u z (*onların kinayəsinə əhəmiyyət vermədən*). Yaxşı, hanı kitab, Firuzə xanım?

F i r u z ə. Evdədi.

M u r t u z. Nə vaxt gətirirsən?

F i r u z ə. Gətirərəm. Murtuz müəllim, deyirəm, bugünkü iclas protokolundan bir çıxarış verin, aparım nəşriyyata.

M u r t u z. Yaxşı hazırlayın.

F i r u z ə. Hazırdı, Murtuz müəllim, təkcə sizin qolunuz qalıb. (*Ayağa qalxıb əlindəki kağızı Murtuza uzadır. Murtuz baxmadan qol çəkir.*) Çox sağ olun, Murtuz müəllim, çox xeyirxah adamsız. O gün mama deyirdi ki...

S ə f i (*alçaq səslə*). Murtuz müəllim, mənim də bir məqaləm var...

M u r t u z (*həvəssiz*). Nə məqalə?

S ə f i. Dissertasiyamdandı.

M u r t u z. Planlaşdırarıq, darıxma. İndi əlimizdə daha vacib işlərimiz var. (*Tələsik.*) Yaxşı, keçək əsas məsələyə. İndi bir dissertant gələcək bura. Müşərrəf xanım, yəqin eşitmisiz...

Orta boylu, otuz yaşlarında bir kişi qapıda görünür.

O r t a  b o y l u  k i ş i. Salaməleyküm, Murtuz müəllim.

M u r t u z. Salam, amma iclasdı.

O r t a  b o y l u  k i ş i. Mümkünsə, bircə dəqiqə vaxtınızı alım, Murtuz müəllim, uzaqdan gəlmişəm, sabah rayonda dərsim var, axşam getməliyəm.

N a d i r. Buyurun içəri keçin, qapıda dayanmayın.

M u r t u z (*çarəsiz*). Yaxşı, deyin, amma müxtəsər eləyin bir az.

O r t a  b o y l u  k i ş i. Baş üstə. Belədi Murtuz müəllim, mən üç ildən çoxdur ki, bir mövzu üzərində işləyirəm. Mövzunun adı, plan-prospekti, zəruri material və ədəbiyyatı da çoxdan hazırdır. Əsərin ilk variantı demək olar ki, yazılıb. Rayon qəzetində bir-iki məqalə də çap etdirmişəm.

M u r t u z. Bakıda necə?

O r t a  b o y l u  k i ş i. Bakıya yolum düşmür, rayonda işlərimiz çoxdur, məktublarım isə çox vaxt cavabsız qalır.

M u r t u z (*son dərəcə ciddi*). Qayda belədi. Bakıda bir neçə jurnal, hə, hə, jurnal məqaləsi çap etdirin. Nəzəri fikirlərinizi təcrübədə

yoxlayın. Sonra hər şeyi yüz ölçüb, bir biçin. Ən sonra isə əsərinizi, sənədlərinizi yaxşı-yaxşı hazırlayıb gətirin, mövzunuzu müzakirə eliyək.

N a d i r. Mövzusunu, yoxsa əsərini?

M u r t u z. Nə əsər? Əvvəlcə gərək mövzu təsdiq edilsin, o da hələ xoşumuza gəlsə. Qanun belədi!

O r t a b o y l u k i ş i (*hələ də ayaq üstədir*). Yaxşı, Murtuz müəllim, amma...

M u r t u z. Nə amma? Amması da budu, qanması da. Gedə bilərsiz.

O r t a b o y l u k i ş i. Yaxşı, sağ olun. (*Ağır addımlarla qapıya yönəlir.*) Bəs axı... (*Sözünü bitirməyib yavaşca uzaqlaşır.*)

Elə bu vaxt ultra dəblə geyinmiş, həddindən artıq kosmetikalı, gözəl və qamətli bir qadın sürətlə içəri girir.

M ü ş ə r r ə f. Salam, Murtuz müəllim.

M u r t u z (*ayağa qalxır*). Salam, salam. Xoş gəlmisiz. Buyurun əyləşin. (*Yanındakı stulda yer göstərir.*) Nə var, nə yox, necəsiz?

M ü ş ə r r ə f. Sağ olun, siz necəsiz? (*Oturur.*)

M u r t u z. Çox sağ olun? Kişi necədir?

M ü ş ə r r ə f (*gur saçlarını geri atıb işvə ilə gülümsəyir*). Hansı kişi, papa yoxsa...

M u r t u z (*bir az özünü itirib*, *tez də ələ alır*). Hər ikisi.

M ü ş ə r r ə f. Yaxşıdırlar, sağ olun.

Protokol yazan Nazilə bərkdən asqırır. Səfi qəfil səksənir, qələm əlindən düşür, az qalır stuldan yıxılsın. Nadir qəhqəhə çəkib gülür.

N a z i l ə. Murtuz müəllim, bir az bərkdən danışın, eşitmirəm.

M u r t u z (*ciddiləşir*). Hələ heç nə yazma. (*Bir az da ciddiləşir.*) Yaxşı... Müşərrəf xanım, sənədlərinizi gətirmisiz?

M ü ş ə r r ə f (*işvəli təbəssümlə*). Nə sənəd?

M u r t u z (*yenidən əvvəlki vəziyyətə qayıdır*). Heç... anket-filan.

M ü ş ə r r ə f. Xeyr, hələ hazırlamamışam.

M u r t u z. Eybi yox, düzəldərsiz. (*Yenidən ciddiləşir.*) Deməli, belədir, Müşərrəf xanım üniversiteti bitirib, fərqlənmə diplomuyla. İndi biz ona dissertasiya mövzusu təsdiq etməliyik.

N a d i r. Mövzusu nədir?

M ü ş ə r r ə f. Hələ seçməmişəm.

N a d i r. Demək, onda məqaləsi də çıxmayıb.

Nazilə yenidən asqırır. Səfi də öz növbəsində yenidən səksənir.

M u r t u z (*ehtiyatla*). Seçər dəə, nə tələsiklikdir. Görünür çox ciddi yanaşır bu işə. Biz ona bugünkü iclasın protokolundan bir çıxarış verək, mövzunu sonra əlavə edərik ora.

V a s i f. Nolar, elə də olar.

F i r u z ə. Hə də... seçər dəəə, mövzuya nə var ki?

N a d i r (*güclə seziləcək kinayə ilə*). Əlbəttə olar, əşi. Özü zəhmət çəkib gəlib ki. Keçən həftə mövzu təsdiq elədiyimiz oğlanın heç özü yox, mövzusu gəlmişdi iclasımıza. Müşərrəf xanımsa özü zəhmət çəkib gəlib, mövzusu da gələr dəə. Əsas insanın özüdür, mövzuya nə var ki?

M u r t u z (*kinayəni anlamırmış kimi*). Deməli, Müşərrəf xanım bu gündən olur bizim institutun dissertantı. Təbrik edirik, Müşərrəf xanım.

V a s i f. Bəs elmi rəhbəri kim olacaq? Bəlkə Nadir müəllim olsun, hə?

M u r t u z (*ciddi və boğuq təbəssümlə*). Özü məni istəyir deyəsən.

F i r u z ə. Lap yaxşı olar. Murtuz müəllim çox gözəl rəhbərlik edir. O gün mama deyirdi ki...

Nazilə yenə asqırır, Firuzənin son sözləri eşidilməz olur, çünki eyni anda
Səfi də səksənir və masasının üstündəki kitablar yerə tökülür.
Vasif siqaret çıxarıb ayağa qalxır, Səfinin yanından
keçəndə bir an ləngiyir.

V a s i f. Yazırsan?

Səfi başını qaldırıb təəccüblə ona baxır.

V a s i f. Yaz, yaz.

İşıq sönüb yenidən yanır. Hamı eyni vəziyyətdə oturmuşdur.
Səhnə quruluşunda işığın bu cür sönüb-yanması bir neçə müddət
(gün, həftə, ay) keçməsini əlamətləndirməlidir.

M u r t u z. Bugünkü iclasımızın əsas məsələsi Müşərrəf xanımın yazdığı dissertasiyanın müzakirəsidir. (*Nazilə asqırır. Murtuz ciddiləşir.*) Nazilə, protokol yazırsan?

N a z i l ə. Yazıram, Murtuz müəllim, yazıram.

M u r t u z. Dissertasiyanı şöbədənkənar Dəmir müəllim, şöbədən isə Firuzə xanımla mən oxumuşuq. (*Üzünü Nadirə tutur.*) Nadir müəllim, sən necə, oxumusan?

N a d i r. Mənə deyən olmayıb. Müzakirə elanı da elə bu gün asılıb.

M u r t u z (*süni təəccüblə*). Bəs bu necə olub, Nazilə?

Nazilə çiyinlərini çəkib dinmir.

M u r t u z. Vasif, sən necə?

V a s i f. Mənə dünən verdilər, vərəqləmişəm.

M u r t u z. Yaxşı, onda başlayaq. Deyirəm, ilk sözü qonağa verək, hə? Buyurun, Dəmir müəllim.

D ə m i r. Mən bu dissertasiyanı çox diqqətlə oxumuşam. Müzakirəyə təqdim olunan bu əsər eee... elmimizdə ilk dəfə mühüm və əhəmiyyətli problemlər qaldırır. Əsər üç fəsildən ibarətdir və hər üç fəsildə qarşıya qoyulan məsələlər düzgün və hərtərəfli şəkildə həll edilmişdir. Fəsillərin sonunda müəllif son dərəcə maraqlı elmi nəticələrə gəlib çıxır. Mən bu məsələ və problemləri, həmçinin onların nəticələrini burda bir-bir saymaqla sizin qiymətli vaxtınızı almaq istəmirəm. Əslində buna ehtiyac da yoxdur. Çünki Müşərrəf xanımı hamımız yaxşı tanıyırıq, necə deyərlər, elmi şoma məlum şod. Hə, onu da deyim ki, dissertasiyada qarşıya qoyulan məqsədə müvafiq olaraq əsas material tam əhatə olunmuş, elmi-nəzəri ədəbiyyat ümumi tədqiq-təhlil prosesində yaxşı əridilmişdir. Dissertasiyanın üslubu aydın, dili səlisdir. Dissertasiyada bəzi xırda-para, əhəmiyyətsiz cümlə və söz xətaları var ki, onları da müəllifin özünə demişəm. Yəqin ki, düzəldib.

F i r u z ə. Hə, hə, düzəldib, əlbəttə, düzəldib.

D ə m i r. Fikrimi yekunlaşdıraraq demək istəyirəm ki, Müşərrəf xanımın əsəri namizədlik dissertasiyasının bütün tələblərinə cavab verir və onun müəllifi elmlər namizədi adını almağa tamamilə layiqdir.

N a d i r. Hansı elmlər?

P o r t f e l l i   k i ş i (*qapıda görünür*). Bağışlayın, bir söz soruşum. Bu institutun adı...

M u r t u z (*son dərəcə ciddi*). İclasdı.

P o r t f e l l i   k i ş i (*təəccüblə*). İclas? Belə də ad olar?

N a d i r. Olar, day-day, bu institutda nə desən olar.

Portfelli kişi şaşqın halda uzaqlaşır.

M u r t u z. Firuzə xanım, buyurun.

F i r u z ə. Murtuz müəllim, mən dissertasiyaya rəy yazmışam. Onun hamısını oxuyum, yoxsa nəticəsini?

M u r t u z (*hamıya müraciətlə*). Hə, nə deyirsiz?

V a s i f (*xüsusi ahənglə*). Əşi, nə lüzum var ey, son cümləsini oxu qurtarsın getsin. (*Öz-özünə.*) Eh, fani dünya!

M u r t u z. Nə?

V a s i f. Heç...

M u r t u z. Fani dünyadı, nədi, deyirdin.

V a s i f. Hə, deyirdim dünya fanidir, yaxşılıq qalacaq.

Nazilə asqırır. Səfi yenə səksənir, qələm əlindən düşür.

M u r t u z. Hə, buyurun, Firuzə xanım.

F i r u z ə. Nəticəni oxuyuram... Bütün bunları nəzərə alaraq, mən belə hesab edirəm ki, əsər namizədlik dissertasiyasının bütün tələblərinə cavab verir və onun müəllifi kandidatlığa layiqdir.

M u r t u z. Çox yaxşı. Onda mən də bir-iki kəlmə deyim. Müşərrəf xanımın əsərini mən də diqqətlə oxumuşam. Bu dissertasiya elmimizdə son dərəcə aktual...

Templi musiqi sədaları altında onun səsi eşidilməz olur. Murtuzun yalnız əl-qol hərəkətlərindən onun danışdığı hiss edilir. Sonra musiqi birdən-birə kəsilir. Vasif, Murtuz, Firuzə, Dəmir və Nazilənin qarışıq səsləri eşidilir.

*Səslər*. Təbrik edirik, Müşərrəf xanım, mübarək olsun, müdafiənizi görək, mama deyirdi ki...

V a s i f (*siqareti çıxarıb qapıya tərəf yönəlir*). Banketinizə gələk, Müşərrəf xanım. (*Səfinin yanından keçəndə bir anlıq ləngiyir.*) Yazırsan hələ? (*Səfi mat-mat onun üzünə baxır.*) Yaz, yaz.

İşıq sönüb yenidən yanır. Qapının baş ucunda "Elmi şura" sözləri yazılıb. Şərti olaraq yenə eyni otaqda (ancaq stullar və təbii ki, oturanlar çoxalıb) Elmi şuranın iclası gedir. Murtuz ayaq üstə ucadan və bəlağətlə danışır.

M u r t u z. Hörmətli Elmi şura üzvləri. Biz Müşərrəf xanımın dissertasiyasını öz şöbəmizdə iki dəfə son dərəcə geniş şəkildə müzakirə etmişik.

Nazilə asqırır. Səhnənin küncündə eyni yerdə oturub-yazı yazan Səfi bu dəfə də səksənir.

N a d i r. Birini də gətir, ay qız. Deyilənə görə müzakirə iki dəfə olub axı.

M u r t u z (*tərs-tərs Nadirə baxıb sözünə davam edir*). Hər iki müzakirə son dərəcə işgüzar və prinsipial şəkildə keçmişdir. Birinci müzakirədə çıxış edən yoldaşlar əsərin elmimiz üçün böyük əhəmiyyətini qeyd etməklə, onun asanlıqla düzəldilməsi mümkün olan bəzi xırda-para nöqsanlarına da toxunmuş, nəticədə, yəni ikinci müzakirə də onların, yəni həmin nöqsanların islah edildiyi qənaətinə gəlmişlər. İkinci müzakirədə çıxış edən yoldaşlardan Dəmir müəllim, Firuzə xanım, Vasif müəllim, Nadir müəllim (*Nazilə yenə asqırır.*) və sair yoldaşlar... (*Nazilə bir də asqırır.*)

N a d i r. Ay malades! Bu, başqa məsələ.

M u r t u z. ...Və sair yoldaşlar Müşərrəf (*xüsusi vurğu ilə*) Əzimxanova yoldaşın dissertasiyasının elmimizdə yeni söz olduğunu ayrıca qeyd etmiş və göstərmişlər ki, həmin əsərin xalq təsərrüfatımızın inkişafında xüsusi tətbiqi rolu olmalıdır. Və bu belə də olacaq, yoldaşlar. Mən bütün şöbəmiz adından əsərin müdafiəyə buraxılmasına əmin olmaqla, eee... bağışlayın, tərəfdar olmaqla, Elmi şura üzvlərindən də həmin əsərə səs vermələrini xahiş edirəm. (*Oturur.*)

Sədarətlik edən alçaq boylu Dərgah ayağa qalxır.

D ə r g a h. Çox sağ olun, Murtuz müəllim. Belədi, yoldaşlar, Murtuz müəllim Əzimxanova yoldaşın dissertasiyası haqqında ətraflı və son dərəcə məzmunlu məlumat verdi. Və mən, əsəri oxuyan bir adam kimi, onun fikirlərilə tamamilə şərikəm. Doğrudur, mən əsərin yalnız birinci fəslini oxumuşam. Amma fikir demək üçün elə bu da kifayətdir. Çünki, aqillər demişkən, bir qabdakı balın əsil bal olduğunu təyin etmək üçün onun hamısını yeməyə lüzum yoxdur, ondan bir qaşıq da götürmək kifayətdir.

N a d i r (*Vasifə*). Lotunu görürsən? O bu dadlı balı axıracan yeməsə doydum deməz.

V a s i f. Sən yeməzdin?

N a d i r (*çiyinlərini çəkir*). O barədə düşünməmişəm.

V a s i f. Gecdir. Ağıllı adamlar bunu müzakirədən əvvəl fikirləşiblər.

Dərgah (*sözünə davam edir*). ...Belədi, yoldaşlar, Müşərrəf Əzimxanova yoldaşın əsəri son dərəcə aktual...

Portfelli kişi (*qapıda görünür*). Bağışlayın, mənə bu institutun adı...

Dərgah (*əsəbi*). Elmi şuradır, a yoldaş.

Portfelli kişi. Bəs o gün dedilər iclasdı adı. (*Başını bulayıb uzaqlaşır.*)

Dərgah. Belədi, yoldaşlar, müzakirədə bir sistem olsun deyə biz bu dissertasiyanı əvvəlcədən xüsusi bir mütəxəssisə vermişik ki, Elmi şurada məlumat versin. Məlumat üçün söz verilir Elmi şuranın üzvü Dəmir müəllimə.

Dəmir (*ayağa qalxır*). Hörmətli Elmi şura üzvləri. Müşərrəf xanım Əzimxanova yoldaşın dissertasiyası son dərəcə əhəmiyyətli və dəyərli...

Elə bu anda əl-qolunun hərəkətilə danışmaqda davam edən Dəmirin səsi eşidilməz olur. Vasiflə Nadirin səsləri ucalır.

Nadir. Bu ki mütəxəssis deyil. Onun sahəsi hara, bugünkü məsələ hara?

Vasif. Dərinə getmə, ay əvam. Mütəxəssis olmasa keçən müzakirədə çıxış etməzdi ki... Kişi ağzında dedi ki, bal bir kasadı. Gör neçə qaşıq eləyir.

Nadir. Axı bir soruşan olsa...

Vasif. Səndən də çox şey soruşmaq olar.

Nadir (*əsəbi təbəssümlə*). Bəs səndən?

Vasif. Məsələn?

Nadir. Məsələn, soruşsalar ki, hər həftə kef çəkdiyin o bağı hansı pulla almısan, yaxud da niyə məhz elə hər il avqust ayında institutlarda qəbul imtahanları başlayandan qurtarana qədər Bakıdan çıxmırsan, nə cavab verərsən?

Vasif əsəbi hərəkətlə nəsə deyir, lakin səsi eşidilmir. Çünki, eyni anda Dərgahın səsi ucalır.

Dərgah. Belədi, yoldaşlar...

Nadir (*Vasifə*). Sən bilən bunun boyu niyə belə qısadır?

Vasif (*incik səslə*). Nə bilim?

N a d i r. Çünki hər dəfə boyu çıxmaq istəyəndə bicliyi başından basıb qoymayıb.

D ə r g a h. Sakit, yoldaşlar.

R a m i z (*ayağa qalxır*). Dərgah müəllim, mən çox üzr istəyirəm. vacib bir məsələ var. Bilirsiz, mən bir dəyərli şey tapmışam, böyük kəşfdir.

V a s i f (*öz-özünə*). Yenə zolladı kəşfini ortalığa.

D ə r g a h. Ramiz müəllim, gələrsiniz yanıma, ayrıca danışarıq.

R a m i z. Ayrıca danışmışıq da. Bəs siz demədiz ki, Elmi şurada danışarıq?

Templi musiqi sədaları altında səslər azalır. Ramizin, Dərgahın, Murtuzun əsəbi mübahisəsini də eyni musiqi müşayiət edir – səslər bir az eşidilsə də, sözlər anlaşılmır. Sonra Ramiz oturur. Dərgah nəsə deyir, hamı əl qaldırır.

D ə r g a h. Belədi, yoldaşlar!. Beləliklə, Müşərrəf xanım Əzimxanova yoldaşın dissertasiyası bir səslə qəbul edilir və növbəti müdafiə şurasında müdafiəsi olacağı nəzərə çatdırılır. Təbrik edirik, Müşərrəf xanım.

S ə s l ə r. Təbrik edirik, təbrik edirik, Müşərrəf xanım. (*Hamı ayağa qalxır.*)

Səslər yavaş-yavaş azalır. Çünki hamı iclas otağını tərk etməyə başlayır. Ən sonda adəti üzrə siqaret çıxarıb qapıya yönələn Vasif Səfinin yanında ləngiyir.

V a s i f. Hə, necədi, yenə yazırsan?

Səfi eynəyini çıxarıb yuxulu gözlərilə Vasifi süzür, lakin dinmir.

V a s i f. Yaz, bala, yaz.

İşıq sönüb yenidən yanır. Yenə şərti olaraq eyni otaqda toplantıdır. Ancaq bu dəfə oturanlar daha çoxdur. Bəzilərinin əllərində gül-çiçək dəstələri var.

D ə m i r (*sədarət kürsüsündən*). Hörmətli yoldaşlar, hesablayıcı komissiya səsvermənin nəticələrini elan edir. Bugünkü dissertasiya

müdafiəsində Elmi şura üzvlərinin iyirmisi də iştirak edir. Onların iyirmisi də səsvermədə iştirak etmiş, iyirmisi də Müşərrəf Əzimxanova yoldaşın əsərinin qəbul edildiyini arzu edir, yəni onun lehinə səs verir. (*Hamı əl çalır.*) Beləliklə, hesablayıcı komissiya öz işini bitirir. (*Yenidən alqışlar, hamı ayağa qalxır.*)

D ə r g a h (*sədarət kürsüsünə keçir*). Bir dəqiqə oturun, yoldaşlar. Bir dəqiqə, bir dəqiqə. (*Hamı oturur.*) Belədi də, yoldaşlar, eşitdiyiniz kimi hesablayıcı komissiya indicə sizə səsvermənin nəticəsini elan etdi. Beləliklə, müdafiə şurasının üzvlərinin birgə rəyi nəticəsində Müşərrəf xanım Əzimxanova yoldaşa bu dəyərli dissertasiya üçün elmlər namizədi adı verilir. Təbrik edirik sizi, Müşərrəf xanım.

Hamı ayağa qalxıb Müşərrəfə yaxınlaşır. Təbrik, gül-çiçək təqdimi,
öpüşmə mərasimi başlanır. Sonra yavaş-yavaş hamı dağılışır.
Yenə hamıdan gec otağı tərk edən Vasif eyni yerdə
oturub yazan Səfinin yanında ləngiyir.

V a s i f. Yaz, bala, yaz, dünya yazanlarındır. (*Dəhlizdəki qələbəliyə qarışır.*)

D ə h l i z d ə s ə s l ə r.
Yaxşı əsərdi, balam.
Bu da belə alim oldu.
Ömürlük pensiyası təmin olundu.
Banket nə vaxtdı eyy?!
Yaman da gözəldi yanmış...

İşıq sönüb yenidən yanır. Birinci pərdənin əvvəlindəki səhnə.
Nazilə jurnallara baxır. Səfi eyni yerdə oturub yazır.
Telefon zəng çalır. Nazilə qalxıb dəstəyi götürür.

N a z i l ə. Alo? Privet. Culya sənsən? Necə? Yenə gəlirlər? Əşi o üç ildi gəlir, gəlib çıxmaq bilmir. Yaxşı, yaxşı, zəng eliyərəm. Privet. (*Dəstəyi qoyub yenidən qaldırır.*) Alo, Murtuz müəllim (*templi musiqi sədaları altında onun səsi hərdən qırıq-qırıq eşidilməyə başlayır.*) Vasif... Nadir müəllim... Fantomas v qorode... Fira, sənsən?.. Gəlirlər, gəlirlər... Tez olun, tez... tez...

İşıq sönür.

## İKİNCİ PƏRDƏ

Qəzet və ya jurnal redaksiyası (dəqiq məlum olmur). Səhnənin sağ tərəfində böyük bir masa, bir neçə stul – baş redaktorun kabineti. Kabinetdən şərti arakəsmə ilə ayrılan sol tərəfdə bir neçə masa və stullar. Masaların üstü kağız və qovluqlarla doludur. Masaların birinin arxasında arıq bir gənc nəsə yazmaqla məşğuldur. Başqa masalar boşdur.

İsmət (*qalxıb dəstəyi götürür*). Alo, Bəli. Əleykümə salam. Kim? Xeyr, Şirvan müəllim yoxdur. Nə bilim hardadır... Yəqin xəstə-zaddır. Hə. Nə yazı? Bilmirəm, sabahda-zadda zəng eləyib özüylə danışın. (*Dəstəyi qoyub yerinə keçmək istədikdə telefon yenidən zəng çalır. İsmət əsəbi halda yaxınlaşıb dəstəyi götürür.*) Alo! Hə! Kim? Xeyr, Məmmədəli deyil, İsmətdi. Kim? Ooo, salam, salam, Qurban müəllim, necəsiz, nə var, nə yox, uşaqlar necədirlər? Hə, hə, bilirəm, bizdədi materialınız, verəcəyik, yəqin verəcəyik. Nömrəsini? Təəssüf ki, onu deyə bilməyəcəyəm. Məmmədəli? Eee... evdə, to yest mətbəədədi, bir azdan gələr. Bəli, eyni nömrədə oturur. Sizə zəng eləsin? Baş üstə, deyərəm. Sağ olun, gülə-gülə. (*Dəstəyi qoyub, yerinə keçə-keçə*) Əl əli yuyar, əl də qayıdıb üzü. (*Telefon yenə zəng çalır, çılğın hərəkətlə dönüb dəstəyi götürür.*) Alo! Kim? Xeyr, redaktor yoxdur. Komitədə olar hər halda. Bilmirəm (*əsəbi*), dedim bilmirəm. (*Dəstəyi qoyub yerinə keçə-keçə*) Sən öləsən, qoymazlar işimizlə məşğul olaq daa. Bu zəhrimar tərcüməni bu gün də nəşriyyata çatdırmasam, batdıq getdik. (*Telefon yenə zəng çalır.*) Alo! Bəli. Bəli bəli, mənəm Amir müəllim, salaməleyküm, necəsiz? Bəli bəli, indi gələrlər. Baş üstə. Sağ olun. (*Dəstəyi qoyub qaldırır, nömrələri yığıb tələsik.*) Alo, Şirvan? Sabahın xeyir. Bura bax, hal-əhval tutmağa vaxtım yoxdur, başuvu orda islat, burda qırxdır, kişi işə gəlir. Nə kefi durub ə? Baş redaktor döyül bəyəm? Böyüyün üzünə ağ olanın gözlərinə ağ gələr. Çərənnəmə, tez ol. (*Yeni nömrə yığır.*) Alo, Məmmədəli? Privetlər. Bura bax, neynirsən evdə? Nə xokkeyə, tez ol cum bura, gəlir. (*Əsəbi*) Nə tupoy adamsan ə! Kim gələcək? Adı Amir, özü amir, dili xəncər, dişi dəmir. Hə, hə, özü zəng eləmişdi. Davay tərpən. (*Dəstəyi qoyub qaldırır. Yeni nömrə yığmaq istədikdə gözünü küncdəki masaya zilləyib qətiyyətlə dəstəyi yerinə qoyur. Yerinə keçə-keçə*) Qoy rədd olsun, padonok köpək oğlu padonok! Allah bilir yenə nə quraşdırır evdə. Üç gün keçməmiş qoltuğunda

iri bir qovluq gələcək üstümüzə. Heç bilmirəm bu qədər şeyi necə yazıb çatdırır it oğlu it. (*Barmağı ilə küncdəki masanı hədələyir.*) Hə, cənab Mehmanzadə, indi ver kişinin cavabını, görək necə verəcəksən.

Şirvanla Məmmədəli ikisi birdən içəri girirlər.

Məmmədəli (*əlini göyə qaldırır*). Redaksiyamızın jivoy eksponatına salamlar. (*Yerinə keçir.*)

Şirvan. İsmət paşanın çayı da ki yenə öz qaydasilə dəmdədi.

Məmmədəli. Əla! Bir dənəsən ey, bir dənə, əsil jurnalistsən mən ölüm. Səndən şəhərimizdə bir dənədi. Əlbəttə, məndən sonra. (*Diqqətlə onu süzür.*) Niyə dinmirsən ə?

İsmət. Macal verirsiz ki. İçəri girəndən topa tutmusuz məni.

Şirvan (*qarşısındakı qəzetə baxa-baxa*). Zalım oğlu Kutsayevi görürsən? Bir oyunda üç top vurub.

Məmmədəli (*həvəslə*). Əşi onu demə, onu demə! Əsil futbolu onlar oynayır bax. Daha bizimkilər kimi yox. Zalım uşağı qapıya bir top itələyincə min dəfə bir-birinə ötürürlər. Elə bil midi-midi oynayırlar. (*Ucadan*) Elə bil piyandılar.

İsmət. Məmmədəli, Qurban müəllim zəng eləmişdi. Əsərinin vəziyyətini soruşurdu.

Məmmədəli. Əşi, bu boyda şəhərdə on bir oğul tapılmır ki, qonaq qabağına çıxardasan.

Şirvan. Niyə tapılmır. Axtaran olsa, tapılar.

İsmət (*hövsələsiz*). Deyirəm, Qurban müəllim zəng eləmişdi...

Məmmədəli (*özündən çıxır*). Əşi, Qurban qaçmır, biz qaçmırıq. Bir də ki, onun əsərinə mən baxsam da gedəcək, baxmasam da. Şəriət avamlar üçündür. Hə, (*Şirvana*) necə yəni axtaran olsa tapılar?

Şirvan. Bacıoğlular, əminəvəsilər, dayınəticəsilər, nə bilim dost-tanışın uşaqları, bağlı konvertlər qoyur ki, axtarsınlar?

Məmmədəli. Yəni deyirsən futbola da keçib?

Şirvan. Keçib dedin qoydun? Lap əməlli-başlı.

Məmmədəli. Heç nə başa düşmürəm. Bu ki vəzifə deyil, post deyil.

Şirvan. Hay-hay, (*səsini qaldırır*) başa düş, ay əvam, bəs növbədənkənar maşınlar, səfərlərdən gətirilib kubinkada əridilən difisit mallar, sroçnı mənzillər?

Pauza. Məmmədəli fikrə gedir.

Məmmədəli (*fikirli*). Yəni deyirsən Tbilisidə belə şeylər yoxdu?

Şirvan. Nə bilim... Amma orda başqa şeylər də var.

Məmmədəli. Nə, məsələn?

Şirvan. Məsələn elə interes, oynadığın klubun, yaşadığın şəhərin, daşıdığın adın interesi. Bu azdı bəyəm? (*Qəzetə baxa-baxa*) Heç olmasa bunların qızlarından dərs götürsünlər. Bura bax, dünya çempionluğunun yarımfinalında onlar vuruşur, finalda da ki, yenə də onlardan biri əlini qoynuna qoyub gözləyir.

Məmmədəli. Sən hələ filmlərini demirsən. Ən cılız məsələdən zırpı bir şey düzəldirlər. "Kuvşin"ə baxmısız? (*Qəhqəhə çəkib gülür.*) Deyir, özün girmisən bu küpə, zəhmət çək özün də çıx, mən səndən ötrü bu boyda küpü sındırıb parçalamayacağam ki...

*Portfelli kişi* (*qapıda görünür*). Bağışlayın, bu hansı redaksiyadı?

Məmmədəli. Necə yəni hansı? Redaksiyadı daa.

Portfelli kişi. Deyirəm yəni adı...

Şirvan (*lağla*). Adını "Futbol" da yaza bilərsən, "Kuvşin" də.

Gülüşürlər. Portfelli kişi başını bulayıb çəkilir.

Məmmədəli. Hə, onu deyirdim axı... Dünən rayondan bir quzu gəlmişdi. Apardı məni Kazımın kababxanasına. Yerüz məlum...

Elə bu vaxt Amir qoltuğunda iri çanta içəri girir. Hər üçü ayağa qalxır.

Amir (*dilucu salam verib öz otağına keçə-keçə*). Şirvan, nömrənin materiallarını da götür, yanıma gəl. (*Küncdəki boş masaya baxır.*) Bəs Eldar hanı?

İsmət. Zəng elədim, telefonu cavab vermədi. (*Güclə seziləcək istehza ilə.*) Yəqin yenə rayona-zada gedib.

Amir (*ayaq saxlayır*). Bəs rayona gedəndə icazə almazlar?

İsmət. Nə bilim vallah, onu özü yaxşı bilər.

Amir başını bulayıb otağına keçir. Şirvan masanın siyirtməsindən bir neçə qovluq götürüb onun arxasınca gedir. İsmətlə Məmmədəli başlarını aşağı salıb işlə məşğul kimi görünürlər. O biri otaqda Amirin telefonu zəng çalır.

A m i r (*dəstəyi qaldırır*). Alo. Bəli, mənəm, kimdi? Ooo, Nüsrət müəllim, salam, salam. Siz allah bağışlayın, səsinizdən birdən-birə tanıya bilmədim, çox yaşayacaqsınız, vallah çox yaşayacaqsınız. Necəsiz, nə var, nə yox? Şükür, şükür, uşaqlar necədir? Təki, təki olsunlar. Çoxdandı yada salmırsız bizi, gör neçə həftədi. Əcəb eləmisiz, əcəb eləmisiz. Necə? Nolar, çox gözəl, göndərin gəlsin. Hansı nömrədə? Boy, boy, bu nə sözdür? Lap elə növbəti nömrədə. Zaqonda bir naçinayuşinin yazısı var, onu keçirib, bunu salarıq. Cavandı gözləyər ha-ha-ha. Yaxşı, neçə listdir? Beş? Çox gözəl. Bəs niyə belə az? Necə? Beş papka? Həəə... Axı... bizim orqanımız bir az kiçikdir. Dörd-beş nömrədə? Nüsrət müəllim, axı... beş papka dörd-beş nömrəyə sığışmaz. Necə? On-on beş nömrə? Həəə... Yaxşı... göndərin. Əlimizdən gələni eliyərik. Belə dəəə, sağ olun. Yaxşı, sağ olun, sağ olun. (*Dəstəyi qoyur.*) Görürsən də, Şirvan oğlan, beş papka. Çarə nədir, sözünün üstə bir söz desək, topa tutar bizi. (*Alnını ovuşdurur.*) Sən belə elə... O Müslümzadədi- nədi, denən onun materialını çıxartsınlar, bununkini başlayaq. Görək nə vaxt qurtarır...

Ş i r v a n. Bəs o yazığınkı nolsun? Üç ildi gözləyir.

A m i r. Qoy bu qurtarsın, sonra. (*Telefona işarəylə*) Özü də hələ deyir birinci hissədir. İkincisini də yazmağa başlayıb. Yaxşı, maketi gətir görək. (*Telefon zəng çalır.*) Alo. Bəli. (*Rəsmi*) Buyurun. Kim? Hə. Nə əsər? Hansı şöbəyə vermisiz? Hə, elə həmin şöbəyə də zəng edin. (*Dəstəyi qoyur.*) Murtuz müəllimin materialı getdi mətbəəyə?

Ş i r v a n. Bəli.

A m i r. Bu nömrəyə keçir onu.

Ş i r v a n. Axı bu nömrədə...

A m i r (*sərt*). Nə axı? Hörmətli adamdı. Sabahı da düşünmək lazımdır.

Şirvan papkalardan birini açıb onun qarşısına qoyur. Birlikdə baxmağa başlayırlar. Hərdən nəsə deyirlər. Ancaq səsləri eşidilmir. Eyni anda sol otaqda Məmmədəli gərnəşib saatına baxır.

M ə m m ə d ə l i. Yaxşı, İsmət paşa, fasiləyə az qalıb. Dur, dur düşək aşağı, görək quzudan-zaddan rastımıza çıxırmı. Başım yaman guruldayır, paxmel, paxmel deyib bağırır.

İ s m ə t. Hə, mənim də bir az ehtiyacım var.

Məmmədəli. Dur, dur gedək, dünyadan bir saat ömür oğurlayaq. (*Ayağa qalxırlar. Elə bu vaxt Səfi çəkinə-çəkinə içəri girir.*)

Səfi. Salam, Məmmədəli müəllim.

Məmmədəli. Hə, salam, necəsən, gənc alim? Bizə görə qulluq. (*Üzünü İsmətə çevirib yavaşdan*) Allah yetirib deyəsən.

Səfi. O məqalə üçün gəlmişəm.

Məmmədəli. Hansı məqalə? Həəə, yadıma düşdü, yaxşı olar, yaxşı olar.

Səfi. Axı üç ildi eyy, düz üç il. Qabaqda müdafiəm var, məqaləm çatışmır.

Məmmədəli. Darıxma, darıxma, dedim yaxşı olar. Şefinin də məqaləsi var, Murtuzu deyirəm eyyy. Qoy o getsin, sonra səninkini verərik. Dünya böyük-kiçik dünyasıdı, özün məndən yaxşı bilirsən ki.

Səfi. Axı...

Məmmədəli. Bir yerə tələsmirsən ki?

Səfi. Xeyr, elə bunu soruşmağa gəlmişdim.

Məmmədəli (*onun qolundan tutub qapıya tərəf çəkir*). Nahar eləmisən?

Səfi. Yox, amma...

Məmmədəli. Gəl, gəl gedək həm nahar eləyək, həm də sənin o (*İsmətə göz vurur*) məqalən barəsində söhbətləşək.

Səfi. Axı...

Məmmədəli. Gəl, gəl.

Çıxırlar. O biri otaqdakılar ucadan danışmağa başlayırlar.

Amir. Yaxşı, başqa nəyimiz var bu nömrədə?

Şirvan. Başqa...

Telefon zəng çalır.

Amir (*dəstəyi götürür*). Alo. Salam. Ooo, privet, privet, necəsən, a kişi, səsin gəlmir. Nəşriyyatda işləyəndə nolar, balam? Nə? Nəşriyyat xəbəri? Hə. Nə qədər. Otuz list? Əşi nə danışırsan, mənim o qədər yazım hardadı. Mənim bu iyirmi ildə yazdıqlarımın hamısını yığsan heç o qədər eləməz. Təkrar nəşr? Əvvəlkiləri də? Hə, o olar. Əjdahasan əşi, əjdaha. Yaxşı, sən də bizə bir şey ver dəə. Yoxsa bu olmadı ki. Hələ qurtarmamısan? Yaxşı, nə vaxt gətirə bilərsən? Est, doqovarilis, gələn həftə. Yaxşı, hə, bura bax, sabah axşam... yaxşı, sora. Privet. (*Dəstəyi qoyub fikirli-fikirli Şirvana baxır.*) Gələn nömrəmizdə vəziyyət necədir?

Ş i r v a n. Növbəti beş nömrəmizin hamısı doludur.

A m i r. Gələn nömrədə bu kişinin əsərinə yer eləmək lazımdır.

Ş i r v a n. Nə vaxt gətirəcək?

A m i r. Eşitmədin? Gələn həftə.

Ş i r v a n. Əsərinin mövzusu nədir?

A m i r (*əsəbi*). Əşi, nə bilim nədəndi. Həyatdan, ömürdən, sevgidən, taledən, işdən-gücdən, nədən olacaq?

Ş i r v a n. Yaxşı...

Sürücüyə bənzəyən iri kepkalı, arıq bir kişi arxasında böyük bir kisə sürətlə otağa girir. Eyni cəldliklə də kisəni Amirin masasının üstünə aşırır. Amir səksənib geri çəkilir.

K e p k a l ı   k i ş i. Nüsrət müəllim göndərdi, sizə çatacaq dedi.

A m i r (*şaşqın*). Nədi bu?

K e p k a l ı   k i ş i. Nə bilim nədi? Beş dənə iri papkadı.

A m i r (*nəfəsini dərir*). Həə, bildim. (*Küncdəki dolabı göstərir.*) Çıxardın, yığın ora.

K e p k a l ı   k i ş i (*qovluqları şkafa doldurur*). Yaxşı, xudafisüz. (*Çıxır.*)

Telefon zəng çalır.

A m i r (*dəstəyi qaldırır*). Alo. Bəli. Salam. (*Cəld dəstəyi o biri qulağına keçirir.*) Buyurun, buyurun, eşidirəm sizi, yoldaş Əzimxanov, necəsiz, yaxşısız? Çox şadam, çox şadam, bizə görə qulluğunuz? Bəli, bəli. Sizin qızınız? Maşallah, maşallah, Allah saxlasın. Xahiş nədir, əşi, əmr edin. Əlbəttə, əlbəttə, buna söz ola bilməz ki. Mütləq, mütləq. Dəyməz, əşi, sizə də eləməsək, kimə eləyəcəyik ki? Mən? Çox sağ olun, sayənizdə birtəhər yaşayırıq, jurnalist babayam daa. İş-güc? (*Duruxur.*) Sağ olun, dolanırıq birtəhər. Eeee... pis deyil, təkcə maşınım... Maşınım bir az qocalıb. Çox sağ olun, minnətdaram, xəcalət verirsiz. Baş üstə, gələrəm. Başqa? Başqa nə olacaq, əşi, sizin sağlığınız. Özüm də qocalıram yavaş-yavaş. Bu il əllini haqlayıram. Bəli, bəli, gələn ay. Əşi, hardadı bizdə o bəxt? Nə bilim, vallah, əməkdardan-zaddan. O olmasa da olar əşi. Çox sağ olun, çox sağ olun. Əskik olmayın, sağ olun. (*Dəstəyi qoyub şəstlə Şirvana baxır.*) Əzimxanov özüydü. Gör necə də sadə adamdır eyy, kiçik bir məsələdən ötrü özü zəng eləyir. İndicə qızı da gələcək, məqaləsi var,

müdafiə eləyir. Əsil kişi belə olar bax. Nə qədər ki, bu dünyada imkanın var, uşaqları bir yana çıxarasan gərək.

Eldar əlində iri bir qovluq sol otağa girir. Heç kəsi görmədikdə sağ otağa keçir.

E l d a r. Salam.

A m i r (*təəccüblə ona, sonra Şirvana baxır*). Bəs o deyirdi bu rayondadır. Hardasan, Eldar?

E l d a r (*qovluğu masanın üstünə qoyur*). Mətbəədə növbəti nömrənin bəzi materiallarına baxırdım.

A m i r (*qovluğa işarəylə*). Bəs bu nədir?

E l d a r. Müslümzadənin əsəridir. Gözəl əsərdir. Çox istedadlı oğlanmış, böyük gələcəyi var onun, görərsiz.

A m i r (*əsəbi*). Əşi qoy görək. (*Yamsılayır.*) Gələcəyi var. Qaytar onu müəllifinə, qoy təzədən işləsin.

E l d a r (*təəccüblə*). Nəyini?

A m i r. Nə bilim nəyini? Dilini, üslubunu, məzmununu, ideyasını, hər şeyini.

E l d a r. Dili də gözəldir, üslubu da, hər şeyi də.

A m i r (*qətiyyətlə*). Dedim ver işləsin. Növbəti nömrələr tutulub. Qurtardıq bu söhbəti.

E l d a r. Axı...

Onların səsləri azalır, hərəkətlərindən qızğın mübahisə elədikləri hiss edilir. Eyni vaxtda Məmmədəli ilə İsmət ucadan gülə-gülə sol otağa girirlər. Əhvallıdırlar.

M ə m m ə d ə l i. Bunu da belə yola saldıq, ha-ha-ha...

İ s m ə t. Eh, toy-bayramdır bu dünyanın əzabı.

M ə m m ə d ə l i (*sağ əlini yuxarı qaldırır*). Ağlı olan ona gətirər tabı.

İ s m ə t. Mən elə bilirdim bu dünyada məndən fağır adam yoxdur. Bu məndən də fağır imiş. Əşi bu lap frayırdı ki.

M ə m m ə d ə l i. Quzudu da, quzu.

İ s m ə t. Zalım oğlu o adı var, özü yox məqalədən olsa-olsa əlli manat pul alacaq, qırxını bizə xərclədi.

M ə m m ə d ə l i. Bura bax, doğrudan onun məqaləsi var bizdə?

İ s m ə t (*gülə-gülə*). Deyir var daa.

Məmmədəli. Hardadı o?

İsmət. Əşi, nə bilim hardadı? Onu tapmaq üçün bir həftə burda uborka aparmaq lazımdır. Allah bilir, bəlkə də arxivə verilib uje.

Məmmədəli (*əsnəyir*). Bəs bayaq deyirdin, belə sanballıdı, belə aktualdı...

İsmət. Əşi, sözdü də, deyirdim. Görmədin mənim o nitqimdən sonra bir şüşə də gətirtdi?

Məmmədəli qəhqəhə çəkib gülür. Eldar ayağa qalxıb Amirin masasının üstünə qoyduğu qovluğu götürüb əsəbi halda sol otağa keçir. Küncdəki masanın arxasına keçib gözlərini pəncərəyə zilləyib oturur. İsmətlə Məmmədəli təəccüblə bir-birinə baxırlar. Pauza.

Ramiz (*sürətlə içəri girir*). Salamlar. (*Hər üçü ilə əl verib görüşürlər.*) Necəsiz, nə var, nə yox?

Məmmədəli. Sağ ol, sən necəsən? (*Mənası aydın olmayan ahənglə.*) Yenə də tapmısan?

Ramiz (*şövqlə*). Əşi, budəfəki tapıntım ayrı aləmdir, mislibərabəri yoxdur.

Məmmədəli. Nədir axı?

Ramiz. Əşi, nadir şeydi.

Məmmədəli. Yenə olsun da.

Ramiz. Bu saat görərsiz.

İsmət. Hə, gətir görək, nədir o sənin redki tapıntın.

Ramiz (*əlindəki qovluğu aça-aça ikisinin arasındakı stulda oturur*). Bax, əvvəlcə bu səhifəni oxuyun.

Məmmədəli (*əsnəyə-əsnəyə səhifəyə baxır*). İsmət kişi, o çaydanı tax sən allah, ciyərim yanıb tökülür.

İsmət (*gözünü səhifədən ayırmadan əlini uzadıb çayniki cərəyana qoşur*). Yanmağın quzunun səxavətindəndi. (*Səhifəyə diqqətlə baxa-baxa*) Hələlik bir şey görmürəm.

Məmmədəli (*yenə əsnəyir*). Mən də bir şey görmürəm.

Ramiz. Ə yox ə, sən öl. Diqqətlə baxın. Əsil dəsgah daldadır. Akazıvayetsa hələ o vaxtlar...

*Müşərrəf* (*ayaqqabılarını taqqıldada-taqqıldada sürətlə içəri girir*). Salam.

Hər üçü başını qaldırıb yerlərindən dikəlmiş halda maraqla onu süzürlər. Eldar pəncərəyə baxmaqda davam edir.

H ə r  ü ç ü. Sa-lam.

M ü ş ə r r ə f (*işvə ilə*). Bağışlayın, Amir müəllim kimdi burda?

M ə m m ə d ə l i. Amir müəllim?

İ s m ə t. Amir müəllim?

M ü ş ə r r ə f. Bəli, Amir müəllim.

R a m i z (*tələsik başı ilə sağ otağı göstərir*). Amir müəllim ordadır.

M ü ş ə r r ə f. Sağ olun. (*Sağ otağa keçmək istədikdə qapıda Şirvanla toqquşur.*)

Ş i r v a n (*diqqətlə onu süzə-süzə*). Oy, bağışlayın siz allah.

M ü ş ə r r ə f (*nazla*). Eybi yoxdur. Amir müəllim sizsiz?

Ş i r v a n. Xeyr, Amir müəllim içəridədir, buyurun keçin.

A m i r (*onu görüb ayağa qalxır*). Buyurun, eee... xanım.

M ü ş ə r r ə f (*əlini ona uzadır*). Müşərrəf... Əzimxanova.

A m i r. Ooo, çox şadam, çox şadam, buyurun, buyurun əyləşin. (*Yanındakı stulda yer göstərir.*)

M ü ş ə r r ə f (*oturur*). İndicə sizə zəng eləmişdilər...

A m i r (*yerində oturub ona tərəf əyilir*). Bilirəm, bilirəm, necəsiz Müşərrəf xanım?

M ü ş ə r r ə f. Sağ olun, yaxşıyam. (*Çantasını açıb qəzetin arasına bükdüyü məqaləsini çıxarır.*) Məqaləni gətirmişəm.

A m i r (*əlini uzadıb məqaləni almaq istədikdə telefon zəng çalır. Dəstəyi qaldırır.*) Alo. Hə, hə, hə. İndi iclasdı, sonra zəng edərsiz. (*Dəstəyi qoyur.*) Niyə özünüz zəhmət çəkmisiz? Şoferlə-zadla göndərəydiz də.

M ü ş ə r r ə f. Eybi yoxdur, nə zəhmət?

A m i r. Əlbəttə, eybi yoxdur. Elə sizi görmək də xoşdur bizə. Maşallah, maşallah, mən Əzimxanov yoldaşın belə yetişmiş qızı olduğunu bilməzdim. Axı o maşallah çox cavan görünür.

M ü ş ə r r ə f (*gülə-gülə*). Əzimxanovun nəvəsi də var.

A m i r. Doğrudanmı? Maşallah, maşallah, Allah saxlasın! Yaxşı, kişi özü necədir?

M ü ş ə r r ə f (*nazla*). Hansı kişi?

A m i r. Yoldaş Əzimxanovu deyirəm də.

M ü ş ə r r ə f (*gülür*). Bayaq özü zəng eləmişdi ki.

A m i r (*pərt halda gülür*). Düzdür, düzdür, elədir, əlbəttə...

Səsləri eşidilməz olur. Eyni anda sol otaqdan da Məmmədəli ilə İsmətin qəhqəhələri ucalır.

M ə m m ə d ə l i. Əşi, bunu çoxdan tapıblar ki...
R a m i z. Kim?
M ə m m ə d ə l i. Elə sənin dostun.
R a m i z. Ə yox ə, sən öl.
M ə m m ə d ə l i (*əlini onun üzünə vurur*). Bu ölsün düz deyirəm.
R a m i z. Kim axı?
İ s m ə t. Zəfər Zeynallı. Özü də məqalə də çap elətdirib.
R a m i z. Ə yox ə, sən öl, harda?
İ s m ə t (*əlilə yuxarı mərtəbəni göstərir*). Bax, burda.
R a m i z. Ə yox ə, sən öl. Məndən çırpışdırıb.
M ə m m ə d ə l i. Necə? Axı sən bunu təzəcə tapmısan, özü də heç yerdə məqalən-zadın da çıxmayıb.
R a m i z. Zəfər axmağın biridir. O nə qanır belə şeyləri? Deyirəm oğurlayıb, vəssalam.
E l d a r (*başını qaldırır*). Hardan?
R a m i z. Nə bilim hardan? Evdən, işdən, maşınımdan...
E l d a r. Bəs iki il əvvəl onun məqaləsi çıxanda hardaydın?
M ə m m ə d ə l i. Hə də, yaxşı sözdür, hardaydın?
R a m i z. Nə bilim hardaydım? (*Duruxur.*) Kamandirovkada, xəstəxanada, qayınanamgildə...
M ə m m ə d ə l i (*gülür*). Bəs sən deyirdin, o qəzetin heç bir nömrəsini də buraxmırsan.
R a m i z. Ə yox ə, sən öl.
İ s m ə t. Darıxma, əşi, canın sağ olsun, gələn dəfə təzəsini taparsan. Təkcə ölümə çarə yoxdur bu dünyada.
M ə m m ə d ə l i. Var.
İ s m ə t. Nə?
M ə m m ə d ə l i. Ölmək.

Gülüşürlər.

P o r t f e l l i k i ş i (*qapıda görünür*). Bağışlayın, axı mənə bu redaksiyanın adı...
M ə m m ə d ə l i (*onun sözünü kəsir*). Nadir tapıntılar redaksiyası.
P o r t f e l l i k i ş i. Axı... (*Heç kəsin ona etina etmədiyini görüb çəkilir.*)

Eyni anda sağ otaqda Amirlə Müşərrəf ayağa qalxırlar.

A m i r (*onu qapıya doğru yola salır*). Yaxşı yol, gülə-gülə, Müşərrəf xanım. Tez-tez gəlin.

M ü ş ə r r ə f. Çox sağ olun. Gələn nömrədə dediz də?

A m i r. Əlbəttə, əlbəttə. Elə bu nömrədə də verərdik. Amma təəssüflər olsun ki, bu nömrə artıq satışdadır.

M ü ş ə r r ə f. Eybi yoxdur, sağ olun. (*Əlini ona uzadır.*)

A m i r (*əlini ona uzadır və əl-ələ sol otağa keçirlər*). Siz də sağ olun. Kişiyə də salam söyləməyi unutmayın, xahiş edirəm. (*Bir an Müşərrəfin arxasınca baxıb birdən-birə ciddiləşir.*) Yaxşı, bir bura keçin görək.

R a m i z (*ayağa qalxır*). Salam, Amir müəllim, necəsiz, nə var, nə yox? Mən üzr istəyirəm, Amir müəllim, bir məsələ var, ancaq sizin də...

A m i r (*əsəbini boğmağa çalışır*). Sonra, Ramiz, sonra, indi vacib işimiz var.

Hamısı birlikdə sağ otağa keçirlər. Ramiz ətrafına baxıb otaqda tək qaldığını hiss edərək sürətlə çıxır.

A m i r (*yerinə keçir*). Hə, yoldaşlar, bu gün bura yığışmağımızın əsas səbəbi qarşıdakı işlərimizi planlaşdırmaqdan ibarətdir. Bilirsiniz ki, qarşıda mühüm tədbirlər var və bununla əlaqədar olaraq mühüm işlər gözləyir bizi. Bu münasibətlə işlərimizi yenidən qurmalı, yeni təşəbbüslər irəli sürməliyik. İlk növbədə müəllifin kimliyindən asılı olmayaraq materialların aktuallığına, müasirliyinə, əsrimizin təfəkkür tərzinə uyğun olmasına, səviyyəsinə, manerasına, ruhuna, saflığına, ölçüsünə, çəkisinə fikir verməliyik. İstedadlara, xüsusən gənc istedadlara geniş meydan verməli, yollarında həmişə yaşıl işıq yandırmalı, bir sözlə, onlara qayğıyla yanaşmalıyıq. Qayğı, tələbkarlıq, təşəbbüs və prinsipiallıq...

Amir əl-qolunun hərəkətilə danışmaqda davam edir. Ancaq templi musiqi sədaları altında onun səsi aydın eşidilmir. Musiqi get-gedə daha da güclənir. Səhnədə işıq yavaş-yavaş azalır.

PƏRDƏ

## ÜÇÜNCÜ PƏRDƏ

Birinci pərdədəki səhnə quruluşu (arxa planda şöbə, ön planda dəhliz). Şöbədə məclisdir – iki yazı masası bir-birinə birləşdirilmiş, üstünə müxtəlif yeməklər, məzələr, içki şüşələri düzülmüşdür. Masaların arxasında Dərgah (başda), Murtuz (onun yanında), Nadir, Vasif, Səfi, Arıq kişi, Müşərrəf, Firuzə və Nazilə oturub səs-küylə yeyib-içirlər.

V a s i f. Əntiqə kababdır.

N a d i r. Hə, kababa söz ola bilməz. Lap yağ kimidir, adamın ağzında əriyib gedir.

D ə r g a h. Yaxşı, yoldaşlar, qədəhləri doldurun görək.

Vasif qədəhləri doldurur.

D ə r g a h (*ayağa qalxır*). Belədi, yoldaşlar. Bu gün biz buraya çox gözəl, böyük, mənalı bir hadisəni qeyd etməkçün yığışmışıq. Elmimizə yenicə qədəm basan, həm də inamla, istedadla, necə deyərlər, mətin addımlarla qədəm basan Müşərrəf xanımın ən aktual, ən müasir, ən səviyyəli, ən dolğun məzmunlu, ən sağlam ideyalı, ən geniş diapazonlu dissertasiyasının... (*Nazilə asqırır*, *Səfi diksinib əlindəki qədəhi masanın üstünə salır.*)

V a s i f (*ona tərəf əyilir*). Eybi yox, ver yenidən doldurum. (*Onun qədəhinə içki süzür.*)

D ə r g a h (*onlara əhəmiyyət vermədən nitqinə davam edir*). ...Dissertasiyasının mü-dafiə-sinin, necə deyərlər, bədii hissəsinə yığışmışıq. Müşərrəf xanımın müdafiəsində də dediyim kimi, onun bu əsəri elmimizdə mövcud olan mühüm bir boşluğu dolduracaq.

V a s i f (*arıq kişiyə tərəf əyilir*). Doldurum?

A r ı q  k i ş i. Yavaş, görmürsən kişi ağzında söz deyir?

V a s i f. Hə, elədir, bağışlayın.

D ə r g a h (*gözucu Vasifə baxıb davam edir*). ...Mühüm bir boşluğu dolduracaq. Bu boşluq elmimizdə çoxdan, lap çoxdan öz eee...

N a d i r. ...Dolduranını gözləyirdi.

D ə r g a h. ...Öz fədaisini, necə deyərlər, trujennikini gözləyirdi. Mən hələ bu əsərin təsərrüfat əhəmiyyətini, həyatdakı təcrübi rolunu demirəm. Gəlin içək Müşərrəf xanımın sağlığına.

V a s i f. İçək!

F i r u z ə. Hə, içək. O gün mama deyirdi ki...

D ə r g a h. ...Arzu edək ki, bu əsər, bu müdafiə ona xoşbəxtlik, səadət və neçə-neçə uğurlar gətirsin. Sağ olun, Müşərrəf xanım, sizin sağlığınıza!

S ə s l ə r. Sağ olun, Müşərrəf xanım, sizin sağlığınıza. (*Qədəhləri toqquşdurub içirlər.*)

N a d i r (*Vasifə*). Bəs o gün banket olmadı?

V a s i f. Olub, olub, özü də əməlli-başlısından, nastoyaşşi toy.

N a d i r. Bəs bu?

V a s i f. Həəə, ora ancaq şişkaları çağırıbmış, bir də qohum-qardaşı. Bu günsə, necə deyərlər, şöbəyə qonaqlıq verir.

N a d i r. Həəə, yasno.

Qarışıqlıqda Nazilənin asqırıq səsi, Səfinin diksinməsi və Firuzənin məşhur "mama deyirdi ki" kəlamı eşidilir.

N a d i r. Eh, mənə nə var eyy, məhkəməlik adamam.

V a s i f. Yenə başladı. Axı bir bizə de görək sən neynəmisən ki...

N a d i r. Vaxt gələr bilərsən.

D ə r g a h. İcazə versəniz, mən bir sağlıq da deyərdim.

M u r t u z. Bu nə sözdür, buyurun, söz sizindir.

V a s i f. Onsuz da tamada yerində əyləşmisiz. Əslinə qalsa, gərək biz sizdən icazə alaq.

N a d i r (*Vasifə*). Samozvanesdi də.

D ə r g a h (*ayağa qalxır*). Belədir də, yoldaşlar. Müşərrəf xanımın bugünkü uğurları öz-özünə, necə deyərlər, göydəndüşmə olmayıb. Bununçün bir əsas, zəmin, həm də köklü bir zəmin olub. Müşərrəf xanım dünyaya göz açdığı gündən gözəl, sağlam bir mühitlə qarşılaşıb – Müşərrəf xanım ideal bir ailə tərbiyəsi görüb. Çünki bu ailənin başında Əzimxanov yoldaş kimi bir şəxs, bir avtoritet dayanıb. Əzimxanov yoldaş öz yüksək təbiəti, şəxsi keyfiyyətləri, təşkilatçılıq bacarığı ilə bizim hamımıza nümunə olduğu kimi, ailədə də nümunəvi tərbiyə üsulları seçib ki, onun nəticəsi bu gün göz qabağındadır. İcazə verin, qədəhlərimizi şəxsən Əzimxanov yoldaşın, onun başçılıq etdiyi ailənin sağlığına qaldıraq. Mən əminəm ki, bizim bu qiyabi sağlığımızı Müşərrəf xanım Əzimxanov yoldaşa çatdıracaq. Sağ olsun belə bir gözəl insan!

M u r t u z. Dərgah müəllim, icazə versəniz, sizin bu məzmunlu sağlığınıza mən də bir neçə kəlmə əlavə edərdim.

D ə r g a h. Buyurun, bu nə sözdür?!

M u r t u z. Dərgah müəllim Əzimxanov yoldaş haqqında çox gözəl danışdı. Mən də bir neçə söz deyim. Əzimxanov yoldaşla mən bir neçə dəfə üz-üzə gəlməli olmuşam. Hər dəfəsində də onda olan o sadəliyə, insanpərvərliyə heyran olmuşam. Dərgah müəllim çox gözəl dedi, Əzimxanov yoldaş doğrudan da çox yüksək insani keyfiyyətlərə, təşkilatçılıq bacarığına malikdir.

F i r u z ə. Düzdür. Mama da elə deyir.

M u r t u z. Həə. Bundan əlavə, Əzimxanov yoldaş həm də çox humanist, necə deyərlər, işəyarayan, pis gündə adama əl tutan ağsaqqallara xas olan müdrik keyfiyyətlərə malikdir. Yadımdadı bir dəfə...

Murtuz danışmaqda davam edir. Ancaq səsi eşidilmir. Eyni anda Firuzə asqırır və diksinib fikirdən ayılan Səfini dümsükləyir.

F i r u z ə. Nazilə mənə də keçirtdi qripini.

N a z i l ə. Sənə qrip keçməz. Maşallah, daş kimisən, heç nə təsir etmir sənə.

F i r u z ə. Birdən keçsə necə?

N a z i l ə. Onda çarəsini maman deyər. (*Ona baxıb heyran-heyran gülümsəyən Səfiyə*) Adə, nöş yemirsən?

S ə f i (*sıxılır*). Yoox, yeyirəm...

N a z i l ə (*özünəməxsus açıqlıqla*). Ye də, səni çöldən tapmamışam ki... (*Köntöy səslə gülür. Səfi utanıb başını aşağı salır.*)

M u r t u z (*nitqini bitirir*). ...və biz bu gözəl ailədə belə sevinc və təntənələrin tez-tez olmasını istərdik. Gün o gün olsun bu yaxın günlərdə, yaxın aylarda Əzimxanov yoldaşın yeganə qızının daha yüksək zirvələrdə olmasının şahidi olaq.

M ü ş ə r r ə f (*işvə ilə*). Əşi, hələ bunun təsdiqini alaq görək.

D ə r g a h. Alarsınız, alarsınız, darıxmayın. Orda da bizim kimi alimlər oturub da. Belə əsərə kimin sözü ola bilər? Bir azdan kamandirovat eləyərik, gedib maraqlanarsız. Elə Əzimxanov yoldaş da oralarda tez-tez olur. (*İçirlər.*)

N a d i r (*Vasifə*). Əzimxanovun feli oralarda çətin keçər.

V a s i f. Keçər də, ötər də, sənin dünyadan xəbərin yoxdur. Çox oxumaqdan beynin kif atıb.

N a d i r. Eh, mənə nə var ey, bu gün-sabah məhkəmədir.

V a s i f. Yenə başladın? (*Səfiyə*) Sən öləsən, çətinə düşən kimi deyir məhkəməliyəm.

N a z i l ə (*Səfiyə*). Adə, az iç, yeməyə fikir ver, yeməyə.

V a s i f. İşin olmasın, Naza, fikri dağılar.

N a z i l ə. Eh, kül bunun başına. Bununku yazmaqdır. Allahın mənzilinə göz dikib. Yazmağa o qədər başı qarışıb ki, mənzil növbəsinə də dayanmağı unudub.

V a s i f. Yaz, bala, yaz.

A r ı q k i ş i. İndi növbəyə dayansa, qırx səkkizinci olacaq. Deməli, qırx səkkiz il sonra evlənə bilər.

N a z i l ə. Eh, buna nə var eyy.

V a s i f. Mestkomun məlumatını eşitdin də, Səfi bəy. (*Naziləyə*) Yenə ümid sənədi, Nazoçka. Buna qalsa o dünyaya, mebelsiz-filansız mənzilə anadangəlmə subay köçəcək.

S ə f i (*alçaqdan*). Yaxşı, bəs mənim əsərimi nə vaxt müzakirə edəcəksiz. (*Müşərrəfə işarəylə*) O, mövzu götürəndə mən əsərimin ilk iki variantını bitirmişdim.

V a s i f (*Murtuzu göstərir*). Onu gör, onu.

N a d i r (*ciddi*). Darıxma, Səfi, olacaq müzakirən. Sənin işin keçməli işdir.

V a s i f. Əsərini oxumusan?

N a d i r. Hə. Çox yaxşı işdir.

S ə f i. Bəs onda...

D ə r g a h (*əhvallı*). Həə, yenə nə pıçıldaşırsız orda?

V a s i f. Kababın elmi dəyərini müzakirə edirik.

D ə r g a h. Hə, necədir?

V a s i f. Əla. Çox aktual kababdır. Müşərrəf xanım, bunu da özünüz yazmı... eee bişirmisiz?

M ü ş ə r r ə f. Xeyr, papam yaz... to yest aldırıb, restorandan.

V a s i f. Hansı restorandan?

M ü ş ə r r ə f. "Növbahar"dan.

V a s i f. Əhsən, əhsən belə kababa!

Qapı yavaşca aralanır.

R a m i z (*qapıda görünür*). Oy, üzr istəyirəm.

V a s i f. Ooo, Ramiz gəl, gəl içəri.

Səslər. Gəl, Ramiz, gəl otur bizimlə. Keç, keç. Yenə nə tapmısan?

Ramiz süni könülsüzlüklə keçib oturur.

P o r t f e l l i  k i ş i (*qapıda görünür*). Bağışlayın, mənə bu institutun adı...

V a s i f (*sağ əlini yuxarı qaldırır*). Növbahar!

Hamı gülüşür. Portfelli kişi başını bulayıb gedir.

M u r t u z (*ayağa qalxır*). Hə, qədəhlər doludurmu?

V a s i f. Cağbacağ.

M u r t u z. İcazənizlə bir söz deyək.

S ə s l ə r. Buyurun, buyurun.

M u r t u z. Kamil müəllim bayaq çox gözəl dedi. Doğrudan da Müşərrəf xanımın müdafiəsi bizim institutun həyatında çox böyük hadisədir. Və biz çox şadıq ki, bu böyük hadisənin başlanğıcı, necə deyərlər, təməli bizim şöbədə qoyulub. Müşərrəf xanım çox istedadlı, çox... (*eyni anda onun səsi azalır, aşağı tərəfdə oturanların səsi eşidilməyə başlayır.*)

R a m i z. Ə yox ə, sən öl, özüm tapmışam.

V a s i f. Tapdığın elə budu?

R a m i z. Bu azdı bəyəm? Ömürlük bəsimdi.

N a d i r (*fikirdən ayılır*). Daha heç nə axtarmayacaqsan?

R a m i z. Ə yox ə, sən öl, axtardığım bəsdi. Dünyada hərə bir şey tapsa, gör hara gedib çıxar.

N a d i r (*əllərini yelləyir*). Eh, mənə nə var ey, bu gün-sabah məhkəmədir.

R a m i z (*təəccüblə*). Nə məhkəmə?

V a s i f. Bu adam bir az çətinə düşən kimi məhkəməlik olur.

R a m i z. Ə yox ə, sən öl, məhkəməlik odeyy (*əlilə uzaqlara işarə edir*) oralardı. Dünən bir bağa getmişdim. Adı bağ, özü dümağ bir saray. Təkcə çarhovuzu... (*Səsi azalır.*)

M u r t u z (*nitqinə yekun vurur*). ...Buna görə də dissertant olmasına baxmayaraq biz Müşərrəf xanımı kollektivimizin bir üzvü hesab edirik. Həm də ləyaqətli bir üzvü.

D ə r g a h (*ayağa qalxır*). Yoldaşlar, bir dəqiqə bağışlayın, mənim də əlavəm, eee... daha doğrusu sürprizim var. Murtuz müəllim indicə dedi ki, Müşərrəf xanımı kollektivimizin üzvü hesab edir. Görürəm ki, həmişə olduğu kimi bu dəfə də Murtuz müəllimin intuisiyası gözəl işlədi. Məsələ burasındadır ki... (Mən bu xəbəri qəsdən gecikdirdim, çünki hər şeyin öz şirin məqamı, vaxtı olur. Məqamsız deyilən

sözün effekti olmaz) Məsələ burasındadır ki, institutumuzun rəhbərliyi...

V a s i f. Yəni siz də...

D ə r g a h (*Vasifin sözünü kəsib*). Müşərrəf xanımın qabiliyyətini, istedadını, nəhayət, belə udaçnı müdafiəsini nəzərə alaraq onu institutumuza, sizin şöbəyə baş elmi işçi vəzifəsinə götürməyi qərarlaşdırıb.

Canlanma.

Səslər. Baş elmi işçi?.. Birdən-birə?.. Bəxtəvər başına...

D ə r g a h (*davam edir*). Bəli, baş elmi işçi. Əmri də elə bu gündən verilib.

N a d i r. Əmrlə də baş elmi işçi olar? Bəs konkurs-filan? Eh, mənə nə var ey...

F i r u z ə. Təbrik edirik, Müşərrəf xanım. Mama düz deyirmiş...

V a s i f. Təbriklər, Müşərrəf xanım.

R a m i z. Ə yox ə, sən öl, layiqdir. Təbrik edirik, Müşərrəf xanım, xeyrini görəsiz.

N a z i l ə (*yanında oturan Firuzəyə*). Bəxtə bax, Fira, mən yazıq on ildi ki, laborantam...

F i r u z ə. Darıxma, sən də keçərsən, qocalmamısan ki... Mama həmişə deyir ki..

R a m i z (*ucadan*). Əntiqə kababdı ha, lap Qarabağ kababına oxşayır.

V a s i f. Əslində kababın yaxşısı biz tərəflərdə olur. Quyruqlu kabab.

R a m i z. Ə yox ə, sən öl, Qarabağ kababına kabab çatmaz.

N a d i r. Hamısı bir şeydir.

A r ı q  k i ş i. Ən yaxşı kabab Gəncə kababıdır, qabırğalı tikəsi də, döyməsi də.

R a m i z. Ə yox ə, sən öl, Qarabağınkinə çatmaz. Sən heç İsa bulağında kabab yemisən?

M u r t u z (*söhbətə qarışır*). Ramiz düz deyir, Şuşanın kababı çox ləzzətli olur.

R a m i z. Ağdam kababının yanında Şuşanınkı heç nədir.

D ə r g a h. Murtuz müəllim haqlıdır, Şuşanın havası da bu kababın dadına qarışanda xüsusi kompleksiya yaranır.

N a d i r (*əhvallı*). Çünki, orda hər bir kurortnik öz rayonunun kababını bişirir.

F i r u z ə. Niçeqo padobnoqo, bəs quzu, onu ki, özlərilə gətirmirlər. Mama deyir ki...

Portfelli kişi qapıda görünür. Hamı onu görüb sakitləşir. Portfelli kişi diqqətlə onları süzüb çəkilir.

N a d i r (*yenə əhvallı*). Yaxşı, bəs ən yaxşı alimi harda bişirirlər?

F i r u z ə. Bizim institutda.

Gülüşürlər.

N a z i l ə. Niyə gülürsüz? Müşərrəf xanımı görmədiz necə tez bişdi?

S ə f i (*alçaq səslə*). Bəs mən niyə...

V a s i f. Yəqin sənin dərin çox qalındır. Belə ocağa incə dəri lazımdır, qadası.

R a m i z. Ə yox ə, sən öl, ən yaxşı alim bizim tərəflərdən çıxır.

F i r u z ə. Düz demirsiz, Ramiz müəllim, mama deyir ki...

N a d i r (*bir az əhvallı*). Aristotel də deyir.

F i r u z ə (*təəccüblə*). Nə deyir?

N a d i r (*barmağını yuxarı qaldırır*). Aristotel deyir ki, elm insanın təbiətə ilk dəfə maraq və heyrətlə baxdığı anda yaranıb.

V a s i f (*eyni əhvalla*). Aristotelin də bu xasiyyəti olmaya da!..

Gülüşürlər.

N a d i r (*yumruğunu masaya vurur*). Rədd olsun Çili xuntası!

Hamı səsini kəsir.

D ə r g a h (*Murtuza*). Deyəsən getmək vaxtıdır. (*Ayağa qalxır.*) Yaxşı, sizə nuş olsun, mən gedim bir az məşğul olum. İndi telefonum də özünü dağıdır yəqin.

S ə f i (*ayağa qalxır*). Bir az, Dərgah müəllim, daha doğrusu, bir dəqiqə... (*Əhvallı*) Mən çox üzr... istəyirəm. Mənim bir tostum var.

D ə r g a h (*etinasız*). Sən tostunu de də, məni neynəyirsən?

S ə f i. Daha doğrusu, tost yox... çıxışım, eee... yəni, sözüm var... yəni xahişim...

M u r t u z. Ə, indi söz vaxtıdır?

S ə f i. Hə, əsil... əsil vaxtıdır. Dərgah müəllim, bu Müşərrəf xanım belə sürətlə... nolar, mən bir söz demirəm ki. Amma axı bəs... mən də işimi qurtarmışam... çoxdan...

D ə r g a h. Əcəb eləmisən. Daha nə istəyirsən? Əsas qurtarmaqdır işi.

S ə f i. Bəs... nə vaxt... (*Alnını ovuşdurur.*) Hə, müzakirəsi...

D ə r g a h (*gülür*). Müzakirəni neyniyirsən? Əsil elmi işçi ad-san, şöhrət-filan haqqında düşünməz.

V a s i f. Səfi yəqin müdafiədən sonra məvacibinin artmasını deyir, Dərgah müəllim.

G ü l ü ş ü r l ə r

S ə f i (*əsəbi, ucadan*). Gülməyin! (*Sakitləşir, fikirli*) Gülməyin.

M u r t u z (*əsəbini boğmağa çalışır*). Əşi, bunun vaxtıdır indi?

D ə r g a h (*ciddiləşir*). Nolar, əsərini ver, oxusunlar. Müzakirə eləməyə nə var ki? Müzakirə hələ müdafiə deyil ki... Oxuyun bunun işini, Murtuz müəllim, (*vurğu ilə*) bir əməlli-başlı da müzakirə edin, görək nə deyir bu gənc alim, elmə nə yenilik gətirib.

N a d i r (*əhvallı*). Gətirib, Dərgah müəllim, çox şey gətirib. Mən oxumuşam əsəri.

D ə r g a h. Oxumusan?

N a d i r. Bəli, oxumuşam, özü də əməlli-başlı.

D ə r g a h (*xüsusi əda ilə*). Nolar, təki elə olsun, oxuyun. Verin Müşərrəf xanım da oxusun. (*Yumşalıb gülümsəyir.*) Bu da onun kandidat ranqında ilk çıxışı olar. (*Qapıya tərəf gedir.*) Yaxşı, sağ olun. (*Çıxır.*)

Bütün bu müddət ərzində işçilər dəhlizdə sağa-sola gedib-gəlib salamlaşır, hal-əhval tuturlar. Tamaşanın bu məqamında həmin işçilərdən ikisi şöbənin qapısı ağzında dayanırlar.

B i r i n c i  i ş ç i. Nədi belə burda, iclasdı.

İ k i n c i  i ş ç i. İclas nədi, a kişi, vururlar. Dərgah da burdaydı, indicə çıxdı.

B i r i n c i  i ş ç i. Gördüm. Deyirəm axı, sir-sifəti yaman qızarmışdı.

İ k i n c i  i ş ç i. Bunlar həmişə belə olurlar vuranda. Bir azdan Murtuz da qızarıb çıxacaq. Sonra da dəhlizdə kimi görsə, başlayacaq "nətərsən ə?"

Amirlə Məmmədəli onlara yaxınlaşırlar.

M ə m m ə d ə l i. Bağışlayın, Murtuz müəllim bu otaqda oturur?

B i r i n c i   i ş ç i. Bay, Amir müəllim? Xoş gəlmisiz. Sizdən nə əcəb?

A m i r. Sağ olun, bir az işim var Murtuz müəllimlə.

B i r i n c i   i ş ç i. Buyurun, Murtuz müəllim burda oturur. (*Qapını göstərir.*)

İ k i n c i   i ş ç i (*Məmmədəliyə*). O gün gəldim, tapmadım sizi, sabah necə, işdəmisiniz?

M ə m m ə d ə l i. Yox.

İ k i n c i   i ş ç i. Bəs biri gün?

M ə m m ə d ə l i. Biri gün də yox.

İ k i n c i   i ş ç i. Bəs necə olsun? Axı mənim məqaləm...

M ə m m ə d ə l i. Eldarı görün.

Amirlə Məmmədəli içəri keçirlər. İşçilər uzaqlaşırlar.

M u r t u z (*onları görüb ayağa qalxır*). Ooo, salam, salam, Amir müəllim, xoş gəlmisiniz, buyurun, buyurun əyləşin.

A m i r. Salam, Murtuz müəllim. (*Hamı ilə bir-bir əl verib görüşür.*) Deyəsən iclas eləyirdiz, mane olmadıq ki? (*Gülür.*)

V a s i f. İclas olmağına iclasdı, amma bu dəfə şüşəli-məzəli. Dedik Müşərrəf xanımın sayəsində bu fani dünyadan bir gün oğurlayaq, unudaq dünyanın qalmaqalını.

M u r t u z (*ciddi təbəssümlə*). Hə, Müşərrəf xanım müdafiəsi münasibətilə balaca bir stol açıb. Sizi də qayınananız istəyib, vaxtında gəlmisiz. Nazilə, qədəh gətir görək.

Nazilə dolabdan iki qədəh götürür. Vasif qədəhlərə içki süzür. Hamı oturur.

A m i r (*köks ötürür*). Təbrik edirik, Müşərrəf xanım, xeyrini görəsiz.

M ə m m ə d ə l i (*qədəhini doldurur*). Təbrik edirik, Müşərrəf xanım.

M ü ş ə r r ə f. Sağ olun, sizinçün olsun.

A m i r. Həəə, onu yaxşı dediz. Vaxtında biz də müdafiədən-zaddan eləsəydik, indi belə dönməzdi çərximiz.

M u r t u z. Sizə nolub ki, maşallah, camaat sizə küsənir, o boyda jurnalın redaktorusuz.

F i r u z ə. Hə, hə, maşallah. Mama deyir ki...

V a s i f. Əcəb eləyir.
A m i r. Redaktoru iydim.
V a s i f. Bəs indi?
N a d i r. Ulduz məsələsi.
M u r t u z. Nolub ki?
A m i r. O olub ki, bu gündən bizi də elm fədaisi olmağa göndərdilər.
M u r t u z. Bəs redaksiya?
R a m i z. Hə, bəs redaksiya?
M ə m m ə d ə l i (*köks ötürür*). Redaksiyada yoldaş (*vurğu ilə*) Eldar Zamanlı qaldı.
R a m i z. Eldar?
A m i r. Bəli, Eldar.
R a m i z. Ə, Məmmədəli, yox ə sən öl, elə şey olmaz.
N a d i r (*əhvallı*). Məhkəmədə deyəcəyəm ki...
A m i r (*şaşqın*). Nə məhkəmə?
V a s i f. Əşi, fikir verməyin, Nadir bir az içən kimi məhkəməlik olur.
M u r t u z (*ciddi*). Dərgah müəllimin yanında olmusuz?
A m i r. Xeyr, telefonla danışmışıq.
M u r t u z. Hansı şöbəyə məsləhət gördü?
M ə m m ə d ə l i. Sizin şöbəyə. Katibəyə dedi ki, əmr hazırlasın.
M u r t u z. Səni də?
M ə m m ə d ə l i. Bəli, ikimizi də.
N a d i r. Məhkəmədə də deyəcəyəm ki, Aristotelin vaxtında...
R a m i z (*əsəbi*). Əşi, bura bax, nə məhkəmə, məhkəmə salmısan? (*Yamsılayır.*) Deyəcəyəm ki, deyəcəyəm ki, hə, de görək nə deyəcəksən.
N a d i r. Deyəcəyəm ki...
R a m i z. Hə, nə deyəcəksən?
N a d i r. Deyəcəyəm ki, Aristotelin vaxtında nəşriyyat-filan yox idi.
R a m i z. Elə bu?
M u r t u z (*Vasifə işarə edir*). Bəlkə bir havaya-filana...
V a s i f (*ayağa qalxıb yavaşca Nadirin qolundan tutur*). Nadir qalx, Ramiz sən də qalx. Qalxın çıxaq bir siqaret çəkək, bu fani dünyada.
N a d i r (*ayağa qalxıb barmağını yuxarı qaldırır*). Qalxın, məhkəmə gəlir.

Vasif, Nadir, Ramiz və Arıq kişi dəhlizə çıxırlar. Firuzə, Nazilə, Müşərrəf masaların üstünü təmizləyə-təmizləyə onları bir-birindən ayırırlar. Səfi onlara kömək edir. Murtuz, Amir və Məmmədəli Murtuzun masasının ətrafına yığışırlar. Dəhlizdə Vasifgil siqaret çəkə-çəkə söhbət edirlər.

N a d i r. Sən öləsən, elə bil bu elmi-tədqiqat institutları ştrafnoy batalyondu. Kimi vəzifədən çıxarırlarsa bizə göndərirlər.

R a m i z. Ə yox ə, sən öl, elə döyül.

V a s i f. Düz deyir də.

R a m i z. Nə düz deyir ə?

N a d i r (*əhvallı*). Düz demirəm? Yox eyy sənnənəm, düz demirəm?

R a m i z (*yumşalır*). Nə bilim vallah, bəlkə də elədi.

N a d i r. Bəlkə yox, elədi, vəssalam.

A r ı q k i ş i. Yaxşı, mən gedim, görüm Dərgah müəllim neynəyir. Birdən axtarıb eləyər məni. (*Gedir.*)

Səfi otaqdan çıxıb onlara yaxınlaşır.

V a s i f. Kişi dedi müzakirən olacaq da, balam, daa nə istəyirsən?

N a d i r. Müzakirəylədi bəyəm?

V a s i f. Bəs nəylədi?

N a d i r. Eybi yox, müzakirəsini də görəcəyik. Biri elə sənin özünü.

V a s i f. Mənə nolub ki?

S ə f i. Vasif müəllim, verim dissertasiyamı?

V a s i f (*əsəbi*). Hara?

S ə f i. Sizə dəə, oxumağa.

V a s i f (*Nadirə işarəylə incik*). Əvvəl buna ver.

S ə f i. Nadir müəllim oxuyub.

V a s i f. Ver bir də oxusun.

B a l a ğ a (*onlara yaxınlaşır*). Nolub adə, nə yığışmusuz yenə bazar başına, hə? (*Ucadan qaba səslə*) Yenə nə vurhavurdu orda. (*Otağı göstərir.*)

V a s i f. Heç əşi, bir balaca oturmuşduq.

B a l a ğ a (*eyni ahənglə*). Hə, hə, bilirəm sizin bir balacanızı. Yenə hansı yazığın cibini kəsirdiz? Kimdü budəfəki hərifivüz?

R a m i z. Nə hərif əşi? Keçən həftə müdafiəsi olan Müşərrəf xanım bir balaca stol açmışdı.

B a l a ğ a. O yumşaq cananı deyirsən? Bilirük, qədeş, bilirük, yığmusuz başuvuza yumşaq cananları, vurursuz özüvüzçün.

N a d i r. Bir az yavaş, Balağa müəllim, qapı açıqdır, eşidər.

B a l a ğ a. Eşitsün də, qorxub eliyən var ondan? Matışkədi də.

R a m i z. Sss, yavaş, sən allah, atasına çatar, biabır olarıq.

B a l a ğ a. Nə ata, ata salmısan adə, kimdi onun atası mənim yanımda? Elə bilirsən bir vremenni postu var diyə qorxacaqdıq ondan. Mən elə adamlarla döş-döşə gəlmişəm ki, barmağını qaldıranda hamı dik durur. Birini elə küçədə tutub söymüşdüm. Üstəlik döyəcəkdim də, qoymadılar. Ves Bakı bilir bunu.

R a m i z (*söhbəti dəyişmək niyyətilə*). Bilirik, bilirik. Yaxşı, Balağa müəllim, bu Səfinin işini neyləyək?

B a l a ğ a. Nolub ki Səfiyə, məqaləsi-zadı var, otzıv istiyir?

R a m i z. Yox, dissertasiyası müzakirə olunacaq.

B a l a ğ a. Olunsun da, mənə nə? Onsuz da gündə bir müzakirədi. Bir belə də müzakirə olar?

S ə f i (*çəkinə-çəkinə*). Bəlkə siz də oxuyasız?

B a l a ğ a. Mən nöşün?

V a s i f. Doktorsuzda, iştirak eləsəz yaxşı olar. Protokol üçün lazımdır uşağa. (*Gülür.*)

B a l a ğ a. Əşi, mənim vaxtım hardadı. Bağda hər yeri ot-ələf basıb.

R a m i z. Bah, o daha yaxşı. Elə ikilikdə gedərsiz bağa, həm ot-ələfi təmizləyərsiz, həm dissertasiyaya baxarsız, həm də (*barmağını boğazına toxundurur*) bala-bala o söz.

B a l a ğ a (*bağıra-bağıra gülür*). Həə, bu olar. (*Səfiyə*) Yaxşı, zəng eləyərsən mənə. Ya da ki... voobşim, axşam bir evə gəl...

N a d i r (*əhvallı*). Özün də evdən gəl.

B a l a ğ a. Nə?

R a m i z (*tələsik*). Siz deyəni deyir dəə. Deyir "evə gəl".

B a l a ğ a (*Nadirə*). Bura bax, adə, mənimlə dığ-dığ eləmə ha! Mənə də Balağa deyərlər.

N a d i r (*əsəbini boğmağa çalışaraq*). Bilirəm Balaağa deyərlər, ağaağa deməzlər.

B a l a ğ a (*özündən çıxır*). Çox attanıb düşmə adə, bilirsən neynərəm səni?

R a m i z (*Balağanın qolundan tutur*). Əşi, yaxşı, zarafat eləyir.

N a d i r (*ona tərəf bir addım atır*). Neyniyərsən? Hə, de görək neyniyərsən? Dissertasiyamı saxladarsan, yoxsa Moskvaya anonim yazarsan, hə? De görək neyniyərsən? (*Vasif onun qarşısını kəsir.*) Məhkəməlik adamam, bundan artıq neyniyə bilərsiz mənə?

B a l a ğ a (*dartınır*). Dişlərüvü tökərəm sənin...

N a d i r. Görürəm elə bütün dişlərin qızıldandı. Kefdən saldırmamısan onları. Sənə qoşulan yoxdu, elə bilirsən qorxurlar səndən? Abrını qoruyur camaat.

Ramiz Balağanın qolundan yapışıb zorla aparır.

B a l a ğ a (*gedə-gedə*). Yaxşı, çuşka, mənimlə səninki qalsın sonraya.

N a d i r. Get, get, get araçılığını elə. Sənin fırıldağın rayonlarda keçər, sələmçi doktor.

V a s i f (*Balağanın arxasınca baxa-baxa*). Görünür bu fani dünyada ancaq ağıl ədalətlə paylanıb.

N a d i r (*fikirli*). Niyə?

V a s i f. Çünki heç kəs öz ağlından şikayət eləmir.

Səfi otağa qayıdır. Ramiz ona yaxınlaşır.

N a d i r. Əkdin başını?

R a m i z. Əşi, sən də qəribə adamsan ey, niyə qoşulursan ona, bilmirsən xasiyyətini?

N a d i r (*fikirli*). Bu da bizim doktorumuz, professorumuz, elmimizin peredavoyu.

R a m i z. Ə yox ə, sən öl, yaxşı adamdı, lap qızıl kimi. Özü də çox işə yarayandı. Bir az sözü dilində adamdı, vəssalam.

N a d i r. Bilirik onun nə yollarla işə yaradığını.

Portfelli kişi dəhlizdə görünür.

V a s i f. Özünüzü yığışdırın gəlir.

R a m i z. Kim?

V a s i f. Şerlok Holms.

Portfelli kişi diqqətlə onlara baxa-baxa keçib gedir. Hər üçü ehtiyatla üzünü yana çevirir. Pauza.

S ə f i (*əlində qovluq otaqdan çıxır*). Vasif müəllim, verim dissertasiyanı?

V a s i f (*fikirli*). Nədi o?

S ə f i. Əsərimi... dissertasiyamı deyirəm...

V a s i f (*könülsüz halda qovluğu götürür*). Əşi, bu basabasda dissertasiya oxuyarlar? Sən öləsən tamam ayıltdılar bizi. Zorla bu fani dünyadan köçməyə başlamışdıq. Nə isə, xərcimiz batdı. Yaxşı, məndən xatircəm ol, keçirdərik gedər.

S ə f i (*otağa keçib Murtuza yaxınlaşır*). Murtuz müəllim, Vasif müəllimə də verdim əsəri. Elanı asım?

M u r t u z (*könülsüz*). Bəs Nadir?

S ə f i. Nadir müəllim oxuyub.

M u r t u z. Firuzə xanıma vermisən işi?

S ə f i. Firuzə xanımın vaxtı yoxdur.

F i r u z ə (*başını qaldırır*). Hə, Murtuz müəllim, bu dəfə mənsiz keçinin mümkünsə. Mama deyib ki, onunla rayona gedim.

M u r t u z. Onda Müşərrəf xanıma da ver. Hə, Amir müəllimə, Məmmədəliyə də ver, oxusunlar. (*Gülümsəyir.*) Qoy bu da onların elmdə ilk çıxışları olsun. Sabahda-zadda sizə də bir mövzu fikirləşərik, Amir müəllim.

F i r u z ə. Bəs Məmmədəli müəllimə?

M u r t u z (*ciddi təbəssümlə*). Ona da növbə çatar. Qoy hələ bir az arxivdə işləsin.

Səfi dəhlizə keçir. Nazilə tələsik onun ardınca çıxır.

N a z i l ə. Adə, adam tap, zəng elətdir.

S ə f i. Nə adam?

N a z i l ə. Adam da, qaşlı-gözlü, burunlu-qulaqlı, telefonlu-maşınlı adam.

S ə f i (*yenə anlamır*). Axı niyə?

N a z i l ə. Eh, fərsiz, sənə söz başa salınca adam miningit olar. İşinin yaxşı keçməsi üçün deyirəm də. Tapşırsınlar səni, başa düşdün?

S ə f i. Axı mənim heç kəsim...

N a z i l ə (*əsəbi*). Onda heç olmasa bu acgözlərdən bir-ikisini qonaq-zad elə. Dərgaha, Murtuza xod axtar.

S ə f i. Axı mənim maaşım heç özümə...

N a z i l ə (*onun sözünü kəsir*). Yaxşı, özün bil, məndən demək, əfəlin biri əfəl. (*Otağa qayıdır.*)

Səfi dəhlizdə dayananlara yaxınlaşır. Bu vaxt Arıq kişi sürətlə gəlir.

Arıq kişi. Keçin, keçin şöbələrə, gəlirlər. Tez, tez!

Dəhlizdə sürətli gediş-gəliş başlanır. Səs-küylü hərəkətləri templi musiqi sədaları müşayiət edir. Bir az sonra işıq sönüb yenidən yandıqda eyni şöbədə Səfinin dissertasiyasının müzakirəsi. Murtuz, Firuzə, Müşərrəf, Vasif, Amir, Nadir, Məmmədəli, Nazilə və Səfi müxtəlif masaların arxasında iki bir, üç bir oturmuşlar. Hərənin qarşısında iri bir qovluq var.

Vasif. ...Beləliklə, dissertant Səfi Səfiyev materialı yaxşı öyrənib, daha doğrusu, toplayıb bir yerə yığıb, mənimsəməyə çalışıb. Və bu material gələcəkdə yazılacaq dissertasiya üçün əsas götürülə bilər. İndiki halda isə əsər ayrı-ayrı faktlardan ibarətdir.

Nadir. Deməli, sənin sözündən belə çıxır ki, əsərdə heç bir təhlil-filan yoxdur?

Vasif. Təhlil var, ancaq ümumiləşdirmə yoxdur, pərakəndəlikdir.

Nadir. Yəni heç bir ümumiləşdirmə yoxdur?

Vasif. Yox.

Murtuz. Nadir müəllim, sən çıxışını elədin axı.

Nadir (*ona əhəmiyyət vermədən Vasifə*). Nə dəhşətli adamsan ə sən! Neçə ildi kişiylə bir otaqda işləyirsən, ürək bölüşürsən...

Vasif. Nadir müəllim, bu elmdir, elmdə isə tərəfkeşlik ola bilməz. Drujba drujba, slujba slujba.

Nadir (*əsəbi*). Bay səni! Axı bu əsər elə elmi müqayisəli ümumiləşdirmələr üzərində qurulub...

Murtuz (*ciddi*). Yaxşı, yaxşı, mübahisə lazım deyil. Sora sənə ayrıca söz verərik də, Nadir müəllim.

Nadir (*çılğın*). Nə vaxt? Axı mən hamıdan əvvəl sözümü demişəm. Bir də nə vaxt söz veriləcək mənə? Heç vaxt! Həmişə beləcə söz verib axırda müzakirəni tələsik yekunlaşdırıb dağılışırsınız.

Murtuz. Yaxşı, yaxşı, qoy kişi sözünü desin. Buyurun, Vasif müəllim.

Vasif. Əslində mən sözümü qurtarmışam. Yəni onu demək istəyirəm ki, indiki halda bu yazıda dissertasiya üçün material az deyil. İndi qalır bu material əsasında dissertasiyanı yazmaq, vəssalam. Və biz bu işdə Səfi Səfiyevə uğurlar diləyirik. (*Səfiyə.*) Hə, hə, darıxmaq

lazım deyil. İşin müəyyən hissəsi görülüb. Materialın da var, vaxtın da. Özün də cavansan hələ. İnşallah, üç-dörd ilə başa çatdırarsan bu işi.

Firuzə. Hə də, yazar, qoçaq oğlandır Səfi. Yazar.

Nadir. Bəlkə on ilə?

Vasif dinmir. Nazilə bir neçə dəfə asqırır.

Murtuz (*fısıldayır*). Yaxşı, Amir müəllim, buyurun.

Amir. Mən bu nömrəni, to yest... dissertasiyanı dərindən dərinə oxumuşam. Yəni heç bir cümləsini buraxmamışam. Maraqlı məsələdir. Gələcəkdə təsərrüfat əhəmiyyəti də ola bilər. Material da yaxşı toplanıb, şriftlər də, eee, to yest elmi ədəbiyyat da. Bu mənada mən Vasif müəllimin fikriylə tamamilə şərikəm. Və Vasif müəllimin o fikrilə də şərikəm ki, bu material gələcəkdə yazılacaq jurnal, eee to yest dissertasiya üçün yaxşı material verə bilər. Yəni, dörd-beş ilə yazıla bilər. Düzdür, Vasif müəllim üç il dedi, amma tələsdirmək lazım deyil, qoyun işləsin. Bu mənada mən Nadir müəllimlə şərik ola bilmirəm ki, o, on il vaxt verir. Əlbəttə, on il bir az çoxdur.

Nadir. Bəlkə iyirmi il vaxt verək, yoldaş sabiq baş redaktor? Yəni sənin bıvşi dükanuvun, to yest redaksiyavun telefonsuz, tapşırıqsız əsərlərə verdiyi vaxtı deyirəm eyy.

Amir (*etinasızlıqla*). Murtuz müəllim, mən bu qədər.

Murtuz. Çox sağ olun. (*Gülümsəyir.*) Müşərrəf xanım, siz oxumusuz da?

Müşərrəf (*nazlanır*). Bəli, bir az. Yəni onu demək istəyirəm ki, əvvəldən iyirmi səhifə.

Murtuz. Nolar, fikir demək üçün o da kifayətdir.

Nadir. İyirmi səhifə də axırdan oxusaydı, lap tam fikir demək olardı. Onsuz da əsər cəmi-cümlətanı üç yüz səhifədir.

Murtuz yerində qurcalanır. Elə bu vaxt Dərgah təngnəfəs qapıda görünür.

Dərgah. Hazırlaşın, gəlirlər.

Eyni anda üç nəfər orta yaşlı şəxs qapıda görünür, hamı ayağa qalxır.

Dərgah. Buyurun, buyurun içəri.

Murtuz. Buyurun, yoldaş Şəfiyev, buyurun yoldaşlar. (*Nazilə və Səfiyə işarə edir.*) Stul gətirin.

Nazilə və Səfi çıxırlar. Şəfiyev və yoldaşları onun yerində əyləşirlər. Bir azdan Nazilə ilə Səfi stul gətirib əyləşirlər.

Ş ə f i y e v. Salam, yoldaşlar. İclasdı deyəsən, mane olmadıq ki?

M u r t u z. Xeyr, əşi, əksinə, xoşdur bizimçün.

D ə r g a h. Salman müəllim, bu şöbə bizim institutun ən böyük şöbələrindəndir. Rəhbəri də Murtuz müəllimdir.

Ş ə f i y e v. Nolar, lap yaxşı. Buyurun davam edin.

M u r t u z. Əslində elə qurtarmış kimiyik...

N a d i r. Əzimxanova yoldaş yenicə başlamışdı ki, yazığın sözü ağzında qaldı.

Ş ə f i y e v (*maraqla Müşərrəfə, sonra da Murtuza baxır*). Nə məsələdir bəyəm?

M u r t u z. Heeç... Şöbənin gələcək işlərindən bir balaca...

N a d i r. Bəli, yoldaş Şəfiyev, şöbəmizin işçisi bu balaca Səfinin onillik əməyinin, yəni dissertasiyasının müzakirəsidir.

Ş ə f i y e v. Buyurun davam edin. Söz kimindir?

N a d i r. Müşərrəf xanımın. Elə yenicə başlamışdı ki, məhkəmə eee... siz gəldiniz.

Ş ə f i y e v. Nə məhkəmə?

D ə r g a h (*söhbəti dəyişmək niyyətilə tələsik*). Salman müəllim, Müşərrəf xanım institutumuzun yeni kadrlarındandır. Bu yaxınlarda müdafiə eləyib.

Ş ə f i y e v. Nolar, lap yaxşı. (*Müşərrəfə*) Buyurun, Müşərrəf xanım.

M ü ş ə r r ə f (*özünü itirir*). Səfi müəllim... Dissertasiya yazıb... eee şey... temasında. (*Susur*, *pauza.*)

Ş ə f i y e v. Hansı mövzuda? Danışın, danışın, sıxılmayın.

M u r t u z (*gülümsəyir*). Bir az utancaqdır.

D ə r g a h. Hə, bəli, çox tərbiyəli qızdır. Bir söz deyən kimi qızarır.

N a d i r (*Səfiyə*). Təmiz ailədəndir.

Ş ə f i y e v. Niyə utanırsan axı? Alim də utanar? Alim gərək dil-dil ötsün. Özü də deyirsiniz hətta müdafiə də eləyib. Bəs müdafiədə neynəyib? Hə, buyurun, buyurun davam edin.

M ü ş ə r r ə f. Hə, bəli... Deməli, Səfi müəllim... Deməli, dissertasiya yazıb özünə. Deməli, çox gözəl bir mövzuda... Özü də deməli, təzəcə qurtarıb işini. Deməli, indi primerkası... eee to yest absujdeniyasıdı...

Nazilə asqırır.

Müşərrəf. Dissertasiyanın bir iki fəsli də var deməli...
Nadir. Dörd fəsil.
Müşərrəf. Hə, bəli... dörd fəsil və deməli, bir zaklyuçeniye.
Şəfiyev. Fəsillərdə hansı problemlər qaldırılır?
Müşərrəf. Bağışlayın, necə?
Şəfiyev. Deyirəm yəni, fəsillərdə nədən danışılır?
Müşərrəf. Eeee... temasından, to yest...

Pauza.

Şəfiyev. Yaxşı, fəsillərin adları necədir?
Müşərrəf. Eeee...
Dərgah. Darıxma, fikirləş yadına düşər. (*Şəfiyevə*) Çox utancaqdır.
Nadir (*qovluğu Müşərrəfə uzadır*). Alın, heç olmasa burdan oxuyun. Eh, mənə nə var ey, bir azdan məhkəməmdir.
Şəfiyev (*təəccüblə Nadiri süzür*). Yaxşı, aydındır. Daha kim danışmalıdır?
Murtuz (*tələsik*). Eeee... Heç kim, hamı danışdı məncə.
Nadir. Bəs siz özünüz?
Dərgah. Murtuz müəllim şöbə müdiridir. O danışmır, yalnız yekunlaşdırır.
Nadir. Yekunlaşdırsın da.
Şəfiyev. Hə, Murtuz müəllim, müzakirə necə keçdi, nə deyə bilərsiniz yekun olaraq?
Murtuz (*tərəddüdlə*). Yaxşı olar hər halda. Bir az işləməlidir.
Nadir. Bir az, yəni nə qədər?
Murtuz. Tamamlayana qədər.
Nadir. Axı dediz üç, dörd, hətta beş il.
Şəfiyev. Beş il?
Murtuz (*süni təbəssümlə*). Xeyr, əşi, nə beş il? Mən elə söz deməmişəm.
Nadir. Siz deməmisiz, nə fərqi var, Vasifiniz deyib, Firuzə xanım təsdiq eləyib. Komissiya gəlməsə, siz də eyni şeyi deyəcəkdiniz. Məsələn, mən heç nəyi gizlətmirəm, açıq-aşkar deyirəm ki, mən məhkəməlik adamam, vəssalam, məni mühakimə etmək lazımdır.
Şəfiyev. Doğrudan bu nə məhkəmə söhbətidir. Bəlkə, kimləsə dalaşıb eləmisiz. Yoxsa elmi idarədə nə məhkəmə söhbəti ola bilər? Bəlkə kiminsə fikrini və ya əsərini mənimsəmisiz, hə?

Dərgah. Xeyr, əşi, Nadir müəllim bir az məzəli danışmağı xoşlayır, zarafatcıldır.
Nadir. Xeyr, mən zarafatsız-zadsız məhkəməliyəm.
Şəfiyev. Axı neyçün? Deyin biz də bilək də.
Nadir. Bu saat izah eləyim.
Şəfiyev. Buyurun.
Nadir. Yoldaş komissiya sədri, mən düz iyirmi ildir bu institutda işləyirəm.
Dərgah. Nadir müəllim bizim veteranlardandır.
Şəfiyev. Bəli, sonra?
Nadir. Bu iyirmi ildə cari işlərdən əlavə üç böyük, yəni monumental elmi əsər, yəni kitab yazmışam. İyirmiyə qədər də təkliflərim olub. Həmin o üç böyük əsərim də müzakirədən keçib, təkliflərim də. Yəni qəbul olunub. Daha orasını demirəm ki, ömür-can bahasına başa gələn necə dəhşətli mübarizə və vuruşlardan sonra.
Murtuz (*süni təbəssümlə*). Əşi, sən də şişirtmə görək, hansı iş asanlıqla başa gəlir ki?
Dərgah (*gülür*). Yaman zarafatcıldır.
Şəfiyev. Bəli, buyurun.
Nadir. Ancaq bu iyirmi il ərzində nə o üç böyük əsərim çap olunub, nə də təkliflərim həyata keçirilib. Deməli, heç bir təsərrüfat əhəmiyyəti olmayıb bu işlərin. Halbuki bu iyirmi ildə mən orta hesabla ayda üç yüzə qədər dövlətdən məvacib-filan almışam. İndi gəlin hesablayaq. İlimiz on iki aydı?
Şəfiyev (*maraqla*). Bəli.
Nadir. Bu edər ildə min altı yüz, iyirmi ildə yetmiş iki min manat. Təkrar edirəm, yet-miş i-ki min manat! İndi özünüz deyin, mən məhkəməliyəm, yoxsa yox?

Pauza.

Dərgah. Yaxşı, hardadı bu işlər?
Nadir. Onu siz yaxşı bilərsiz.
Şəfiyev. Həə, belə-belə işlər... Bəs siz özünüz buna təşəbbüs etmisiz?
Nadir. Nəyə?
Şəfiyev. Bu əsərlərin çapına-filanına.
Nadir. Min dəfə. Ərizələrimin nüsxələri işə tikilib, buyurub yoxlaya bilərsiz.

Ş ə f i y e v. Əlbəttə yoxlayacağıq. Beləə... Başqa bir sözünüz varmı?

N a d i r. Başqa? Hə, başqa odur ki, bu institutda bir attestasiyaya bənzər bir yoxlama keçirtmək lazımdır. Özü də bunu elə bizim şöbədən başlamaq olar.

M u r t u z (*əsəbi*). Necə axı?

N a d i r. Necəsi yoxdu ki. Salman müəllim, elə indicə siz bəzi çıxışları dinlədiniz. Çıxış edənlər elmlər namizədləridir. Bu yazıq Səfi isə heç nədir, heç nə, yəni sıfır. Halbuki, o, çox gözəl, səviyyəli bir dissertasiya yazıb. Müqayisə üçün indi də onu dinləyin.

M u r t u z. Axı ona nə deyən var ki?

N a d i r. Deyəcəksiz dəə.

M u r t u z. Mən ki hələ heç çıxış etməmişəm.

N a d i r. Hə, onda buyurun çıxış edin. Deyin görək bu əsər müdafiəyə layiqdir, yoxsa yox?

M u r t u z. İndi onun vaxtı deyil. (*Süni təbəssümlə*) Qəribə oğlansan, hörmətli yoldaşlar bizə qonaq gəliblər, sənsə başlamısan ki, məhkəmə belə gəldi, Səfi belə getdi. Kişilərin qızıl kimi vaxtını niyə alırsan axı?

Ş ə f i y e v. Vaxtımız çoxdur, Murtuz müəllim, buyurun siz də danışın, Səfi müəllim də.

Murtuz qarşısındakı kağızları eşələyib danışmağa başlayır. Sonra Səfi danışır. Ancaq onların səsləri eşidilmir. Eyni anda dəhlizdə qapının ağzına yığışan Arıq kişi və başqa əməkdaşlar içəri baxıb pıçıldaşırlar. Templi musiqi bütün bu danışıq və pıçıltıları müşayiət edir. Musiqi birdən-birə kəsilir.

Şəfiyev (*ayağa qalxır*). Hər şey aydındır. İcazə verin biz gedək, yoldaşlar.

Hamı ayağa qalxır. Şəfiyev və yoldaşları qapıya yönəlirlər. Dəhlizdəkilər tez geri çəkilirlər. İşıq sönüb-yanır. Dəhliz və otaq boşdur. Otaqda tamaşanın əvvəlində olduğu kimi təkcə Nazilə telefonla danışır.

N a z i l ə. Alo, Fira, tez işə gəl, Fantomas eee ...Mixaylo... to yest iclas olacaq. Nə bilim eyyy, deyirlər ogünkü yoxlamanın nəticələrinin obsujdeniyası olacaq. Müşərrəfi, Səfini, nə bilim daha kimi

attestasiya eliyəcəklər. Papası? Papasının da işləri yoxlanır deyirlər. Hə, hə, bir də Səfi öz işi haqqında məruzə edəcək. Əlbəttə, niyə lağ eləyirsən? Səfi pis oğlandı bəyəm? Sənin kimi ömrü boyu kompozitorlara, artistlərə göz dikib qocalınca elə belə bir yazığın özünə ərə getmək yaxşıdır. Voobşim, tez elə, tez! Vaxtımı alma, hələ o birilərinə də zəng eləməliyəm. (*Dəstəyi qoyur*, *asqırıb yenidən dəstəyi qaldırır.*)

Nazilə danışa-danışa eyni anda dəhlizdə sürətlə gediş-gəliş, səs-küy başlanır. Templi musiqi sədaları altında işıq sönür.

## EPİLOQ

Eyni otaq və qarşıda dəhliz.

N a d i r (*şöbənin kandarında görünür. Əlindəki kitabı yuxarı qaldırıb ucadan*). Gənc və qocaman alimin ilk kitabı!

Hamı səs-küylə ona yaxınlaşır. Qarışıqlıqda müxtəlif səslər eşidilir. Templi musiqi bu replikaları müşayiət edir.

V a s i f. Təbriklər, təbriklər, starik. Eh, vallah, dünya fani deyil.

F i r u z ə. Təbrik eləyirəm, Nadir müəllim, axır ki, bu kitab üzə çıxdı. Mama deyirdi ki...

N a z i l ə. Mübarəkdi, mübarəkdi, Nadir müəllim. Sağ əliniz Səfinin başına.

R a m i z. Nadirin nadir kitabını təbrik edirəm.

V a s i f. Nadir deyil, evində ikisi də var. Mən hələ başındakıları demirəm.

R a m i z. Ə yox ə, sən öl, nadirdir. Qarabağlılardan yazıb.

F i r u z ə (*kitabı əlinə götürür*). Ooo, necə də bəzəklidir. Nə yaxşı buraxıblar. Mama deyir ki, ən yaxşı kitab...

S ə f i (*bir müddət təəccüblə hamıya baxdıqdan sonra yerindən qalxır*). Təbrik edirəm, Nadir müəllim.

N a d i r (*səs-küy içində*). Səni də təbrik edirəm, ay Səfi, əla məruzə elədin o gün. İnşallah bu yaxınlarda müdafiənə yığışacağıq, yaxşı hazırlaş ha.

V a s i f. Təbrik, təbrik, ay Səfilər padşahı.

M u r t u z (*qapıda görünür*). Bəsdi, bəsdi, Oktaylıq yaraşmır sənə. (*Musiqi azalır.*) Hay-küy salma.

V a s i f (*Səfiyə*). Pah atonnan, bu boyda zıppıltıdan sonra yenə jestini dəyişməyib.

M u r t u z (*ciddi*). Təbrik edirəm, Nadir müəllim.

N a d i r. Çox sağ olun. Sayənizdə. (*Murtuzun ona uzanan əlinə toxunur.*)

Nazilə bir neçə dəfə asqırır.

V a s i f. Sağlam ol, Nazoçka.

M u r t u z. Bəs Müşərrəf xanım hardadı?

V a s i f. Attestasiyaya çağırıblar.

N a z i l ə. Dünəndən gedəndi.

F i r u z ə. Salam, Murtuz müəllim, necəsiz? Dünən mama deyirdi ki, televizorda ən yaxşı çıxış eliyən...

Musiqi güclənir. Yenidən replika, səs küy başlanır.

V a s i f (*Nadirin əlindəki kitabı dartıb başının üstünə qaldırır*). Kim deyir ki, “Alim olmaq asandır?”

Musiqi daha da güclənir. Səs-küy içində işıq sönür.

**SON**

# İNQİLAB NADİRLİ

(1940)

*İnqilab Ədil oğlu Nadirli – şair, dramaturq, publisist – Ağcabədi rayonunun Hüsülü kəndində anadan olmuşdur. Kənddə orta məktəbi* (*1956*)*, Gəncədə APİ-nin fizika və riyaziyyat fakültəsini* (*1961*)*, Moskvada Ali Komsomol Məktəbini* (*1966*)*, Sov.İKP MK yanında Ali Partiya Məktəbini* (*1976*) *bitirmişdir. Əmək fəaliyyətinə Ağcabədi 2 saylı orta məktəbində müəllim kimi başlamış, ordu sıralarında xidmət etmişdir. Ağcabədi rayonunun Ə.Bünyadov adına kolxozunda sədr, rayon komsomol komitəsinin ikinci, sonra isə birinci katibi, rayon partiya komitəsinin ikinci, Kəlbəcər rayon Partiya Komitəsinin birinci katibi, Binəqədi rayonu icra hakimiyyətinin başçısı vəzifələrində işləmişdir. Ehtiyatda olan polkovnik-leytenantdır.*

*Şeirləri mətbuatda dərc olunmuş,* "*Tarixə qovuşan illərim*" *kitabı* (*1998*) "*Qızıl qələm*" *mükafatına layiq görülmüşdür.* "*Sınaq*", "*Yol ayrıcında*" *və* "*Çənlibel*" *mənzum pyeslərinin,* "*Unutmaz o dağlar, obalar məni*" *mənzum memuar-poemasının müəllifidir. Şeirlərinə mahnılar bəstələnmişdir.*

*9, 10, 11-ci çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı, Azərbaycan Respublikası Milli Məclisinin üzvü* (*1992-1995*)*, ÜİLKGİ-nin XVI, Azərbaycan Kommunist Partiyasının XXVIII, XXIX, XXXI və XXXII qurultaylarının nümayəndəsi, Azərbaycan KP MK təftiş komissiyasının üzvü olmuş, SSRİ kənd təsərrüfatı əlaçısıdır.* "*Şərəf nişanı*", "*Qırmızı Əmək Bayrağı*", "*Oktyabr İnqilabı*" *ordenlərinə və bir çox medallara layiq görülmüşdür.*

# SINAQ

*3 pərdəli 19 şəkildə lirik dram*

İŞTİRAK EDİRLƏR

| | |
|---|---|
| Adil | – əsgər |
| Vəfa | – kənd həkimi |
| Göyçək xala | – Adilin anası |
| İzmozik | – Adilin əsgər dostu, yəhudi |
| Monika | – İzmozikin nişanlısı, alman |
| Afət | – Vəfanın rəfiqəsi |
| Polkovnik Qarmaş | – polk komandiri, ukraynalı |
| Mayor İvanov | – batalyon komandiri, rus |
| Polkovnik Hafizov | – Xabarovskda hospitalın baş həkimi, tatar |
| Fatimə | – tibb bacısı, Hafizovun qızı, tatar |
| İlyas | – poçtalyon |
| Viktor | – əsgər, belorus |
| Asman | – məhbus, inquş |
| İvan | – məhbus, rus |
| Məmməd | – məhbus, azərbaycanlı |

## BİRİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Kənd evi, Göyçək xala oğlu Adilin çamadanını yığır.

Göyçək xala

Sanki bu dövlətə qul doğulmuşuq,
Qəhərin əliylə çox boğulmuşuq.
Sən əsgər gedirsən, yalqız qalıram...
Atan gedən günü yada salıram.
Əsgərlik atanı əlimdən aldı,
Bizi başsız qoydu, əzaba saldı.

Adil

Ana, axı o vaxt müharibəydi,
Dörd il millətlərin belini əydi.

Vətənin borcundan çıxmalıyam mən.
Sən də heç nigaran gəl qalma məndən.

Göyçək xala

Dünyadan yamanca qorxubdur gözüm,
Qocalmışam, məndə qalmayıb dözüm.

Adil

Ana, icazə ver, yol üstdəyəm mən,
Tay-tuşlar dərs alıb həmişə məndən.

Göyçək xala

Oğul, bəs sevgilin nə deyir sənə,
Tale ulduzundur düşüb bəxtinə.
Vəfanın ağlına söz ola bilməz,
Onsuz ana qəlbim sevinməz, gülməz.
Onu atan Camal məsləhət bilmiş,
Bununla gözümün yaşını silmiş.
Sən ancaq onunla xoşbəxt olarsan,
Ata arzusuna sadiq qalarsan.

Adil

Vətənin borcunu verməliyəm mən,
İkicə illikdir heç darıxma sən!
Qayıdıb gələrəm, toyumuz olar,
Ürəyin fərəhlə, sevinclə dolar.
Oğlun ilqarına sadiq qalacaq,
Sevimli gəlinin Vəfa olacaq.
Özünə qulluq et, düşünmə dərin,
Saxla ürəyini buz kimi sərin...

Göyçək xala

Ay oğul, bu dünya çox vəfasızdır,
Sevincdən qəmi çox, bil, səfasızdır.
(*Vəfa daxil olur, o da pərişandır.*)

Olsun xoş qədəmin, qızım, mübarək,
Sizin toyunuzu inşallah görək.

A d i l

Allaha tapşırıb sizi gedirəm,
Qəlbimin hökmünə əməl edirəm.
Vəfa, baş çəkərsən tez-tez anama,
Baxıb qoy fəxr etsin səntək sonama.
Qoy alsın iyimi o səndən, barı,
Artmasın qəlbinin qəmi-qubarı.
Məktub yazacağam mən harda olsam,
Harda qulluq etsəm, hayanda qalsam.

Göyçək xala gedir.

V ə f a

Qorxuram rus qızı – Olya alasan,
Vəfanı unudub orda qalasan...

A d i l

Ölüm də ayırmaz, bil, məni səndən,
Bülbül ayrı gəzməz öz çəmənindən.
Gələrəm, edərik toyumuzu biz,
Övlad arzusuyla vurur qəlbimiz.

V ə f a

Toyumuzu edək, sonra get, Adil!
Əsgərlik borcuna əməl et, Adil!

A d i l

Mən vətən borcumdan çıxmasam, əgər
Vicdanım qan ağlar, gözüm yaş tökər.
Əsgər getməyənə demirlər kişi,
Tarixə nəzər sal, öyrən keçmişi.

V ə f a

Sənə uğurlu yol, get əsgərliyə,
Sonra sağ-salamat qayıt geriyə,
Əmin ol, eşqini bəslərəm gültək,
Eşqinlə vuracaq sinəmdə ürək.

A d i l

İstəsəm qalmağa imkan taparam,
Bəhanə axtarıb tədbir yaparam.
Amma qanun çıxıb, getməsəm olmaz,
Fərari xalqının qeydinə qalmaz.

V ə f a

Əgər aparsalar, mən də gedərəm,
Vətənə səninlə xidmət edərəm.
Orduda həkimə vardır ehtiyac,
Orda əsgərlərə eylərəm əlac.

A d i l

Zabit olsa idim mənlə gedərdin,
Əsgərə, zabitə xidmət edərdin.

V ə f a

Əgər belədirsə, başqa sözüm yox.

A d i l

Belədir, darıxma, fikir çəkmə çox!

G ö y ç ə k x a l a
(*Qayıdır.*)

...Afət gəlib səni yola salmağa,
Vəfaya təsəlli, həyan olmağa.

A d i l

Qoy gəlsin bir görüm onun özünü,
Bacıtək söyləsin ürək sözünü.

A f ə t

Sabahınız xeyir, xoş gördük, qağa,
Get, salamat qayıt ana torpağa.
Tələsik özümü bura yetirdim,
Yolda yemək üçün kətə gətirdim.

A d i l

Kətə gətirmisən, sağ ol, ay Afət.

A f ə t

Bilirsən, bizlərdə belədir adət.

A d i l

Vətən keşiyində duracam sayıq,
Sizin adınıza olacam layiq.

A f ə t

Oradan məktub yaz, bizə barı sən.

A d i l

Əlbəttə, əlbəttə, söz verirəm mən.
Əsgərlik müddəti ikicə ildir,
Bu ilk sınağımdır, mənə bəllidir.
Sənə qurban olum, ana, ağlama,
Axı, yol üstdəyəm məni dağlama.

Göyçək xala

Qoy sənə Allahım daim yar olsun,
Dostların sevinsin, düşmən xar olsun.

Adil

Sinəmdə döyünən saf ürək kimi,
Mənə qürur verən xoş dilək kimi,
Əbədi solmayan tər çiçək kimi,
Vəfa, saf eşqini aparıram mən,
Onunla əbədi qalan yaram mən.

Vəfa

Sinəmdə eşqinlə vuracaq ürək,
Sən mənim əhdimə gəl eyləmə şəkk.
Verərəm canımı, olarsa gərək.

Adil

Ayrılıq dəmidir, çox kövrəlmə sən,
Gözünü yaşarmış qoy görməyim mən.
Könül rübabını mənimlə bir çal.
Əzizim, di sağ ol, sağ-salamat qal!..

Ayrılırlar. Vəfa Adilin arxasınca su atır, sonra məyus oturur.
Afət gəlib Vəfaya yaxınlaşır.

Afət

Bilmədin nə üçün o, əsgər getdi?
Səni yalqız qoydu niyə tərk etdi?
Mən rayonda həkim, sən isə kənddə,
Tez-tez görüşərik, Vəfa, əlbəttə!

PƏRDƏ

İKİNCİ ŞƏKİL

Radioda təntənəli marş fonunda alqış sədaları eşidilir.

S ə s. Leninqrad "N". hərbi hissəsinin sıravi əsgəri Adil Kərimov hərbi hissə üzrə xizək yarışlarında birinci yerə çıxmışdır.

Hərbi hissə. Mayor İvanovun kabineti.

A d i l
(*Daxil olur.*)

Çağırışınızla bura gəlmişəm.

İ v a n o v

Mən özüm məsləhət belə bilmişəm.
Deyirlər xizəyi yaxşı sürürsən,
Ustası olmusan bu tezliklə sən.
Şərəf bilməsəydin, çətin əməyi,
Sən tez öyrənməzdin xizək sürməyi.
Sən ki cənublusan görməmisən qar,
Görürəm, xizəyə çox marağın var.
Yaman sevindirdi qələbən məni,
Təbrik eləyirəm ürəkdən səni.

A d i l

Həm riyaziyyatçı, həm idmançıyam,
Kosmonavt olmağın bilin acıyam.
Sonsuz bir diləklə mən dünən axşam
Bu haqda rəhbərə məktub yazmışam.

İ v a n o v

Çox yaxşı, bu arzu pis arzu deyil,
Düz edib sən buna salmısan meyil.
Səni çağırmaqda budur məqsədim,
Bir tapşırıq verim, həm təbrik edim.

A d i l

Can-başla hazıram hər əmrinizə,
Mən də minnətdaram ürəkdən sizə.

İ v a n o v

Bizim zabitlərə dərs demək üçün,
Səni çağırmışam yanıma bu gün.
Lazımdır bizə bir riyaziyyatçı,
Özün ödəyəsən bu ehtiyacı.
Dəqiq elmlərin sirlərini sən
Zabitlərə gərək mənimsədəsən.
Ali hərbi təhsil alsınlar onlar,
Dövlət qayğısına qalsınlar onlar.
Bunun öhdəsindən sən gəlsən, əgər
Olarsan hissədə seçilən əsgər.

A d i l

Dərs demək şərəfli peşəmdir mənim,
Gərək məndən fayda görsün vətənim.

İ v a n o v

İndi gəl diqqətlə qulaq as mənə,
Mən öz istəyimi qoy deyim sənə.
Həm müəllim kimi, qorxmaz, mətin ol,
Mina təmizləmə işinə qoşul.

A d i l

Çoxdan son qoyulub ölkədə hərbə,
Nə mina, hazırda yox müharibə.

İ v a n o v

Leninqrad düşmüşdü mühasirəyə,
Qalxmışdı millətin fəryadı göyə.

Doqquz yüz gün qaldı mühasirədə,
Onların bərkidi əzmi get-gedə.
Susdurdu yağını leninqradlılar,
Oldu şücaəti bu dünyaya car.
Mərd əsgərlər yardı mühasirəni,
Onlar xilas etdi xalqı, vətəni.
Faşistlər oranı tərk edən zaman
Onlar minalayıb o yeri pünhan.
O yer cənnət kimi ürəyə yatır,
Ladoqa, Fin gölü arasındadır.
Orda minalanmış torpaqlar vardır,
O, müharibədən bir yadigardır.
Hasar çəkilibdir dörd bir yanına,
Səmt düşsən, od-alov dolar canına.

Adil

Mən də eşitmişəm o yerlər haqda,
Gözlər yaş axıdır düşəndə yada.

İvanov

O yerlər minadan təmizlənməli,
Anatək bağrına basmalı eli.
Bizə tapşırılıb o yerin biri,
Köməyə çağırır hər bir əsgəri.

Adil

Çıxası deyiləm, heç sözünüzdən,
Yazın, o dəstənin üzvü olum mən.

İvanov

Tapşırram dəstəyə yazılsın adın,
Başını ucaltsın qoy istedadın.
Səninlə fəxr etsin hərbi hissəmiz,
Minalı torpaqdan qalmasın bir iz.

PƏRDƏ

ÜÇÜNCÜ ŞƏKİL

Kənd xəstəxanası, həkim otağı.

V ə f a
(*öz-özünə*)

Gözüm yollardadır, qulağım səsdə,
Quş kimi qalmışam sanki qəfəsdə.

G ö y ç ə k x a l a
(*Daxil olur.*)

Qızım, nə deyirsən özün-özünə,
Yoxsa işçilərin baxmır sözünə.

(*Poçtalyon İlyas gəlir.*)

İ l y a s

Ay həkim, muştuluq, sizə məktub var.

G ö y ç ə k x a l a

Üstündə yar olsun qoy pərvərdigar.

(*İlyas məktubu verib çıxır. Vəfa məktubu oxuyur.*)

Sənə salam olsun, ey nazlı pərim,
Könlümün istəyi, ürək təpərim.
İşıqlı səhərim, al gündüzümsən,
Amalım, sevincim, şirin sözümsən.
Sənlə nəfəs allam, ey nazlı pərim,
Eşqindir təsəllim, ürək təpərim.

G ö y ç ə k x a l a
(*Alıb məktubu öpür.*)

Adil həsrətiylə vuran qəlbimə,
Hicranla yanaşı duran qəlbimə,

Onu arzulayıb soran qəlbimə
Bir məlhəm sanıram bu məktubu mən.

(*Göyçək xala gedir, Vəfa Adilə məktub yazır.*)

V ə f a
(*sevincdən əlləri əsə-əsə*)

Yetişdi məktubun, sevimli yarım,
Çeşmətək çağladı xoş arzularım.
Son vaxtlar yox idi səndən bir xəbər,
Məni sarsıdırdı bu vaxtsız səfər.
Mən hara baxıram sən! görürəm,
Adına çiçəkdən çələng hörürəm.
Sənsiz hər dəqiqəm bir qərinədir,
İnan can otağım bir viranədir.
Yaşaya bilmərəm anladım sənsiz,
Tər güllər saralar bağsız, çəmənsiz.
Xoş xəbərin gəlsin sənin oradan,
Üstündə yar olsun böyük Yaradan.
Mən indi bilmişəm hicran nə imiş,
Dərdin, intizarın qəddimi əymiş.
Nə gecəm var idi, nə də gündüzüm,
Yaman tükənmişdi məndəki dözüm.

A f ə t
(*Gəlir.*)

Xoş gördük, xoş gördük, necəsən, ay qız?

V ə f a

Bəs məni sən niyə qoymusan yalqız.

A f ə t

Elədir, çoxdandır görmürəm səni?

V ə f a

Yaman sevindirdi gəlişin məni.

A f ə t

Nənəmin canıyçün ölürəm sənsiz.

V ə f a

Mənə baş çəkərdin darıxsan mənsiz.

A f ə t

Hər cümə olursan səhiyyədə sən,
Axtarıb gəzmirsən məni, de, nədən?

V ə f a

Haqlısan, məndə də günah var, Afət,
Gedib tez dönməli oluram, fəqət.

A f ə t

Adildən bir xəbər varmı, de, Vəfa
Bilirəm yolunda çəkirsən cəfa.

V ə f a

Elə bu gün ondan məktub almışam,
Oxuyub mən onu, məmnun qalmışam.
Yazır, tapşırıram səni Allaha,
Heç vaxt qısqanc olub batma günaha.
Nə qədər mən sağam çəkmə qəm, cəfa,
Səninəm, səninəm, səninəm, Vəfa!..

A f ə t

Sevib sevilməyin şad edir məni,
Təbrik eləyirəm ürəkdən səni.

Amma istəyirəm bir söz deyim mən,
Narahat olarsan, qorxuram səndən.

Vəfa

Olmaram qətiyyən, gəl açıq söylə,
Könlündə nə varsa sən agah eylə.

Afət

Hələ biz Bakıda oxuyan zaman,
Bil ki, göz qoyurdum Adilə hər an.
Deyəsən orada sevdiyi vardı,
Hərdən onun ilə seyrə çıxardı.

Vəfa

Belə axmaq sözlər danışma mənə,
Axı hörmətim var bilirsən sənə.

Afət

Bir gün durmuş idim mən ağac altda,
Adil həmin qızla gəzirdi parkda.

Vəfa

Gözünlə görmüsən? Necə görmüsən?
De, gündüz görmüsən, gecə görmüsən?

Afət

Görürəm həyəcan keçirirsən sən,
Bacılıq borcumdur deməliyəm mən.
Deməsəm, bu əzab verərdi mənə,
Xəyanət eyləmiş olardım sənə.

Vəfa

Heç vaxt inanmaram bu sözlərə mən,
Doğrudursa, niyə indi deyirsən?

Adil heç vaxt mənə deməmiş yalan,
Mənim can evimi etməmiş talan.
Ay qız, mənə görə qəm-kədər yemə,
Uydurma sözləri sən mənə demə.
Burax bu sözləri mənə xoş deyil,
Ürək də ətdəndir, axı daş deyil.

A f ə t

Çalış ki, aldanma, sonra gec olar,
Yanılsan qəlbinə qəm-kədər dolar.

V ə f a

Qız məsələsini qoyaq kənara!

A f ə t

Əgər şübhən varsa, sən bir də ara.
Başqa xəbər vardır, demədim sənə,
Söyləsəm, nə təhər baxarsan mənə?
Yanıma gəlmişdi Emilin özü,
Mənə deyiləsi vardı çox sözü.
Dedi ki, bilirəm, bacısan ona,
Mənim də sevdamı düzüb qoşsana.
Bəlkə də eşidər sənin sözünü,
Qoymaz yaşlı qala mənim gözümü.
Məndən kömək umur, o yalvarırdı,
Yalvarışı məni oda salırdı.

V ə f a

Yalvarışı səni salırsa oda
Başqa bir qəbahət görmürəm burda.
Emil ər oğlandır, ona gedərsən,
Ona arvadlığı özün edərsən.

A f ə t

Deyir, onsuz həyat mənə qəfəsdir,
Ürəyimə yatan ancaq o kəsdir.

Elçi göndərərəm, de, razı olsa,
Əgər təklifimdən o, razı qalsa.

(*Vəfa susur.*)

Ay Vəfa! Emilin nədir günahı?
Niyə ərşə qalxsın qəlbinin ahı?
Onu tanıyıram gör neçə ildir,
Tökür gözlərindən yaş gildir-gildir.
Qoyma o yazığı çox intizarda,
Biz onu yoxladıq çətində, darda.
Söz açan görmədik onun eybindən,
O ki yaranıbdır Tanrı qeybindən.
Emil sevir səni, de, nədir sözün,
Bu haqda dərindən fikirləş özün.

Vəfa

Sən Allah, bu sözü ciddi deyirsən?
Heç vaxt gözləməzdim səndən bunu mən.
Adilin eşqiylə vurur ürəyim,
Bil, ondan qeyrisi deyil gərəyim.
Adildir həyatım, bir də varlığım,
Odur bu dünyada bəxtiyarlığım.

Afət

Özümdən də artıq sevirəm səni,
Özünə bir bacı bilirsən məni.
İstərəm həmişə xoşbəxt olasan,
Arzuna qovuşub sən kam alasan.

Vəfa

Sənin bu qayğına minnətdaram mən,
Xoşbəxt olmağımı istəyirsən sən.

PƏRDƏ

## DÖRDÜNCÜ ŞƏKİL

Hərbi hissədə yataqxana.

İ z m o z i k

Keçmişə mən nəzər salanda hərdən,
Anıram uşaqlıq çağlarımı mən.
Çıxmayır yadımdan dəhşətli illər,
Leninqradda əzab çəkən o ellər.
Çəkmişik müsibət, bəla özümüz,
Dəhşət, min fəlakət görüb gözümüz.

A d i l

O blokadanı görmüsən özün?
Yəqin bu barədə var sənin sözün.

İ z m o z i k

Görmüşəm, bəli!
Minlərlə ər öldü bir dağ cüssəli.

A d i l

Bu haqda düşünmək ağır olsa da,
Yəqin o illəri salırsan yada.
Deyirlər meyitlə doluymuş küçə.

İ z m o z i k

Ürək duyduğunu unutsun necə.
Of... nələr görmüşəm küçələrdə mən.
Sorağı gələcək qərinələrdən.
Vardı başsız meyit, ayaqsız meyit,
Onları yeyirdi küçələrdə it.

Adil

Odlana-odlana dinləyirəm mən,
Necə həyəcanlı danışırsan sən.

İzmozik

Beş yaşım olardı mənim o zaman,
Nə atam sağ idi, nə də ki anam.
Dava onları da əlimdən aldı,
Gözüm yaşlı, qəlbim yaralı qaldı.
Sığınacaq tapdım mən uşaq evində,
Yaşadım həyatın sanki dibində.
Burda oğlanlar da, qızlar da vardır,
Vahid ailəni xatırladardı.

Viktor
(*Gəlir.*)

Biz uzaq səfərə düşürük yola,
Cəld olun, dəstədən qalmayın dala.
Bilmirəm nə haqda söhbət edirsiz,
Yoxsa ki, kosmosa, Aya gedirsiz.

İzmozik

İkinci ildir ki, edirsən xidmət,
Qaydanı, qanunu bilmirsən, fəqət.

Adil

De, niyə rahatlıq vermirsən bizə,
Qara bir tikantək batırsan gözə.
Ortada gəzirsən toy toğlusutək,
İşinlə məşğul ol, sən bizdən əl çək.

Viktor

Mən sizə nə dedim, bilmirəm axı,
Burda mən işlətdim hansı günahı?!

(*Gedir.*)

İ z m o z i k

O bura gəlmişdi bilmədim niyə?

A d i l

Bilmədin niyə?!
O, yaxşı bacarır gözə girməyi,
Agentlik etməyi, xəbər verməyi.

İ z m o z i k

De ki, söz gəzdirən, ara vurandı,
Şahidtək yalandan üzə durandı.

A d i l

Ondan söz açmağın bir faydası yox,
Ona vaxtımızı itirməyək çox.

İ z m o z i k

Əziz Monikamı körpə yaşında
İlk dəfə görmüşəm uşaq evində.
Mehrini tək mənə salıbdır o da,
Beləcə biz düşdük eşq ilə bəndə.
Eşqimiz saf olub qəlbimiz təki,
Biz yaşa dolduqca qəlbimizdəki
Sevgi də böyüyüb dolubdur yaşa.
Hər günü ümidlə vurmuşuq başa.
Vardır aramızda üç yaş fərqimiz,
Böyük arzularla yaşamışıq biz...
Ali təhsil alıb qələbə çaldım,
Aspiranturaya yolumu saldım.
Qəlbimizdən keçən arzumuz budu,
Mən hərbi xidməti, o institutu
Gələn il qurtarıb toy edəcəyik,

Xoşbəxtlər yoluyla biz gedəcəyik.
Monika almandır, biləsən gərək,
Bizi ayırmasın kaş çərxi-fələk.
Atası almandır, anası tatar,
Sənə qohumluğu bəlkə də çatar,
Lenin də sizlərə deyibdi tatar,
İstilaçı sanıb, edib pis rəftar.

A d i l

Sizin toyunuza biz də gələrik,
İnşallah, ürəkdən deyib-gülərik.

İ z m o z i k

Yəqin ki, sevgilin vardır vətəndə,
Könül dildarından gəl danış sən də.

A d i l

Yarına bənzəyən vəfadarım var,
Əhdinə vəfalı Vəfa yarım var.
O, həkim işləyir öz kəndimizdə,
Vəfasızlıq olmaz inan ki bizdə.
Ona məhəbbətim bir ümman, dəniz,
Mənə canım kimi əzizdir, əziz.
Yolumu gözləyir Monikan kimi,
Tək odur qəlbimin qadir hakimi.

İ z m o z i k

Çox yaxşı sən mənim, sonra mən sənin
Toyunda qol açıb oynarıq, yəqin.

A d i l

Bilirəm hər şeydən sənsən xəbərdar,
Beynəlxalq aləmdə nə yenilik var?

İzmozik

Diqqətlə qulaq as, deyim birbəbir,
Məxfi saxlanılsın gərək hərbi sirr.
Antaqonist sistem nə qədər ki var,
Dinclik tapmayacaq sülhsevər xalqlar.
Sovet-Çin dostluğu çox pis sarsılıb,
O monolit dostluq tək sözdə qalıb.
Yeni diviziya yaranır bizdə,
Düşmüşük tərkibə hər ikimiz də.
Bu axşam hissədə elan olacaq,
Komandir bizləri yola salacaq.

PƏRDƏ

## BEŞİNCİ ŞƏKİL

Kənd xəstəxanası. Göyçək xala daxil olur. Afət də buradadır.

Göyçək xala

Axşam kimlər idi gələnlər sizə?

Vəfa

Onların gəlişi qəm verdi bizə.

Göyçək xala
(*sarsılmış*)

Nə olub, desənə, bir mən də bilim,
Dərdini qəlbindən anatək silim.
Eyvanda dayanıb ağlayırdın sən,
Çox məəttəl qaldım, onu bil ki mən.
Bu halın yamanca sarsıtdı məni,
Qəmləndim, mən ağlar görəndə səni.

V ə f a

Gəlmək istəyirdim mən axşam sizə,
Düşündüm vaxtsızdır, qalsın gündüzə.

G ö y ç ə k x a l a

Çəpərdən görürdüm mən maşınları,
Kədərlə baxırdım sizlərə sarı.

V ə f a

Gəlmişdi fikrimi onlar bilməyə,
Sonra qapımıza elçi gəlməyə.
Mən də dedim, yaxşı saxlayın yadda,
Adil mənim üçün təkdir həyatda.
Dedim, qulaq asın sözlərimə siz,
Bir də görünməyin gözlərimə siz.

G ö y ç ə k x a l a

Səndə sədaqət də, cəsarət də var,
Mənim Adilimə məhəbbət də var.

V ə f a

Xala, sən heç nədən olma narahat,
Bir dəfə verilib mənə bu həyat.
Onu da Adilsiz yaşamaram mən,
Sən bundan arxayın ola bilərsən.

G ö y ç ə k x a l a

Sağ ol, ay bala,
Tanrım çatdırıbdır səni kamala.

(*Göyçək xala gedir.*)

A f ə t

Sənə raykom oğlu elçi gəlibsə,
Razılıq ver, işi gəl salma tərsə.

V ə f a

Afət, nə deyirsən, elə iş olar?
Qismətim ya Adil, ya da ki məzar...

A f ə t

Ay Vəfa, dərindən fikirləş özün,
Mənası varmı ki, dediyin sözün.
Tanrı özü yazıb bu bəxti sizə,
Səadət düşübdür qismətinizə.
Böyük bir rayonun katib oğluna,
Qovuşsan dönərsən xoşbəxt insana.
Kasıblıq daşını tamam atarsan,
Sən xoşbəxt günlərə gəlib çatarsan.
Varın, malın, pulun başından aşar,
Ömrünün qışı da bil baharlaşar.
Bilməzsən dünyada qəm-qüssə nədir,
Kasıbın sevgisi bir əfsanədir.
İstəsən günlərin keçə gözəl, şən,
Gəl belə fürsəti buraxma əldən.

V ə f a

Həmin o oğlanı gördüm şöbədə,
Mən ürək verməṛəm ona heç vədə.

A f ə t

Şirin xəyallara dalmısan, ay qız,
Həyatdan çox geri qalmısan, ay qız.
Məhəbbət əfsanə, özü bir nağıl,

Varsız kimə lazım başdakı ağıl.
Şirin sözə, yağlı dillərə uyma,
Sərvətsiz oğlana qəlbini qıyma.
Adildən sizlərə olmaz bir kömək,
Belə kasıb oğlan nəyinə gərək?
Əsgəri xidmətdən necə gələcək?
Üzünə taleyi necə güləcək?
Taleyi gətirsə, müəllim olar,
Bizim kimi yoxsul bir günə qalar.
Yenə də fikirləş, götür-qoy eylə,
Fikrini sən mənə gəl qəti söylə.
Deyirlər, atanla ediblər söhbət,
O da çox razıdır, yəqin ki, əlbət.
Ay qız, çox düşünmə gəl, get sən ərə,
Həyatda xoşbəxt ol, dön bəxtəvərə.

(*Poçtalyon İlyas görünür.*)

İ l y a s

Həkim, mən rayona gedirəm indi,
Mənə tapşırığın, de, sözün nədi?
Bıy, ay xala...?
Sən də burdasan, de, xeyir ola?

(*Vəfa məktubu götürüb İlyasa verir.*)

V ə f a

Ay qoçaq oğlan,
Məktubu şəhərdə poçta salarsan.

(*Pul da verir.*)

İ l y a s

Həkim, utandırma, sən allah məni,
Bacımla bərabər tuturam səni.

A f ə t

Get, dayanacaqda gözlə sən məni,
Gəlib özüm ilə aparram səni.

(*İlyas gedir.*)

A f ə t

Vəfa, nə sözün var, de, əməl edim,
Artıq axşam düşür mən çıxım gedim.

V ə f a

Sağ ol, sənə yaxşı yol.

(*Vəfa otağına çəkilir, Afət gedir...*)

PƏRDƏ

## İKİNCİ PƏRDƏ

### ALTINCI ŞƏKİL

İzmoziklə Adil vaqonda.

A d i l

Sən danış, de görüm, gedirik hara?

İ z m o z i k

Hərbi sirri desəm, düşərik dara.

A d i l

"Düşərik dara", hə... axı dostuq biz,
Qoy gizli qalmasın bu söhbətimiz.

İzmozik

Yaxşı, qoy bu sirri açıq deyim, bil,
Vəziyyət get-gedə pisləşir, Adil.
Çinlilər sovetə üz tutub dedi:
Axı biz ki dostuq, fikriniz nədi,
Uzaq Şərq elində boşdu torpaqlar,
Bizdə yaşamağa yer tapmır xalqlar.
İxtilaf başlandı o gündən bəri,
Heyrətə gətirdi dost ölkələri.
Kommunistlərdir bil ölkədə hakim,
Ziddinə gedəmməz dövlətdə heç kim.
Partiya Moskvada keçirdi iclas,
Sovet-Çin dostluğu hədəfi oldu.
Bu müqəddəs dostluq eylədi iflas,
Yeni savaşlara təməl qoyuldu.
Plenum çıxardı tarixi qərar,
Çinin iddiası edildi inkar.
Dostluğun təməli söküldü yaman,
Pekini ayağa qaldırdı zaman.
Sərhədlərdə tez-tez döyüşlər gedir,
İnsanları yaman pərişan edir.
Əslində orada sərhəd də yoxdur,
O şərti sərhədi pozansa çoxdur.
Gərəkdir çəkilə yenidən sərhəd,
Qorxusuz yaşaya orada millət.
Hərbi dairəyə verildi əmr,
Sərhəd möhkəm olsun sanki bir dəmir.
İndi biz gedirik bil ki oraya,
Dostluqla ədavət sığmaz araya.

Adil

Aydındır, bu səfər çox narahatdır,
Bizim qismətimiz belə həyatdır.
Başımız çəkəcək bəlkə də bəla.

İzmozik

Odur, gəlib çatdıq biz də Baykala.

A d i l

(*Vaqonun pəncərəsindən boylanır*)

Buralar bənzəyir bizim Göygölə,
Ətrafı oxşayır zümrüd sahilə.

İ z m o z i k

Göygölün haqqında oxudum özüm,
Heyif, o yerləri görməyib gözüm.

A d i l

Zəlzələ zamanı Göygöl yarandı,
Ətrafı palıddan sanki darandı.
Ona baxan deyir bir də baxaydım,
Mən də çaya dönüb ora axaydım.
Kəpəzin qoynunda o yerləşibdir,
Meşələr qoynunda sehrləşibdir.
Dörd yanı laləzar bir cənnət məkan,
Meşəsinə maral, ceyranlar həyan.
İnşallah, gələrsən sən qonaq bizə,
Oranı sevinclə göstərrəm sizə.

İ z m o z i k

İxtiran haqqında çox eşitmişəm.
Doğrusu, mən sənə qibtə etmişəm,
Bizim qərargahda söhbətlər getdi,
Çox maraqlı idi, məni cəlb etdi.
Sən məxfi saxladın demədin mənə,
Bəlkə qorxdun irad tutarlar sənə.

A d i l

Əzizim, elədir ki var,
Əsil hərbçi hərbin sirrini saxlar.

Izmozik

Adil, sən o vaxtlar çox düzgün etdin,
Mənə elə gəlir məqsədə yetdin.

Adil

Mən başa çatdıra bilmədim işi,
Bu səfər çox pozdu olan vərdişi.

İzmozik

Yəqin ki, danışmaq olar o haqda,
O çox vacib işdir indiki vaxtda.

Adil

İstehkam işini dəqiq öyrəndim,
Doğrultdu özünü mənim bu zəndim.
Piyadaya qarşı, tanklara qarşı
Yeni üsul tapdım yadlara qarşı.

İzmozik

Sənin bu işini bəyəndim qəlbən,
Səndən belə bir iş gözləyirdim mən.

Adil

Bu işi uğurla çatdırsam başa
Biz qalib çıxarıq girsək savaşa.

(*İzmozik gedir, Viktor gəlir.*)

Viktor

Adil, növbətçisən bu gün vaqonda,
Komandir tapşırdı çatdır, sal yada.

A d i l

Səhlənkar yanaşıb sən vəzifənə
Niyə deməmisən vaxtında mənə?

V i k t o r

Getmək istəmirsən, özün ver qərar,
Axı növbəyədək xeyli vaxtın var.

(*Viktor gedir, İzmozik gəlir.*)

İ z m o z i k

De, niyə yenə də qaraldı qanın?

A d i l

Səhlənkar adamı çoxdur dünyanın.
Yenə də buraya Viktor gəlmişdi,
Üzünü görəndə halım dəyişdi.
Dedi, növbətçisən bu axşam yenə
Komandir sözünü gec deyib mənə.

İ z m o z i k

O da yolumuzda olub bir əngəl,
Sən belə şeylərə çox bənd olma gəl.

PƏRDƏ

YEDDİNCİ ŞƏKİL

Kənd xəstəxanası. Vəfa məktubu oxuyur. Göyçək xala da burdadır.

V ə f a

Şərqi Sibir səmtə biz otuz günə
Yolu qət eləyib çatdıq Bikinə.

Çoxları o yolda dedilər bizə
İndi gedirsiniz gedər-gəlməzə.
Oktyabr ayında biz gəldik bura,
Rast gəldik burada keçilməz qara.
Axır məntəqəmiz İman şəhəri,
Oldu bizim üçün güman şəhəri.
İlk əsgər sakini olduq bu yerin,
Kəndində yerləşdik biz bu şəhərin.

(*İlyas gəlir.*)

İlyas

Yenə də xoş müjdə gətirdim sənə.

(*Məktubu verib gedir.*)

Vəfa

Sağ ol, gətirdiyin bu xoş müjdənə.
(*Vəfa məktubu tələsik açıb oxuyur.*)
Vəfa, ilk məktubda yazılanları
Qəlbən yazmamışam, duyaydın barı,
Mən sənin fitnənə düşüb azmışam,
Şirin xəyallara dalıb yazmışam.
Bilirsən, ilk dəfə sevmişəm səni,
Məftun eyləyibdir xoş sözün məni.
Sonralar hiss etdim yanılıram mən,
Sən mənim sevgimə layiq deyilsən...
Çıxış yollarını mən çox aradım,
İstədim mən sənə imkan yaradım.
Özgəyə sən könül verəsən deyə,
Məqsədli gəlmişəm mən əsgərliyə.
Kiminlə istəsən sən ailə qur,
Mən səni sevmirəm cavabım budur.
Mən sənin Adilin deyiləm daha,
Mənə yarım deyib batma günaha.

(*Vəfa özünü pis hiss edir. Afət də onlara gəlir.*)

A f ə t

Axı nə olubdur Vəfaya görən?
Bu halını görüb sarsılmışam mən.

G ö y ç ə k  x a l a

Oxudu Adildən gələn məktubu,
O məktub yamanca sarsıtdı onu.

(*Dərman verirlər, Vəfa toxtayır.*)

V ə f a

Eşqimi daşlara çaxdı Adilim,
Xala, mənə dönük çıxdı Adilim.

(*Göyçək xala çıxır.*)

A f ə t

Deyirdim, Adildən sənə yar olmaz,
Vəfasız insanda qeyrət, ar olmaz.
Bivəfa namərdmiş, alçaqmış özü,
Saxtaymış sevgisi, saxtaymış sözü.
Vaxtilə o sənə töküb şirin dil,
Uyub əsgərlikdə özgəyə Adil.

V ə f a

Bu adi məktub yox, qan ocağıdır,
Hər sözü qəlbimi söküb dağıdır.
Axı ondan sonra kimə güvənim,
Ürəyim az qalır partlaya mənim.

A f ə t

Kəsərli cavab yaz, Adilə sən də,
Nifrət eyləyirəm de, sənə mən də.

Zənn etmə Adilə möhtac qalarsan,
Tərslik eyləməsən, xoşbəxt olarsan.
Tələsirəm, bacım, gedirəm daha,
Səni tapşırıram o bir Allaha.
(*Afət bayıra çıxır və öz-özünə*)
Bu yolda çəksəm də əziyyət, cəfa,
Qurduğum tələyə düşübdür Vəfa.
Adili yolundan çıxarram özüm,
Ona hakim olar mənim hər sözüm.

Göyçək xala
(*Daxil olur.*)

İnanmıram Adil belə iş tuta,
Sənə dönük çıxa, vicdanı ata.
Deyilənlər olsa əgər həqiqət,
Anatək bəslərəm mən ona nifrət.

Vəfa

Bir dayan, bir dayan, ana!

Göyçək xala

Bu işdə təmkinli olmaq gərəkdir,
Bəlkə bu bir oyun, bu bir kələkdir.

PƏRDƏ

## SƏKKİZİNCİ ŞƏKİL

Hərbi hissə. Adil məktub oxuyur.

Adil, həsrətinə dözə bilmirdim,
Axı səndən ayrı gəzə bilmirdim.
Mən sənə ürəkdən bel bağlamışdım,
Sevən ürəyimdə yer saxlamışdım.
Nə üçün əhdinə sən dönük çıxdın?

Mənim saf eşqimi sən daşa çaxdın.
Getməzdi, sevsəydi səni – deyirlər,
Səni sevməyəndən olmaz sənə ər.
Mən elin içinə çıxa bilmirəm,
Dost-tanış gözünə baxa bilmirəm.
Artıq şirin candan bezib doymuşam,
Elə bil qanadı qırılan quşam.
Mənə elçi gəlib raykomun oğlu,
Pəhləvan cüssəli, həm də ki pullu.
Deyirlər, ömrünü keçirmə hədər,
Sən raykom oğlunu san vəfalı ər.
Könlüm olmasa da məcbur edirlər,
Onlar da məcburdu buna gedirlər.
Kimlə istəyirsən sən qur ailə,
Adımı bir daha gətirmə dilə.
Ömürlük deyirəm sənə əlvida,
Əlvida, əlvida, yenə əlvida!

Adil
(*öz-özünə*)

Yox... yox... Vəfa...!
Yolunda çəkmişəm nə qədər cəfa.
Axı əhd-peyman bağlamışıq biz,
Qoşa sevinmişik, çağlamışıq biz.
Deyirdin səninəm, səninəm, Adil,
Mən özgə birinə salmaram meyil.
Sənsiz yaşamaram həyatda bir gün,
Sənsiz ömür puçdur mənə büsbütün.

Viktor
(*Yenə gəlir.*)

Niyə oturmusan, niyə qəmlisən?
Vaxt keçir, postuna gecikirsən sən.

Adil əsəbi qalxıb çıxır, post görünür. Şiddətli külək əsir.
Adil keşikdədir, növbə çəkir, qaranlıqdır, üç nəfər
posta yaxınlaşır. Bayrağı aparmağa cəhd edirlər.

A d i l

Dayan!

(*Adamlar posta tərəf yaxınlaşırlar.*)

A d i l

Dayan! Atəş açacam!

(*Yenə hərbi qaydada*)

Dayan! Atəş açıram!

Havaya xəbərdarlıq atəşi açır, həyəcan siqnalı çalınır.
Gələnlər qaçmaq istəyirlər, lakin əsgərlər onları yaxalayırlar.

P Ə R D Ə

DOQQUZUNCU ŞƏKİL

İvanovun kabineti. Tutulmuş adamları Qarmaş və İvanov sorğu-suala tutur.

Q a r m a ş
(*birinci şəxsə*)

Adın nədir, kimsən, agah eylə sən,
Postda gecə vaxtı, de, nə gəzirsən?
Məqsədiniz nədir belə etməkdə,
Dövlətin əksinə hər cür getməkdə.

B i r i n c i  m ə h b u s

Millətim inquşdur, adım Asmandır,
Babam sürgün olub xeyli zamandır.
Babam inqilabçı olub o zaman,
Çarın məmurları verməyib aman.
Xəfiyyə axtarıb kəndə gediblər,
Nəslimizi bura sürgün ediblər.
Şimali Qafqazdan olmuşuq sürgün,

Dedik, bəxtimizə açılar ağ gün.
Bizim keçmişimiz olubdur kulak
İndiysə bəy kimi çəkirik əzab
Qalmışıq biz iki od arasında
İnqilabçı ilə bəy sırasında.
Tez qurtaraq deyə bu cəhalətdən
Biz qisas alırıq bu hökumətdən.

İkinci məhbus

Soyadım Petrovdur, adımsa İvan,
Vətənim Peterburq mənə verib can,
Əsrin əvvəlində sürgün olmuşuq,
Burda böyümüşük yaşa dolmuşuq.
Axı "xalq düşməni" sayılırıq biz,
Geri qayıtmağa yoxdur fikrimiz.
İnqilabçı olub o vaxtlar babam,
Dəyişməz əqidəm, dəyişməz əbam.
İndiysə adımız çağrılır kulak
Biz necə yaşayaq, necə dolanaq.
Bizim düşmənimiz bu hökumətdir,
Toxunsaq yıxılar, bir himə bənddir.

Qarmaş

Əsgərin de, burda günahı nədir?

İkinci məhbus

Düşmən bir dövlətə o xidmət edir.
Bizim düşmənimiz dövlətdir, ancaq,
İstərik qəlbinə ox, nizə sancaq.

Üçüncü məhbus

Mən də bakılıyam, adım Məmməddir,
Atam "düşmən çıxdı", adı Səməddir.

Siyasi dustağıq əzəldən bəri,
Fəqət, istəmirik biz dönək geri.
Dövlət əleyhdarı dedilər bizə,
Yüzünü qoydular bizlə üz-üzə,
Otuz yeddidə biz sürgün olmuşuq,
Burda göz açmışıq, yaşa dolmuşuq.
Əsgərlər gəliblər sərhəd qoyurlar,
Sanki qəlbimizi didib oyurlar.
Sovet-Çin sərhədi o vaxt yox idi,
Bununsa faydası bizə çox idi.
Nəticə çıxarsa dövlət rəhbəri
Qətlə yetirmərik biz də əsgəri.

Q a r m a ş

Onlar təhlükədir dövlətimizə,
Bunların faydası dəyməyib bizə.
Sən bu gədalarda ədaya bir bax.

B i r i n c i  m ə h b u s

Namərdlər ediblər mərdlərə çox lağ.

Q a r m a ş

Yoluq sərçəsiniz, bu dövlətsə fil
Axtarıb onunla, barı, tapın dil.

İ k i n c i  m ə h b u s

Fildən qisasını torağay aldı,
Onu kor eləyib, qayadan saldı.

Q a r m a ş

Nəydi məramınız, de, məqsədiniz?
Bayraq qaçırmaqda agah edin siz?

Üçüncü məhbus

Bayrağı aparmaq istədik ki biz,
Bu yerdən didərgin düşəsiniz siz.

Qarmaş
(*Hiddətlə əlini masaya vurur*)

Bayraq bu dövlətin atributudur!

Birinci məhbus

Bu bayraq altında xalqlar qan udur.

Qarmaş
(*Ayağa qalxır.*)

Xəbərdar edirəm qəti mən sizi.

İkinci məhbus

Ölüm də, sürgün də qorxutmur bizi.

Qarmaş

Bunların sabaha yoxdur gümanı.

İkinci məhbus

Olmaz vətənsizin dini, imanı.

Birinci məhbus

Uçan quşların da vətəni vardır.

İkinci məhbus

Bizim ah-naləmiz aləmə cardır.

Q a r m a ş

Çəkilin bu yoldan deyirəm sizə,
Ləkə gətirirsiz dövlətimizə.
Başa düşün canlı bir meyitsiniz,
Salmısız kəfəni boynunuza siz.

İ k i n c i  m ə h b u s

Ölüm tarixidir hər bir çağınız,
Qan ilə boyanıb al bayrağınız.

Q a r m a ş

Siz qəbir qazırsız öz-özünüzə.

Ü ç ü n c ü  m ə h b u s

Dünya qəbir kimi görünür sizə.

Q a r m a ş

Bilin ki, cəzanız deyildir əbəs.

B i r i n c i  m ə h b u s

Bu dünya sizə də olacaq məhbəs.

Q a r m a ş

Aparın bunları, daha sözüm yox.

İ k i n c i  m ə h b u s

Bəlalar çəkəcək başımız da çox!

Q a r m a ş

Verin tribunala, ayırd eyləsin,
Bilinsin mənası hər gələn səsin.

İvanov məhbusları bayıra çıxardıb qayıdır.

Q a r m a ş

Bizdən narazıdır sürgün olanlar,
Çıxıb getməyənlər, burda qalanlar.

PƏRDƏ

## ONUNCU ŞƏKİL

İvanovun kabineti. Qarmaş zəng edir.

Q a r m a ş

Mən hərbi qəzetdə Kərimov haqda,
Oçerki oxudum xoşuma gəldi.

İ v a n o v

Vətənə ürəkdən o xidmət edir,
Hara buyururuq can-başla gedir.
Onunla fəxr edir bizim hissəmiz,
Salıb saf əməli hissəmizdə iz.
Zabitlik kursunda oxumaq istər,
Layiqdir o buna bir kömək göstər.

Q a r m a ş

Getsin oxumağa varsa marağı,
Gəlsin hissəmizə gözəl sorağı.

İ v a n o v

Oldu!
Ürəyim sevinclə, fərəhlə doldu.

(*Dəstəyi qoyurlar. Viktor daxil olur.*)

V i k t o r

İcazə olarmı, söz deyim sizə,
Mən ki müntəzirəm hər əmrinizə?

İ v a n o v

Buyurun, deyin,
Qəlbinizdə nə var mənə söyləyin.
Deyəsən, səndə bir yeni xəbər var.

V i k t o r

İstərəm mən sizi edim xəbərdar,
Sizi çox istəyən bir adam kimi,
Deyirəm bunları sizə səmimi.
Guya el eşqiylə o nəfəs alır.
Adil hissəmizdə təfriqə salır.
Bir qara millətin oğludur özü,
Yalanı çox sevir, xoşlamır düzü.
Guya ki, vətənə o can qıyıbdır,
Elə bil hamını ovsunlayıbdır.

İ v a n o v

Diqqətlə dinlədim hər sözünü mən,
Bunları ilk dəfə eşitdim səndən.
Bununla belə...
Hazırlaş, gedirsən kursa Adillə.

V i k t o r

Kursa? Hara?

İ v a n o v

Xabarovska – gözəl diyara.

Viktor

Axı mənim ali təhsilim yoxdur,
Ali savadlılar hissədə çoxdur.

İvanov

Orta təhsillilər üçün də kurs var,
Gedib oxumağı əsla bilmə ar.

Viktor gedir, Adil daxil olur.

İvanov

Polkovnik arzuna əməl eylədi,
Səni göndərirlər kursa – söylədi.

Adil

Ürəyimdən keçən bir arzuydu bu,
Yamanca sevindim, sözün doğrusu.

İvanov

Üç aylıq olacaq kursun müddəti,
Orda qazanarsan böyük hörməti.
Sizə yaxşı yol.

PƏRDƏ

ON BİRİNCİ ŞƏKİL

Kənd xəstəxanası. İlyas daxil olur.

İlyas

Salam, Vəfa həkim, niyə qəmlisən?
Sənə yenə məktub gətirmişəm mən.

Vəfa tez məktubu açır, məktub iki vərəqdən ibarətdir.
O, birinci vərəqə göz gəzdirir.

Vəfa, gec də olsa gəldi məktubun,
Sinəmi ox kimi dəldi məktubun.
Adildən əlini üzə bilməzsən,
Mənsiz bu dünyada gəzə bilməzsən.
Bütün varlığımsan, canımsan, Vəfa,
Damarda qaynayan qanımsan, Vəfa.
Bu məktubu yazan, yox, sən deyilsən,
Yox... yox... Buna qəti, inanmıram mən.
Yazdığın məktubu cavabımla mən
Qaytarram özünə, ayırd eylə sən.
Mənə tez cavab yaz, qoy bilim niyə
Sən yar olmalısan yada, özgəyə?
Bu qaranlıq işdir, duyuram qəlbən,
Aydınlaşdır bunu, dinclik tapım mən.

Vəfa ikinci vərəqi gözdən keçirir, yarısına kimi oxuyur, özünü pis hiss edir.

İlyas

Həkim, Vəfa həkim, nə oldu sənə?
Görəsən nə oldu, dəydi qəlbinə.

(*Göyçək xala daxil olur.*)

Göyçək xala
(*İlyasa*)

Nə oldu Vəfaya, pisləşdi halı?
Niyə xarab oldu yenə əhvalı?

İlyas

Məktub gətirmişdim Adildən ona,
Oxuyub çıxmamış o, tamam sona,
Qışqırıb huşunu itirdi dərhal,
Bir anın içində yarandı bu hal.

(*Vəfa durur. İlyas gedir.*)

V ə f a

Mənə böhtan atan şeytan var, ana,
Yaman tor qurubdur sənin Vəfana.

(*Məktubu göstərir.*)

Bu ki məktub deyil, sanki güllədir,
Üzümə qəfildən dəyən sillədir.
Böhtanla yoğrulub onun hər sözü,
Baş kəsir qılıncla dönən şər sözü.
Necə xəbis insan varmış dünyada.
İstər ləkə vura ülvi bir ada.
Beləsi insan yox, iblisdir, iblis,
Ürəyində yoxdur insanlıqdan iz.

(*Göyçək xala alıb məktuba baxır.*)

G ö y ç ə k  x a l a

Bu məktub yazanın qurusun əli,
Ürəyi partlasın, lal olsun dili.

V ə f a

Xala, ver məktubu, bir də baxım mən,
Nəzərdən keçirim onu yenidən.

(*Baxır və birdən qışqırır.*)

Tapdım, diqqətinə çatdırım sənin,
Ünvan mənim xəttim, məktub özgənin,
Bu zərfi o günü İlyasa verdim,
Aparıb tez yola salarsan dedim.
Poçtalyon İlyası bura çağıraq,
Bunun səbəbini biz ondan soraq.
Onda aydınlaşar qaranlıq işlər,
Yerimɘz ayağı, yer tutsa da şər.

Göyçək xala

İlyas, ay İlyas! Bir bura gəlsən.

İlyas

Xala, elə buradayam mən.

Vəfa

O gün sənə verdim məktubu özüm,
Bunun içində yox mənim bir sözüm.
Şər-böhtanla dolu yazı qoyublar,
Bununla qəlbimi didib, oyublar.

İlyas

Mən saldım məktubu poçt qutusuna,
Bununla işimi yetirdim sona.
Tapşırığın varsa, de, əməl edim,
İşim yaman çoxdur, qoy çıxım gedim.

Vəfa

Bu işi törədən tapılsın gərək,
Hakim qarşısında biz onu görək.
Ay xala, mənim ki düşmənim yoxdur.

Göyçək xala

Yox, yox, ayağından çəkənlər çoxdur.
Ehtiyatlı tərpən, salma qalmaqal,
Sən diqqətli olsan, taparsan dərhal.

Vəfa

Hardasa görmüşəm mən belə bir xətt,
Dəqiq araşdıra bilmirəm, fəqət.
(*Məktuba baxır, sonra İlyasa*)
İlyas, de, məktubu kimə vermisən?

İlyas

Heç kimə, ay həkim, mənə inan sən.

V ə f a

Mənim əvəzimdən məktub yazanı,
Vicdanı itirib yoldan azanı.
Tanıtsaq bu elə, o rüsvay olar.

G ö y ç ə k  x a l a

Kədərli ürəyin sevinclə dolar.

(*Bu vaxt Afət daxil olur.*)

A f ə t

Vəfacan, bil, sənsiz narahat qaldım,
İşdən çıxıb yolu buraya saldım.

V ə f a
(*İlyasa*)

Bilirsən, məktubu vermişəm sənə,
Bəs niyə xəyanət etmisən mənə?
Bu işi verəcəm müstəntiqə mən,
O, əl çəkməyəcək bilirəm səndən.
Çox yaxşı olar ki, özün deyəsən,
De, kimə vermisən bu məktubu sən?
İşin vacehinə lap gedəcəklər.
Bilirəm ki, səni həbs edəcəklər.

G ö y ç ə k  x a l a
(*İlyasa*)

Dillən, sən ay namərd, ol səni xəcil.

İ l y a s

Həkim, bu xətt mənim xalamındır, bil.

V ə f a
(*heyrətlə*)

Necə... Nə... Afətindir?

İ l y a s

Bəli... Hə... Afətindir!

A f ə t

Sən nə danışırsan, ay qorxaq, axmaq.

İ l y a s

Utan əməlindən, çox eyləmə ağ.

G ö y ç ə k  x a l a

Sən niyə tutmusan belə iş, Afət,
Etmisən başından yekə qəbahət?

A f ə t

İlyas yalan deyir, söyləyir qələt,
Mən etsəm, alaram boynuma, əlbət!

İ l y a s

Etmisən, xala!

A f ə t

Ayıbdır, həya et, utan, ay bala!

İ l y a s

Ekspert təyin edilsə,
Həqiqəti tapıb o, doğru desə.

Bütün günahların olacaq aşkar,
Onda olacaqsan el içində xar.
O günü mən sizdə gecələyəndə
Hiss etdim çantama baxırsan sən də.
Götürüb nə isə otağa keçdin,
Xəyanət şərbəti o gecə içdin.
Qayıdıb çantama qoydun nə isə,
Zənn etdin, bilmədi bunu bir kimsə.
Utandım, demədim sən nə edirsən,
Gizlicə otağa niyə gedirsən.
İndi başa düşdüm sən nə etmisən,
Belə əyri yola niyə getmisən.

Vəfa

Afət!.. Afət!..
De, niyə eylədin mənə xəyanət?!
Kim məcbur etmişdir bu işə səni?
“Bacı, bacı” deyib aldatdın məni.

Afət

Düzünü istəsən, deyirəm sənə,
Sən allah, acığın tutmasın mənə.
Sən məni bağışla... Bağışla məni,
Allah qismət etsin mənə kəfəni.

Vəfa
(*Onun sözünü kəsir*)

Demək, bu məktubu yazmısan, Afət!
Bilməzdim edirsən mənə xəyanət.
Çıxıb get, uzaqlaş, dayanma burda,
Bir də ayaq basma bizim bu yurda.

(*Afət ağlayaraq çıxıb gedir. Vəfa hıçqırır.*)

PƏRDƏ

## ON İKİNCİ ŞƏKİL

Xabarovskda park. Adil və Fatimə rəqs edirlər.

A d i l

Adın nədir sənin, ay gözəl xanım?
Mənim sənə yaman qaynayır qanım.

F a t i m ə

Adım Fatimədir, tatar qızıyam,
Gəlməyəm, bəxtimdən qəlbən razıyam.

A d i l

Burda yaşayırsan nə vaxtdan bəri?!

F a t i m ə

Buradır atamın iş, xidmət yeri.

A d i l

Bəs atan nəçidir, işləyir harda?

F a t i m ə
(*Onun gözlərinə baxır.*)

Polkovnikdir, çatır köməyə darda.
Hərbi hospitalın o, rəhbəridir,
Həkimdir, hamının dil əzbəridir.

A d i l

Nədir atanızın adı, soyadı?

F a t i m ə

Soyadı Hafizov, Musadır adı.

Adil

Çox yaxşı, çox gözəl...
Sən rəqs meydanına biz gələndə gəl.
Mənim vaxtım bitir, getməliyəm mən,
Qaydalara əməl etməliyəm mən.

Gedirlər. Musiqi səslənir, başqa bir məkanda
Adil Fatimə ilə söhbət edə-edə gəlirlər.

Adil

Kosmonavt olmağın eşqinə düşdüm,
Arzular içində qovruldum, bişdim.
Ölkə rəhbərinə bir məktub yazdım,
Sonra hiss etdim ki, yolumu azdım.
Cavabı general özü gətirdi,
Qanımı qaraldan xəbər yetirdi.
General söylədi sən axı, türksən,
Heç türkdən kosmonavt görmüsənmi sən?!
Beləcə bu arzum qəlbimdə qaldı,
Sanki əqrəb olub o məni çaldı.

Fatimə

Qəmlənmə, kosmonavt olmasan da sən
Fəxr et ki insanlıq zirvəsindəsən.
İstərəm ki sabah görüşək yenə.

Adil

Gələrəm, icazə versələr mənə.

Fatimə

Bu məktubu bu gün oxuyarsan, ha...
Birdən unudarsan qalar sabaha.

Fatimə gedir, Adil məktubu oxuyur. Bayaqdan Adili gözləyən İzmozik görünür.

İzmozik

Sənə yaraşandı qəşəng, gözəldi,
Doğrusu mənim də xoşuma gəldi.

Adil

Ürəyim hər zaman Vəfanı anır,
Gözlərim önündə əksi dayanır.
Vəfadan qeyrini sevmərəm qəti,
Odur taleyimin əzəl qisməti.
Nəvazişlə rəqsə dəvət eylədi,
Özünün haqqında çox söz söylədi.
Onun təklifinə oldum ki, razı,
O mələk qalmasın məndən narazı.
Mənim kimliyimi öyrəndi o da,
Duydum ki, eşqimlə odlanır oda.
Adı Fatimədir, tatar qızıdır,
Sanki kəhkəşanın dan ulduzudur.

İzmozik

Onunla çox şirin söhbət edirdin,
Yaxşı rəqs eyləyib, “Tanqo” gedirdin.
Sənə heyran olub yaman baxırdı,
Camalı qəlbini oda yaxırdı.

Adil

Çox söhbət açsa da sevgidən, yardan,
Onu qurtarmadım mən intizardan.
Hiss etdim vurulub ürəkdən mənə,
Dedi ki, qəlbimi verirəm sənə.

İzmozik

İnsan xoşbəxt olar sevib sevilsə,
Məktuba ver baxım, gizli deyilsə –

“*Sənsiz həyat mənə olar bir qəfəs,*
*Sənin saf eşqinlə alıram nəfəs,*
*Adın mənə əziz ülvi, müqəddəs,*
*Sevginlə qaynayır damarımda qan,*
*Sənə vurulmuşam ürəkdən, inan*”.

A d i l

Bir huri olsa da o gözəl mələk
Məktubu özünə qaytaram gərək.
Mən onu saxlasam mənə dərd olar,
Sevimli Vəfama xəyanət olar.
Minlərlə Fatimə görsə də Adil,
Yenə Vəfasını unudan deyil.

(*İzmozik məktubu qaytarır.*)

İ z m o z i k

Halal olsun sənə, düz eyləyirsən,
Qəlbinin səsini sən dinləyirsən.
Pərişan əhvalım olsun deyə şən,
İndi Monikamla danışmışam mən.
Dəstəkdə səsini eşidən anda
Özümü bəxtiyar sandım cahanda.
Dedim, darıxıram, qəlbim narahat,
Uç gəl biz tərəfə, bir az olaq şad.
Dedi, ad gününə özüm gələcəm,
Tanrıma şükr edib sənlə güləcəm.

A d i l

Sadiqsən eşqinə sənə də əhsən,
Qəlbdən şadlanıram bu eşqinə mən.
Gecdir... Gedək...

(*Gedirlər.*)

PƏRDƏ

## ON ÜÇÜNCÜ ŞƏKİL

Kənd xəstəxanası. Göyçək xalanın səsi eşidilir.

Göyçək xala

Sən insan deyilsən, əfi ilansan,
Ara qızışdırıb, nifaq salansan.

Vəfa

O nə istəyir?

Göyçək xala

Vəfaya sözüm var – deyir.

Vəfa

Yaxşı, xala de ki, içəri gəlsin,
Xəyanətkar mənim fikrimi bilsin.

(*Üzünü yana tutur.*)

Söylə sən mənə tor qura-qura,
Həyasız, nə üzlə gəlmisən, bura?

Afət

Ölüb o dünyanı görəndən sonra
Geyib kəfənimi gəlmişəm bura.
Düzdür, günahkaram sənin qarşında,
Haqlısan, sən məni atsan da oda.
Cəzamı özün ver, gəl öldür məni,
Bu işi bilənlər qınamaz səni.

Vəfa
(*hiddətlə*)

Sənintək alçağa əl buluyum mən?
De, elə zalımlıq çıxarmı məndən!

Ağlıma gəlməzdi zərrəcə, Afət,
Mənə eyləyərsən belə xəyanət.

A f ə t

Bu namərd ürəyim vurulub ona,
Sənin vurulduğun o, el oğluna.

V ə f a

Adili sevirsən utanmırsan sən?..
Qəti nifrət etdim sənə bu gündən.

A f ə t

Comərdliyi məni kəməndə saldı,
Ağlımı, huşumu başımdan aldı.

V ə f a

Əfsus! Doğma bacım sanmışdım səni,
Döyünən qəlbimtək anmışdım səni.
İstəsən verərdim görən gözümü,
Mən qurban edərdim sənə özümü.

A f ə t

Qəlbimin hökmünə etmişəm əməl,
Mənimlə sərt rəftar eyləmə sən gəl.
Yalvarıram, məni bağışla, Vəfa,
Məhv olmaz həyatım gəlsən insafa.

V ə f a

Oynamısan mənim həyatımla sən,
O dünyada da, bil, əfv etmərəm mən.
Günahından keçə bilmərəm, vallah,
Bəndə yox, cəzanı qoy versin Allah!
Yenə də deyirəm, dayanma burda,
İblis ayaq basma bir də bu yurda.

(*Afət ağlayıb gedir, telefon zəng çalır. Vəfa dəstəyi götürür.*)

Adil

Vəfa, Vəfa, sənsən?..

Vəfa

Bəli, mənəm, mən...
Adil, can-ciyərim, səsinə qurban,
Qəlbimin sevinci oldu bir ümman,
Necəsən, əzizim, söylə bir görüm,
İstərəm sözündən mən çələng hörüm.
Adil, sən ey mənim ülvi varlığım,
Amalım, düşüncəm, fədakarlığım,
"Yazdığın məktubu" aldıq o saat,
Oxuyub yamanca olduq narahat.
Bir anda başıma dünya dolandı,
Ürəyim atəşə, oda qalandı.
Bütün varlığımla mən inandığım,
Anadan, bacıdan əziz sandığım
Afətmiş, sən demə, yolunu azan,
Həm sənə, həm mənə məktublar yazan.

Adil

Deməli, Afətmiş məktubu yazan?..
Bizim eşqimizə o, qəbir qazan?!

Vəfa

Sevgi bəsləyibmiş, Adil, o sənə,
Odur ki, xəyanət eyləyib mənə.

Adil

Bildim, başa düşdüm indi hər şeyi,
Götürdük aradan hər cür gileyi.

Zabit olmaq üçün gəldik kursa biz,
Bizimlə fəxr edir hərbi hissəmiz.
Bura gözəl yerdir, deyirəm sənə,
Vəfa, imkan tapıb bura gəlsənə.

Vəfa

Daha qalmayıbdır canımda dözüm,
Qəbahət olmasa gələrəm özüm.
Həm evlənməmişik, həm atam xəstə,
Hər cür söz çıxardar burda nakəs də.

Adil

Hərbi hissəmizə qayıdan zaman,
Məktub yazacağam sənə oradan.
Çoxlu salamım var gözəl sonama,
Vətənə, atana, bir də anama...

PƏRDƏ

## ON DÖRDÜNCÜ ŞƏKİL

Hərbi hissə. İzmozik və Adil.

İzmozik

Gedək, qarşılayaq gəl Monikamı,
Mənim ad günümə qoy gəlsin hamı.

Adil

Əvvəl komandirdən icazə alaq,
Sonrakı işlərin qeydinə qalaq.

İzmozik

Etimad göstərib komandir bizə,
İcazə veribdir hər ikimizə.

(*Gedirlər. Monika gəlir,*
*İzmozik əlindəki gülü ona verir.*)

İzmozik

Xoş gəlmisən mənim gözümün nuru,
Alır camalından qəlbim qüruru.
Mənə yeni, həyat verdin sən özün,
Arzuma nur saçdı o şəhla gözün.

Monika

Bir an da çıxmayıb adın yadımdan,
Eşqinlə qaynayır damarımda qan.
Sənsən bu həyatda tək ümidgahım,
Həyatım, varlığım, arxam, pənahım.

İzmozik

Dediyim Adildir, dostumdur mənim,
Onunla fəxr edir doğma vətənim.
Ona qardaş deyib, kəsmişəm çörək,
O mənə arxadır, mən ona kömək.

(*Gedirlər.*)

PƏRDƏ

## ON BEŞİNCİ ŞƏKİL

Amur çayının sahilində restoran.

Adil
(*Üzünü Monikaya tutur*)

İzmozikin varmış nə gözəl yarı,
Sahil xoşunuza gəlirmi, barı?

M o n i k a

Gözümü açandan görmüşəm onu,
Pənahım sanmışam cuhud oğlunu.
Qoy Adil söz açsın varsa yarından,
Gələcək işindən, arzularından.

A d i l

Atası xəstəydi, Vəfa gəlmədi,
Bizlə birgə deyib, gülə bilmədi.

M o n i k a

Adil də yarına məhəbbətlidir,
İzmozikim kimi sədaqətlidir.

A d i l

O mənim işıqlı kainatımdır,
İlk eşqim, ilk bəxtim, ilk həyatımdır.
Könül sevincimdir, tale yazımdır, –
Sözümdür, nəğməmdir, xoş avazımdır.

İ z m o z i k
(*Adilə*)

Ver, qoy şəklinizə Monika baxsın,
Qəlbində silinməz izlər buraxsın.

(*Adil şəkli Monikaya verir.*)

M o n i k a

İlahi, nə qədər gözəldir Vəfa,
Saf eşqin yolunda görməyin cəfa.
Qəlbimdə yurd saldı bir bacı kimi,
Dindi məhəbbətlə könlümün simi.

A d i l

(*Monikaya*)

Sizi görüşdürmək borc olsun bizə,
Xoşbəxtlik diləröm hər ikinizə.

(*Fatimə gəlir.*)

A d i l

(*Monikaya*)

Bu bizim həkimin yeganə qızı
Ömrünün-gününün parlaq ulduzu.
Adı Fatimədir, cənnət güldür,
Sevda dünyasının bir bülbülüdür.

M o n i k a

Sizin gör nə gözəl tanışınız var,
Allahım qoy onu etsin bəxtiyar!

A d i l

(*Adil badə qaldırır*)

Dostum İzmozikin doğum günüdür,
Şad olan günüdür, toy-düyünüdür.
Əzəldən onunla biz olmuşuq dost,
Olub iş yerimiz "bir nömrəli post".
Hərbidə bişmişik, dolmuşuq yaşa,
Əsgərlik çağını vururuq başa.
Fatimə iştirak edir burada,
Özünə yer tutur bizim sırada.
Allah xoşbəxt etsin, olsun bəxtəvər.
Ona hörmətim var dünyalar qədər.

F a t i m ə

Mən də İzmoziki bilirəm qardaş,
Həm də o, Adilə olubdur sirdaş.

Tanrım hifz eləsin onu fələkdən
Təbrik eyləyirəm onu ürəkdən.

M o n i k a

Bu gün mən özümü xoşbəxt sanıram,
Ötən günlərimi bir də anıram.

İ z m o z i k

Bu gün həyatımın gözəl anıdır,
İndi rəqs etməyin xoş zamanıdır.

Musiqi çalınır. Rəqs edirlər. Adil və İzmozik bayıra çıxırlar, otaqda Monika ilə Fatimə qalır.

F a t i m ə
(*Monikaya sığınaraq*)

Ömrümdə ilk dəfə vurulduğum kəs
Adildir eşqiylə alıram nəfəs.
Mənə gərək deyil, ondan qeyrisi,
Eşqi göz işığım, qəlbimin səsi.
İlk eşqim, son sevgim Adildir, Adil,
Qeyri bir özgəsi gərəyim deyil.

M o n i k a

Allah tale versin sənə, ay bacı,
Xoşbəxt ol, həyatın olmasın acı.
Hər addım atanda yaxşı fikirləş,
Çox götür-qoy elə, qismətlə birləş.

(*Adil İzmoziklə daxil olur.*)

İ z m o z i k
(*zarafatyana*)

Yüz fikir bir borcu ödəmir, bacı,
Səbirdi ən müşkül dərdin əlacı.

(*İzmozik saatına baxır.*)

Vaxtımız qurtarır, gedəyin, dostlar,
Qaydaya biz əməl edəyin, dostlar.
Monika xanımın qeydinə qalaq,
Aparaq biz onu tez yola salaq.

(*Fatimə ilə Adil çıxır, çöldə gözləyirlər.*)

İzmozik
(*Monikaya*)

O, bir söz demədi sənə Adildən?

Monika

Dinlədim mən onu ürəkdən, qəlbən,
Dedi: İlham allam ancaq Adildən.
İlk sevgim, son eşqim Adil olacaq,
Qəlbimdə əbədi o yurd salacaq.

İzmozik

Vəfa haqda ona bir söz demədin?
(*Monika "yox" deyir, başını bulayır.*)
Gərək, həqiqəti ona deyəydin.

Monika

Onu belə gördüm, ürəyim yandı,
Dərdini deməyi bir imdad sandı.
İndi edəcəyəm ona işarə,
Yazıq qız qoy qılsın başına çarə.

Gedirlər.

PƏRDƏ

## ON ALTINCI ŞƏKİL

Xabarovskda hospital. Hafizovun kabineti görünür. Adil və İzmozik dəhlizə daxil olurlar. Fatimə onları qarşılayır.

F a t i m ə

Siz çox dəqiqsiniz,
Düz dediyim vaxta gəlibsiniz siz.

(*Adilə*)

Atam otağında gözləyir səni.

A d i l
(*İzmozikə*)

Sən burda əyləşib gözlərsən məni.

İ z m o z i k

Oldu, oldu!..

F a t i m ə

Buyurun. İzmozik tək burda qaldı?..
(*Fatimə və Adil kabinetə keçirlər.*)
Dediyim Adildir, tanış olun siz,
Onunla fəxr edir hərbi hissəniz.

(*Əl verib görüşürlər.*)

H a f i z o v

Çox şadam. Hafizov Musa,
Söhbətim səninlə olacaq qısa.
Əyləş, cavan oğlan, bir dinlə məni,
Özüm çağırmışam bura mən səni.
Sənə deyiləsi sözüm var, Adil,
Qəlbimdən keçəni deyim, sən də bil.

Kursu bitirəndən sonra söylə sən
De, məqsədin nədir? Nə edəcəksən?
(*Adil susur.*)
Sən burada qalmaq istəsən əgər,
Sənə ürəyincə köməyim dəyər.
Hərbi hissəmizdə qulluq edərsən,
Generala qədər yüksələrsən sən.

A d i l

Sizə minnətdaram, mənə inanın,
Məni özünüzə bir övlad sanın.
Anamı tək qoyub bura gəlmişəm,
Vətənə xidməti şərəf bilmişəm.
Məqsədim geriyə dönməkdir mənim,
Yolumu gözləyir ana vətənim.

H a f i z o v

Burda qalsan sənə heç də pis olmaz.
Bu haqda fikirləş, sən düşün bir az,
Son qəti fikrini söylərsən bizə.

A d i l

Bir qərara gəlsəm, deyərəm sizə.

H a f i z o v

Görürəm ağıllı bir oğlansan sən,
Özün bilərsən...

A d i l

Sizə minnətdaram mən!

H a f i z o v

Gedə bilərsən...

(*Adil çıxarkən Fatimə çay gətirir.*)

F a t i m ə

Gedirsiz, bəs çay? Belə tez?

A d i l

Çox sağ olun siz!
(*Adil çıxır və İzmozikə yaxınlaşır.*)
Onu görcək atam yadıma düşdü,
Əzizim, doğmam tək mənlə görüşdü.
Hafizov istəyir mən burda qalım,
Bu yerdə əbədi bir məskən salım.

(*Gedirlər. Hafizovun kabineti işıqlanır.*)

F a t i m ə

Ata, mən səninlə danışsam açıq
Sözümdən inciyib eləmə acıq.
Anam sağ olsaydı, deyərdim ona,
Qoymazdı ürəyim alışıb-yana.
Ömrümdə ilk dəfə xoşladığım kəs
Adildir, onunla alıram nəfəs.
Mənə gərək deyil, ondan qeyrisi,
Bunu deyir sizə qəlbimin səsi.

H a f i z o v

Mən sənə sərbəstlik versəm də, fəqət,
Xoşuma gəlməyir belə məhəbbət.
Yəqin bilməyirsən onun yarı var,
Doğma vətənində vəfadarı var.

F a t i m ə
(*diksinən kimi olur*)

Nə?.. Necə?.. Bunu kim deyir?
Bəlkə yalan sözdür, o səhv eyləyir.

H a f i z o v

Deyirəm, bu agah qoy olsun sənə.
Bunu kursant Viktor söyləyib mənə.

F a t i m ə

Dalımca düşmüşdü o, tula kimi,
Riyakardır, deyil heç də səmimi.
Eyləsə də məni o, rəqsə dəvət,
Onun dəvətini saymadım, fəqət.

H a f i z o v

Gəl öz gözünlə gör, bu ki deyil sirr,
Viktor dedikləri bir həqiqətdir.

(*Şəkli çıxardır.*)

Adillə yarının şəklinə bir bax,
Özünü ələ al, ol sakit, toxtaq.

(*Fatimə şəklə baxır.*)

F a t i m ə

Bəs bu şəkli sizə kim verib ata?

H a f i z o v

Viktor verib, bu bəs deyil sübuta?!
Öz yarı barədə açıq de mənə,
Adil söz deməyib, de görüm, sənə?

F a t i m ə

Onu sevdiyimi bildirsəm də mən,
Çıxmayıb "sevirəm" sözü dilindən.

H a f i z o v

Bizim bu söhbəti demə Adilə,
Qoyma bu sevgini başqası bilə.

Eyləmə dünyanı gəl başına dar,
Cavansan, qəşəngsən, gələcəyin var.

PƏRDƏ

## ON YEDDİNCİ ŞƏKİL

İvanov Qarmaşa zəng edir.

İ v a n o v

Təzə nə xəbər var, yoldaş polkovnik?

Q a r m a ş

Çinlilər torpağa çıxırlar şərik.
Salıblar bu “dostlar” bəd işə bizi,
Açıqca səsləyir döyüşə bizi.
Gör kimlər bizlərə oxuyur meydan,
Onları yolundan çıxarıb şeytan.

İ v a n o v

Gərək çinlilərin dərsini verək,
Biz nəyə qadirik bilsinlər gərək.
Raketlər, atomlar sahibiyik biz,
Dünyanın özünə çökdürərik diz.
Bizim ən qüdrətli ordumuz vardır,
Alınmaz qalatək yurdumuz vardır.
Nümayiş etdirək öz qüvvəmizi,
Döşünə döyənlər tanısın bizi.
Bir daha düşsələr xam xəyallara,
Onları çəkdirrik bilsinlər dara.

Q a r m a ş

Təhlil olunubdur sərhəddəki iş,
Bizə verilibdir belə göstəriş.

Çinin sərhədində keçirək təlim,
Ayılsın yuxudan bizlərə qənim.
Biz bu yaxınlarda hərbi hissənin
Təlim məşqlərini keçirməliyik,
Bizi döyüşlərə səsləyən Çinin
Özünə biz ağı içirməliyik.
Siz ciddi hazırlıq görün bu işə,
Postunuzda sayıq olun həmişə.

İ v a n o v

Oldu, yoldaş polkovnik!
Sizin tapşırığa əməl edərik.

Dəstəyi qoyurlar. Gecədir. Həyəcan siqnalı verilir, əsgərlər sıraya düzülürlər. İvanov görünür.

İ v a n o v

Əsgərlər!
Çinlilər yenə də pozub sərhədi,
Dinc dura bilməyib aşıblar həddi.
Onların qarşısı alınmalıdır,
Sərhəd qaydasına salınmalıdır.
Gedirik yenə də ora indi biz,
Onlar azar yolu çökdürməsək diz.
Müqəddəs tapşırıq verilib bizə,
Bir ayaq dəyməsin sərhədimizə.
Çinlilər Damanskı tutub deyirlər,
Ölkədə yas tutub qara geyirlər.
Çinlilər tarixi yada salmayıb,
Hitlerin məhvindən ibrət almayıb,
Əsgərlər!
Döyüşdən çıxmışıq qalib həmişə.
Biz bu gün, giririk qanlı döyüşə,
Sovet dövlətini təmsil edirik,
Əjdaha üstünə bilin gedirik.
Düşsək də alova, düşsək də oda,
Bir qarış torpaq da verməyək yada.

Maşın, tank, insan səsləri eşidilir. Bu səsləri raket, top, təyyarə, bomba partlayışları əvəz edir. Ara sakitləşir.
Yenə İvanovun kabineti. İvanov Qarmaşa raport verir.

İ v a n o v

Düşmən sürət ilə irəliləyirdi,
Bizi məhv edirdi, bizi əyirdi.
Tapşırıq verildi serjant Adilə,
Dəstənin hər üzvü söylədi belə,
İstehkam yaradaq düşmən önündə,
Zəfər çalmalıyıq bu çətin gündə.
...İstehkam tələni onlar qurdular,
Pusquda inamla sayıq durdular.
Kənara çəkilib imkan verdilər,
Düşməni kənardan seyr edirdilər.
Düşmən törətsə də ağır fəlakət,
Gəlib bu tələyə düşəcək, əlbət!
Düşmən zənn etsə də yoxdur bir kimsə
Ehtiyat edirdi ancaq nədənsə.
Çox həmlə etdilər, çox döyüşdülər,
Qurulan tələyə gəlib düşdülər.

Q a r m a ş

Əla!.. Əla!..
Başınız heç vədə çəkməsin bəla.

İ v a n o v

Tələ öz vaxtında yetişdi dada,
Verdi düşmənlərin ömrünü bada.
Kimsə sağ-salamat çıxmadı ordan,
Heç biri qurtara bilmədi dardan.

Q a r m a ş

Sənə halal olsun, ay belə əsgər,
Beləsi onlarla zabitə dəyər.

Eşitmişdim, gördüm azəriləri,
İgiddir, sadiqdir əzəldən bəri.

İ v a n o v

Adillə oraya keçirdik baxış,
Ona əhsən dedim, eylədim alqış.
Hünər zirvəsinə yüksəlib çatdı,
Hərbi hissəmizi göyə ucaltdı.
Zərbə vurdu bizə düşmən hiyləsi,
Pusqudan Adilə dəydi gülləsi.
Heyif bir ayağın itirdi Adil,
Vətən, el yolunda o oldu əlil.
Adil müalicə olunsun deyə
Biz onu apardıq Xabarovskiyə.

Q a r m a ş

Deməli, o igid olubdu əlil?

İ v a n o v

Xalqının yolunda can qoydu Adil.
Adil dilimizin olub nəğməsi.

Q a r m a ş

Adilə mən verdim zabit rütbəsi.

İ v a n o v

Edib ləyaqətlə andına əməl.

Q a r m a ş

O, tərxis olunur vaxtından əvvəl.
Müalicədən sonra zabit Adili,
Doğma vətəninə çatdırın, bəli.

Qəhrəman bir oğul doğan anaya,
Ona qürur verən gözəl sonaya
Ürək salamımı yetirin mənim
Bilsinlər, Adili sevir vətənim.

PƏRDƏ

## ÜÇÜNCÜ PƏRDƏ

### ON SƏKKİZİNCİ ŞƏKİL

Xabarovskın hərbi hospitalı, dəhliz və Hafizovun kabineti görünür.
İvanov, İzmozik xərəkdə Adili gətirirlər.
Hafizov və Fatimə onları qarşılayır.

Hafizov

Bu, ağır xəstəni axı, niyə siz
Vaxtını keçirib, gec gətirmisiz.
Onun vəziyyəti ağırdır, ağır.

(*Fatiməyə*)

Bütün həkimləri tez bura çağır.
Bunun sağalması olsa da çətin,
Biz verək hökmünü tibbi xidmətin.
Dərhal əməliyyat aparmalıyıq,
Onu dərd əlindən qoparmalıyıq.

Hafizov

Xəstəyə əvvəlcə iynə vurulsun,
Cərrahiyyə işi qoy rahat olsun.
Təcili qoy kömək eləyək ona,
Aparın cərrahın iş otağına.

Hafizov İvanovla gedir cərrah otağına. Bütün bu danışıqları Adil eşidir. Ona yuxu iynəsi vururlar. Ona elə gəlir ki, o, artıq ölür. Ölüm ayağında xəyala dalır. Onu aparırlar, lirik musiqi eşidilir. Kənd. Adil və Vəfanın yaşadığı həyətlər görünür. Adil və Vəfa bir-birlərinə ünvanlanan mahnılar oxuyurlar.

A d i l

Sevgilim, eşqinlə yanan aşiqəm,
Mənə yad nəzərlə baxma, amandı!
Tək sənin eşqinlə alıram nəfəs,
Eşqimi daşlara çaxma, amandı!

V ə f a

Mənim saf eşqimi gül eyləmisən,
Könül həsrətimi kül eyləmisən.
Aləmə sığmayan tufan eşqimi
Salıb kəməndinə lal eyləmisən.

A d i l

Bağçamda barım sənsən,
Səbrim, qərarım sənsən,
İstəkli yarım sənsən,
Mən sənə vurulmuşam.

"Mən sənə vurulmuşam" sözləri əks-səda ilə bir neçə dəfə səslənir.
Fatimə ilə İzmozik söhbət edirlər.

F a t i m ə

Hərbi hissənizdən gələndə xəbər
Dərin fikrə gedib oldum birtəhər.
Elə bil qəlbimə dammışdı, ancaq
Kimsə mənə dedi Adil olacaq.
Mənim həyəcanım əbəs deyildi,
Ağlıma gələnlər başıma gəldi.
Atamın əlləri ona can versin,
Tanrım qanadını üstünə gərsin.

(*Bu zaman Hafizovla İvanov gəlirlər.*)

H a f i z o v

Yox, yox, xilas edə bilmədik onu,
Artıq yetişibdir ömrünün sonu.

Zəhərli güllələr qana işləyib,
Qırıb varlığını, qəddini əyib.

İ v a n o v

Deməli, öləcək, öləcək Adil?
Sağalması onun heç mümkün deyil?

F a t i m ə

Adil düşmənlərdən alıbdır qisas,
Ata, yalvarıram onu et xilas!

H a f i z o v

Özünü ələ al, keçirmə təşviş,
Adamın başına gələr hər cür iş.
Ancaq biz ümidsiz olmayaq gərək,
Üç-dörd gün gözləyək nə olur görək.

PƏRDƏ

## ON DOQQUZUNCU ŞƏKİL

Palata. Adil tək çarpayıda uzanıb. Xəyallar içində vurnuxur.
Gözünə yuxuda müxtəlif adamlar görünür.

F a t i m ə

Adilcan, necədir söylə əhvalın,
İndi vəziyyətin, bugünkü halın?
Qoymaram mən sənə səmt düşə qəmi,
Çəkərəm qəhrini öz doğman kimi.

H a f i z o v

Şəfam dərd əlindən səni almadı,
Əfsus ki, sağaltmaq mümkün olmadı,

Sənin vəziyyətin ağırdır, ağır,
Gözlərindən həsrət yağışı yağır.
Hayıf ki, dünyadan bu nakam gedir,
Mənim də qəlbimi pərişan edir.

A d i l
(*öz-özünə*)

Bilmirəm, burda mən indi nə edim,
Yarımı görməmiş məzara gedim?!

İ z m o z i k
(*Görünür.*)

Sən nə danışırsan özün-özünə,
Çinlilər görünür, yoxsa gözünə.

A d i l
(*İzmozikə*)

Dostum, bir məktub yaz, gözəl sonama,
Mənə həsrət qalan Göyçək anama.
Qoy şəklimə baxıb salsınlar yada,
Desinlər Adilsiz qaldıq dünyada.
Yaz ki, xalq yolunda qurban getmişəm,
Öz əsgər andıma əməl etmişəm.
Yaz ki, Vəfa mənə vəfalı olub,
Bilirəm dərdimdən gül kimi solub.
Yaz ki, eşqi ilə almışam nəfəs,
Eşqini bilmişəm ülvi, müqəddəs.
Nə etmək, mənimki gətirdi belə,
Hər kimlə istəyir qursun ailə.

İ z m o z i k

Qara fikirləri gəl, at başından,
Vəfan səndən ayrı yaşamaz bir an.

Əgər lazım olsam çağır sən məni,
Qoymaram çətində heç vədə səni.

(*Gedir.*)

A d i l
(*öz-özünə*)

Hə, nə etməli...
Kimə üz tutmalı, hara getməli?
Yox-yox... Yox-yox... Yox-yox!..
Sevincim tükənib, kədərimsə çox.
Ölsəm, son qoyular qəlbimdə aha,
Mən çıxış yolunu tapmışam daha.
Risk edib intihar eyləsəm, əgər
Qəm-qüssə, iztirab məndən əl çəkər.
Rahatlıq taparam o dünyada mən,
Vicdan əzabından, məhrumiyyətdən.
Gör məni xəyallar apardı hara?
Az qala dönmüşdüm bir günahkara,
Yox... yox... yox!..
Məhv olsam da bizim zəfərimiz çox.
Doğru yol seçmişəm, əsgər getmişəm,
Vətən torpağını xilas etmişəm.

(*Fatimə görünür.*)

A d i l

Sənə minnətdaram, inan, ürəkdən,
Səni anacağam həmişə qəlbən.

F a t i m ə

Darıxma, mətin ol, səbr eylə sən bir,
Çox da kədərlənib eyləmə fikir.

(*Fatimə çıxır.*)

A d i l

Nə etməli...
İntihar, yoxsa ki evə getməli?
Çox çətin sualdır bu mənim üçün,
Cavab tapmalıyam elə bax bu gün.
İntihar edəni sevmir Allah da,
Cəhənnəmlik olur yeri dərgahda.
Həyatda acizlər intihar edir,
Mərdlər bu dünyadan mərd kimi gedir.

H a f i z o v

Sabah aparırlar vətənə onu,
Artıq yetişibdir ömrünün sonu.

İ z m o z i k

Bəs, mayor İvanov bilirmi bunu?
Adilin halının pis olduğunu?

H a f i z o v

Bu saat o özü bura gələcək,
Bütün vəziyyəti burda biləcək.

(*İvanov daxil olur.*)

İ v a n o v

Veribdir icazə polkovnik mənə,
Onu aparmağa doğma vətənə.

(*İzmozik Monikaya zəng edir.*)

İ z m o z i k

Əzizim, diqqətlə qulaq as mənə,
Ürək ağrısıyla deyirəm sənə.

Vuruşma Adilə bəla gətirdi
Deyəsən ömrünü başa yetirdi.
Onu aparırıq Bakıya bu gün,
Əziz Vəfasına yetirmək üçün.
Təcili özünü çatdır Bakıya,
Təskinlik verərik biz də Vəfaya.

Bakı. Təyyarə səsi stüardessanın səsinə qarışır. "Təyyarəmiz Binə hava limanında yerə endi". Adilə elə gəlir ki, onu hansısa bir xəstəxanaya gətirmişlər. Onları Afət qarşılayır.

A f ə t

İlahi, gözümə inanmıram mən,
Axı belə oldu Adilim nədən?!

İ v a n o v

Uzaq yol gəlibdir, çox narahatdır,
Qohumlarına sən tez xəbər çatdır.

A f ə t
(*telefonla*)

Vəfa, Adilini görmək istəsən,
Hospitala yetir, tez özünü sən.

(*Vəfa görünür.*)

V ə f a

Adilə nə olub, tez söylə mənə!

A f ə t

Qorxulu şey yoxdur, deyirəm sənə,
Yubanma, bura gəl, budur, son sözüm,
Ona həkim kimi baxacam özüm.

V ə f a

Bizə kəsilsən də özün bir yağı,
Şəfa ver, ərisin qəlbinin dağı.
Yol uzaq olsa da gəlləm bu saat,
Mən gəlincə onun köməyinə çat.

Vəfa daxil olur, Adil deyib qışqırır, özünü onun üstünə atır.

V ə f a

İlahi! Bu nədir, yuxudur bəlkə,
Başıma açırsan belə mərəkə?!
Sənə tapşırmışdım axı, yarımı,
Könül sirdaşımı, vəfadarımı.
Niyə qorumadın sən Adilimi,
Vuran ürəyimi, şirin dilimi?!

(*Monika daxil olur.*)

İ z m o z i k

Mənim Monikam da burdadır, Adil,
Sənə görə o da kədərlidir, bil.
Gəlibdir Vəfanı, səni görməyə,
Bizə bir təskinlik, ümid verməyə.

A d i l

Mən sizdən razıyam dünyalar qədər,
Qoymadınız məni boğa qəm-kədər.
Qardaştək karıma gəldiniz dərhal,
Çəkilən zəhməti eyləyin halal.

(*Onlar yox olurlar.*)

A d i l
(*Vəfaya*)

Dərdimi səninlə bölüşmək üçün,
Anamla son dəfə görüşmək üçün

Vida şərbətini bil, içmək üçün
Allahım buraya yetirdi məni
Həsrət ayağına gətirdi məni.

V ə f a

İki il qalmışam həyatda yalqız,
Özümü bilmişəm sənsiz, dayaqsız.
Ayaqlı getmişdin, səni ayaqsız
Gözüm kor olaydı kaş görməyəydim.

A d i l

Mən daha gərəkli deyiləm sənə,
Xoşbəxt ol, saf eşqin bəs edər mənə.
Dözmürəm qəlbini sızladan ünə,
Vəfa zirvəsindən enməmişəm mən.

G ö y ç ə k   x a l a
(*Gəlir.*)

Qəlbimdə ocaqtək qalandı dünya,
Ömrümə dərd kimi calandı dünya,
Bəlalı başıma dolandı dünya,
Dada yet, rəhm eylə, ey ulu Tanrım!

A d i l

Mən Adiləm, mənə zər gərək deyil,
Mən olan ellərə ər gərək deyil,
Mənə mavi səma, yer gərək deyil,
Sevən könüllərdə dəfn edin məni,
Nəğməli dillərdə dəfn edin məni.
"Zəminxarə" ilə dəfn edin məni.

G ö y ç ə k   x a l a
(*hönkürə-hönkürə*)

Dilim tutmaz deyəm "öldü" sözünü,
Yaşamaram Adil yumsa gözünü.

Adil
(*asta-asta "Segah" üstdə oxuyur*)

Xəstəyəm, yoxdur dərdimə bir dərman, ey təbib,
Çarə et, sevincim qoy olsun ümman, ey təbib.

Qəlb deyir yaşa fəqət, eşqim eyləyir tüğyan,
Neyləyim, zalım fələk vermir aman, ey təbib.

Təkcə sənsən təbibim, yoxdur özgə bir təbib,
Sən ol qəmli halıma qəlbən yanan, ey təbib.

Sadiqəm öz əhdimə yanan pərvanə kimi,
Bil Adildir vəslindən şəfa uman, ey təbib.
Vəfa!!!

Vəfa
(*hönkürür*)

Can, Adil... A... dil!!!
(*O, Adili ölmüş görür.*)
Sənsiz baxa bilməz dünyaya gözüm,
Məndə yaşamağa qalmayıb dözüm.
Yüz ölçüb bir kərə biçmişəm özüm,
Sənə o dünyada qovuşam gərək.

(*Matəm marşı çalınır. Adil ağ paltarda gəlir.*)

Adil
(*Vəfaya*)

Nakamlar bağından mən gül üzmüşəm,
Bir Məcnun sayağı səni süzmüşəm.
Qaçırsan, mən sənə çata bilmirəm,
Qəlbimdən qüssəni ata bilmirəm.
Cəhənnəm odunda yanıram sənsiz.
Özümü kimsəsiz sanıram sənsiz,

Getmir göz önümdən surətin, Vəfa,
Sinəmi dağlayır həsrətin, Vəfa.

(*Adil uzaqlaşır.*)

V ə f a

A... D... İ... L...!!!

(*Vəfa əlində zəhər Adilin məzarı yanında görünür.*)

V ə f a
(*yanıqlı-yanıqlı "Zəminxarə" üstdə oxuyur*)

Sən Vəfanı, Adil, Leyli sanmısan,
Məcnun kimi eşq odumda yanmısan,
Məni tanrı, ilahitək anmısan,
Səndən sonra yaşamağa dəyərmi?!

(*Adilin məzarı üstündə zəhər içir və ölür.*)

G ö y ç ə k   x a l a
(*Məzar yanında görünür.*)

Siz ey, bu dünyanın mərd insanları,
Ana fəryadını eşidin, barı,
Təkcə mən deyiləm dərdə mübtəla,
Müharibə olub bəşərə bəla.
O qoymur kamına çata insanlar,
Cəlladtək axıdır günahsız qanlar.
Talan olmasaydı könül sarayım,
Ərşə ucalmazdı ana harayım.
Camalın, Adilin günahı nəydi?
Onların yoxluğu qəddimi əydi.
Analar! Günahsız qan tökənləri,
Sinəyə dözülməz dağ çəkənləri
Axı bu dünyaya gətirmişik biz,

Onları sanmışıq müqəddəs, əziz.
Bizə vicdanımız qursun məhkəmə,
Günahımız nədi, sorsun məhkəmə.
Günahlı, günahsız analar da var,
Günahkara vaxtsız qazılsın məzar.
Ana fəryadımı sanın bəyanat,
Çəkin müharibə qarşısına sədd.
Ana övladına həsrət qalmasın,
Başımın üstünü duman almasın.
Camaldan, Adildən, Vəfadan sonra,
Göyçək gərəkdir ki, girsin məzara.
Əlvida, ey dünya!.. Əlvida sən!
İşgəncə vermisən həmişə mənə!
Əl...vi...da..., əl...vi...da!!!

Birdən ananın fəryadına Adil "ana!" deyib gözlərini yavaşca açır. Başı üstündə və yanında İvanovu, Hafizovu, Fatiməni, İzmoziki, Monikanı və Vəfanı görür.

A d i l

Vəfa!!!

V ə f a

Bəli!.. Bəli!..

A d i l

Bu doğrudanmı sənsən?! Vəfa!

V ə f a

Bəli! Mənəm, mən!

A d i l

Mən sənə qurban!

Vəfa

Məni bu yerlərə gətirdi dövran
Həkimlər yetirdi mənə bəd xəbər,
Dünəndən burdayam dərdli, mükəddər.
Dedilər, ayılsa o yaşayacaq,
Yenə el dərdini o daşıyacaq.
Allaha min şükür, əziz Adilim,
Ayıldın, yanmadı dodağım, dilim.
Sənin rəhmin gəlib, İlahim, mənə,
(*Əllərini qaldırır yuxarı*)
Min şükür edirəm bugünkü günə!

Adil

Fatimə, İzmozik, Monika, Musa,
İvanov, de niyə, batmısız yasa?

(*Adil onlara bir daha diqqətlə baxır, özünə gəlir.*)

Hafizov
(*Adilə*)

Adil! Sən yaşayacaqsan!!!
Adil! Sən yaşayacaqsan!!!

SON

*Bakı, 2000*

## ELÇİN

(1943)

*Əfəndiyev Elçin İlyas oğlu – nasir, dramaturq, ədəbiyyatşünas-alim, ictimai xadim, – Bakı şəhərində, ziyalı ailəsində anadan olmuşdur. Orta məktəbi (1960), ADU-nun filologiya fakültəsini (1965) bitirmişdir. Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunun aspirantı olmuş (1965-1969), "Azərbaycan bədii nəsri ədəbi tənqiddə" mövzusunda namizədlik (1969), "Ədəbiyyatda tarix və müasirlik problemi" mövzusunda doktorluq (1997) dissertasiyalarını müdafiə etmişdir. Nizami adına Ədəbiyyat İnstitutunda kiçik elmi işçi (1969-1972), böyük elmi işçi (1972-1975), Azərbaycan Yazıçılar İttifaqının katibi (1975-1987), Xaricdə Yaşayan Həmvətənlərlə Mədəni Əlaqələr Cəmiyyəti – "Vətən" Cəmiyyəti Rəyasət Heyətinin sədri (1987-ci ildən etibarən) vəzifələrində işləmişdir. 1993-cü ildən Azərbaycan Respublikası Baş nazirinin müavini vəzifəsində çalışır. Eyni zamanda BDU-nun professorudur. Bir çox beynəlxalq elmi, ictimai, ədəbi qurumların, bədii şuraların, redaksiya heyətlərinin üzvü, Türkiyənin Yedditəpə, Fateh və Memar Sinan universitetlərinin fəxri doktorudur.*

*Ədəbi fəaliyyətə "O inanırdı" hekayəsi ilə başlamışdır (1959). Bir çox hekayə, povest, pyes, ssenari, roman, elmi monoqrafiya və məqalələrin müəllifidir. Əsərləri "Drujba narodov" (1973), "Smena" (1977 və 1984), "Yunost" (1983) jurnallarının, SSRİ Yazıçılar İttifaqının (1982), "Nedelya" həftəlik qəzetinin (1982), "Literaturnaya qazeta"nın (1983 və 1994) "Ən yaxşı əsərlər" üçün təsis edilmiş mükafatlarını, 1982-ci ildə SSRİ Lenin komsomolu mükafatını almışdır. Eləcə də bir çox Beynəlxalq mükafatlara layiq görülmüşdür. Əsərləri ingilis, fransız, alman, türk, rus, Çin, ispan, macar, fars, slovak, rumın, çex, ərəb, Ukrayna, qazax, tacik, moldav, gürcü, özbək, belorus, eston, bolqar, Polşa, latış və s. dillərə tərcümə edilmişdir. Pyesləri Azərbaycan və xarici ölkə səhnələrində tamaşaya qoyulmuşdur. Ssenariləri əsasında 7 bədii film çəkilmişdir.*

*Azərbaycan Yazıçılar Birliyinin üzvü (1968), Xalq yazıçısı (1997), Əməkdar incəsənət xadimidir (1984). Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir (1987). "Şərəf nişanı" (1983)* və *"İstiqlal" (2003) ordenləri ilə təltif edilmişdir.*

# QATİL

## (ULDUZLAR ALƏMİNDƏ QƏTL)

*On bir şəkildən ibarət dram*

İŞTİRAK EDƏNLƏR

Qadın
Gənc kişi
Qonşu qadın
Qonşu kişi
Şagird Həsənzadənin anası

Zaman – 2001-ci il, payızın sonları. Məkan – Bakı şəhəri.

## I. MƏHƏBBƏT

### BİRİNCİ ŞƏKİL

Qadın, şagird Həsənzadənin anası, Qonşu qadın, Qonşu kişi. Qadının mənzili. Axşam. Səliqəli və sadə bir otaqdır: üst-üstə düzülmüş kitab rəfləri, paltar dolabı, divan-çarpayı, miz, stullar. Qadın mizin arxasında əyləşib və əlində qələm, mizin üstündəki bir qalaq şagird dəftərlərini yoxlayır.

Qadın (*başını bulayır*). Ay Həsənzadə, Həsənzadə!.. Sən bu kimyanı haçansa başa düşəcəksən, ya yox?

Pauza.

Kimyadan yaxşı şey var dünyada?

Pauza.

Hə, Həsənzadə?

Pauza.

(*Dərindən köks ötürür.*) "İki"... "İki", Həsənzadə!.. Düzdü, sənin atan məşhur böyük adamdı, amma mən nə edim? Hə, Həsənzadə? Başa düşürəm e, sən bircə oğulsan, özün də pis oğlan deyilsən, amma

kütsən də, vallah, mən nə edim? Yenə “iki”, Həsənzadə! “İki!” Ay aman, yenə anan gələcək...

İşıq, üzü tamaşaçılara tərəf dayanmış
şagird Həsənzadənin anasının üzərinə düşür.

Şagird Həsənzadənin anası. Müəllimə, o Sizi, bilirsiz nə qədər çox istəyir?!

Qadın (*əvvəlki kimi, mizin arxasında oturub dəftərə baxa-baxa*). Məni istəməsin e, kimyanı istəsin!

Şagird Həsənzadənin anası. Müəllimə, hamı bizdən nəsə xahiş edir... Təkcə Sizdən başqa...

Qadın (*çiyinlərini çəkir*). Mənə nə lazımdı ki?..

Şagird Həsənzadənin anası. Yəni Sizin bircə xahişiniz də yoxdur?

Qadın (*fikirləşir*). Var!

Şagird Həsənzadənin anası (*sevincək*). Hə? Nədir?

Qadın. Bax, bu (*barmağı ilə mizin üstündəki dəftəri göstərir*), kimyanı öyrənsin!

Şagird Həsənzadənin anası. Of-f-f!..

Şagird Həsənzadənin anasının üzərinə düşən işıq sönür.

Qadın (*qarşısındakı dəftərə qiymət yazıb, qol çəkib, kənara qoyur və yeni dəftər açır*). Əhmədəliyev, doğrusu, heç səndən də gözüm su içmir... Görək də... Görək sən nə yazmısan?.. (*Yoxlamağa başlayır.*)

Pauza.

Sağ ol, Əhmədəliyev!..

Pauza.

Düzünü de, Əhmədəliyev, köçürmüsən? Hə?

Pauza.

Ay-ay-ay, Əhmədəliyev!.. Yüz faiz köçürmüsən!

Qonşu qadın otağa daxil olur.

Qonşu qadın. Ay məlimə, yenə qapını açıq qoymusan?

Qadın. Açıq qoymuşam?

Qonşu qadın. Hə...

Q a d ı n. Olsun də... (*Gülür.*)
Q o n ş u q a d ı n. Necə olsun də?.. Biri gəlib girər içəri!..
Q a d ı n. Gəlib içəri girər? (*Gülə-gülə*) Mən kimə lazımam?
Q o n ş u q a d ı n. A-a-a... Ay məlimə, vallah, sən çox qəribə adamsan!.. Neçə ildi sənlə qonşuyuq? Az qala, on ildi!.. Bu on ildə, Allahın hər verən günü, axşamlar ya beləcə oturub dəftər yoxlayırsan, ya da dərsə hazırlaşırsan. Bazar günləri də evi yığışdırırsan. (*Ətrafı nəzərdən keçirərək*) Heç yığışdırılmalı bir şey də yoxdu, onsuz da hər tərəf tərtəmizdi...
Q a d ı n. Bilirsən mənim necə bir arzum var?
Q o n ş u q a d ı n. Nə arzu?
Q a d ı n (*gülə-gülə*). Yaxşıca bir töküb-töküşdürəydilər bu otağı, mən də sonra yığıb-yığışdıraydım!..
Q o n ş u q a d ı n. A-a-a... Onda, gəl, səninlə yerimizi dəyişək, görüm, onda nə deyəcəksən?.. (*Barmağını boğazına çəkir.*) Mən bura yığılmışam ev təmizləməkdən! Dəyişək, yerimizi?
Q a d ı n. Axı bu mümkün deyil... Bu dünyada hərənin öz missiyası var... "Missiya" bilirsən nədi?
Q o n ş u q a d ı n. Yox.
Q a d ı n. Elə bilməsən yaxşıdı! (*Gülür.*) Mən bir az birtəhərəm də, hə?
Q o n ş u q a d ı n. Yox e, ay məlimə, bir teatra gedəsən, konsertə gedəsən, nə bilim, birinin bir toyuna gedəsən... Nə olub sənə, qocalıb əldən düşməmisən ki, canı sulu adamsan! Vallah, məəttəl qalmışam!.. Bezdirmir səni bu təklik?
Q a d ı n. Tək niyə oluram? (*Gülür.*) Bəs Əhmədəliyev? Bəs Həsənzadə?
Q o n ş u q a d ı n (*təəccüblə*). Əhmədəliyev? Həsənzadə?.. Həsənzadə kimdi?
Q a d ı n (*dərindən köks ötürərək barmağını boğazına aparır*). Məni lap bura yığıb!
Q o n ş u q a d ı n (*heyrətlə*). A-a-a...
Q a d ı n (*dəftəri göstərir*). Bu gün də bir yağlı "iki" aldı!

Kiçik pauza.

Q o n ş u q a d ı n (*başa düşərək*). Eh!.. Mən də deyirəm, görəsən Həsənzadə kimdi belə? (*Başını bulayır.*) Nə deyim, vallah... Bizim kişi bu gecə növbətçidi, yemək qoyurdum ona, gördüm ki, bizdə

yumurta qurtarıb. Səndə yoxdu? Sabah bazara gedəcəyəm, qaytararam.

Q a d ı n. Soyuducuya bax. Olsun gərək.

Qonşu qadın mətbəxə keçir.

(*Yeni dəftər götürür.*) Bu kimdi? Aha, bu da bizim Məmmədəli dostumuz! Səhərdən haradasan? Gəl, bir az ürəyimiz açılsın də!.. (*Dəftəri oxumağa başlayır.*)

Q o n ş u q a d ı n (*mətbəxdən*). Xörəkləri bişirirsən, hamısını yeyə bilmirsən, yığırsan bir-bir soyuducuya...

Q a d ı n (*gözlərini dəftərdən ayırmayaraq*). Qonağım gələcək!

Q o n ş u q a d ı n (*mətbəxdən*). Qonağın?

Q a d ı n. Hə!

Q o n ş u q a d ı n. Nə vaxt?

Q a d ı n. Mən nə bilim? (*Dəftəri daha da diqqətlə oxuyur.*) Bax, bu başqa məsələ!..

Q o n ş u q a d ı n (*mətbəxdən*). Kimlə danışırsan?

Q a d ı n. Məmmədəliylə!

Q o n ş u q a d ı n (*əlində iki yumurta, otağa girərək dəftərlərə işarə edir*). O da bunlardandı?

Q a d ı n (*gülür*). Əlbəttə! Bəs, kimlərdən olacaqdı?

Q o n ş u q a d ı n. Qonaq deyirdin, o da?

Q a d ı n. Yox, o, bunlardan deyil.

Q o n ş u q a d ı n. Bəs, haradandı?

Q a d ı n (*əli ilə pəncərəni göstərir*). Ulduzlar aləmindən!..

Q o n ş u q a d ı n (*başını bulayır*). Eh!..

Qapının ağzından öskürək səsi gəlir, sonra əyninə polis forması geymiş Qonşu kişi qapıdan boylanır.

Q o n ş u k i ş i (*Qadına*). Salam, məlimə! (*Qonşu qadına*) Evə qayıtmaq fikrin yoxdur? Növbəyə getməliyəm axı!..

Q a d ı n. Salam! Salam! Keçin içəri.

Q o n ş u k i ş i (*otağa daxil olur*). Necəsiz, məlimə?

Q a d ı n. Mən əlayam! Siz necəsiz?

Q o n ş u k i ş i. Mən əla deyiləm!

Q a d ı n. Niyə?

Q o n ş u q a d ı n. Ona görə ki, arvadı mənəm!

Q a d ı n (*gülür*). Yox... (*Qonşu kişiyə*) Deyin görək, siz niyə əla deyilsiz?

Q o n ş u k i ş i. Düz otuz dörd ildir polis nəfəriyəm! İndiyə qədər cəmi iki cibgir, üç nəfər də xuliqan tutmuşam, vəssalam!

Q a d ı n. Bəs, nə olmalıydı?

Q o n ş u k i ş i. Heç olmasa, bir nəfər qatil tutaydım!

Q a d ı n. Qatil? (*Həyəcanla.*) Ay aman!.. Arzuya bax e!..

Q o n ş u q a d ı n. Mağıl, bir qatil tutsaydı, heç olmasa, pul mükafatı verərdilər!

Q o n ş u k i ş i (*gülərək başını bulayır*). Məndə o bəxt hanı?!

Q a d ı n. Siz heç bilirsiz, nə arzulayırsız?

Q o n ş u q a d ı n. A-a-a!.. Nöş bilmirik? İstəyirəm ki, mənim ərim də bir qatil tutsun də!..

Q a d ı n. Axı qatil arzulamaq olmaz!

Q o n ş u q a d ı n. Nöş? Başqaları qatil tuta bilər, mənimki yox?

Q a d ı n. Axı qatil arzulamaq, o deməkdir ki... gərək kimsə kimi isə öldürsün ki, qatil olsun, sonra da siz o qatili tutasız!

Pauza.

Q o n ş u q a d ı n (*bir az pərt*). Məlimə, sən həmişə, ona necə deyirlər, mürəkkəbləşdirirsən hər şeyi... Ona görə də... (*Sözünü yarımçıq kəsir.*)

Q a d ı n. Nə? Ona görə də, nə?

Q o n ş u q a d ı n. Heç...

Q a d ı n. Yox, de! Demirsən? (*Gülür.*) Onsuz da bilirəm nə demək istəyirdin. Demək istəyirdin ki, ona görə də işlərin düz gətirmir, qırx bir yaşın var, amma evdə qarımısan, tək qalmısan... Hə?

Q o n ş u q a d ı n (*özünü itirmiş*). Mən... mən elə demək istəmirdim...

Q a d ı n. Niyə? Lap elə demək istəyirdin, özün də düz deyirdin! (*Gülür.*)

Q o n ş u k i ş i (*arvadına*). Mən getdim.

Q o n ş u q a d ı n. A-a-a!.. Dayan da, bu saat yemək qoyacağam, özünlə aparalarsan.

Q o n ş u k i ş i. Yox, istəmirəm... Sağ ol, məlimə! (*Otaqdan çıxır.*)

Q o n ş u q a d ı n (*Qadına*). Yenə acıq elədi. (*Ərinin ardınca gedərək*) Necə istəmirəm? Səhərəcən ac qalacaqsan orda? (*Otaqdan çıxır.*)

Pauza.

Q a d ı n (*dəftərə baxır*). Belə-belə işlər, Məmmədəli!

Pauza.

(*Başını dəftərdən qaldırır.*) Arzuya bax, e!.. Qatil tutmaq!.. (*Yenə dəftərə baxır.*) Vallah, Məmmədəli, sən kimyaçı olacaqsan! Özü də, yaxşısından! (*Başını dəftərdən qaldırır.*) Ancaq, bilirsən, Məmmədəli, hamı ailə qurmaz ki... Bu boyda dünyadı... Gərək tək qalan da olsun də... (*Başını yuxarı qaldırıb tavana baxır.*) Bilmirəm, Məmmədəli, siz də indi özünüzə ulduz seçirsiz, ya yox, amma bizim vaxtımızda hərəmiz özümüzə bir ulduz seçirdik... Sənin boyda olanda, Məmmədəli, mən də ulduzlar aləmində dolaşırdım... Mənim də o ulduzlar aləmində öz ulduzum var idi... Özüm tapıb seçmişdim onu... O qədər ulduzun arasından seçmişdim... Gecələr göyə baxan kimi, onu tapırdım... Yaxşı söhbətlərimiz olurdu onunla... Mənə yaxşı sözlər deyirdi... Göydə nə qədər ulduz var, axı onlar da bir-birinin eyni deyil!.. Bilirsən, ey mənim ağıllı şagirdim, ey gələcəyin böyük kimyaçısı, mənim o ulduzum da bir küncdə tək-tənhaydı, amma onda mən buna fikir vermirdim... Özü də mənə elə yaxşı sözlər deyirdi ki...

Pauza.

Qoy bir baxım görüm, durur o ulduz? Qoy görüm tapa biləcəyəm onu? (*Qalxıb pəncərəyə yaxınlaşır və pərdəni kənara çəkib şüşədən göyə baxır.*) Vay... Nə yaman bulud bürüyüb göyün üzünü?.. (*Yerinə qayıdıb oturur.*) Yox, bulud məsələsi deyil, Məmmədəli, əzizim... O ulduz... bilirsən... o ulduz məndən utanır, ona görə də məndən gizlənir... O vaxt mənə dediyi o gözəl sözlər var idi e, onlara görə məndən utanır... Amma nahaq yerə! Həyatdır də!.. Sən ona de, utanmasın məndən... Yox, yaxşısı budur, sənin beşini yazım! (*Qələmi götürüb dəftərdə qiymət yazır.*)

İşıq sönür.

## **İKİNCİ ŞƏKİL**

Qadın, Gənc kişi. Qadının mənzili. Gecə. Qadın otaqda var-gəl edə-edə əlindəki kağıza baxır.

Q a d ı n. Deməli, sabah səhər doqquz otuzda – altıncı sinif... Altıncı... Oy, Həsənzadə, yenə səninlə görüşürük... Sən allah, adam

ol, indi otur, bir az oxu, əzbərlə, nə eləyirsən elə ki, səhər yenə "iki" almayasan... Heç olmasa, ağzını açıb iki kəlmə söz de, üzümə baxıb gözlərini döymə, ay Həsənzadə!.. (*Dayanır.*) Dayan! Bu saat sənə telepatik siqnallar göndərəcəyəm ki, oturub kimyanı oxuyasan! (*Gözlərini yumub bir müddət bədənini gərgin vəziyyətə salır, guya telepatik siqnallar göndərir, sonra dərindən köks ötürür.*) Həsənzadə, bundan sonra da səhər "iki" alsan, vallah, əlac day ona qalıb ki, əlimə oxlov alıb səni o ki var döyəm! (*Kağıza baxır.*) On iyirmidə – doqquzuncu sinif, on onda – yeddinci sinif... Gecə vaxtı yağışa bax də!.. (*Pəncərəyə yaxınlaşıb şüşədən baxır.*) Lap leysandı... Göyün hirsi tutub yer üzünə!.. Düzdür, bir az gecikib, amma hər halda, axırı ki, hirslənib də... Yaxşı... (*Var-gəl edir.*) Yatmaq lazımdır!.. Get, işığı söndür, gir yerinə... Yox, elə yox, düz demədin, belə demək lazımdır: get, işığı söndür, gir buz kimi yerinə, gözlərini yum və özünü məcbur elə ki, yatasan! Heç nə fikirləşmə! Bildin? Təkcə, onu de görüm, molekul anlayışını birinci kimlər irəli sürüb? Amedeo Avonadro və kim? Amper! Düzdür!.. Amperin adı nədir? Andre Mari! Bəli, Andre Mari Amper!.. Andre Mari və Amedeo, ey gözəl insanlar, sizin heç ağlınıza gələrdi ki, az qala 200 il keçəcək, Azərbaycan adlı bir məmləkətdə... Bakı adlı bir şəhərdə... şıdırğı yağış yağan bir payız gecəsi... bu mənzildə... baxmaqdan gözləri mazol olmuş bu dörd divar arasında... şagirdlərin sevmədiyi və... və qorxduğu çox ciddi kimya müəlliməsi, yəni ki, mən, sizin, ey Andre Mari və hörmətli Amedeo bəy, sizin adınızı əzbərləyəcək? Ay ağlınıza gəldi ha!.. Bu divarlara isə, nifrət edirəm! (*Qışqırır.*) Eşidirsiz? Nifrət edirəm!.. Nifrət edirəm!..

Pauza.

Qışqırma... Nə olsun, nifrət edirsən? Sökəcəksən bu divarları? Yox... Get, get, yat! Gecənin yarısıdır! İşığı söndür, gir yerinə! Qaranlıqdan da qorxma! Bəbə deyilsən! Ürəyin də, darıxmasın! Yaxşı, işığı söndürmə, elə işıqda yat... Hə, nə oldu, gedirsən yatmağa? (*Dərindən köks ötürür.*) Yaxşı... Bir azdan gedərsən... Onda, de görüm, valentlik haqqında təlimin əsasını kim qoyub? İngilis alimi Franklend! Əhsən! Neçənci ildə? 1852-ci ildə! (*Ayaq saxlayır.*) 52, yoxsa 53? Deyəsən axı skleroz başlayıb!.. Tez deyil?.. Hə?.. (*Rəflərə yaxınlaşaraq kitab götürüb açır.*) Bu saat... Valentlik... Aha!.. Yox, hələ skleroz yoxdur! 1852-ci ildə! Skleroz yoxdur, amma hələ yoxdur də, hələ... Bir azdan gələcək. (*Yamsılayır.*) Tık-tık!.. Ey, kimya müəlliməsi, aç qapını, tez

elə, mənəm, sklerozam, gəlmişəm!.. (*Kitabı yerinə qoyub var-gəl edir.*) Bəs atom, molekul və ekvivalent nə vaxt tamam dəqiqləşdi? 1860-cı ildə! Düzdür! Harada? Karlsrued Beynəlxalq Kimya Konqresində! İndi isə, de görüm, spektral analiz nədir və onun... (*Qəflətən səsini kəsərək iti addımlarla pəncərəyə tərəf gedib qışqırır.*) Bəsdir! Nə qədər yağmaq olar! Bu qədər yağış olar?! Adamın ürəyi partlayır! Bəsdir! (*Pauza.*) Yaxşı... Sakit ol... İstəyirsən, kaset qoyum, çalsın, sən də oyna özünçün doyunca! Hə, yaxşı, istəmirsən, istəmə... Onda zəhmət çək, gözəl kimyanı təkrar elə... De görüm, elementlərin dövri sistemi necə yarandı? (*Qapının zəngi çalınır.*) Mənim zəngimdir? (*Zəng bir də çalınır.*) Qapını bağlamışam? (*Qapıya tərəf qışqırır.*) Gəlirəm, ey gözəl qonşu! Ev kirayəsi, işıq pulu, su pulu yığanlardan başqa, mənim yeganə zəng vuranım sənsən, ey gözəl qonşu! Gəldim! (*Qapıya yaxınlaşır.*) Hə, bir də qaz pulu yığandan başqa! (*Qapını açıb təəccüblə baxır. Pauza.*) Siz kimi istəyirsiz?

Qapı kandarından səs. Salam...

Qadın. Salam... Sizə kim lazımdır?

Qapı kandarından səs. Məni tanımadız?

Qadın qapıya tərəf zəndlə baxaraq geri addımlayır.
Gənc kişi otağa daxil olur.

Gənc kişi. Tanımadız, hə, müəllimə?

Kiçik pauza.

Qadın (*diqqətlə gözlənilməz qonağa baxaraq*). Kitab... Kitab? Sizsiz?.. Sənsən?

Gənc kişi. Hə... Mənəm...

Qadın. Sən... sən... (*Qonağın suyu süzülən saçlarına, islanmış kostyumuna baxaraq heyrətlə*) Sən haradan gəlmisən?.. Nə münasibətlə?..

Gənc kişi. Haçansa gəlməliydim də, bura... Axır ki, gəldim...

Qadın. Siz... sən lap suyun içindəsən ki!..

Gənc kişi. Yağış yağır...

Qadın. Dayan, görüm... Axşam mən məktəbdən qayıdanda, bizim blokla üzbəüz səkidə dayanan sən idin?

Gənc kişi. Hə...

Qadın. Siz... sən o vaxtdan elə orda dayanmısan?

Pauza.

Yağışın altında?

Pauza.

Dünən də, deyəsən orda dayanmışdın... Sən idin? Hə?

Pauza.

Niyə?

G ə n c  k i ş i. Ürək eləmirdim gəlim...

Q a d ı n (*təəccüblə*). Ürək eləmirdin? (*Əli ilə gicgahını tutur.*) Vallah, heç nə başa düşmürəm... Keç içəri... Çıxar pencəyi...

G ə n c  k i ş i. Eybi yoxdur...

Q a d ı n. Necə eybi yoxdur? Çıxar. Çıxar pencəyi. (*Qapının yanındakı asılqandan paltarasanı götürüb ona uzadır.*) Ala. As pencəyini.

Gənc kişi pencəyini çıxarıb paltarasana keçirir və əlində tutur.

As də... As burdan.

Gənc kişi paltarasanı asılqandan asır.

Keç, otur...

Gənc kişi mizin arxasındakı stulda əyləşir.

Üşüyürsən?

G ə n c  k i ş i. Yox...

Pauza.

Tanıdız məni... Elə bilirdim, tanımayacaqsız...

Q a d ı n. Tanıdım... Əlbəttə, tanıdım...

G ə n c  k i ş i. Bu qədər il keçib...

Q a d ı n. Deyim də sənə... Düz on doqquz ildi, mən müəllimlik edirəm. Mən institutu qurtaranda, birinci dəfə sizin sinfə girəndə iyirmi iki yaşım var idi... Sən də həmin 10-cu sinfin şagirdi idin, deməli, on yeddi yaşın var idi...

G ə n c  k i ş i. Yox, on səkkiz. Mən məktəbə bir il gec getmişəm.

Q a d ı n. Yaxşı, on səkkiz olsun... Hamı sənə “Kitab” deyirdi, çoxlu kitab oxuyurdun, ona görə... Həmin sinifdə bir sən idin çoxlu kitab oxuyan, bir də Cəfər. Famili nə idi? Əhmədov! Əhmədov Cəfər. İndi jurnalistdir, özünə də təxəllüs götürüb: Cəfər Elsevər! Amma, yadımdadı, oxumaqda heç Cəfər də sənə çatmazdı! Sənin mütalİən

bütün məktəbdə məşhur idi! (*Onu başdan-ayağa diqqətlə süzür.*) Yaxşı... Danış görüm!..

Gənc kişi. Nə danışım?

Qadın. Nə bilim, nə danışasan. Niyə gəlmisən? Bir sözün var ki, gəlmisən də!..

Pauza.

On səkkiz ildən sonra, birdən-birə, suyu süzülə-süzülə peyda olursan, özün də deyirsən ki, nə danışım?

Kiçik pauza.

Yenə elə kitab oxuyursan?

Gənc kişi. İmkan olanda...

Qadın. İmkan az olur?

Gənc kişi (*çiyinlərini çəkir*). Belə də...

Qadın (*hirslənir*). A kişi, sən day şagird deyilsən ki, çiyinlərini çəkirsən?.. Dayan, görüm! (*Gözlərini yumub fikirləşir.*) Sənin bir anan var idi... Belə... gözəl bir qadın idi... Saçlarına da xına qoyurdu... Düz deyirəm?

Gənc kişi. Hə...

Qadın. İndi, yəqin, bir az qocalıb, hə?

Gənc kişi. Vəfat edib...

Qadın. Bağışla... Allah rəhmət eləsin... Sən deyəsən tək övlad idin...

Gənc kişi. Hə, tək idim...

Qadın. Gərək ki... sənin atan da hələ o vaxt vəfat etmişdi... Ananla ikiniz idiz, hə?

Gənc kişi. Hə...

Qadın. Bəs, indi ailən, uşaqların?

Gənc kişi (*başını bulayır*). Yoxdur...

Qadın. İndiyəcən evlənməmisən?

Gənc kişi. Yox...

Pauza.

Qadın. Mənə bax, mən kəlbətinlə bir-bir səndən söz dartıb çıxarmalıyam? Gecənin yarısı birdən-birə peyda olursan, özün də gah başını bulayırsan, gah da çiyinlərini çəkirsən! Nə sözün var? Nəyə gəlmisən bura? Bu yağışda, bu vaxt adam adamın evinə gələr? Bəlkə yatmışdım mən?

G ə n c  k i ş i. Siz həmişə gec yatırsız... İndi də görürdüm ki, yatmamısız...

Q a d ı n (*heyrət içində*). Sən gecələr gəlib küçədən mənim işığıma baxırsan ki, nə vaxt yatıram?

Pauza.

(*Birdən xatırlayaraq.*) Dayan... Mən səni bir dəfə də görmüşdüm... Hə? Bu saat... Doxsanıncı illərin lap əvvəlləri idi... Metrodaydı, ya bazardaydı, haradaydı? Özü də, səni görəndə nəyəsə təəccüb elədim?.. Nəyidi?.. Yaxşı yadıma gətirə bilmirəm...

G ə n c  k i ş i. Doxsan ikinci ildə... Metroda. Siz metrodan çıxırdız, rastlaşdıq, salamlaşdıq. Mən formadaydım...

Q a d ı n. Nə formada?

G ə n c  k i ş i. Hə, əsgər formasındaydım. Hospitaldan çıxmışdım...

Q a d ı n. Hospitaldan?

G ə n c  k i ş i. Hə. Şuşadan məni Gəncə xəstəxanasına apardılar, ordan da Bakıya, hərbi hospitala gətirdilər.

Q a d ı n. Şuşada döyüşürdün?

G ə n c  k i ş i. Hə.

Q a d ı n. Orda yaralandın?

G ə n c  k i ş i. Hə...

Q a d ı n. Şuşa veriləndə sən ordaydın?

G ə n c  k i ş i. Yox. Hospitaldan sonra məni Gədəbəyə göndərdilər.

Pauza.

Q a d ı n. Bayaq sən nəsə dedin axı... Nə dedin?

Gənc k i ş i (*çiyinlərini çəkir*). Bilmirəm...

Q a d ı n. Yenə çiyinlərini çəkir!.. Nə dedin bayaq? Hə, sən dedin ki, haçansa gəlməliydim bura... Belə dedin?

G ə n c  k i ş i. Hə...

Q a d ı n. Bu nə demək idi, başa düşmədim?..

Pauza.

Mənə bax, keçmiş şagird, sən bura susmağa gəlmisən?

Pauza.

Yoxsa pencəyini qurutmağa gəlmisən?

Pauza.

Gənc kişi (*həyəcanla*). Bu on səkkiz ildə mən... mən hər gün sizinlə danışmışam...

Qadın. Nə?

Pauza.

(*Heyrətlə.*) Mənimlə danışmısan?

Gənc kişi. Hə...

Qadın. Harda?

Gənc kişi. Öz təsəvvürümdə...

Pauza.

Qadın. Sən öz təsəvvüründə hər gün mənimlə danışmısan?

Gənc kişi. Hə...

Qadın. Niyə?

Gənc kişi. Ona görə ki...

Qadın. Hə, ona görə ki, nə?

Gənc kişi (*çox həyəcanlı*). Ona görə ki... Ona görə ki, mən sizi sevirəm...

Pauza.

Qadın. Mənə bax, sən sərxoş-zad deyilsən?

Gənc kişi. Yox...

Qadın. Bir dəqiqə!.. Bir dəqiqə!.. (*Ayağa qalxıb iki əli ilə gicgahlarını tutub var-gəl edir.*) Mən onuncu sinifdə sənə dərs demişəm... Sonra sən məktəbi bitirmisən... Mən bir də səni görməmişəm... On il bundan qabaq, bir dəfə görmüşəm... Deyirsən ki, metroda rastlaşmışıq... Amma bütün bu müddət ərzində, yəni on səkkiz il sən hər gün özün özünlə danışmısan, daha doğrusu, öz təsəvvüründə mənimlə danışmısan... Çünki sən məni... (*Gülür.*) Çünki... çünki, demə, sən məni sevirmişsən...

Pauza.

Sən xəstə deyilsən?

Gənc kişi (*ayağa qalxaraq pərt*). Yox, mən xəstə deyiləm. Ona görə də mən bura gəlmək istəmirdim. Mən bilirdim ki, bu söhbət bir az dəli sayıqlamasına oxşaya bilər. Ancaq... (*Sözünü yarımçıq kəsir.*)

Qadın. Nə ancaq?

G ə n c  k i ş i. Ancaq baxır kiminçün!

Pauza.

Sağ olun. (*Qapıya tərəf addımlayır.*)

Q a d ı n (*arxadan diqqətlə ona baxaraq*). Saçları nə vaxt ağartdın belə?

G ə n c  k i ş i (*bir an ayaq saxlayaraq Qadına baxır*). Heç xəbərim olmadı... (*Gülümsəyir.*) Bir də baxdım ki, ağarıb...

Q a d ı n. Elə olur də... Adamın xəbəri olmur. Mən də birdən-birə gördüm ki, saçlarım ağarıb... (*Əlini saçlarına aparır.*) Rəngdi...

G ə n c  k i ş i. Sağ olun...

Q a d ı n. Pencək suyun içindədi, onu necə geyəcəksən?

G ə n c  k i ş i. Suyun içindədi, içində deyil, bunun bir mənası yoxdur!..

Q a d ı n. Yadıma gəlir... Sinifdə danışanda, həmişə böyük yazıçılardan sitatlar gətirirdin. İndi yenə sitatla danışırsan?

G ə n c  k i ş i (*gülümsəyir*). Hərdən olur... Bağışlayın məni... Doğrudan da, gecənin yarısı ağılsız bir iş görmüşəm... Sağ olun...

Q a d ı n. Sağ ol...

Gənc kişi əlini uzadıb qapını açmaq istəyir.

Sən gərək məni başa düşəsən!

G ə n c  k i ş i. Mən sizi başa düşürəm. Ancaq mən də dəlixanadan qaçıb gəlməmişəm. Belə olsaydı... (*Sözünü yarımçıq kəsir.*)

Q a d ı n. Bu nə adətdi e, səndə? Sözünü niyə yarımçıq kəsirsən? Belə olsaydı, nə?

G ə n c  k i ş i. Belə olsaydı... Onda hər şey çox primitiv olardı...

Q a d ı n. Primitiv olardı? (*Gülümsəyir.*) Çox dərindən gedirsən!.. Sən həmişə beləsən, yoxsa, indi bir sözdü, deyirsən?

G ə n c  k i ş i. Bilmirəm... Ancaq istəyirəm, siz biləsiz ki, mən nə sərxoşam, nə də xəstə!..

Q a d ı n. Aha!.. Sözlərim xətrinə dəyib!.. Gözlənilməz gecə qonağımız pərt olub!.. (*Bir az çılğın.*) Bəs, səncə, mən nə fikirləşməliyəm? Gecə, yaraşıqlı bir oğlan... Saçları vaxtsız ağarmış bir oğlan... Nuh Nəbinin dövründə mənim şagirdim olmuş bir oğlan... Birdən-birə peyda olur ki, on səkkiz ildir mən özüm özümlə... Mən öz təsəvvürümdə hər gün sizinlə danışmışam... və... və mən sizi sevirəm!.. (*Gəzişir.*) Aləmdi, vallah!..

G ə n c  k i ş i. Mən sizi başa düşürəm. Buna görə də mən gəlmək istəmirdim... Ancaq daha mümkün deyildi... Mən daha özümlə bacara bilmirdim. İnsan nə qədər özü özünə təzyiq edə bilər?! İnsan nə qədər öz hisslərini cilovlayar?!

Q a d ı n. Yeniyetmə vaxtı, adam çox aşiq ola bilər. Mən də Rac Kapura aşiq olmuşdum, nə olsun?! Keçib-gedir də...

G ə n c  k i ş i. Görünür, həmişə keçib-getmir... Sağ olun...

Q a d ı n. Vallah, heç bilmirəm ki, nə deyim?..

G ə n c  k i ş i. Başa düşürəm... (*Seziləcək bir sarkazmla*) Mənim gecəyarısı bura gəlməyim... Bu yağış... Mənim bu sözlərim absurd pyeslərə oxşayır...

Q a d ı n. Absurd pyeslərə... Yadıma düşür, o zaman da belə intellektual danışırdın. Bəzən sinifdəkilər səni başa düşmürdü...

G ə n c  k i ş i. Adamı başa düşmək çətin işdi... (*Qapını açır.*) Sağ olun...

Q a d ı n. Hara gedirsən?

G ə n c  k i ş i. Bunun da mənası yoxdur...

Q a d ı n. Dayan görüm. (*Var-gəl edərək*, *elə bil*, *öz-özü ilə danışır.*) Vallah, elə bil, bu saat kimsə mənim qulağıma pıçıldayır ki, sənin heç getməyə də bir yerin yoxdur... (*Gənc kişiyə.*) Hə?

G ə n c  k i ş i. Dünya genişdir...

Pauza.

Q a d ı n. Bilirsən, nə var? Pencəyi qoy yerinə, gəl otur burada.

G ə n c  k i ş i. Mən gedirəm...

Q a d ı n (*əli ilə mizin arxasındakı stulu göstərir*). Gəl otur! Özün də danış! Nə başını bula, nə də çiyinlərini çək! Danış görüm, sən... sən... sən kimsən?

Pauza. Sonra Gənc kişi pencəyi yenə asılqandan asır.

Dedim ki, gəl otur!

Gənc kişi gəlib bayaqkı yerində oturur.

Hə, başla, görüm!

G ə n c  k i ş i. Nə başlayım?

Q a d ı n. Axı sən kimsən?

G ə n c  k i ş i (*gülümsəyir*). Bəyəm, dünyada elə adam var, axıracan özünü tanısın ki, o kimdir?

Q a d ı n. Yox! Yox! Bu olmadı! Bilirsən, şərti belə kəsirik səninlə! İntellektual sözləri qoyursan bir kənara! Mənimlə çox sadə danışırsan, bildin?! İndi, de görüm, sən kimsən?

Pauza.

Bayaq mən düz deyirdim?

G ə n c k i ş i. Nəyi?

Q a d ı n. Sənin getməyə bir yerin yoxdur, hə! Düz deyirdim?

G ə n c k i ş i (*başı ilə təsdiq edərək güclə*). Düz deyirdiz...

Q a d ı n (*əsəbi*). Niyə axı? Niyə? Nə olub? Sənin başına nə qəzavü-qədər gəlib? Bu dünya niyə belə qəddar olub səninlə?

Pauza.

Yaxşı... Sən bizim məktəbi bitirdin. Belədir?

G ə n c k i ş i. Hə.

Q a d ı n. Sonra?

G ə n c k i ş i. Sonra universitetə girdim... Filologiya fakültəsinə...

Q a d ı n. Cəfər Elsevərlə bir yerdə? O da universitetin filologiyasını bitirdi. İndi, buyur, Bakının beş məşhur jurnalisti varsa, biri odur!

G ə n c k i ş i. Hərənin bir taleyi var...

Q a d ı n. Sən taleyə inanırsan?

Pauza.

Yaxşı... İnansan da, inanmasan da, tale, taledir! Deyəsən mən də səfeh fəlsəfəçiliyə başladım!.. Deməli, universiteti bitirdin...

Gənc ki ş i. Yox, bitirmədim...

Q a d ı n. Niyə?

G ə n c k i ş i. Çünki... Həbs olundum...

Q a d ı n (*heyrətlə*). Həbs olundun? Nəyə görə?

G ə n c k i ş i. Bu barədə danışmaq istəmirəm...

Q a d ı n. Yox, necə yəni danışmaq istəmirəm? Birdən-birə gəlib çıxmısan bura, indi zəhmət çək, hər şeyi danış! Mən bilməliyəm! Əgər sən mənim yanıma gəlmisənsə, onda, mən hər şeyi bilməliyəm! Bilməliyəm ki, niyə... nə üçün... niyə bu həyatda səninki belə gətirməyib? Axı diribaş idin, hamıdan qat-qat artıq mütaliən var idi, savadlıydın, sənin gözəl perspektivlərin var idi... Amma gətirməyib hə səninki, düz başa düşürəm mən?

G ə n c k i ş i. Yəqin...

Q a d ı n. De görüm, nə üçün səni həbs etdilər?

G ə n c  k i ş i. Mənimlə bir qız oxuyurdu...

Q a d ı n. Hə? Çəkinmə də, danış... Nə oldu? Səninlə bir qız oxuyurdu...

G ə n c  k i ş i. Kimsəsiz, təmiz, çalışqan bir qız idi.

Q a d ı n. Gözəl idi?

G ə n c  k i ş i. Hə...

Q a d ı n. Sonra?

G ə n c  k i ş i. Bizim professor var idi, həm də kafedranın müdiri idi... Oğlu var idi onun... Həmin qızı təqib edirdi... Maşınını sürüb gəlib dayanırdı universitetin qabağında... Qıza göz verirdi, işıq vermirdi. Qız ondan qorxurdu... Məndən kömək istədi... Mən də...

Pauza.

Q a d ı n. Mənə bax! Birdən sən qatil olarsan ha?!

G ə n c  k i ş i (*gülümsəyir*). Yox, qatil deyiləm... Dalaşdıq onunla...

Q a d ı n. Bir sözlə, onu döydün! (*Gizli bir rişxəndlə.*) Belə çıxır ki, sən rıtsarsan! Hə?

G ə n c  k i ş i (*incimiş*). Siz dediz, danış, mən də danışdım...

Q a d ı n. Sən həmişə belə tez inciyirsən? Yaxşı... O harınlamış oğlanı əzişdirdin, lap yaxşı da elədin! Elə buna görə həbs etdilər səni?

G ə n c  k i ş i. Bir az əzilmişdi... Atası məni universitetdən çıxartdırdı, prokurorluğa şikayət elədi, sonra da məni tutub dörd il iş verdilər...

Q a d ı n. Bəs, qız demədi ki, iş nə yerdədi?

G ə n c  k i ş i. Yox...

Q a d ı n. Niyə?

G ə n c  k i ş i. Qız üzümə durdu ki, təqsir məndə olub...

Pauza.

Q a d ı n. Yazıq qız... Qorxudublar da onu...

G ə n c  k i ş i. Yəqin...

Q a d ı n. Sonra nə oldu?

G ə n c  k i ş i. Həbsxanadan çıxandan sonra, burda qala bilmədim. Getdim Sibirə, Tomsk vilayətinə... Kolpaşovo rayonunda balıq kombinatında işə girdim...

Q a d ı n. Balıq kombinatında? Nə işinə?

G ə n c  k i ş i. Fəhlə... Tomsk universitetində təzədən imtahan verdim, qəbul olundum, qiyabi... Ancaq sonra burda Qarabağ hadisələri başladı... Orda qala bilmədim, qayıtdım... Birbaşa cəbhəyə getdim... Sonra hospital... Sonra yenə cəbhə... Əsgərlik... Keçən ay hərbi xidmətdən azad olundum... Belə də... Bu da mənim həyatım!

Pauza.

Q a d ı n. Anan nə vaxt vəfat etdi?

G ə n c  k i ş i. Mən həbsxanada olanda...

Pauza.

Q a d ı n. Balıq kombinatında fəhlə... Orda, o Kolpaşovo deyirsənnədi, orda şaxta neçə dərəcə olurdu?

G ə n c  k i ş i. Əlli beş-altmış dərəcə...

Q a d ı n. Hə, dostum... Həyatın elə də uğurlu olmayıb...

G ə n c  k i ş i. Ancaq bundan da pis ola bilərdi...

Q a d ı n. Bundan da pis? Başa düşmədim... Nə demək istəyirsən?

G ə n c  k i ş i. Demək istəyirəm ki... (*Get-gedə*, *elə bil*, *qızışır.*) Siz olmasaydınız, hər şey bitəcəkdir! Bəlkə də bu, pis kitablardakı kimi səslənir, ancaq, qoy olsun, bu həqiqətdi! Ola bilsin ki, bu maniakal bir bağlılıqdır mənim başımda, bilmirəm! Ancaq olanı budur! Siz olmasaydınız, mən sınacaqdım! Məhv olacaqdım! Ancaq mən sizi fikirləşirdim, hər dəfə sizi gözlərimin qabağına gətirirdim, sizdən güc alırdım!..

Q a d ı n (*əsəbi*). Bəsdir! Mənim belə sözlərdən xoşum gəlmir!

G ə n c  k i ş i. Mən həqiqəti deyirəm.

Q a d ı n. Lazım deyil! (*Pəncərəyə yaxınlaşıb şüşədən eşiyə baxır.*) Gör necə yağır!.. (*Gənc kişiyə tərəf çönür.*) Bəs, sənin qohumların, yaxınların?

G ə n c  k i ş i. Mən heç kimi görmək istəmirəm!

Q a d ı n. Belə çıxır ki... indi... gecəni burda qalmaq fikrindəsən?..

G ə n c  k i ş i (*ayağa qalxır*). Yox, mən gedirəm.

Q a d ı n. Hara gedirsən?

Pauza.

Bilmirəm, vallah, nə deyim?.. (*Yenə pəncərə şüşəsindən eşiyə baxır.*) Bu yağışın altına atmayacağam ki, səni... (*Gəlib dolabdan yastıq*, *adyal çıxarır.*) Ala. Get, mətbəxdə özünə yer düzəlt, yat... Səhər özünə bir çarə qılarsan! Eşidirsən? İndi, get mətbəxə. Qapını da ört!

Gənc kişi tərəddüd içində yastığı, adyalı qadından alıb dayanır.

Get, get mətbəxə.

Pauza.

Get də, deyirəm!.. Mən yatmaq istəyirəm!..

Gənc kişi mətbəxə keçir.
Qadın ayaq üstə bir müddət onun ardınca baxır.

İşıq sönür.

## ÜÇÜNCÜ ŞƏKİL

Qadın, Gənc kişi. Qadının mənzili. Gecə. Həmin otaqdır, ancaq səhnənin sağ küncündə mətbəxin də bir hissəsi görünür. Səhnə qaranlıqdır. Qadın otaqdakı divan-çarpayıda uzanıb. Gənc kişi mətbəxdə, kətilin üstündə oturub siqaret çəkir. Qadın, əynində gecə köynəyi, qalxıb yerində oturur və bir müddət yağışın səsinə qulaq asır. Sonra yenə uzanır. Ümumi sükut içində yalnız şıdırğı yağışın səsi eşidilir. Gənc kişi siqareti söndürür. Qadın yenə qalxıb yerində oturur, sonra durub pəncərəyə tərəf gəlir və şüşədən eşiyə baxır. Gənc kişi qalxıb mətbəxlə otağın qapısı ağzında dayanır. Sonra qapını açıb otağa girir və dayanıb Qadına tərəf baxır.
Pauza.
Gənc kişi Qadına tərəf yaxınlaşır və onun bir addımlığında dayanır. Qadın başını pəncərə şüşəsindən çəkir və əlbəttə, bilir ki, Gənc kişi arxada dayanıb.
Pauza.
Gənc kişi əlini Qadının çiyninə qoyur.

Q a d ı n (*həyəcan və təlaşla*). Yox!.. Yox!..

Gənc kişi o biri əlini də
Qadının çiyninə qoyur və qadını özünə tərəf çəkir.

(*Ona sarı çevrilərək.*) Yox!.. Yox!..

G ə n c k i ş i. Sənsiz mənim üçün həyat yoxdur! Bu əclaf dünyada səndən başqa mənim heç kimim yoxdur! (*Onu qucaqlamaq istəyir.*)

Q a d ı n (*iki əlilə Gənc kişini özündən uzaqlaşdırmaq istəyir*). Yox!.. Yox!.. (*Birdən-birə Gənc kişini qucaqlayır.*) Bu qədər illər boyu sən haradaydın?!

İşıq sönür.

## DÖRDÜNCÜ ŞƏKİL

Qadın, Gənc kişi. Qadının mənzili. Axşam. Gənc kişi mizin arxasında əyləşib. Qadın mətbəxdən çay gətirir.

Qadın (*çayı Gənc kişinin qarşısına qoyaraq*). Sən heç bilirsən nə eləmisən?

Gənc kişi (*ehtiyatla*). Nə eləmişəm?

Qadın. Sən həyatı mənə sevdirmisən!

Gənc kişi (*gülümsəyir*). Dostoyevski deyirdi ki, həyatın özünü daha artıq sevmək lazımdır, nəinki həyatın mənasını... Mən...

Qadın (*onun sözünü kəsərək*). Bilmirəm, sənin Dostoyevskin nə deyirdi, nə demirdi, amma mən səhər yuxudan dururam, sevinirəm ki, yaşayıram! Başa düşürsən? (*Onunla üzbəüz mizin arxasında əyləşir.*) Yox, bunu heç kim başa düşə bilməz!.. Sən də!

Gənc kişi. Mən də?

Qadın. Hə, sən də! Bax, mən indi oturub sənə baxıram, hə? Nə qədər də istəsəm, baxaram! Baxaram, yoxsa baxmaram?

Gənc kişi (*gülür*). Baxarsan...

Qadın. Amma bu otaqda heç vaxt belə şey olmayıb! Bu otaqda mən həmişə bilirsən hara baxmışam?

Kiçik pauza.

Bax, bura! (*Barmağını uzadıb divarı göstərir.*) Divara! Divara baxmışam! Sən bunu başa düşə bilərsən? Ömrümdə məndə belə şey olmamışdı! Ömrümdə heç vaxt səhər yuxudan duranda, ürəyimdən keçməmişdi ki, nə yaxşı ki, mən varam! Nə yaxşı ki, dünya var! Heç vaxt! Uzun sözün qısası, bilirsən, nə var? (*Sözləri heca-heca tələffüz edir.*) Mən ya-şa-yı-ram!..

Kiçik pauza.

Bir az gurultulu səslənir, hə? (*Gülür.*)

Gənc kişi. Yox...

Qadın. Səslənsin də, neyləyim?.. Bu həqiqətdir, necə səslənir, qoy elə də səslənsin! Mən daha bayquş kimi tək oturub dəftərləri yoxlaya-yoxlaya şagirdlərlə danışmıram! Sənin xəbərin var?

Gənc kişi. Nədən?

Qadın (*ayağa qalxıb gəzişərək*). Sən bilirsən Əhmədəliyev kimdir?

Gənc kişi. Əhmədəliyev? Əlbəttə, bilirəm! Vergi naziri.

Q a d ı n (*ürəkdən gülür*). Yox, canım!.. Bəs, Məmmədəli?

G ə n c  k i ş i. Ştanqçı! Dünya çempionatında gümüş medal aldı!

Q a d ı n (*daha da bərkdən gülür*). Yox!.. Yox!.. Bəs, Həsənzadə?

G ə n c  k i ş i. Onu day, hamı tanıyır! Gömrükdə işləyir!

Q a d ı n. Harada?

G ə n c  k i ş i. Gömrükdə.

Q a d ı n (*uğunur*). Həsənzadə gömrükdə işləyir? Anasının qulağından iraq!.. Yox!.. Yox!.. Bunlar, bilirsən, kimlərdir? Mənim şagirdlərimdir!

G ə n c  k i ş i (*gözləri bərəlir*). Nə?

Q a d ı n. Hə! Hə! Bilirsən, mən axşamlar, bax, burada (*ona yaxınlaşır*), sənin yerində oturub dəftərləri yoxlayırdım, özüm də bərkdən şagirdlərlə danışırdım. (*Gülür.*) Qiyabi! Mənim qonşum var, yaxşı arvaddır, əri də polisdi...

G ə n c  k i ş i. Polisdi?

Q a d ı n. Hə. O arvad gəlib görəndə ki, şagirdlərlə bərkdən danışıram, elə bilirdi, mənim başım, bir az o söz!.. (*Barmağı ilə gicgahını göstərib ora-bura tərpədir.*)

G ə n c  k i ş i. Doğru deyirsiz?

Q a d ı n. Yenə "siz"?

G ə n c  k i ş i. Bağışlayın... Bağışla!

Q a d ı n. Sən hərdən mənə "siz" deyəndə, bilmirəm niyə, amma ürəyimə toxunur...

G ə n c  k i ş i. Bağışla... O məndən asılı deyil ki... Onuncu sinifdə siz... sən bizim sinif otağına girəndə, mən həmişə özümü itirirdim... Sən həm mənim müəllimim idin, həm də... həm də mənim dünyada ən çox sevdiyim bir insan idin!.. Gecələr mən yerimə girirdim, yuxuya gedə bilmirdim, sən həmişə mənim gözlərimin qabağında olurdun... Mən, düzdü, çox kitablar oxuyurdum, ancaq bizim məhəlləmiz – mənim yaşadığım küçə – hər bir şərait yaradırdı ki, mən narkoman olum, mən cibgir olum, ancaq o saat səni fikirləşirdim, sən gəlirdin gözümün qabağına, deyirdim, yox... məni... məni haçansa sevəcəyini arzuladığım, çox arzuladığım bir insan var! Mən beynimdə elə bir tamaşa qurmuşdum ki, orada... mən hər şey edirdim ki, sən də... məni sevəsən! Gülməlidir, hə?

Q a d ı n (*gülür*). Nə bilim? Dünya sirri-xudadır!..

G ə n c  k i ş i. Bilirsən, mənim beynimdəki o aləmin içində mənim sevdiyim, bu sevgiylə qürurlandığım, forslandığım bir qız var idi, bir varlıq var idi, o – sən idin! Mən nə edirdimsə, fikirləşirdim, mənim

fikrimdə, içimdə, xəyalımda o insan – sən, nə deyəcəksən? Buna necə baxacaqsan? Birdən iyrəndin məndən? Birdən çiyrindin məndən? Birdən nifrət elədin mənə? Sonra mən məktəbi qurtardım. Universitetə girdim. Ancaq sən mənim içimdə idin! Mən səni fikirləşirdim, səni düşünürdüm! Sonra... sonra başıma min cürə qəzavüqədər gəldi, ancaq mən eləcə səni fikirləşirdim, səni düşünürdüm!.. Özümü, bilirsən, bəlkə indi birtəhər çıxır, sənə layiq... yəni bilirsən, daxilən sənə layiq aparmaq istəyirdim...

Pauza.

Q a d ı n. Bəs, sən onda hardaydın, ay axmaq?

Kiçik pauza.

G ə n c  k i ş i. Həyatın girdabında!

Kiçik pauza.

Q a d ı n (*mütəəssir*). Sən istəyirsən ki, mən ağlayım?
G ə n c  k i ş i. Yox...
Q a d ı n. Onda, bilirsən nə var? Özünü yaxşı apar!
G ə n c  k i ş i. Ancaq indi bilirsən mən nə istəyirəm?
Q a d ı n. Xeyr, bilmirəm!
G ə n c  k i ş i. Mən səni öpmək istəyirəm!
Q a d ı n. Axı sən inanmırsan ki, mən axşamlar, bax, orda, sənin yerində oturub o gözəl şagirdlərimlə danışırdım. Təkcə şagirdlərimlə yox e!.. Biri var, hərdən onun anasıyla da danışırdım! Həsənzadənin anasıyla! İnanmırsan?
G ə n c  k i ş i. Bilirsən nə var?
Q a d ı n. Nə?

Kiçik pauza.

G ə n c  k i ş i (*təsirlənmiş*). Sən çox yaxşı adamsan...

Kiçik pauza.

Q a d ı n (*onun boynunu qucaqlayır*). Mənim əzizim! Sən haradan peyda oldun? Səni kim göndərdi bura? Sən bilirsən haradan gəlib çıxmısan? Yox, sən bilmirsən! Amma mən bilirəm! (*Barmağını pəncərəyə tərəf uzadır.*) O! O göndərib səni bura! Səni mənim ulduzum göndərib!..
G ə n c  k i ş i. Sənin ulduzun?
Q a d ı n. Hə!

Gənc kişi təəccüblə çiyinlərini çəkir.

Sənin heç ulduzun olmayıb?

Gənc kişi. Necə ulduzum?

Qadın. Yəni sən yeniyetmə vaxtı heç özünə ulduz seçməmisən?

Gənc kişi. Göydəki ulduzları deyirsiz?

Qadın. Yenə "siz"?

Gənc kişi. Bağışla... Söhbət göydəki ulduzlardan gedir?

Qadın. Əlbəttə! Yerdəki ulduzlarla mənim nə işim?

Gənc kişi. Mən göydəki ulduzlarla nə etməliydim ki?

Qadın. Sən onlarla söhbət etməliydin! Eləməmisən?

Gənc kişi. Yox!..

Kiçik pauza.

Qadın. Əlbəttə, sən igid idin, qorxmaz idin, yaraşıqlı idin, sənin nəyinə lazım idi özünə ulduz seçəsən?! Amma mənim ulduzum var idi... O vaxtlar iki otağımız var idi. Atamla anam bir otaqda yatırdı. Mən yatan o biri otağın balaca bir eyvanı var idi. Gecə atamla anam yatandan sonra, mən o balaca eyvana çıxırdım. Özümə seçdiyim o ulduzu bir elə ulduzun arasından o saat tapırdım. Otururdum eyvanda, başlayırdım onunla söhbət eləməyə. Gələcəyin gözəl xəyallar aləminə girirdik... Rəhmətlik atam, bilirsən nə fikirləşirdi? Hərdən oyanıb məni o balaca eyvanda görəndə, elə bilirdi ki, mən eyvanda, Ay işığında dərs hazırlayıram. Elə bilirdi, otaqda işığı söndürürəm ki, onlar rahat yatsın. Yuxulu-yuxulu gəlib məni qucaqlayırdı, "Gəl, yat"– deyirdi... (*Gözlərini yumur.*) Sən niyə məni vadar eləyirsən, bunları danışım? Ağlayaram ha!..

Gənc kişi. Mən istəmirəm ki, sən ağlayasan...

Qadın. Amma ağlamaq da, düz deyirlər, hərdən yüngülləşdirir adamı... Amma mən çox pisəm!

Gənc kişi. Niyə?

Qadın. Çünki mən ağlaya bilmirəm... Yaxşı... Ey sevimli insan! Deməli, sənin ulduzun yox idi?!

Gənc kişi. Yox...

Qadın. Amma mənimki var idi! Onu yenə hərdən görürəm, amma məndən qaçır... Qaçırdı... İndi gərək mənim o gözəl ulduzuma deyim ki, daha məndən qaçmasın! O gözəl ulduzum gözlədi, gözlədi, gözlədi, axırda da bilirsən neylədi? Səni, mənim əzizim, səni göndərdi bura! (*Gülür.*) Əlbəttə, sənin bundan xəbərin yoxdur... Bəs, sənin nədən xəbərin var? Hə? De görüm!

G ə n c  k i ş i. Ondan xəbərim var ki, məni tale sənin yanına gətirdi...

Kiçik pauza.

Q a d ı n. Mənim taleyim, yoxsa sənin taleyin?

G ə n c  k i ş i (*ayağa qalxır*). İkimizin də! (*Onu qucaqlayır.*) İkimizin də!

Q a d ı n. Elə bil, bir az birtəhər səslənir...

G ə n c  k i ş i. Sən demirsən, qoy necə səslənir səslənsin?!

Q a d ı n. Mənim əzizim!.. Mənim sevgilim!.. Mən haçansa heç ağlıma gətirərdim ki, kiməsə "mənim sevgilim" deyəcəyəm? Bu dəhşətdi e!.. İndi də fikirləşəndə tüklərim biz-biz durur!.. Hə? Mənim sevgilim! Mənim sevgilim! Mənim sevgilim!.. Nə yaxşı ki, sən o yağışlı gecədə çıxıb getmədin! Sən onda "sağ ol" deyib getmək istəyəndə, mənim ürəyim döyünməyə başladı ki, indicə çıxıb gedəcəksən... "Bəs, sonra necə olacaq?" – deyirdi beynim, nə bilim, ürəyim, bütün varlığım. "Sonra? Bəs sonra?"

G ə n c  k i ş i. O "sağ ol"dan sonra mənim də ürəyim döyünürdü ki, saxlayacaqsan məni, yoxsa yox? Sən məni saxladın!

Q a d ı n. Əlbəttə, mən saxlamalı idim səni! Əlbəttə! Bilirsən, mən ki səhər dururam ha, mən ki sevinirəm ha, mən ki deyirəm e, yaşayıram, bax, onda, sən mənim gözlərimin qabağında olursan! Bildin! Hə? (*Onu öpür.*) Bildin, yoxsa yox? Hə?

G ə n c  k i ş i. Hə.

Q a d ı n. Bərkdən de!

G ə n c  k i ş i (*qışqırır*). Hə! Hə! Hə!

İşıq sönür.

## BEŞİNCİ ŞƏKİL

Qadın, Qonşu Qadın. Blokda Qadının yaşadığı mənzilin çöl qapı meydançası. Günorta. Sol tərəfdə Qadının mənzilinin qapısıdır. Sağ tərəfdə isə qonşuların mənzilinin qapısıdır. Qadın dodaqaltı zümzümə edərək tələsik pilləkənləri qalxır və çantasından çıxartdığı açarla qapısını açır. Qonşu qadın əlində yekə bazar zənbili, öz qapılarından çıxır.

Q o n ş u  q a d ı n. Salam, məlimə!..

Q a d ı n. Salam! Salam! Necəsən?

Q o n ş u  q a d ı n (*dərindən köks ötürərək zənbili göstərir*). Birtəhər dolanırıq də...

Q a d ı n. Sən bu mahnını bilirsən? (*Oxuyur.*)

Faytonçuyam, bəxtim qara...
Minən deyir, sür bulvara!..

Bilirsən?

Q o n ş u  q a d ı n (*təəccüblə*). Yox...

Q a d ı n. Faytonçunun bəxti niyə qara olur? Hə? Əvvəla, bu cür gözəl bir melodiya! (*Oxuyur.*)

Faytonçuyam, bəxtim qara...
Minən deyir, sür bulvara!..

İkincisi, fayton! Gözəl atlar! Bulvar! Dəniz! Hə? O faytonçuya deyən lazımdır ki, ay axmaq, niyə sənin bəxtin qara olur?!

Q o n ş u  q a d ı n. A-a-a... Məlimə, demək də olmur... Sən... sən belə, birtəhər olmusan, e...

Q a d ı n. Bəs sənin xəbərin yoxdur?

Q o n ş u  q a d ı n. Nədən?

Q a d ı n. Bilmirsən?

Q o n ş u  q a d ı n. Yox...

Q a d ı n (*gülür*). Bəs, sən necə qonşusan?

Q o n ş u  q a d ı n (*həyəcanlı*). Nə olub ki?

Kiçik pauza.

Q a d ı n. Mən xoşbəxt olmuşam də!

Q o n ş u  q a d ı n. A-a-a!..

İşıq sönür.

## ALTINCI ŞƏKİL

Qadın, Gənc kişi. Qadının mənzili. Günorta. Qadın zümzümə edə-edə tozsoranla otağı təmizləyir və gəlib mizin yanında dayanır. Mizin üstündəki kağızı götürür.

Q a d ı n (*kağızı gözlərinin qabağında yelləyə-yelləyə*). Ey!.. Gözəl məktub! Bax, bu tozsoran dostumuzu görürsən? Bu tozsoran dos-

tumuz o elektrik xəttindən necə enerji alırsa, mən də səndən eləcə enerji alıram! Bildin? Bildin ki, bu gün on beşinci dəfə səni niyə oxuyuram? (*Oxuyur.*)

Gənc kişinin səsi. "Əzizim!.. Sevimlim!.. Həyatım!.. Yavaşca sivişib gedirəm ki, səhər-səhər yuxudan durğuzmayım səni... İndi burdan çıxacağam, bir saniyə... bircə saniyədən sonra yenə səninçün darıxacağam... Yenə fikrim-zikrim sənin yanında olacaq, yenə sənin yanına tələsəcəyəm... Çünki sənin istin bilirsən mənimçün nədir?.."

Qadın. Dayan, gözəl məktub! Bu sualı bir də ləzzətlə oxuyacağam!

Gənc kişinin səsi. "Çünki sənin istin bilirsən mənimçün nədir?.."

Qadın. Bir də!

Gənc kişinin səsi. "Çünki sənin istin bilirsən mənimçün nədir?.."

Qadın. Nədir? (*Gözlərini yumub bir müddət, elə bil, nəyəsə qulaq asır, sonra yenə məktubu oxumağa başlayır.*)

Gənc kişinin səsi. "Bunu adi sözlə yaza bilmirəm. Təsəvvür et ki, hər tərəfi payız yağışı bürüyüb... Yuvada balaca bir quşcuğaz var... Anası harasa uçub gedib, gəlib çıxmır... O quşcuğaz da hərdən isti yuvasından boylanır... Birdən o balaca quşcuğaz yerə düşür... Yağışın altında tir-tir titrəyən o quşcuğaz üçün o yuvanın istisi nədirsə, sənin istin də mənim üçün, bax, həmin istidir... Mən də həyatım boyu eləcə boylanıb, səni axtarmışam, səni gözləmişəm... Deyəsən bir az hind filmlərinə oxşadı, hə?"

Qadın. Yox!

Gənc kişinin səsi. "Düzünü de, oxşadı, oxşamadı?"

Qadın. Oxşasın də! Lap yaxşı! Bunun heç kimə dəxli yoxdur! Qoy oxşasın! (*Məktubu öpür.*) Belə, gözəl məktub! Mən enerjimi aldım! (*Tozsorana*) Getdik!

Qadın yenə tozsoranla otağı təmizləyir. Qapının zəngi çalınır. Qadın sevincək qaçıb qapını açır.

Qadın. Haradasan?

Gənc kişi otağa daxil olur.

Gənc kişi (*təzim edərək*). Təbrik edirəm!

Q a d ı n (*bir az şaşırmış*). Məni?

G ə n c  k i ş i. Hə!

Q a d ı n. Məni təbrik edirsən? Nə münasibətlə?

G ə n c  k i ş i (*təntənəli*). Anadan olduğunuz gün münasibətilə! (*Qadının yanağından öpür.*)

Q a d ı n (*tamam şaşırmış*). Oy!.. Bu gün mənim anadan olduğum gündü? (*Köks ötürür.*) Hə, doğrudan...

G ə n c  k i ş i (*başı ilə təsdiq edir*). Bəli! Bu gün tək sizin... Tək sənin günün deyil... (*Əli ilə arxasında gizlətdiyi bir dəstə nərgiz güllərini ona uzadır.*) Bu gün, bütün günlərin gözəl bir günüdür...

Q a d ı n (*eləcə şaşırmış halda gülləri alaraq*). Bəs, sən bunu hardan bilmisən?

G ə n c  k i ş i. Bu, mənim sirrimdir!..

Q a d ı n. Sənin belə sirlərin çoxdu? Mənim əzizim! (*Özünü saxlaya bilməyib onu qucaqlayır.*) Mənim həyatımda birinci, eşidirsən... (*Qışqırır.*) Birinci!.. Birinci!.. Birinci dəfədir ki, qapım açılır və kimsə mənə gül verir! Hərdən, bayramlarda, Həsənzadənin anası mənə gül gətirirdi, amma o güllər rüşvət kimi bir şey idi... Heç evə də gətirmirdim, qoyurdum qalırdı məktəbdə, müəllimlər otağında. (*Gül dəstəsini iyləyərək.*) Nərgiz çıxıb bəyəm? Nə tez!.. Bəs, sən nə bildin ki, mənim ən çox sevdiyim gül də nərgizdi?

G ə n c  k i ş i. Bu da mənim bir sirrimdi!

Q a d ı n. Sən kimsən? Sən Şaxta babasan?

G ə n c  k i ş i. Yox, mən səni sevən və sənə layiq olmayan birisiyəm...

Q a d ı n. Sən mənə layiq deyilsən?

G ə n c  k i ş i. Əlbəttə!

Q a d ı n. Bir də belə söz demə! (*Dolabın gözündən güldan götürüb mizin üstünə qoyur və gülləri güldana düzür.*) Onda mən elə başa düşəcəyəm ki, sən mənə lağ eləyirsən! Bildin?! Sən məni özünə layiq bilmirsən!

G ə n c  k i ş i. Axı sən məni hələ yaxşı tanımırsan... Mən nə dediyimi bilirəm!

Q a d ı n. Bəsdir! Səni... səni tanımıram? Mən səni sənin özündən yaxşı tanıyıram!

G ə n c  k i ş i (*gülür*). Onda de görüm, mən kiməm?

Q a d ı n. Sən mənim əzizimsən!.. Sən mənim sevimlimsən!.. Gəl!.. Gəl otur!.. (*Onu mizə tərəf çəkir.*) Biz səninlə birlikdə mənim anadan olduğum günü bayram edəcəyik!

G ə n c  k i ş i. Bizim günümüzü!

Q a d ı n. Hə! Bizim, bizim günümüzü! Biz şampan içəcəyik! Biz keflənəcəyik!

G ə n c  k i ş i. Ancaq mən keflənəndə yaman pis oluram ha!.. (*Gülür.*)

Q a d ı n. Məni qorxutmaq istəyirsən? Amma mən qorxaq deyiləm, ha! Beləliyimə baxma! Bu saat şampan gətirirəm! (*Mətbəxə getmək istəyir.*) Yox, qoy əvvəlcə bir yaxşı geyinim-kecinim!

Qadın dolabdan paltarlarını götürüb mətbəxə keçir. Gənc kişi kitab rəflərinin qabağında dayanıb baxır, sonra kitablardan birini götürüb vərəqləyir. Paltarını dəyişmiş Qadın, əlində şampan şüşəsi və iki qədəh, mətbəxdən qayıdır.

Q a d ı n (*onun qarşısında fırlanır*). Hə, necədir?

G ə n c  k i ş i (*heyranlıqla*). Mənim... day sözüm yoxdur!..

Q a d ı n. Milyon il idi bu paltarı geymirdim!.. Deyirsən, yaxşıdır?

G ə n c  k i ş i. Sən tamam başqa adam olmusan!

Q a d ı n. Hə, düz deyirsən, mən başqa adam olmuşam... Bilirsən, hərdən qorxuram... Qorxuram ki, birdən özüm öz içimdən çıxıb gedərəm...

G ə n c  k i ş i (*gülür*). Yox, qorxma...

Q a d ı n. Qorxmayım?

G ə n c  k i ş i. Hə, qorxma! Çünki bir adamın içində, min adam var...

Q a d ı n. O necə olur elə?

G ə n c  k i ş i. Adam, bilirsən, sandıq kimi bir şeydir. İçində, nə desən, var! Təzə də var, köhnə də var! Qızıl da var, keyfiyyətsiz şeylər də! O sandıqda qorunub saxlanan pal-paltarın hər biri bir dəbdədir, müxtəlifdir, bir-birinə uyuşmayan şeylərdir!.. Ona görə də, bir adamın içində min adam var!

Pauza.

Ancaq sənin içindəkilərin hamısı gözəldir!

Q a d ı n. Onda, mən sandığa oxşamadım ki!..

G ə n c  k i ş i. Niyə? Sadəcə, sənin içindəkilərin hərəsi bir cür gözəldir! Sən də gözəlsən! Bax, bu günümüz də gözəldir! Sənin əlindəki o şampan da gözəldir! Partladaq?

Q a d ı n. Qoy, güldana su töküm...

G ə n c  k i ş i. Mən tökərəm. (*Əlindəki kitabı mizin üstünə qoyub güldanı götürür*, *mətbəxə keçir və oradan danışır.*) Sənin mətbəxin əməlli-başlı kimya laboratoriyasıdır! Təcrübələri evdən aparırsan məktəbə?

Q a d ı n. Hə, çox vaxt özüm aparıram! Qabaqlara fikrin getməsin, ey mənim keçmiş şagirdim, sosializmdən kapitalizmə keçdiyimiz bu gözəl zəmanədə məktəbdə kimyəvi maddələr qıtlığıdır! Yavaş ol, a!.. O şüşələrin içində nə maddə desən, var! (*Mizin üstündən kitabı götürüb rəfə qoyur.*) Bəlkə sabah Həsənzadənin anasıyla danışım, hə?

G ə n c  k i ş i (*mətbəxdən*). Nə barədə?

Q a d ı n. Sənin barəndə.

G ə n c  k i ş i (*mətbəxdən*). Mənim barəmdə?

Q a d ı n. Hə, sənin barəndə. Sən nə vaxtacan işsiz qalacaqsan? Əri böyük adamdır, nazir müavinidir, nədi... Arvadı həmişə deyir ki, (*yamsılayır*) "məndən bir şey xahiş edin", "məndən bir şey xahiş edin"... Mən də xahiş edəcəyəm! Sən nə qədər işsiz gəzə bilərsən? Xahiş edəcəyəm ki, sənin iş məsələnə köməklik eləsin.

G ə n c  k i ş i (*otağa girib güldanı mizin üstünə qoyur*). Nə işə?

Q a d ı n. Nə bilim? Sən de də...

G ə n c  k i ş i. Tramvay konduktoru!

Q a d ı n (*gülür*). Zarafata salma, mən ciddi danışıram... Nə iş xahiş edim ondan?

G ə n c  k i ş i. Mənimçün maraqlıdır ki, sən deyəsən. Məni harada görürsən?

Q a d ı n. Səni? Bilirsən, mən bu barədə çox fikirləşirəm... Bir əla fikir gəlib başıma!

G ə n c  k i ş i. Nə fikir?

Q a d ı n. Məncə, sənin də ürəyincə olacaq!

G ə n c  k i ş i. Yaxşı, nigaran qoyma da, bizi!

Q a d ı n. Sənin yerin... (*Sözünü saxlayır.*)

G ə n c  k i ş i. Hə, haradır mənim yerim?

Q a d ı n. Kitabxana!

G ə n c  k i ş i. Hara?

Q a d ı n. Kitabxana! Xahiş edəcəyəm ki, onun o gözəl əri səni kitabxanada işə düzəltsin.

G ə n c  k i ş i. Kitabxanaçı?

Q a d ı n. Hə!

Kiçik pauza.

Düz tapmışam?

Gənc kişi (*ürəkdən gülür*). Nə bilim? Baxarıq... Ancaq sən mənə iş tapanacan, şampan soyuyacaq!

Qadın. Yox, biz qoymayacağıq ki, o soyusun! Gəl! Gəl, otur!

Gənc kişi gəlib mizin arxasında əyləşir.

(*Şampan şüşəsini ona uzadaraq.*) Partlat! Dayan, bir dəqiqə! (*Dolaba yaxınlaşıb yeşiyi çəkir*, *nəsə axtarır*, *sonra o biri yeşiyi çəkir.*)

Gənc kişi. Nə axtarırsan?

Qadın. Üzüyümü. Qəribədir... Tapa bilmirəm...

Gənc kişi. Bəlkə harasa, başqa yerə qoymusan, yadından çıxıb?

Qadın. Yox! Allah bilir, mən neçə ildir o üzüyü taxmıram...

Gənc kişi. Bəlkə kim isə götürüb?

Qadın. Bura kim gəlir ki?

Gənc kişi. Qonşuların...

Qadın. Yox. Onlar elə adam deyillər...

Gənc kişi. Adamları tanımaq olmaz!

Qadın. Əşşi! Cəhənnəm olsun üzük! (*Mizə yaxınlaşır.*) Partlat!

Gənc kişi partıltıyla şampanın tıxacını açır.

Gənc kişi (*qədəhlərə süzə-süzə*). Sənin sağlığına! O gün olsun, yüz illiyin olsun!

Qadın. Oy!.. Məni qorxutma! Yüz nədi?! Sənin sağlığına!

İçirlər.

Aha! Deyəsən, dəmlənirəm! Axırıncı dəfə mən nə vaxt içmişəm? Yadıma gəlmir... Bəs sən, mənim qəhrəmanım? Bilirsən də, sən mənim qəhrəmanımsan! Yox, sən mənim igidimsən!..

Gənc kişi. Əşşi, mən qorxağın biriyəm...

Qadın. Qorxaqsan?

Gənc kişi. Hə...

Qadın. Sən kimdən qorxursan?

Gənc kişi. Zarafat edirəm...

Qadın. Yox, de görüm, sən kimdən qorxursan?

Pauza.

Əl çəkməyəcəyəm səndən! Özüm də dəmlənmişəm! Deməlisən!

G ə n c  k i ş i (*get-gedə artan bir həyəcanla*). Ölümdən qorxuram! Ölümdən! Bir vaxt gələcək, mən olmayacağam! Hər şey öz yerində qalacaq, həmin küçələr, həmin binalar, həmin gün, həmin ay! Amma mən yoxam! Bunu fikirləşəndə məni dəhşət basır! Az qalıram, dəli olam! Bir dilənçi ilə mənim aramda heç bir fərq olmayacaq! O da öləcək, heç olacaq, mən də öləcəyəm, heç olacağam! İzim-sorağım da qalmayacaq!

Pauza.

Q a d ı n. Axı bu tək sənin problemin deyil... Bütün insanların, bütün canlıların, dahilərin, peyğəmbərlərin, hamının taleyidir...

G ə n c  k i ş i. Bu mənim üçün təskinlik deyil!

Q a d ı n. Axı... Axı hər şey belə mənasız ola bilməz... Hardasa, nəsə var... Mütləq... Gərək belə fikirləşəsən... Axı... Axı Allah var!

G ə n c  k i ş i. Onu görən olub?!

Pauza.

Q a d ı n. Hərdən mənə elə gəlir ki, sən... sən özün qorxulu adamsan...

Kiçik pauza.

Yaxşı, bəsdir... Bu nə söhbətlərdi belə, başlamışıq?..

G ə n c  k i ş i. Hə də... (*Gülümsəyir.*) Həyat onsuz da mürəkkəbdir...

Q a d ı n. Bir az da biz üstünə qoymayaq! (*Qədəhi qaldırır.*) Sən... Sən... Necə qorxaqsan ki, birdən-birə gəlib... Birdən-birə gəlib ciddi bir müəllimənin... Çox ciddi bir müəllimənin qapısını döydün?! Hə? (*Qədəhi onun qədəhinə vurur.*) Ey, özünə qorxaq deyən insan! Özünə böhtan atan insan! İndi çox realist bir sağlıq deyəcəyəm. Bunu qaldıraq o günün şərəfinə ki, sənin kimi oğullar Şuşanı qaytaracaq! Qarabağı qaytaracaq! Sənin kimi oğulların şərəfinə ki, düşmən onların qorxusundan bir də burunlarını Azərbaycan dediyimiz bu məmləkətə soxmayacaq! Çünki siz onun o burnunu dibindən kəsərsiz! İçdik?

G ə n c  k i ş i. İçdik!

İçirlər.

G ə n c  k i ş i. Deyirsən, özümə böhtan atıram? (*Gülür.*) Ola bilər... Dostoyevski deyir ki, insan bütün həyatı boyu, əslində, yaşamır, yaranır. Yəni həmişə yaranma prosesində olur.

Q a d ı n (*divanda oturaraq*). Yenə Dostoyevski?

G ə n c  k i ş i. Dostoyevski mənim Allahımdır!

Q a d ı n (*əli ilə tavanı göstərir*). Bəs, onda o Allah sənin nəyindir? Hə, sən dedin axı onu görən olmayıb...

G ə n c  k i ş i. Sən məni Dostoyevskiyə qısqanırsan?

Q a d ı n (*güclə sezilən bir naz ilə*). Ola bilər...

G ə n c  k i ş i. Dostoyevskisiz həyat çox bəsit bir şeydir...

Q a d ı n. Deməli, Dostoyevskidən əvvəl yaşayanların hamısı bəsit bir həyat sürüb?

G ə n c  k i ş i. Bilmirəm! Bilmirəm, kim, haçan, necə yaşayıb? (*Onun üstünə atılır.*) Onu bilirəm ki, mən səni Dostoyevskidən çox istəyirəm!

Q a d ı n. Ola bilməz!

G ə n c  k i ş i. Yüz faiz!

Q a d ı n. Dayan bir...

G ə n c  k i ş i. Yox, dayana bilməyəcəyəm!.. (*Onu qamarlayıb öpməyə başlayır.*)

Q a d ı n (*onun qolları arasından çıxaraq*). Axı mənim hələ bir sağlığım qalıb!

G ə n c  k i ş i. Onu, sonra!

Q a d ı n. Yox! Mən onu indi deməliyəm! Deməsəm, xəyanət olar! (*Ayağa qalxıb mizin üstündən qədəhi götürür, pəncərəyə yaxınlaşıb şüşədən göyə baxır və qədəhi qaldırır.*) İçək onun şərəfinə!

G ə n c  k i ş i. Kimin?

Q a d ı n. Gəl bura! Götür qədəhini, gəl bura!

Gənc kişi qalxıb mizin üstündən qədəhini götürür və ona yaxınlaşır.

İçək mənim ulduzumun şərəfinə! (*İçir.*)

G ə n c  k i ş i. Bilirsən, mən bu saat tamam realist bir adamam!

Q a d ı n. Mənim ulduzumun şərəfinə içmək istəmirsən?

G ə n c  k i ş i (*çılğın*). Mən özüm bilirəm, nə istəyirəm! (*Onu arxadan qucaqlayıb öpməyə başlayır.*) Bildin?

Q a d ı n (*gülə-gülə və həyəcanlı*). Dayan bir!.. Oy!.. Dayan!.. Dayan, ay realist!..

G ə n c  k i ş i (*öpə-öpə*). Yox!.. Dayana bilmirəm! Yox!..

Q a d ı n. Heç olmasa, işığı söndür...

Gənc kişi əlini qaldırıb işığı söndürür – səhnənin işığı sönür.

G ə n c  k i ş i (*qaranlıqdan*). Mənim əzizim!.. Mənim sevgilim!.. Gözəlim!..

Q a d ı n (*qaranlıqdan*). Oy!..

G ə n c  k i ş i (*qaranlıqdan*). Yaxşıdı?

Q a d ı n (*qaranlıqdan*). Hə!.. Hə!.. Hə!..

## II. ULDUZLAR ALƏMİNDƏ

### YEDDİNCİ ŞƏKİL

Qadın, Polis (Qonşu kişi), Ulduz (Qonşu qadın), Poçtalyon (Şagird Həsənzadənin anası). Ulduzlar aləmi. Səhnə ağ buludlar içindədir və hər tərəfdən ağ hasara alınıb. Ağaclar, güllər, hərdən səhnədə uçuşan gözəl kəpənəklər, tez-tez cəh-cəh vuran quşlar, bir sözlə, səhnədə nə varsa, hamısı ağ rəngdədir. Qadından başqa, qalan iştirakçıların libası da ağappaqdır. Qadın qapıdan boylanaraq Ulduzlar aləminə baxır.

Q a d ı n. Buradır? Deyəsən düz gəlmişəm... (*Bərkdən.*) Ey, bura Ulduzlar aləmidir?

Pauza.

(*Qapıdan səhnəyə daxil olur.*) Oy, nə gözəldir!.. Ağappaq!.. Tərtəmiz!.. Mənə bax də!.. İndiyəcən bura gəlməmişəm... (*Heyran-heyran dörd tərəfə baxır.*) Belə bir yerə!.. (*Bərkdən.*) Ey, kim var burda? Heç kim yoxdur... Bəs, ulduzlar haradadır? Onlara nə var e?!. Göylərdə süzürlər özləriyçün... Burda da, gör, necə yer seçiblər özlərinə!.. (*Bərkdən.*) Ey, kim var burda? Ey!..

Polis (*Qonşu kişi*) yekə qanadları olan taxta ağ atın belində səhnəyə daxil olur.

P o l i s. Bu nə səs-küydür belə?

Q a d ı n (*təəccüblə*). Siz burda nə gəzirsiz?

P o l i s. Necə yəni mən burda nə gəzirəm? Mən buranın mühafizə idarəsinin rəisiyəm!

Q a d ı n. Ulduzlar aləminin?

P o l i s. Bəli!

Q a d ı n. Burda da mühafizə idarəsi var?

P o l i s. Mühafizəsiz yer olar?

Q a d ı n. Mən... Mən öz Ulduzumu görməyə gəlmişəm.

P o l i s. Hansıdır sizin Ulduzunuz?
Q a d ı n. Ulduzların ən gözəli! Ən sevimlisi! Ən xeyirxahı!
P o l i s. Bildim! Bildim hansıdır! Bildim!
Q a d ı n. Tanıdız?
P o l i s. Əlbəttə! Onu tanımağa nə var ki?
Q a d ı n. Oy, nə yaxşı! Mən onu necə görə bilərəm?
P o l i s. Gərək Poçtalyona deyəsiz, o sizin Ulduzunuza xəbər versin.
Q a d ı n. Bəs, mən Poçtalyonu necə görə bilərəm?
P o l i s. Gərək mən icazə verim!
Q a d ı n. Siz?
P o l i s. Bəli!
Q a d ı n. Oy, nə yaxşı oldu! Xahiş edirəm, icazə verəsiz!

Pauza.

Xahiş edirəm, mənə icazə verəsiz ki, Poçtalyonu görüm!..

Pauza.

Mən çox tələsirəm! Məni orda (*barmağı ilə aşağını göstərir*) gözləyən var!

Pauza.

Sizinləyəm! Xahiş edirəm, mənə icazə verəsiz ki, əvvəlcə Poçtalyonu görüm, sonra da öz Ulduzumu!.. Mən tələsirəm!..

Pauza.

Axı... Axı mən sizinləyəm!
P o l i s (*qışqırır*). Bilirsiz mənim maaşım nə qədər azdır?!
Q a d ı n (*gözləri bərəlmiş*). Nə?
P o l i s. Hə!
Q a d ı n. Maaşınız azdır?
P o l i s. Bəli! Azdır!
Q a d ı n (*şaşırmış*). Bəyəm, burda da pul var?
P o l i s (*onu yamsılayır*). "Burda mühafizə var?", "Burda pul var?" Pul olmayan yer var?

Pauza.

Q a d ı n. Bəs... bəs, mən neyləməliyəm?
P o l i s (*altındakı atı göstərərək*). Özüm heç, neçə gündür, bu da acdır!

Qanadlı ağ atın iri qara gözləri yumulub-açılır və
iki böyük gilə göz yaşı yerə düşür.

(*Ata.*) Ağlama! (*Özü doluxsunur.*) Görürsiz?.. (*Öz gözlərini silir.*)

Q a d ı n (*pərişan*). Görürəm... Amma... Axı mənim sizə verməyə heç nəyim yoxdur...

P o l i s (*atın üstündə səhnə boyu o baş-bu baş addımlaya-addımlaya deyinir*). Mənim! Mənim bəxtim qaradır! Mənim yanıma həmişə heç nəyi olmayan gəlir! Bir dəfə görmədim ki, nəsə bir şeyi olan gəlib məndən öz ulduzunu xəbər alsın!

Q a d ı n. Bəs, onlar bura gəlmirlər?

P o l i s. Kimlər?

Q a d ı n. Şey-şüyü olanlar...

P o l i s. Keflərinə düşəndə, hərdən gəlirlər.

Q a d ı n. Bəs, niyə sizdən icazə almırlar?

P o l i s (*əli ilə səhnənin yuxarı küncünü göstərir*). Onların ora öz yolları var!

Q a d ı n. Bəs, mən nə edim? (*Çılğın.*) Xahiş edirəm Sizdən!.. Mən onu mütləq görməliyəm!..

P o l i s (*altındakı ata*). Ağlama! (*Atın gözlərindən yenə iki iri damla göz yaşı düşür.*) Görürsünüz?

Q a d ı n. Görürəm... Ona deyin ağlamasın... Mənim ürəyim bir-təhər olur...

P o l i s. Ağlamasın, bəs nə eləsin bu bədbəxt? (*Ata.*) Nə olsun ki, sən də ağsan? Bəxtin ki, qaradır! Yaxşı olardı ki, sən özün kömür kimi qapqara olaydın, amma bəxtin ağ olaydı!

Pauza.

Q a d ı n. Mən sizdən xahiş edirəm!.. Məni orda (*barmağı ilə aşağını göstərir*) gözləyən var! Mən tələsirəm!

P o l i s (*ata*). Ağlama! Ağlayana pay verən yoxdu!

Q a d ı n. Xahiş edirəm!..

P o l i s (*ata*). Nə etmək olar, əziz dostum? Bizim ürəyimiz yumşaqdır... Nə? Nə deyirsən? (*Əyilib qulağını atın ağzına dirəyir.*)

Q a d ı n. Nə deyir?

P o l i s. Deyir, ona görə bu günə qalmışıq də! (*Qışqırır.*) Poçtalyon! Poçtalyon!

Q a d ı n. Çox sağ olun!

P o l i s. Poçtalyon! (*Deyinir.*) Bu, gərək həmişə əda ilə, naz-qəmzə ilə gəlsin... (*Qışqırır.*) Poçtalyon!

Q a d ı n. Təşəkkür edirəm!

Poçtalyon (*Şagird Həsənzadənin anası*) yekə ağ qanadlarını yelləyə-yelləyə gəlir.

P o l i s (*acıqlı*). Aha, gəldi çıxdı!..

P o ç t a l y o n (*tənə ilə*). Mənim, başqaları kimi, şəxsi atım yoxdur!

P o l i s (*ata*). Bunun xəbəri yoxdur ki, səni də yedirtmək lazımdır!..

P o ç t a l y o n. Mən özüm gəlirəm! Amma əslində, mənim atım olmalıdır! Çünki Poçtalyon mənəm, başqaları deyil!

Q a d ı n (*heyrət içində*). Siz də burdasız?

P o ç t a l y o n. Mənə nə olub ki?

Q a d ı n. Yox... (*Ətrafa baxır.*) Heç bilmirəm, vallah...

P o ç t a l y o n. Mən burda poçtalyonam.

Q a d ı n. Mən öz Ulduzumla görüşməliyəm! (*Polisi göstərir.*) İcazə almışam!

P o ç t a l y o n (*Polisə baxır*). Pah!..

Q a d ı n. Yox, siz ona elə baxmayın! O çox ürəyiyumşaqdır...

P o ç t a l y o n (*yenə Polisə baxır*). Pah!..

Q a d ı n. Bəli!.. Bəli!..

P o l i s (*Poçtalyona işarə edərək yavaşdan Qadına*). Amma o mən deyiləm ha!..

Q a d ı n (*Poçtalyona*). Mən çox tələsirəm. Məni orda (*barmağı ilə aşağını göstərir*) gözləyən var. Xahiş edirəm, mənim Ulduzuma xəbər verəsiniz!

P o ç t a l y o n. Növbəyə durun!

Q a d ı n. Növbəyə?

P o ç t a l y o n. Bəli!

Q a d ı n. Bəyəm, mənim Ulduzumla məndən başqa da görüşmək istəyən var? Axı o ancaq mənim Ulduzumdur!

P o ç t a l y o n. Nə olsun ki, başqası yoxdu?! Növbə, növbədir! Növbəsiz istəyirsiz? Onda... baxın də...

Pauza.

Q a d ı n (*əllərini öz bədəninə çəkərək*). Mənim heç nəyim yoxdur...

P o ç t a l y o n. Yoxdur?

Q a d ı n. Yox...

P o ç t a l y o n. Onda, növbə!.. (*Qanadlarını yelləyib getmək istəyir.*)

Q a d ı n. Dayanın! Mən... (*Sözünü saxlayır.*)

P o ç t a l y o n. Hə? Mən nə?

Qadın. Mən Həsənzadəyə "üç" verərəm...

Pauza.

Poçtalyon. "Dörd!"

Qadın (*qızğın*). Xeyr! "Üç!"

Poçtalyon. "Dörd!"

Qadın (*daha da qızğın*). Heç vaxt! Mən ona "dörd" verməyəcəyəm! (*Gəlib Poçtalyonun qabağında dayanıb düz onun gözlərinin içinə baxır.*) Heç vaxt! (*Barmağını onun gözünün qabağında yelləyir.*) Bu mümkün olan şey deyil! Siz məni məcbur edə bilməzsiz!

Poçtalyon. "Beş!"

Qadın. Yox!

Poçtalyon. Onda xudahafiz!.. (*Qanadlarını yelləyib getmək istəyir.*)

Qadın. Yaxşı... (*Doluxsunur.*) "Beş..."

Poçtalyon. Onda gözləyin. Gedim sizin (*xüsusi vurğu ilə*) Ul-du-zu-nu-za xəbər verim! (*Polisə baxaraq.*) Pah!.. (*Qanadlarını yelləyə-yelləyə səhnədən çıxır.*)

Polis (*ata*). Gedək, əziz dostum, gedək! Bizimki bu dəfə də gətirmədi!

Qadın. Nə üçün gətirmədi? Axı siz yaxşılıq etdiniz!

Polis. Kimə?

Qadın. Mənə!

Polis. Bəs, bundan mənə nə?

Qadın. Sizə? Sizə də bu yaxşılığa görə, mənim ürəyimin dərinliyindən gələn bir təşəkkür!

Polis. Yaxşı olardı ki, ürəyin dərinliklərindən gələn o cür təşəkkürü sizə verəydilər, amma yaxşılığı mənə eləyəydilər!

Ulduz (Qonşu qadın) ağ karetdə qaça-qaça səhnəyə daxil olur.
Karetin, içində ayaq üstə dayanaraq özü sürür.

Ulduz (*karetin qapısını açıb içindən çıxaraq*). Hanı o?

Qadın (*heyrət içində*). Mənim Ulduzum sizsiz?

Ulduz. Bəli.

Qadın. Ən gözəl, ən sevimli Ulduz?

Ulduz. Bəli. Bəli.

Qadın elə bil Ulduza inanmayaraq Polisə baxır. Polis əvvəlcə
çiyinlərini çəkir, sonra başı ilə təsdiq edir.

P o l i s (*ata*). Gedək, əziz və bədbəxt dostum, gedək! (*Çapa-çapa səhnədən çıxır.*)

Q a d ı n. Axır ki, mən sizi gördüm! Mən sizi çox görmək istəyirdim! İstəyirdim ki... İstəyirdim ki, siz nigaran qalmayasız!..

U l d u z. Mən nigaran qalmayım?

Q a d ı n. Hə!..

U l d u z (*həyəcanlı*). Siz haradan bildiz ki, mən nigaranam?

Q a d ı n. Mən hiss edirdim!.. Hiss edirdim ki, nigaransız!..

Pauza.

U l d u z. Eh!.. (*Onu başdan-ayağa qədər süzərək.*) Siz mənə necə kömək edə bilərsiz?

Q a d ı n (*ruh yüksəkliyi ilə*). Mən istəyirəm ki, siz biləsiz: mən daha tək deyiləm! Düzdür, mən çox tək qaldım... Amma, yadınıza gəlir, iyirmi beş il bundan əvvəl, gecələr mən (*barmağı ilə aşağını göstərir*) orda, balaca eyvanımızda otururdum, axtarıb sizi tapırdım, gözümü sizə dikirdim, sizinlə bir yerdə necə arzular edirdik?.. Hansı xəyallar içində olurduq? Yadınıza gəlir? Mən indi, bax, o vaxtlar arzu etdiyimiz bir sevinc içindəyəm!.. Mənim iyirmi beş il bundan əvvəl sizinlə söhbətlərim, mənim arzularım, o xəyallar, lap bu günlərəcən, elə bil, ancaq gözəl bir yuxu idi!.. Gözəl bir yuxu idi, amma... bir az qüssəli idi... Düzdür, o gözəl yuxu uzun çəkdi, amma nə olsun? İndi o yuxu çin olub! Mən... mən bunu sizə deməliydim, ya yox? Deməliydim! Əlbəttə, deməliydim! Mən...

U l d u z (*onun sözünü kəsərək*). Bir dəqiqə, əzizim! Bir dəqiqə! Bütün bunlar çox gözəl! Ancaq siz mənə necə kömək edəcəksiz!

Q a d ı n. Mən bütün bunları deyirəm ki, siz daha məndən gizlənməyəsiz! Axı mən hiss edirdim ki, siz (*barmağı ilə yuxarını göstərir*) ordan (*yuxarı baxır*, *sonra ətrafa göz gəzdirir*), yəni ki, burdan aşağıya (*barmağı ilə aşağını göstərir*), mənə baxırsız, mənim gündəlik həyatımı görürsüz və... və məndən utanırsız! Mən hiss edirdim bunu! Görürdüm! Görürdüm ki, o uzaq arzuların puçluğuna görə, o xəyalların boşluğuna görə məndən utanırsız. Amma indi mən istəyirəm ki, siz bu nigarançılıqdan çıxasız! Mən... Mən doğrudan da xoşbəxtəm!

U l d u z. Mənim üçün çox xoşdur ki, siz xoşbəxtsiz! Nəhayət ki, mən bütün ulduzluq dövrümdə xoşbəxt bir adam gördüm! Ancaq siz mənə necə kömək edəcəksiz, onu deyin!

Kiçik pauza.

Q a d ı n. Dedim də!..

Kiçik pauza.

U l d u z. Nə dediz?

Q a d ı n. Dedim ki, mən xoşbəxtəm...

Ulduz (*az qala isterika ilə*). Bəs, mən?! (*Ağlayır.*) Mən? Sizə nə var ki!.. Siz xoşbəxtsiz! Ancaq məni pensiyaya göndərirlər! Əgər mən bundan sonra daha gecələr göydə parıldamayacağamsa, onda nəyə lazımam? Heç nəyə! (*Daha da bərkdən ağlayır.*) Heç kimə! Qoy, lap yalan olsun, ancaq mən (*barmağı ilə aşağını göstərir*) orda kiməsə ümid vermək istəyirəm! Siz orda (*barmağı ilə aşağını göstərir*) elə bilirsiz ki, təkcə sizin arzularınız olur? Siz elə bilirsiz ki, ancaq siz xəyala dala bilərsiz? Ancaq siz təklikdən qorxursuz!

Q a d ı n (*şaşırmış və həyəcanla*). Sakit olun...

U l d u z. "Sakit olun" demək asandır! Ancaq başa düşmək çətindir! (*Ağlayır.*) Ordan (*barmağı ilə aşağını göstərir*) baxırsız, deyirsiz, nə var ki, par-par yanır! Əladır! Gözəldir! Başdan-başa romantikadır! Ancaq gəlin, bu romantikanın içinə girin, onda bilərsiz! Onda bilərsiz! Onda... (*Zarıldayır.*)

Q a d ı n. Sakit olun... Mən... mən sizinçin nə edə bilərəm?

U l d u z. Siz – heç nə! O ifritə Poçtalyonun elə acıqlı-acıqlı gəlib məni çağırmağından başa düşdüm ki, ona heç nə verməmisiz! Çünki sizin də arzudan başqa heç bir şeyiniz yoxdur! Siz də (*barmağı ilə aşağını göstərir*) oradakı o çoxlu adamlardan birisiz ki, bütün var-yoxunuz təkcə elə arzudur! Ancaq onu (*barmağı ilə səhnənin yuxarı küncünü göstərir*) təkcə arzuyla yola gətirmək olmaz!

Q a d ı n (*diqqətlə səhnənin yuxarı küncünə baxaraq*). Kimdi ki o?

U l d u z (*heyrətlə*). Tanımırsız?..

Q a d ı n (*başını bulayır*). Yox...

U l d u z (*öz-özünə*). Doğrudan xoşbəxtdir də!.. (*Qadına.*) Baş Ulduz! (*Ağlayır.*) Mən fikirləşəndə ki, bir də heç vaxt göy üzündə parıldamayacağam, dəhşət məni basır!

Q a d ı n. Siz axı... Siz axı (*əli ilə aşağını göstərir*) ordan görünən kimi deyilsiz... Onda neynirsiz... neynirsiz göy üzündə parıldamağı? Deyirsiz ki, heç olmasa... yalandan ümid verəsiz... Özünüz özünüzü niyə aldadırsız?

U l d u z. Siz özünüzü aldatmırsız?

Q a d ı n. Bilmirəm...

Pauza.

Amma mən sizə kömək etmək istəyirəm...

Ulduz. Necə? (*Barmağı ilə səhnənin yuxarı küncünü göstərir.*) O elə-belə fikrindən dönən deyil!

Qadın (*səhnədə gəzişərək*). Nə verim? Nə verim sizə?

Ulduz. Heç nə!.. Gedin!.. Qayıdın geri! (*Ağlayaraq.*) Gedin öz arzularınızın yanına... Gedin, girin öz xoşbəxtliyinizin içinə... (*Karetə yaxınlaşır.*) Yaddan çıxarın məni!..

Qadın. Axı mən sizi yaddan çıxarmaq istəmirəm! (*Qışqırır.*) İstəmirəm sizi yaddan çıxarım! Eşidirsiz? İstəmirəm!

Ulduz (*karetin içinə girib qapısını bağlayır*). Əlvida!..

Qadın. Yox!.. Yox!.. Mən sizə üzüyümü verirəm! Aparın, verin ona! Aparın, verin, sizdən əl çəksin! (*Barmaqlarına baxır.*) Hanı mənim üzüyüm? Hanı?

İşıq sönür.

## III. FƏLAKƏT

### SƏKKİZİNCİ ŞƏKİL

Qadın, Gənc kişi. Qadının mənzili. Gecə. Səhnə qaranlıqdır.

Qadının səsi. Hanı? Hanı mənim üzüyüm? Hanı?

Gənc kişinin səsi (*yuxulu*). Nə? Nə olub? Nə hanı?

Qadının səsi. Mənim üzüyüm! Hanı mənim üzüyüm?

İşıq yanır. Qadın gecə köynəyində divan-çarpayıda oturub.
Gənc kişi pijamadadır və ayaq üstə Qadının qarşısında dayanıb.

Gənc kişi. Üzüyün?

Qadın (*iki əlilə gicgahlarını ovuşdurur*). Nə?.. Üzük?

Kiçik pauza.

Gənc kişi. Sənə nə olub?

Qadın. Heç... (*Diqqətlə Gənc kişiyə baxır.*) Mənə nə olub?

Gənc kişi çiyinlərini çəkir.

Doğrudan da, mənim üzüyüm haradadır?

Gənc kişi. Hansı üzük?

Q a d ı n. Mənim üzüyüm də. Keçən dəfə axtardım, tapmadım...

G ə n c k i ş i. Gecənin yarısı neynirsən üzüyü?

Q a d ı n. Nə bilim...

Kiçik pauza.

G ə n c k i ş i. Söndürüm işığı? Yataq...

Q a d ı n. Yox... Haradadır mənim üzüyüm? (*Qalxıb dolabın gözünü açır və axtarır.*)

G ə n c k i ş i. Olmaz ki, bunu sabaha saxlayasan?

Q a d ı n. Niyə sabaha? Elə indi axtarıram də... (*Axtarır.*)

Gənc kişi siqaret yandırır və otaqda var-gəl edir.

Sən niyə belə əsəbiləşirsən?

G ə n c k i ş i. Mən? Mən əsəbiləşib-eləmirəm. Ancaq... Başa düşmürəm... Gecənin yarısı qışqırıb yuxudan qalxırsan, sonra da durub üzük axtarırsan...

Q a d ı n. Sən görməmisən o üzüyü?

G ə n c k i ş i. Mən? Mənim nəyimə lazımdır üzük?

Q a d ı n. Mən demirəm ki, sənə lazımdır. Soruşuram ki, görmüsən, yoxsa, yox?

G ə n c k i ş i. Xeyr! Görməmişəm!

Kiçik pauza.

Sənin tonun mənim xoşuma gəlmir...

Q a d ı n. Niyə?

G ə n c k i ş i. Bilmirəm... Gəl, yataq...

Q a d ı n. Mən üzüyümü axtarıram... Mən öz üzüyümü axtara bilmərəm?..

G ə n c k i ş i. Bəlkə polis çağırasan?

Q a d ı n (*gəlib onunla üzbəüz dayanır*). Mənə bax!.. Sən polisdən niyə qorxursan belə?

Kiçik pauza.

(*Diqqətlə onun gözlərinin içinə baxaraq.*) Sənin bədənində bir dənə də yara yeri yoxdur...

Kiçik pauza.

G ə n c k i ş i. Mən elə bilirdim ki, sən məni sevirsən... Ancaq sən mənim bədənimi yoxlayırmışsan...

Qadın (*elə bil, onu eşitmir*). Sən deyirdin ki, Şuşada yaralanmışam... Amma... (*Çiyinlərini çəkir.*) Sənin bədənində bir dənə də yara yeri yoxdur...

Gənc kişi. Bəli! Mən Şuşada kontuziya almışdım! Kontuziyanın isə bədəndə yeri qalmır!

Qadın. Dünən avtobusla məktəbdən evə gəlirdim. Birdən yadıma düşdü səni harada görmüşdüm! Mən bazara getmişdim. Onda sən qəssab dükanında oturub üç-dörd bazar alverçisiylə nərd oynayırdın. Əsgər paltarında-zadda da deyildin...

Gənc kişi. Sənə nə olub bu gecə?

Qadın (*elə bil, onu eşitmir*). Hətta o zaman mən fikirləşdim ki, bu Kitab hara, qəssab dükanı hara, bazar alverçiləri hara?

Gənc kişi. Bazar alverçiləri adam deyil?

Qadın. Yox... Niyə... Amma...

Gənc kişi (*onun sözünü kəsərək qışqırır*). Nə olub sənə?!

Qadın. Nə olub? Heç nə olmayıb... Mən gördüyümü deməməliyəm?

Gənc kişi (*əsəbi*). Mən deyirdim ki, sənə layiq deyiləm! Sən idin qışqıran ki, yox, belə demə! Belə demə!

Pauza.

Qadın. Üzüyü sən götürmüsən?

Pauza.

Amma xahiş edirəm səndən, yalan danışma... Yaxşı? Çox xahiş edirəm səndən... Bilirsən... Mən yorulmuşam... Bilmirəm, niyə, amma çox yorulmuşam...

Pauza.

Gənc kişi. Mən hər şeyi sənə danışa bilmirəm... Elə şeylər var ki, onu danışmaq çətindir... Mən istəmirəm ki, sən əzab çəkəsən!

Qadın. Üzüyü sən götürmüsən?

Gənc kişi (*qızğın*). Mən nə etməliydim? Mən sənə deməliydim ki, anam acından ölür, məni dolandırırsan, yeməyimi-içməyimi verirsən, anamı da dolandır?! Deyə bilmirdim... Bəli! Anam acından ölürdü! Üzüyü satıb pulunu anama verdim!

Pauza.

Qadın. Bəs, sən deyirdin, anam ölüb?!

G ə n c  k i ş i (*qızğın*). Mənim hər dediyim söz düz olmalıdır?

Kiçik pauza.

Bağışla... Gəl yataq, sabah danışarıq... Özün görəcəksən ki, hər şey o qədər də dramatik deyil...

Q a d ı n (*elə bil öz-özü ilə danışır*). Hamısı yalan idi... (*Xatırlayır.*) Bu on səkkiz ildə mən hər gün sizinlə danışmışam... Məni təsəvvüründə canlandırırdın, hə?..

G ə n c  k i ş i. Sən əsəbiləşmisən. Həyəcanlanmısan. Gecənin yarısıdır. Mən də pis iş görmüşəm. Başa düşürəm. Ancaq, gəl yataq, sabah danışarıq. Vəziyyəti daha da dramatikləşdirmə.

Q a d ı n (*elə bil*, *onu eşitmir*). Sən məni pusmusan... Hara gedirəm, nə edirəm, işığım nə vaxt sönür, nə vaxt yatıram, nə vaxt dururam... Görmüsən ki, aha, təkin, yazığın biridir...

G ə n c  k i ş i. Bəsdir!

Q a d ı n. Evdən çıxır, məktəbə gedir, məktəbdən çıxır, evə gəlir... O yağışlı gecəni də xüsusi seçdin, hə? (*Gülür.*) Xüsusi seçdin ki, təsirli olsun...

G ə n c  k i ş i. Sən heç bilirsən, mənə nələr deyirsən?

Q a d ı n. Bilirəm...

G ə n c  k i ş i. Bilirsən?

Q a d ı n. Əlbəttə, bilirəm... O məktub da yalan idi, hə?

G ə n c  k i ş i. Nə məktub?

Qadın yerində oturub iki əlilə gicgahlarını tutur. Gənc kişi otaqda var-gəl edir, sonra kitab rəflərinin qabağında dayanıb kitablara baxır. Və bütün bu müddət ərzində onların səsi eşidilir.

Q a d ı n ı n  s ə s i. Ey!.. Gözəl məktub! Bax, bu tozsoran dostumuzu görürsən? Bu tozsoran dostumuz o elektrik xəttindən necə enerji alırsa, mən də səndən eləcə enerji alıram! Bildin? Bildin ki, bu gün on beşinci dəfə səni niyə oxuyuram?

G ə n c  k i ş i n i n  s ə s i. “Əzizim!.. Sevimlim!.. Həyatım!.. Yavaşca sivişib gedirəm ki, səhər-səhər yuxudan durğuzmayım səni... İndi burdan çıxacağam, bir saniyə... Bircə saniyədən sonra, yenə səninçün darıxacağam... Yenə fikrim-zikrim sənin yanında olacaq, yenə sənin yanına tələsəcəyəm... Çünki sənin istin bilirsən mənimçün nədir?..”

Q a d ı n ı n  s ə s i. Dayan, gözəl məktub! Bu sualı bir də ləzzətlə oxuyacağam!

G ə n c  k i ş i n i n  s ə s i. "Çünki sənin istin bilirsən, mənimçün nədir?.."

Q a d ı n ı n  s ə s i. Bir də!

G ə n c  k i ş i n i n  s ə s i. "Çünki sənin istin bilirsən mənimçün nədir?"

Q a d ı n ı n  s ə s i. Nədir?

G ə n c  k i ş i n i n  s ə s i. "Bunu adi sözlə yaza bilmirəm. Təsəvvür et ki, hər tərəfi payız yağışı bürüyüb... Yuvada balaca bir quşcuğaz var... Anası harasa uçub gedib, gəlib çıxmır... O quşcuğaz da hərdən isti yuvasından boylanır... Birdən o balaca quşcuğaz yerə düşür... Sənin istin mənimçün, bax, yağışın altında tir-tir titrəyən o quşcuğaz üçün o yuvanın istisi nədirsə, həmin istidir... Mən də həyatım boyu eləcə boylanıb səni axtarmışam, səni gözləmişəm... Deyəsən, bir az hind filmlərinə oxşadı, hə?"

Q a d ı n ı n  s ə s i. Yox!

G ə n c  k i ş i n i n  s ə s i. "Düzünü de, oxşadı, oxşamadı?"

Q a d ı n ı n  s ə s i. Lap oxşasın! Bunun heç kimə dəxli yoxdur! Qoy oxşasın!..

Kiçik pauza.

Q a d ı n. Yalan idi... O məktub da yalan idi...

G ə n c  k i ş i. Nə məktub?

Q a d ı n (*gülümsəyir*). Uçub getdi... O məktub birdən-birə çox uzaqlara uçub getdi... Qədim məktub!.. Köhnə məktub!..

G ə n c  k i ş i (*kitab rəfindəki kitablara baxa-baxa*). Bayron deyib ki, köhnə məktubları oxumaq, heç olmasa, ona görə xoş bir işdir ki, onlara cavab vermək lazım deyil...

Q a d ı n. Sən elə ömrünün sonuna kimi başqalarının sözlərini təkrar edə-edə yaşayacaqsan?

G ə n c  k i ş i. Gəl yataq. Sabah danışarıq.

Q a d ı n. Sən necə adamsan? (*İsterik.*) A kişi, bu boyda həngamədən sonra yatmaq olar?

G ə n c  k i ş i (*kəskin*). Bəsdir mənim üstümə qışqırdın!.. (*Ona yaxınlaşır.*) Sənin dediyin o "başqaları" şagird Həsənzadə deyil, onun anası da deyil, hətta onun atası da!.. Sən yalanı ifşa edirsən, həqiqət sorağındasan, hə? Ancaq nədir həqiqət? Sənin qısqandığın o Dostoyevski, bilirsən, nə deyirdi? Deyirdi ki, əgər mənə sübut edən olsa ki, İsa başqa şeydir, həqiqət isə tamam başqa bir şey, onda

mən həqiqətin yox, İsanın yanında qalacağam... Başa düşdün? Bax, bu da səninçün həqiqətin hörmət-izzəti! Həqiqətin qiyməti! Hər bir insanın öz həqiqəti var! Mənim də içimdə mənim öz həqiqətim var!

Pauza.

Q a d ı n (*elə bil, öz-özü ilə danışır*). O yağışlı gecədə mənim ürəyimdə bir hiss vardı ki, bunlar hamısı bir falşdır... O gecə görüşü də, o sözlər də – hamısı yalançıdır... Amma mən o duyğunu saxlaya bilmədim... Əslində, o duyğunu özüm qovub çıxartdım ürəyimdən... Bu bir ay ərzində o duyğu hərdən baş qaldırırdı, "Ey, mənə bax!" – deyirdi, amma mən o saat onun başından vururdum! O duyğuya deyirdim ki, get, məndən uzaq ol, mənlə işin olmasın!.. Qorxurdum o duyğudan, başa düşürsən? Qorxurdum ondan, ona görə də yaxına buraxmırdım!..

G ə n c k i ş i. Gəl yataq, deyirəm!

Q a d ı n (*elə bil, onu eşitmir*). Mən evdə olmayanda, sən hər yeri axtarmısan... Anadan olduğum günü də pasportumda görmüsən... Köhnə gündəliklərimi çıxarıb oxumusan... Ordan bilmişdin ki, nərgiz güllərini xoşlayıram... Axı... Ay çox oxumuş insan... Axı adam başqasının gündəliyini oxumaz... Mən evdə olmayanda, sən siçan kimi otağı axtarırdın, hə?

G ə n c k i ş i. Bəsdir! Bəs, sən nə edirdin? Mən yatandan sonra, sən də mənim bədənimi yoxlayırdın! Sən məni kitabxanada işə düzəltmək istəyirdin! Çünki səninçün mən kitabxanaçıdan yuxarı deyiləm! Sən məni kitabxana taxtabitilərinin arasında görürdün! (*Onu yamsılayır.*) "Mənim ulduzum!" "Mənim ulduzum!" Sən öz ulduzunla söhbət edə bilirdin, ancaq burdan-bura mənim ürəyimi sındırırdın! Sənin üçün mən, səni təklikdən xilas edən bir adam idim, vəssalam! İt olsun, qurd olsun, bir adam olsun ki, məni gecələr şagird Həsənzadə ilə söhbət eləməkdən qurtarsın! Yox! Mən kiminçünsə it olmaq, qurd olmaq istəmirəm! Elə bilirsən, sənin sözün var deməyə, ancaq mənimki yoxdur? Bəli! Mən sənin evində qalıram! Mənim pulum yoxdur! Bəli! Sən mənə kostyum almısan! Ancaq hər dəfə o kostyuma elə qürurla baxırsan ki, o qürur məni alçaldır! Sən o baxışlarınla az qalır deyəsən: çıx küçəyə, bütün aləmə car çək ki, ay camaat, bu kostyumu mənə, bax, bu xanım alıb! Çıxım qışqırım?

Pauza.

Q a d ı n (*sakit*). Yox!

Pauza.

G ə n c  k i ş i (*ona yaxınlaşır*). Mən deyirdim ki, sabah söhbət edərik... Yataq... (*Onu qucaqlamaq istəyir.*)

Q a d ı n (*onun qolları arasından çıxmaq istəyir*). Yox, istəmirəm!

G ə n c  k i ş i. Məni istəmirsən?

Q a d ı n. İstəmirəm!

G ə n c  k i ş i. İstəyirsən!

Q a d ı n. Yox!

G ə n c  k i ş i. İstəyirsən! Axı görürəm ki, istəyirsən!

İşıq sönür.

Q a d ı n (*qaranlıqdan*). Yox!..

G ə n c  k i ş i (*qaranlıqdan*). Hə!

Q a d ı n (*qaranlıqdan*). Yox!..

G ə n c  k i ş i (*qaranlıqdan*). İstəmirsən?

Kiçik pauza.

Q a d ı n. İstəyirəm...

## DOQQUZUNCU ŞƏKİL

Qadın, Qonşu qadın. Blokda Qadının yaşadığı mənzilin çöl qapı meydançası.
Qadın pilləkəni qalxıb çantasından çıxardığı açarla qapısını açır.
Qonşu qadın əlindəki yekə bazar zənbili ilə öz qapılarından çıxır.

Q o n ş u  q a d ı n. Salam, məlimə.

Q a d ı n. Salam! Salam! Necəsən?

Q o n ş u  q a d ı n (*əlindəki zənbili göstərir*). Görürsən də...

Q a d ı n (*gülümsəyir*). Həmin zənbil, həmin küçə, həmin bazar...

Q o n ş u  q a d ı n. Hə, məlimə. Həmin zənbil, həmin küçə, həmin bazar...

Q a d ı n. Amma bilirsən... İnsan görəsən niyə naşükür olur?

Q o n ş u  q a d ı n. Nə?

Q a d ı n. Deyirəm ki, görəsən insan niyə naşükür olur? Bəyəm, pis günlər idi? Mən gecə evdə oturub Həsənzadə ilə danışırdım, sən də elə bilirdin ki, mənim başım, bir az, o söz... (*Gülür.*) Vallah, yaxşı günlər idi!..

Q o n ş u  q a d ı n (*çiyinlərini çəkir*). Nə deyim, məlimə?..

Q a d ı n. Qonşular danışır məndən, hə? Deyirlər ki, evinə kişi gəlir?

Pauza.

Düzünü de!

Q o n ş u  q a d ı n. Desinlər də!

Q a d ı n. Axı nə deyirlər?

Q o n ş u  q a d ı n. Sən dediyini.

Q a d ı n. "Utanmır!.." "Camaatın gözü qabağında evinə kişi gəlir!.." "Özü də müəllimədir!.." Hə? Belə deyirlər?

Q o n ş u  q a d ı n. Hə. Ancaq mən onların cavabını verirəm! Nə olar yanına kişi gəlir? Kimə mane olurlar? Kimlə işləri var? Kim bilir ki, nə, nədir? Adamın yüz cürə, min cürə dərdi-səri olur! Adam var ki...

Q a d ı n (*gülümsəyərək onun sözünü kəsir*). O mahnı necə oldu?

Faytonçuyam, bəxtim qara,
Minən deyir, sür bulvara...

Yaxşı mahnıdı, hə?

Q o n ş u  q a d ı n. Nə bilim, vallah...

Q a d ı n. Çox sağ ol də!.. Məni müdafiə etdiyin üçün, çox sağ ol! (*Qapını açıb içəri girir və arxasınca da qapını örtür.*)

Qonşu qadın örtülü qapıya baxıb çiyinlərini çəkir.

İşıq sönür.

## ONUNCU ŞƏKİL

Qadın, Gənc kişi. Qadının mənzili. Axşam. Qadın pəncərənin qabağında dayanıb şüşədən eşiyə baxır. Qapının zəngi çalınır. Qadın çevrilib qapıya tərəf baxır. Zəng bir də çalınır. Qadın asta addımlarla gedib qapını açır.

G ə n c  k i ş i n i n  s ə s i (*qapının ardından*). Salam!

Q a d ı n. Salam... Gəldin?

Gənc kişi otağa daxil olur.

G ə n c  k i ş i. İstəmirdin gəlim? Gəlməsəydim, darıxmayacaqdın mənimçün? Düzünü de.

Q a d ı n (*otaqdakı pəncərəyə tərəf gedərək*). Bəlkə də darıxacaqdım...

G ə n c  k i ş i. Görürsən ki!.. Yeməyə bir şey var?

Q a d ı n. Nə varsa, mətbəxdədi, keç, bax.

G ə n c  k i ş i. Axı mən istəyirəm, sən gətirəsən... Ona görə yox ki, mən ağayam, sən qulluqçu. Yox. Ona görə ki... bir hərarət olsun... Duyğu olsun... Gətirib qoyasan qabağıma... Öpəsən, oturasan yanımda... Sonra da... sonra da keçək divana!

Q a d ı n (*çevrilib şüşədən eşiyə baxır*). Sən özün deyirdin ki, buna layiq deyilsən...

G ə n c  k i ş i. Hə, mən deyirdim! Bəs, sən nə deyirdin?

Q a d ı n. Mən? Mən də səndən inciyirdim...

G ə n c  k i ş i. Bax, belə!.. (*Get-gedə qızışır.*) Mən bilirəm! Sən məndən məhəbbət umursan! Sevgi umursan! Ancaq başa düş! Sən... sən başqa cürə qadınsan... Mən demirəm, sən pissən, nə bilim, nəsən... Bağışla məni, ancaq deyəcəyəm! Sən... hərdən... gərək sənə deməyim, ancaq deyirəm... Sən hərdən maraqsız olursan! Mən uzaqdan-uzağa sənə baxanda, başqa cürə fikirləşirdim... Sən həqiqət axtarırsan, bax, mən də sənə həqiqəti deyirəm: sən... hərdən mənim üçün maraqsız olursan... Yadıma bir söz düşür, ancaq yenə deyəcəksən ki, başqalarının fikrini təkrar edir. Hə, təkrar edirəm! Marina Svetayeva deyirdi ki, ilahələr Allahlara ərə gedirdi, qəhrəmanlar doğurdu, ancaq onlar, yəni o ilahələr çobanları sevirdi. Bax, maraqlı onlar idi, çobanları sevən, macəralar axtaran ilahələr!.. Sən ağıllı adamsan, ona görə bunları deyirəm ki, məni başa düşəsən...

Q a d ı n. Sən ilahə axtarırsan?

G ə n c  k i ş i (*gülür*). İlahə var ki? Olsa, özü gəlib məni tapacaq! Mən heç kimin qapısını döyən deyiləm!

Q a d ı n. Bəs, mənim qapımı niyə döydün?

Pauza.

G ə n c  k i ş i. Sən məni gözləyirdin, ona görə!

Pauza.

Gözləmirdin?

Pauza.

Q a d ı n. Gözləyirdim...

G ə n c  k i ş i. Bax, belə!..

Q a d ı n. Bu gün Cəfər Elsevərin telefonunu tapdım, ona zəng çaldım. Hə, düzdü, siz universitetdə bir yerdə oxumusuz... Düz demisən mənə, səni, doğrudan da, universitetdən çıxarıblar... Amma heç bir dava-zad olmayıb... (*Gülümsəyir.*) Kimsəsiz qız üstündə ədalət savaşı olmayıb... Sən idmançıların soyunma otağından paltar oğurlamısan, ona görə də səni tutublar, universitetdən də qovublar...

Pauza.

G ə n c  k i ş i. Məni yoxlamağa başlamısan? Yoxla! Məni çox yoxlayıblar...

Q a d ı n (*ona tərəf çevrilərək çılğın*). Sən kimsən? Sən qumarbazsan, aferistsən, oğrusan, kimsən sən?

G ə n c  k i ş i (*gülümsəyir*). Heç özüm də bilmirəm ki, mən kiməm? Vallah, düz sözümdür! Bilirsən, nə fikirləşirəm? Bəlkə də mənim qarşıma sən yox, gərək Messalina çıxaydı və sənin kimi yazıqların, günahsızların... Hə?.. Sənin kimi bədbəxtlərin, şanssızların... Day nə?.. Sənin kimi aldadılmışların... Hə, hə, görürsən, mən özümü təmizə çıxarmıram, aldadılmışların! Sənin kimi aldadılmışların hayfını məndən alaydı! Ancaq mənim qarşıma sən çıxdın də! Bilirsən niyə?

Q a d ı n. Yox.

G ə n c  k i ş i. Ona görə ki, Messalina bilir, kimin qarşısına çıxmaq lazımdır! (*Var-gəl edir.*) Məni yanında saxlamaq əvəzinə, məndən öz işlərin üçün istifadə etmək, mənə şərait yaratmaq əvəzinə, məni yoxlayırsan!.. Dedim də, yoxla! Ancaq bir az dərindən fikirləş! Bilirsən, Madam de Stal kim idi? Bütün Pariji barmağına dolamışdı! Deyirdi ki, mənim sevmədiyim kişilərin arasında ən yaxşısı mənim birinci ərim idi. (*Gülür.*) O Madam de Stal idi, lotunun biriydi, ancaq sən təmizsən, sənin sevdiyin də mənəm, sevmədiyin də, yaxşın da mənəm, pisin də... Məndən başqa sənin xatirələrin ancaq şagird dəftərləridir, bir də ki, o qəbiristanlıq kimi soyuq məktəbinizdəki müəllimlərin naftalin iyidir! Naftalin iyi təkcə onların kostyumlarından gəlmir, bütün həyatlarından naftalin iyi gəlir, onların bütün xislətlərindən, arzularından, sevinclərindən naftalin iyi gəlir!.. Əslində onlar bütün həyatlarını naftalinə qoyublar ki, güvə yeməsin və onlar tamam mənasız bir ömür sürürlər. O həyatı naftalindən çıxar-

maq daha o yazıqlara qismət olmayacaq... Eləcə, boğaza qədər naftalinin içində qalıb, eynəklərinin qalın şüşəsindən, özlərinin yox, başqalarının yaşadığı dünyaya baxacaqlar, miskin həyatlarının sonuna qədər... Ancaq mən sənin həyatını naftalindən çıxartdım. Düz deyirəm, ya düz demirəm?

Qadın. Düz deyirsən!

Gənc kişi. Sən ironiya ilə danışırsan?

Qadın (*sakit*). Yox. Sən çox düz deyirsən!

Gənc kişi. Görürsən, mən sənin fikirləşdiyin qədər də pis deyiləm. Gəl bura. Gəl mənim yanıma!

Qadın. Yox. Artıq qurtardı!

Gənc kişi. Qurtardı? (*Gülür.*) Hələ hər şey təzə başlayır!

Qadın. Yox. Doğrudan, qurtardı! Daha mənim heç nəyim qalmayıb. Bankdakı pulum da bitdi! (*Gülümsəyir.*) Pasportuma baxanda, bank kitabçama da baxmışdın, hə? Baxmışdın ki, görüm bu səfeh müəllimə maaşından qəpik-qəpik qara gün üçün nə qədər yığıb?

Gənc kişi. Sən məni kim hesab edirsən?

Qadın (*gülümsəyir*). Səni kim hesab edirəm? Onsuz da, daha bunun mənası yoxdur...

Gənc kişi. Deyirsən, "mənim daha heç nəyim yoxdur?"

Qadın. Bəli...

Gənc kişi. Var.

Qadın (*gülümsəyir*). Nəyim var mənim?

Gənc kişi. Bəs, mən? Demirdin ki, məndən başqa sənə heç nə lazım deyil?

Qadın. Deyirdim...

Gənc kişi. Mən həmin adamam də! Ola bilər, hərdən sənin ürəyinə dəyirəm, lazım olmayan sözlər deyirəm, ancaq mən, sənin gözlədiyin həmin adamam. O yağışlı gecədə mənim sənə dediyim o sözlər, hamısı həqiqət idi. Mən səni dəlicəsinə sevirdim. Əslinə baxsan, elə bu gün də elədir. Gəl bura. Gəl mənim yanıma.

Qadın. Mən səndən xahiş edirəm, daha rola girmə... Mən yorulmuşam, başa düş! Yorulmuşam!

Gənc kişi. Mənə nifrət edirsən, hə? Bilirəm, bilirəm ki, mənə nifrət edirsən. Ancaq elə buna görə də mənə borclu olmalısan! Hə! Hə! Düz deyirəm! Yenə heç olmasa, bir adam var ki, ona nifrət edirsən! Yoxsa, əvvəlki kimi, ölü bir həyat sürəcəkdin! Nə sevməyə bir adamın olacaqdı, nə də nifrət eləməyə! Mən sənin həyatına

məhəbbət də gətirdim, nifrət də! Həyat elə budur də! Canlı həyat budur! Fikirləşsən, görərsən ki, düz deyirəm! Ancaq indi hər şeyi məndən əsirgəyirsən. (*Yamsılayır.*) "Daha heç nəyim yoxdur!" (*Əlləri ilə otağın divarlarını göstərir.*) Bəs, bu? Bu boyda evi var, amma (*yamsılayır*) "daha heç nəyim yoxdur!"

Pauza.

Qadın (*sarsılmış*). Sən haradan gəlib mənim həyatıma çıxdın? Axı dünyada yüz dəfə məndən gözəl, yüz dəfə məndən varlı, əlaqələri məndən yüz dəfə, min dəfə çox qadınlar vardı! Sən nə üçün məhz məni qaraladın? Sən haradan gəlib məni tapdın?

Gənc kişi. Bilmirsən haradan?

Qadın (*isterik*). Yox! Bilmirəm! Bilmirəm!

Gənc kişi (*pəncərənin qabağına gəlir*). Özün deyirdin ki, məni sənin ulduzun göndərib! (*Hirslə barmağını pəncərəyə tuşlayır.*) Bax, o göndərib məni! Bax!

Qadın. Baxmıram! Baxmıram! Baxmıram! (*Otaqda gəzişərək özünü sakitləşdirməyə çalışır.*) Gəl belə danışaq səninlə... Sən get... Sən get, bir də bura gəlmə... Get... Mən daha səni görmək istəmirəm... Sən yəqin hələ çox adamlara rast gələcəksən... Bəlkə elə bir adama rast gələcəksən ki, hər şey yaxşı olacaq... Get... Bir də buralara gəlmə...

Gənc kişi. Məni qovursan?

Qadın. Xahiş edirəm səndən, get... Məndə işin olmasın daha, xahiş edirəm...

Gənc kişi (*onu yamsılayır*). "Məndə işin olmasın..." Mən nə edirəm sənə? Döyürəm, söyürəm, nə edirəm?

Qadın (*qışqırır*). Get! Gəlmə bura! Gəlmə!

İşıq sönür.

## ON BİRİNCİ ŞƏKİL

Qadın, Gənc kişi, Qonşu kişi. Qadının mənzili. Gecə. Qadın mizin arxasında oturub şagird dəftərlərini yoxlayır, ancaq hiss olunur ki, fikrini bir yerə toplaya bilmir. Qalxıb otaqda var-gəl edir, yenə mizin arxasında əyləşir. Qapının zəngi çalınır. Qadın başını qaldırıb bir müddət qapıya baxır. Zəng bir də çalınır. Qadın qalxıb qapını açır.

Qadın. Sən yenə gəldin?

Gənc kişi içəri daxil olur.

G ə n c   k i ş i. Salam...

Q a d ı n. Yenə gəldin, hə?

G ə n c   k i ş i. Gedim küçədə yatım? (*Arxasınca qapını bağlayıb otağa keçir.*)

Q a d ı n. Sən mənim ömrümə yazılmısan?

G ə n c   k i ş i. Bəs sən bilmirsən ki, yazıya pozu yoxdur?

Kiçik pauza.

Qulaq as, başıma əla bir fikir girib!

Q a d ı n. Sənin əla fikrin də olur?

G ə n c   k i ş i (*incimiş*). Görürsən? Sözümü deməmiş, ağzımdan vurursan, sonra da deyirsən ki, elə oldu, belə oldu!.. Mən nəyəm bəyəm? Yəni elə dəhşətli bir məxluqam ki, bir dənə yaxşı söz deyə bilmərəm? (*Var-gəl edir.*) Onda sənə başqa ideya verəcəyəm! Pis adamın əla ideyası! (*Gülür.*) Bir az birtəhərdi, amma əladı! İndi ağlıma gəldi! Bütün problemlərimiz həll olunur! Deyim?

Q a d ı n. De də...

G ə n c   k i ş i (*ayaq saxlayır*). Məni götür oğulluğa!

Q a d ı n (*gülümsəyir*). Səni oğulluğa götürüm?

G ə n c   k i ş i. Hə! Mən sənə yalan demişəm. Mən məktəbə bir il gec getməmişəm, əksinə, iki il tez getmişəm, beş yaşından. Çünki beş yaşından əlifbanı öyrənmişdim, nağılları oxuyurdum, elə bilirdim ki, bu səfeh dünya da o nağıllar kimi bir şeydir... (*Gülür.*) Nə isə... Mən onuncu sinifdə oxuyanda on beş yaşım var idi. İnanmırsan?

Q a d ı n. Niyə inanmıram? İnanıram.

G ə n c   k i ş i. Onda götür məni oğulluğa. Nədir, pisdir? Yoxsa, oğlun olsaydı, məndən yaxşısı olacaqdı? Götür məni oğulluğa... (*Sözünü yarımçıq kəsərək diqqətlə Qadına baxır.*) Mən də... mən də gedib sizin rayonun Təhsil şöbəsinə şikayət etmərəm ki, keçmiş şagirdinin əxlaqını pozmaqla məşğul olmusan! (*Gülür.*) Zarafat edirəm... Kim olsam da, bu səviyyəyə enmərəm... Nə bilim? Bəlkə də enərəm? (*Gülür.*) İnsan elə əcaib bir məxluqdur ki, ondan nə desən gözləmək olar! Düz demirəm? Sən özün birdən elə bir şey eləyə bilərsən ki, heç ağlına da gəlməz! Hə?

Q a d ı n (*çiynini çəkir*). Bəlkə də...

G ə n c   k i ş i. Görürəm!.. Görürəm ki, mənə nifrət eləyirsən!.. Elə!.. Elə bilirsən, belə baxmaqla, məcbur edəcəksən ki, mən vicdan

əzabı çəkim? Niyə? Mənim dırnağım olmayanlar vəzifə başındadır! Mən gedib adını yaza bilməyənin birinin, dünyadan xəbəri olmayan bir kütün qapısında dayanıb, boynumu bükürəm, bəs vicdan niyə protest eləmir? Onda nə üçün mən vicdan əzabı çəkməliyəm? Mən acından öləndə vicdan əzabı çəkənlər bəs haradaydı?

Q a d ı n. Sən acından ölmüsən?

G ə n c  k i ş i. Nə bilirsən ki, mənim acından ölən vaxtlarım olmayıb! Hə? Axı sən nə bilirsən e, mənim haqqımda? Heç nə! (*Get-gedə qızışaraq yamsılayır.*) "Cəfər Elsevər deyib ki, mən paltar oğurlamışam..." Bəli! Oğurlamışam! Ancaq həyatı (*barmağının ucunu göstərir*), bax, bu qədər babat olan bir adam gedib idman otağından paltar oğurlayar? Əgər mənim dəhşətli ehtiyacım olmasaydı, belə bir miskin iş tutardım? Bəs bunu niyə fikirləşmirsən? Cəfər Elsevər!.. Cəfər Elsevər neyləyir? Rüşvət alıb qəzetlərə məqalə yazır! Onu ifşa edir, bunu tərifləyir, hamısı da pulla! O əladır, ancaq mən pisəm! Qoy olsun! Götür məni oğulluğa, tərbiyə et! Sənin üçün də yaxşı olar! Tək qalmazsan. Bir yerdə yaşayarıq. Gəlinə tapşıraram, səni incitməsin. İcazə verərəm nəvələri gəzməyə apararsan!.. Hə, özünü yaxşı aparsan, evdə tək olanda, sənə icazə verərəm ki, hərdən gəlib girəsən yanıma! (*Gülür.*) Amma ayda bir dəfədən artıq yox!

Kiçik pauza.

Q a d ı n. Sən məndən kimin intiqamını alırsan?

G ə n c  k i ş i. Nə?

Q a d ı n (*elə bil, öz-özüylə danışır*). Elə hey fikirləşirəm ki, axı bu məndən kimin intiqamını alır?.. Nəyin intiqamını alır?.. Axı mən elə bir iş görməmişəm ki, məndən belə intiqam alsın... Axı nə etmişəm mən bu həyatda? Mən nə görmüşəm ki, nə də edim?

Kiçik pauza.

Bura bax, sən öz bədbəxtliyinin, öz acizliyinin intiqamını məndən alırsan?

G ə n c  k i ş i. Nə? (*Pərt.*) Mən niyə bədbəxt oluram? Gör, kim mənə aciz deyir?! Səndən aciz adam var, dünyada?

Q a d ı n. Yox.

G ə n c  k i ş i. Bax, belə! Sənin bütün həyatında bircə işıqlı şey olubsa, o da mənəm! Elə bilirsən, görmürəm ki, məndən necə ləzzət alırsan? (*Gülür.*) Ancaq sən də az aşın duzu deyilsən, ha?! (*Qadının*

*qarşısında o baş-bu baş addımlayaraq.*) Kim deyər ki, bu biganə, bu yaşlı xanımın, yox, xanımın yox, bu müəllimənin içində, necə bir görməmiş ehtirası var?!

Pauza.

Qadın (*sakit*). Deyirsən oğulluğa götürüm səni?

Gənc kişi. Bəli-i-i!..

Qadın (*eyni sakitliklə*). Onda bunu yumaq lazımdır...

Gənc kişi (*təəccüblə*). Yumaq lazımdır?

Qadın. Əlbəttə!

Gənc kişi. Vallah, sən mənim fikirləşdiyimdən də ağıllısan! Barışırıq, hə? Məni restorana aparırsan?

Qadın. Restorana niyə? (*Ayağa qalxır.*)

Gənc kişi (*gülür*). Bu fani dünyada restorandan yaxşı yer var?!

Qadın. Sonra baxarıq... Otur. (*Mətbəxə keçir.*)

Gənc kişi (*Qadının ardınca baxaraq*). Doğrudan da, vallah, bu qadınlar bir sirri-xudadır! (*Var-gəl edir.*) Kim deyə bilərdi ki, Anna Karenina özünü qatarın altına atacaq? (*Bərkdən.*) Kömək eləyim sənə?

Qadın (*mətbəxdən*). Yox...

Gənc kişi. Vallah, bu yaxşı adamdır... Mən də lap əclafın biriyəm!

Qadın əlindəki sinidə iki qədəh şampan şərabı ilə içəri girir.

O-o-o!.. Mən elə bilirdim, zarafat eləyirsən... Bəs, şampanın özü hanı?

Qadın. Soyuducuda. Əyləş. (*Qədəhləri mizin üstünə qoyur və oturur.*)

Gənc kişi. Bunun ayrı ləzzəti var!.. Mən də yapışmışam restorandan! Qozbeli qəbir düzəldər də! (*Gülür.*) Neyləyim? (*Oturaraq qədəhi əlinə alır.*) İçək, hə? Ana-bala olmağımızın şərəfinə? (*Bir neçə qurtum içərək göz vurur.*) Ancaq bu gün, deyəsən, ana-bala olmağımızı yaddan çıxaracağıq!.. Sənin sağlığına! (*Yenə bir neçə qurtum içir.*) Pis sözlər deyirəm... Bağışla məni... Özüm də bilirəm ki, pis sözlər deyirəm... Səninlə çox qəddar zarafat edirəm... Ancaq hər şey keçib-gedir... Sənin də ağrın keçəcək... Bilmirəm, sən görmüsən, yoxsa yox? Ağacın budağını kəsəndə, bir müddət ağlayır, şirəsi tökülür, ancaq sonra hər şeyi yadından çıxarır, o kəsik yerinin üzünü qabıq örtür, ağac daha da cavanlaşır, sağlam olur!..

Pauza.

(*İçir.*) Yaxşı, bağışla da məni...

Q a d ı n. Gecdir.

G ə n c  k i ş i. Bağışlamaq heç vaxt gec deyil. Sadəcə, bağışlamağı bacarmaq lazımdır!.. Bilirəm, ürəyinə toxunuram sənin... Amma sən məndən uca ol də! Sən yüksəkdə dayan! Sən bağışla!.. Axı sən də mənim ürəyimə dəyirsən... (*İçir.*) Yoxsa elə bilirsən, mənim ürəyim daşdandır? Yox... Mənim ürəyim də, təəssüf ki, daşdan deyil... Deyirsən, mən öz bədbəxtliyimin intiqamını səndən alıram... Bundan dəhşətli söz olar, mənə deyirsən?..

Pauza.

Nə bilim... Amma xoşbəxtlik də çox nisbi bir şeydir... Kimdir xoşbəxt? Göstər mənə!.. Mən, doğrudan, sənin sağlığına içirəm! (*İçir.*) Vallah, mən səni həqiqətən sevirəm!.. İnanmırsan?

Pauza.

(*Barmağının ucunu göstərir.*) Heç bu qədər də inanmırsan? Hə?

Qadın başını bulayır.

Nahaq! Dünyada pis adam yoxdur! Sadəcə, insanları başa düşmək lazımdır... Sən elə bilirsən ki, məni tanıyırsan? Bəlkə mənim də elə arzularım olub ki, sənin o ulduzlar aləmindən də yuxarıda dayanıb?! Sən nə bilirsən ki, mən ürəyimdə nə çəkirəm? Bəlkə mən özümə səndən də artıq nifrət edirəm? Nə bilirsən? Düz demirəm?

Q a d ı n (*çiyinlərini çəkir*). Nə bilim?..

G ə n c  k i ş i. Yox, düz deyirəm! Məsələn, mən yüz faiz bilirəm ki, sən pis adam deyilsən!

Q a d ı n (*gülümsəyir*). Bilmək olmaz...

G ə n c  k i ş i. Yüz faiz!

Q a d ı n. Bəs, sən?

G ə n c  k i ş i. Mən?

Q a d ı n. Hə. Sən neçə faiz?

G ə n c  k i ş i (*gülür*). Nə bilim?.. Bilmirəm... (*Bir az tutulmuş.*)

Q a d ı n. Sənin öz ürəyindən xəbərin yoxdur? Niyə bilmirsən?

G ə n c  k i ş i. Sən elə bilirsən ki, adam öz-özünü tanıyır? Nə isə... Amma onu bilirəm ki, səninlə yaxşı rəftar eləmirəm...

Pauza.

Deyəsən sentimental olmuşam... Səndən keçib də, mənə... (*Gülür.*) Əgər, insan sentimental adamdırsa, deməli, yaxşı adamdır! Hə?

Qadın (*yenə çiyinlərini çəkir*). Nə bilim?..

Gənc kişi. Axı dedim ki... səndən xahiş etdim ki, məni bağışla də!.. Səni heç belə fikirli görməmişəm... İstəyirsən diz çöküb ayaqlarını qucaqlayım?

Qadın. Yox, istəmirəm...

Gənc kişi. Mən səni tanıyıram, əvvəl-axır bağışlayacaqsan... Lap elə bu gecə bağışlayacaqsan!.. (*İçir.*) Mən deyirəm də, sənin əlin dadlı əldir!

Qadın gülümsəyir.

Şampan da, elə bil, adi şampan deyil. Sən süzmüsən qədəhlərə, ona görə dadlı olub!..

Qadın gülümsəyir.

Gəl, hər şeyi təzədən başlayaq! Vallah, yaxşı olar!.. Mən çox şeyi başa düşmüşəm... Sənin ürəyinə toxunmağıma baxma... Bəlkə də sən düz deyirsən... Həyatda mənimki gətirmədi... Bəlkə elə o kompleksdi məni məcbur edir ki, səninlə belə rəftar edim? Bəlkə sənə baxanda, özümü daha dərindən görürəm, özüm özümdən qorxuram, özüm özümü bağışlaya bilmirəm, ona görə belə edirəm? Elə bilirsən, mən heç bir əzab çəkmirəm? Bəlkə mən səndən də çox əzab çəkirəm, nə bilirsən?

Kiçik pauza.

Gəl, gəl, təzədən başlayaq! Doğru deyirəm!

Qadın. Sənin doğru sözün var?

Gənc kişi (*gülür*). Niyə yoxdu? (*Şampanı axıra qədər içib piyaləni mizin üstünə qoyur.*) Mən deyəsən sənin yanında o çobana dönmüşəm?!

Qadın. Hansı çobana?

Gənc kişi. Bir çoban qışqırır ki, ay-haray, sürüyə canavar girib! Camaat axışıb haraya gəlir, görürlər ki, canavar-zad yoxdu. Çoban bir dəfə də hay-küy salır ki, ay aman, sürüyə canavar girib! Camaat yenə axışıb haraya gəlir. Yenə görürlər ki, canavar yoxdu. Bir müddət keçir, çoban üçüncü dəfə təzədən qışqırır ki, ay camaat, kömək eləyin, sürüyə canavar girib! Daha heç kim haraya gəlmir, hamı elə bilir ki, çoban yenə yalandan qışqırır. Ancaq, sən demə, bu dəfə doğ-

rudan da sürüyə canavar giribmiş! Sürünü də dağıdır, o yazıq çobanın da boğazını gəmirir. (*Gülür.*) İndi, deyəsən, mən də o çobanam!

Qadın. Mən də canavar!

Gənc kişi (*gülür*). Səndən canavar çıxmaz!

Qadın. Bilmək olmaz!

Gənc kişi (*elə bil, nədənsə şübhələnir*). Bilmək olmaz?

Qadın (*başı ilə təsdiq edərək*). Hə.

Pauza.

Gənc kişi (*birdən boğazını tutaraq öyüməyə, yerində qıvrılmağa başlayır*). Mənə... mənə nə oldu?.. (*Dəhşətlə Qadına baxaraq qışqırır.*) Nə etmisən?

Qadın (*sakit*). Demirdin ki, sənin qarşına gərək Messalina çıxaydı?

Gənc kişi (*boğula-boğula*). Mənə... mənə nə vermisən?

Qadın (*eləcə sakit*). Sənin yadından çıxıb ki, mən kimya müəllimiyəm?

Gənc kişi (*iki əli ilə boğazını tutub ayağa qalxaraq Qadına hücum etmək istəyir*). Ay... ay... qancıq! Mənə... mənə əlin qalxdı? Elə bilirsən... Elə... Bilirsən... (*Yerində səndirləyir.*) Canavar!.. Canavarmışsan... sən!.. Kim deyərdi? Kim deyərdi ki, sən canavarsan?.. (*Əlləri ilə kitab rəflərindən yapışır və rəflərlə birlikdə gurultuyla yerə sərilir.*) Kömək elə... (*Qışqırır.*) Mənə kömək edin!.. Həkim çağırın!.. (*Yerində qıvrılır.*) Qoyma!.. Qoyma ölüm... Sən özünü də məhv edirsən... Qoyma!.. (*Xırıldayan səsi ilə var gücüylə qışqırmaq istəyir.*) İstəmirəm!.. Ölmək istəmirəm!.. (*Ağlayır.*) Mən... yaxşı adamam... Sən bilmirsən... Sən məni tanımırsan... Mən yaxşıyam... mən... mən səni sevirəm... Qorxuram!.. Qorxuram!.. Ölürəm... (*Güclə xırıldayır.*) Kömək... elə... Mən bilmirdim ki... sən belədən... Bağışla məni... Yazığın... Yazığın gəlsin... (*Xırıldayaraq yerində çapalayır və hərəkətsiz donub qalır.*)

Uzun pauza.

Qadın. Sən düz deyirdin! Sən (*əlini pəncərənin şüşəsinə tərəf qaldırır*) oradan gəlmişdin! Çünki sən mənim taleyimə yazılmışdın! Hə, sən oradan gəlmişdin, çünki bunu da düz deyirdin, yazıya pozu yoxdur! Yəqin... Yəqin mən də sənin taleyinə yazılmışdım... (*Güclə yerindən qalxıb pəncərəyə yaxınlaşır və şüşələri taybatay açaraq qışqırır.*) Amma niyə? Nə üçün?

Q o n ş u  k i ş i (*qapı arxasından*). Olar? Bu nə səs-küydür belə? (*İçəri daxil olur.*) Nə olub, məlimə? (*Heyrət içində gah Qadına, gah da yerə sərilmiş cəsədə baxır.*)

Q a d ı n (*ona tərəf çevrilir, gülümsəyərək sakit*). Sizi təbrik edirəm!..

Q o n ş u  k i ş i. Məni?

Q a d ı n. Hə!..

Pauza.

(*İki biləyini də Qonşu kişiyə tərəf uzadır.*) Axır ki, qatil həbs etdiniz!

Q o n ş u  k i ş i (*yerdə uzanmış Gənc kişiyə baxaraq dəhşət içində geriyə addımlaya-addımlaya*). İstəmirəm!.. İstəmirəm!.. İstəmirəm!..

İşıq sönür.

S O N

*10-17 avqust 2002,*
*Zuğulba*

# HİDAYƏT

(1944)

*Hidayət Xuduş oğlu Orucov – şair, dramaturq, nasir, tərcüməçi – Qərbi Azərbaycanda, Zəngəzurun Miqri bölməsinin Maralzəmi kəndində anadan olmuşdur. Aldərə orta məktəbini (qızıl medalla), ADU-nun filologiya fakültəsini (qiyabi) bitirmişdir (1963-1968). Maralzəmi kəndində müəllim (1964-1968), "Sovet Ermənistanı" qəzetində ədəbi işçi (1960-1968), C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru işləmişdir (1968-1984).*

*Qərbi Azərbaycan Yazıçılar Birliyinin Azərbaycan Ədəbiyyatı Şurasına rəhbərlik etmiş, İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsində XIX-XX əsr Azərbaycan ədəbiyyatından dərs demişdir. Onun təşəbbüsü ilə Qərbi Azərbaycanda onlarca şair və nasirlərin kitabları İrəvanda çap olunmuş, "Ədəbi Ermənistan" məcmuəsi nəşr olunmuşdur.*

*Bakıda "Gənclik" nəşriyyatının baş redaktor müavini (1984-1986), baş redaktoru (1986-1992) vəzifələrində işləmişdir.*

*"Heydər Əliyev və Azərbaycanda milli siyasət" monoqrafiyası rus, ingilis, gürcü dillərində nəşr olunmuşdur. İyirmidən çox poeziya, publisistik, nəsr, tərcümə və s. kitabların müəllifidir. Yazıçının xarici dillərdə nəşr olunmuş "Mən belə yaşayıram" (rus), "Axtarış", "Sənsiz" (gürcü), "Sabaha çox var" (Dağıstan) və s. kitabları maraqla qarşılanmış, iyirmidən çox dilə çevrilmişdir.*

*V.Şekspirin "Sonu yaxşı bitən hər iş yaxşıdır" pyesini, Harriet Viçer-Stounun "Tom dayının daxması" romanının, XIX əsr ingilis, island poeziyasının ən yaxşı nümunələrini, türk, rus dilindən bir çox əsərləri Azərbaycan dilinə çevirmişdir. Azərbaycan Yazıçılar Birliyinin İdarə heyətinin, "Ədəbiyyat" qəzetinin redaksiya heyətinin üzvüdür.*

*1992-ci ildə Azərbaycan Respublikası Prezidentinin millətlərarası münasibətlər üzrə müşaviri, 1993-cü ildən isə Azərbaycan Respublikasının milli siyasət məsələləri üzrə Dövlət müşaviri olmuşdur. Hal-hazırda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədridir.*

*Azərbaycan Yazıçılar Birliyinin üzvü (1978), Əməkdar incəsənət xadimi (1991), Azərbaycan Respublikasının "Şöhrət", Gürcüstanın "Ləyaqət" ordenləri, Dağıstan Respublikasının Fəxri Fərmanı, Əməkdə igidliyə görə medalını almışdır.*

# MƏNİ QINAMAYIN

*üç pərdəli dram*

İŞTİRAK EDİRLƏR

| | |
|---|---|
| Şahin | – gənc jurnalist |
| Günay | – ədəbi işçi |
| Vəli Qulamoviç | – qəzetin şöbə müdiri |
| Məmiş | – ədəbi işçi maaşı alan |
| Harayxanım | – makinaçı |
| Salahov | – saat zavodunun baş direktoru |
| Ənvər | – Salahovun gəncliyi |
| Mehriban | – Şahinin anasının gəncliyi |
| Redaktor | – qəzetin redaktoru |
| Nərgiz | – redaktorun katibəsi |
| Nümayəndə | – şəhər partiya komitəsinin nümayəndəsi |
| Mirzəqulu | – hamam direktoru |

Zaman – bizim günlər.
Məkan – Araz boyunda bir şəhər.

## BİRİNCİ PƏRDƏ

Səhnə təqribən üç hissəyə bölünmüşdür. Ortadakı otaq sənaye və nəqliyyat şöbəsidir. Başdakı boş stol şöbə müdirinindir. Stolun üstündəki dirsəkli lövhə səhnədən aydın oxunur: "Şöbə müdiri yol. Vəli Qulamoviç məzuniyyətdədir". Vəli Qulamoviçlə üzbəüz Məmişin stoludur. Yaşı əlliyə yaxın bir kişidir Məmiş. Saçları gecə kimi qaradır, qaşları həmişə dartılır, özünü elə göstərir ki, işgüzardır, dərin savadı var, qəzet işindən yaxşı başı çıxır və sairə və ilaxır. Otağın aşağı hissəsində iki stol qoyulubdur üz-üzə. Bunlardan birində kifayət qədər təcrübəyə malik ədəbi işçi Günay, o birində gənc Şahin əyləşibdir. Sol tərəfdə redaktorun otağıdır. Amma nədənsə, katibəsi səhnənin önündə əyləşib. Səhnənin dərinliyindən həmişə yazı makinalarının səsi gəlir. (Əlbəttə, Harayxanımın öz səsi kəsiləndə.) Bəzi epizodlar səhnənin önündə cərəyan edir. Redaktorun katibəsi nə isə yazır.

Şahin (*gəlir*). Salam. Redaktor yerindədir?

Nərgiz. Он занят. Посидите немножко, пожалуйста.

Şahin. Qulamov yoldaş gəlib? Redaktor dünən mənə dedi ki, gəlim onunla tanış olum.

N ə r g i z. Нет еще... Вы что, не знаете по-русски?

Ş a h i n. Bilirəm, ingiliscə də pis bilmirəm, fransızca da, farsca da...

N ə r g i z. Что вы говорите? Неужели?! Я по-французскому четыре раза экзамен сдавала, но до пятерки не дотянула.

Ş a h i n. Bəs azərbaycanca necə? Bircə dəfə imtahan vermək fikrinə düşübsünüz?

N ə r g i z. Не приходилось.

Ş a h i n. Çox təəssüf!

N ə r g i z. Уже поздно. Для этого нужны годы.

Ş a h i n. Neçə yaşındasınız?

N ə r g i z. Двадцать три.

Ş a h i n. Lermontov da bu yaşda azərbaycanca öyrənməyə başlayıb.

N ə r g i z. Кто?

Ş a h i n. Mixail Yuryeviç Lermontov.

N ə r g i z. Интересно... нет, это правда? Вы не шутите?

Ş a h i n. Yox, həqiqi sözümdür. Lermontov deyib ki, Azərbaycan dili Şərqin fransız dilidir. Bu dilin əlindən tut, bütün Yaxın Şərqi və Asiyanı qədəm-qədəm gəz.

N ə r g i z. Ma-raq-lı-dır... С вами приятно, Шахин. Действительность становится чудом, а чудо действительностью. Ты, принципиальный, откровенный и прямой. Но сколько вы можете продержатся на своих принципах?

Ş a h i n. Həmişə, ölüncə!

N ə r g i z. Сколько я еще должна говорить на русском, а вы будете отвечать на азербайджанском?

Ş a h i n. O sizdən asılıdır.

N ə r g i z. По вашему, я могу говорить и писать на азербайджанском так, как вы?

Ş a h i n. Əlbəttə!

N ə r g i z. Не поздно ли?

Ş a h i n. Qətiyyən!

N ə r g i z. Вот будет помеха для моих подруг...

Ş a h i n. Əsla! Təbiət də gülümsəyər durnalar qayıdanda...

N ə r g i z. "Dur-na-lar qa-yı-dan-da..." Bu ki mahnıdır...

Ş a h i n. Hər ömür bir mahnıdır, Nərgiz! Siz də bir mahnısınız, bəlkə də elə "Durnalar qayıdanda"...

N ə r g i z. Dur-na-lar qa-yı-dan-da... Очень поэтично...

Ş a h i n. Sizin adınız nədir?
N ə r g i z. Не знаете? Наза.
Ş a h i n. Əsil adınızı deyirəm...
N ə r g i z. Naza... Nərgiz.
Ş a h i n. Qəşəng addır. Bilirsiniz o çiçək harda bitir?
N ə r g i z. В Бакинском пригороде.
Ş a h i n. Qoxlayıbsınız?
N ə r g i z. Да. В анкете еще много вопросов?
Ş a h i n. Yox. Bircə məsləhətim var, Nərgiz, ana dilimizdə danışın. Bura axı, "Azərbaycan" qəzetidir.

Qulamov gəlir.

Q u l a m o v. Yerindədir?
N ə r g i z. Şahin, ta-nış o-lun, yol-daş Qulamov. Si-zin şö-bə-nin mü-di-ri. Вели Гуламович, Шахин – ваш новый сотрудник, познакомтесь, пожалуйста.
Ş a h i n (*əl uzadır*, *lakin əli havada qalır*). Çox şadam.
Q u l a m o v. Tanış olmasaq da olar, özləri doğub, özləri də bələyiblər. (*Redaktorun yanına keçir.*)
R e d a k t o r. Bay, xoş gəlmisən, ağsaqqal, istirahətin necə keçdi...
Q u l a m o v. Nə oldusa, zəhrimara döndərdiniz də...
R e d a k t o r. Nə olub ki?
Q u l a m o v. Qapıdan kənara ayaq basan kimi, bıçağı vurmusan kürəyimə, niyə məndən icazəsiz şöbəmə adam götürübsən?
R e d a k t o r. Birinci dəvət edib, universitetin rektoru ilə şəxsən danışıb... Mən nə edə bilərdim...
Q u l a m o v. Mənə kələk gəlmə, bunlar hamısı sənin fırıldağındır. Ancaq unutma ki, mənə də Veli Qulamoviç deyəllər. Qırx ildir burada külüng vururam, sənin kimi on bir redaktor yola salmışam.
R e d a k t o r. Niyə hirslənirsən, ağsaqqal? Mən səni sevən adamam, özün bilirsən.
Q u l a m o v. Sevsəydin, yerimə adam hazırlamazdın. Katiblə əlbir olub, bura şəhərdən kozır gətirməzdin.
R e d a k t o r. Elə deyil, vallah... Şahin sən deyən oğlanlardan deyil. Onu ancaq yaradıcılıq maraqlandırır. Mərkəzi qəzetlərdəki məqalələrini özün tərifləyirdin. Katib də istəyir ki, bizim qəzetlərimizdə onun kimi müxbir işləsin... Bir də nə bilirsən... bəlkə onu sənin yerinə yox, mənim yerimə hazırlayırlar?

Q u l a m o v. Əvvəl mənim yerimə, sonra yəqin sənin yerinə. Yaxşı, saat zavoduna onu kim göndərib?

R e d a k t o r. Katib. Mən də etiraz eləmədim... Oradan deyəsən nə isə yazıb... Bax...

Q u l a m o v. Fəhlələrlə görüşüb, artıq-əskik, başından böyük sözlər danışıb, xəbərin var?

Redaktor zəngi basır. Katibə redaktorun qapısı ağzında görünür.

R e d a k t o r. Şahin gəlsin. (*Şahin redaktorun kabinetinə daxil olur.*) Saat zavodu barədə yazın hazırdırmı?

Ş a h i n. Bəli.

R e d a k t o r. Verərsiniz şöbə müdiri Veli Qulamoviç oxuyar.

Ş a h i n. Baş üstə.

R e d a k t o r. Sonra mənim yanıma gələrsiniz.

Q u l a m o v (*ayağa qalxır*). Gedək! (*Çıxırlar. Şöbəyə çatanadək söhbət edirlər.*) Mənim də şöbəm vedyuşşidir, bəli, vedyuşşi şöbədir... Və bil ki, sənin birinci və... sonuncu xozeynin mənəm...

Şöbə. Günay daxil olur.

H a r a y x a n ı m. Harada yatıb qalmısan aazz?.. Təzə xəbər var e...

G ü n a y. Gecə növbətçi idim.

H a r a y x a n ı m. Belə də iş olar? Arvad xeylağını göndərirlər ki, get, gecələr hərf qov...

G ü n a y. Peşəmizdir, vəzifəmizdir.

H a r a y x a n ı m. Təzə xəbər var, e, aazz... "Heç xəbərin yoxdur xəbərdən..."

G ü n a y. Yenə nə olub, ay sorğusuz məlumat bürosu?

H a r a y x a n ı m. Veli Qulamoviçi əvəz elədiyinə görə deyirəm ha... Təzə ədəbi işçi... o sütül dünən bir məqalə yazdırırdı Təranəyə. Adı nə idi... Hə, felyeton... saat zavodu haqqında. Aazz... deyirlər, yaman xatalı adamdır e, o sütül...

G ü n a y. İstedadı hələ də xata sayanlar var?

H a r a y x a n ı m. Görəcəksən, o felyetonun xatası sənə də gələcək, oxuyanda görəcəksən...

G ü n a y. Oxumuşam, bilirəm...

Qulamov və Şahin gəlirlər.

Q u l a m o v. Bu stolu sənə verirəm. Yaxşı saxlarsan, qıçına da toz qonmasın gərək. Döyüşçü öz silahını tərtəmiz saxladığı kimi, jurnalistin də stolu gərək par-par yana.

H a r a y x a n ı m. Xoş gəlmisiniz, yoldaş Qulamov.

Q u l a m o v. Yəqin tanışsınız. Harayxanım bizim ilk çitatelimizdir, vışşi maşinistkadır.

H a r a y x a n ı m. Allah, sənə min şükür, adımız birinci çəkildi. Bura bax, təzə ədəbi işçi, maşinistka olanda nə olar? Bax, Günay yazmasa, qəzet çıxar, mən yazmasam, yox. Məsul katib işə gəlməsə, qəzet çıxar, linotipçi Vəliqulu lap yalandan naxoşlasa – yox. Mən getdim ta. (*Oxuya-oxuya gedir.*)

Q u l a m o v. Stolun üstündə artist-martist, qız-mız şəkli görməyim. Bəri gəl, əyləş, sənə kompas verim. Çəkirsən?

Ş a h i n. Hərdənbir.

Q u l a m o v (*stolun üstündəki lövhəni çevirir: "Papiros çəkmək qadağandır!"*). Mənim şöbəmdə qəti qadağandır! Vurursan?

Ş a h i n. Bəlkə işdən danışaq, mənim öz imzamla ilk yazım, bax budur, Günay xanım oxuyubdur... Siz...

Q u l a m o v. Yox, balam, indiki cavanların tərbiyəsində görməli çox iş var. (*Məqaləyə baxır.*) Bəs hanı Günayın qolu?

Ş a h i n. Yəqin imza atmağı unudubdur...

G ü n a y. Yox, unutmamışam. Məqalə yaxşıdır, rubrikası da düz tapılıbdır: "Satirik qələmlə". Amma, vallah, bilmirəm, bizdə gedərmi? Qoy yoldaş Qulamov oxusun, "hə" deyərsə, əlbəttə, qol çəkim...

Ş a h i n. Bəs sizin öz fikriniz? Sizin şəxsi münasibətiniz?

Q u l a m o v. Bizim qəzetdə yalnız bir fikir olmalıdır – partiyanın fikri! Günayın, sənin, hətta mənim fikrim kimə lazımdır? Bu, partiya qəzetidir, cavan oğlan.

Ş a h i n. Partiyanın fikri... Amma bilirsinizmi, o müdrik fikri xalqa çatdırmağın min yolu, min üsulu var.

G ü n a y. Nə bilim, vallah, axı bizdən hələ belə material getməyib... nə deyim, vallah, şöbə müdiri var, redaktor var...

Q u l a m o v. Oxuyarıq, proverka edərik... sonra deyərik... Günay xanım düz deyir: у нас единое руководство!

Məmiş daxil olur.

M ə m i ş. Qulamov, xoş gəlmisən, yenə... bir dəqiqə olar?

Q u l a m o v. Buyur.

M ə m i ş. Necə edim ki, keçim o otağa, Qulamov? (*Başı ilə redaktor müavininin otağını göstərir.*) Bir də gördün ki, bir anası göyçək səssiz-səmirsiz keçib əyləşdi orda. Deyəcəklər yuxarıdan göndəriblər, vəssalam.

G ü n a y (*istehza ilə*). Sən də elə səssiz-səmirsiz keç otur də, Məmiş.

M ə m i ş. Keçərdim, bircə redaktordan çəkinirəm. Ədə, bir prikazı yazmaq nə çox çəkdi?

Q u l a m o v (*Şahinə*). Məmiş yoldaşı tanıyırsan? (*Ətrafa.*) Görməmiş desəydilər, daha düz olardı. (*Ciddi tərzdə.*) Gələcək redaktor müavinidir.

Ş a h i n. Sumbatzadənin yerinə?

M ə m i ş (*özündən çıxır*). Yox, bala, Sumbatzadə mənim yerimə keçmişdi. Mən bu qəzeti təkbaşına çıxardanda Sumbatzadə boynunda pioner qalstuku həyətlərdə kos qovurdu. (*Çıxır.*)

Ş a h i n. Keçmiş redaktordur?

Q u l a m o v. Yox, canım, onda baş hardaydı redaktor olsun, keçmiş redaktorun dostuydu, indikinin qohumu. Əsil peşəsi korrektorluqdur, sonra şəkilçəkən oldu, sonra məsul katibin köməkçisi. Bir ildən çoxdur katiblə kontr olublar, əlini ağdan-qaraya vurmur, bütün günü əyləşib lağlağı edir. Oturub vəzifə gözləyirdi, Allah yetirdi...

Ş a h i n. Axı o əsil jurnalist deyilsə, necə redaktor müavini ola bilər?

Q u l a m o v. Belə... hə... mənim də məzuniyyətdən sonra proverkam sənin bu materialın olsun. (*Məqaləni gözdən keçirir.*)

Ş a h i n. Mən bu dəqiqə... (*Çıxır.*)

Redaktorun kabineti. Məmiş daxil olur.

M ə m i ş (*qapını daldan bağlayır*). İman, beşcə dəqiqəyə məni dinləyə bilərsən? Tükəzbanın canı, səndən elə incimişəm ki... Axı biz dədə-baba kirvəyik. Kim nə deyir desin, indi arvad qohumu qardaşdan irəlidir.

R e d a k t o r. Dərdli adama oxşayırsan, Məmiş.

M ə m i ş. Axşam Tükəzban deyir ki... canım üçün, həqiqi sözümdür, sənin irəhmətlik qaynatan Alının qoca babası Məddimqulu kişi hər gün mənim qaynatamın qapısındaymış... Buğdadan, arpadan...

R e d a k t o r (*onun sözünü kəsir*). Dərdini söylə, Məmiş. (*Kənara.*) Elə o tünbətün qaynatalar yıxacaq mənim evimi...

M ə m i ş. Nə olar, qohumluqdu da, biri vəzifəyə qalxar, biri enər, biri qalxmaq istər... Biri ministr olar, biri qara fəhlə... Tükəzbanın başı üçün, həqiqi sözümdür. Qohum gərək həmişə qohumun əlindən tuta, İman. Qohum gərək arxasını həmişə qohumuna söykəyə, kişi! Qohum qohumun ətini yeyər, amma sümüyünü çölə atmaz, Tükəzbanın canı, düz deyirəm.

R e d a k t o r. Düz deyirsən, Məmiş! (*Saatına baxır.*) Yuxarıya çağırıblar, sən allah, üççə dəqiqə vaxtım var, qısa elə.

M ə m i ş. Bir kor qız kimi atılıb qalmışam ortada. Bəs Məmiş belə oğlandır? Yox, ona stol yaraşır, rəhbərlik yaraşır, tamadalıq yaraşır.

R e d a k t o r. Nə demək istəyirsən, Məmiş, açıq danış.

M ə m i ş (*qəzetə bükülü maketi açır, tumarlaya-tumarlaya, oxşaya-oxşaya redaktora göstərir. Bu, redaktor müavini kabinetinin maketidir*). Bu otağı havaxt verirsən mənə?

R e d a k t o r (*heyrətlə kənara*). Bu gədə psix deyil ki?

M ə m i ş. Əgər çox yubanacaqsa, gedim bir importnı qıfıl alım, gətirim vurum qapısına. Bir də gördün, yuxarıdan bir nənəsi göyçək gəlib oturdu orda, onda neyləyəcəksən? Bir qıfıldı də, axşam Tükəzbandan beşlik qoparmışam. (*Çıxarıb göstərir.*) Yadındadır, mən evi də elə aldım. Dəmir qapı salıb beş-altı yerdən qıfılladım, heç "tank ferdinant" da gətirsəydilər, açammazdılar. Sonra gecənin birində köçdüm ora. Çıxarmaq istədi həriflər. Ay-hay, çıxardılar ha... Heç padşah da gəlsəydi, Tükəzbanı yerindən tərpədə bilməzdi.

R e d a k t o r (*kənara*). Şizofrenikdir... (*Saatına baxır, Məmişə.*) Elə bilirsən mən istəmirəm sən keçəsən o otağa? Burda mənə səndən yaxın kim var? Amma qoymurlar, Məmiş!

M ə m i ş. Kim qoymur?

R e d a k t o r. Yuxarıdakılar. Deyirlər, heç əməlli-başlı orta savadı da yoxdur. Qırx yaşından sonra qiyabi orta məktəb qurtarıb. Qiyabi orta məktəb qurtaranlara, bilirsən də... indi necə baxırlar...

M ə m i ş. Onda, İman, İmam haqqı yazacağam.

R e d a k t o r. Yaz! Amma yalnız bu vəzifə üçün yox. Belə yazsan, deyərlər, redaktorun da barmağı var. Bir-iki də ayrı vəzifə qeyd elə, həm məndən görməsinlər, həm də biri tutmasa, o biri tutsun.

M ə m i ş. Ağıllı məsləhətdir, Tükəzbanın başı üçün düz deyirəm.

R e d a k t o r (*saatına baxır*). Get yaz, Məmiş, tez göndərsən yaxşıdır.

M ə m i ş. Yazım gətirim, bir əməlli-başlı redaktə elə.

R e d a k t o r. Yox, onda məni üslubumdan tanıyarlar.

M ə m i ş. Yaxşı, kirvəmə verərəm düzəldər, tavaraveddi. Sağ ol.

R e d a k t o r (*kənara*). Bunlara belə lazımdır, gərək dovşana qaç deyəsən, tazıya tut!

M ə m i ş (*çıxmaq istəyəndə Şahinlə üzləşir*). Yazacağam. Lap atalarını da yandıracağam, kəndlərini odlayacağam bunların. Hərəsi birinin quyruğundan tutub vəzifə sahibi olmaq istəyir. (*Deyinə-deyinə çıxır.*)

R e d a k t o r. Şahin, gəl əyləş. Bizə gələndən səninlə bir əməlli-başlı söhbət eləməmişəm. Dünən şəxsi işinə baxdım. Budur, (*şəxsi işi vərəqləyir*) Qayalı Şahin Ənvər oğlu, 1958-ci ildə anadan olmusan. Moskvada. Nə üçün Moskvada?

Ş a h i n. Valideynlərim o vaxt Moskvada oxuyurmuşlar.

R e d a k t o r. Maraqlıdır, harda? O illər mən də orada oxumuşam.

Ş a h i n. Anam universitetdə...

R e d a k t o r (*sözünü kəsir*). Dayan, yoxsa Mehribandır?

Ş a h i n. Bəli, anamın adı Mehribandır, orda ki yazmışam. Harda işlədiyini qeyd etmişəm.

R e d a k t o r. Bəs atanın harada işlədiyini niyə göstərməmisən?

Ş a h i n. Atam həlak olub.

R e d a k t o r. Kim deyir onu?

Ş a h i n. Anam danışıb. 23 yaşında həlak olub. Göylərdə. On bir nəfəri paraşütlə yerə göndərib, özünü xilas etməyə vaxtı qalmayıb.

R e d a k t o r. Anan indi hardadır, Bakıda?

Ş a h i n. Xeyr, Gəncədə... Bayaq da qəribə soruşdunuz. Siz mənim anamı haradan tanıyırsınız?

R e d a k t o r. Dedim ki, o vaxt mən də Moskvada oxuyurdum.

Ş a h i n (*sevinclə*). Yəqin siz mənim atamı da tanıyırdınız?

R e d a k t o r. Əlbəttə, əlbəttə, tanıyırdım.

Ş a h i n. Sizdə onun şəkli yoxdur ki, bəlkə birlikdə çəkdirmisiniz? Anamda yoxdur. Atamı elə görmək istəyirəm, heç olmasa şəklini...

R e d a k t o r (*fikirli*). Evə baxaram, bəlkə də var... Demək, saat zavoduna getmişdin? Kiminlə görüşə bildin?

Ş a h i n. Fəhlələrlə, mühəndislərlə.

R e d a k t o r. Bəs direktoru görə bilmədin?

Ş a h i n. Xeyr, qəbul etmədi.

R e d a k t o r. Nə üçün? Gəlişini qabaqcadan bilmirdi?

Ş a h i n. Bilirdi.
R e d a k t o r. Hə, təəssüratın necədir?
Ş a h i n. Oxuyarsınız, görərsiniz.
R e d a k t o r. Yaxşı, sağ ol... Yerində ol, lazım olsa, çağıraram.

Şahin gedir. Redaktor dəstəyi götürüb nömrə yığır.

R e d a k t o r. Ənvər, yerindəsən? Necəsən?
S a l a h o v. Sən yoxlayanı, yaxşıyam.
R e d a k t o r. Nə vaxtdan, şəhər partiya komitəsinin orqanı olan bir qəzeti saymamağa başlamısan, bala?
S a l a h o v. Bu nə sözdür, professor?
R e d a k t o r. Yanına müxbir göndərirəm, zəhmət çəkib qəbul etmirsən. Bilirsən heç o kimdir? Adı mərkəzi qəzetlərdə gur-gur guruldayan bir oğlan...
S a l a h o v. Biz də xalq üçün əlləşirik, professor.
R e d a k t o r. Niyə onu qəbul eləməmisən?
S a l a h o v. Eləməyəcəyəm də. Qoy getsin baş mühəndisin yanına.
R e d a k t o r. Səndən bir söz soruşmaq istəyirəm.
S a l a h o v. Tez elə, yanımda iclasım var.
R e d a k t o r. Mehribanı son vaxtlar nə vaxt görmüsən?
S a l a h o v. Hansı Mehribanı? Hə? Nə olub?
R e d a k t o r. Oğlundan heç xəbərin var?
S a l a h o v. Yox.
R e d a k t o r. Mən səni bu qədər qəddar bilməzdim. Demək, bu neçə illər heç maraqlanmamısan oğlun hardadır, necədir? Heç onu görmək xəyalına da düşməmisən?
S a l a h o v. Nə olub?
R e d a k t o r. Ayıl. Özünü ələ al ki, sənə bir şad xəbər verəcəyəm. Validolun var yanında?
S a l a h o v. Şad xəbərə nə validol?
R e d a k t o r. Hərdən lazım olur.
S a l a h o v. Hesab et ki, dilimin altındadır, sözünü de.
R e d a k t o r. Şahin tamam sənin gəncliyindir, elə bil, bir almanı yarı bölüblər...
S a l a h o v. Şahin kimdir?
R e d a k t o r. O gənc jurnalist, yerişi, duruşu, baxışları, saçları... sənsən ki, varsan!

Salahov. Nə olsun?

Redaktor. Səsi də sənə oxşayır, saçları da, sifəti də, möhkəmliyi də...

Salahov. Adam adama oxşayar da...

Redaktor. O sənin oğlundur, Ənvər! Susma, danış, danış ki, yüngülləşəsən... Validolun yoxdursa, zəngi bas, katibən gətirsin. İnderal daha yaxşıdır, birini at, təzyiqini aşağı salsın... birini at, at ki, ürək döyünmən azalsın...

Salahov. Mən belə bomboz xəbərlərə alışmışam.

Redaktor. Fərasətli oğlandır, onunla fəxr edə bilərsən, Ənvər!

Salahov. Anası da gəlib?

Redaktor. Yox, o, Şahinin bura gəlməsinə heç razı deyilmiş... İşin sonunadək yerindəsən? Biz görüşməliyik... (*Redaktor dəstəyi asır.*)

Şöbə.

Məmiş (*gəlir*). Vallah, bir zəlzələ salacağam bu redaksiyaya, gəl görəsən? Yazacağam... Atalarını yandıracağam.

Günay. Yaz, Məmiş, yaz, amma qışqırma, sən allah, indicə o yandan da Harayxanım başlayacaq.

Məmiş. Qışqırmayım, bəs neyləyim? Sən bu xarabanın partkomunun müavinisən, yox?

Günay. Bəli.

Məmiş. Bircə dəfə də olsun, Məmiş Görməmişovun liçni işi ilə məşğul olubsan?

Günay. Hansı şəxsi işi ilə?

Məmiş. Bir dəfə durub redaktor müavinliyinə onun kandidaturasını podderjka eləyibsən?

Günay. Axı kim irəli sürüb o təklifi?

Məmiş. Siz ağzınıza su alıb oturandan sonra kim sürəcək? O cavan oğlan?

Günay. Məmiş, axı redaktor müavini kolxoz sədri seçkisi deyil ki, təklif irəli sürüb barmaq qaldıraq.

Məmiş. Demək, daha asandır da. Barmaq qaldırmaq olanda, biri istəyir, o biri yox. Verxuşqanın zəngi və redaktorun əmri, vəssalamşüttamam!

Günay. Büronun qərarını biz vermirik axı...

M ə m i ş (*ikimənalı*). Verərsiniz də, verməzsiniz də, baxır qormutuna...

G ü n a y. Redaktorun əmrinə biz qol çəkmirik, özü çəkir. Bir də düzünə qalsa, Məmiş, incimə məndən, düz söz nə qədər acı olsa da, min yalandan sərfəlidir, sən redaktor müavinliyinə layiq deyilsən!

M ə m i ş. Niyə? Yenə keçdin ingiliscəyə?

G ü n a y. Çünki redaktor müavini öz qələmi və yazı mədəniyyəti ilə gərək hamıdan ucada dursun.

M ə m i ş. Elə bu?

G ü n a y. Bu, birinci şərtdir. Başqa keyfiyyətlər də gərəkdir, amma birincisi yoxdursa, o biri keyfiyyətlər barədə də düşünməyə dəyməz.

M ə m i ş. O dediyin yazı-pozu sənə lazımdır. Qulamova lazımdır ki, oturub material hazırlayasınız, redaktor müavini isə vəzifədir, kollektiv rəhbərlikdir, birini tərifləyib, o birini tənqid etməkdir.

G ü n a y. Qəzet yaradıcılıq işidir, ona təşkilatçı deyil, istedadlı jurnalist rəhbərlik etməlidir.

M ə m i ş. İstedad? O nə şeydir elə? Qulamov istedadlıdır? Bəs nə təhər olub qələmi qoyub tüfəng götürüb, tüfəngi qoyub qələmi?.. Özü də düz otuz ildir bu ağır şöbəyə rəhbərlik edir. (*Qulamov yerində qurcalanır.*) İncimə Qulamov, Harayxanım hərdən sözün düzünü deyir. Lap götürək bizim bu İmanın özünü, redaktoru deyirəm də... İstedadına görə redaktor olub? Eh, yox, canım, sizlər köhnə kadrların qiymətini bilməzsiniz...

G ü n a y. Deyəsən-sizə mənasız gəlir mənim sözlərim...

M ə m i ş. Bu son vaxtlar belə, yaman qəribə olubsan e, elə bil ingiliscə danışırsan...

Məmiş telefonun dəstəyini götürüb nömrə yığır.

Q u l a m o v. Şahin!.. Oxudum. Sən heç bilirsən kimə sataşırsan?

Ş a h i n. Mən heç kəsə sataşmamışam.

Q u l a m o v. Tutaq ki, kritikovat eləyibsən. Heç bilirsənmi o kimdir? Salahov...

M ə m i ş (*dəstəyi telefonun üstünə atır. Qulamovun sözünü kəsərək*). Salahov? Hı-hı... Doğrudan, Salahovdandır? Hı-hı-hı...

Q u l a m o v. Onun şəhər dolusu adı-sanı var, bala.

Ş a h i n. Adlı-sanlı adamı tənqid etmək olmaz?

M ə m i ş. Salahovu tənqid? Hı-hı-hı...

Ş a h i n. Mən xahiş edirəm, yazının özündən danışın.

Q u l a m o v. Lap özünə keçək; bu nə formadır – "satirik qələmlə?"

Ş a h i n. Forma deyil, janrdır.

Q u l a m o v. Sən deyən olsun. İstəyibsən felyeton yazasan, çıxmayıb.

Ş a h i n. Siz materiala əməlli-başlı baxın. Görünür... Xahiş edirəm, yenidən oxuyasınız. (*Günay əlindəki jurnalı bir tərəfə atıb Şahinə baxır.*)

Q u l a m o v. Yox, balam, indiki cavanların tərbiyəsində hələ görməli çox iş var. Sən bilirsən, Veli Qulamoviç kimdir? Mən qələmi qoyub tüfəng götürmüşəm, tüfəngi qoyub qələm götürmüşəm. Mən müharibədə Mozdokacan gedib çıxmışam.

Ş a h i n. Bu dediklərinizin o materiala heç bir dəxli yoxdur!

Q u l a m o v. Sən bilirsən Salahov kimdir?

Ş a h i n. Saat zavodunun baş direktoru. İstehsal etdiyi saatlar tökülüb qalıb mağazalarda.

Q u l a m o v. Bilirsən, neçə dəfə keçici bayraq alıb?

Ş a h i n. Bayraqların da o materiala dəxli yoxdur, orda tamam başqa məsələlər qaldırılıb.

Harayxanım qapının ağzında görünür.

Q u l a m o v. Bilirsən, neçə orden-medalı var?

Ş a h i n. O barədə də yazmışam.

Q u l a m o v. Və nəhayət, o zavodu Salahov təşkil edib.

Ş a h i n. O da qeyd olunub.

Q u l a m o v. O boyda kişini birdən-birə... Yox, redaktor razı olmaz buna.

Ş a h i n. Siz öz fikrinizi deyin.

Q u l a m o v. Mənim fikrimcə, bu yazını bür-bük, at o zibil qabına.

Ş a h i n. Nə üçün?

Q u l a m o v. Çünki o kol biz girən kol deyil.

Ş a h i n. Mən xahiş edirəm, bir də oxuyun, heç nədən çəkinməyin, yazının altında mənim imzamdır, siz niyə qorxursunuz?

Şahin çıxır.

Q u l a m o v. Nə yaman kapriz eləyir bu gədə. Kimə arxalanır belə?

H a r a y x a n ı m (*qapı ağzından*). Deyirlər pedaqoji institutun dirextrını da o çıxartdırıb işdən.

Telefon zəng çalır.

Q u l a m o v. Bəli, redaksiyadır... Kimdir soruşan onu? Həsənağa Sailoviç? Bu saat, bu saat Həsənağa Sailoviç... Bu dəqiqə yüyürüm çağırım... Şahin, Şahin!

H a r a y x a n ı m . Şahin...

Q u l a m o v. Həsənağa Sailoviç çağırır...

Ş a h i n. Dayım? (*Dəstəyi götürür.*) Salam, dayı, necəsən? Hələ işə təzə başlayıram. Bağışla, dayı... Baş üstə, gələrəm... (*Dəstəyi yerinə qoyur. Otaqdan çıxır.*)

M ə m i ş. Gördün?

Q u l a m o v. Nəyi?

M ə m i ş. Dəvəni. Onunçün dingildəyir də. Sadıqov kimi dayısı olan niyə dingildəməsin.

G ü n a y. O, şəhər partiya komitəsinin birinci katibi Sadıqov idi?

M ə m i ş. Bəs necə?

Q u l a m o v. Vay, dədə, vay...

M ə m i ş. Qazın yatdı deyəsən, Qulamov?

H a r a y x a n ı m . Qulamov, qurbağa gölünə daş atdılar?

Şahin daxil olur.

Q u l a m o v. Şahin bala, məqaləni bir də oxudum. Çox sərtdir. Bir az yumşaltmaq lazımdır.

Ş a h i n. Nəyi?

Q u l a m o v. Məsələn, deyirsən ki, zavod yüksək keyfiyyətli musiqili saatlar istehsal edə bilər... Belə yaramaz axı... Bizim saat zavoduna hansı saatın istehsalı tapşırılırsa, onu da istehsal edir...

Ş a h i n. Bəs təşəbbüskarlıq? Mən sənədlərə baxmışam. Neçə dəfə zavoda yeni model təklif edilib, müdiriyyət hər dəfə bir bəhanə gətirib, qəbul etməyib.

M ə m i ş. Kişinin oğlu düz deyir də, hələ yumşaq yazıb, mən olsaydım, yandırmışdım atalarını.

G ü n a y. Yağmasan da guruldayırsan, ay Məmiş!

Q u l a m o v. Bunlar hamısı problematiçiski məsələlərdir.

Ş a h i n. Problematik məsələlər bəs qəzetdə qaldırılmasın, harada deyilsin? Materialı təqdim edin redaktora.

Q u l a m o v. Elə bilirsən, redaktor oxumaqla bir şey dəyişiləcək?

M ə m i ş. Dəyişər də, dəyişməz də... Baxır qomutuna...

Ş a h i n. Mən bilmirəm nə dəyişməlidir? Onu bilirəm ki, redaktor da, qəzetin əməkdaşları da hər hansı bir görkəmli adamı yeri gələndə tənqid etməkdən çəkinməməlidir. Açıq, dübbədüz tənqid adamın ən yaxın dostudur. Tənqid adamları işdən çıxarmaq, ya başqa cəza vermək üçün deyil. Mən bu yazıda da qarşıma elə məqsəd qoymamışam. Salahov bəlkə də vəzifəsində qala bilər, düşdüyü vəziyyətdən çıxmaq üçün özündə hünər tapsa.

M ə m i ş o v. Salahov – bataqlıq? (*Şaqqanaq çəkib gülür.*)

Ş a h i n. Gülməli nə var ki? Əksinə, kədərlənmək lazımdır. Salahov ağlı-qaralı məhsul istehsal edərək dövlət planlarını doldurub deputat olub, hökumət mükafatları alıb... Hətta el də onu müdrik adam kimi tanıyıb. Əslində isə... Dövlətin ona etibar etdiyi saat zavoduna dərin bir quyu qazıb, bircə basdıranı tapılmır.

Q u l a m o v. Qurbandır sənə imzam da, qolum da. Günay xanım, sən də qolla.

Günay həvəslə gəlib qol çəkir.

Q u l a m o v. Buyur, oğlum, çatdır redaktora...

G ü n a y (*hiss ediləcək dərəcədə kinayəylə*). Bizim şöbədə yeganə rəhbərlikdir, yoldaş Qulamov dedi, qurtardı, getdi...

Q u l a m o v. Да у нас единое руководство.

G ü n a y. Mən apararam...

Məmiş təəccüblə onun arxasınca baxır.

M ə m i ş (*Günayın arxasınca*). Yenə keçdi ingiliscəyə...

İşıq sönür. Məmiş və Qulamov müxtəlif poçtlara məktub atırlar.
İşıq yanır. Yenə həmin səhnə. Axşamçağıdır.

G ü n a y. Biz işdən gedirik, sən gəlirsən... Bütün günü harada idin?

Ş a h i n. Redaktor çağırmışdı. Amma nədənsə, yazıdan söz salmadı. Dedi ki, sabah gedib Salahovla görüşməliyəm.

G ü n a y. Nəyə görə?

Ş a h i n. Elə mən də dedim, bu görüşün nə mənası?.. Yəqin məni sizin şöbədən dəyişəcəklər...

G ü n a y. Dəyişəcəklər? Hara?

Ş a h i n. Təbliğat şöbəsinə. Redaktor o şöbə ilə əlaqədar mənə iş tapşırıb.

G ü n a y. Mən elə belə də bilirdim. Səni rahat işləməyə qoymayacaqlar. Şöbədən-şöbəyə atacaqlar. Möhkəm ol, Şahin. Kişinin mübarizədən qaçması dəhşətlidir, rüsvayçılıqdır. İstər qoca olsun, istər cavan, fərqi yoxdur. Kişi geriyə çəkiləcəksə, heç mübarizəyə girməsə yaxşıdır.

Ş a h i n.

Dilxor qaya, lal şəlalə,
Bulanıq bir çay olmaram.
Gülsüz bahar, barsız payız,
Çən-dumanlı yay olmaram.

Söz zirvəsi – bir uca dağ,
Ömür – qısa...
Təzada bax!
Arabası sınıq-salxaq
Yolçulara tay olmaram.

G ü n a y. Eh, Şahin, Şahin. İstərdim ki, sən həmişə belə kəsərli, inadlı, beləcə əqidəndən, yolundan dönməz qalasan. Çox istərdim. Amma təəssüf ki, mümkün deyil.

Ş a h i n. Niyə mümkün deyil?

G ü n a y. Həyat öz işini görür, illər öz hökmünü verir, poladı da muma döndərir.

Ş a h i n. Mən həmişə belə qalacağam, Günay. Bilirəm, bu yolda məni çox bəd üzlər qarşılayacaq, nadanlıqlarla üzləşəcəyəm, təəccüblər, istehzalar, kinayələr içiylə addımlayacağam... Bəlkə də qazancımdan çox itirəcəyəm, nə bilim? Amma həmişə belə qalacağam, üzüdönüklərin, əhdinə vəfasızların acığına belə qalacağam, onlara sübut edəcəyəm ki, belə yaşamaq mümkündür, əsil həyat elə budur, əsil yaradıcılıq da...

G ü n a y. İndi sənin olmaq istərdim, Şahin.

Ş a h i n. Neçə yaş böyüksən məndən?

G ü n a y. Doqquz yaş.

Ş a h i n. Deməli, eyni onilliyin uşaqlarıyıq, eyni nəsildənik, lap başlıcası, eyni zamanın övladları, (*gülə-gülə*) eyni şəhərin sakinləri, eyni redaksiyanın əməkdaşlarıyıq.

G ü n a y. Bacarsan, belə qal, Şahin, mənim acığıma belə qal... Hamıya sübut et ki...

Ş a h i n. Bəs sən niyə belə qalmadın?

G ü n a y. Mən qala bilmədim. İlk dəfə bura qədəm qoyanda elə bilirdim ki, məbədə gedirəm. Görən olmasaydı, bu binanın qara divarlarını öpə-öpə yalayardım. Gəldim. Bura ilk baxışda mənə kif basmış, səliqə-sahmansız bir arxivi xatırlatdı, sonra adi qocalar evinə oxşadı, sonra... nadanlar və fırıldaqçılar yuvasına döndü, məbəd çönüb oldu kif basmış arxiv, ölümünü gözləyən qocalar evi, nadanlar, fırıldaqçılar yuvası... Hər gün işdən sonra məni evədək bir dəstə yola salardı. Bütün şöbələrdən xahiş edərdilər ki, onlar üçün yazım... Nə üçün? Dərhal başa düşdüm ki, onları maraqlandıran mənim yazım, təfəkkürüm, ağlım deyil, bədənimdir, gözəlliyimdir, nə bilim, nəyimdir... Bircə anda mən iyrəndim hamısından. Təcili ərə getmək lazım idi, getdim rastıma çıxan bir mühəndisə. Sonralar şayiələr yaydılar ki, guya o mənə layiq deyil. Əgər bu sözləri səmimiyyətlə desəydilər, qaşlarımı çatıb fikirləşərdim, hətta qəlbimdə onlara rəğbət oyanardı. Amma qısqanclıqdan, daha doğrusu, paxıllıqdan belə deyirdilər. Yenidən iyrəndim onlardan, əvvəlcə vuruşmaq istədim, sonra gördüm ki, hamısı həşəratdır, hamısı dalda bir-birinin anasına söyüb üzdə öpüşənlərdir. Gördüm ki, burda sənət naminə müqəddəs heç nə yoxdur. Biri əvvəllər mühasib işləyib, biri bazar müdiri, biri restoran direktoru olub, biri kababçı... Arada bir vaxt lap bezmişdim hər şeydən, istədim gedim məktəblərin birində müəllim işləyim, maarif şöbəsində dedilər ki, olmaz, ixtisas təhsilin yoxdur. Qəzetdə işləməlisən. “İşləməlisən!” Yaratmasan da olar, sadəcə işləməlisən!.. Bəs bunların görəsən ixtisas təhsili nədir? “İşləməlisən!” Axtarış tələb olunmur, yanmaq tələb olunmur, sadəcə işləməlisən! Mən də birdəfəlik tüpürdüm hər şeyə, başladım işləməyə. Mən bilirəm, başqa redaksiyaların hamısı belə deyildir, çoxunda işə yanan, vicdanlı, namuslu jurnalistlər çalışır. Bunların isə... Elə bil reseptlə tapıb gətirmisən hamısını. Ona görə mən də alışdım buranın ab-havasına: səhər doqquzda gəlirəm, bir-iki informasiya hazırla-

yıram, təzə jurnallara baxıram, saat beşdə çıxıb gedirəm evimə... Gecə növbətçisiyəmsə, Harayxanım demişkən, səhərədək hərf qovuram...

Ş a h i n. Açıq danışığın üçün ucaldın. Amma bilmirəm, səni qınayım, ya bağışlayım?

G ü n a y. Qına! Qına məni, Şahin! Bağışlanmaqdan zəhləm gedir. Bağışlanmaq istəmək sədəqə ummaq kimi bir şeydir. Yenə qınamaq yaxşıdır, qına, qına və and iç ki, həmişə belə qalacaqsan.

Ş a h i n. Kişilər and içməz. Kim and içirsə, onun səmimiyyətinə şübhələnirəm.

G ü n a y. Sən gərək bura bir az tez gələydin, onda ki, mən də sən idim. Bəlkə mən gec gələydim, ikimiz bir olsaydıq, onda gücümüz çatardı bu zəlzələyə.

Ş a h i n. Biz ki bir yerdəyik.

G ü n a y. "Kişilər and içməz. Kim and içsə, onun səmimiyyətindən şübhələnirəm..." Nə gözəl səslənir! Kişilər gərək öz yollarından dönməz olalar. Bayaq da dedim, kişi geri çəkiləcəksə, heç bir mübarizəyə girişməsə yaxşıdır. Bilmirəm, nədənsə köhnə həyətimiz düşdü yadıma.

Ş a h i n. Danış, danış, köhnə həyətləri unutmaq olmur...

G ü n a y. Tez-tez orda pəzəvəng oğlan görünərdi. Qonşu məhəllədən idi. Bir dəfə bizim məhəllənin bir dəstə oğlanını təkbaşına döydü. Döydü və sonra çağırdı: " Sleduyuşee!.." Sonralar daha tez-tez görünərdi bizim həyətdə, gələn kimi də istehzayla bağırardı: "Sleduyuşşee!.." Bir gün ortayaşlı bir qonşumuz çıxdı onun qabağına, sakitcə, lal-dinməz yaxınlaşdı, sonra onun ağız-burnunun qanını bir-birinə qatdı, tirtap eləyib uzatdı yerə. Pəzəvəng oğlan huşunu itirdi, üzünə su çilədik, sonra özünə gəlib qaçmağa başladı. Elə qaçırdı ki... Elə bil ilan ağzından qurbağa qurtarmışdı. Bu vaxt bir qoca arvad qulağıma pıçıldadı ki, o gədə məndən yana gəlirmiş bu həyətə. Qonşumuz bu məsələni eşidən kimi cumub onun üstünə. Heyifsiləndim ki, o pəzəvəngə bir sillə çəkmədim, qəzəbdən əllərimin içi göynəyirdi. Sonralar neçə dəfə çıxdı qarşıma, hətta bir dəfə dalımca düşüb teatra da gəlmişdi. Havaxt görürdüm, onun yoluq cücə kimi qaçması yadıma düşürdü, qəhqəhəmi saxlaya bilmirdim... Bəlkə də...

Ş a h i n. Deməli, mən də bir gün yoluq cücə kimi qaçacağam?

G ü n a y. Yox, deyəsən, bənzətməm bənzərsiz oldu. Bilirsən, o pəzəvəngin elə qaçması məni də ayıltdı. Birdən mən də elə vəziyyətə düşərdim? Nəyəsə arxalanıb lovğalana bilərdim, sonra isə pəzəvəngin qaçışı mənim də qarşıma çıxardı, ayıltdı o məni, yaman ayıltdı.

Ş a h i n. O pəzəvəng ağlının ucundan səni itiribdir... Mənimsə... itirməyə heç nəyim yoxdur. Bir də cavan olsam da... Sifətimi küləklər çox döyəcləyib, bərkimişəm. Mən öz prinsiplərimi heç nəyə qurban verməyəcəyəm, sən buna əmin ol!

G ü n a y. Deyirsən, redaktor yeni iş tapşırıb sənə?

Ş a h i n. Anonim məktub gəlib, hamam müdiri haqqında. Çağırmışam, indi gələcək... Bəlkə də gəlib... Bayıra baxım... (*Gedir.*)

G ü n a y.

Mən həmişə möcüzəyə inanmışam,
Özüm də bir xoş möcüzə yaratmaqçün
Taleyimin başına çox dolanmışam.

Sənin gəlişin həqiqətən möcüzədir, Şahin. Amma niyə belə gec gəldin? Axı mən səni çoxdan axtarırdım. Mən indi etinasız keçib-getdiyim yolları bir də geri qayıda bilərəmmi? Əgər qayıtsam, buna necə baxarlar? Axı məni daha başqa cürə tanıyırlar; hər cür eybəcərliyi görüb susa bilən bir qadın... Bəli, mənə toxunmurlarsa, yalnız susmalıyam. Niyə belə gec gəldin? Bu nədir, məndə qəribə hisslər oyanıbdır? Özünü ələ al, köhnə idealist, özünü ələ al. Belə yaraşmaz sənə, sən anasan, qızın da bu gün-sabah məktəbə gedəcək... Bir də axı özündən niyə küyə düşürsən? Sən kimsən indi? Bütün arzuları, əməlləri pensiyaya çıxmış bir müqəvva?! Elə müqəvva olubsan ki, gözəlliyin də buz bağlayıbdır. (*Bir kişi daxil olur.*) Niyə belə gec gəldin?

M i r z ə q u l u. Mən burdayam...

G ü n a y. Sizə kim lazımdır?

M i r z ə q u l u. Deyir, məni bura çağırıblar, komxozun müdiri zəng eləmişdi. Ay balam, axı mən hara, bura hara?

Ş a h i n (*gəlir*). Mirzəqulu sizsiniz?

M i r z ə q u l u. Bəli, hamamın direktoru...

Ş a h i n. Sizi mən çağırmışam, buyurun əyləşin...

G ü n a y. Mən getdim, Şahin...

Çıxır.

M i r z ə q u l u. Xeyir ola, qadam, mən hara, qəzet hara? Yoxsa hamamdan şikayət yazıblar, neyləyim, Allah kaçaqar Bədəlin evini yıxsın, zalım oğlu qurşanıb içkiyə, bir gün işə çıxmır, bir gün kefli gəlir, bir gün odu elə vurur ki, katyol partlayır.

Ş a h i n. Burda bir məktub var.

M i r z ə q u l u. Yoxsa kassir Məddimquludandır. Bacarmıram, qadam, vallah-billah onunla bacarmıram. 40 qəpiklik nömrə biletlərini bir manata satır, 15 qəpiklik obşi biletləri bir abbasıya. Dəfələrlə demişəm, danlamışam. Cavabı da budur ki, bir çətən külfətim var, necə dolandırım? O gün öz müdirimizə də demişəm, hamamların hamısında kassir arvad xeylağıdır. Deyirəm, biz də bir arvad götürək, qurtarsın getsin. Arvadlar insaflı olurlar.

Ş a h i n. Elə bizə gələn məktub da arvad haqqındadır, Mirzəqulu kişi.

M i r z ə q u l u. Yoxsa keçən şənbə hamamda düşən arvad davasından yazıblar? Nə edim, içəri girib ayıra bilməzdim ki, hamısı lüt idi.

Ş a h i n. Bu məktubda yazıblar ki, siz antipodsunuz...

M i r z ə q u l u. O nə olan şeydir, qadam?

Ş a h i n. Antipod? Yəni ölkəmizə, cəmiyyətimizə, quruluşumuza yad adam. Yəni sizin hərəkətləriniz mənəvi ideallarımıza ziddir...

M i r z ə q u l u. Bunu hansı bir oğraş yazıb, qadam? Mən qabırğamın birini Hitlerlə vuruşanda qoyub gəlmişəm. Bir kəsin quyruğunu tapdamamışam. Bu kimdir belə şəxsi-qərəzlik edir mənimlə?

M ə m i ş (*gəlir*). Salam. Boy, Mirzəqulu kişi, salam! Salam! Xoş gəlmisən. (*Öpüşür.*)

M i r z ə q u l u. Məmiş müəllim məni yaxşı tanıyır. Neçə ildir bu qəzetdə külüng vurur. Məmiş, sən atan Mıkkının goru, heç indiyə qədər məndən şikayət-filan eşitmisən?

M ə m i ş. A tövbə... a tövbə...

M i r z ə q u l u. Hansı oğraşsa götürüb yazıb ki, mən anti... ant... nəyəm?

M ə m i ş. Pod? Nə deyirsiniz deyin, indi dünyada yaxşı adam azdır...

Ş a h i n. Bu məktubda yazıblar ki, sizin iki arvadınız var. Biri burada, biri kənddə. Kənddəkindən üç uşağınız var. İkisi institutda oxuyur, biri doqquzuncu sinifdə. Onlara görüm-baxım eləmirsiniz. Bir qəpik də pul göndərmirsiniz.

M i r z ə q u l u. Deynən, yalançının atası it ilə yatsın. Mən onlara, mən onları... mən heç bir arvad-zad tanımıram...

Ş a h i n. Demək, sizin iki arvadınız yoxdur.

M i r z ə q u l u. Qadam, mən dəliyəm, ya başıma at təpib-nədir, bilmirəm ki, bu, Sovet hökumətidir?.. Bizdə belə şey-zad olmaz... Bir də indi adam heç bir arvadı saxlaya bilmir, gəl-gör, iki ola...

M ə m i ş. Düz deyir, neyləyir iki arvadı?

Ş a h i n. Demək, sizə şər atıblar?

M i r z ə q u l u. Axı kim yazıb onu ey?

Ş a h i n. Məktub imzasızdır...

M ə m i ş. Bah atonnan. Bu imzasız məktublar milləti qırdı, qabağını alan da yoxdur.

Ş a h i n. Mirzəqulu kişi, demək, bu məktub yalandır?

M i r z ə q u l u (*əlini onun üzünə vurur*). Bu sən öləsən, şərdir. Kimsə mənə badalaq vurur. Oğlumun meyitini görüm, əgər orda bir həqiqət varsa...

Ş a h i n. Mən sizə inanıram. And içməyin.

M i r z ə q u l u. Başqa sözün yoxdursa, gedim.

Ş a h i n. Buyurun, buyurun...

M i r z ə q u l u. Sağ olun! Məmiş müəllim, çoxdandır hamama gəlmirsən... Sabah işləyəcəyik... Gəl bir nömrə verim.

M ə m i ş. Ta evdə çimirəm, Mirzəqulu, payın artıq olsun.

M i r z ə q u l u. Bax da... (*Gedir.*)

M ə m i ş. Çox yaxşı adamdır. Xeyirxah, əliaçıq...

Ş a h i n. Bu məktub haqqında siz nə deyirsiniz?

M ə m i ş. Kimin qüsuru yoxdur ki... Hərə bir şeyin bazıdır. Bu da yəqin...

Ş a h i n. Bəs niyə mənə and verdi?

M ə m i ş. O, Qulamovun qohumudur, məsləhət görmürəm girişəsən bu işə.

Ş a h i n. Demək ikiarvadlıdır?

M ə m i ş. Mənim adım olmasın, tülküdür. Bax, bunu mən demədim ha... Üzləşdirsən boynuma almayacağam... Madam ki, redaktor bu işi sənə tapşırıb, əməlli-başlı yoxla. Get kəndə, sovet sədrini gör, camaatla danış... həqiqəti bilərsən...

Ş a h i n. Xoruzlu kəndi buradan çox uzaqdır?

M ə m i ş. Dağın dalındadır. Yeddi kilometr olar. Gedək bir kabab yeyək...

Ş a h i n. Sağ olun.

M ə m i ş. Onda mən acam. Gedim.

Məmiş gedir. Şahin məktuba baxır. Mirzəqulu qayıdır.

M i r z ə q u l u. Məmişin getdiyini görüb qayıtdım, qadam. Sözün açığını deyim, qadam. Məmişin çoxdan mənim yerimdə gözü var. Deyirəm, vallah, nə bilmək olar. Bəlkə...

Ş a h i n. Yaxşı deyil, Mirzəqulu kişi, ayıbdır. Qəzet işçiləri ən təmiz, ən qərəzsiz adamlardır. Onlar öz qələmləri ilə xeyir işləri tərənnüm edirlər, şər işlərin vaxtında qarşısını alırlar...

M i r z ə q u l u. Görürəm, sən yaxşı oğlansan, qadam. Özün də bura deyəsən, təzə gəlmisən. Bizdə dedi-qodu çoxdur. Nahaq yerə adımızı demaqoq qoymayıblar. Mən sənə düzünü deyəcəyəm. Hə, belə bir qələtim var. Cavanlıq xətasıdır. Xoruzluda kəbinsiz-filansız arvad saxlayıram. Amma mən uşaqlarıma baxıram. İki oğlum – institutda, hər ay onlara pul göndərirəm. Burda isə qızım nə istəyir, alıram.

Ş a h i n. Bəs şəhərdə sizin uşaqlarınız yoxdur?

M i r z ə q u l u. Var. Burdakı arvadım qohumdur. Uşaq vaxtı göbəkkəsməm imiş. Sonra da zorla dedilər ki, almalısan. Mən onu istəmirdim.

Ş a h i n. Neyçün ayrılmırsız?

M i r z ə q u l u. Mən bu yaşımda daha şərə düşə bilmərəm. Bir də qohumluq haqqı var boynumda. Bəs mən elə onların pulu ilə, var-dövləti ilə o arvadı saxlayıram də...

Ş a h i n. Onlar bundan xəbərsizdir?

M i r z ə q u l u. Əlbəttə, sən gəl bu işi açıb-ağartma. Mən də xəcalətindən çıxaram.

Ş a h i n. Necə?

M i r z ə q u l u. Cavan oğlansan, yəni sənə də xərclik lazımdır, pul lazımdır. (*Pul çıxarır.*) Al bunu...

Ş a h i n. Saxla, Mirzəqulu kişi... Sənə kim deyib ki, mən belə işlərlə məşğulam?

M i r z ə q u l u. Heç kim.

Ş a h i n. Bəlkə şəhərdə danışan var.

M i r z ə q u l u. İnsafən, yox...

Ş a h i n. Bəlkə biri deyib ki, mənə pul verəsiniz.

M i r z ə q u l u. Yox, yox.

Ş a h i n. Bəs onda sən nə cürətlə məni təhqir edirsən? Bu nə puldur?

M i r z ə q u l u. Azdır?

Ş a h i n. Bu saat milisə zəng vuracağam, gəlib səni aparsınlar. Mənə rüşvət təklif etdiyinə görə. Bir ildən üç ilə kimi həbsin var. (*Pulu onun üzünə çırpır.*)

M i r z ə q u l u. Bu nədir, dəlisən-nəsən? Qadam, puldur, istəmirsən, istəmə. Daha milis nəyə lazımdır?

Ş a h i n. Götür, özün də rədd ol burdan. Səni ifşa eləməsəm...
M i r z ə q u l u. Yaxşı, yaxşı...
Ş a h i n. Çıx burdan, çıx...

Mirzəqulu qaçaraq çıxır, bir an sonra pərdə qabağında Qulamovla görüşürlər.

M i r z ə q u l u. Bu zırramanın biridir ki, hə, hə, qadam, nə hır qanır, nə zır...
Q u l a m o v. Korlamısan işləri Mirzəqulu, heç bilirsən o kimdir? Birincinin bacısı oğludur... Batdıq...
M i r z ə q u l u. Qohum deyilsən, kömək elə...
Q u l a m o v. Gərək redaktoru görəm. Yığım onları aparım Zənginin qırağına kababa.
M i r z ə q u l u. Nə lazımsa, çəkinmə, xərci mənim boynuma.

Qulamov şöbəyə daxil olur.

Q u l a m o v. Şahin bala, bəri gəl, sənə bir işim düşüb. Bir Allah şahiddir ki, mən Həsənağa Sailoviçin xətrini nə qədər istəyirəm...
Ş a h i n. Amma xahiş edirəm, yaradıcılıq məsələlərində heç vaxt mənə güzəşt etməyəsiniz. Dayım da məndən həmişə belə tələb edir.
Q u l a m o v. Allah onu bizim başımızın üstündən əskik eləməsin...
Ş a h i n (*Qulamovun son sözlərinə təəccüblənir*). Buyurun, xahişinizi deyin...
Q u l a m o v. Bizim voyenkom bir az başdan xarab adamdır. Düz beş aydır, məni süründürür. Tay-tuşlarımın hamısına kitabça verib, mənə yox... Dayının dostudur, desə, onu eşidər.
Ş a h i n. Nə kitabça?
Q u l a m o v. Müharibə veteranı kitabçası. Mən, axı qələmi qoyub, tüfəngi götürmüşəm, tüfəngi qoyub, qələmi...
Ş a h i n. Deyərəm...
Q u l a m o v. Allah səndən razı olsun. Bir xahişim də var. Dünən sənin yanında Mirzəqulu adlı bir nəfər olub... O mənim babamın qardaşı qızının qız nəvəsinin oğludur. Özü də yaxşı adamdır. Onunla işin olmasın.

Ş a h i n. Vəli Qulamoviç, o məni təhqir edib. Mənə rüşvət...

Q u l a m o v. Ay namərd, ay axmaq... Hələ dedim ona, belə şeylər etməzlər, xüsusilə adam yanında.

Ş a h i n. Mən əvvəl onun səmimiliyinə inandım. Sonra gördüm yox... xalis riyakardır. Xoruzluya getmişdim. Arvadı göz yaşı axıdır. Deyir, həqiqətən onlara kömək etmir. Faktın özü biabırçılıqdır. O boyda uşaqları öz üstünə yazdırmayıb.

M ə m i ş. Düz deyir də kişinin oğlu, Mirzəqulu kimilərin atasını yandırmaq lazımdır.

Q u l a m o v. Sən sus, Məmiş, xahiş olunur, sus!

M ə m i ş. Niyə, səsimi alıblar?

Q u l a m o v. Mən xahiş edirəm, Şahin, bu işi xoşluqla yola ver. Qırx ildir ki, hamı mənə hörmət edib... Sözümü yerə salmayıblar. Eh, kimlər gəlib, kimlər gedib... Güləli Xansuvaroviç deyərdi ki, Qulamov, sən jurnalistliyin dalınca düşməsəydin, indi bir ölkənin prezidentiydin...

Ş a h i n. Güləli Xansuvaroviç kimdir?

G ü n a y. Məktublar şöbəsinin keçmiş müdiri.

Q u l a m o v. Qabağından yeyən deyildi, əvvəllər raykom olmuşdu, bizdə neçə il işlədi, sonra pensiyaya çıxıb Zənginin kənarında kababxana açdı. Gedərik bir gün, Şahin bala, əla kabab verir... Səmədağa Şıxliyeviç heç hamama da mənsiz getməzdi.

Ş a h i n. O kimdir?

M ə m i ş. Keçmiş redaktordur.

Q u l a m o v. Rəhmətlik deyərdi ki, bu qəzetin üç sütunu var: mən, sən, bir də Qəşəm. Bu sütunlardan biri uçsa, hər şey məhv olub gedər.

Ş a h i n. Qəşəm kimdir?

M ə m i ş. Şofer.

Q u l a m o v. Əbdül Həmidoviç deyərdi ki... kolbasanı həmişə növbəsi çox olan dükandan alın.

Ş a h i n. Elə niyə?

Q u l a m o v. Çünki müştərisi basabas olan mağazada kolbasa qalıb xarab olmaz. Eh, kimlər gəlib, kimlər gedib.

M ə m i ş. Rehim Caxidoviç deyərdi ki, arağın ən yaxşı zakuskası çaydır. Rehim Caxidoviç deyərdi ki...

N ə r g i z (*gəlir*). Шахин, к редактору, пожалуйста.

Q u l a m o v. Necəsən, ceyran?

N ə r g i z . Я прощу не называйте меня “джейраном”. Ненавижу, сколько раз можно предупредит? (*Şahinə.*) Ну, как живет парень? Не скучно тебе в этом душном отделе...

M ə m i ş. Skuçno, skuçno, o da necə! Sənə də çatdı o xəbər? (*Qulamova göz vurur.*) O saat girdi gədənin qılığına.

N ə r g i z. Что?

Şahinlə katibə gedirlər.

Q u l a m o v. Yanan oda niyə yağ atırsan, Məmiş? Məqsədin nədir? Mən Şahini yola gətirirəm, sən isə...

M ə m i ş. Mən nə dedim, Vəlican?

Q u l a m o v. Bilmirəm, mənim niyə çörəyimin duzu yoxdur da. Bir yadına sal, sən kim idin, Məmiş. Adi bir mühasib köməkçisi. Səhər işini görürdün, axşam da dostlarınla ya nərd atırdın, ya da kart oynayırdın. Elə deyil?

M ə m i ş. Yenə?

Q u l a m o v. Səni gətirib adam eləmədim? Bu boyda qəzetdə yer vermədim?.. Nahaq, nahaq, mən səni pirə aparıb and içdirmədim... Gərək and içdirəydim ki, mənə xəyanət etməyəcəksən.

M ə m i ş. Mən səni çox sevirəm, Vəlican.

Q u l a m o v . Başına dəysin sənin sevməyin... Ayağımı bayıra qoyan kimi başlayırsan arvad kimi dalımca qara yaxmağa.

M ə m i ş. Mən qələt eləyərəm, Vəlican!

Q u l a m o v. Çörəyi tapdamazlar, bala. Adama qənim olar.

M ə m i ş. Arxayın ol, sənin yerində gözüm yoxdur.

Q u l a m o v. Sən xərçəng kimi beş yerə birdən qol atırsan. Bir gözün burdadır, biri QAİ-də, biri hamamda, biri nə bilim, harda... Mənim qohumumu yıxmaq istəyirsən ki, yerinə keçəsən?

M ə m i ş. Sənin qohumun antipoddur!

Q u l a m o v. Bəs sən kimsən? Anonimçi! Onun-bunun paxıllığını çəkən... Özgənin gözündə qılı seçib, öz gözündə tiri görməyən! Əsil antipod sən özünsən.

M ə m i ş. Ağzımı açdırma. Mən SSRİ Jurnalistlər İttifaqının üzvüyəm, üç dəfə sosializm yarışı qalibi znaçoku almışam, iki dəfə redaktorun pul mükafatına, bir dəfə təşəkkürünə layiq görülmüşəm. Altı dəfə mestkom üzvü seçilmişəm, dörd ay beş gün onun sədri

işləmişəm. Suda-zada düşməmişəm. Xaricdə heç tanışım da yoxdur. Mənə antipod deyirsən... oy... oy... ürəyim... ürəyim... oy...

Harayxanım (*gəlir*). Nə olub, Məmiş, yenə ürəyindir?

Məmiş. Mənə bir validol...

Harayxanım. Balam, nəyi bölə bilmirsiniz? Vəli Qulamoviç, bir aydı burada yox idin, qulağımız əcəb dinc idi. Yenə gəldin başladın hay-küyə. Nə istəyirsən bu yazıq Məmişdən?.. Qoy bir iclas olsun, durub sağına-soluna döşəyəcəyəm vallah... Bu saat, Məmiş, bu saat dərman gətirirəm. (*Çıxır.*)

Məmiş ayağa qalxıb qımışa-qımışa otaqdan çıxır.
Şahin redaktorun qəbul otağına daxil olur.

Nərgiz (*gülümsəyərək*). Бурное оживление, да?

Şahin. Аплодисменты не ожидаются?

Nərgiz. Здесь пощечину дают.

Şahin. Умеют?

Şahin redaktorun otağına daxil olur.

Redaktor. Mən üç gündür sənə deyirəm, saat zavoduna get... Nə üçün getmirsən, Şahin?

Şahin. Tapşırdığınız anonim məktubla məşğul idim, İman Mustafayeviç.

Redaktor. Onu tez bağlamaq lazımdır.

Şahin. Mən sizi başa düşmürəm.

Redaktor. At o yana, görmürsən, paxıllıqdır...

Şahin. Mən hər şeyi dərindən yoxlamışam, İman Mustafayeviç. Belə adam ifşa olunmağa layiqdir.

Redaktor. Bəh, bəh, bizim daha ayrı dərdimiz yoxdur. Hər məktuba görə məqalə yazsaq, gündə gərək beş qəzet buraxaq.

Şahin. Burada insan taleyindən söhbət gedir, İman Mustafayeviç. Təəccüb edirəm, siz mənə iş tapşırırsınız, sonra da sözünüzü...

Redaktor. Hər işin dalınca çox düşməzlər.

Şahin. Bu bizim gündəlik işimizdir? Saat zavodunda yazdığım məqalə hələ çapa imzalanmayıb. İndi də təhrik edirsiniz ki, yenə ora getməliyəm. Nə üçün?

Redaktor. Sən ora getməlisən, Şahin, Salahovu mütləq görməlisən.

Şahin. Yenə deyirəm, əgər hər şey aydındırsa, bu görüşün məqsədi nədir?

Redaktor. Həyatın öz qaydaları var. Bu qaydaların çoxu nə qanun kitabına düşüb, nə adamlara verilən səlahiyyət dəftərinə. Mən redaktoram, amma qəzetimdə Salahovu tənqid edəndən qabaq, gərək onunla mütləq görüşəm, çünki uşaqlıq yoldaşıyıq. Aldərə kəndindən başlamış Moskvayadək neçə məktəbdə bir partada oturmuşuq.

Şahin. Yaxşı, bəs mənim onunla söhbətim nə mövzuda olmalıdır?

Redaktor. Oyundan qabaq rəqiblər də səmimiyyətlə əl tutub görüşürlər.

Şahin. Amma bu "səmimi görüşün" oyunun nəticəsinə heç bir dəxli yoxdur.

Şahin redaktorun kabinetindən çıxır, qulaqlarında
Günayın sözləri səslənir, qəbul otağında Nərgizlə üzləşir.

Günayın səsi. Burada sənət naminə müqəddəs heç nə yoxdur. Biri əvvəllər mühasib işləyib, biri bazar müdiri, biri restoran direktoru olub, biri kababçı...

Nərgiz. Шахин, вы университет закончили, да?

Şahin. Да.

Nərgiz. Вы проходили дипломатику?

Şahin. К счастью, нет.

Nərgiz. А почему "к счастью?"

Şahin. Потому что, сейчас самое мудрое дипломатией говорит правду.

Nərgiz (*təəccüblə*). Неужели?

Şahin. Bəli! Yaxşı ki, belədir.

Nərgiz. Minnətdaram sənə, Şahin.

Şahin. Nə üçün?

Nərgiz (*əlindəki kitabı açaraq*). Burada bir söz var... "У каждого светика своё благоухание". Как это сказать на азербайджанском? Hər gülün...

Şahin. Öz ətri var!

Nərgiz. Amma burada heç bir gül öz ətrini verməyəcək.

Şahin. Nə üçün?

Pərdə

## İKİNCİ PƏRDƏ

Salahovun kabineti. Otaq genişdir, gözəl mebel qoyulmuşdur.
Redaktor oturub, Salahov gəzinir.

S a l a h o v. Hər uzun hicranın bir vüsalı olur. Bu da görüş nöqtəsi. Bu da mənim vüsalım! O gəlir məni günahlandırmağa, sübut etməyə ki, direktor kimi daha bu stola layiq deyiləm, paslanmışam, müasir texnikadan, yəni istehsalat üsullarından xəbərsizəm... Mən nə etməliyəm?

R e d a k t o r. Vuruşmalısan!

S a l a h o v. Mümkün deyil.

R e d a k t o r. Kim olduğunu da açıb ona deməlisən.

S a l a h o v. Bəs tüpürməz üzümə? Deməz ki, atasan, bəs indiyə kimi hansı deşikdə gizlənmişdin?

Selektor səslənir, Salahov düyməni əsəbi halda basır.

K a t i b ə n i n  s ə s i. Энвер Вердиевич, Вас...

S a l a h o v (*onun sözünü kəsərək*). Меня ни с кем не соединяйте, не кого не пускайте ко мне и отключите все телефоны.

K a t i b ə n i n  s ə s i. Хорошо. Но Энвер Вердиевич... есть очень важное...

S a l a h o v. Не ужели вы не поняли меня? Не понятно, что я сказал?! Вы не понимаете на русском?

K a t i b ə n i n  s ə s i. Понятно, Энвер Вердиевич...

Selektor susur. Pauza. Salahov selektorun düyməsini yenidən basır.

R e d a k t o r. Doğrudan, mən səni heç belə bilməzdim. Yadındadırmı, orta məktəbdə bir bülbül yuvası tapmışdıq. Ona xata toxunmasın deyə, gecə-gündüz qarovulunu çəkirdik. Bülbül öz balalarını yemləyəndə necə sevinirdik. Yadındadır, bülbül köçüb gedəndə hətta ağladın da... Bəs necə olub, öz doğma balana bu qədər etinasız olmusan... Doğrudan, bu neçə ildə heç maraqlanmamısan onlarla?

S a l a h o v. Anası qoydu ki?

R e d a k t o r. Sən ki arif adamsan, necə olub indiyə qədər katibin qohumu olduğunu bilməmisən... Heç özü də üzünə vurmayıb. Bəs o vaxtlar görüşməmişdiniz?

S a l a h o v. Mehribanla toyumuz olanda gələ bilmədi. Teleqram ona çox gec çatmışdı. Harasa ezamiyyətə getmişdi.

R e d a k t o r. İndiyə qədər üzünə heç nə vurmayıbsa, burada bir iş var. Zavodun yoxlanmasını Şahinə özü tapşırıb, bəlkə o səndən daha incə yolla intiqam almaq istəyir? Nə doğrasan aşına, o da çıxar qaşığına – demək istəyir?

S a l a h o v. Bəlkə də... illər boyu düyünə düşən iş bir nöqtədə açılar... Hər dramın bir finalı olur. Bu da mənim açılış nöqtəm, finalım!

R e d a k t o r. Cabbarlı deyir: "Yerdən göyə küp düzsələr, bir-birinə bənd etsələr, altından birin çəksələr, onda gəl bax guppultuya!" Sənin başına bir iş gəlsə, növbə mənimdir. Hamı bilir, dostuq. Katibə də çatsa ki, hələ o vaxt Moskvada mən də səninlə oxumuşam, biabır olacağam. Deyəcək, necə dostsan ki, Ənvərin axmaq hərəkətlərinin qarşısını almamısan, Mehribanla ayrılanda ona mane olmamısan.

S a l a h o v. İman, heç kəs bilməsə də, sən yaxşı bilirsən, mən axı evli idim. Həm də axı... o özü atdı məni!

R e d a k t o r. Lap pis. Demək, evli ola-ola yazıq qızı yoldan çıxartmısan. Lap dəhşət.

S a l a h o v. Bəs hər gün səninlə restoranlarda yeyib-içəndə niyə soruşmurdun hardandır bu pullar, professor?

R e d a k t o r. Demək, o zaman bizi Mehribanın puluyla qonaq edirdin?

S a l a h o v. Mehribanın qardaşı elə onda da deyəsən yaxşı yerdə işləyirdi. Hamınız bilirdiniz, sən allah, indi özünü uşaq kimi aparma, hamınız da mənə həsəd aparırdınız. Yəqin indiki katib qardaşı imiş. Hər ay ona hədiyyələr, çoxlu pul göndərirdi. Mən də kasıb uşaq, nə edəydim.

R e d a k t o r. Demək, sən onu sevmirdin?

S a l a h o v. Sevirdim, çox sevirdim! Evlənməyimiz tamam təsadüf oldu. Bir az sevgiylə başladı, bir az zarafatla. Yadındadır, bir dəfə Qələbə bayramı münasibətilə Qorki adına parka getmişdik, 1957-ci ildə... Adama iki şüşə şampan içdik. Ordan qayıdanda, yolumu Mehribangilin yataqxanasına saldım. Gecə idi... Hamı yatmışdı...

Yataqxana, pəncərə qabağı.

G ə n c  M e h r i b a n. Ənvər!

G ə n c  Ə n v ə r. Gülüm, bülbülüm, canım, ciyərim.

G ə n c  M e h r i b a n. Yenə keflisən?

G ə n c  Ə n v ə r. Söz ver ki, bu gün mən deyənə "hə" deyəcəksən. Söz ver ki, "yox" eşitməyəcəyəm. Hə... bir az kefliyəm.

Bir azca kefliyəm bu axşam, gülüm,
Məni qarşılama soyuq baxışla.
İçdim ki, dərdimi söyləyə bilim,
İncisən, indidən məni bağışla...

G ə n c  M e h r i b a n. Fiziklər lirik olmağa başlayıblar, liriklər – fizik. Bəs bu öcəş hardan gəlib meydana?

G ə n c  Ə n v ə r. Dedim ki, söz ver... susacaqsan! Yalvarıram, sus...

G ə n c  M e h r i b a n. Buyur, dinləyirəm.

G ə n c  Ə n v ə r. Söz ver ki, "yox" deməyəcəkcən!

G ə n c  M e h r i b a n. Baxır, istəyin nədir?

G ə n c  Ə n v ə r. Yox, sən söz ver, lap yalandan da olsa, söz ver.

G ə n c  M e h r i b a n (*gülə-gülə*). Söz verirəm.

G ə n c  Ə n v ə r. Mən bu dünyaya indiyədək fizika kitablarının vərəqləri arasından baxmışam, Mehriban. Ölkələri, qitələri o torpağın yetirdiyi dahi alimlərlə tanımışam. Kitabların səhifələrində, kitabxanaların qoca otaqlarında axtarmışam həyatın ən böyük səadətini. Elə yataqxana, mühazirə salonları, kitabxanalar...

Yuxudan da borc alıb
Oxudum axşam-səhər.
Ötdü gözüm önündən
düsturlar,
teoremlər...

Həyatım kitabxanalarda keçdi. Sən də orda çıxdın qarşıma, yadındamı? Çıxdın qarşıma və dünyanın rənglərini bir-birinə qatıb sonra yenidən ayırdın. Mavi rəngi çoxaldı dünyanın, əvvəllər heç bilməzdim ki, belə rəng var... Təranələr dil açdı ömrümün hər anında. Əvvəllər təranə, nəğmə sevənləri dünyanın ən məğmun adamları sayardım... Mehriban, istəyirəm ki, elə bu gün-sabah toyumuzu edək!.. (*Mehriban taqətsiz, özünü itirmiş halda başını pəncərəyə söykəyir.*)

G ə n c  M e h r i b a n. Sən nə danışırsan? Qızdırman-zadın yoxdur ki...

G ə n c  Ə n v ə r. Hələ özümü heç vaxt belə gümrah hiss etməmişəm.

G ə n c  M e h r i b a n. Mənim qardaşım var!

G ə n c  Ə n v ə r. O razıdır, son məktubunda yazıb də...

G ə n c  M e h r i b a n. Razıdır, çünki mənə inanır... Axı dədə-baba qaydası var, el adəti var...

G ə n c  Ə n v ə r. Elçilik üçün... mənim bu dünyada səndən başqa heç kimim yoxdur, gəlsənə, səni elçiliyə göndərim?!

G ə n c  M e h r i b a n. Dəli!!! Dəli!!!

G ə n c  Ə n v ə r. Bizə aspirantların yataqxanasında mənzil ayırıblar. Bircə...

G ə n c  M e h r i b a n. Dəli!!!

G ə n c  Ə n v ə r. Dostlar yığışacaq, müəllimlər də gələcəklər.

G ə n c  M e h r i b a n. Dəli!!! Dəli!!! Get qardaşıma teleqram göndər. (*Hönkür-hönkür ağlayır.*)

G ə n c  Ə n v ə r. Ura!!!

Gənc Ənvərlə Mehriban səhnədən çıxırlar.
Salahov divanın üstündə əyləşibdir.

S a l a h o v. Qardaşı toya gələ bilmədi, teleqram ona gec çatmışdı. Kiyevdə ezamiyyətdə imiş... Əsil rus qışını görübsənmi? Elə bir dekabr axşamıydı, biz dünyanın ən xoşbəxt gəncləri idik... Amma cəmisi bircə qış, bircə yaz, bircə payız çəkdi bu xoşbəxtlik. İkinci qışı bir yerdə başa vurmağa gücümüz çatmadı. Ömrü yaman az oldu o nəğməkar günlərin. Niyə ayrıldım? Ürəyimi üşüdür o ayrılığın səbəbi. Toyumuz yadındadır?

R e d a k t o r. Elə həmin axşam məni sancı tutdu, apardılar xəstəxanaya, korbağırsağımı kəsdilər, yadında deyil?

S a l a h o v. Hə, hə, uşaqlar dedilər... Ömrü az oldu o nəğməkar günlərin... Ayrılandan sonra onunla görüşmədim...

R e d a k t o r. Sarsaq uşaqlar idik, açığını deyək. Bizə nə desələr, haqq çıxar. Hamı bildi bu işi, heç kəs kömək etmək istəmədi. Mehribanın tənha qaldığını eşitdik, bir kərə yanına getmədik, kefini soruşmadıq.

S a l a h o v. O da bu sirri açıb-ağartmadı... On il sonra qurultayda gördüm onu, çox uzaqdan... Yaxınlaşmağa cəsarətim çatmadı...

R e d a k t o r. Uşağın familini Qayalı niyə qoyub?

S a l a h o v. Qayalı – Mehribanın dədə-baba familiyasıdır. Sonra eşitdim ki, uşağın atası haqqında maraqlı əfsanələr uydurub. Guya Ənvər Qayalı igid sınaqçı təyyarəçi imiş, guya bir uçuş qəzaya uğramış təyyarənin bütün heyətini xilas edərək, özü qəhrəmancasına həlak olub.

R e d a k t o r. Ərə getməyib, bilmirsən?

S a l a h o v. Deyəsən, yox...

R e d a k t o r (*saata baxır*). Şahin indi gəlməlidir. Bəs necə olub indiyə qədər bilməmisən ki, katib onun qardaşıdır. Bu Həsənağa, o Həsənağa imiş?

S a l a h o v. Mehriban mənə qardaşı haqqında çox danışmışdı, dönə-dönə deyirdi ki, namuslu, qeyrətli, qoçaq bir igiddir. Yaxşı, mən indi Şahinlə nə danışım? İman, beynim kütləşib, əlim-ayağım pambığa dönür.

R e d a k t o r. Burax bunları, sən möhkəm adamsan, son vaxtlar nə oynadığını, nə üçün oynadığını yaxşı bilirsən. Əsas məqsəd indi felyetonu bağlamaq, katiblə aranı mehriban saxlamaqdır. Görüşün məqsədi də bu olmalıdır. Neçə ildir hamı deyir oğlun var, amma onunla qəti maraqlanmamısan, indi səni kövrək ata hissləri basmasın.

Salahov selektorun düyməsini basır.

K a t i b ə n i n  s ə s i. Слушую, Энвер Вердиевич...

S a l a h o v. Ко мне придет... журналист... из городской газеты... молодой парень... фамилия... (*Əsəbiləşərək.*) Неужели вы не поняли меня?

K a t i b ə n i n  s ə s i. Я вас поняла, Энвер Вердиевич...

S a l a h o v. Когда он придет, сообщите мне.

K a t i b ə n i n  s ə s i. Хорошо, Энвер Вердиевич...

Salahov selektorun o biri düyməsini basır, aparat susur.

S a l a h o v. Deyirsən, biz dil tapa bilərik?

R e d a k t o r. Sən taparsan... Sınaqdan çıxmış metodlarını işə sal, itkin düşmüş ata! Mən getdim...

S a l a h o v. Bu qapıdan çıx. Birdən o, qəbul otağında olar, səni görməsin.

Redaktor gedir. Salahov selektorun düyməsini basır.
Qadın səsi eşidilir. “Я вас слушую, Энвер Вердиевич...”

Salahov. Валентина, пригласите пожалуиста, к телефону Аманова.

Selektordakı səs. Сию минуту... Sizi dinləyirəm, Ənvər Verdiyeviç...

Salahov. Amanov, niyə yerinizdə oturmursunuz, sizə kabinet ayrılıb, telefon verilib...

Selektordakı səs. Sexdəydim, Ənvər Verdiyeviç... Teatrın sifariş verdiyi saatları...

Salahov. Hazır deyil, hələ?

Selektordakı səs. Təxminən hazırdır... Amma baş mühəndis qol çəkmir.

Salahov. "Təxminən". Necə yəni təxminən... Bu gün saat üçdə gəlib aparmalıdırlar, bilirsənmi? Şənbə günü binanın açılışıdır, xəbərin varmı? Qorkom səkkiz dəfə zəng çalıb, aydındırmı?

Selektordakı səs. Aydındır, Ənvər Verdiyeviç, amma baş mühəndis...

Salahov. Niyə qol çəkmir o "cənab"?

Selektordakı səs. Deyir, hazırladığımız saatlar teatrın sifarişini ödəmir.

Salahov. Amanov, sifariş bu gün, saat üçün yarısına hazır olmalıdır. Qurtardıq.

Selektorun o biri düyməsini basır.

Selektordakı səs. Sizi dinləyirəm, Ənvər Verdiyeviç.

Salahov. Maqsudov, yenə nə başlayıbsan köhnə bazara təzə nırx qoymağa? Saatın keyfiyyəti aşağıdırsa, kimdir günahkar? Soruşuram səndən, birinci növbədə kimdir günahkar?

Selektordakı səs. Baş mühəndis.

Salahov. Balam, bu zəhrimarla vaxtında məşğul ol da.

Selektordakı səs. Ənver Verdiyeviç, axı...

Salahov (*onun səsini kəsir*). Qurtardıq. Məhsul bu gün çıxmalıdır zavoddan, saat üçün yarısında... Qorkom səkkiz dəfə zəng çalıb. Xəbərin varmı? Üçün yarısında... aydındırmı? Bircə bayırda fasada vurulacaq saat düz işləsə, bəsdir, binanın içərisi üçün nəzərdə tutulan saatlar necə olsa, olar, aydındırmı?

Selektordakı səs. Ənvər Verdiyeviç, axı...

Salahov. Xudahafiz!..

Selektorun düyməsini basır. Amma aparat yenidən səslənir.

K a t i b ə n i n  s ə s i. Энвер Вердиевич, журналист Гайалы в вашей приемной.

S a l a h o v. Qoy içəri keçsin...

Maqnitofonu işə salır, incə musiqi səslənir. Salahov içəri otağa keçir. Şahin daxil olur. Musiqini dinləyir, kabineti boş görüb təəccüblənir. Salahov görünür.

S a l a h o v. Salam.

Ş a h i n. Salam.

S a l a h o v. Xoş gəlmisən... Əyləş... Necə musiqidir?

Ş a h i n. Dəbdə olanlardandır.

S a l a h o v. Bilirsən, bizdə yaxşı köçürmürlər... Heç Bakıda da... Həmişə Moskvadan, Leninqraddan xüsusi sifarişlə gətizdirirəm... Boniemdir... Bəh... bəh... Hissə bax... poliforniyaya bax... Görüşümüz naminə bir qədəh konyak!

Ş a h i n. Sağ olun, içən deyiləm.

S a l a h o v. Siqar. “Kent”, yoxsa “Filipp Moris”?

Ş a h i n. Çəkən deyiləm...

S a l a h o v. Sən mənim qonaq mərasimimi büsbütün korladın. Bu kabinetə girən mütləq...

Ş a h i n. İçməlidir, hə?

S a l a h o v. İlk tanışlıq şərəfinə.

Ş a h i n. Hesab edin ki, içdik də, çəkdik də.

S a l a h o v. Dayan! Bir bu şkafa bax, zavod yaranandan bəri istehsal etdiyimiz saatlardan nümunələrdir. Hansını bəyənirsən, götürüb bağla qoluna.

Ş a h i n. Sağ olun, varımdı. Bir də bu saatları indi hər kimə hədiyyə versən, onu təhqir etmiş olarsan. Hamısı işlənməmiş köhnəlib, dəbdən düşüb. Ona görə də tökülüb qalır mağazalarda. Amma Leninqradın, Minskin “Elektron” qol saatları, büllur stol saatları isə mağazalarda tapılmır. Eşitdiyimə görə, Minski ilə eyni vaxtda sizə də təklif ediblər “Elektron” istehsal etməyi. Siz isə kinayəylə deyibsiniz: “Canım, nə elektron, nə tok, bizim dədə-baba cib saatlarımıza nə olub ki...”

S a l a h o v. Bunu sənə kim deyib?

Ş a h i n. Adını çəkməyəcəyəm.

S a l a h o v. Sən məni yaxşı tanımırsan, Şahin.

Ş a h i n. Tanıyıram, niyə tanımıram.

S a l a h o v. Necə?

Ş a h i n. Bilirəm ki, iyirmi iki ildir direktorsunuz, bu zavodu siz açmısınız. Xaricdə haqqınızda oçerk də çap olunub. Amma indi, məni bağışlayın, şöhrətin arxasında gizlənib öz əlinizlə tikdiyiniz evi yeddi arşın quyunun dibinə salıbsınız.

S a l a h o v. Bəlkə konkret faktlarla danışaq. Göstəricilərə müraciət edək.

Ş a h i n. Zahirən hər şey öz qaydasındadır, bilirəm. Dünən redaktor bütün günü elə bu barədə danışdı. Söhbət zavodun daxili yaradıcılıq həyatından və şəxsən sizin rəhbərlik üsulunuzdan gedir. Siz kollektivə təkbaşına rəhbərlik edirsiniz, heç kəsin fikrinə məhəl qoymursunuz, dediklərinizi dəhşətlə həyata keçirirsiniz.

S a l a h o v. Bunun nəyi pisdir?

Ş a h i n. Unudursunuz ki, indi hər sadə fəhlə savadlıdır, əməllibaşlı yaradıcıdır. Onlarla quru rəhbər yox, yaradan insan kimi davranmaq lazımdır.

S a l a h o v. Qəribədir.

Ş a h i n. Heç fikir vermisiniz, son bir ildə zavoddan neçə yüz adam gedib.

S a l a h o v. Bir o qədər də gəlib.

Ş a h i n. Axı o gedənlərin çoxu kamil ustalar idilər. Bu gələnlərin kamilləşməsinə neçə il lazımdır? Bir də onlar bu zavodun yeknəsəq həyatına dözə biləcəklərmi?

S a l a h o v (*kinayə ilə*). Yaradıcılıq, yaradanlar, axtarışlar...

Ş a h i n. Yüzlərlə yaradıcı adamın beyni kütləşib, pas atıb burada. Yaradıcılıq işi dönüb olub pinəçilik. Hər gün saat doqquzda işə gəl, iyirmi il bundan əvvəl yığdığın sadə saat mexanizmlərini bir-birinə cala. Eyni dübək, eyni duz. Döşə canına getsin... Zavodun yarandığı ilk illərdə neçə-neçə təklif irəli sürülüb, amma heç birinə fikir verilməyib. Bir iclasda deyibsiniz ki, pioner baş dəstə rəhbəri seçmirik ki, təklif verəsiniz... Görürsünüz, beyinləri necə kütləşdiribsiniz? Hissləri, ehtirasları necə söndürübsünüz? Baxışları, mənəviyyatları inkubator cücələri həddinə salıbsınız... Burda hamı gərək Salahov deyəni desin, hamı gərək qırx bir nömrəli ayaqqabı geyinsin, hamı gərək qoluna... yapon saatı bağlasın. Çünki Salahov belə edir. Bu yalnız istehsalat prosesinə badalaq vuran dəhşətli azar deyil, həm də sosioloji məsələdir.

S a l a h o v. Məni asmaq lazımdır, hə?.. Yaradıcılıq, novatorluq, yenilik. Bura yazıçılar evidir, sizin o redaksiyadır-nədir?

Ş a h i n. Yaradıcılıq ehtirası hər peşədə, hər kəsdə var. Dağlardakı çobanlar da sürünü iki gün dalbadal eyni örüşə aparmırlar. Bax, böyrünüzdəki ayaqqabı fabriki ayda bir cür ayaqqabı buraxır. Onların ayaqqabısı ilə sizin zavodun saatlarını yan-yana qoyub kiçik bir sorğu aparaq, lap elə sizin zavodun əməkdaşları ilə, soruşaq: hansı gözəldir? Deyəcəklər, əlbəttə, ayaqqabılar... Ayaqqabı və saat... Ayaqqabı saatdan gözəldir, incədir, zərifdir... Qəribə səslənir.

S a l a h o v. Çox sadə düşünürsən. O məsələlər sən düşündüyün qədər də asan deyil. Elə bilirsən, bir məqalə çap olunsa, hər şey düzələcək?

Ş a h i n. Yox, bəlkə ikinci, üçüncü məqalə də yazılacaq... İflic vurmuş adamı ayağa qaldırmağa vaxt lazımdır, vaxt... Amma təcili yardım tədbirlərini bu gün başlamalıyıq.

S a l a h o v. Elə belə də yazıbsan, iflic, infarkt, təcili yardım maşını... Müəllimlər institutunun rektorunu da bu prinsiplərlə işdən çıxartdın, təzəsi altı ay dözmədi heç, sonra yenə təzəsi... (*Kinayə ilə.*) İndi necə, o institutda daha rüşvət almırlar? Susursan... Bura, bu stola məndən başqa kim gəlsə, əlifbadan başlayacaq. A, B, V... Mən isə bu kollektivin cikini də bilirəm, bikini də.

Ş a h i n. O saat vəzifədən çıxmağınızdan qorxdunuz. Bir də, burada elə A, B-dən başlamaq lazımdır. Demək, zavodun bugünkü dramatik vəziyyəti heç! Əsas qayğısı budur ki, məqalə çap olunsa, Salahov yoldaş vəzifəsindən götürülə bilər. Qəzetlərdə elan vermək lazımdır ki, Sahil şəhərinin saat zavodu ləğv edilir, kimin borcu varsa ödəsin, kimin alacağı varsa, tələb etsin. Ləğv edilməlidir, bəli, kökündən ləğv edilməlidir! Sonra qəzetlər yeni elan çap etsin: Təzə saat zavodu açılır, rəngli saatlar, musiqili saatlar, elektron saatlar istehsal edəcək... elə saatlar ki, meydan oxuyacaq Yaponiya firmalarına!

S a l a h o v. Romantika!..

Ş a h i n. Böyük həqiqətlərin özülü romantikadır! Çkalov Şimal qütbündən qabaq Marsa uçmaq arzusundaymış... Sonra Qaqarinin yolu-izi qurşaq oldu anamız Yer kürəsinə! Sonra Armstronq Ayın əlini sıxdı... Bəs sabahın kosmonavtı? Onlar köhnə yollarla getməyəcəklər, mən buna əminəm!

S a l a h o v. Sən gərək şair olaydın.

Ş a h i n. Kim torpağa, günəşə, insanlara, bir də peşəsinə vurulubsa, şairdir. Şair olmaq üçün kitab çap etdirmək, yazıçılar ittifaqının üzvü olmaq vacib deyil. Başqa iradlarınız yoxdursa...

S a l a h o v. Amma bütün bu romantika ilə birlikdə plan doldurmaq lazımdır, kəmiyyət planı, kə-miy-yət... Açıq danışıram, deyilmi? Keyfiyyət dalınca düşsəydim, çoxdan atmışdılar bayıra. Keyfiyyət... Bir dəfə ondan sarı başım dəyib əhlət daşına, qansam, ömürlük bəsimdir.

Ş a h i n. Bu zavodda olub?

S a l a h o v. Yox, hələ ona qədər, aspirant idim, Moskvada. (*Kinayə ilə.*) Nyuton, Paskal, Lomonosov idi allahım onda. Dissertasiya yazmışdım. Sənin o elektron saatını mən ixtira etmişdim. Əlbəttə, nəzəri mülahizələrimlə. Elmi şura nəzakət xatirinə bəyəndi, bəli, bəli, nəzakət xatirinə! Amma istehsalat üçün təklif irəli sürmədilər. Dedilər, sənə dissertasiya lazımdır, müdafiə elə, qurtarsın getsin... Nəyinə gərəkdir istehsalat? Bir də hər ixtira istehsalata keçsə, onda bizdə hər alimə bir zavod bəs eləməz. Dedilər, görmürsən alimlərin sayı yaz göbələyi kimi artır? Çox çalışdım, neçə akademiklə görüşdüm, rəhbərliyə müraciət etdim, bir şey çıxmadı. Tüpürdüm o elmi işə də, alimliyə də... (*Seyfini açа-açа.*) Sən biləni, "Elektron" bizdə neçə ildir istehsal olunur?

Ş a h i n. On-on beş ildir.

S a l a h o v (*seyfdən çıxardığı qovluğu Şahinin qabağına atır*). Bəs bax gör, bu dissertasiya hansı ildə yazılıb? 1957-ci ildə. Sən anadan olan ili! (*Tutulur.*) Bax, çertyojlar, daxili mexanizmlər... Görürsənmi (*saatın şəklini göstərir*) "Elektron" saatını? Sənin qolundakına oxşayırmı? Bu da elmi şuranın qərarı. Möhürlü, qollu... Şübhən qalmadı ki...

Ş a h i n. Qəribədir. Bəs necə oldu ki, "Elektron"un kəşfi sonralar sizin adınızla bağlanmadı.

S a l a h o v. Bir vaxtlar mən də çox heyrətlə baxırdım bu işə. Amma indi heyrətlənmirəm, başa düşürəm ki, dünyada belə işlər də çox olur. Bu kəşf filankəsin adı ilə bağlanmalıymış, çünki o, filankəsin bacısıoğludur.

Ş a h i n. Və sakitcə təslim oldunuz, heç kəslə vuruşmadan, mübarizə aparmadan, kimsəni qınamadan...

S a l a h o v. Kimə qarşı vuruşmalıydım? Elmi şuradakı robotlaramı qarşı, dayısının kölgəsində fısıldayan bir fırıldaqçıyamı qarşı, yoxsa əli lap yuxarıların ətəyində olan o hökmdar dayıyamı qarşı?

O fırıldaqçı bacıoğlu mənim elmi işimi hardansa çırpışdırıb axır nöqtəsinədək köçürdü və görkəmli adam oldu. Bu hadisə mənim sənətə və həqiqətə olan inamımı son zərrəsinədək məhv elədi.

Şahin. Amma o fırıldaqçı fırıldağıynan qalib gəldi, sizsə susub təslim oldunuz, eləmi?

Salahov. Düz deyirlər, sən mənim gəncliyimsən, Şahin!

Şahin. Onu kim deyir?

Salahov. Sizin redaktor.

Şahin. Deməli, mən də bir gün susacağam?

Salahov. Mən onu istəməzdim, amma, əlbəttə, səndə də çox şey dəyişəcək... Yaxşı yadımdadır, bu zavodda işə başlayanda elə bilirdim, günəşin qonşuluğunda yaşayıram. Gecə-gündüz büllur saatlar barədə düşünürdüm, yuxuda da keyfiyyətdən sayıqlayırdım. Hər yerdə məni danlayırdılar ki, planı doldurmuram, havaxt yuxarıdakı iclaslara məsələ tapılmasaydı, mənim məsələmi salırdılar. Bir az da elə davam etsəydi, şübhəsiz, işdən çıxaracaqdılar. Bəs sonra? Axı alim olmasan, yaşamaq olar, amma çörək qazanmasan – yox. Buna görə də başladım onların istədiyi kimi işləməyə. Plan, plan, plan!!! Kəmiyyət planı, yalnız kə-miy-yət... Sonra hörmət də öz-özünə gəldi, şöhrət də. Rəsmi yerlərdəki tariflər gürcü tostları kimi uzandıqca uzandı...

Şahin. Etirafınız səmimidir, amma bu da sizə haqq qazandırmır.

Salahov. Mən bu etirafı bəraət qazanmaq və ya mənə güzəştə getməyiniz üçün etmədim.

Şahin. Onda salamat qalın. (*Ayağa qalxır.*)

Salahov. Xoş getdin! (*Şahin qapıya tərəf gedir.*) Redaktoruna de ki... Mənim heç bir iradım yoxdur məqaləyə, qoy çap eləsin. Sözümüz sözdür! Amma bir neçə dəqiqə də əyləş.

Şahin ayaq saxlayır.

Şahin. Buyurun. (*Qayıdıb əyləşir.*)

Salahov. Şahin... sən yaşda... mənim... oğlum var.

Şahin. Mənim də siz yaşda atam var. Amma indi mən ondan bir yaş böyüyəm. İyirmi üç yaşında həlak olub. Göylərdə. On bir nəfəri paraşütlə yerə göndərib, özünün xilas olmağa vaxtı qalmayıb... O həm də sizin adaşınızdır.

Salahov. Əgər o yaşasaydı, bu gün... mənim yerimdə otursaydı... inadından dönərdin?

Ş a h i n. O sizin yerinizdə otura bilməzmiş, onunçün göyləri özünə məskən seçmişdi.

S a l a h o v. Birdən otursaydı...

Ş a h i n. Sizin əməllərinizi etməzdi.

S a l a h o v. Birdən etsəydi.

Ş a h i n. Bağışlamazdım!

S a l a h o v. Elə-beləcə yazardın?

Ş a h i n. Elə-beləcə yazardım!

S a l a h o v. Və bununla nəyi sübut edərdin?

Ş a h i n. Acı həqiqətləri udmaq olmur...

S a l a h o v. Həm də nəzərə almalısan ki, mən Həsənağa Sailoviçi, dayını deyirəm, doğma qardaşdan artıq sevirəm.

Ş a h i n (*ətrafa*). Bu şəhərdə onun nə yaman çox qardaşı var...

S a l a h o v. Və məqalə çap olunsa, gərək mən də öz haqqımı tələb edəm, kiməsə qarşı vuruşam. Axı zavodun bugünkü vəziyyəti üçün günahkar yalnız mən deyiləm. Belə yaramaz axı, o boyda kişi, bu boyda qardaşlıq arada ola-ola...

Ş a h i n. Bir nəhəng kollektivin taleyini iki qardaş arasında bölmək olmaz. Bir də bu məqalənin dayıma nə dəxli var?

S a l a h o v. Necə nə dəxli? Bu şəhərdə hər şeyin ona dəxli var.

Ş a h i n. Bağışlayın, siz hansı Həsənağadan danışırsınız?

S a l a h o v. Birinci katibimizdən, sənin dayından.

Ş a h i n. O mənim dayım deyil.

S a l a h o v. Nə?

Ş a h i n. Mənim dayım, dəmiryolçu Həsənağadır.

S a l a h o v. Belə de! Bəs necə olub, səni bura katib çağırıb?

Ş a h i n. Bilmirəm.

S a l a h o v. Sonuncu sual! Ata... sənin... doğrudan həlak olub?

Ş a h i n. Bəli?

S a l a h o v. Sən redaktordan onun şəklini istəmisən, eləmi?

Ş a h i n. Sizdə var?

S a l a h o v. Onun şəkli redaksiyada, sizin şöbədə, şəhərin qabaqcılları sırasında var...

Ş a h i n. Mənim atam həlak olub!..

S a l a h o v. O sağdır, bu rayonda işləyir, qabaqcıl, hörmətli adamdır. Anan yalan deyib sənə.

Ş a h i n. Yox, mənim anam yalan deməz, atam həlak olub!

S a l a h o v. O sağdır!

Ş a h i n. İnanmıram.

S a l a h o v. Nə üçün, oğlum? (*Qoltuq cibindən şəkil çıxarır.*) Bax, inanmırsan, bax, oğlum! Bu – anan, bu – sən, bu da – mən! Bu şəkli taleyin mənə dəhşətli əzablar önündə bəxş etdiyi ən gözəl nemət kimi qoruyub saxlamışam.

Ş a h i n (*öz-özüylə danışırmış kimi*). İnanmıram o belə vicdansız ola. Şüurum kəsəndən, həmişə ata-ata deyib onu səsləmişəm. İnanmıram, ata olasan, amma bu iyirmi iki ildə öz doğma övladını bir kərə itirib-axtarmayasan... (*Salahova.*) Yox, mənim atam həlak olub! O, qəhrəman idi, təyyarəçi idi! O... o... (*Qaçır.*)

Salahov ayağa qalxır, düşüncələr qucağında var-gəl edir.
Gənc Mehriban görünür.

G ə n c  M e h r i b a n. Nə üçün aldatmısan məni? Bu nə məktubdur, Ənvər?

S a l a h o v. Yadıma düşəndə özümə nifrət edirəm, elə bil qəlbimin lap dərinliyində ağrılı bir guşə o vaxtdan boş qalıb, kiminsə qarşısında təpədən-dırnağa günahkaram. O dəhşətli axşamı heç unutmuram. Yenə ağappaq Rusiya qışıydı. Amma...

Gənc Ənvərlə gənc Mehriban görüşürlər. Mehriban əlindəki məktubu oxuyub,
sonra ağır fikrə dalır, taqətsiz halda divana yıxılır.

G ə n c  Ə n v ə r. Sənə nə oldu? (*Yerə düşmüş məktuba baxır.*) Sən... onu niyə oxudun? (*Kənara.*) Bir gün oxunacaqdı də...

G ə n c  M e h r i b a n. Evli olduğunu niyə gizlətmisən məndən?

G ə n c  Ə n v ə r. Başqa çarəm yox idi. Evli olduğumu bilsəydin, sevməzdin məni.

G ə n c  M e h r i b a n. Sevgi... Yalanın, vicdansızlığın arxasında gizlənmək havaxtdan sevgi adlanır?

G ə n c  Ə n v ə r. Mən vicdansız deyiləm, mən yalançı deyiləm, mən onu heç vaxt sevməmişəm, evlənmək barədə heç vaxt düşünməmişəm. Moskvaya aspiranturaya gələndə qohum-qardaş təhrik etdi ki, qoca ananı kənddə tək qoymaq olmaz, bu həm də anamın arzusu idi. Dedilər – evlənmək lazımdır, dedim – evlənim... Soruşdular – kimlə? Dedim – kimi istəyirsiniz... Bəli, məndən yana fərqi yox idi. Deyirlər ki, Böyük Pyotr da belə evlənib.

G ə n c  M e h r i b a n. Amma Böyük Pyotr Qərbə uzunmüddətli təcrübə səfərinə gələndə heç kəsi aldatmayıb ki, subaydır...

G ə n c  Ə n v ə r. Onsuz da mənim əzablarım özümə bəsdir. Məni ona bağlayan heç nə yoxdur.

G ə n c  M e h r i b a n. Bəs uşaqların? Susursan... İki gül kimi balanı qoyub gəlibsən orda. Hər gün Araz boyu şütüyən qatarlara boylanıb yolunu gözləyirlər. Bəs o fağır, günahsız qadın? Qoca, xəstə ananı tumarlaya-tumarlaya saxlayır ki, sən inciməyəsən... Mən peşmançılığımın yarısından qayıda bilərəm, amma o... yox, mümkün deyil.

G ə n c  Ə n v ə r. Sən nə danışırsan?

G ə n c  M e h r i b a n. Bunu mən demirəm, həyatın özü diktə edir.

G ə n c  Ə n v ə r. Mən dəli olaram!

G ə n c  M e h r i b a n. Sonra da biryolluq ağıllanarsan.

G ə n c  Ə n v ə r. Nəhayət, mənim övladım var.

G ə n c  Mehriban. Burda birdir, orada iki. Buradakı oğlandır, oradakılar qız!.. Atasız qız uşağı günəşsiz gündüzlərə bənzər... (*Sükut.*) Burada vicdansızlığın barədə orada heç nə deməzsən, qoy səni yenə pak adam kimi tanısınlar... Mən elə bu gün məhkəməyə ərizə verərəm. (*Düşünərək.*) Bəs sənin kəbinin yox idi?

G ə n c  Ə n v ə r. Vardı... Bilirsən də... mən köhnə pasportumu itirmişdim. Təzəsini Moskvada aldım, pasportçu qız kəbin möhürü vurmağı unutmuşdu.

G ə n c  M e h r i b a n. Bəs vicdan? Pasport itəndə vicdan da itir?

G ə n c  Ə n v ə r. Yenə vicdan?

G ə n c  M e h r i b a n. Sənə vicdansız demək mükafat vermək kimi bir şeydir, dəyyus! (*Ona bir sillə çəkir. Yox olur. Salahov dəstəyi götürüb nömrə yığır.*)

S a l a h o v. İman...

R e d a k t o r. Görüşün necə keçdi? Nə oldu?

S a l a h o v. O məqaləni çap elə.

R e d a k t o r. Necə?

S a l a h o v. Çap elə, bütövlüklə çap elə o məqaləni. (*Dəstəyi yerinə qoyur.*)

R e d a k t o r (*əlindəki dəstəyə baxır, du-du-ları eşidə-eşidə*). Bu da şizofreniya oldu?

İşıqlar yığışır.

PƏRDƏ

## ÜÇÜNCÜ PƏRDƏ

Redaksiyanın yanı. Küçə. Şahin qaçaraq gəlir.

Nərgiz (*arxadan çağırır*). Шахин! (*Yaxınlaşır.*) Я прошу подождите. Видите эту книгу? Как хорошо, что издали...

Şahin. "Самоучитель азербайджанского языка". Dilimizi öyrənməyə başlamısınız?

Nərgiz. Bəli, deyirlər, лучше поздно, чем никогда... Bu dədələr sözünü azərbaycanca necə demək olar?

Şahin. Zərərin yarısından da qayıtmaq xeyirdir.

Nərgiz. Gözəl səslənir.

Şahin. Nərgiz, hansı institutu bitirmisiniz?

Nərgiz. Инженерно-строительный.

Şahin. İnşaat mühəndisləri institutunu? Şəhərlər, qəsəbələr tikmək lazımdır, siz isə haradasa əyləşib telefonlara cavab verirsiniz... Məmişi, Harayxanımı, Qulamovu redaktorun yanına bisavad bir qarı da çağıra bilər.

Nərgiz. Mən nə edim? Papam belə istəyir.

Şahin. Demək, siz mühəndisliyə də istəmədən getmisiniz? Bəs öz arzunuz, ürəyinizdən keçən bir ixtisas yoxmu?

Nərgiz. Mən də sizin kimi jurnalist olmaq istəyirdim.

Şahin. Bəs niyə jurnalistika fakültəsinə getməyibsiniz?

Nərgiz. İki ildə dörd dəfə imtahan verdim o fakültəyə, iki dəfə əyaniyə, iki dəfə qiyabiyə. Dördündə də yarım balım çatmadı. Fransız dilindən həmişə "dörd" aldım. Hamısı – "beş", xarici dil – "dörd". Fransız dilindən dörd dəfə eyni qadın imtahan götürürdü, eynəkli, kök, qaşqabaqlı bir tip idi. Hər döşü mənim bədənim boydaydı. Sonrakı iki imtahanda məni tanıdı, o biri imtahanlarla da maraqlandı, dedi: "beş"ə layiqəm, amma verə bilməz, çünki fransız dili təmayüllü məktəb bitirməmişəm. Sonra da vəhşiyanə bir şaqqanaq çəkib əlavə etdi ki, əgər ona imtahan verən bir fransız olsaydı və o, fransız dili təmayüllü məktəb qurtarmasaydı, ona da "beş" verməzdi. Soruşdum: "Jurnalist olmaq üçün məgər fransız dili təmayüllü məktəb bitirmək lazımdır?"

Şahin (*onunla sənlə danışmağa başlayır*). Get inşaata, Nərgiz.

Nərgiz. Axırıncı imtahanda sərbəst mövzu yazdım – "Mənim arzum". Yazdım ki, inşaat mühəndisi olmaq istəyirəm, elə binalar

tikəcəyəm ki, jurnalistlər təsvir etməyə söz tapmasınlar. O əcaib "fransız təmayüllü" arvadın acığına elə yazdım. Tezdən imtahana gedəndə pillələrin başında qabağıma çıxmışdı. Bir kişi ilə danışırdı, qaş-qabağını elə turşutmuşdu ki... Bəli, yazdım, mühəndis olmaq istəyirəm və imtahandan çıxandan sonra işlərimi geri istədim, bildim ki, "iki" verəcəklər. Amma işlərimi vermədilər, dedilər, qayda-qanun var, sabah tezdən "iki" alanların siyahısını vuracaqlar, onda gəlib alarsan. "İki"lərin sırasında yox idi adım, sonra qiymət alanların siyahısında familimi axtarmağa başladım, qəribə idi, "beş" vermişdilər. Fransız dili imtahanında acığımdan müəllimə cavab vermədim, dedim, hazırlaşmamışam. Döşləri qabardı, elə bil nasosla üfləyirdilər. Yenə "dörd" yazdı, dedi bir ay qabaq sənə "dörd" vermişəm, bu dəfə "iki" yazsam, gülərlər. Bu vaxt bilet çəkib hazırlaşan uşaqların pıqqıltısını eşitdim.

Ş a h i n. Sağ ol, Nərgiz! Səni yavaş-yavaş oxumağa başlayıram.

N ə r g i z. Siz sağ olun! Yaxşı ki, gəldiniz... Siz məni özümə qaytardınız, sizdən yana qayıtdım doğma obama, axı anam mənə bu dildə layla çalıb...

Ş a h i n. Sağ ol, Nərgiz! (*Öz-özünə.*) Yox, deyəsən, burada yaşadığım günlər hədər getmədi, nə isə qazandım da. Bəlkə elə bura bağlanacağam, kim bilir...

N ə r g i z. Görürsüz, peşə seçəndə də nələr gəlir adamın başına. Bacım rəssam olmaq arzusundaydı, amma indi həkimdir...

Ş a h i n. Bəs qardaşın yoxdur?

N ə r g i z. Yoxdur. Amma həmişə qardaş həsrətilə yaşamışam. Uşaq vaxtı uşaqlar rəfiqələrimə sataşanda, onları qardaşları ilə qorxudardılar. Dəcəllər o saat qorxub çəkinərdilər. Biz isə... bilirdik qardaşımız yoxdur. Biz iki bacı bir-birimizə həm də qardaşıq.

Ş a h i n. Get inşaata, Nərgiz. Ürəkaçan evlər, saraylar tik. Ölkəmizə gələn qonaqlar əvvəlcə tikdiyimiz binalara baxır, sonra qəzetlərimizi oxuyurlar.

N ə r g i z. Əvvəlcə qəzetlərimizi oxuyub, sonra qonaq gələnlər də var. Yox. Jurnalist yaxşıdır. Mənim təsəvvürümdə jurnalist ən sərbəst, ən xoşbəxt adamdır, heç kəsdən asılı deyil, öz sözünü, fikrini istədiyi vaxt deyə bilər. (*O da Şahinlə sənlə danışmağa başlayır.*) Sənin kimi... Ancaq... Sən bəzən sərhədi aşırsan, adamların xətrinə dəyirsən. Kobudluq edirsən.

Ş a h i n. Doğruluq, prinsipiallıq nə vaxtdan kobudluq olub?

N ə r g i z. Redaksiyaya gələndən hamını narahat etmisən. Məmişə deyirsən ki, səndən redaktor müavini olmaz, Qulamova deyirsən ki, nəzəri jurnalist savadın yoxdur...

Ş a h i n. Qəribədir, bunları sənə kim çatdırıb?

N ə r g i z. Yerin də qulağı var. Özünü hamıdan çox bilən aparırsan. Nə olsun, Bakıda sənin bir-iki məqalən çap edilib? Buna görə təvazökarlığını itirməlisən? Bu şəhərin öz qaydaları var, hamı bir-biri ilə qohumdur, tanışdır, dostdur... Onları bir-biri ilə vuruşdurmağın nə mənası?

Ş a h i n. Düz demirsən, Nərgiz, bizim ailədə bir qanun var, o da hamı üçün müqəddəs olmalıdır. Məni bağışla, tək qalmaq istəyirəm, başım ağrıyır.

N ə r g i z. Bax, bu da bir kobudluq! Saat zavoduna getdin? Direktorla görüşdün?

Ş a h i n. Görürəm, sən bilməyən şeylərə qurd düşər. Bura bax, sən kimə casusluq edirsən? Redaktora? Məni pusursan... İndi qəsdən gəlmisən bura? Yoxsa "təsadüfən?"

N ə r g i z. Qəsdən! Gördüm zavodda çox ləngidin, ardınca gəldim. Hə, necə keçdi görüşünüz?

Ş a h i n. Mən çox bədbəxt adamam, Nərgiz.

N ə r g i z. İşinə, sifətinə bu sözlər yaraşmır.

Ş a h i n. Doğru sözümdür. Mənə elə gəlir ki, heç bir oğlan mənim düşdüyüm vəziyyətə düşməyib.

N ə r g i z. Hansı vəziyyətə?

Ş a h i n. Bir dostum var. Sən tanımazsan... Ata üzünə həsrət idi. Eşitmişdi ki, atası o hələ uşaq ikən həlak olub... qəhrəman kimi. Dostum öz atası ilə fəxr edirdi, xəyalında heç vaxt görmədiyi simasını canlandırırdı. Qəlbən, ruhən ona oxşamağa çalışırdı. Lakin birdən məlum olub ki, onun atası sağ imiş. Lakin heç bir vaxt onu arayıb-axtarmırmış. Dəhşət burasıdır ki, bu ata kasıb deyil, çox hörmətli, varlı bir adamdır. Təsəvvür edirsən, neçə illər ayrılıqdan sonra ata-oğul görüşürlər, oğul qəlbində ata həsrəti, ata qəlbində şöhrət, vəzifə qayğısı. Oğlanın bütün arzuları alt-üst olub.

N ə r g i z. Jurnalistsən, jurnalist! Həyatda bundan da betər hadisələr olur. Ata-anası sağ ola-ola yetimxanada böyüyən uşaqlar da var. Bəs sən bunları hardan bildin? Dostun bura gəlib?

Ş a h i n. Hə...

N ə r g i z. Yazıq... saat zavodunda kimlə görüşdün, danış də... Felyeton haqqında Salahov nə deyir?

Ş a h i n. Salahov vəzifəsindən qorxur, qorxur... Amma sonra çox şeyi açıq etiraf elədi.

N ə r g i z. Bəs sən?!

Ş a h i n. Mən od ilə suyun arasında qalmışam, Nərgiz. Məsələ burasındadır ki, Salahov mənim bayaq dediyim dostumun atasıdır.

N ə r g i z. Nə?

Ş a h i n. Mən o məqaləni çap etdirsəm, hamı deyəcək bu adam dostunun atasının qatilidir. Yox, əgər bu fikrimdən əl çəksəm, öz ideallarımı, arzularımı, yolumu tapmamış oluram. Ona görə bayaq dedim də, bədbəxt adamam.

N ə r g i z. O dostun indi hardadır, Şahin?

Ş a h i n. Nəyinə gərəkdir?

N ə r g i z. Yalvarıram, onu mənə göstər. Biz eşitmişdik, anam deyirdi, ancaq inanmırdım... Demək... Hardadır o? Mehmanxanada?

Ş a h i n. Yox.

N ə r g i z. Öz evləri var burda?

Ş a h i n. Yox.

N ə r g i z. Şahin...

Ş a h i n. Mənim heç bir dostum yoxdur, Nərgiz. O dediyim oğlan mənəm. Bu hadisələr mənim başıma gəlib...

N ə r g i z. Qardaşım! İlahi, qardaşım!.. Mənim də qardaşım var! O budur, qarşımdadır!.. Qardaş!!! (*Ağlayaraq onun boynuna sarılır.*)

Ş a h i n. Sən... Salahovun qızısan, Nərgiz?

N ə r g i z. Hə... Hə... Gedək bizə, səni anamla, bacımla tanış edim. Qoy hamı bilsin. Mənim də qardaşım var!

Ş a h i n. İndi yox, Nərgiz... İndi yox. (*Qaçaraq gedir.*)

N ə r g i z. Allah səni saxlasın, qardaş!!! Sən mənim sevincimi özümə qaytardın.

Musiqi səslənir, getdikcə güclənir, sonra birdən susur. Redaksiya.
Məmişlə Harayxanım üz-üzə əyləşib mehriban söhbət edirlər.

M ə m i ş (*kövrək*). Görünür daha məni o kabinetə qoymayacaqlar, Harayxanım... Zəmanə dəyişib indi, kişilik dünyası deyil. Kimin arxası katibə bağlıdırsa... o da udacaq. Hər şey də birincidən asılıdır, birincidən... onun da ki, mənimlə heç əzəldən arası yoxdur...

H a r a y x a n ı m. Nə fəlsəfədir o elə?

M ə m i ş. Ağlamayana pəpə yoxdur. Qulaq as, gecə səhərə kimi fikirləşmişəm, manevr etmək lazımdır. İndi ömrümün elə vaxtıdır ki, mənə daha məsul postlar tapşırılmalıdır. İndi şəhərimizdə mənə uyğun üç vakantnı yer birdən açılmışdır. İstəyirəm qorkoma yazam, o yerlərə öz namizədliyimi irəli sürəm...

H a r a y x a n ı m. Haralardır?

M ə m i ş. Əvvəlcə söz ver ki, hara getsəm, mənimlə gedəcəksən...

H a r a y x a n ı m. Niyə getmirəm... İyirmi üç ildir bu qəzeti bax, bu barmaqlarım çap eləyir. Amma qədrimi bilmirlər...

M ə m i ş. Vakant yerlərdən biri şəhər QAİ-sinin rəis müavini...

H a r a y x a n ı m. Yağlı yerdir. Bəs mən orda nə iş görəcəyəm?

M ə m i ş. Qadın milisioner indi yaman dəbdədir. Səni yolların birinə tənzimləyici təyin edərəm. Maşınları o yoldan bu yola ötürməyə nə var ki? (*Xətkeşi ona verir.*) Bir məşq elə. Mən üçüncü dərəcəli şoferəm, milisionerlərə fikir vermişəm!.. Bax, belə dayan... Aha... belə dön... yol göstər, əhsən... (*Harayxanım onun dediklərini edir.*) QAİ baş tutmasa, hamamın direktoru. Mirzəqulunun pensiya vaxtı çoxdan çatıb... Sən də kisəçi olarsan...

H a r a y x a n ı m. Nə?

M ə m i ş. Kassir, kassir.

H a r a y x a n ı m. Hə, bu başqa məsələ.

M ə m i ş. Əgər bunlar baş tutmasa, gərək yenə o otaqdan yapışaq. (*Redaktorun müavininin otağını göstərir.*) Əgər mən ora keçsəm, sən keçirsən bu stola. (*Əli ilə stolu döyəcləyir.*) Mənim yerimə baş ədəbi işçi və seçilirsən mestkomun sədri!

H a r a y x a n ı m. Əhsən, Məmiş, əhsən. Keçirdiyimiz xoş günlər halalın olsun. Olmaz, o vakant yer deyirsən, nədir, onların üçünü də birdən ələ keçirək?!

M ə m i ş. Bu dünyada hər şey olar, Haraycan! Hər şey arxadan asılıdır, arxadan. Deyir, birini günahsız-günahsız döyürmüşlər, o da "vay arxam, vay arxam!" deyib ağlayırmış. Əl saxlayıb soruşurlar: "Adə, biz sənin üzünə, başına vururuq, nə başlamısan vay arxam, vay arxam..." Döyülən cavab verir ki, əgər arxam olsaydı, siz heç mənə yaxın düşə bilməzdiniz.

H a r a y x a n ı m. Məmiş, əgər sən bunların arasına düşməsəydin, çoxdan professor olmuşdun, vallah!

Arxadan səs gəlir: "Harayxanım, bu yazı qaldı axı..."

Harayxanım. Yaman qanmaz adamdır bu məsul katib, qoymaz ki, adam ürəyinin dərdini boşaltsın heç olmasa... (*Çıxır. Məmiş də onun arxasınca gedir.*)

Şahin fikirli halda daxil olur. Şöbəyə keçib divardakı "Şəhərimizin qabaqcılları" lövhəsinə baxır, birdən geri çəkilir. Məmiş gəlir, öz stolunun yeşiyində nəsə axtarır. Şahin cəld harasa çıxır. Günay görünür.

Məmiş. Gün aydın, Günay xanım.

Günay. Məmiş, sən necə adamsan? Bir dəfə papağını qabağına qoyub fikirləşmisən sən nəsən, kimsən?

Məmiş. Bəli?

Günay. Əməllərini götür-qoy etmisən heç? Deyirlər, ən ağır günah işlədənlər belə, ömrünün sonuna yaxın tövbə edib, düz yola gəlirlər. Səni bu redaksiyanın əməkdaşlarına qənim göndəriblər, nə istəyirsən bizdən?

Məmiş. Can!

Günay. Neçə ildir buradayam, həmişə sənin murdar işlərini görmüşəm və susmuşam. Sözümü üzünə deməmişəm. Hamının xatirinə dəysən də, istəməmişəm xatirinə dəyəm. Hirsimdən gedib ağlamışam.

Məmiş. Mənim nə günah işim olub, Günay!

Günay. Bura gələn gündən sən məni biabır edirsən. Yazdığım materialları ələ saldın dinmədim, toyumu lağa qoydun dinmədim, uşağım haqqında hamıya şayiə yaymısan ki, eybəcərdir, nə istəyirsən məndən, Məmiş?

Məmiş. Sən mənə şər atırsan, Günay xanım. Mən belə adam deyiləm, vallah.

Günay. Güləlini yoldan çıxartdın, Səmədağa Şıxəliyeviç haqqında o qədər yazdın, axırda infarkt oldu, Əbdül Həmidoviçin partbiletini əlindən aldırdın, Rəhimi zəlil eləmisən, bəs deyil?

Məmiş. Nə olub bu gün sənə?

Günay. Dünən axşam, saat 11-də harada idin?

Məmiş. Mən? Nə bilim, vallah? Qoy yadıma salım? Hə... yatırdım...

Günay. Gözünün içinə kimi yalan deyirsən, sən bizim küçədən keçmirdin?

M ə m i ş. 11-də? Hə, hə... deyəsən İmangildən gəlirdim.

G ü n a y. Bu məktubu atmadın sən qapımızın ağzına? (*Məktubu göstərir.*)

M ə m i ş. Nə məktub?

G ü n a y. Sənin rəzil olduğunu burada hamı bilir, Məmiş, amma bu dərəcədə yox. Evi silirdim, bir də gördüm qapının altından məktub atırlar. Əvvəl çəkindim. Sonra məktubu götürdüm... Tez pəncərəyə yaxınlaşdım. Gördüm sən bizim qapıdan çıxırsan, sən bu məktubla nə qazanacaqsan, Məmiş? Ərim mənə inanır, o belə şayiələrə uymaz! Heç utanmırsan, yekə kişisən, gör nə işlərlə məşğulsan? Nəyə görə yazırsan ki, mənimlə Şahin arasında nəsə var. Əməkdaşların bir-birinə kömək etməsi, ya yaxşı bir materialı təriflməsi o deməkdir ki, arada nə isə var? Yox, sən de görüm, nə əsasla məni ərimin gözündən salmaq istəyirsən? Məni Şahinlə küçədə görübsən? Bir yerdə ezamiyyətdə olmuşuq? Bizi növbətçilikdə "başqa cürə" görübsən? Dillən də!

M ə m i ş. O məktubdan mənim xəbərim yoxdur.

G ü n a y. Mən bura gələndə yolumu sizin məhəllədən saldım. Bu məktubu kiçik qızın Laləyə yazdırmısan. Laləni məktəbdə tapdım, məktubu göstərib soruşdum. Qız boynuna aldı ki, o yazıb, ağladı, dedi bilmirdim kim haqqındadır, Günay müəllim, əgər bilsəydim sizdəndir, yazmazdım.

M ə m i ş. Yalan deyir, köpək qızı, uşaqdı, qanmır.

G ü n a y. Ailəmi zəhərlədiyinə görə, məni qadın kimi təhqir etdiyinə görə və nahaq yerə şər atdığına görə səni məhkəməyə verəcəyəm, Məmiş...

M ə m i ş. Qələt eləmişəm, Günay xanım, bağışla, bir xatadır, işin bu pis vaxtı yaxamı vermə milis əlinə.

G ü n a y. Yox, Məmiş, bu namus məsələsidir. Həşərat kimi düşüb qalmısan bu şöbədə, neçə-neçə təmiz adamlara qara yaxdığın yetər!

M ə m i ş. Günay xanım, qurban olum, qələt eləmişəm, keç mənim günahımdan. (*Ağlayır.*)

G ü n a y. Mən bilirdim sən beləsən. Həşərat! (*Harayxanım gəlir.*)

H a r a y x a n ı m. Bay... Bay... bu nədir, sənə nə olub, Məmiş? Niyə ağlayırsan?

G ü n a y. Tutduğu əməllərə görə.

M ə m i ş. Günay xanım, xahiş edirəm, yalvarıram... Xahiş edirəm.

G ü n a y. Gedərsən ərimin yanına, ondan üzr istərsən.

M ə m i ş. Bildim, bildim... Baş üstə, axşam gələrəm, lap sənin yanında ondan üzr istərəm.

G ü n a y. Yox, mən sənin kimi adamı evimə buraxmaram...

H a r a y x a n ı m. Nə olub, ey, axı, Məmiş? Günay, niyə bu günə düşüb bu kişi?

G ü n a y. Özündən soruş...

H a r a y x a n ı m. Nə etmısən ə, yenə?

M ə m i ş. Yeri maşınını tıqqıldat. Sənə dəxli yoxdur... Gedərəm, Günay xanım... gedərəm... gedərəm...

H a r a y x a n ı m. Nə olub, azz, bir mənə də de, ürəyim partladı ki...

G ü n a y. Sənin bu qohumun...

M ə m i ş. Günay xanım, xahiş edirəm, deməyin ona, sabah bütün aləm biləcək, yazığam!

H a r a y x a n ı m. Dedi-qoduçu özünsən. Hə, de, azz.

G ü n a y. Özündən soruşsan, danışar. Böyük hünər göstərib.

H a r a y x a n ı m. Yoxsa bu gün qəzetdə gedən səhvlərdən danışırsınız?

M ə m i ş. Nə səhv?

H a r a y x a n ı m. Deputatın nə iş yeri qeyd olunub, nə dədəsinin adı, nə də seçki dairəsi. Familiyası da səhv gedib. Budur ey... Baxın, Nargilə, vəssalam.

M ə m i ş. Ola bilməz. Axı mən familiyasını yazmışdım.

H a r a y x a n ı m. Bəs dədəsinin adı?..

M ə m i ş. Dedim kirvəmdir, yaxşı düşməz.

G ü n a y. Yox, başın qarışıq idi sənin, ayrı işlərlə məşğul idin...

H a r a y x a n ı m. Nə yazmışdın familini?

M ə m i ş. Nə yazacağam, Hüseynova.

G ü n a y. Axı indi o Hüseynova deyil, ərinin familini götürüb, Qoşqarlı.

M ə m i ş. Bəlkə də elə, Qoşqarlı yazmışam, Harayxanım səhv salıb.

H a r a y x a n ı m. Hey, hey... bu da o dəfəki olmadı ha... rəhbərin adını Allah bilir necə yazmışdın, mənciyəzə nə verirlər, onu da çap edirəm.

M ə m i ş. Hər şeyi yazmışdım. Toxucudur. Bu dağılmışda neçə toxuculuq fabriki var.

H a r a y x a n ı m. Cəmi-cümlətanı iki fabrik, dörd filial...

M ə m i ş. Seçki dairəsinə bax, dübbədüz qeyd eləmişəm: 72-ci seçki dairəsi.

H a r a y x a n ı m. Onu da ixtisar ediblər.

G ü n a y. Niyə?

H a r a y x a n ı m. Yəqin qəzetə yerləşmirmiş, a balam, axı, deynən, ərli arvadı niyə deputat verirsiniz? Toxuculuq fabrikində o qədər evdə qalmış qız var ki... Onlardan birini verin, yazığın baxtı açılsın da...

G ü n a y. Eh... Harayxanım, Harayxanım...

H a r a y x a n ı m. Kaş mənim də adım Nargilə olaydı.

G ü n a y. Neyləyərdin?

H a r a y x a n ı m. Bıy, azz, necə yəni neyləyərdim? Podruqalarımın yanında forslanardım ki, məni də deputat veriblər, inanmırsınız, baxın, bu qəzet, bu da mən. Şəkli yox, zadı yox.

G ü n a y. Bununla nə qazanardın?

H a r a y x a n ı m. Qəribə qızsan, e... bu son vaxtlarda yaman dəyişmisən. Elə bil fransızca danışırsan, bir şey başa düşmək olmur. Xəstəzad deyilsən ki...

M ə m i ş. Harayxanım, sənsiz də neçə-neçə Nargilə neçə-neçə oğlanı aldadacaq ki, mən deputatam!

G ü n a y. Mən güman etmirəm.

M ə m i ş (*kənara*). Yenə keçdi ingiliscəyə.

Q u l a m o v (*əlində qəzet*, *hirsli daxil olur*). Bəli... düzəlmişdi hər yarağımız, bircə qalmışdı saqqal darağımız. Düz üç illik mövzu verdik redkollegiyaya, partiya iclasına, mestkoma, letuçkaya...

M ə m i ş. Nə olub, Qulamov?

Q u l a m o v. Canına dərd olub, ay parazit oğlu, parazit, bu nədir, bu nə materialdır? Allahın bu xırda məlumatını da yaza bilmirsənsə, nə oturmusan burda?

M ə m i ş. Qulamov...

Q u l a m o v. Ə, bu nə çatıdır salmısan boğazına, balam, işləyə bilmirsən, nə keçmisən xirtdəyimə. Ərizəni ver, rədd ol...

M ə m i ş. Qulamov, qızın familiyası mənim oşibkamdır, bu əslində heç oşibka deyil, ərinin familiyasını yox, dədə-babasının familiyasını yazmışam, daha yaxşı...

Q u l a m o v. Dünən sənə demədim ki, axşam mətbəədə ol. Materialı bir də yoxla? Bu, seçkidir, səhv getsə, atamızı yandırarlar.

G ü n a y. Dünən axşam o ayrı işlə məşğul idi.

Q u l a m o v. Vallah, partladım, bilmirəm nə edim. Dost deyirsən, dost kimi danışaq, işçi deyirsən, işçi kimi danışaq. Bir ildir, işləmirsən. Ayda havayı maaş alıb gəzirsən. Bu kiçik materialı da belə. Yox, mən belə işləyə bilmərəm səninlə.

M ə m i ş. Kömək elə keçim müavin, canın qurtarsın.

Q u l a m o v. Sən ya dəlisən, ya da gicbəsər. Bir özünə bax, bu vid-fasonla, bu başla səni müavin qoyarlar? Məmiş, iştahanı bas.

M ə m i ş. Sənin kimi dostu olanın...

Q u l a m o v. Daş düşəydi, Məmiş, daş düşəydi səninlə çörək kəsdiyim günə...

M ə m i ş. Bəsdir! Redaksiyanı başına götürmə. Elə danışırsan ki, guya burda hamıdan çox işləyirsən. Özünü elə aparırsan, elə bil Allahın bacısı oğlusan. Heç sən bu vəzifəyə də layiq deyilsən...

Q u l a m o v. Danış... danış...

M ə m i ş. Sən nə şöbə müdirisən? İşin-peşən öz işlərini düzəltmək, ona-buna yaltaqlıq edə-edə sürünmək. Adam olmayan yerdə özünü adam kimi aparırsan. Pensiya vaxtın çatıb, hə? Çatıb də? Bəs niyə getmirsən? Getməzsən də, bilirsən belə gəlirli yeri sənə heç yerdə verməzlər, indi əlləşirsən ki, müharibə veteranı kitabçası alasan. Elə bilirsən, qanmıram niyə? Növbəsiz şey almaq üçün, hər şeyə əlli faiz güzəşt üçün, hamının gözünə soxmaq üçün. Ay aldın ha... Hamı bilir, hamı bilir ki, sən döyüşən orduda olmamısan. Bir fırıldaq işlədib özünü kənara çəkmisən, indi də yalannan az qala qəhrəman olmaq istəyirsən. Sənin də niyyətin gözündə qalacaq.

Q u l a m o v. Ah, ilan! Demək, voyenkoma sən yazıbsan... Gör ey, mən də buna dost deyirəm, Zənginin qırağına kababa aparıram. Burnundan gəlsin sənə etdiyim yaxşılıqlar, Məmiş.

M ə m i ş. Sənin də burnundan mənim elədiklərim gəlsin.

Q u l a m o v. Nə yaxşılıq eləmisən mənə?

M ə m i ş. Yada sal, huşsuz.

Q u l a m o v. Skleroz özünsən!

M ə m i ş. Bəs bu qədər mal-pul yığmısan, hardan yığmısan, elə bil xəbərsizəm rüşvət almağından, göz yumuram, hər fırıldağından halıyam.

Q u l a m o v. Hə, hə?

M ə m i ş. İki dəfə bazardan felyeton yazmaq üçün adam göndərdin, material hazır oldu, sonra, necə oldu çap eləmədin, niyə? Bu Kəklikli qəsəbəsindəki xalçaçılıq fabrikinə aid tənqidi material vardı, necə oldu, bu iki, restoranlardan, mağazalardan olan yazıları demirəm hələ... Rəhbərlərdən nə isə qoparıb geri qalan zavodlara hər ay səhifə həsr edirsən. Hansını deyim...

Q u l a m o v. Yum ağzını, əclaf!

M ə m i ş. Əclaf özünsən, üstəlik də, demaqoq...
Q u l a m o v. Məni söyürsən?
M ə m i ş. Əvvəl sən söydün.
G ü n a y. Ayıbdı, yoldaşlar.
H a r a y x a n ı m. Məmiş, özünü ələ al.
Q u l a m o v. Yox, məni söyürsən? Sən bilirsən sənə nə edərəm?
H a r a y x a n ı m. Ay haray, ay camaat, qoymayın, qırdılar bir-birini.
G ü n a y. Məmiş, yoldaş Qulamov...
Q u l a m o v. Kənara dur qız! Məni söyürsən? Demək belə?
M ə m i ş. Vur, vur, kişisən vur da.
Q u l a m o v. Al! (*Ona bir yumruq ilişdirir.*)
M ə m i ş. Vay, vay, bağırsağım qırıldı, vay, dədə, öldüm...
G ü n a y. Siz nə etdiniz, yoldaş Qulamov?
Q u l a m o v. Əşşi, kələk gəlir, heç nə olmayıb...
M ə m i ş. Ay, oy, öldüm.
G ü n a y. Bəlkə təcili yardım çağırım?
M ə m i ş. Yox, özüm gedərəm həkimə. Yaxşı Qulamov, səni buna görə dama basmasam, heç dədəm Mıqqının oğlu deyiləm. Yaxşı. Vay bağırsağım qırıldı, vay... vay... vay...

Nəhayət, redaktor dəhlizdə görünür, sanki hay-küyü elə indicə eşidib.

R e d a k t o r. Nə səs-küydü orda?
N ə r g i z. Məmiş müəllimin sancısı tutub, xəstəxanaya getdi.
R e d a k t o r. Sancısı? Material səhv getdiyinə görə, hələ çox azarı tutacaq o avaranın!
Ş a h i n. Sizi bir dəqiqəliyə görmək olar?
R e d a k t o r. Buyur, buyur, oğlum.
Ş a h i n. Mənim materialım nə vaxt dərc olunacaq?
R e d a k t o r. Mən ki, sənə dedim. Bu böyük bir zavod haqqında olduğundan katib oxumalıdır.
Ş a h i n. Mən indi ona zəng vurmuşdum. Deyir, oxuyub və çoxdan sizə qaytarıb. Özü də təəccüb elədi ki, nə üçün çap olunmayıb?
R e d a k t o r. Demək, bundan belə, bu cür işləyəcəyik, hə?
Ş a h i n. Nə cür?
R e d a k t o r. Hər materialdan ötrü katibi narahat edəcəyik? Onun göstərişini izləyəcəyik, hə?

Ş a h i n. Axı, özünüz dediniz, bu hər material deyil.

R e d a k t o r. Niyə belə edirsən, Şahin? Axı Salahov sənin atandır! Yaxşı, yaxşı, sən onu ata kimi qəbul etmirsən, amma hər kimdi, atandır. Sən bu materialla həm ona, həm də mənə böyük zərbə vurursan.

Ş a h i n. Anam məni tək böyüdüb, birtəhər boya-başa çatdırıb. Anamın ürəyində bir arzusu vardı ki, mən ya mühəndis olum, ya da həkim. Amma mən onun yanına jurnalist kimi qayıtdım. O da başa düşdü ki, mən haqq işi üçün vuruşa atılıram. Mən həmişə həqiqəti deməliyəm, həqiqəti yazmalıyam.

R e d a k t o r. Mən səni yalana sövq edirəm?

Ş a h i n. Yarımçıq həqiqətə, bu daha pisdir, İman Mustafayeviç.

Şahin sürətlə çıxır. Telefon zəng çalır. Redaktor dəstəyi qaldırır.
Səhnənin bir küncündə Salahov görünür.

S a l a h o v. İman, o günü demədimmi, çap elə o məqaləni.

R e d a k t o r. Necə?

S a l a h o v. O məqaləni bütövlüklə çap elə.

R e d a k t o r. Dəli olmusan? Mən o işin altına girə bilmərəm.

S a l a h o v. Əgər lazımdırsa, sənə razılıq məktubu da yazaram. Çap elə.

R e d a k t o r. Vallah, sən dəli olubsan.

S a l a h o v. Yox, özümü tapmışam, qırx ildir itirmişdim, indicə tapdım.

Cəsarət də budur,
Hünər də budur. –
Belə cəsarətlə həyat qurasan!
On yol yıxılsan da ayıb deyildir, –
Özün yıxılanda özün durasan.

Musiqi. İşıqlar sönüb yenidən yanır. Səhnənin önünə stullar
qoyulubdur, hiss edilir ki, iclasa hazırlıq gedir.
Əməkdaşlar bir-bir gəlib otururlar.

R e d a k t o r. Bəs camaatın qalanı hanı?

N ə r g i z. Partkom Bakıda kursdadır, mestkom üzvlük haqlarını aparıb verməyə, məsul katibin dişi ağrıyırdı, getdi...

R e d a k t o r. Şahin gözümə dəymir.

N ə r g i z. Gələndə xəbər eləyərəm.

R e d a k t o r. Havaxtdan azərbaycanca danışmağa başlayıbsan, ay qız.

N ə r g i z. Bağışlayın. (*Gedir öz yerinə, Şahin gəlir.*) Niyə gəlmədin? Hamımız səni elə həsrətlə gözləyirdik ki!..

Ş a h i n. Mən sizə gələ bilməzdim, Nərgiz.

N ə r g i z. İnsafsız. Uşaq deyilik ki, hara getsən, mən bacınam, bacınam, ya yox?

Ş a h i n. Əlbəttə.

Redaktor selektorun düyməsini basır, Nərgiz dəstəyi qaldırır.

R e d a k t o r. Что, табах надо вынести к визиту господину Шахина?

N ə r g i z. Hələ gəlməyib, İman Mustafayeviç. (*Dəstəyi yerinə qoyur.*) Tabax elə bizim dildə də tabaxdır? İclasdır. Şəhər partiya komitəsindən də adam gəlib. Səni axtarırlar.

Ş a h i n. Mən o iclasda iştirak etməsəm, heç nə dəyişməz... Səndə zərf olar?

N ə r g i z. Əlbəttə.

Ş a h i n. Bu məktubu iclas qurtarandan sonra redaktora ver. Bu da mənim ünvanımdır. Havaxt lazım olsam, məni bu ünvanda axtararsan?

N ə r g i z. Gedirsən?

Ş a h i n. Bacıcan, özün bilirsən ki, mən daha burda qala bilmərəm. Atamızı elə tənqid edəndən sonra heç kəs mənə hörmət eləməz.

N ə r g i z. Bəs biz?

Ş a h i n. Mən varam, mən sənin qardaşınam, nə vaxt lazım olsam, nəyə ehtiyacınız olsa, məktub yaz, mən gələrəm.

N ə r g i z. Doğrudan?

Ş a h i n. Məni qınama... İndi belə lazımdır. Çox dolaşıq düşdü mənim işim. Evdəkilərə də de... məni qınamasınlar. Bəlkə sonra bir də bura qayıtmaq istəyəcəyəm, kim bilir, hələlik.

Şahin görüşüb çıxır. Nümayəndə otaqda var-gəl edir.
Nədənsə narazıdır. Harayxanım ona yanaşır.

H a r a y x a n ı m. Yoldaş qarkom, sizə bir-iki sualım var. Bax, bizdə ölən yoxdur, elə deyil? Pensiyaya çıxan yoxdur, elə deyil?

Bunlar heç yüz yaşında da pensiyaya çıxmazlar. Əsgər gedən də yoxdur, elə deyil? (*Qəhqəhə ilə gülür.*) Hansı əsgərliyə gedəcək, çoxunun yaşı altmışdan o yanadır... Bəs bu sütülü, təzə ədəbi işçini deyirəm, kimin yerinə gətiriblər? Mən mestkomun üzvü kimi bunu bilməliyəm, ya yox?

N ü m a y ə n d ə. Narahat olmayın, yoxlayarıq, baxarıq.

H a r a y x a n ı m. Yoldaş qarkom, burda bizi adam yerinə qoyan yoxdur. Deputatlıq gələndə redaktora çatar, qonorar – Qulamova, vəzifə – Məmişə, eşşək kimi işləmək də Harayxanıma! Qadınlar bayramında da adımızı birinci çəkməzlər.

N ü m a y ə n d ə. Narahat olmayın, yoxlayarıq, baxarıq...

R e d a k t o r. Harayxanım, bir dəqiqə, icazənizlə... (*Nümayəndəyə yaxınlaşır.*)

N ü m a y ə n d ə. Deyirəm, biz başlayaq, o gəlib çıxar. Bir də bəzi şeyləri o eşitməsə daha yaxşıdır.

R e d a k t o r. Buyurun, başlayaq.

N ü m a y ə n d ə. Di başla.

R e d a k t o r. Siz başlayın...

N ü m a y ə n d ə. Siz açın, mən başlayım.

R e d a k t o r. Hə? (*Ayağa qalxır.*) Di, yoldaşlar, biz bu gün bura yığışmışıq ki, bəzi təxirəsalınmaz məsələləri həll eləyək. (*Nümayəndəyə.*) Hansı təxirəsalınmaz məsələləri? Di, hamıya aydındır o məsələlər. Ona görə də sözü şəhər partiya komitəsinin nümayəndəsi Bürcəlov yoldaşa verirəm. Buyurun, yoldaş Bürcəlov.

Nümayəndə ayağa qalxanda Qulamovla Məmiş əl çalırlar.

N ü m a y ə n d ə. Son vaxtlar sizin redaksiya ilə bağlı ardı-arası kəsilmədən məktublar gedir Mərkəzi Komitəyə. Əməkdaşlar adından (*qarşısındakı məktubları nəzərdən keçirir*), oxucular adından, müharibə veteranları adından və sairə və sairə... Məktubların hamısı imzasızdır və hamısında da şəhər partiya komitəsinin birinci katibi Həsənağa Sailoviç Sadıqov yoldaş günahlandırılır, guya Sadıqov yoldaş öz bacısı oğlu Şahin Qayalını Bakıdan dəvət edərək sizin qəzetə işə düzəldibdir və sairə və sairə... Ekspert yoldaş təsdiq edir ki, məktubların hamısı üç xətlə yazılıb, həmin anonimçilər də sizin aranızdadır.

Q u l a m o v. Kimdir o əclaf?

H a r a y x a n ı m. Bizlərdən olar, canım.

M ə m i ş. Görüm, görüm o məktubların birini? Hə... görürsünüz, mənim xəttimə oxşadıblar... İndi bəzi ağzıgöyçəklər durub deyəcək mən yazmışam.

Q u l a m o v. Onu yazan adamı tapıb, işdən qovmaq lazımdır.

M ə m i ş. İşdən çıxarmaq nədir, ölkədən qovmaq lazımdır.

N ü m a y ə n d ə. Bu məktubları yazanlar şəhər partiya komitəsinin katibi Həsənağa Sailoviç Sadıqov yoldaşla dəmiryolçu Həsənağanı səhv salıblar.

M ə m i ş. Doğrudan?

Q u l a m o v. Bəs necə olub səhv eləmişik, balam? (*Sözünü dəyişir.*) Deyirəm, nə alçaq adamlar var e, dünyada. Tfu!

G ü n a y (*nümayəndəyə*). Düyünü nahaq açdınız, indi dönüb o kişidən döşəyəcəklər.

N ü m a y ə n d ə. İkinci məsələ Məmiş Bəygörməmişov yoldaşın ərizəsidir. O xahiş edir ki, öz ixtisasına uyğun işlə təmin edilsin. Şəhər partiya komitəsi Məmişov yoldaşın, bağışlayın, Bəygörməmişov yoldaşın xahişini nəzərə alaraq şəhər kommunal şöbəsinə tapşırmışdır ki, onu... mərkəzi hamama kisəçi... bağışlayın, duşxana müdiri təyin etsin.

Q u l a m o v. Kişi arzusuna çatdı də...

M ə m i ş. Sağ olsun qarkom! Bəs zamdirektor, bağışlayın zamredaktor kim olacaq. Bəs zamnaçalnik QAİ? Onu da mənə versəydiniz, pis olmazdı.

R e d a k t o r (*zəngi basır*). Sakit olun!

N ü m a y ə n d ə. Üçüncü məsələ... (*Redaktora.*) Bəs Şahin Qayalı gəlib çıxmadı?

Redaktor selektorun düyməsini basır, Şahini soruşur, sonra çiyinlərini çəkir.

N ü m a y ə n d ə. Zərər yoxdur, yəqin mağarıçdan qaçıb. Hə, yoldaşlar, bilirsiniz ki, sizin redaktor müavini stolu çoxdan boşdur, Sumbatzadə yoldaş... o söz, irəli çəkilib, və sairə və sairə. Şəhər komitəsinin bürosu qəzetin ümumi səviyyəsini qaldırmaq, rəhbərliyi gücləndirmək, izafi xərclərə yol verməmək və sairə və sairə məsələlər üçün Şahin Qayalı yoldaşı redaktor müavini təyin edir. (*Özü əl vurur.*) Hə, yoldaşlar, dördüncü məsələ... budur ki, qəzeti

bir az zəif buraxırsınız, deputatların ad-familini səhv salırsınız. Kosmonavt şəklinin altında sağıcı adı yazırsınız, sağıcı şəklinin altında kosmonavt və sairə və sairə. Xahiş edirəm, hərənin öz adını öz şəklinin altından yazın. İclasımız bu qədər. (*Redaktora.*) Deyəsən, dördcə məsələ idi, yox?

Redaktor (*kənara*). Mən nə bilim, biçən də özünüzsünüz, tikən də...

Günay. Mənim bir sualım var.

Nümayəndə. Buyurun.

Günay. Şahin redaktor müavini olmağa razıdır?

Nümayəndə. O nə sözdür? Kim razı olmaz?

Günay. Mən Şahini soruşuram.

Nümayəndə. Razı olmayıb neyləyəcək? O vəzifəni kimə versəm, istəməz? Biz vəzifədən çıxaranda heç adamların rəyini soruşmuruq, vay ola ki, vəzifə verəndə... Bir də büro artıq qərar verib.

Günay. Siz Şahini yaxşı tanımırsınız...

Nümayəndə. Onu tanımaq mənə o qədər də vacib deyil. O gərək bizi yaxşı tanıya, xanım. (*Redaktora.*) Yaxşı, harda qaldı o qəhrəman?

Redaktor zəngi basır, Nərgiz daxil olur.

Redaktor. Qayalıdan xəbər çıxmadı...

Nərgiz. O getdi...

Redaktor. Hara?

Nərgiz. Xahiş etdi, bu məktubu sizə çatdırım...

Redaktor. Görüm? Bu ki ərizədir-nədir? (*Redaktor məktubu oxuyur, amma hamı Şahinin səsini dinləyir.*)

Şahinin səsi. "Hörmətli redaktor, Siz bu sətirləri oxuyanda mən artıq təyyarədə olacağam, daha heç nə məni burada saxlaya bilməz. Niyə bu qərara gəldim? Özümü qorumaq üçün, arzularımı, ideallarımı tapdamamaq üçün... Belə lazım idi, başqa yol yoxdur. Bağışlayın. Məni qınamayın.

*Şahin.*
*28 may, 1979-cu il.*
*Sahil şəhəri*".

Redaktor. Şahin gedib... Tamam gedib...

Nümayəndə. Necə? Bəs mən katibə nə cavab verəcəyəm?

M ə m i ş. Qəribə oğlandır, o boyda vəzifəni atıb getdi...

Q u l a m o v. Mən dünyada hər şey görmüşdüm, qələmi qoyub, tüfəngi götürmüşdüm, tüfəngi qoyub – qələmi, amma belə fason iş heç yuxuma da girməzdi.

G ü n a y. Gələn gündən hamınız düşdünüz üstünə. Biriniz dediniz katibin qohumudur, biriniz dediniz vəzifə üçün gəlib buraya. Gördünüz, o özü kimi qalmaq üçün, özünü qorumaq üçün burdan çıxıb getdi. Doğru deyiblər, burada hər gül öz ətrini verməyəcək.

N ü m a y ə n d ə. Bəs mən Həsənağa Sailoviçə nə cavab verəcəyəm?

R e d a k t o r. Görəsən buna görə mənə töhmət çatmaz ki?

Təyyarə səsi eşidilir, getdikcə yaxınlaşır və sürətlə ötüb-keçir.

R e d a k t o r. Bakıya uçan təyyarədir, yolu bizim damın üstündəndir... Şahin də o təyyarədədir yəqin...

Hamı pəncərədən göylərə boylanır.

H a r a y x a n ı m. Siz allah, saxlamaq olmaz o təyyarəni?

N ə r g i z. Qayıdarmı bir də baharla o?

M ə m i ş. Görəsən zamredaktorluğu indi də verməyəcəklər mənə?

G ü n a y. İldırımlar bir yerdə qərar tuta bilməz...

N ü m a y ə n d ə. Bəs mən Həsənağa Sailoviçə nə cavab verəcəyəm?

R e d a k t o r. Görəsən buna görə mənə töhmət çatmaz ki?

Təyyarənin səsi uzaqlaşdıqca orqan musiqisi güclənir. Lal səhnə.
Tamaşaçı salonu yavaş-yavaş işıqlanır.

PƏRDƏ

*1979*

# ƏLİ ƏMİRLİ

(1948)

*Əli Məmməd oğlu Əmirli Ağdam rayonunun Novruzlu kəndində anadan olmuşdur. 1974-cü ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. 1981-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.*

*Ə.Əmirli 1971-ci ildən ölkənin ədəbi orqanlarında hekayələri, povestləri və romanları ilə müntəzəm çıxış edir. Yazıçının əsərləri, əsasən "Azərbaycan", eləcə də "Ulduz", "Literaturnıy Azerbaydjan" jurnallarında dərc olunmuşdur.*

*"Bir qış günü" (1977), "Yeddi hekayə" (1980), "İldırımötürən" (1983), "Axirətdən qabaq gəzinti" (1989), "Haram" (1995), "Ölü doğan şəhər" (1999) və "Meydan" (1992) kitablarının müəllifidir.*

*1990-cı ildən başlayaraq Ə.Əmirli daha çox teatr dramaturgiyası sahəsində çalışır. Onun "Ərizə", "Meydan", "Cəza", "Bala bəla sözündəndir?", "Ağqoyunlular və Qaraqoyunlular", "Onun iki qabırğası", "Yeddi məhbusə", "Köhnə ev", "İyirmi ildən sonra", "Varlı qadın", "Xoşbəxt gün", "Səhnədə məhəbbət", "Kişi və qadın", "Mesenat" və başqa əsərləri Akademik Milli Dram Teatrı, Dövlət Gənc Tamaşaçılar Teatrı, Musiqili Komediya və sair teatrlarda tamaşaya qoyulmuşdur. Ümumiyyətlə, Ə.Əmirlinin pyesləri ölkənin demək olar ki, bütün teatrlarının repertuarında özünə möhkəm yer tutmuşdur. Şəki, Mingəçevir, Qazax, Lənkəran, Qusar, İrəvan Dövlət Teatrları da Ə.Əmirli dramaturgiyasına müraciət edən teatrlar sırasındadır.*

*Dramaturqun teatrlarda tamaşaya qoyulmuş əsərlərinin əksəriyyəti ölkənin bütün televiziya kanalları ilə nümayiş etdirilib. "Bala bəla sözündəndir?" əsəri əsasında 1995-ci ildə çəkilmiş "Bala – başabəla" televiziya tamaşasının uğuru daha böyük olmuşdur. Artıq on ildən yuxarıdır ki, bu tamaşa teleekranlar vasitəsilə vaxtaşırı tamaşaçıların diqqətini özünə çəkə bilir.*

*Ə.Əmirlinin pyeslərinin bir neçəsi "Azərbaycan" jurnalında dərc edilmişdir.*

*Ə.Əmirli Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin baş müəllimidir. Ədəbi uğurlarına görə dramaturq 2000-ci ildə "Humay ilahəsi" ictimai mükafatına layiq görülmüşdür.*

# KÖHNƏ EV

*İki hissəli dramatik komediya*

İŞTİRAK EDƏNLƏR:

Qüdrət
Mələk
Zəhra
Cana
Sahib
Kamran Qızılsəs
Böcək

## BİRİNCİ HİSSƏ

1960-1970-ci illər dəbində bəzədilmiş iri, hündür tavanlı otaqdır. Xüsusi sifarişlə haçansa düzəldilmiş və məxsusi bu iri otaq üçün nəzərdə tutulmuş qeyri-standart mebel və ümumiyyətlə, interyer köhnəlib, dağılmağa doğru nəsə bir şey var ki, nəzərə dərhal çarpmır. Pərdə açılanda Mələk qonaqlıq süfrəsi bəzəyir.

Mələk. Yaxşı deyiblər, kiminin əvvəli, kiminin axırı. Stol bəzəməyi də yadırğamışam. Bəlkə salatı... yox, bura qoysam yaxşıdı. İkranı da... ikraya bax da, elə bil mazutdu. Hər şeyin xarabı çıxdı. Hara getdi o çornı smarodina boyda dən-dən ikralar? Axı nə oldu ey, balıqlar da alverə qurşanıb, ta ikra istehsal eləmirlər? Niçevo ne ponimayu, bukvalno niçevo ne ponimayu.

Qüdrət (*gəlir və səhnədən keçib getmək istəyir*, *süfrə bəzəyən Mələyi görüb ayaq saxlayır*). Bu nədi, qonaqlıqdı? Ölkə dağılır gedir, millət düşüb küçələrə qarışqa kimi qaynayır, bir tikə çörək axtarır, sən də burda stol bəzəyir, süfrə açırsan? Yoxsa elə bilirsən köhnə əyyamlardır, sovet dövrüdü? (*Mələkdən səs çıxmır.*) Ta sözümü də saya salan, eyninə alan yoxdu, guya eşitmirlər. Kimin ad günüdü, Mələk xanım? Bəlkə bayramdı, bizim xəbərimiz yoxdu? Bu təzə, duzsuz bayramlardan? Deyin, biz də bilək.

Mələk (*hövsələsiz*). Sizlik deyil, Qüdrət Qurbanoviç! Bayramzad da yoxdu.

Qüdrət. Nə bilim, deyirəm bəlkə bayramdı. Axı dünyanı elə qarışdırmayıblar ki, biləsən bayram hansıdı, matəm hansı? (*Süfrəyə yaxınlaşır.*) Bu nədi belə?

Mələk. Eyyy... dəyməyin, Qüdrət Qurbanoviç, ikradır.

Qüdrət (*diqqətlə baxır*). İkra? Yəni bu balıq kürüsüdü? Qara ikra?

Mələk. Qaralığına toçnı qaradı. Əl vurmayın da! Zəhləm gedir mən bəzəyən süfrəyə ayrı adam əl vuranda.

Qüdrət. O gün zəng eləyib köhnə bir dostumu təbrik eləyirəm bayram münasibətilə, deyir nə bayram, Qüdrət Qurbanoviç, indi yeddi noyabr bayram deyil, matəmdir. Tü! Zəhmət çəkmişdik, can qoymuşduq, dünya qurmuşduq... (*Gedə-gedə.*) Axırda da gəlsin uşaq-muşaq ki, bəs biz azadıq, tamam müstəqillik? (*Gedir.*)

Mələk. Bu da getdikcə xərifləyir, amma düz deyir də. Necə qonaqlıqlar eləyərdik. İlahi, kimlər gəlməzdi bura, necə oldular, hara getdilər? Niçevo ne ponimayu.

Cana (*gəlir. Hər iki əlində dolu zənbillər var*). Qollarım qırıldı, Melya.

Mələk. Yerə qoy, qoy yerə. Nə yaxşı tez gəldin. Kişmiş gətirdin? Bir azdan qonaqlar gələcək, mən hələ qiyməyə kişmiş qatmamışam. (*Zənbilləri götürür.*) Yazıq Cana, bunları necə gətirdin? Aparım mətbəxə. Dəymə, özüm aparacam. (*Aparır.*)

Cana. Qollarım qırıldı. Nə yaxşı sürücü kömək elədi pillələnləri çıxarmağa.

Mələk (*gəlir*). Hər şey hazırdı, Cana, plov da qiyamət çıxıb. Qorxurdum düyünü ötürəm, gör haçandır qonaqlıq plovu dəmləmirəm. Kişmişi suya qoydum ki, yumşalsın, yoxsa quru çıxar.

Cana. Nə demişdin hamısını aldım, simiclik də eləmədim. Mama hələ gəlməyib?

Mələk. O belə tez qayıdandı parikmaxerdən? Beş ildir ayrıldıqları, istəyir yaxşı görünsün. İ tak volnuyetsya.

Cana. Nahaq çağırdı mama onu. (*Süfrəyə baxır.*) Pis deyil, Melyanın poçerki o saat görünür. Elə bu qonaqlıq da artıq xərcdir. Bizim vəziyyətimizdə buna israfçılıq deyərlər.

Mələk. Mən Zaranın yerinə olsaydım, nəinki onu qonaq çağırardım, heç üzünə də baxmazdım. Kişinin oğlu beş ildi gedib xaricə, gəzib düzü-dünyanı, bir dəfə də deməyib ki, bu iyirmi ilin dostu

burda, bu ac-yalavac ölkədə necə dolanır? Hələ bir türk qızını da vurub qoltuğuna bu yaşında, gətirib özüylə... Cana, qde jenskaya qordost Zarı?

Cana. Mama onu sevir, Melya, hələ də sevir.

Mələk. A qordost?

Cana. Sevgi olan yerdə qordost nədi, Melya?

Mələk. Nu toqda ya niçevo ne ponimayu! (*Gedə-gedə.*) Bukvalno niçevo ne ponimayu.

Cana. Elə ona görə qız qalmısan də! (*Süfrəyə baxır.*) Nə qədər pul getdi. (*Cibindən kalkulyatoru çıxarıb hesablayır.*) Hamısı da havayı, boş kaprizə.

Sahib gəlir. Əlində kiçik bükülü var. Cana onu görmür.

Sahib. Düz çıxmır?

Cana (*diksinir. Sahibi görüb pərt olur*). Sən? Siz... (*Kalkulyatoru gizlədir.*) Sizsiniz? Bəs niyə belə...

Sahib. Qapı açıqdı. Açıq qapıya da girərlər.

Cana. Mən bilən siz bağlı qapıdan da yan keçməzsiz.

Sahib. Bu komplimentdir?

Cana. Bağışlayın, çox vaxt hisslərimi gizləyə bilmirəm.

Sahib. O qüsur məndə də var, daha çox qadınlara münasibətdə. Bax, bu da mənim hisslərimin maddi təzahürü. (*Bükülünü qıza uzadır.*)

Cana (*bükülünü açır*). "Rafaello"?

Sahib. Bəli, "Rafaello". İstəmirsən?

Cana. Qapaqap zəmanəsində nə versələr, gərək imtina eləməyəsən.

Sahib. Bizim həyat ritmlərimiz necə bir-birinin üstünə düşür. (*Süfrəyə baxır.*) Qonaq gözləyirsiniz deyəsən?

Cana. Elədir. Qayınananız sizi çox istəyir.

Sahib. Bilmək istəyirsənsə, subayam. Heç qonaqlıq həvəskarı da deyiləm, indi gedəcəm. (*Otağı nəzərdən keçirir.*) Yaxından keçirdim, saxladım maşını, dedim bir dəyim. Doğrusu, bu ev çəkir məni.

Cana. Bu istək təbiidir, bir ətək pul vermisiniz.

Sahib. Bəlkə də sən deyəndir. Xoşum gəlir burdan, qəribə bir doğmalıq hissi var bu evə məndə, burda danışığım da dəyişir, mədəni oluram. (*Otağı nəzərdən keçirir.*) Son beş-altı ildə elə bil kimsə məni dayanmadan qovur, qabağa itələyir, guya nəsə qurtaracaq, mənə

çatmayacaq. Rahatlıq nədir bilmirəm. Hər yerdə tələsirəm: yeyəndə də, içəndə də, üzr istəyirəm, qız-qadınla görüşəndə də... Amma bu evdə həmişəki ritmdən düşürəm, elə bil yaylarım boşalır, gördüyüm işlər mənasını itirir. Nəsə qəribə, ləzzətli bir dinclik var burda. Adamın canına rahatlıq yuxu kimi yeriyir. Bax bu kreslo ılıq, rahat bataqlıq kimi çəkir məni. (*Otağın küncündəki iri kresloya oturur.*) Arxayınlıq adamın əzalarına yayılır, göz qapaqları ağırlaşır, mürgü adamı ana məhəbbəti ilə sevən qadın kimi qucaqlayır, bütün... (*Yatır.*)

Mələk (*içi dolu meyvə vazası ilə gəlir*). Stolun üstündə meyvə olmayanda elə bil... (*Sahibi görür.*) Bu nədir? (*Sahib xoruldayır.*) Boje! Cana, bu kişi nöş gəldi? Bunu da Zara çağırıb?

Cana. Yox, Melya, təklifsiz gəlib.

Mələk. İlahi, necə zəhləm gedir bundan. Axı nə istəyir o, Cana? Necə də naxaldır? Yox, həyasızdır!

Cana. Düz deyirsən, Melya, qorxulu adamdır. (*Yüngül pledi Sahibin üstünə atır.*)

Mələk (*təəccüblə*). Cana?

Cana. Nə var, Melya? Nədi?

Mələk. Da eto je ne priliçno! Əyibdir.

Cana. Öz işinlə məşğul ol, Melya.

Mələk. Ya niçevo ne ponimayu. (*Deyinir.*) Anası onu atıb getmiş lyubovnikini arvadı ilə qonaq çağırır evinə, qızı da yad kişinin üstünü örtür ki, soyuq dəyməsin.

Cana. Ağ eləmə, Melya, öz yerini bil!

Mələk. Necə? Necə dedin?

Cana (*tələsik və peşman*). Melya, qələt elədim, Melya! Dilimdən çıxdı.

Mələk. Haradır mənim yerim, Cana? Göstər mənim yerimi! (*Ağlayır.*) Göstər, Cana, göstər mənə yerimi... Mənim yerim var, Cana?

Cana (*onu qucaqlayır*). Melya... qələt elədim... Sakit ol, Melya...

Mələk. Düz deyirsən, Cana, mənim yerim qocalar evidir, qarımış qızlar evi, eləmi? Onamı işarə eləyirsən, Cana? (*Hönkürür.*)

Cana. Bax indi mən də ağlayaram...

Mələk. Qarımış qızlar evidir mənim yerim, bilirəm...

Cana. Boş-boş danışma, Melya! Qarımış qızlar evi var? Bir də... Elə mən də qarımışam də.

M ə l ə k. Ne day boq! Düşmənimə də arzu eləmərəm... (*Sakitləşir.*) Sən cavansan, gözəlsən, kişilərin gözü kor olub sən neyniyəsən? (*Cananı qucaqlayır.*)

C a n a. Barışdıq? (*Öpüşürlər.*) Barışdıq...

M ə l ə k (*Sahibi göstərir*). Ya niçevo ne ponimayu.

C a n a. Bu da yer tapdı yatmağa.

Z ə h r a (*təntənə ilə gəlir*). Hə, qızlar, necəyəm?

C a n a. Ma-ma!

Z ə h r a. Hələ mənə vurulmaq olar?

M ə l ə k (*gözlərini silir*). Boje! Zara, sən necə gözəlsən. Cana, Cana... A kakaya priçyoska!

Z ə h r a. Hanı güzgü? Qoy bir özüm də baxım. (*Güzgünün qabağında fırlanır.*) Kökəlmişəm, yenə kökəlmişəm.

M ə l ə k. Heç kökəlib eləməmisən, elə həmişəki Zarasan. Blesk! Bir də qadın yaşa dolduqca kökəlsə yaxşıdı.

Z ə h r a. Sən sus də, Melya! Qoy Cana desin, o həmişə düzünü deyir. Cana, çox yekə görünürəm? Düzünü de.

C a n a. Hər şey qaydasındadır.

Z ə h r a. İndi sakit oldum, sən heç vaxt yalan demirsən, amma məni öldürəcəksən, Cana.

C a n a. Niyə? Pul çatmadı?

Z ə h r a (*qəhqəhə çəkir*). Qorxuram səndən, Cana, vallah, qorxuram.

C a n a (*sərt*). Nə qədər borclu qaldın?

Z ə h r a. Öldür məni, Cana, öldür yelbeyin anovu.

C a n a. On dollar? İyirmi? İyirmi beş?

Z ə h r a. Əlli dollar, Cana.

C a n a. Dəli olmusan, mama, sən nə danışırsan?

Z ə h r a. Çoxdu, Cana? Hiss eləyirəm ki, çoxdur, amma... neçə "məmmədəmin", Cana?

C a n a. Soruş neçə "şirvan"?

M ə l ə k. Ya niçevo ne ponimayu v etix denqax. (*Gedir.*)

C a n a. Mama, bu pullar hələ bizim deyil.

Z ə h r a. Başa düşürəm, Cana, başa düşürəm. İndiki vəziyyətdə, bizim vəziyyətdə... Hər şeyi başa düşürəm, amma taqsır məndə olmadı, içəri girən kimi qızlar töküldü üstümə qarğa-quzğun kimi: biri manikür eləyir, biri pedikür, biri saçımı rəngləyir, biri makiyaj, hələ massaj... Amma necə yaxşıydı, lap o əvvəlki illərdəki kimi... Hələ nə qədər krem verdilər mənə. İnan ki, güclə çıxdım əllərindən...

C a n a. Mən əlləşirəm, vuruşuram, manatı manata calayıram...

Z ə h r a. Bilirəm, Cana, hamısını bilirəm... Bu dünyada sən mənim yeganə pənahımsan, arxamsan. Sən olmasaydın, mən çoxdan dilənərdim. Nə yaxşı sən mənə oxşamadın, Cana. (*Qucaqlayıb ağlayır.*) Mən axmağam, yelbeyinəm, heç Allahın pulunu saya bilmirəm... oy-oy... tuş axıb töküldü, indi qarışacaq...

C a n a. Yaxşı, sakit ol, birinci dəfə deyil ki! Amma mənə mane olma də, mama...

Q ü d r ə t (*gəlir*). Nə səs-küydü belə? Pah, gəlib çıxmısan, Zəhra xanım? Bəh-bəh! Nə yaman bəzənmisən, yoxsa təzədən səhnəyə çıxacaqsan? (*Guya oxuyur.*) Oooaaa...

Z ə h r a. Bəsdi, papa, sən də yarama duz səpmə. Bir də niyə oxumuram? (*Güzgüdə gözlərinə baxır.*) Bütün əziyyətim əlimdə qaldı, gör nə günə düşdü...

Q ü d r ə t. Bəlkə sən deyəsən, nə qonaqlıqdı bu? Sosializmdi? Bəlkə kommunizmdi xəbərimiz yoxdu? Bilmirsiz ki, millət qırılır acından? Qurtardı ey o günlər, hamı arxayınıydı hökumətə, qurtardı, yeyib qurtardılar... Bəlkə xəzinə tapmısınız? Dillənin də! Yoxsa cavab verməyə sözünüz yoxdu? Bəlkə bayramdı xəbərimiz yoxdu? Axı bilmək olmur bayram hansıdı, matəm hansı? Çox vaxt üst-üstə düşür... (*Gedir.*)

Z ə h r a. Yazıq kişi, hövl eləyir. Hələ bilmir ki, Cana?

C a n a. Yox! Hələ tezdir.

Z ə h r a. Vallah, dağıdacaq dünyanı. Elə qorxuram, elə qorxuram... İçim titrəyir qorxudan, elə bilirəm oğurluq eləmişəm, üstü açılacaq...

C a n a. Sən qorxub-eləmə! O mənim işimdir. Qoy çox döyməsin döşünə! Var-dövlət verib bizə xalqın ataları, babaları kimi?

Z ə h r a. Cana, yəni biz bu evdən gedirik, yəni bu ev ta bizim deyil? Səhərlər yuxudan duranda mən bu mənzərəni, o Nargini görməyəcəm? Mən qurdun quduran yerində yaşayacam, Cana? Yamasalda?

C a n a. Yamasal yox, mama, Yasamal!

Z ə h r a. Mən orda öləcəm qüssədən, Cana.

C a n a. Təzədən qayıdaq bu söhbətə? Axı sən söz vermişdin, mama? Hər şey həll olunub qurtarıb, bu ev ta bizim deyil, başa düş!

Z ə h r a. Sən daş ürəklisən, Cana. Ürəyin daşdandır, qızım.

C a n a. İndi yaşamaq üçün ürəyin daşdan yox, dəmirdən olsun gərək, yoxsa evə gəlib çatınca lüt qalarsan dilənçilərin əlindən.

Z ə h r a. Mən heç vaxt inanmaram ki, sən burdan, uşaqlığıvın keçdiyi bu evdən belə asanlıqla, təəssüf eləmədən çıxırsan, qızım.

C a n a. Ay Allah! Başa düş, mama, bizim ayrı yolumuz yoxdur. Sənin teatrdan, konservatoriyadan gətirdiyin beş-altı şirvanla, qocanın pensiyası ilə, elə mənim dilənçi maaşımla yaşamaq mümkün deyil, özü də bizim iddialarla. İndi nə deyirsən, oturaq bu gözəl evdə ac-yalavac ki, biz bura öyrəşmişik, uşaqlığımız burda keçib? Nə vaxtacan biz keçmişin kölgəsini əzizləyəcəyik? Axı həyata, bu qorxulu, bizə tanış olmayan dünyaya real gözlə baxmaq lazımdır! Yox, əgər siz baxa bilmirsinizsə, xahiş edirəm, mənə mane olmayın. Ya vsyo vremya v lixoradke, mama, boğuluram mən, havasızlıqdan boğulan kimi, ehtiyac məni şam kimi söndürür, vaxtından əvvəl qocaldır. (*Ağlayır və tez də özünü ələ alır.*) Bağladıq bu söhbəti!

Z ə h r a. Yəni heç başqa yol yoxdur? Bəlkə Türkiyəyə gedim? Dərs deyərəm orda, lap elə operada oxuyaram, Kamran kimi. Ya je ne sovsem staraya.

C a n a. Avam söz deyirsən, mama. Yaxşı olsaydı, elə qalardı də orda Kamran, niyə qayıdıb gəlirdi? Vidite li, vətən torpağı çəkir kişini. Ta demir ki, o pulla Türkiyədə yaşamaq elə burda bizim günümüzdə olmaq deməkdir. Xaricdə dilənçilik etməkdənsə, elə burda eləyərik, öz evimizdə.

Z ə h r a. Bilmirəm, bilmirəm... İtirmişəm özümü, tamam itirmişəm.

M ə l ə k (*gəlir*). Zara, bir plov çıxıb ki, gəl görəsən. Toyuğu da bir azdan çıxaracam duxovkadan.

Z ə h r a. Mayonez çəkmisən toyuğa?

M ə l ə k. Bilirəm Kamran bəyin nəyi xoşladığını, hələ unutmamışıq, skleroz da deyilik. Amma, Zara, mən sözün düzünü deyən adamam, deyəcəm də: nahaq çağırdın onu. Axı indi onun arvadı var, evli adamdır.

Z ə h r a. Sənin işin deyil, Melya!

M ə l ə k. Niyə mənim işim deyil? Ya şto, dura? Evlənmək istəyirdi alaydı səni. İyirmi il qolovu maroçil tebe.

C a n a. Melya, sonra inciyirsən.

M ə l ə k. Nədi, düz demirəm?

Z ə h r a. Melya, əzizim, başa düş, Kamran məndən on yaş kiçikdir.

M ə l ə k. Elə onda da kiçik idi.

Z ə h r a. Mənim əziz Melyam, mən ta qocalmışam. Bir də ona getmək istəsəydim, elə onda gedərdim də. Qabağımda o qədər diz çöküb yalvarıb ki, burda, lap bu kaminin qabağında. Özüm istəməmişəm.

M ə l ə k. No toqda ya niçevo ne ponimayu. (*Getmək istəyir, Sahibin ayağına ilişir.*) Bissimillah! Bu hələ burdadır?

Z ə h r a (*birdən görür Sahibi*). Bu nədi? Bu kimdi, Cana?

S a h i b (*oyanır*). Deyəsən yatmışam.

M ə l ə k. Bukvalno niçevo ne ponimayu. (*Gedir.*)

S a h i b (*pledi çiyninə salır*). Üşüdüm. Zəhra xanım, salam! Nə yaman gözəlləşmisən, lap vurulan adama oxşayırsan.

Z ə h r a. Siz? Siz... Axı mən... Cana çağırıb sizi?

S a h i b. Yox, yox, heç kim çağırmayıb. Elə keçirdim yaxınlıqdan, dedim bir dəyim... Kresloda necə yatmışamsa... (*Canaya.*) Sən adyalı üstümə salanda yaman kövrəldim. Anam düşdü yadıma.

C a n a. Bəs deyirdiz ki, uşaq evində böyümüsünüz – atasız, anasız?

S a h i b. Elə demişdim? Nə bilim, yadımdan çıxıb. Bu bazar sövdələşməsində adam müştərinin ürəyini yumşaltmaq üçün nələr uydurmur? Sonra özünün də yadından çıxır dedikləri. Amma yəqin ki, anam olub də! Yerdən çıxmamışam ki?

Z ə h r a. Bu danışanda mən qorxuram.

S a h i b. Nəsə bu evdə kövrəlirəm, elə bil doğma bir yerə düşürəm, olmayan xatirələr yeriyir üstümə. Birinci dəfə ayağımı içəri qoyanda dedim neçəyə olsa alacam.

C a n a. Bəs onda niyə bir elə çənə-boğaz elədiz qiymət üstdə?

S a h i b. Biznesin əsas şərtidir – ucuz almaq, baha satmaq. (*Otağa göz gəzdirir.*) Hərdən mənə elə gəlir ki, mən bu evdə doğulmuşam.

Z ə h r a. Nə demək istəyirsiniz? Nəyə işarə eləyirsiz?

S a h i b. Allah eləməsin, heç elə şey gələr ağlıma? Sən olsa-olsa mənə qayınana ola bilərsən.

Z ə h r a. Bəli də! Əvvəl evimi al, sonra da qızımı.

S a h i b. Nə bilim, bəlkə mən də ziyalı, kübar ailədə doğulmuşam? Bəlkə ona görə sizin evə, ailəyə doğmalıq, məhrəmlik hiss eləyirəm?

C a n a. Görünür, birinci həyatınız kübar ailədə keçib, amma indi də gec deyil, itirdiklərinizi çox sürətlə yığırsınız, özü də inadla.

S a h i b. Əgər evinizi almağıma işarə eləyirsənsə, haqlısan, amma bir az fikirləşsən, düşünsən görərsən ki, onun da günahı məndə deyil.

Z ə h r a. Siz allah, yavaş danışın. Atam hələ bilmir evi satdığımızı.

S a h i b. Onsuz da bu evi siz saxlaya bilməyəcəkdiz.

Z ə h r a. Hardandır sizdə bu inam? Niyə biz mütləq satmalıyıq evimizi?

S a h i b. İndiki vəziyyətdə, Zəhra xanım, kasıb adam varlı məhəllədə yaşaya bilməz. Bir beş-altı ildən sonra hər kəs yerini biləcək. Mənim taxsırım odur ki, bir az vaxtı qabaqlamışam.

C a n a. Gəlin qurtaraq bu söhbəti. Ümumiyyətlə, bu axşam alveri yığışdıraq, hələ ki, bura bazar deyil.

S a h i b. Mən həmişə gözəl qadınlara tabe oluram. Sənin sözündən də çıxmıram.

C a n a. Siz hamıya sən deyirsiz, yoxsa bizi imkansız, indicə dediyiniz kimi kasıb görüb saymırsız?

S a h i b. Nə danışırsan, Cana xanım? Allahdan imkanlı kim var bu... dünyada? Biz hamımız onun bəndələri, qullarıyıq, amma kim Allaha siz deyir?

Z ə h r a. Doğrudan da! Biz niyə Allaha sən deyirik, adi adamlara siz? Cana, bu heç bizim ağlımıza gəlməyib. Maraqlıdı...

C a n a. Çox maraqlıdı, mama.

S a h i b. Əslində bunlar xırda məsələlərdir. Mən sənə lap ülyahəzrət də deyə bilərəm, amma uzun çıxır, ritmə uyuşmur. Darıxdım.... (*Otağı nəzərdən keçirir.*) İşə bax, taleyə bax... Bu gözəl ev mənimdir, yetimxanadan çıxmış Yetimin. Ürəyim qızır deyə sizə bir sirr də açım: mənim adım əslində Yetimdir.

Z ə h r a. Yetim?

S a h i b. Bəli, Yetim... (*Gülür.*) Sonra dəyişdim. Təzə ad daha çox yaraşır mənə, amma Yetim daha doğmadır. (*Otaqlara girib çıxır.*)

Z ə h r a (*məyus halda kresloya çökür*). Bəli, bu ev ta bizim deyil... Yetimin evidir. Getdikcə mən buna daha çox inanıram, Cana.

C a n a. Mama, özüvü ələ al! Əvəzində iki evimiz olacaq, lap üçüncüsünü də ala bilərik. Birində yaşayar, o biriləri kirayə verərik. İlahi, yəni mən maaşa göz dikməkdən azad olacam?

Z ə h r a. Mən camaata necə deyəcəm ki, gül kimi evimi satıb Yamasala köçmüşəm, dünyanın o başına? Axı mən Torqovıdan o tərəfi tanımıram. Dünyanın əlli iki ölkəsində olmuşam, amma Yamasala yolum düşməyib. Çox uzaqdır ora, Cana? Klimatı necədir? (*Dəsmalı gözlərinə sıxır.*) Boje! SSRİ xalq artisti Zara xanım Yamasalda yaşayacaq!

Cana (*əsəbi*). Mama, Yamasal yox, Yasamal!

Zəhra. Nə fərqi, Cana? Yasamal deyəndə yaxınlaşacaq? Hələ papa! Vallah, ürəyi partlayacaq.

Mələk (*gəlir*). Plovu düşürtdüm, qorxuram qazmaq yana, kişmişi də qoydum qovrulsun bir az. Zara, gəlib çıxmadı sənin qonaqların? Altıya çağırmamısan?

Zəhra. Nə altı? Demişəm axşam bizdə olun. Beş, altı, yeddi... nə bilim?

Mələk. Bəlkə doqquz, on bir, on iki?

Sahib (*gəlir*). Əladır, çox gözəldir. Getdikcə daha çox xoşuma gəlir.

Mələk. Boje! Bu hələ burdadır?

Zəhra. Melya!

Mələk. Ya niçevo ne ponimayu... (*Fırıldayıb gedir.*)

Qüdrət (*gəlir*). Bu nə balıq iyidir belə? Çoxdandır bu iyi almıram, lap birtəhər oldum. Yadıma keçmiş günlər düşdü. Necə balıq verərdilər bizə qurultaylar sarayında. Hələ ikra: qara, qırmızı. İşığı düşərdi adamın üzünə qırmızı ikranın. Şvedski stol, ye yeyə bildikcə. Xalqlar, nümayəndələr, millətlər yığışardı bir süfrə dalına qardaş kimi, ana-bacı kimi. Dalınca da "Lebedinoye ozero". Hayıf o günlərdən! Xalq necə gözəl, firavan yaşayırdı.

Sahib. Xalq da olurdu oralarda?

Qüdrət (*indi görür Sahibi*). Bu kimdi? Mən bunu tanımıram.

Cana. Qonaqdı, baba, tanış ol, bir az tez gəlib.

Sahib. Tez də gedəcək.

Cana. Niyə, öz evinizdi. Baba, sən də paltarını dəyişsən yaxşı olar.

Qüdrət. Düz deyirsən, çoxdandır çıxmıram pijamadan. (*Çağırır.*) Melya, mənim ağ köynəyimi gətir.

Mələk (*gəlir*). Qüdrət Qurbanoviç, ağ köynək kabinetdədir, axı bayaq dedim sizə.

Qüdrət. Ordenli pencəyimi də çıxart.

Cana. Baba, o biri pencəyi gey, miləmili. İndi kimdi orden-medal taxan?

Qüdrət. Mən taxıram, Cana xanım, utanmıram da. O ordenli pencək mənim ömür yolumun xəritəsidir. Kim buna görə utanırsa, qoy mənimlə bir süfrə arxasında oturmasın.

Mələk. Qüdrət Qurbanoviç, hirslənməyin. Gedək kabinetə, orda baxarıq.

Gedirlər.

S a h i b. Bu qulluqçunu da alardım. Məndən zəhləsi getsə də, bu evi onsuz təsəvvür eləmək çətindir. Həm də əntiq bir şey kimi.

Z ə h r a. Siz nə danışırsınız, nə qulluqçu? O mənim xalamdır, anamın bacısı. Ailə qura bilməyib, həmişə bizimlə olub. Biz onu verə bilmərik.

S a h i b. Starı devadı?

Z ə h r a. Rica edirəm, o sözü bir də dilinizə gətirməyin bizim evdə. Straşnoye slovo.

C a n a. Bağışlayın ki, satlıq deyil.

S a h i b. Yox, yox, siz bağışlayın. Onun kim olduğunu gərək özüm qanaydım.

Z ə h r a (*darıxır*). Harda qaldı bunlar? (*Pəncərədən baxır.*) Axşam düşdü.

S a h i b. Qonaqlar gəlincə getsəm yaxşıdı.

C a n a. Gedirsiz?

S a h i b. Qalmaq istəsəm də getməliyəm, artıq görünürəm, yerinə düşməyən suallar ola bilər, evdə də qəşəng, ərlik qız.

C a n a. Bu sizi qorxudur?

S a h i b. Boynuma alım ki, bir az... qorxudur. (*Gedir.*)

C a n a. Naxal! Özünü elə aparır ki, guya Rokfellerdir.

Z ə h r a. Cana... Cana, o səni sevir.

C a n a. Mama, tökmə ətimizi!

Z ə h r a. Cana, mən sənə söz deyirəm.

C a n a. Mama, sən hər şeydə sevgi görürsən.

Z ə h r a. Bəli, görürəm, bu işdə məni aldatmaq olmaz, pul deyil ki, saya bilməyim. O sənə vurulub, bir azdan da qayıdıb gəlməsə, mən heç nə qanmıram bu dünyada. Lap bu gün gələcək.

C a n a. Güldürmə bizi, mama. Onların dünyasında sevgi, məhəbbət anlayışı yoxdu. Orda hər şeyi pul, dollar həll eləyir.

Z ə h r a. Sən mənim sözlərimə inanma, neynək! Amma bir ana kimi məndən demək, səni ayıltmaqdır.

C a n a. Mama, bəsdi!

Z ə h r a. Bir ana kimi mən öz sözümü dedim: ayıl, qızım, ayıl.

M ə l ə k (*əlində köynək və qalstuk gəlib deyinə-deyinə səhnədən keçir*). Necə zəhləmi töküb bu qoca... Starıy durak! Guya təzəbəydir!

Z ə h r a (*gülür*). Melya axır vaxtlar lap xarab olub. Elə hey deyinir. O gün, (*daha bərk gülür*) deyir bir köpəkoğlu çıxmadı böyürdən,

alıb apara məni bu qocanın əlindən... (*Qəhqəhə çəkir.*) Canım qurtara qulluqçuluqdan...

C a n a (*ixtiyarsız gülür*). Bayaq mən də dəydim xətrinə...

M ə l ə k (*geri qayıdıb yenə də səhnədən keçir*). Zəhrimar kişmişi də yandırdım. Qonaq çağırıblar, amma bilmirlər saat neçəyə... Vidite li, axşama çağırıblar. (*Gedir.*)

Z ə h r a (*gülməyini güclə saxlayır*). Fikir verməmək yaxşıdı... Cana, sən də paltarıvı dəyiş, üz-gözünə əl yetir.

C a n a. Nə olub ki, gül kimi paltardır.

Z ə h r a. Niyə oxşamadın mənə, Cana? Elə bil mən doğmamışam səni.

C a n a. A tı pomniş?

Z ə h r a. Nəyi?

C a n a. Məni doğduğunu?

Z ə h r a. Bəs necə? Əlbəttə, yadımdadı. (*Gülür.*) Düz beş ay qoymadım "Traviata"nı oynasınlar. Dedim uşaq olar, gəlib özüm oynaram.

C a n a. Amma mənə elə gəlir ki, mənim anam sən deyilsən, Melyadır.

Z ə h r a (*qəhqəhə çəkir*). Çox adam elə bilirdi. Özüm aldadırdım, axı mən uşağıydım sən olanda, lap sən yaşdaydım.

C a n a. Mən çoxdan uşaq deyiləm, mama. Bu payız iyirmi səkkiz yaşım tamam olur.

Z ə h r a. İyirmi səkkiz? Nə danışırsan, Cana? Ola bilməz!

C a n a. Yox, elədir. İyirmi səkkiz!

Z ə h r a. İyirmi səkkiz... Necə qocaldım mən, necə tez? Adama elə gəlir ki, hələ hər şey qabaqdadır, amma...

C a n a. Səni narahat eləyən elə budur?

Z ə h r a. Necə? (*Pərtdir.*) Sən... məni... qurban olum, Cana, bir az mehriban ol onunla, mülayim ol, kəsmə bıçaq kimi.

C a n a. Kiminlə, mama?

Z ə h r a. Nədi o... Yetimlə! Evimizi alanla... On daje oçen primeçatelnıy.

C a n a. Mama, bağladıq bu söhbəti! Onunla biz alverdə tanış olmuşuq. Bu da bitdi, vəssalam!

Z ə h r a. Adam elə nəyə görəsə tanış olur də.

C a n a. İndi nə deyirsən, mama? Ona evlənmək təklif eləyim?

Z ə h r a. Sözə bax də! Axı sən niyə məsələni belə... mürəkkəbləşdirirsən?

Qapının zəngi çalınır.

C a n a. Aha, deyəsən gəldilər. Zəngin səsindən bilindi ki, qapı arxasındakı Kamran Qızılsəsdir.

Z ə h r a. Necə? Gəldilər? Açma... açma qapını, Cana... (*Tələsik güzgüyə baxır.*) Cana, yalvarıram, açma, hələ açma. Necə görünürəm? Bir...

C a n a. Lap əlasan! (*Qapıya gedir.*)

Z ə h r a. Cana, əllərim buz kimidi... İlahi, sən mənə güc ver, özün mənə kömək ol...

Qabaqda Cana, dalca Kamran və Böcək gəlir.

K a m r a n. Zara! Zara, bu sənsən?

Z ə h r a. Nədi, oxşamıram?

K a m r a n. Zara, sən necə də insafsızsan. Budur on gündür mən Bakudayım, amma sən mənimlə görüşdən qaçırsan. Bu hərəkətə biz indi nə ad qoyaq, Zara? (*Zəhranın ixtiyarsız irəli uzatdığı əllərindən öpür.*)

Z ə h r a (*göz yaşlarını güclə saxlayır*). Danışma, Kamran bəy, danışma! (*Guya Böcəyi görmür.*) Bəs arvadın hanı? Göstər mənə arvadını...

K a m r a n. Zara, sən elə həmişəki kimi gözəlsən, nəcibsən, Zara...

Z ə h r a. Göstər mənə arvadını, Kamran bəy...

K a m r a n. Budur mənim karım – Böcək. Böcək, lütvən tanış ol...

Z ə h r a. Yox, qoy bir mən.. bağışlayın məni. (*Tələsik gedir.*)

B ö c ə k. Sayın Zəhra hanım bumu?

K a m r a n (*sarsılıb*). Sən bir dayan! (*Zəhranın dalınca baxır.*) İlahi, yəni bu Zaradır? Zəhra xanımdır? Necə qocalıb, Cana. Yox, yox, düz demədim, qocalmayıb, belə... düşüb.

C a n a. Heç siz də qalxana oxşamırsız.

K a m r a n. Mən? (*Pərtdir. Özünə, Böcəyə baxır.*) Hə... hı-hı-hı... Həmin bıçaq kimi iti dil, dərman kimi acı sözlər, sərt, soyuq baxışlar. Sevmədin məni.

C a n a. Mən bilən siz sevgidən korluq çəkmirsiz. (*Böcəyi göstərir.*) Bu da isbata ehtiyacı olmayan gənc sübut! Buyurun əyləşin, xanım, düz iki saatdır sizi gözləyirik.

B ö c ə k. Təşəkkür ediyorum.

C a n a. Nə təşəkkür, canım, siz qonaq, biz ev yiyəsi, mehribanlıq borcumuzdur.

K a m r a n. Çox sağ ol, Cana. Hamı salamatdırmı?

C a n a. Bir azdan özünüz görəcəksiniz.

Z ə h r a (*gözündə qara eynək gəlir*). İndi sizi yaxşı görəcəm. (*Böcəyə əl verib öpür.*) Nə gözəl, nə qəşəng! Afərin, Kamran bəy, zövqünüz dəyişməyib, daha da incələşib.

B ö c ə k. Benim ismim Böcək.

K a m r a n. Adı Böcəkdir.

Z ə h r a. Böcək? Nə gözəl addır. Mənim də ismim Zəhra xanımdır – Zara.

B ö c ə k. Əvət! Kamran bəy çok söylədi bana. Bir gün olamaz ki, sizdən söyləməsin. Ha-ha-ha... (*Gülür.*)

K a m r a n. Elədir, Zara. Böcək bilir ki, biz səninlə iyirmi il bir səhnədə tərəf-müqabil, partnyor olmuşuq: Aida – Radames, Koroğlu – Nigar, Toska – Kavaradossi, hələ "Traviata", bizim ikimizin "Traviata"sı. (*Oxuyur.*)

Z ə h r a (*eynəyin altından göz yaşlarını silir*). Elədir, oxuyardıq, oynayardıq, qastrollara gedərdik. Yadındadır, Kamran, o qəribə adı olan ölkəyə getmişdik səninlə, ikimiz...

C a n a. Mən Böcək xanıma evlərimizi göstərmək istəyirəm...

B ö c ə k. Ah, nə güzel!

Cana ilə Böcək gedir. Pərtlik yaranır.
Kamran gözlərini Zəhradan gizlədir və otağı nəzərdən keçirir.

K a m r a n. Heç nə dəyişməyib, hər şey necə var, elə də qalıb. Dayan, dayan... Bəs şəkil hanı? Axı burdan Brodskinin orijinalı asılmışdı?

Z ə h r a. Ah, Kamran, diqqət eləsən çox şeyin dəyişdiyini görərsən.

K a m r a n. Bağışla məni, Zara, bağışla vəfasız, etibarsız dostunu. (*Əlindən öpür.*) Amma sən dəyişməmisən... Heç ev də dəyişməyib, doğru sözümdür. Elə bil burdan çıxdığım heç beş il deyil, guya hər şey, o ayrılıq gecəsi dünən olub. Vaxt bu evin yanından sivişib keçib, heç nəyə toxunmadan. Heç sənə də toxunmayıb, əvvəlkindən də gözəlsən...

Zəhra dinmədən ona qulaq asır və hərdən barmağı ilə gözünün yaşını silir.

K a m r a n. Sən məni qınayırsan?

Z ə h r a. Yox, qınamıram, sən, nəhayət, ailə qurmalıydın. Bir də mən özümü atılmış, unudulmuş qadın hesab eləmirəm. Mən... özüm çəkildim sənin yolundan, öz xoşumla, öz istəyimlə... (*Ağlamağını gizlətmir.*) Sənə azadlıq verdim. Yoxsa... yoxsa canıvı əlimdən qurtara bilməzdin.

K a m r a n (*qadının qarşısında diz çökür və əllərindən yapışır*). Bağışla məni, Zara, bağışla... Sən həmişəki kimi nəcibsən, ürəyin həmişəki kimi böyükdür. Mənsə sənə xəyanət elədim, dönük çıxdım, yenə də zəiflik göstərdim. Bağışla məni, Zara, bağışla...

Z ə h r a. Qalx ayağa, Kamran, sənin günahın yoxdur.

K a m r a n. Sən məni özünlə göylərə qaldırdın.

Z ə h r a. İndi mən özüm yerdəyəm, Kamran.

K a m r a n. Sən məni müğənni elədin, mənə şöhrət gətirdin, mənsə dözə bilmədim çətinliyə. Bağışla məni, Zara...

Z ə h r a. Sus, Kamran, danışma.

K a m r a n. Yox, de ki, məni bağışlayırsan, məni başa düşürsən...

Z ə h r a. İçəri girən olar, Kamran, qalx ayağa!

K a m r a n. Yox, de ki, biz dost olaraq da qalırıq.

Z ə h r a. Elə olmasaydı səni evimə çağırardım? Böcəkdi-Cücəkdi, həşəratdı-nədi, qapımdan içəri buraxardım?

K a m r a n. Ah, Zara, sən nə qədər böyüksən bizimlə müqayisədə. (*Əllərini vəcdlə öpür.*)

Z ə h r a. Bəsdir, Kamran! Sən mənim zəhləmi tökdün, qalx ayağa! Nəhayət, Böcək görər.

K a m r a n (*qalxır*). Mən indi də səni sevirəm, Zara.

Z ə h r a. Buna alicənablıqmı deyək?

K a m r a n. Zara, mən səni unuda bilmirəm.

Z ə h r a. Bəs Böcək?

K a m r a n. O ayrı məsələdir, Zara. Mən yad şəhərdə, qərib ölkədə bir yerdə yaşamalıydım? Evsiz-eşiksiz mühacir müğənniyə bir simsar, nəhayət, bir oda gərəkdi?

Z ə h r a. Oda? Odanın bura nə dəxli?

K a m r a n. Ev deyirəm də. Orda aldığım paraya mən ev tuta bilərdim?

Z ə h r a. Yenə də ev?

K a m r a n. Nə demək istəyirsən, Zara? Yoxsa elə bilirsən mən sənin evinə göz dikmişəm?

Z ə h r a. Boş-boş danışma! Bax, qızlar da gəldilər.

Cana və Böcək gəlir.

Z ə h r a. Bu da Böcək! İlahi, nə gözəl addır! Adı da Böcək, özü də Böcək.

B ö c ə k (*gülür*). Təşəkkür.

C a n a. Mama, süfrə arxasına keçək, Böcək bərk acıb.

B ö c ə k. Əvət!

Z ə h r a. Əlbəttə, elə mən də acmışam. (*Çağırır.*) Melya!

C a n a. Mən çağıraram, siz əyləşin.

M ə l ə k (*gəlir*). Gəliblər? Nə yaxşı! Xoş gəliblər, bəs mənə niyə xəbər etmirsiz?

K a m r a n. Xoş gördük, Melya! Gün aydın!

M ə l ə k. Ya niçevo ne ponimayu.

K a m r a n. Böcək, bu xanım Melya. Sən onu tanıyırsan, çox söyləmişdim sana.

B ö c ə k. Melya? Əvət, əvət... (*Gülür.*) Pək memnunum. (*Daha bərk gülür.*)

M ə l ə k. Bu niyə gülür?

C a n a. Hələ gülən vaxtıdı.

M ə l ə k. Ya niçevo ne ponimayu.

B ö c ə k. Odanız pək güzel, xoşuma getdi. Nasıl panaramı açılıyor, deniz de haykırıyor.

M ə l ə k. Cana, ya...

C a n a. Niçevo ne ponimayeş.

M ə l ə k. Vot imenno!

C a n a. Hər şeyi başa düşmək vacib deyil. Qüdrət Qurbanoviç hanı? Çağır gəlsin.

K a m r a n. Necə? Qüdrət Qurbanoviç sağdır?

Z ə h r a. Əlbəttə! Papa hələ yaxşıdı, heç dəyişməyib...

K a m r a n. Zəmanə ilə necədir?

C a n a. Özü gəlib söyləyər. Melya, gətir də papanı.

M ə l ə k. Bu saat! Qonaqları görüb sevinəcək. (*Gedir.*)

K a m r a n. Necə qocalıb Melya, lap quruyub, Zara. Nikakix izmeneniy?

Z ə h r a. V smısle?

K a m r a n. Deyirəm ərə-zada getməyib?

B ö c ə k (*qəhqəhə çəkir*). Kamran, yavrum...

C a n a. Kamran bəy, beş il öncə Melyanın altmış beş yaşı vardı.

K a m r a n. Düz deyirsən. Vallah, mənim başım xarab olub orda.

Z ə h r a. Melyanın da evi yoxdur ki, onu alan ola.

B ö c ə k (*qəhqəhə çəkir*). Ha-ha-ha... Kamran, ha-ha-ha...

C a n a. Xanımınız yaman gülür.

K a m r a n. Fikir verməyin, bir az çöpə güləndi, amma ürəyi təmizdi.

C a n a. Sarsaqdır demək istəyirsiz?

Z ə h r a. Cana! Biz qonaqları incitməyə çağırmamışıq.

K a m r a n. Zara, nəcib Zara. (*Əlindən öpür.*) Keçəkmi süfrəyə? Dolduraq qədəhlərimizi, yüz ildir içki dəymir dilimə.

B ö c ə k. Ouuu... ha-ha-ha... Rakı içəlim... ha-ha-ha...

Z ə h r a. Süfrənin ixtiyarı Canada. Göstər, qızım, qonaqlara yerlərini.

C a n a. Kamran bəy, Zara xanım, siz bura buyurun. Böcək mənimlə yanaşı oturacaq. Yuxarı baş Qüdrət Qurbanoviçindir. Bizi ordan idarə eləyir. Bura Melyanın...

B ö c ə k. Kaç kişi?

Z ə h r a. Necə yəni? Kamrandır... bir də papa, Qüdrət Qurbanoviç.

K a m r a n (*gülür*). Zara... Zara, türkcə kişi nəfər deməkdir. Böcək soruşur ki, neçə nəfərik, neçə adam?

Z ə h r a. Bağışlayın... hələ alışmadıq.

Qüdrət və Mələk gəlir.

C a n a. Bu da bir kişi! (*Qüdrəti göstərir.*)

K a m r a n (*qalxıb Qüdrətə yaxınlaşır*). Qüdrət Qurbanoviç, maşallah, heç dəyişməmisiniz.

Q ü d r ə t. Bu nə deməkdir, mən niyə dəyişməliyəm ki?

Z ə h r a. Tanımadın, papa? Kamrandır, Qızılsəs.

Q ü d r ə t. Kamran kimdi? Mən belə adam tanımıram.

K a m r a n. Qəribədir. Siz məni tanımadız, Qüdrət Qurbanoviç? Nə tez unutduz məni, əfəndim?

Q ü d r ə t. Mən heç onda da tanımaq istəmirdim səni.

Z ə h r a. Papa! Sən məni öldürmək istəyirsən?

C a n a. Qüdrət Qurbanoviçin yeri buradır.

B ö c ə k (*Qüdrətin medallarına baxır*). Şular nə? Hələ şu yıldız! Altınmı, əfəndim? Nə güzel!

Q ü d r ə t. Şu? Şu orden, şu medal, şu da sosialist əməyi qəhrəmanı. Bunu da mənə Kubada veriblər. Halal olsun onlara. Bunu da... dayan görüm hansıdı... Hə, qəhrəmanlıq ulduzudu, bunu dedim.

B ö c ə k. Qəhraman? Qavğadamı oldu əfəndim?

Q ü d r ə t (*həvəslə danışır*). Bəli, qızım, bunu mənə 65-ci ildə məhsul uğrunda apardığımız döyüşə, mübarizəyə görə veriblər, Nemətullaya da onda verdilər, məndən iki ay sonra. Bitva za urajaya.

Z ə h r a. Papa, qoy biz də ağzımızı açaq. Bu qız Böcəkdir.

Q ü d r ə t. Böcək niyə? Bu nə addı?

Z ə h r a. Nə bilim, papa? Ata-anasının verdiyi addır.

Q ü d r ə t. Bu türk paşasının qızı olar. (*Kamranı göstərir.*)

B ö c ə k (*qəhqəhə çəkir*). Əvət, əvət, çocuğu...

Z ə h r a. Kamran bəyin arvadıdır, özüylə gətirib, Türkiyədən!

Q ü d r ə t. Bəs bu nə qonaqlıqdır? Dediz bayramdı? Axı indi bilmək olmur ki, bayram hansıdı, matəm hansı?

M ə l ə k. Qüdrət Qurbanoviç, bəsdi də! Bayaq dedik ki, heç bir bayram-zad yoxdu, elə-belə yığışmışıq, Kamran bəylə Böcəyə görə.

Q ü d r ə t. Nə bilim, aləm elə qarışmayıb ki, biləsən bayram hansıdı, matəm hansı? Günləri düzüblər bir-birinin yanına, biri bayram, biri matəm. Bilmirəm bu camaat nə vaxt işləyir?

K a m r a n. Doğrudan da bu beş ildə şəhər elə dəyişib ki, Zara, elə bil özgə bir diyara düşmüşəm, hər şey qarışıb bir-birinə.

Q ü d r ə t. Bayram o zamanlar idi: tribunada hər kəsin öz yeri vardı, ada-sana görə, orden-medalın sayına, dərəcəsinə görə. İndi bizi heç itirib-axtaran yoxdu. Guya bu hökuməti biz qurmamışıq.

Z ə h r a. Papa, sən quran hökumət ta yoxdu, çoxdan yoxdu.

Q ü d r ə t. Böyük vardı, kiçik vardı. Mən sosialist əməyi qəhrəmanı idim, yerim tribunanın sağ tərəfində idi. Nemətullanın üç şöhrət ordeni vardı, tribunanın sol tərəfində o erməni kopolu ilə yanaşı dayanırdı. Hünərin varıydı bir addım o tərəfə dur, adamın gözünü çıxarardılar, niyə? Böyük-kiçik vardı.

Z ə h r a. Kişi danışanda adam özünü asmaq istəyir.

Q ü d r ə t. Bəs belə yerdə...

C a n a. Qüdrət Qurbanoviç, gəlin, süfrəmizin üstünə nəzər salaq, burası daha önəmlidir.

Z ə h r a. Kamran bəy, Böcəyə qulluq elə, elə hamımıza...

B ö c ə k. Kamran, şu nə? Şuyu istiyorum.

M ə l ə k. Xeyr, salatdan başlayın, şuyu sonra.

Z ə h r a. Melya, mane olma, qoy kim nədən istəyir ondan da başlasın.

M ə l ə k. Mane oluramsa, mən mətbəxə keçə bilərəm. (*Gedə-gedə.*) Kişmişi də yandırdım. (*Gedir.*)

K a m r a n. Çoxdandır belə ləzzətli toyuq yemirəm. Bəh-bəh-bəh... Adamın lap oxumağı gəlir. And içirəm ki, bu toyuğa mayonez çəkilib.

Z ə h r a. Bəli, Kamran bəy, mayonez. Bizim yaddaşımız da var, etibarımız da.

K a m r a n. Zara... Zara...

Q ü d r ə t. Sonra da deyirlər ki, aclıqdır. Camaat aclıq dedikcə daha çox yeyir, iştah itilənir. Görün indiki vaxtda belə stol açarlar? Xalq dilənir, siz də burda... Melyanı şallaqlamaq lazımdır.

C a n a. Bəlkə partiya töhməti verək?

Q ü d r ə t. Bəs nədi? Dava vaxtı belə şeyə görə adama nəinki töhmət verərdilər, partiyadan qovardılar, lap Sibirə sürərdilər. Hələ demirəm ki... (*Butulkanı götürür.*)

Z ə h r a. Papa! Kamran bəy toyuğu görüb qədəhlərimizi doldurmağı unutdu.

Q ü d r ə t. Molla aşı görüb Quranı yaddan çıxaran kimi. Bir dəfə Padqornu rəhmətlik gəlmişdi, məni də çağırmışdılar ziyafətə. Nemətulla da gəlmişdi, bu yazıq kişiyə nə gətirsələr yaxşıdı, o qoyunun bir yeri var ey... padqornu deyirlər də adına.

Z ə h r a. Papa, bir dayan də! Qoy biz də danışaq də! Kamran, doldur qədəhləri, mən bu gün sərxoş olmaq istəyirəm.

Qapının zəngi çalınır.

B ö c ə k. Gələn var? Kaç kişi?

Z ə h r a. Biz kişi-zad çağırmamışıq.

C a n a. Narahat olmayın, mən açaram. (*Gedir.*)

M ə l ə k (*plov buludu ilə gəlir*). Plova yer eləyin ortada. Yox, ortada, plovun yeri ortadır.

B ö c ə k (*plovu göstərir*). Kamran, şu nə?

K a m r a n. Plovdu. Varam Melyanın plovuna. Düz beş ildir plov yemirəm.

M ə l ə k. Ona görə arıqlamısız də. Hələ düyüyə toxunmayın, qarasını da gətirəcəm.

Z ə h r a. Melyanın bütün xörəkləri instruksiya ilə yeyilir.

Hamının başı yeməyə qarışır. Sahiblə Cananın gəldiyini görmürlər.

C a n a. Nə əcəb zəngi basdız, qapı ki açıqdır.

S a h i b. Diqqəti cəlb eləmək istəyirdim. Yemək üstünə gəlib çıxmışam? Sən deyəndi, qayınanam məni çox istəyəcək.

C a n a. Onda keçin süfrəyə, buyurun.

S a h i b. Nəyi qeyd eləyirsiniz?

C a n a. Evi satmağımızı. Xudafizləşmə mərasimidir, amma qonaqların xəbəri yoxdu.

S a h i b. Anladım. Onda məni sizin yaxın dostunuz kimi təqdim eləyin, ya da Zəhra xanımdan yazmaq istəyən qəzetçi kimi.

C a n a. Gəlin, gəlin içəri. Əziz qonaqlar, daha bir kişi! (*Zəhraya nəsə pıçıldayır.*)

Z ə h r a. Buyursunlar. Buyurun süfrəyə. Melya daha bir pribor.

M ə l ə k (*qalxır*). Mən onsuz da oturmuram, mətbəxdəyəm.

S a h i b. Yox, yox, mən heç kimin yerini tutmaq istəmirəm, hanı mənim kreslom?

C a n a. Kreslo sizə yuxu gətirir.

Q ü d r ə t. Bu kimdir, Zəhra xanım, tanımadım?

Z ə h r a. Papa, sonra...

M ə l ə k. Ya niçevo ne ponimayu. (*Gedir.*)

Z ə h r a. Əyləşin, cənablar, tanış olun: Kamran bəy, Qüdrət Qurbanoviç, Cücək...

B ö c ə k. Böcək... (*Qəhqəhə çəkir.*) Böcək.

Z ə h r a. O pardon, Böcək xanım, bu kişi...

K a m r a n. Kişi yox, Zara, erkək.

Z ə h r a. Erkək? Şu erkək kişi... Oy çaşdırdınız məni, şu bizim mehmanımız.

K a m r a n. Zara, nə güzel türkcə konuşursun.

Z ə h r a. Ta neyniyək, konu olanda gərək konuşasan də.

C a n a. Sahib bəy jurnalistdir, yazardır.

K a m r a n. Nə gözəl! Kak raz Türkiyədən vətənə dönməyim haqda bir intervü yapmaq istəyirdim.

S a h i b. Sən türksən?

C a n a. Xayr, Türkiyədən mühacirətdən qayıdıb.

Z ə h r a. Kamran bəy müğənnidir. Kamran Qızılsəs, yəqin eşitmisiz?

S a h i b. Yox, eşitməmişəm. Mənim işim-gücüm pul qazanmaq olub.

B ö c ə k. Nasıl söylədi? Əfəndim biznesmenmi? Nə güzel! Çok seviyorum iş kişilerini.

K a m r a n. Bəs dediz yazardır, jurnalist?

C a n a. Onu da bacarır. Yazmaq xobbisidir. Mama, bəlkə söhbəti dəyişək?

Q ü d r ə t. Dayan, dayan... Sən də o xalqı soyanlardan, bizim mübarizələr, döyüşlər bahasına qazandıqlarımızı padnoslarda aparıb imperialistlərə satanlardansan?

S a h i b. Ağıllı qocadır.

Q ü d r ə t. Nə deyir o?

Z ə h r a. Papa!

Q ü d r ə t. Yox, qoy o mənə cavab versin.

S a h i b. Səhv eləmirsən, day-day.

Q ü d r ə t (*kükrəyir*). Necə? Sən bunu utanmadan-qızarmadan boynuna alırsan?

S a h i b. Mən heç vaxt pul qazanmaqdan utanmamışam, heç çəkinməmişəm də.

B ö c ə k. Bravo! Ben efendimlə dans eləmək istiyorum.

K a m r a n. Böcək, biz hələ dans eləmirik.

Z ə h r a. Cənablar, gəlin, bir-birimizi incitməyək. Kamran bəy söz demək istəyir.

Q ü d r ə t. Mən qurultaylar sarayında, banketlərdə can qoyanda...

C a n a. Baba! Qüdrət Qurbanoviç! Kamran bəy söz demək istəyir.

Q ü d r ə t. Sizin başınız xarab olub? Millət acından qırılır, siz də... Yox ey, bizim beşilliklər boyu qazandıqlarımızı çalıb-çapıb sinfi düşmənlərimizə satırlar, bununla fəxr eləyirlər, siz də arsız-arsız tost demək, şampan hortuldatmaq istəyirsiniz? Sizdə heç namus, qeyrət, əhhh-hö-hö-hööö... (*Öskürəkdən boğulur.*) Qeyrəttt... ttt-öh-hö-hö-hööö... (*Danışa bilmir.*)

Z ə h r a. Gördün, papa, pristupun tutdu... (*Çağırır.*) Melya... Melya...

Mələk (*hövlnak gəlir*). Nooldu? Nə var? Şto s nim? Qüdrət Qurbanoviç, boje! Dedim sizə hirslənməyin, axı sizin bronxlarınız zəifdir...

Qüdrət. Mənim bronxlarım... öh-öh-öh... hö-hö-hö... Mən sizə... (*Danışa bilmir.*)

Mələk. Gedək, gedək kabinetə, tez, tez... (*Qolundan tutub öskürəkdən boğulan kişini aparır.*)

Qüdrət (*gedə-gedə*). Biz hələ... öh-öh... qayıdacağıq... mütləq, öh-öh-öh.

Mələk və Qüdrət gedir.

Zəhra. Siz allah, bağışlayın, qocalıqdandır. Starost ne radost!

Kamran. Çox qocalıb.

Zəhra. İnciməyin... Cana, Sahib bəyə qulluq elə, ləvəngi qoy nimçəsinə.

Sahib. Çox qoy, Cana xanım, ləvəngini xoşlayıram.

Cana. Yəqin uşaqlıqda çox yeyib öyrəşmisiz... yetimxanada?

Zəhra. Cana, dəli olmusan?

Mələk (*gəlir*). O saat yatdı, kresloya oturan kimi. (*Qüdrətin yerində oturur.*) Uşaq kimi yatdı, elə də mışıldayır...

Zəhra. Allaha şükür ki, yatdı.

Kamran. İcazə versəydiniz, bir kaç kəlmə söz söylərdim.

Mələk. Ya niçevo ne ponimayu.

Kamran. Zara, mən çox mutluyam ki, yenə də kəndi vətənimdə, şu mehriban, isti və doğma adamlar arasındayam.

Zəhra. Nə güzəl!

Kamran. Əvət, çox güzəl! (*Zaraya yaxınlaşıb əlindən öpür.*) Qürbətdə vətən yada düşəndə, Zara, sizin bu gözəl, bu sıcaq...

Mələk. Necə? O nə deyir, Cana?

Kamran. Bəli, bəli, bu sıcaq ev yadıma düşürdü. Bu kamin karşısında biz nə qədər yuxusuz gecələr keçirmişik.

Zəhra. Yetər, Kamran bəy, dəymə o sıcaq xatirələrə, o müqəddəs, o əziz günləri salma yadıma, kövrəltmə məni.

Sahib (*canaya*). Flirt olub aralarında?

Cana. Ləvəngi dadsızdır dediniz?

Sahib. Yox, elə demədim, bu evdə hər şey mənim xoşuma gedir.

Kamran. Orda operada oxuyanda həmişə elə bilmişəm ki, partnyorum yenə də sənsən, nesravnennaya Zara xanım.

B ö c ə k. Əvət, bana o qədər Zara söyləmiş... Hətta... (*Gülür.*) Hətta... (*Qəhqəhə çəkir.*)

Z ə h r a. Kamran, mən ağlaya bilərəm.

K a m r a n. Təklif edirəm içək Zara xanımın sağlığına, sahnemizin solmaz yıldızının şərəfinə, rica edirəm içək... (*İçir.*) İndi isə... oxuyaq... (*Oxuyur.*)

Fonoqramma Kamrana qoşulub "Traviata"dan oxuyan Zaranın səsini batırır. Duet var gücü ilə səslənir. Onlar özlərini tamaşaçı qarşısında hiss eləyirlər, bir növ keçmişə qayıdırlar.

S a h i b. Bilsəydim belə yanıqdırlar, sponsorluq eləyərdim onlara. Nə yaxşı musiqidi. Üzeyir Hacıbəyovundu?

C a n a. Xeyr, Cavanşir Quliyevindir.

S a h i b. Deyirəm axı niyə şirin gəlir adama.

Duet davam edir. Zara göz yaşlarını saxlaya bilmir. Birdən Böcək qalxıb ortaya atılır və duetin musiqisi altında göbək rəqsi oynayır. Zəhra ilə Kamran çaşıb qalır və qırağa çəkilirlər. Musiqi dəyişib göbəyə uyğunlaşır. Hamı təəccüb və çaşqınlıq içində oynaya-oynaya üst paltarlarını məharətlə soyunub atan və nəhayətdə göbəyi açıq qalan Böcəyə baxır.

M ə l ə k. Boje, kakoy stıd!

K a m r a n (*pərtdir*). Ağalar, eee... xanımlar, Böcək məşhur rəqqasədir, sənətçi.

Z ə h r a. Belə deyin, nə gözəl! Amma qurtarmaq lazımdır.

C a n a. Ona soyuq dəyəcək.

Böcək oynaya-oynaya Sahibin qabağına gəlir və daha çılğınlaşır. Sahib pul çıxarıb onun göbəyinə taxır.

C a n a. Əlbəttə, za udovolstvie nado platit!

S a h i b. İstanbulda restoranda görmüşəm. Bizə nə gəlib? Sonra deyərlər Bakı milyonçularının qanacağı yoxdu.

K a m r a n. Böcək, yetər!

M ə l ə k. Kamran, bu sizin... bəs bu sizin... da ona je vaşa supruqa!

K a m r a n. Böcək, bu kolay işmi?

C a n a. Onu geyindirin, soyuq dəyəcək.

Z ə h r a. Dəyməyin, enerjisi çoxdur.

Q ü d r ə t (*gəlir*). Bu nə səs-küydür? Nə olub? İnqilabdır yenə? Bizimkilər qayıdıb? (*Böcəyi görüb çaşır.*) Bu ki... bu... Bu nə deməkdir, Melya? (*Böcək Qüdrətin qabağında oynayır.*) Mən səndən soruşuram, Melya, bu nə deməkdir? Kimdir bu tumançaq gəlin?

M ə l ə k. Ya niçevo ne ponimayu.

S a h i b (*böcəyin qabağından geriləyən Qüdrətə*). Qəhrəman, pul ver, pul! Yoxsa əl çəkməyəcək.

Q ü d r ə t. Mənim pulum var?

S a h i b. Çıxart ulduzu tax, ulduzu istəyir.

Q ü d r ə t. Tü!!! Bezobraziye! Zara! Melya! Cana! Siz mənim evimi Maksimbara döndərmisiz?

Musiqi kəsilir. Böcək çaşqın dayanır.

B ö c ə k. Nə yapdız? Ben hələ qurtarmaz. Hələ...

K a m r a n. Paltarını geyin, Böcək! Burası İstanbul deyil, Bakıdır.

Q ü d r ə t. Xalq bir tikə çörək üçün ev-eşiyini, torpağını qoyub gəlib şəhərə, siz də burda göbək tərpədirsiz? Millət qan ağlayır, siz də... Tü!!! Hanı o kişi, hanı? Verəydi sizi güllənin ağzına?!

C a n a. Qüdrət Qurbanoviç, hirslənməyin, bu sənətdir.

S a h i b. Özü də lap incəsindən. Geyin, xanım, geyin. Gördük, çox sağ ol.

B ö c ə k. Kan kardeşlərimə şu canımı da kurban veriyorum.

M ə l ə k. Ya niçevo ne ponimayu.

K a m r a n. Çox ürəyitəmiz, istiqanlı, sadə bir tifil, çocuq kibi sade.

Q ü d r ə t. Yox ey, mən çox rəqslər görmüşəm, lap qurultaylar sarayında “Lebedinni ozera”nı da görmüşəm, Maiseyevi də, lap o Yesimbayevi də... amma belə... Hələ Fransada... inqilab adası, halal olsun ona, Kubada.. Bir dəfə də təcrübə mübadiləsi ilə bir dəstə qəhrəman deleqasiyasında Varşavaya getmişdim. Apardılar bizi Maksimbara, amma gizlin getmişdik, olmazdı, nəysə, yaxşı, kefin istəyən bir striptiz oldu... Bah-bah-bah... Bax o, sənətiydi, xalis incəsənət...

Z ə h r a. Papa, bəlkə keçək süfrə arxasına? Mən bilən ta striptiz qurtardı.

Q ü d r ə t. Böyük danışanda kiçik susar. Bir dəfə də...

C a n a. Baba, indi də sən göstərəcəksən striptizi? Bəsdir də!

Q ü d r ə t. Sən mənim üstümə qışqırma, heç səsini də qaldırma!

S a h i b. Bağışla məni, qoca, sən...

Q ü d r ə t. Bu kimdir, bu nə istəyir, Melya?

M ə l ə k. Məndən soruşmayın, ya niçevo ne ponimayu.

C a n a. Qüdrət Qurbanoviç, bayaq tanış elədik də! Sahib bəy biznesmendir, gənc kapitalist.

Q ü d r ə t. Kapitalistlə mənim işim yoxdur, mən kommunistəm.

S a h i b. Qoca, sən neftçisən, yoxsa incəsənət xadimi?

Q ü d r ə t. Bu nə deyir, Melya? Məni ölkədə tanımayan var, əlbəttə neftçiyəm. Haqqımda beş mahnı yazılıb, iki poema, iyirmi doqquz şeir, hələ məqalələri demirəm.

S a h i b. Çox gözəl! Bəs niyə heç əməkdən, neftdən, nə bilim quyudan danışmırsan? Sən başlayanda adama elə gəlir ki, "Lebedinni ozera"nı yazan sənsən. Kuba elə gəldi, striptiz belə getdi. Bəs nefti kim çıxarırdı, a kişi?

Q ü d r ə t (*çaşır*). Nefti? Neft nədi?

S a h i b. Neftçisən, bilmirsən neft nədi?

C a n a. Baba, soruşur ki, nefti kim çıxarırdı?

Q ü d r ə t. Kim çıxardacaq? Əlbəttə, mənim kommunist əməyi briqadam. Gecəni gündüzə qatıb çıxardır, ölkəyə verirdik.

S a h i b. Aydındır, sən də gecəni gündüzə qatıb striptizə baxır, körpə quşların rəqsinə tamaşa eləyib coşur, yeni xariqələr yaradırdın.

Q ü d r ə t. Mən neynirdim?

S a h i b. Elə ona görə ölkə dağıldı.

Z ə h r a. Bunlar mənim ürəyimi partladacaqlar.

Q ü d r ə t. Nə dedin sən? O nə dedi, Melya? Biz dağıtdıq ölkəni? Xeyr, kapitalist vətəndaş, siz, siz dağıtdınız! Biz qurmuşduq, siz gəlib dağıtdınız. Nəyimiz vardı satdınız xaricə! Çünki siz tüfeyli, oğru, banditsiniz...

Z ə h r a. Papa, papa, sakit ol! (*Sahibə.*) Siz də...

Q ü d r ə t. Siz heç nə yaratmırsınız, siz satırsınız, ancaq satırsınız...

S a h i b. Düz deyirsən, biz satırıq, amma əvəzinə də gətiririk, bax dükanlara, yadına sal sizin dövrdəki dükanları.

Z ə h r a. Xahiş edirəm, qurtarın bu söhbəti! Bura meydan deyil!

Q ü d r ə t. Ölkə keçib bir dəstə banditin, mafiozun əlinə. Nə var oğurlayırlar, oğurluqla kifayətlənməyib qarət edirlər, quldurluqla... O gün, bir dostum var, iki dəfə sosialist əməyi qəhrəmanı, sənin kimi bir bandit şəhərin mərkəzindəki gül kimi beşotaqlı mənzilini alıb əlindən, aldadıb.

S a h i b. Pulunu verib alıb də.

Q ü d r ə t. Oğurluq pulla, eləmi?

S a h i b. Elə o yalançı qəhrəman da oğurluqla almamışdı o evi? Camaatın puluna tikilən ən yaxşı evlər sənin kimi striptiz, konsert qəhrəmanlarına verilmirdi? Fəhlə aristokratiyasına? Zəhmətkeşlər, o nefti çıxaran əsil fəhlələr isə odey... Günəşlidə, Hövsandadırlar, orda yəqin "Kurinnı ozera"ya baxırlar. (*Qəhqəhə çəkir.*)

Q ü d r ə t. Rədd ol mənim evimdən! Bu saat rədd ol!!!

S a h i b. Lənət sənə, şeytan!

Q ü d r ə t. Dedim rədd ol!

C a n a. Baba, Qüdrət Qurbanoviç!

Z ə h r a. Papa, sən lap ağ elədin?

M ə l ə k. Hirslənməyin, Qüdrət Qurbanoviç.

Q ü d r ə t. Siz mənə ağıl öyrətməyin. Ev mənimdir, kimi saxlamaq, kimi qovmaq mənim işimdir. Allaha şükür, hələ o günə qalmamışam ki, mən də evimi satam.

S a h i b. Lənət sənə, şeytan!

Q ü d r ə t. Eşitmədin? Çıx burdan, bandyuqa! Sən bu evin qapısından içəri girməyə heç layiq deyilsən. Rədd ol, bandyuqa! (*Stolun üstündən külqabını götürüb Sahibə qıcanır. Hamı qışqırışır.*) Rədd ol!!!

S a h i b (*halını pozmur. Sakitcə qocaya yaxınlaşıb biləyindən tutur. Külqabı düşür*). Gedərdim, ev sənin olsaydı.

Q ü d r ə t. Bu nə danışır, Melya? Zara, onu kim gətirib bura? Kim buraxıb bizim evə? Cana, bəlkə bu bilmir ki, bu evin sahibi mənəm?

C a n a (*Sahibə*). Siz... siz...

S a h i b. Bəli, biz! Qoy hamı bilsin, birinci o qoca striptiz həvəskarı bilsin ki, bu ev çoxdan mənimdir, birinci dəfə gördüyüm gündən, saatdan, dəqiqədən!

Q ü d r ə t. Bu dəlidir, Melya? Nə deyir o?

M ə l ə k. Ya niçevo ne ponimayu, Qüdrət Qurbanoviç.

S a h i b. Emosiyaya da uymayın, çığırıb-bağırmağın xeyri yoxdur. Səndən başqa hamı bilir ki, bu ev bir aydan çoxdur mənimdir. Sənədini də göstərə bilərəm, amma artıq işdir.

Q ü d r ə t. Zara, Cana, Melya... Hiss edirdim, bu naxalı buralarda görəndən sümüyüm çalmışdı, amma inanmırdım, inanmırdım ki... (*Ürəyini tutub səndirləyir.*)

Z ə h r a. Papa, papa...

M ə l ə k. Qüdrət! Nooldu sənə, Qüdrət?
C a n a (*Sahibə*). Deməyə söz tapmıram...
S a h i b. Təşəkkürə ehtiyac yoxdur. Səni çətin bir işdən qurtardım.
B ö c ə k. Kamran, əfəndim nədən haykırıyor? (*Qüdrəti göstərir.*)
K a m r a n. Mən olsaydım, onun yerinə haykırmak nədir, lap ankırıyordum.
Q ü d r ə t (*ürəyini tutub Zəhranın üstünə gedir*). Zəhra, məni başa sal görüm bu nə deməkdir?
Z ə h r a. Mən bilmirəm, papa, vallah bilmirəm.
Q ü d r ə t. Bəs kim bilir? Niyə susursan, Cana? Başa salın məni, yoxsa bu evi də, özümü də, elə sizi də yandırram, od vuraram.
S a h i b. Mən ki hər şeyi aydın dedim.
C a n a. Baba, sən sakit ol, mən sənə hər şeyi sonra başa salacam.
Q ü d r ə t. Heç kəsin, heç kəsin ixtiyarı yoxdur mənim qan-tərlə aldığım evi... (*Yenə də ürəyini tutur və bir qədər yorğun.*) Birinci infarktı mən bu evə görə almışam, Melya. Nemətulla ilə bu evin üstündə bir il döyüşmüşəm.
C a n a. Baba, ev artıq Sahibindir. Bizsə bir-iki günə burdan çıxmalıyıq, köçməliyik.
K a m r a n. Zara, bu gerçəkmi?
Z ə h r a. Ah, Kamran... Zəhra xanım hələ Yamasalda yaşayacaq...
S a h i b. Mən sizi tələsdirmirəm.
Q ü d r ə t. Zəhra, bu qız nə danışır? Melya, siz məni öldürmək istəyirsiniz?
M ə l ə k (*ağlayır*). Ya niçevo ne ponimayu, Qüdrət, bukvalno niçevo ne ponimayu.
Q ü d r ə t. Mən sizə belə tərbiyə vermişdim?
C a n a. Mama, sən dayan, bu söhbət əvvəl-axır açılmalıydı, burda da ta kənar adam görmürəm. Sağ olsun Sahib bəyi bizi bir az qabağa saldı. Nə vermisən bizə, Qüdrət Qurbanoviç? Axı tərbiyədən başqa nə vermisən bizə?
Q ü d r ə t (*bir qədər çaşqın*). Nə vermişəm? Mən... mən sizə ad-san vermişəm, açıq alın... Zara, mən Anadan sonra evlənmədim, bütün ömrümü sizə sərf elədim...
M ə l ə k. Doğru deyir. O bu evdə ögey ana olmasını istəmədi.
S a h i b. Çox nahaq yerə! Niyə siz keçmişlə yaşayırsınız? Niyə bu günü qoyub keçmişə boylanırsınız? Ölmüş, dünyasını dəyişmiş qadınla yaşamaq, bir yastığa baş qoymaq olar, yatağa girmək olar?

Z ə h r a. Sahib bəy, Sahib...

S a h i b. Alaydın da baldızını, hazır arvadıydı başıvın altında, indi də ölür səndən ötrü.

M ə l ə k. Kak? Nə deyir o? Mən ölürəm ondan ötəri? Mən... mən... Ahhh... (*Qəşş edir.*)

C a n a (*Sahibə*). Susun, nəhayət, susun! (*Melyanı tutur.*) Melya, Melya...

Hamı Melyanın başına yığışır.

Q ü d r ə t. Rədd olun! Rədd olun burdan! Hamınız rədd olun! Kim istəyir rədd olsun, mən evimdən heç yerə gedən deyiləm... (*O biri otağa keçir və qapını bağlayır.*)

M ə l ə k (*ayılır*). Hanı, hara getdi... Qüdrət... Qüdrət... Necə oldu?

S a h i b. Keçdi o biri otağa, kabinetə.

M ə l ə k (*qapını itələyir*). Qüdrət, aç qapını... Qüdrət! Bağlıdır. Zara, o öləcək... Cana, o öləcək... (*Qapını döyəcləyir.*) Qüdrət, mən də öləcəm, Qüdrət, bu evdən çıxsam, mən də öləcəm. (*Hönkürüb gedir.*)

C a n a (*Sahibə*). Çox qəddarsınız!

Z ə h r a. Kamran... (*Ağlayır.*) Halım pisdir, Kamran...

K a m r a n. Sakit ol, Zara, bəlkə belə yaxşıdı.

B ö c ə k. Gedəlim, Kamran, gedəlim... Burda hər kəsin moralı pozulmuş, gedəlim.

Z ə h r a. Apar məni, Kamran, apar məni...

Zəhra, Kamran və Böcək gedir.

S a h i b (*onların dalınca baxır*). Çox zavallı, aciz adamlardır.

C a n a. Biz hamımız aciz, bədbəxt adamlarıq.

S a h i b. Bədbəxt nədir? Həyatda yaşamağı bacaranlar və bacarmayanlar var, vəssalam! (*Gedir.*)

Cana səliqəsi pozulmuş süfrəyə baxır. Nəsə götürüb çeynəyir.
Birdən dayanır və cibindən kalkulyatoru çıxarıb hesablayır.

İşıq sönür

PƏRDƏ

## İKİNCİ HİSSƏ

Həmin məkandır. Köçmək üçün yır-yığış getdiyi hiss olunur. Bağlamalar, qutular və s. otağın bir küncünə yığılıb. Mələklə Cana əl-ayaq eləyirlər.

C a n a. Melya, ağ servizi qablaşdıra bildin? Qorxuram sınıb şikəst olar, çox zərif çinidir, elə bir himə bənddir.

M ə l ə k (*qutulardan birini göstərir*). Bura yığmışam, yerə atsan da sınmaz. Ta elə bir şey qalmadı, bir Ananın şəklini çıxara bilmədim, nə gücüm çatdı, nə əlim. O vaxt Qüdrət Qurbanoviç asmışdı, onda Ana bədbəxt ölüm yatağındaydı. İndi hardadısa ruhu burdadı. Gözlərini birdəfəlik yumanda dedi ki, Qüdrət, Melyadan nigaran gedirəm, onu sənə tapşırıram, ne obijay yeyo. (*Ağlamsınır.*) Ya niçevo ne ponimayu.

C a n a. Melya, bəsdi, getdiyimiz yerdə yasxana açma. Yaşamaq istəyiriksə getməliyik, köçməliyik bu evdən.

M ə l ə k. Bilirəm, Cana, başa düşürəm, no ya niçevo ne ponimayu. Axı niyə biz öz halalca evimizdən köçməliyik?

C a n a. Vallah, sizin qəsdiniz məni öldürməkdir.

M ə l ə k. Allah eləməsin, Cana, sənsən bizi saxlayan, no ya... (*Sözünü bitirmir.*)

Z ə h r a (*gəlir. Səliqəsi pozulmuş evə, bağlamalara baxır*). Mənim ürəyim partlayacaq, dözə bilməyəcəm.

M ə l ə k (*Zəhranı qucaqlayır*). Nədi, nədi bizim günahımız, Zara?

Z ə h r a. Sakit ol, Melya, özüvü ələ al. Görünür həyat belə olur. Elədirmi, Cana? Hər şey yaxçı olacaq, eləmi?

M ə l ə k. Ürəyimə damıb ki, mən bu evdən çıxsam öləcəm. Hirslənmə, Cana, ürəyimə damanı deyirəm. (*Ağlayır.*) Nə qədər elədim, Zara, Ananın şəklini divardan çıxarda bilmədim, elə bil o da burdan getmək istəmir.

Z ə h r a. Yarama duz səpmə, Melya. Kamran zəng eləməmişdi?

M ə l ə k. Yox, eləməyib, heç kəs zəng eləməyib, indi biz kimə lazımıq?

C a n a. Hər kəs öz başının hayındadı.

Z ə h r a. Əlbəttə, bir həftədir getdiyi, nə zəng eləyir, nə gəlir. Neynir o bizi? Ailəsi, öz evi, xaricdə ikiillik kontraktı. Mən də ta o Zara deyiləm ki, qapımda yata. İndi mənim nəyim var ki, kiməm

mən? Bir evim vardı, onu da aldılar əlimdən. (*Dəsmalı gözlərinə sıxır.*)

Cana. Mama, siz məni öldürmək istəyirsiniz? Burdan Melya, ordan sən, hələ qocanı demirəm. Bir həftədir qapanıb ora, partizanlıq eləyir, kommunistlik yapır. Bilmirəm, bəlkə siz yaşayıb doymusunuz, amma mənim həyatım hələ indi başlayır, mən sizinlə bu evdə ölmək istəmirəm!

Zəhra. Qəddar olma, qızım.

Mələk. Bizi başa düş, Cana.

Cana. Düşmürəm! Mən sizi başa düşmək istəmirəm! Girib kabinetə, Lenin kimi divanda yatır, xəstəliyə vurub özünü.

Mələk. Sən nə danışırsan, Cana?

Zəhra. Cana, doğrudan papanın halı yaxşı deyil, onu tərpətmək olmaz. Bəlkə bir az da gözləyək?

Mələk. Elədir, Zara, elədir. Necə aparaq xəstə adamı? Deyir heç kəsi qoymaram mənə yaxın dura. Bəlkə də infarktdı.

Cana. Siz niyə başa düşmürsünüz ki, bu ev bizim deyil, özgə adamındır. Budur bir aydır biz elə bil vağzaldayıq. Mama, biz üzümüzə salıb özgə adamın evində yaşayırıq.

Zəhra. Axı o bizi tələsdirmir. O gün yenə dedi ki, Zara xanım, mən səni tələsdirmirəm. Vsyo je blaqarodnıy çelovek.

Mələk. Da uj! Oçen blaqarodnıy!

Cana. Elə pisi odur də, mama. O hər bizə gələndə, mən özümü... Pulu alıb oturmuşuq, iki təptəzə mənzilimiz də orda boş... Bəlkə buranı təmir elətdirmək istəyir, evlənmək fikri var. On je davno ne malçik.

Mələk. Biz neyniyək, evlənsin də! Gərək gəlini bizim evə gətirə?

Cana. Adam sizinlə danışanda özünü asmaq istəyir.

Zəhra. Cana, hirslənmə, Melya düz deyir.

Cana. Yığmısınız məni boğaza! Öldürüm özümü, ya başımı götürüm qaçım sizin əlinizdən? (*İsterikadadır.*) Bəlkə pəncərədən atım özümü? Deyin də, cavab verin, atım özümü pəncərədən? (*Pəncərəyə sarı qaçır.*) Atım? Öldürüm özümü?

Zəhra və Mələk qışqırışıb onu saxlayırlar.

Zəhra (*ağlayır*). Eto jestoko, Cana! Eto jestoko!

Mələk. Kak tı mojeş, Cana? Kak tı mojeş?

C a n a. Bəs bu qəddarlıq deyil, mama? (*Ağlayır.*) Mən qalmışam odla su arasında! Üç ərköyün, aciz qocanın əlində qalmışam, bütün qayğılarınız mənim çiyinlərimdədir, axı mən kişi deyiləm, mama, mən qızam, sizin kimi arvadam, sizin kimi zəif, köməksiz qadınam! (*Hönkürür.*) Mən... mən... başımı itirmişəm. Sizə görə, ancaq sizə görə. (*Sərt hərəkətlə göz yaşlarını silir, səsi mətinləşir.*) Bir azdan maşın gələcək!

Z ə h r a. Bəs... bəs papa?

C a n a. Lazım gəlsə "Təcili yardım" maşını çağırıb nasılkada apartdıracam Qüdrət Qurbanoviçi! Xəstənin yeri ev deyil, xəstəxanadır!

M ə l ə k (*heyrət və qorxu ilə*). Cana...

C a n a. Bir kəlmə də!!!

M ə l ə k. Boje... boje... (*Qaçıb gedir.*)

Z ə h r a (*heyrətlə*). Sənin ürəyin daşdır, qızım...

C a n a. Doğrudur, daşdır! Vapşe mənim ürəyim yoxdur. Özüm də çox şadam, çox razıyam ki, ürəyim yoxdur, ürəksizəm, qəddaram, qansız və cansızam! (*Gedir.*)

Zəhra tək qalır. Nigarın "Hanı o dəmlərin..." sözləri ilə başlayan ariyası səslənir. Zəhra otağı dolaşır, mebeli, divarları sığallayır. Qüdrət xəstə addımlarla gəlir, əlində Ananın şəkli var. Ariya bitir, Zəhra qutulardan birinin üstündə oturur. Qüdrəti görmür.

Q ü d r ə t. Köçürsünüz.

Z ə h r a (*səksənib xəyaldan ayılır*). Papa? Papa! (*Qalxıb kişini qucaqlayır.*) Papa, bağışla məni, fərsiz qızıvı bağışla.

Q ü d r ə t (*onu özündən ehmalca aralayır*). Deməli, köçürsüz?

M ə l ə k (*gəlir*). Qüdrət Qurbanoviç, niyə durduz, axı sizə olmaz. (*Şəkli görür.*) Bunu necə çıxartdız, heç mənim gücüm çatmadı?

Q ü d r ə t. Burda güc lazım deyildi, Melya, ağıl lazımdı, o da ki səndə... (*Sözünü bitirmir, şəklə, sonra Mələyə baxır.*) Sən də gedirsən?

M ə l ə k. Canaya yazığım gəlir, Qüdrət Qurbanoviç.

Z ə h r a. Qurban olum, papa, getməliyik, nəhayət, biz köçməliyik. Evin pulunu almışıq, nə qədəri xərclənib, Cana iki mənzil alıb, nə lazımdır eləyib, təzə mebel, nə bilim, deyir... Ta geriyə yol yoxdur. Pulun qalanını da köçəndən sonra verəcək.

Q ü d r ə t. Niyə köçəndə? Etibar eləmir? Bəlkə elə bilir hamı oğrudur?

Z ə h r a. Nə bilim? Cana deyir qayda belədir.

M ə l ə k. Ya niçevo ne ponimayu.

Q ü d r ə t. Eto toçno, Melya.

Z ə h r a (*kişini öpür*). Çox sağ ol ki, sən də bizi başa düşdün, papa, elə narahat idim sənə görə. Cana da bərk fikir eləyir. Neynəsin, o yaşda qız bütün bir ailənin yükünü daşıyır çiynində, özü də indiki zamanda. Heç kişilər saxlaya bilmir ailəsini.

M ə l ə k. Bəs nədi? İndi Cananın ailə, ev saxlayan vaxtıdı? Ona pryamo osunulas. Svoloç!

Q ü d r ə t. Svoloç kimdir?

M ə l ə k. O bandyuqanı deyirəm, evimizi alan burjuyu!

Q ü d r ə t. Zərər yoxdur, çox qalmayıb, biz qayıdacağıq, bax onda elələrini yerindəcə güllələyəcəyik!

M ə l ə k. Şəkli verin mənə, qucağımda aparacam. (*Şəklə baxır.*) Allah sənə rəhmət eləsin, Ana, nə yaxşı ki, sən bu günümüzü görmədin.

Q ü d r ə t. Bu mebeli də aparın, qoymayın qalsın.

Z ə h r a. Mebeli necə aparaq, ordakı otaqlar qutu kimidir.

Q ü d r ə t. Onda sındırın, dağıdın, yandırın, qoymayın düşmənə qalsın!

M ə l ə k. Siz elə danışırsız ki, guya biz gedirik, siz qalırsız.

Q ü d r ə t. Əlbəttə, qalıram.

Z ə h r a. Papa, sən nə demək istəyirsən?

Q ü d r ə t. Bəli, Zəhra xanım, siz gedirsiz, mən qalıram öz evimdə.

Z ə h r a. Axı bu mümkün deyil, papa, bu ev ta bizim deyil, sən necə qalırsan?

M ə l ə k. Qüdrət Qurbanoviç, Cana...

Q ü d r ə t (*qışqırır*). Susun!!! Susun, xainlər! Özünüz də bu saat rədd olub gedin. Mənim meyitim çıxacaq bu evdən. Anaxanım burda ölüb, Melya, mən də burda öləcəm. Yox, əgər ölə bilməsəm, yandıracam bu evi, bir yerdə yanacam... (*Əlləri ilə üzünü tutur.*)

M ə l ə k. Qüdrət Qurbanoviç, mən də sizinlə yanmaq istəyirəm... (*Hönkürür.*)

Z ə h r a. Sizin ağlınız çaşıb! Cana onsuz da dəli olub. Siz mənim bircə qızımı öldürmək istəyirsiniz? Məni bu dünyada tək qoymaq fikrindəsiz?

Q ü d r ə t (*qalxır*). Kim istəyir getsin. Mən burda qalacam, acından ölsəm də burda qalacam. (*Səndirləyir.*) Mən acından öləcəm, amma burda, öz evimdə öləcəm!

M ə l ə k. Qüdrət Qurbanoviç...

Q ü d r ə t. Bəli, Melya xanım, mən bu evdə öləcəm... (*Ürəyini tutub bir də səndirləyir.*)

Z ə h r a. Papa, papa... (*Onu oturtmaq istəyir.*) Otur, papa, axı sənin...

M ə l ə k. Qüdrət, nə oldu, Qüdrət, ürəyindi? (*Dərman vermək istəyir.*) Al bunu.

Q ü d r ə t. Toxunmayın mənə! Heç kəs yaxın gəlməsin mənə. (*Çətinliklə öz otağına tərəf gedir.*) Dərman da gərəyim deyil. Ölmək istəyən adam dərmanı neynir? (*Qapını açır.*) Onsuz da çox ləngimişəm, lap zəhləmi tökdü bu dünya. (*Otağa girir və qapını örtür.*)

Z ə h r a. Papa... papa... (*Kresloya çöküb ağlayır.*)

M ə l ə k. Zara... Zara... ya niçevo ne ponimayu... (*Qüdrətin dalınca gedir.*)

Zəhra dəsmalını gözlərinə sıxır. Nigarın "Yaralıyam mən, əzizim Rövşən..." sözləri ilə başlayan ariyası səslənir. Kamran gəlir. Bir müddət qarışmış otağı nəzərdən keçirir. Ariya fona çevrilir.

K a m r a n. Zara!

Z ə h r a. Kamran?

K a m r a n. Bu nədi, Zara, siz doğrudan köçürsüz?

Z ə h r a. Ah, Kamran, hardasan?

K a m r a n. Siz gerçəkdənmi köçürsüz?

Z ə h r a. Mən heç nə bilmirəm, Kamran, heç nə bilmirəm. Melya demiş ya niçevo ne ponimayu.

K a m r a n. Nə pis dövrə gəlib çatdıq biz, Zara? Bu azğın zaman bizi əjdaha kimi udur.

Z ə h r a. Demə, Kamran, demə. Bəs sən hardasan, niyə birdən yox oldun? Yəni dostluq, yoldaşlıq, nəhayət, məhəbbət elə bu qədərmiş?

K a m r a n. Yox, Zara, deyəsən, həyat bu qədərmiş. Bu qəddar zəmanə bizi yararsız, lazımsız bir şey kimi vurub qırağa atır, biz çapalayır, əl-qol atırıq, amma özümüzü sahilə çatdıra bilmirik.

Z ə h r a. Sən nədən gileylisən, sənin ki işlərin yaxşıdı: cavan, gözəl arvadın, Türkiyədə ikiillik kontraktın, sən nədən şikayətlisən?

K a m r a n. Heç kəsə deməsəm də, bir sənə deyə bilərəm, Zara, bu dediklərin heç bir əsası olmayan blefdir.

Z ə h r a. Necə yəni blef? Sən mənə yalan demisən? Böcək də blefdir? Bu boyda yalan olar, Kamran?

K a m r a n. Zara, indi mənim nə evim, nə işim, nə arvadım var. Ən böyük həqiqət də budur.

Z ə h r a. Sən nə danışırsan, Kamran, sən məni aldadırsan? Bəlkə elə bilirsən bu mənə təsəlli verəcək?

K a m r a n. Zara, sevimli Zara, burdan gedəndə evimi satmışdım. Dedim xaricə, yad ölkəyə gedirəm, pulsuz-parasız kimə lazımam orda? Bir də ilk vaxtlar xərcliyim olmalıydı da. Nə biləydim ki, qayıdıb gələsi olacam? Bir sözlə, hər şeyimi itirdim, Zara, hər şeyimi! Onlar beni aldatdılar. Yaxşı ki, Böcək vardı, evində mənə uqol verdi, sonra da nə bilim... evləndik.

Z ə h r a. Dayan, dayan... İndi sən burda evsizsən?

K a m r a n. Bomjam mən, Zara! Yurdsuz-yuvasız, evsiz-eşiksiz, vətənsiz, ailəsiz, arvadsız bomj.

Z ə h r a. Bəs Böcəkdi-Cücəkdi, o hanı? O da blefdi?

K a m r a n. O da yoxdu!

Z ə h r a. Axı varıydı. Necə oldu?

K a m r a n (*teatral qəhqəhələrlə gülür*). Böcək... ha-ha-ha...

Z ə h r a (*çaşqın*). Kamran, sən gülürsən?

K a m r a n. Zara, göz yaşlarımı gizlətmək üçün gülürəm.

Z ə h r a. Sualıma cavab vermədin, Kamran. Böcək hanı?

K a m r a n. Atdı məni Böcək. O da atdı məni. Gənc bir biznesmenə qoşulub da getdi.

Z ə h r a. Necə? Qoşulub qaçdı?

K a m r a n. Qaçmaq niyə? Elə beləcə getdi, "Mersedes"də. Bana bir pardon söyləyib də şütüdü, hiç izi-tozu da kalmadı. (*Nalə çəkir.*) Zara!.. (*Ağlayır.*) Zara, mən həyatda uduzdum, Zara... (*Hönkürür.*)

Z ə h r a (*kövrəlir*). Sakit ol, Kamran, tək sən deyilsən uduzan, sakit ol, mən sənə kömək eləyərəm.

K a m r a n. Necə, Zara, nasıl? Sən mənə necə kömək edəcəksən? Sən özün bu vəziyyətdə... Tale mənimlə pis şaka yapdı.

Z ə h r a. Heç fikir eləmə, Kamran. İndi bizim iki mənzilimiz var, düzdü, hər ikisi Yamasaldadı, amma lənət yoxa. Hələlik birini verərik sənə, danışaram teatrda, geri götürərlər...

K a m r a n. Nə danışırsan, Zara, heç vaxt razı olmaram, o ev sizə də lazımdır.

Z ə h r a. Səndən soruşan yoxdu.

K a m r a n. Bəs Cana? Sizinkilər? Qüdrət...

Z ə h r a. Heç kəsə dəxli yoxdur! Ev də mənimdir, Cananın yox!

K a m r a n (*qabağında diz çöküb əllərindən öpür*). Zara, sən həmişəki kimi nəcibsən, gözəlsən, sevimli... (*Sözləri dedikcə ayağa qalxır*, *axırıncı sözdə üz-üzədirlər*, *qəfil qucaqlayıb öpür.*)

Z ə h r a. Burax, Kamran, burax, gələn olar, burax... (*Tabe olur.*) Burax... Kamran, Kamran...

M ə l ə k (*gəlir və onların öpüşdüyünü görür*). Kak? Ya niçevo ne ponimayu.

K a m r a n (*Zəhranı buraxır*). Melya... Melya... Zara zalataya...

M ə l ə k. Ona görə qədrini bildin də.

Z ə h r a. Melya, necədir papa? Sakitləşdi? (*Kamrana.*) Papa heç yola gəlmir, deyir köçmürəm, vəssalam!

K a m r a n. Onu başa düşmək çətin deyil.

M ə l ə k. Yatdı, birdən yatdı, dərin yuxuya getdi. Zara, yazığım gəlir ona, kişi üçün çətindir. Arvada nə var ki, su kimi girdiyi qabın şəklin alır, kişi üçün çətindir, necə öyrəşsin təzə evə, bu yaşında? Ürəyimin başına od düşür. Axı bu onun evidir.

Z ə h r a. Heç məni demirsən, bir azdan maşın gələcək, amma yenə də inanmıram ki, köçürük burdan, nəsə bir möcüzə gözləyirəm, guya nəsə olmalıdır. Nə bilim! Kamran, sənə sözüm var... (*Kamranın qoluna girib aparır.*)

M ə l ə k. Kamrana sözü var! Ya niçevo ne ponimayu. (*Gedir.*)

Sahiblə Cana gəlir.

S a h i b. Yəqin mebeli aparmayacaqsınız?

C a n a. Əslində aparmaq istərdik, alışmışıq bu mebelə, amma o evlərə sığışmaz. Satmaq yaxşı olardı, indiki vaxtda belə keyfiyyətli, xüsusi sifarişlə hazırlanmış möhkəm mebel ələ düşən deyil. Alsaydınız, ucuz satardım.

S a h i b. Çətin ağlım kəsir ki, alan ola bu mebeli? Antikvar da deyil, adi, köhnə mebeldir, amma xridarını tapmaq olar. Baxarıq.

C a n a. Maşın gecikir deyəsən?

S a h i b. Yox, uşaqlara tapşırmışam, harda olsalar indi gələrlər.

C a n a. Əyləşin də, niyə ayaq üstdə dayanmısız? Vproçem, öz evinizdir, mənim təklifimə ehtiyac yoxdur.

S a h i b. Orası elədir, amma oturmaram, yuxu basır məni oturanda. İndiki vaxtda isə yatmaq cinayətdir.

C a n a. Axır vaxtlar mənim də rahatlığım yoxdur, həmişə narahatam, elə bil rahatlansam nəyisə itirəcəm.

S a h i b. Deməli gedirsiniz?

C a n a. Bu sualı sizdən eşitmək qəribədir.

S a h i b. Əslində heç görüşməyəcəyik də.

C a n a. Sizə yaraşmayan sözlər deyirsiniz. Biz niyə görüşməliyik ki?

S a h i b. Demirəm ki, görüşməliyik, deyirəm ki, ta görüşməyəcəyik.

C a n a. Alverdi də: mən satdım, siz aldınız, vəssalam! Ta görüşməyin bura nə dəxli var? Biz bazarda pomidor aldığımız adamla dostluq eləmirik ki. İndi açarları da verəcəm sizə.

S a h i b. Çayınız var?

C a n a. Çay? Yox, nə çay? Hər şeyi yığışdırmışıq, amma bir baxım də, bəlkə... (*Getmək istəyir.*)

S a h i b (*qolundan tutub onu saxlayır*). Dayan, getmə, elə-belə dedim, çay içən deyiləm.

C a n a (*qolunu ehmallıca onun əlindən çıxarır*). Bəs?..

S a h i b. Sözüm var sənə.

C a n a. Mənə? Nə söz?

S a h i b. Qoy bir fikrimi toplayım...

C a n a. Bəlkə fikrinizi dəyişmisiz? Bu alverdən peşman olmusunuz?

S a h i b (*sevincək*). Peşman olmuşam? Düz tapdın. Peşmanam.

C a n a. Siz nə danışırsız? Hər şey həll olunub qurtarıb, onları yola gətirincə mən o dünyanı görüb qayıtmışam. Hələ qoca! Dayanın... bəlkə qiyməti öldürmək istəyirsiz? Ya elə bilirsiz bizim üçün ta geriyə yol yoxdur, hər şeyə razı olarıq?

S a h i b. Elə deyil, sən məsələni qəlizləşdirmə.

C a n a. Bəs nədi?

S a h i b. Necə deyim ki, məni başa düşəsən?

C a n a. Siz... siz...

S a h i b. Bəli, mən bir biznesmen kimi səhv buraxmışam, özümə də səhvimi bağışlaya bilmirəm. Ona görə də bu alverdən ləzzət ala bilmirəm.

C a n a. Ləzzət? Alverdən nə ləzzət?

S a h i b. Bildim ki, başa düşməyəcəksən. Bunu anlamaq üçün gərək professional olasan.

C a n a. Bəs o nə səhvdi elə? Desəniz başa düşərəm?

S a h i b. Bilirsən, Cana xanım, mən bu evi pulsuz da ala bilərdim.

C a n a. Necə? Bizi öldürəcəkdin? Dörd adamı birdən?

S a h i b. Mən adamöldürənə oxşayıram?

C a n a. Vacib deyil ki, sən öldürəsən.

S a h i b. Möhkəm xasiyyətin var, xoşum gəldi.

C a n a. Axı demədin pulsuz bu evi necə ala bilərdin?

S a h i b. Çox asan! Alardım səni, ev də olardı mənim.

C a n a (*sarsılır*). Bunu necə başa düşək? Evlənmək təklif edirsən?

S a h i b. Elə çıxdı?

C a n a. Sən... sən... (*Sahibə şillə vurur.*)

S a h i b (*halını pozmur*). Nə ağır əlin var.

C a n a. Niçtojestvo!

S a h i b. Razıyam! Amma kütbeyin, profan, hərif, frayer desən daha düzgün olardı.

C a n a. İndi də gec deyil, səhvini düzəldə bilərsən, pulun da yarısını hələ verməmisən.

S a h i b. Sən razısan?

C a n a. Razıyam? Razı olmayıb nə edəcəyəm? Qarımış qız, seçməyə də şansı yox. Sən də gələcəyi qabağında, ya harasındasa olan biznesmen! Niyə razı olmayım?

S a h i b. Bəs onda bu şillə nəydi?

C a n a. Ona görə ki... niçtojestvosan. (*Gedir.*)

S a h i b. İndi gəl başa düş də bu qadınları.

Zəhra və Kamran gəlir. Kefləri pis deyil.

Z ə h r a (*Sahibi görüb xeyli məyus olur*). Ah, sizsiniz? Bilmirəm sizi görəndə sevinim, ya kədərlənim?

K a m r a n. Kədərlənmək niyə, Zara? O bizim ölkənin gələcəyidir, milli burjuaziyanın nümayəndəsi. Respublikanı biznesmenlər, sahibkarlar xilas edəcək, milləti onlar qurtaracaq səfalətdən. (*Sahiblə əl tutur.*) Necəsiz, bəy? İyimisiniz?

S a h i b. Təşəkkür! Pək iyi.

K a m r a n. Bizə sataşmaq da olar.

S a h i b. Bəs sənin rəqqasə xanımın hanı? Adı gərək ki, Cücəkdir.

K a m r a n. Xeyr, adı Böcəkdir.

Z ə h r a. Bundan sonra nə fərqi – Böcək, Cücək, lap Həşarat!

S a h i b. Nədi, yoxsa...

Z ə h r a. Elədir, qoşulub qaçıb cavan bir biznesmenə.

S a h i b. Hayıf! Yaxşı göbək atırdı.

Z ə h r a. Elə göbəyi ilə yol açdı özünə.

S a h i b. Mən də onu təzə açdığım restoranıma işə götürmək istəyirdim, həm ekzotikadır, həm də türk xalqlarının birləşməsində onun göbəyi önəmli bir şey olardı. Belə şeylər xalqları bir-birinə isinişdirir.

K a m r a n. Böcək mənim növbəti səhvim. O mənimlə amansız şaka yapdı. Ümumiyyətlə, mənim həyatım səhvlərdən və uğursuzluqlardan ibarət bir şey.

B ö c ə k (*çox həyəcanlı gəlir*). Kamran, Kamran, yavrum, əfv et məni! (*Kamranı qucaqlayıb ağlayır.*) Kamran, yavrum, əfv edərsin, lütvən əfv edərsin...

K a m r a n. İndi bu nə deməkdir, Böcək? Şuya nə ad qoyaq, nə yapaq?

B ö c ə k. Lütvən əfv edərsin, yavrum... Ayaqlarıya kapanıyorum... (*Ayaqlarına düşüb qucaqlayır.*)

Z ə h r a. Həyasızlığa bax!

K a m r a n. Qalx, Böcək! Nəhayət, biz tək deyilik, Cücək! Qalx, qalx... (*Əlindən çıxmağa təşəbbüs göstərir.*)

B ö c ə k. Yox, Kamran, yox! (*Ağlayır.*) Əfv etməsən kalxmaz!

K a m r a n. Bu kolay işmi, Böcək? (*Qızın əlindən çıxır. Böcək yerə sərili qalır.*) Sən məni təhqir edib xırsızın biriylə gedirsən, sonra da... Mənim işim yox, param yox, fəqət mənliyim, ləyaqətim var!

Z ə h r a. Düz deyir də! Çest, namus, ad-san, qeyrət para deyil ki, küləyə sovurasan? (*Böcəyi qaldırır.*) Qalx, Cücək, özü yıxılan ağlamaz.

B ö c ə k (*qalxır*). O vahşi idi, Kamran, vahşi... (*Hönkürür.*) O beni... Ben gediyorum, dəf olub da gediyorum, şu vahşi məmləkətdə kalmıyorum.

Z ə h r a. Düz deyir, getsə yaxşıdı, tem bolee camaat burdan ora gedir para qazanmağa, sən də durub gəlmisən bura. Vot zadaça! Günü şu gün yola düş kəndi vətəninə.

B ö c ə k. Ben kendimi öldürəcək, ben burda kalamaz.

K a m r a n. Bəli, getsən yaxşıdı, getsən iyi.

B ö c ə k. Benim param yok, Kamran, pulum yok, param yok... (*Ağlayır.*)

Z ə h r a. Kamran, nə qədər ki, fikrini dəyişməyib yol pulu ver, rədd olub getsin.

K a m r a n. Zara, axı... sən məni başa düşürsən, Zara?

Z ə h r a. Ah, da! Başa düşdüm... Bəs? Dayan Cananı çağırım... Boje, ben şimdi Canadan para istəyə bilərəm? Ona toçno sarvyotsya.

B ö c ə k (*sakitləşib*). O bana bilirsən nə təklif ediyordu, Kamran? (*Birdən hönkürür.*)

K a m r a n. Heç anlamam, Böcək. Axı o nə istəyə bilərdi ki, sən razı olmayasan? Sən ki...

B ö c ə k. Yox, Kamran, yox, ben belə şey bilməməm, ben... iştə gediyorum...

Z ə h r a. İlahi, bu nə cəzadır? İndi mən... Sahib bəy, lütvən mənim hesabıma, qalan paranın hesabına borc verin... Lütvən! Rica edirəm.

Hər üçü bayaqdan bir qıraqda dayanıb bu haqq-hesabı izləyən Sahibə ümidlə baxırlar.

S a h i b. Bu gün mənimki gətirmir... (*Əlini cibinə salır.*) Hələ siftə eləməmişəm. İki yüz bəsdir.

B ö c ə k. Üç yüz!

S a h i b. Bu lap ağ oldu.

Z ə h r a. Lütvən verin, tez verin getsin.

S a h i b. Yaxşı, bu da üç yüz. (*Verir.*) Zara xanım, sən mənə üç yüz otuz borclu.

Z ə h r a. Fərq eləməz.

K a m r a n. Niyə üç yüz otuz? Siz ki üç yüz verdiz?

S a h i b. Əslində mən daha yüksək faizlə verirəm, amma Zara xanımın xətrinə onca faizlə verdim.

Z ə h r a. Xətriniz xoş olsun.

B ö c ə k. Təşəkkür, əfəndim, öpücüklər. (*Sahibi qucaqlayıb öpür və vizit vərəqəsini verir.*) Şu benim adresim, gəlsəniz, əvəzini mütləka veriyorum. Tamam? (*Gedir.*)

Z ə h r a. Bərəkallah! Heç xudafizləşmədi.

S a h i b. Ta neyniyəcəkdi? Öpdü də.

K a m r a n. Zara, (*Sahibə.*) əfəndim, çox sağ olun, mən xəcalət çəkirəm.

S a h i b. Nə xəcalət, canım, əziyyət çəkmə.

Z ə h r a. Lap darıxdım! Getmək lazımdır, ta qala bilmirəm bu evdə. (*Sahibə.*) Bəlkə biz gedək, şeyləri sonra gətirərlər? Onsuz da burda mənlik iş yoxdur, hamısını Cana eləyəcək, mən tay da əl-ayağa dolaşıram. (*Çağırır.*) Cana!

S a h i b. Zara xanım, sənə sözüm var.

Z ə h r a. Ah, mən sizin "sən"ə heç cür alışa bilmədim. Hər "sən" deyəndə elə bilirəm mənə tikan batırırlar, diksinirəm.

S a h i b. Elə mənə də "siz" deyəndə üşüyürəm, birtəhər oluram, elə bilirəm mənə tikan yox, biz batırırlar: siz – biz! (*Gülür.*)

Zəhra və Kamran da həvəssiz gülürlər.

Z ə h r a. Bağışlayın, sözünüzü kəsdim, nəsə demək istəyirdiniz? (*Çağırır.*) Cana! (*Sahibə.*) Buyurun, sözünüzü deyin, eşidirəm.

C a n a (*gəlir*). Nədi, mama, çağırdın deyəsən?

Z ə h r a. Cana, ta mən qala bilmirəm burda, Kamranla getsəm, inciməzsən? Teatra dəyməliyik. Həm də papanı burdan necə çıxaracağınızı görmək istəmirəm.

K a m r a n. Gedək, Zara, gedək.

C a n a. Mama, tələsmə, vəziyyət bir az dəyişib.

Z ə h r a. Mən tələsirəm, Cana? Sən deyildin məni bu evdən qovan?

C a n a. Mama, Sahib bəyin sözü var sənə.

S a h i b. Mənim? Hə, axı bayaqdan demək istəyirəm.

Z ə h r a. Doğrudur, bayaqdan nəsə demək istəyir Sahib bəy, araya söz girir.

S a h i b. Zara xanım, bir az bundan əvvəl, Böcək gəlməmişdi hələ, biz Cana ilə belə qərara gəldik ki, evlənək.

Z ə h r a. Necə? Haçan? Böcəyin bura nə dəxli var? Cana, indi bu nə deməkdi?

C a n a. Mama, bu o deməkdi ki, Sahib bəy çox orijinal şəkildə mənə evlənmək təklif etdi.

Z ə h r a. Bəs sən? Sən nə dedin?

C a n a. Mən də geri qalmadım: ondan da orijinal şəkildə təklifi qəbul elədim.

Z ə h r a. Elə birdən? Düzdür, mən görürdüm ki, o sənə biganə deyil, hətta sevir. Bir ana kimi mən səni xəbərdar da etmişdim, amma bütün bunlar belə bir təklifi, nə qədər orijinal olsa da, qəbul eləməyə əsas vermir, özü də düşünüb-daşınmadan, mənimlə məsləhətləşmədən.

C a n a. Sahib bəy deyir ki, bizim həyat ritmlərimiz üst-üstə düşür. Bu bir-birimizi yaxşı anlamağa kömək eləyər.

Z ə h r a. Yəni evlənmək üçün bu kifayətdir?

S a h i b. Mən deyərdim ki, çoxdur.

M ə l ə k (*gəlir*). Cana, maşın gəldi... Zara, maşın gəldi, Zara, biz doğrudan da burdan köçürük, gedirik. (*Zəhranı qucaqlayıb ağlayır.*)

Z ə h r a. Dayan, Melya... (*Hövsələsizliklə onu özündən aralayır.*) Ağlama, deyəsən qalası oluruq.

M ə l ə k. Necə yəni qalırıq? Opyat otlojili? Bəs mən zülümlə bir elə şeyi qablaşdırmışam, yenə açıb tökəcəyəm? Siz məni öldürmək istəyirsiniz?

Z ə h r a. Qulaq as, Melya, Sahib bəylə Cana evlənir.

M ə l ə k. Necə yəni evlənir? Bu nə deməkdir? Ya niçevo ne ponimayu.

Z ə h r a. Eyyy... ona niçevo ne ponimayet! Başa düş, Melya, Sahib bəy prosit ruki Canı.

M ə l ə k. Ya niçevo ne ponimayu!

Z ə h r a. Əşi, üzmə də ürəyimi!

M ə l ə k. Sən mənim üstümə qışqırırsan, Zara?

Z ə h r a. Əvvəl qulaq as deyilən sözə, sonra at də replikavı.

M ə l ə k. Axı mən sənə ana olmuşam, Zara.

K a m r a n. Zara, bəs mənim işim nasıl olsun?

Z ə h r a. Nasıl dedin? Sən... hər şey yaxçı olacaq, Kamran bəy. Əsası odur ki, biz bu evi itirmirik, mən Yamasalda yaşamayacam. Yəni bu doğrudur, Cana? (*Cananı qucaqlayır.*) Bu zarafat deyil ki? Sən deməsən, öz dilindən eşitməsəm, inanmaram. Özün de ki, bu yuxu deyil, biz öz evimizdən heç yana getmirik, qalırıq burda.

C a n a. Elədir, mama! Sahib bəy məni də alır, səni də, bu evi də, Melyanı da, lap elə Kamran bəyi də.

M ə l ə k. Ya niçevo ne ponimayu, pri çyom tut Kamran? O ki kişi... erkəkdir.

C a n a. Varlığa nə darlıq?

M ə l ə k. Ya niçevo ne ponimayu, bukvalno niçevo!

S a h i b. Heç qorxub eləməyin, Cana mənim imkanlarımı çox şişirdir, mən olsa-olsa bircə arvadın öhdəsindən gələ bilərəm.

C a n a. Mama, bir şərti də var Sahib bəyin.

Z ə h r a. Nə şərt? Şərt nədi?

S a h i b. Onu sonra dəqiqləşdirərik, Cana xanım.

C a n a. Xeyr, şərti şumda kəsməliyik! Mama, Sahib bəy pulun qalanını verməyəcək, evlənsək. Ziyanın yarısından qayıdır.

Z ə h r a. Cana, sən nə danışırsan, heç utanmırsan? Bundan sonra ta nə pul? O indi bizim ailənin üzvü olur.

C a n a (*Sahibə*). Sevinirsənmi?

S a h i b (*qımışır*). Plan dəqiq işləyir.

M ə l ə k (*sevincək*). Deyəsən başa düşürəm, ponimayu... Cana, kak ya rada... (*Qucaqlayıb öpür.*) Axır ki, gözü açıldı kişilərin... (*Pıçıldayır.*) Necə qorxurdum sənə görə... Gedim Qüdrət Qurbanoviçi də sevindirim. (*Gedə-gedə.*) İlahi, necə sevinəcək... (*Gedir.*)

K a m r a n (*pərtdir*). Yaxşı, Zara, mən də gedim. Çox şadam ki, hər şey belə yaxşı qurtardı. Yarın görüşəriz. İstəsəz...

Z ə h r a. Gedirsən? Onda... Dayan görüm, axı sənin... Cana, bir məni başa sal görüm o Yamasaldakı evlər necə olur? Onlar necə, bizimdir, ya Sahib bəyin? Bəlkə onun da bir şərti var?

S a h i b. Zara xanım, özün dedin ki, bizim aramızda nə haqq-hesab? Mənim nəyim varsa hamısı həm də sizindir.

Z ə h r a. Başa düşmədim, necə yəni həm də?

S a h i b. Sizindir, lap sənindir.

Z ə h r a. Deməli, mən Kamran bəylə o Yamasaldakı evə köçə bilərəm də?

C a n a. Niyə, mama? Sən burda qalmaq istəmirsən?

Z ə h r a. Yox, Cana, mən burdan getməliyəm. Qoy bu ev sizin olsun, biz də... Ah, Kamran bəy...

K a m r a n. Zara, mənə görə həyatını mürəkkəbləşdirmə. Mən ora qayıdacam.

Z ə h r a. Xeyr! Sən heç yerə qayıtmayacaqsan! Biz səninlə Yamasala köçəcəyik. Orda, o uzaq yerdə heç kəs bizə mane olmayacaq. Biz yenidən birgə məşq edərik, oxuyarıq "Traviata"dan... (*Dəsmalı gözlərinə tutub Kamrana söykənir.*) Ah, başım hərləndi...

C a n a. Bəs Melya? O necə olsun, mama?

Z ə h r a. Melya qalır sizinlə. Sahib bəy onu da almaq istəmirdi? Bir də papaya kimsə qulluq eləməlidi?

S a h i b. Yaxşı təklifdi, qoca razı olsa.

M ə l ə k (*səsi gəlir*). Zara... Zara... (*Qaçaraq gəlir.*) Cana, Zara...

Z ə h r a. Qorxutma məni, Melya! Qorxutma...

M ə l ə k. Ya niçevo ne ponimayu, Zara... Bayaq gülürdü... (*Ağlayır.*)

Z ə h r a. Melya, sən nə danışırsan?.. (*Kabinetə tərəf getmək istəyir, amma dayanır.*) Bu ola bilməz...

K a m r a n. Əlbəttə olamaz bir şey. Melya şaka yapıyor.

Z ə h r a. Nə şaka, nə şaka, Kamran? Ürəyi dözmədi, davam gətirmədi.

C a n a. Heç gör yeridi? (*Tələsik gedir.*)

Z ə h r a. Yazıq papa, ürəyi davam gətirmədi. Mən onu yaşada bilmədim, Kamran. Evini əlindən aldım... (*Ağlayır.*)

M ə l ə k. Deyirdi ki, Ana burda ölüb, mən də burda öləcəm...

C a n a (*gəlir*). Keçinib.

Z ə h r a. Sən öldürdün onu, Cana... (*Hönkürüb Cananı qucaqlayır.*) Biz öldürdük, hamımız...

C a n a. Sakit ol, mama, sənin taxsırın yoxdu...

M ə l ə k (*oxşayır*). Tak krasivo umer, Zara... Heç rəngi də dəyişməyib, həmişəki Qüdrətdir ki, durub, krasivıy, solidnıy, amma ölüb, üzündə də təbəssüm... Mən söyləyirəm ki, Qüdrət Qurbanoviç, biz daha heç yana getmirik, bu ev indi də bizimdir, Cananın ərinindir, Sahibindir... Elə bunu demişdim, Zara, gözündə yaş, üzündə təbəssüm necə baxdı mənə... Ya niçevo ne ponimayu. Soruşuram ki, niyə gülürsüz, Qüdrət Qurbanoviç, cavab vermir, dili söz tutmur, elə gülümsəyir... Demə ölüb, mənim də xəbərim yox, elə hey sual verirəm, ya je niçevo ne ponimayu... (*Ağlayır.*)

Qapı açılır və Qüdrət əlində Ananın şəkli asta addımlarla gəlir.
Mələkdən başqa hamı onu görür. Üzlərdə təəccüb və qorxu var.
Mələk oxşamaqda davam eləyir.

M ə l ə k. Üzündə də mələk təbəssümü, elə hey gülümsəyir, lap uşaq, körpə təbəssümü ilə... Poçti detskaya ulıbka... Necə gözəl ölümdür... Ya niçevo ne ponimayu... (*Ağlayır.*)

Q ü d r ə t (*nə baş verdiyini bilmir və dayanıb Mələyə baxır*). Ona niçevo ne ponimayet! Kimi öldürüblər, Melya?

M ə l ə k (*diksinir və dönüb Qüdrəti görür*). Kak?! Qüdrət Qurbanoviç? Siz... siz... Qüdrət, sən məni dolamısan? Sən mənim ürəyimi partlatmaq istəyirsən? Sən... Ya niçevo ne ponimayu...

Q ü d r ə t. Nəyi başa düşmürsən, Melya xanım? Bəlkə siz də nəyisə başa düşmürsünüz? Qana bilmirsiniz ki, mafiozlar, burjuylar evimizi əlimizdən alırlar? Tək evimizi yox ey! Bütün ölkəni əlimizdən alıb çalıb çapırlar! Yəni bu belə çətin anlaşılan işdir? Sənin yetmiş yaşın var, Melya xanım, başa düşmürsən bu sadə zadı?

M ə l ə k (*pərtdir*). Qüdrət Qurbanoviç, qadının yaşını yadına salmaq ədəbsizlikdir!

Q ü d r ə t. Bilmirsən ki, tək, yiyəsiz, kimsəsiz qocaları öldürüb evinə sahib dururlar? Sevin ki, bu günə kimi bizim dördümüzü də bir gecədə öldürtməyib bu adaxlı! Hanı, maşın gəldimi? Yığışın! Yığış, Melya! Mən ta bu evdə qala bilmərəm, tez çıxmaq lazımdır burdan, bu ev ta mənim deyil, Cana xanımındır. Məni də məzur tutun, özgəsinin evində qala bilmərəm!

M ə l ə k. Ya niçevo ne ponimayu, Zara.

Q ü d r ə t. Yığış, Melya! Öz əcəlinlə ölmək istəyirsənsə, uzaqlaş bu evdən. (*Kamranı görür.*) Türk paşası da burdadır ki! Gəlin, gəlin, yaxşı leş var sökməyə, hamınız yığışın gəlin, o göbək atan gəlini də çağırın gəlsin. Sökün bizi, dağıdın, parçalayın, için qanımızı... (*Qəhqəhə çəkir.*) Ha-ha-ha...

K a m r a n. Qüdrət Qurbanoviç, siz bizi tahkir etmək için...

Z ə h r a. Kamran, papa bizi başa düşməyib... Papa, biz bu evi...

C a n a. Qüdrət Qurbanoviç, baba, bu ev indi həm də sənindir, bizimdir...

S a h i b. Mən qarışmıram bu işə...

M ə l ə k. Ya niçevo ne ponimayu...

Q ü d r ə t. Molçat!!! Bir kəlmə də desəniz, bu evi dağıdaram, od vurub yandırram... (*Səndirləyə-səndirləyə gedir və yarı yolda dayanıb hamını bircə-bircə süzür.*) Sevinin, sizin hələ sevinən, gülən, qaqqıldayan vaxtınızdı, amma çox çəkməz bu dərəbəylik, azadlıq, müstəqillik... Biz hələ ölməmişik, biz hələ qayıdacağıq. Bax onda... onda... ha-ha-ha... (*Qəhqəhələr hönkürtüyə də çevrilə bilər.*)

M ə l ə k. Hara getdiz, Qüdrət? Hara getdi o, Zara? Qüdrət Qurbanoviç, axı... Ya niçevo ne ponimayu... (*Qüdrətin dalınca gedir.*)

C a n a (*Sahibə*). Razı qaldın? (*Mələyin dalınca getmək istəyir, Sahib qolundan tutub saxlayır.*)

S a h i b. Dayan, sən qalmalısan...

Zəhra Kamranın qoluna girir, sıxılır ona. Bir anlıq yanaşı dayanmış
Cana ilə Sahibə baxır və Kamranla səhnənin önünə gəlir.

Z ə h r a. Biz də getməliyik, Kamran bəy, getməliyik. Ah... başım hərləndi.

Zəhra Kamrana söykənir. Məlum duet fonoqramma ilə səslənir və
getdikcə güclənir. Bir anlıq zaman və məkan anlayışını unudan
hər ikisi donub qalıb. Zəhra hərəkətə gəlir, özünü ələ alıb
Kamranın qoluna girir və Sahiblə Canaya yüngül bir
təzim eləyib gedirlər. Duet daha güclü səslənir.
Cana ilə Sahib boşalmış otağı birgə dolaşırlar,
amma onlar da sevincək deyillər.

PƏRDƏ

*aprel, 1996*

# KAMAL ABDULLA

(1950)

*Abdullayev Kamal Mehdi oğlu – dilçi, tənqidçi, ədəbiyyatşünas, dramaturq –1950-ci ildə Bakı şəhərində anadan olmuşdur. 190 saylı şəhər orta məktəbində ADU-nun filologiya fakültəsində (1968-1973) təhsil almışdır. Moskvada, EA-nın Dilçilik İnstitutunda "Dədə Qorqud" dastanlarının dilində "sintaktik paralelizm" mövzusunda namizədlik elmi dərəcəsi (1976), doktor (1984), professor (1985) adını almışdır. Azərbaycan EA Nəsimi adına Dilçilik İnstitutunun "Türk dillərinin müqayisəli tədqiqi" şöbəsində kiçik elmi işçi (1977-1980), böyük elmi işçi (1980-1982), şöbə müdiri (1982-1984) olmuşdur. Badminton Federasiyasının prezidenti, EA nəzdində Sovet Türkoloqları Komitəsinin (1987), "Vətən" cəmiyyəti idarə heyətinin (1987), "Azərbaycan" jurnalı idarə heyətinin (1988), Türk Dil Qurumunun fəxri həqiqi üzvüdür (2000). Azərbaycan Mədəniyyət fondu idarə heyətinin birinci müavini (1988-1989) sədridir (1989-cu ildən). Hazırda Bakı Dövlət Slavyan Universitetinin rektorudur (2000-ci ildən).*

*"Unutmağa kimsə yox" (1993), "Kim dedi ki, Simurğ quşu var imiş" (1993), "Bir, iki –bizimki" (1993), "Hərdən mənə mələk də deyirlər" (1994), "Ruh" (1996), "Pis oğlan" (1997), "Yağışlı gecələr" (1997), "Elə bil qorxa-qorxa" (1997) pyesləri teatr səhnələrində tamaşaya qoyulmuşdur.*

*Azərbaycan Yazıçılar Birliyinin üzvü (1983), Azərbaycan Əməkdar elm xadimi (1999), Ukrayna Beynəlxalq Kadr Akademiyasının akademiki (2000).*

## HƏRDƏN MƏNƏ MƏLƏK DƏ DEYİRLƏR

*Bir bölümlü xəyali oyun*

İŞTİRAK EDİRLƏR

Oğlan
Qadın
Kişi

Yavaş-yavaş dan sökülür. Qaranlıqdan əvvəlcə Oğlanla Qadının səsləri gəlir. Bu səslərin sahibi olan kölgələr böyük, amma yarpaqları tökülmüş və budaqlarının çoxu qurumuş, halsız-heysiz bir ağacın yanına gəlirlər. Bu ağac da, indi eşidəcəyimiz səslərin sahibləri də dan söküldükcə qaranlıqdan işığa doğru sıyrılıb çıxmağa başlayırlar. Biz onları yavaş-yavaş seçirik, görürük.

Q a d ı n. Bax belə. Gəl, gəl bura. Özün də sakit ol, sakit. Bax belə. Sakitləş. İndi qulaq as. Diqqətlə qulaq as. Eşidirsən? Həsrətindəydin ki bunun. Eşidirsən? Hə? Eşit. Eşidirsən...

Həzin bir musiqinin – insanın ürəyini yerindən oynadan, ona bu dünyada hər şeyin boş olduğunu deyən üzücü və həzin bir musiqinin çox yavaş, elə bil ki uzaqdan gələn səsləri eşidilir.

O ğ l a n. Bu nədi belə? Ömrümdə heç nəyi belə eşitməmişdim. Bu nədi, sən allah, səsdi bu? Amma mən bilən səs belə olmaz. Möcüzədi? Möcüzəyə-zada da inanmıram. Allah, bütün içimə yayılır. Yağ kimi, bal kimi süzülür içimə bu səs. Bu nədi, bu cür səs olar?! Necə də rəngbərəngdi... Sən isə elə hey deyirdin ki, səsin rəngi olmaz. Bax ora, bax, qırmızı, sarı... Mavi də var ki... Ağ... Göy qurşağının bütün rəngləri qarışıb bir-birinə. Necə də təmizdilər, necə də... bir-birinə hörmətlə davranırlar. Görürsən?..

Q a d ı n. Görürsən deməli.

O ğ l a n. Allah, Allah... Səsin də rəngi varmış. Varmış bu rəng, varmış. Mən görmürdüm. İndi gördüm. Nəhayət ki.

Q a d ı n. İndi gördün deməli. Gözəldi yəqin. Səni xoşbəxt eləməyə nə var ki.

O ğ l a n. Gördüm, gördüm. Həm inanıram, həm də yox. Amma görürəm. Görürəm. Allah, sən böyüksən. Bax! Sən də bax! Görürsən onları sən?

Q a d ı n. Belə də. Görürəm.

O ğ l a n. Bax, deməli görürsən. Artıq işıqlaşdı. Hər tərəf süd kimi ağardı. Ağın içindədi hamısı. Mən xoşbəxtəm. Sən görürsən. Sənə bunu... bunu göstərə bildim.

Artıq bütün ətraf tamamilə ağ işığa və bu ağ işığın içində rəqs edən müxtəlif rənglərə qərq olub. Musiqinin səsi də rənglərin rəqsinə uyğun get-gedə sürət yığır. Yalnız o ağac yenə qoca, büzüşmüş və tənhadır.

O ğ l a n. İnandın sən buna. Görürsən nələr var dünyada?! İnanmırdın. Nəhayət ki. Vallah, mən xoşbəxtəm.

Q a d ı n. Sən bilirsən, xoşbəxt olmaq necə olur?

O ğ l a n. Yox. Bilmirəm deyəsən. Bəlkə də bilirəm?! Yox, bilmirəm. Allah, Allah bu səsə bax, buna bax, buna... Məncə, əgər sən gördüyünü başqasına da göstərə bilirsənsə və onu da inandıra bilirsənsə, özünün, bax ancaq özünün inandığın bir şeyə. Bu deyil?

Q a d ı n. Belə az?..

O ğ l a n. Azdı bəyəm bu? Bütün dünya əvvəlindən axıracan bunun üstündə qurulmayıb?! "Belə az..."

Musiqi susur. Rənglərin rəqsi davam edir. Qadın ağacın altında bardaş qurub oturur. Ağacla o çox qəribə şəkildə birgələşirlər elə bil.

O ğ l a n. Sən daha nə istəyirsən?

Q a d ı n. Mən heç nə istəmirəm. İstədiyim bir şey var. Onu da bilirsən. Elə ona görə də...

O ğ l a n. Nə? Burax bunları da. Ora bax. Qaldır başını. Bax. Gör bir nələr var?!

Q a d ı n (*halsız*, *taqətsiz*). Görürsən də sən...

O ğ l a n (*coşqunluqla*). Hə, mən görürəm. Möcüzədi, möcüzə. Mən görürəm... Buna bax... Allah, Allah... (*Oğrun-oğrun Qadına baxaraq.*) Sən nə idi soruşurdun elə hey?.. Deyəsən yadıma düşür axı. Elədi ki var. Yavaş-yavaş... yadıma düşür.

Qadın elə bil dirçəlir. Oturduğu yerdən qalxıb Oğlanla üz-üzə durmaq istəyir. Oğlan özünü də ondan qaçırır, gözlərini də.

O ğ l a n. ...Dur, dayan. İndi xatırlayacağam. Xatırladım. Əlbəttə, xatırladım. (*Düz Qadının gözünün içinə dikir gözünü.*) O rəngi gördüm, yadıma düşdü. Elə niyə baxırsan? Sən özün istəyirdin ki, xatırlayım. Necə olub e unutmuşam. Qəribədi. Anlaya bilmirəm necə olub.(*Ağacın qabağına keçir sanki ona deyir.)* Mənim yaddaşım dəmirdi. Dəmir. (*Qadına dönür.*) Bunusa, qəribədi, unutmuşam. Əhəmiyyətsizdi yəqin ona görə. Boş şeydi.

Qadın yenə çökür ağacın dibinə. Oğlan yenə rəngləri axtarır. Elə bil öz-özünə danışır.

O ğ l a n. Qırmızıya bax, qırmızıya. Necə də acgözdü. Bütün rəngləri yeyəcək elə bil. Ay Allahın rəngi. Qoy o birilər də yaşasın, nəfəs alsın. Allah, Allah, təşəxxüsə bax, gəlişə bax...

Birdən Qadın oturduğu yerdən qalxıb getmək istəyir. Oğlan gözünün ucu ilə bunu görür.

O ğ l a n. Neynirsən sən? Hara? Elə niyə baxırsan? Yaxşı, yaxşı, xatırlayıram da. Görürsən ki, çalışıram. Xatırlayıram. Mən nə dedim ki. Xatırlayıram elə bil.

Q a d ı n. Bilirsən nə var? Xatırlamalısan əvvəl-axır. Əvvəl-axır xatırlamalısan. Xatırlamaya bilməzdin. Deyirsən xatırlayıram, şükür... (*Gəlib ağaca söykənir, amma adama elə gəlir ki, ağacla ikisi qucaqlaşıblar.*)

Yenə də həmin həzin musiqinin uzaq səsləri eşidilir.

O ğ l a n (*Qadının nə zamansa ona dediklərini yuxulu kimi xatırlayır*). "Həyatın bundan asılıdı... Həyatın bundan asılıdı. Xatırla. Xatırla". Bunları sən deyirdin. "Sən bir uşaq kimisən. Bir uşaq qəlbi var səndə. Toxunmağa da qorxuram. Sənin qəlbin yerlərə məxsus deyil. Sənin qəlbin göylərindir". Bunları sən demirdin? Bunları sən deyirdin. İndi hara gedirsən?

Qadın ağacdan ayrılır, Oğlana yaxınlaşır.

Q a d ı n. Bax, yanındayam. Heç hara getmirəm. Buraxmayacağam səni. Tək qalmayacaqsan. Mən də tək qalmayacağam. Ver əlini (*əlini tutur*), ver. Fikrini dağıtma. Topla fikrini...

Bir nəfər qapqara geyimdə əlində ağappaq bir əl ağacı gəlib
xəyal kimi onların qabağından keçir.

O ğ l a n. Necə unuda bilərmiş adam bunu? Bu... bu... Allah, sən böyüksən. (*Xəyal diksinən kimi olur.*) Böyüksən sən, Allah. Məndən köməyini əsirgəmə... (*Xəyal gedir, yox olur.*)

Q a d ı n. Noldu sənə? Fikrini dağıtma. Xatırla...

O ğ l a n. Necə idi o axşam?! Bir az o ağa oxşadı. Bir az da o qaraya. Mən isə qırmızının içindəydim. Bilirsən, əvvəl-əvvəl gizlənmişdim qırmızının içində.

Q a d ı n. Sonra? Sonra???

O ğ l a n. Sonra?! O ağla qara birləşdilər. Bizim üstümüzə gəldilər. Allah, Allah, necə də amansız idilər. Elə bil bizi udacaqdılar. Əridəcəkdilər. Hər şey də yox olacaqdı. Belə asan. Hər şey. Yox

olacaqdı. Olmadı. Soruş "niyə"? Çünki hər şeyi, hər şeyi o bir olan Allah görürdü. Görürdü. Görməyə bilməzdi. Onlar çox belə, bilirsən necə, böyük-böyük, saymazyana gəlirdilər?! Görürdü və imkan vermədi. Qoymadı.

Qadın. Gördü. Qoymadı. Qovdu onu. Lənətlədi onu. Avara-sərgərdan elədi onu bütün zamanların zaman boyunca. Amma necə də sevirdi onu.

Oğlan. Kim kimi sevirdi, kim kimi sevmirdi bilmirəm. Amma o gördü. Mən bilirəm ki, o gördü.

Qadın (*gedir qara xəyalın getdiyi yerə tərəf, durub bir xeyli baxır onun dalınca*). İndi də o bizi öz bildiyi kimi sevir. Kənardan baxana elə gəlir ki, o bizə nifrət edir. Amma bu da onun sevməyidi. O da bu cür bacarır sevməyi. (*Gəlir Oğlanın yanına.*)

Oğlan. Nəsə, bilirsən, mən də belə bir şey hiss elədim elə bil. Yoxsa bəlkə də... bəlkə də, yəqin ki, o rənglər aləmi qatacaqdı bir-birinə... Bilirsən necə gecə idi? Aləm. Qıpqırmızı. Yox, dayan, bəlkə qırmızı deyildi? Sarı idi bəlkə? Bax, ordakının, onun, bax, onun adı nədi? O idi. Əlbəttə, o idi. Mənə bax, onu görürsən?.. Deyirəm sənə o idi, o.

O həzin və uzaq musiqi ilə rənglərin rəqsi yenə də başlayır.
Oğlanın diqqəti yenə də onlardadı.

Oğlan. Şükür sənə, ilahi. Elə bil tapdım. Amma səsi, bax, indi necə də zərifləşib. Gözəl olub, bir az da gözəl olub elə bil. Doğrudan da sən gözəlsən. Səndəki hər şey gözəldi. Gözəl görünmək heç kimə bu qədər yaraşmamışdı. Vallah düz sözümdü, inanmırsan mənə?

Qadın (*elə bilir*, *Oğlan bütün bu sözləri ona deyir*). İnanıram. Niyə inanmayım ki? Sən axı mənə həmişə düzünü, lap düzünü demisən. İndi də deyəcəksən. Heç nə gizlətməyəcəksən. Elə deyil?!

Musiqi susur. Rənglər itir və Oğlan elə bil ayılır.

Oğlan (*Qadına*). Elədi. Mən heç bir zaman yalan danışmıram. Düz sözümdü, o gecənin heç bir səsi-zadı yox idi. Buna baxma. Bu başqadı Bunun səsi var. Eşidirdin?

Qadın. Eşidirdim, eşidirdim. Bəs o gecə niyə elə sakit idi?

Oğlan. Heç bir səs eşitmədim. Niyə? Bilmirəm. Bu gecə heç. Gecədi, səhərdi-nədi, tamam başqadı. O gecə heç bir səs eşitmədim.

Q a d ı n. İndi... yenə eşidirsən?

O ğ l a n. Min şükür. Min şükür. Xatırlayıram. Səssizlikdi əvvəl-əvvəl. Səssizliyi yaxşı xatırlayıram mən. Belə səssizliklə çiçəklər açır, çiçəklər...

Q a d ı n. Qəribədi. Səssizlikdi deyirsən?! Qəribədi. Çiçəklər açan səssizlik... Sonra? Bəs sonra nə oldu?

O ğ l a n. O gəldi...

Q a d ı n. O gəldi. Aha, o gəldi. Nəhayət, bu qədər vaxtdan sonra gəldi. Sonra nə oldu? De mənə. Sonra... Sonra... O gəldi... O gəldi... Allahın bəlası.

O ğ l a n (*qorxu içində*). O gəldi. Mənə çox diqqətlə baxdı. Əlində tutduğu ağ rəngi mənə uzatdı. Mən onunla danışmağa başladım. Onun əlində yumru və uzun, qəşəng bir ağ rəng vardı. Ağlığından göz qamaşırdı. Ağın da rəngi olarmış. Sənin əynindəki bu ağ paltardan da ağdı. Ağappaq idi, ağappaq...

Q a d ı n. Sakit ol. Sakit ol. Gəl burda otur. (*Aparır Oğlanı ağacın altında oturdur.*) Rəngi, bu ağ rəngi, deyirsən sənə uzatdı? Bəs sonra? Nə dedi sənə. İlk sözü nə oldu?

O ğ l a n. Dedi... (*Yadına salmağa çalışır.*)

Q a d ı n. Nə dedi???

O ğ l a n (*yadına salmağa çalışır*). Yadıma düşdü. Bax o rəngi görürsən?

Yenə də qırmızı və yaşıl rəngin savaşı başlayır.
Amma bu dəfə musiqini eşitmirik.

O ğ l a n. Görürsən? Girmək istəyir yaşılın qoynuna. Yaşıl da qoymur. Qoymayacaq. Bax ora, bax. Görmürsən?

Q a d ı n. Dedim ki sənə... Görürəm. Nə dedi o sənə?

O ğ l a n. Bilmirəm, nə dedi. Yadımda qalmayıb. Çıxıb gedib yadımdan. İtib. (*Qadına elə deyir ki, guya ağac eşitməsin.*) Bilirsən, mənim yaddaşım çox zəifdi. Dünən yediyim bu gün yadımdan çıxır. Qəribədi. Unutmuşam elə bil. Unutmuşam. Unutmasaydım da deməzdim. Sənə deməzdim. Bunu bir o bilir, bir mən. Necə deyə bilərəm?! Özü də sənə?!

Q a d ı n (*hirslə ağacın başına fırlana-fırlana*). Niyə tərsliyin tutdu yenə sənin? Axı danışmışdıq. Mənə hər şeyi açıb olduğu kimi deyəcəkdin?! De. Danış. (*Oğlanın önündə durur.*) Bilirsən, nə var?! Desən addım-addım geri gedə biləcəyik. Başa düş. Xilasın budu

sənin. Budu. (*Yenə ağacın başına fırlanır.*) Xilas eləmək istəyirəm mən səni. Xilas... eləmək... istəyirəm... Öləcəksən, məhv olacaqsan, batacaqsan. Niyə tərslik edirsən? Xatırla. Burax bu tərsliyi. Kömək elə. Qurtarmaq istəyirəm mən səni. Başa düşürsən? Qurtarmaq istəyirəm. (*Yenə Oğlanın düz qabağında mıxlanır yerə.*) Adamsan sən, insansan. Xatırla. Xatırla. Qurtulacaqsan. Xilas olacaqsan. Sən də. Mən də...

Oğlan yavaş-yavaş durur ayağa. Rənglər tərəfə baxır, heç nə görmür. Günahkar kimi Qadına tərəf baxa bilmir.

Xatırlamasan, mənə deməsən olub-keçəni, bütün düşündüklərini, bütün bildiklərini, bütün uydurduqlarını, bütün yalan və həqiqətlərini mənə deməsən, inan, inan, mən heç bir şey edə bilməyəcəyəm. Addım-addım geri getməsək, ömür boyu burda yerimizdə sayacağıq.

Qadın Oğlana yanaşır. Elə qucaqlaşırlar ki, elə bil kimsə onları bir-birindən ayırmaq istəyir. Qara xəyal dalğın-dalğın gəlib onlara baxır və yenə də əriyib gedir.

Aç ürəyini mənə. Ver, ver mənə ürəyini. Addım-addım aç onu. Nəyin var, nəyin yoxdu – de mənə. Deməsən bax sən də o rənglərin içinə girib itəcəksən. Yeyəcək, udacaq səni (*aralanırlar*) o... qırmızı. Mən... səni qurtarmaq istəyirəm.

O ğ l a n. Udacaq məni?! Səsim qalacaq?

Q a d ı n. Heç nəyin qalmayacaq.

O ğ l a n. Yox, elə olmur. Bəs onların səsi niyə gəlir. Rəngləri deyirəm.

Q a d ı n (*ağacın yanına çəkilir*, *oturur ağacın dibində*). Bilirsən nə var?! Yaxşı. Sən məni məcbur elədin. Deməyəcəkdim. Qulaq as. Bilmək istəyirsən deməli. Bil. Onların səsini ancaq sən eşidirsən. Ancaq sən!

Ağac elə bil birdən-birə heydən düşmüş qamətiylə silkələnib canlanmaq istəyir. Oğlan təəccüb və qorxu içindədi.

Ancaq sən... Səndən başqa rənglərin səsini eşidən yoxdu. Çünki səslər özləri yoxdular. Səsin rəngi olmur. Rəngin də səsi olmur. Nəhayət bil bunu. Bil. Bil...

Ağac birdən-birə canlandığı kimi birdən-birə də donub qalır. Sükut.
Oğlan elə bil olmayan səsləri dinləməyə başlayır.
Səslər onu sıxır, buraxmır, çevirir, səslər ona layla deyir.
Oğlan onları elə aydın eşidir ki...

Oğlan. Sən... sən eşitmirsən?

Qadın. Mən sənin səsini eşitmək istəyirəm. Anlayırsan məni? Sənin. Ancaq sənin səsini. O gecə sənə səssizlikdən sonra nə dedilər, danış mənə. Yoruldum, yordun məni indi də sən. Uf, necə yoruldum.

Oğlan heysiz, çapaladığı yerdə düşüb qalır. Qadın Oğlanın yanına gəlir.
Nəvazişlə onun yanında oturur.

Yorulmuşam onun dağıtdıqlarını düzəltməkdən. Hər şeyi yenə də əvvəlki, ilkin halına gətirməkdən. Yorulmuşam. İndi gec-tez gəlir. Amma gəlirsə ildırım kimi gəlir (*ildırım çaxır*, *hər ikisi diksinir*). İldırım kimi gəlir. Bütün iliyinəcən olan acığını, hirsini çıxır. Bütün kinini tökür. Yığıb-yığışdırmaq çətin olur sonra. O da belə sevir, neyləyə bilər?!

Oğlan (*elə bil ayılıb*). Sən kimdən danışırsan?

Qadın. Sənin yanına gəlib və səni, bax bu hala salandan...

Oğlan. Məni bu hala salandan? O mənə neylədi ki?

Qadın. O sənə neyləmədi ki? Söyləyə bilərmisən, niyə sənin yanına gəldi. Hər adamın yanına gəlmir o. Axtarır, axtarır adamını, zaman-zaman izləyir, səndən xəbərsiz səni beş barmağı kimi öyrənir, seçəndə bilir ki, kimi seçir.

Qadın bu sözləri dedikcə qara xəyal gəlib Oğlana diqqətlə baxır,
baxır və görünməz şəkildə yenə çıxıb gedir. Oğlan sanki nəsə hiss edir,
titrəməyə başlayır.

Oğlan. Kimdi o?

Qadın. Tələsmə. Biləcəksən, özün biləcəksən onun kim olduğunu. Avara-sərgərdan... İndi insafa gəl, gəl, yadına salmağa çalış. Bax, o gəldi. Əlində də ağ rəng vardı, hə, ağ rəng? Sənə uzatdı o ağ rəngi və... Və! Və...

Musiqinin ağır səsi altında Oğlan elə bil dirçəlməyə və dirçəldikcə də
yenə də hansısa başqa bir aləmə getməyə başlayır.

O ğ l a n. Sən doğrudan eşitmirsən? İnana bilmirəm buna. Mən elə bilirdim eşidirsən. Yaxşı, yaxşı. Əlində tutduğu ağ rəngi mənə uzatdı və... diqqətlə mənə baxdı... Elə bil kiməsə oxşadırdı məni... Mənə yazığı gəlirdi... Diqqətlə mənə baxdı...

Musiqi yavaş-yavaş susur. Ətraf, bir Oğlandan başqa, bir an əvvəl işıqlanmış kimi indi də qaranlığa qərq olmağa başlayır. Bircə Oğlanın üstündə zəif bir qırmızı titrəməkdə davam edir. Tam qaranlıq bərqərar olanda dib tərəfdən ağ, ağappaq bir əlağacı görünür. Bu əlağacı yavaş-yavaş gəlir durur Oğlanın önündə və Kişi danışdıqca cürbəcür vəziyyətlər alır. Musiqi tam susandan sonra qaranlıqdan əvvəlcə anlaşılmaz səslər gəlir. Bu səslər susunca...

K i ş i. Bəli, deyəsən başlamaq olar (*Oğlana*). Məni görürsənmi? Söylə, sən məni görürsənmi? Fikirləş, sonra de.

O ğ l a n. Siz kimsiniz?

K i ş i. Aha. Görürsən.

O ğ l a n. Siz kimsiniz???

K i ş i. Suala sualla cavab verirsən? Suala sualla cavab vermək, belə deyirlər ki, ağıllılıq əlamətidi. Sən özün özünü ağıllı sayırsan, ya həqiqətən ağıllısan?

O ğ l a n. Nə bilim?! Elə şey soruşursunuz ki. Bu nə sorğu-sualdı? Kimsiniz siz?

K i ş i. Tutalım ki, mən kiməm – bunu mən dedim, sən də bunu bildin...

Kişinin üstünə işıq düşür və titrəyib sönür. Bu bir ildırım çaxmasına bənzəyir. Elə bil uzaqda yağış da yağmağa başlayır.

Bunu biləndən sonra həyatın necə, dəyişəcək?! Hərdən mənə... (*sözünü udur*) "Kimsiniz siz"? (*Oğlanı yamsılayır.*) Filankəs. Sən məni mən istəməsəm, yenə də tanımayacaqsan axı. Onda necə olsun? Özün tapsan – bax bu başqa məsələ. Amma əvvəlcə yaxşı-yaxşı fikirləş.

O ğ l a n. Bu nədi belə? Siz oyun oynayırsınız mənimlə? Məndən nə istəyirsiniz?

K i ş i. Sən şairsən, eləmi? Gördün, mən səni tanıyıram. Deyəsən nəsə yazırdın?! Alınır bir şey? Kim indi şeir yazır, hə?

Oğlan yavaş-yavaş ağacın olduğu yerə gəlir. Bu ağac nə oldu – yerə çəkildi, göyə uçdu?

Bunu soruşursan, bu mənim həyat ağacımdı. Tələsmə. Hər şeyi bircə-bircə anladacağam sənə. Anladacağam. Mənimlə, mənsiz hər şeyi biləcəksən. (*Yenə ildırım çaxır və Kişi bir anlıq işıqlanır.*) Artıq sən də bu əbədi mübahisənin bir hissəsinə çevrildin. Anlayacaqsan. Hər şeyi anlayacaqsan. Anlamağa başladın artıq. Yaxşı, nə axtarırsan orda? Sualıma cavab niyə vermirsən? Denən görüm, kim indi şeir yazır?

O ğ l a n (*əlağacına tərəf dönür*). Bunu yaxşı dediniz: "Kim indi şeir yazır?!" Yəqin mənim kimi ağılsızlar yazır. Bu həyat ağacı deyirsiniz, nə deyirsiniz, nəylə belə rəngləyiblər onu? Fil sümüyüdü elə bil. Ağappaq, süd kimi. Niyə belə ağdı bu? Heç həkim paltarı da belə olmur.

K i ş i. Rənglərin sirrini anlamağa çalışırsan deyəsən, oğlum.

O ğ l a n. Bu nə cür danışmaqdı? Mənə "oğlum" niyə deyirsiniz?

K i ş i. Bundan bir şey dəyişdi? "Oğlum" bəyəm pis sözdü?

O ğ l a n. Yox, yəqin ki. Amma yenə olsun. Mənim adım var.

K i ş i. Mənim də adım var. Mənim adım yoxdu bəyəm? (*İldırım yenə də çaxıb Kişini bir anlığa işığa bürüyür.*) Hərdən mənə... (*Fikrini dəyişir.*) Hər şeyin adı var. Amma gəl adları bir kənara qoyaq. Kim kimi nə cür adlandırıb? Bunun bizim üçün heç bir mənası yoxdur.

O ğ l a n. Yox, var. Hər şeyin adını qoyan var. Bizə bunu deyən, bizi öyrədən var. Bunun mənası yoxdursa, hər şey qarışır bir-birinə. Bunu uşaq da bilir. Var mənası, var.

K i ş i. Yaxşı, yaxşı. Sən öz fikrində qal. Yox, dayan, bura bax. Çağır, bax, bu ətrafında nə görsən, çağır adıyla. Adları ki, bilirsən. Səni öyrədən vardı axı. Adları dedin, sənə öyrədiblər. Çağır. Cavab verərlər görüm sənə?! Çağır da.

O ğ l a n. Necə yəni?! Bilmirsiniz ki, onlar məni eşitmirlər?! Daş da, divar da adam səsi eşidər?!

K i ş i (*acı-acı*). Oğlum, oğlum... Bilirsən, nə var?! İndi mən sənə bir şey deyəcəyəm. Diksinmə. Daş da, divar da, dağ da, su da... hər şeydən əvvəl rəngdilər. Rənglərin içinə giriblər. Rənglərin içində gizləniblər. Rənglərsə eşidir. Bunu sənə öyrətməyiblər?! İstədikləri zaman bunların hər biri, əgər istəsələr, cavab da verirlər. Bunu sən indiyədək bilməliydin, şair bala. Bunu sənə öyrətməliydilər. O öyrətməliydi. (*İldırım yenə də çaxır və Kişi elə bil üstünə şığıyan işıqdan qorxan kimi olur.*) Nə ağır dildi bu dil...

O ğ l a n. Dayan, dayan, onu saxla. Necə yəni rənglər eşidir?! Yəni demək istəyirsiniz...

K i ş i. Demək istəyirəm, sənin bu səslədiyin hər şey səni eşidir. Sənə... cavab vermirlər. Vermirlər.

O ğ l a n (*lağla*). Qorxurlar?

K i ş i (*Oğlan qəribə şəkildə baxır*). Bəlkə tənbəllik edirlər, nə deyim?! Bəlkə səni cavaba layiq bilmirlər. Bəlkə də... Kimsə onlara qadağan edib sənə cavab verməyi? Amma bəlkə də...

O ğ l a n. Hə? Bəlkə də nə? Daha nə?

K i ş i. Heç.

O ğ l a n. Başladınızsa qurtarın sözünüzü. Belə bir şey deyiblər: “Mən sizə nifrət edirəm. Amma mən həyatımı verərəm ki, siz sözlərinizi sərbəst şəkildə ifadə edə biləsiniz”.

K i ş i (*gülür*). Ha-ha-ha. Çox sağ ol. Ehtiyacım olmasa da çox sağ ol. Deyirsən qurtarım sözümü?! Nə deyim mən sən?! Bəlkə də, deyirəm, sən onları yaxşı çağırmırsan hə?! Milyon illərdi onları çağırdılar, çağırdılar, üzlərini onlara tutub nələr demədilər sizinkilər?! (*Birdən süni bir ziddiyyətlə.*) Hələ ki bir cavab gəlməyib. Yaxın gələcəkdə də gözlənilmir. (*Gülür.*) Ha-ha-ha. Fikir vermə, mən çox hirslənəndə gülürəm.

O ğ l a n. Tələsməyin ələ salmağa. Gülməyə, deyirəm, tələsməyin. Düzdü, milyon il hər yerindən durub sözü sözün yanına gətirən dağ deyir, daş deyir, nə bilim, çay deyir, amma... sözdən sözə fərq var. Sözlər eyni olsa da. Fərq var. Var.

K i ş i. Bəs necə?! Mən səninlə razı. Bax, hətta sənin də onlardan, o biri çağıranlardan fərqin var. Kiçik də olsa fərqin var. Bəlkə də böyük fərqdi. Hiss etmirsən özün?! Anlamırsan?!

O ğ l a n. Yox, nədi o fərq, bilmək olar?!

K i ş i. Niyə olmur, olar. Bilirsən nə var, oğlum?! Bu məsələnin bircə izahı var. O milyon illərdi sözü sözün yanına gətirib qoyan və dağı, daşı çağıranların yanına mən gəlməmişdim. (*Yenə də bir anlıq ildırım çaxır, Kişinin üstünə işıq düşüb tez də sönür.*) Mən. Gəlməmişdim. Gəlməmişdim...

O ğ l a n (*qorxa-qorxa*). Sən kimsən axı?!

K i ş i (*yorğun-yorğun*). Hələ də tanımadın məni, oğlum?! Hərdən mənə...

Yağışın səsi kəsilir. Ətraf birdən-birə işığa bürünür. Yenə də əvvəlki kimi ağac və onun dibində oturmuş qadın görünür.

O ğ l a n. Unutdum. Sonra o yenə nə dedisə unutdum. Mən də ona nə cavab verdimsə... hamısını unutdum.

Q a d ı n (*yerindən durub dörd tərəfə diqqətlə baxır və Oğlanın yanına gəlir*). Həyəcanlanma. Hər şeyin öz vaxtı var. Yadına salacaqsan. Bir ora bax. (*Oğlana uzaqdan nəsə göstərir.*) Bir gör o qırmızı nə oyundan çıxır?! Eşidirsən?

O ğ l a n. Yox, heç nə eşitmirəm. Hara, hara baxım? Nə var ki orda?!

Həzin bir musiqi başlayır. Yenə də rənglər, bu dəfə elə bil yorğun-yorğun özlərini Oğlana göstərirlər.

Hə, eşitdim. Allah, Allah, o niyə elə eləyir?! Vay səni, Allahın rəngi. Necə də gözəldi. Necə də gözəl səsi var. Amma yorulub elə bil. Eşidirsən? Sən eşitmirsən də...

Q a d ı n (*Oğlanın göstərdiyi rəngləri görmür*, *eşitdiyi səsləri eşitmir*). Sonra nə dedi o? Yadına sal yavaş-yavaş. Xatırla. Özü nə təhər idi? Necəydi halı? Yorğun olmalıydı yəqin ki. Yorğun idimi? Ya yenə də... avara-sərgərdan... Üzündə min illərin ağırlığı. Qəlb oğrusudu o, qəlb oğrusu. Adi, miskin qəlb oğrusu. Niyə susdun? Noldu sənə?

Oğlan şaşqın Qadına dönür. Musiqi də susur, rənglər də gözdən itir.

Amma səni ona verməyəcəyəm. Səni burdan qurtaracağam. Qaytaracağam sənə sənin itirdiyini. Rənglərin səsindən qurtaracağam səni. Eşitməyəcəksən bir də bu səsləri.

Səslər də, rənglər də onsuz da yoxdurlar.

Rəngləri görərlər, səslərini eşitməzlər. Rənglərin cavabı olmur. Sonra, sonra nə dedi o Allahın qəzəbinə gəlmiş?!

Oğlan görünməyən rəngləri, eşidilməyən səsləri axtarır, dörd bir yana baxır, tapa bilmir.

O ğ l a n (*kor-peşman Qadına tərəf dönür*). Sən allah, qıyma o səslərə. Nolar qıyma. Eşitmirsən, eşitmə, amma qıyma onlara. Bilirsən necə gözəldilər onlar?! Qıyma da onlara. Allahın varsa qıyma. (*Qadını uşaq kimi aldatmağa çalışır.*) Sən onlara qıymazsan, bilirəm.

Q a d ı n. Onda danış bircə-bircə nə deyirdilər o gecə sənə, nə vədlər verirdilər, haralara aparmaq istəyirdilər səni... Hamısını danış. Addım-addım geriyə. Addım-addım danış.

O ğ l a n. Yaxşı, yaxşı, tələsdirmə məni. Bu saat, bu saat...

Q a d ı n. Danış, xilasın budu, danış...

Yenə ətraf qaranlığa qərq olur. Təkcə Oğlanın üstündə qırmızı işıq titrəyir və yenə də Oğlanla üzbəüz min cür oyundan çıxan ağappaq, dümağ əlağacı peyda olur.

O ğ l a n. Necə yəni onların yanına gəlməmişdiniz?! Mən heç nə başa düşə bilmirəm.

K i ş i. Yaxşı, qurtaraq bu tapmaca oyunu. Mən gəlmişəm bura səninlə, siz necə deyirsiniz, razılaşmağa. Yəni müqavilə imzalayacağıq. Şübhəsiz, şübhəsiz, əgər sən buna razı olsan, razılığa gəlsək əgər səninlə. Şərtlər elə də çətin deyil.

O ğ l a n. Siz kimsiniz? Bu sualıma cavab almadan mən sizinlə heç danışmaq da istəmirəm. Boşuna vaxt itirirsiniz. Boşuna! Mənim belə şeylər xoşuma gəlmir.

K i ş i. Yaxşı, yaxşı, sakit ol, əsəbiləşmə. Əsəblərini qoru, şeirzad yazanda lazımın olar. Mən... bax özünü ələ al (*uzaqdan həzin musiqi başlayır və getdikcə səsi də güclənir*, *özü də kəskinləşir*), heç özün də bilmirsən ki, bəxtin necə gətirib sənin, ay xatakar, şahlıq quşu kimi bir şeydi qondu başına. Mən... sizin bu dünya yaranandan bəri illərdən illərə, əsrlərdən əsrlərə gəzib əlimdən gələn köməyi ehtiyacı olanlardan əsirgəməyin bir... necə deyirsiniz – varlığam. Bilirsən nə var?! Çox deyirsən: kimsən sən, kimsən sən... Mən... hərdən mənə mələk də deyirlər.

İldırım çaxır, işığı hər yeri bürüyür, amma bu işıq sönmür və biz Kişini – qara, qapqara paltar geymiş Kişini, artıq onun əlində sadiq köpək kimi ona qısılan ağ, ağappaq əlağacını və... birdən-birə gözlərimiz önündə canlanan, cavanlaşan, yarpaqlaşan, gözəlləşən, qollu-budaqlı ağacı görürük. Musiqinin təntənəsi davam edir. Oğlan bütün bunlara qarşı elə bil ki laqeyddir.

O ğ l a n. "Əlimdən gələn köməyi ehtiyacı olanlardan əsirgəmirəm?!" Mələk?! Yəni... Aha... Anladım. Mən səni anladım. İndi, indi başa düşdüm. Artıq söz-filan lazım deyil. Əlbəttə. Yəni sən doğrudan da vardın?! Allah...

K i ş i (*həyəcanlanır*). Dayan, nə edirsən? Əlbəttə, vardım. Yaxşı ki, anladın bunu.

O ğ l a n. Və sən... məni seçdin?! Mənim yanıma gəldin?! Bu boyda dünyada mən?! Niyə, niyə mən? Niyə məni seçdin? Son dəfə sənin gəlişin...

K i ş i. Tarixi vərəqləmə, oğlum. Bir şey deməyəcək. Ən böyük dərs, bax, indiki andı, indi yaşadığın, yediyin, içdiyin, ləzzət aldığın nə varsa odu. Tarixdə eşələnmə. Nə keçmişdəki tarixdə eşələn, nə də bundan sonrakı, gələcəkdəki tarixdə. İnanma vədlərə. Sənə öyrədilən tarix tarix deyil, nağıldı. Keçmişin və gələcəyin nağılı. Tarix bax bu andı. Əsil tarix. Yükü də böyükdü. Sənə verəcəyi də. Sənə nə var son dəfə hansı uzaq bir zamandasa nə oldu, nə olmadı. Son dəfə hər dəfə son dəfədi. İndi də elə bir yandan baxanda... son dəfə kimi bir şeydir.

O ğ l a n (*yaşıllaşıb gözəlləşən ağacı elə bil birinci dəfə görür*). Sən məndən nə istəyirsən? Mən səninlə heç bir saziş bağlayan deyiləm. Niyə axı mən! Niyə görə məni seçdin?

K i ş i. Bilirsən nə var?! Bu sualın sənin üçün çox qəribə bir cavabı var. Qəribədi ona görə ki, o birilər heç nə istəmirdilər. Qəribədi doğrudan da. Ona görə yanına getmədiklərimin yanına getmədim. Sən nə istəyirdin. Sən bir tərəfdən həm onlar kimi şair idin, həm də o biri tərəfdən – istəyirdin. Bu iki şey səndə olan kimi heç kimdə bu qədər gözəl atılmamışdı bir-birinin qucağına. Hər ikisi özünün ən gözəl, ən mükəmməl dərəcəsində. Onlar isə, qəribədi, heç bir şey istəmirdilər. Belə baxanda onlar da sənin kimi sənətkar idilər, amma heç biri sənin kimi istəyə bilmədi. İstəyəni də çox az, çox az bir şey... Hərdən – məsələn, yaşamaq...

O ğ l a n. Mən də... elə bir şey istəmədim axı. Nə istəməkdən danışırsan sən?

K i ş i. İndi açaq sandığı, tökək pambığı? Gözəl diliniz var – sandığın içində pambıq... Guya sandığın içində başqa şeylər, gözəl-gözəl şeylər ola bilməzmiş. İndi bir-bir sayım sənə ürəyinə salıb istədiklərini, yoxsa təsvir eləyim o böyük və möhtəşəm xiffətini?! Sən istəyən kimi çətin ki, bir şey istəmək mümkün olsun.

O ğ l a n (*Kişinin baxışlarından gizlənmək istəyir*, *amma ona doğru uzanmış əlağacı onun elə bil ki*, *hər bir hərəkətini tənzim edir*). Hər adam nəsə istəyir. Arzu edir, xəyala dalır, həsrət çəkir. Mən... şairəm. Mənim... haqqım var... Deyirsən, onlar heç bir şey istəmirdilər. İnanmıram. Hər bir adam nəsə istəyir.

K i ş i (*əlağacı ilə ağacın budaqlarına toxunur*). Çıxar yadından. Unut. İstəmisən, istəmisən də. Günah deyil ki. Bax, mən də gəlmişəm, sənin bütün istəklərini yerinə yetirim. Sənə bu dünyanı verim. Sənin buna haqqın var. Sən buna layiqsən. Başa düş bunu.

O ğ l a n. Nə təhər, nə təhər? Bütün istəklərimi?!

Kişi ağacı rahat buraxır, diqqətlə Oğlana baxır.

K i ş i. Bütün istəklərini. Hamısını. Bir anın içində.

O ğ l a n (*qorxa-qorxa əlini əlağacına vurmaq istəyir*). Bir anın içində...

K i ş i (*əlağacını ondan gizləyir*). Bir arzun da qalmayacaq. Hamısı yerinə yetəcək. Təki sən istə.

O ğ l a n. Bütün arzularım...

K i ş i. Bütün arzuların. Ağlından ən keçibsə, nəyə və kimə bu dünyada əlin çatmayıbsa, nəyin və kimin dalınca gözün qalıbsa, hər şey, hər şey, eşidirsən, hər şey bir anın içində sənin olacaq. Heç bir arzun, heç bir kamın quru yerdə qalmayacaq. Sən elə gözəl istəyirdin ki, bütün bunları. İstəyirsən təcrübə edək? (*Əlindəki əlağacını hazır vəziyyətə gətirir – qaldırır.*)

O ğ l a n. Bilmirəm. Bilmirəm. Vaxt lazımdı. Çətindi. Ağlıma bir şey gəlmir. Yuxudu yəqin bunlar. Yəni səni deyirəm, yəqin yuxuma girmisən. Əvvəllər mən yuxular görərdim – rəngli...

K i ş i. Yox, yox, bunları hələ qoy bir tərəfə. Beynini yuxularla doldurma. Mənə bax, oğlum, mən dediyim sözün sahibiyəm. Görəcəksən. Darıxma. İnanacaqsan mənə. Mənə inanacaqsan. İndi isə... bilirsən nə var?! İndi isə gələk sənə.

O ğ l a n (*təəccüblə*). Mənə?

K i ş i. Bəs necə? Bütün bunların əvəzində sən də gərək mən fağır üçün... kiçik, kiçicik bir iş görəsən. Su içmək kimi bir şey.

O ğ l a n. Nədi o su içmək kimi olan şey?

K i ş i. Heç. Sənə qorxuram, bir az çətin görünə əvvəl-əvvəl. Amma əslində çətin bir şey deyil.

O ğ l a n. Sən ki... deyirdin, mələksən. Sənin nəyə ehtiyacın ola bilər?! Sənə nə lazımdı? Nə istəyirsən? Bayaqdan hər şeyi mənə verirdin...

K i ş i (*son sözlərə məhəl qoymur*). Mənim də sənə ehtiyacım var, oğlum.

O ğ l a n. Nə ehtiyacdı o?

K i ş i. Ehtiyacım sənin inamına, sənin... məhəbbətinədi.

O ğ l a n. Anlamadım.

K i ş i. Burda nə var ki anlamayasan. Sən məni inandırmalısan ki, mənə inanmısan. Məni... sevmisən...

O ğ l a n. İnanmışam... sevmişəm... Nəyinə gərəkdi bu?

K i ş i. Eh, oğlum, nəyimə gərəkdi soruşursan. Yaranışdan üzü bu yana hər kəs kiməsə nəyisə sübut edə-edə yaşayır, mövcud olur. (*Tərəddüd içində var-gəl edir.*) Mən də sübut eləməliyəm. Sübut eləməliyəm ki, məni də sevən var, mənə də inanan var... Kömək elə mənə.

O ğ l a n. Necə? Mən neyləyə bilərəm ki? Nə etməliyəm mən?

K i ş i (*Oğlanla üzbəüz durur*). Sadə bir şey. Çox sadə. Ən çox sevdiyin bir şeydən əl çəkməlisən.

O gözəl, o yaşıl ağacdan elə bil ah çıxır. Bütün gövdəsiylə titrəyir.
Oğlan ağaca yanaşır. Ona sarılmaq, onu sakitləşdirmək istəyir deyəsən.

O ğ l a n. Nədən? Ən çox sevdiyim şeydən? Mən bilmirəm nədi o. Sən bilirsən?

K i ş i (*qüssəli-qüssəli*). Mən bilirəm.

O ğ l a n (*Kişiyə dönür*). Nədi sənin bildiyin? Nəyi bilirsən sən? Nəyi?

K i ş i. Gərək... Bilirsən nə var? Gərək... yazı-pozunu götürüb qoyasan bir tərəfə.

O ğ l a n. Necə, necə?

K i ş i (*qətiyyətlə*). Bir misra da gərək bundan sonra yazmayasan. Bir misra da... Cümlə – olar.

O ğ l a n. Nə? Yəni hər şey təzədən? Hər şey təzədən deməli? Bütün elədiklərinin əvəzində qəlbimi verməliyəm sənə? Ehtiyacın buymuş?..

K i ş i. Hər şey təzədən?! Sən deyə bilərsənmi sənin qəlbin bundan sonra nəyinə gərək olacaq?!

O ğ l a n. Doğrudan da bütün istədiklərim yerinə yetəndən sonra mən qəlbi neyləyirəm?! Hər şey dedin: pul, sərvət, mənsəb, mövqe...

K i ş i (*hövsələsiz*). Hər şey. Razısan?

O ğ l a n. Onsuz da günlərin bir günü istədiklərim canlanıb mənim olduğunu görəndə yazı-pozu yada düşər?! (*Ağaca yanaşır.*) Belə-

belə işlər... (*Kişiyə.*) Maraqlıdı, sən onsuz da buna nail olacaqdın. Qəlbim onsuz da səninkiydi. Niyə şərt qoyursan bunu?

K i ş i. Əsas məsələ də elə budu. Gərək özün əvvəlcədən buna razılıq verəsən. Düşünüb-daşınıb...

O ğ l a n (*ağaca dönür*). Belə de. Birdən razı olmasam?..

K i ş i. Olma. Bir saniyə sonra mən yox oluram. Sən də bütün bunları bir anın içində unudursan. İstəyirsən bunu?

Oğlan tələsik Kişiyə dönür. Ağacı da, onun məhrəmliyini, doğmalığını bir anın içində unudur.

O ğ l a n. Dayan. Deyirsən o şairlər heç nə istəmirdilər? Heç nə?

K i ş i. Lap elə heç nə istəmirdilər də demək olmaz. Ancaq sənin kimi istəyən yoxdu aralarında.

O ğ l a n. Mənim ən böyük arzum... Mənim ən böyük arzum vardı. Məktəb illərinin yadigarıdı. Bir qızı... yəni sevirdim. Şeirlərimin hamısı, bəlkə də çoxu onun adınadı. İndi şeirlərimi verib onu istəyəcəyəm səndən.

K i ş i. İstə.

O ğ l a n. Deməli, bu şeirlər də bir şeyə yaradı.

K i ş i. Deməli yaradı.

O ğ l a n. Mən... kasıbam. Həmişə istəmişəm ki...

K i ş i. Bilirəm.

O ğ l a n. Olacaq?

K i ş i. Olacaq.

O ğ l a n. Evim, bağım, maşınlarım, qulluğumda duranlar... Bir tikə çörəyim?

K i ş i. Hamısı, hamısı olacaq.

O ğ l a n. Bütün dünyada tanınmış adam olmaq istəyirəm. Birinci.

K i ş i. Varınla, dövlətinlə – bəli.

O ğ l a n. Ver, ver mənə bütün bunları. Ver. Ala, ala, götür, bax, bunu, bunu, bunu da al, bunu indi bitirmişdim, bax gör nə gözəldi, dilinə bax, dilinə...

K i ş i. Diliniz... çətindi bir az...

O ğ l a n. Al, götür heç nə qalmasın. Bilirsən?! Birdən-birə mən başa düşdüm deyəsən. Mən axı bunların heç birini, mənə ən əziz olanını da, mənim canımın, qanımın, iliyimin içindən çıxanını da...

K i ş i. Hə...

O ğ l a n. Sevmişəm. Sevmişəm. Sən bunu bilirdin?

K i ş i. Bu sənin öz işindi. Niyə darıxdırırsan özünü? Unudacaqsan bu xırda şeyləri. "Sevmişəm-sevməmişəm. Sevmişəm-sevməmişəm". Bilirsən nə var?! Bir azdan, bütün arzuların yerinə yetəndən sonra bu dediklərinin heç bir mənası qalmayacaq. Elə rahat olacaqsan ki. Sevmisən sən bunları. Sevə-sevə yazmısan. Amma rahat olmalısan.

Oğlanın çiyinlərindən elə bil yük götürülür. Elə yüngülləşir ki.

O ğ l a n. Bax, mən onu istəyirəm. Onu. Rahatlığı. Nəhayət tapdım. Bütün istədiklərimin bir adı var: rahatlıq... Bəli, rahatlıq.

K i ş i. Bilirsən nə var?! Onu istəmə. Məsləhət deyil. Bütün istədiklərinin yeganə adına dönəndə rahatlıq sizin dilinizdə hiss edilmədən öz mahiyyətini, sonra da adını dəyişir.

O ğ l a n. Nəyini dəyişir? Necə? Nə ad qoyur özünə? Mahiyyətini dəyişir... (*Ağaca baxır və birdən anlayan kimi olur.*) Yəni... aman.

K i ş i. Bəli, bəli, özüdü ki var. Onu istəmə. Neynirsən rahatlığı?

O ğ l a n. Əlbəttə, əlbəttə. İstəmirəm. İstəmirəm onu. Sən məni düz başa düşmədin. Onu istəmirəm. Bəs nə istəyim? Allah, nə istəyim? Bilmirəm, nə istədiyimi bilmirəm. Nə istəyə bilərəm səndən mən? Nə?

K i ş i. Niyə tələsirsən, oğlum? Darıxdırma özünü. Tələsmə. Əvvəlcə, de görüm, razısan mənim şərtimə?

O ğ l a n (*tələsik*, *ağaca tərəf baxmadan*, *gözlərini ağacdan gizləyərək*). Razıyam. Guya sən gələndə bilmirdin ki, mən razı olacağam.

K i ş i. Bilirsən nə var?! Bilmirdim. Doğrudan bilmirdim.

Ağac elə bil göz önündə qocalır, əl-qolu, budaqları yanına düşür. Musiqinin tükürpərdici səsi altında ətraf qaranlığa bürünür. İşıqlananda yenə həmin bədbəxt ağac, onun altında oturmuş Qadın və Oğlan görünür.

O ğ l a n. Unuduram. Bir az da keçsə, lap unudacağam. O bura gəlir. Görürsən? O rəngin adı nədi, bura gəlir. Görürsən sən? O rəngin adı nədi, bura gəlir.

Musiqinin marşvari sədası altında rənglərin rəqsi başlayır.

Görürsən sən? Görmürsən, görmürsən, görmürsən...

Musiqi də kəsir, rənglər də gözdən itir. Qadın yorğun-yorğun oturduğu yerdən qalxır, Oğlana yanaşır.

Q a d ı n. Sakit ol. Heç nə yoxdu. Sakit ol. Yavaş-yavaş çıxardırsan tikanı ürəyindən. Addım-addım, bax, yenidən özünə, özünə dönmək üzrəsən. Düzələcək, hər şey düzələcək.

O ğ l a n. Sonra o mənə tərəf nifrətlə baxdı. Yox, nifrətlə deyildi bəlkə də, ikrahla, hə, ikrahla baxdı. Mən nə elədim axı? (*Ağaca baxır.*) Niyə o mənə elə baxdı?.. Kim olsaydı razı olmazdı?

Q a d ı n. Olardı, olardı. Sənin heç bir günahın yoxdu. Bilirsən nə var?! Özün özünlə mübarizə aparma. Ən pisi budu. Yüz faiz, məğlubiyyətdi. Ya sən məğlub olacaqsan, ya da...

O ğ l a n. Bilirəm, bilirəm, yenə də sən. Yenə özün. Mən... bir zaman gəlsə və mən ölməyi arzulasam, istərdim ki, bu sənin, ancaq sənin, təkcə sənin yanında baş versin.

Q a d ı n. Sən qorxursan?

O ğ l a n. Mən... darıxıram. Ürəyim partlayır, partlayır, partlaya bilmir.

Q a d ı n. Bəlkə bugünlük bəsdi?..

O ğ l a n. Bilmirəm. Amma elə bil mən yenə də onu görürəm. Onu eşidirəm. O elə bil nəsə soruşur məndən...

Yenə musiqinin həzin səsi altında qaranlıq düşür və ətraf ağarınca Kişini və Oğlanı yamyaşıl və gözəlləşmiş ağacın yanında görürük.

K i ş i. Birinci istəyin nədi, oğlum?

O ğ l a n. İstəyirəm. İstəyirəm ki, özün bilirsən də. Hər şeyi istəyirəm. Bayaq dediklərimin hamısını. Noldu? Çətin oldu deyəsən?!

K i ş i. Belə də. Eybi yox. Birtəhər çıxarıq bu işin altından.

O ğ l a n (*lağla*). Bax da neynirsən.

K i ş i. Oldu. Amma bir məsələni yenə də dəqiqləşdirmək lazımdı.

O ğ l a n. Hansı məsələni?

K i ş i. Bilirsən nə var?! Cavab verməlisən. Sənin bütün istəklərinin yerinə yetməsi sənin və yalnız sənin üçün, sənin dünyanda baş versin, ya ki bu dəyişmələri hamı bilsin? Bunun cavabını bilməliyəm.

O ğ l a n. Nə danışırsan sən? Neynirəm başqalarının da bunları bilməyini?! Ancaq mən. Ancaq mənim dünyam. Heç kimin bilməyi lazım deyil. Bu da mənim şərtimdir.

K i ş i. Bax işinə. Mən elə eləyə bilərdim ki, bütün səninlə bağlı dəyişmələr, yeniliklər hamıya əvvəlcədən olmuş kimi, təbii bir şey kimi görünsün.

O ğ l a n. Yox, yox, yox, yox. Heç kimi bu işə qatma. Ancaq mən. Ancaq mənim üçün.

K i ş i. Hörmətli seçimdir. (*Üzünü ağaca tutur.*) Dil, dil ağırdı.

O ğ l a n. Başla, başla. Uzatma. Gəlmisən, başla. Ürəyimi üzmə.

K i ş i. Başla deyirsən, başlayaq. Yaxşı, nədən başlayaq?.. Nədən...

Qəfil musiqi Kişinin sözünü ağzında qoyur. Hava qaralır və ağaranda yenə cılızlaşmış və qocalmış ağacı, altında bardaş qurub oturmuş Qadını və dörd tərəfə boylanıb kimisə axtaran Oğlanı görürük.

Q a d ı n (*astadan, ağır-ağır*). Gör bir necə də beyninə, qəlbinə girib. Gör necə səni çıxarıb mehvərindən. Belə işlərin ustasıdı. Üzmə özünü. Sənin nə günahın var?! Eşidirsən bu səsləri yenə?

Musiqi də çox-çox uzaqlardan gəlir, rəngləri də artıq əvvəlki kimi təmiz seçilmir. Oğlan elə bil onları indi xatırlayır.

O ğ l a n. Hardadı? Artıq elə bil yox oldular. Zəiflədi səsləri. Rənglər elə bil bir-birinə qarışmağa başladı. Sən onları seçə bilirsən? De mənə, sən allah, de mənə, yoxdu ki, mənim günahım? Niyə məni seçdi? Niyə məni?

Q a d ı n. Yoxdu. Heç bir günahın yoxdu. Qurtulacaqsan. Bilirsən nə var?! Nə qədər kömək eləsən mənə, danışsan mənə bütün hər şeyi, boşaltsan ürəyini addım-addım, o gəldiyi anın əvvəlinə və sonuna gedə bilsək, onun gəlişini tam olaraq... mühasirəyə alıb sənin beynindən, ürəyindən silə bilsək – qurtulmusan. Daha bir şey demədi?

O ğ l a n. Yox. Başqa bir şey demədi. (*Ağaca.*) Mənim yaddaşım dəmir kimidi. Başqa bir şey desəydi, yadımda olardı. İnanmırsan? Deyərdim sənə. (*Qadın dönür, onu diqqətlə gözdən keçirir.*) Səndən başqa kimi var? Necə də ağdı paltarın. Ağappaq. Necə gözəl səsin var...

Q a d ı n. Bunlar sonra. Sonra.

Kişi xəyal kimi gəlib onların arasında durur. Qadın onu görmür, yavaş-yavaş gedib ağacın altında öz yerində oturur.

K i ş i. Az qala yadımdan çıxacaqdı. Bir şeyi də səndən... xahiş eləmək istəyirəm. Bu şərt deyil, xahiş eləyirəm. Əslində bilmək istəyirsən, səni qoruyuram bu xahişimlə.

O ğ l a n. Nə xahişdi o elə?

K i ş i. Bilirsən nə var?! Vaxt gələcək, oğlum, bu həyat ağacıma bənzər bir şey gələcək sənin yanına. Şirin, mənim kimi yox, çox şirin dillə səndən mənim barəmdə bəzi şeylər soruşmağa başlayacaq. Guya səni xilas edəcəyini, qurtaracağını söyləyəcək. Mənim sənə nələr dediyimə maraq edəcək. Mən sənə verdiyim sözü yerinə yetirdim. Eşidirsənmi sən indi bu rənglərin səsini?

Musiqi yenə başlayır və rənglər yenə Oğlanı əhatə edir.

Hər şey, hər şey rəngdi ilk əvvəldən, oğlum. Eşidirsənmi? Bax, onlar artıq sənə cavab verməyə başlayıblar. Onlar da səni eşitdilər. Sən artıq azadsan. O səni yerə pərçimləyən ağır qəlbin yoxdu. Uç uçmaq istəsən. Azadsan. Amma heç kimə, heç kimə, xüsusən də ağappaq rəngə bürünmüş, amma rəngləri eşidə bilməyənlərə heç nə, heç nə demə. Səninçün belə yaxşıdı. Heç nə. Heç kimə.

Kişi birdən yox olur. Oğlan buna təəccüb etmir.

O ğ l a n (*Qadına*). Sən eşidirsən onları?

Q a d ı n. Yox. Onları eşitmək mümkün deyil. Sən də onları eşitməyəcəksən.

O ğ l a n (*öz-özünə*). Mümkün deyil?! Unutdum. Ən əsas bir şeyi unutdum. Necə də unutdum.

Q a d ı n. Sən də eşitməyəcəksən. Darıxma. Qurtulacaqsan. Azad olacaqsan. Azad.

O ğ l a n (*nəsə xatırlayırmış kimi*). Hə. O da elə deyirdi. “Azad olacaqsan”. (*Birdən-birə nəsə bir qərara gəlir.*) Gedək. Ürəyim darıxdı.

Q a d ı n (*Oğlanın yanına gəlir*). Darıxdırma özünü. Gedək deyirsən, gedək. Hər şey yaxşı olacaq. Üzülmə. Başqa bir şey deməmişdi ki, sənə?.. Guya kimsə gələcək, onun barəsində sorğu-sual edəcək?!

O ğ l a n (*qətiyyətlə*). Yox, daha heç nə deməmişdi. Gedək. Bilirsən nə var?! Bu səslər zəhləmi tökməyə başladı. Gedək, bəsdi...

Q a d ı n. Bilirsən nə var???

Gedirlər. Qaranlıqda ağappaq əlağacı ağacın ətrafına fırlanır, fırlanır və musiqiylə bir yerdə rənglərin rəqsi yenidən başlayanda biz yenə o ağacı – gözəl, yamyaşıl və cavan ağacı görüb. heç olmasa buna dərindən və rahatlıqla köksümüzü ötürürük.

*Bakı, 1994*

# MƏNZƏR NİGARLI

(1950)

*Eynullayeva Mənzər Əsəd qızı* (*Nigarlı*)*, nasir – Əli Bayramlı rayonunun Muğan kəndində anadan olmuş, orada 10 nömrəli məktəbi* (*1967*)*, Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini* (*1971-1976*) *bitirmişdir. Azərbaycan Elmlər Akademiyasının* "*Elm*" *nəşriyyatında korrektor, kiçik redaktor, redaktor vəzifələrində çalışmışdır. Hazırda Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunda elmi işçidir.*

*Ədəbi fəaliyyətə* (*1969*) "*Azərbaycan gəncləri*" *qəzetində* "*Şübhə*" *hekayəsi ilə başlamış,* "*Həmin axşam*" (*1980*)*,* "*Yarımçıq məzuniyyət*" (*1986*)*,* "*Qara örpək*" (*1992*)*,* "*Oğuz gözəlləməsi*" (*2003*) *kitablarının müəllifidir.* "*Tar*"*,* "*Təhlükə sovuşdu*" *pyesləri televiziyada,* "*Tənha durna qatarı*"*, Seyid Şuşinskiyə həsr etdiyi* "*Qızıl qaval*" *əsərləri ilə radioda səhnələşdirilmiş,* "*Qızıl qaval*" *pyesi radionun Qızıl fonduna daxil edilmişdir.*

*Mənzər Nigarlı Azərbaycan Yazıçılar Birliyinin üzvüdür* (*1983*).

## QARA ÖRPƏK

*İki pərdəli, on şəkilli pyes*

İŞTİRAK EDİRLƏR

Əfruz
Əli – Əfruzun əri
Sayad – Əfruzun bacısı
Maral xala – Əfruzun analığı
Qızılgül, Tovuz – Əfruzun qızları
Qədir kişi
Oğlu
Tovuz xala – Əlinin anası
Lalə
Anaxanım xala
Şükriyyə
İsmayıl
Prokuror

M i n a s
E y n ə k l i  k i ş i
H ə r b i  p a l t a r l ı  a d a m
S ü r ü c ü
C a v a n  g ə l i n
Ç a r ş a b l ı  q a d ı n
K a m e r a  i ş ç i s i
Q ə n i r ə

## BİRİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Vağzal. Axşamüstüdür. Qatarın səsi. Hiss olunur ki, uzaqlaşır. Perrondan köhnə, qara örpəkli bir qadın düşür, tini keçib nimdaş çamadanını yerə qoyur, əyilib yerdən bir ovuc torpaq götürür, dodaqlarına aparıb öpür. Qadının otuz altı yaşı var. Ancaq saçları tamam ağarmışdır. Ona əlliyə yaxın yaş vermək olardı. Qadın belini əyərək avtobus dayanacağına üz tutur.

Ə f r u z (*öz-özünə*). Arzuma çatdım. (*Torpağa baxıb ağlayır.*) Bu mənim torpağımdır. Vətənimin, yurdumun torpağıdır. (*Dayanacaqda dayananlar ona təəccüblə baxıb keçirlər. Skamyada, əlində bir dəstə gül olan cavan bir qız ona heyrətlə baxır.*)

L a l ə (*öz-özünə*). Qəribədir. Görən, kimdir bu qadın? Əlbət, uzaqdan gəlib.

Ə f r u z (*qızın əlindəki güllərə baxıb diksinir və sonra yanında oturub nimdaş çamadanını yanına qoyur*). Salam, qızım.

L a l ə. Salam, xala. Bura keçin. Buranı külək tutmur.

Ə f r u z. Çox sağ ol, qızım. Sabunçuya avtobus burdan gedir?

L a l ə. Gedir, xala, indicə getdi. Mən özüm də Mərdəkana gedirəm. O biri avtobus hələ saat yarımdan sonra gələcək.

Ə f r u z. Nə pis oldu, bala. Demək, bir saatdan çox gözləməli... (*Üzünə kədər çökür. Öz-özünə.*) Dözə bilmirəm. On il dözmüşəm, bu bir saatı dözə bilmirəm. Şükür, vətənimi gördüm. Bircə özümü o tifillərə çatdıra bilsəydim.

L a l ə. Xala, mən sizin yerdən torpaq götürüb öpdüyünüzü gördüm. Deyəsən vətəndən çoxdan çıxmısınız. Uzaqdan gəlmisiniz, hə?

Ə f r u z. Hə, bala. (*Acı-acı gülür.*) Heç bilmirəm nə deyim sənə. Heç dilim də gəlmir. (*Gözləri yaşarır. Əyilib yerdəki torpaqdan götü-*

*rüb üzünə, dodaqlarına sürtür.*) Bu torpaq üçün on il göz yaşı tökmüşəm. (*Qalxıb havanı nəfəsinə çəkir.*) Yurdumun ətrini hiss edirsən? (*Dərindən nəfəs ala-ala əlini yana açır, elə bil həsrətində olduğu vətənini qucaqlamaq istəyir.*) Gör necə ətirlidir. Torpağına qurban olum. Yüz yerin torpağını gətirib torpağıma qatsaydılar, öz torpağımı o saat seçərdim. (*Laləyə.*) Axı sən haradan biləsən, bala, qürbətdə qəriblik keçirən nə əzablar çəkir. (*Ağlayır.*)

Lalə. Vətəndən çoxdan çıxmışdınız?

Əfruz (*acı-acı gülür*). Özüm çıxmamışam, çıxartmışdılar... (*Susur.*) Düz on ildir.

Lalə. On ildir?

Əfruz. On ildir ki, məni balalarımdan, evimdən-eşiyimdən, elimdən-obamdan ayırıb sürgün ediblər.

Lalə (*həyəcanla*). Hara?

Əfruz. Qazaxıstana, Axmedlinski deyilən bir xarabaxanaya.

Lalə. Axı niyə? Niyə sürgün etdilər?

Əfruz. Hesabla da, bala. 37-də niyə hamını sürgün edirdilər? Məni də ona görə. (*Avtobus yoluna baxır.*) Ürəyim davam gətirmir. Ləngiməsəydim, avtobusa çatardım. (*Laləyə.*) Qızım, Sabunçuya əvvəllər qatar işləyirdi. İndi bilmirsən qatarlar yenə də?..

Lalə. Qatar işləməyinə işləyir, ancaq yollar indi təmirdədir. Elə ona görə də avtobus gözləməli olacağıq. (*Həyəcanla Əfruza baxır.*) Görünür, xala, çox əzab çəkmisiniz. (*Yaxınlaşıb Əfruzun əlindən tutur.*) Mənə elə gəlir ki, yaşınız çox deyil... Ancaq saçlarınız ağappaqdır. Bu qara örpəyi açın başınızdan, sizə yaraşmır.

Əfruz (*tez əlini şalına toxundurur*). Yox, qızım, yox, açmaram. Əhdim var axı...

Lalə. Bağışlayın məni, görürəm dərdiniz böyükdür.

Əfruz. İndi kimin dərdi yoxdur ki... (*Pıçıltıyla.*) Bu zəmanədə də dərdsiz insan olar? (*Öz-özünə fikirləşir.*) Əli kaş gedib oxumayaydı Moskvada. (*Kinayə ilə.*) Oxuyanlar, ziyalılar Azərbaycan üçün qorxulu idi axı.

Lalə. Əli kimdir ki?..

Əfruz (*fikirli*). Yoldaşım. Altı il Moskvada oxudu ki, gəlib camaatına gün ağlasın. Qoymadılar... O vaxt mənim on yeddi yaşım var idi. (*Üzünə təbəssüm qonur, xəyala dalır.*) Heç Şəkini görmüsənmi, qızım?

L a l ə. Bir dəfə. Məktəbdən aparıblar. Xan sarayına. Ekskursiyaya. Gözəl yerlərdir.

Ə f r u z. Gözəl də dedin qoydun. May ayında olasan oralarda. Qızılgül ayında. (*Lalənin əlindəki qızılgülü alıb iyləyir, sonra qıza qaytarır.*) Bu güllər mənim yurdumun güllərindəndir. Sənə yaxınlaşanda əlində görüb diksindim. Eh, qızım, Qazaxıstanın şaxtalı, sərt qışında, isti, bürkülü yayında qızılgül o qədər yuxuma girib ki... Bu gülü o qədər sevirdik ki, Əliylə mən. Qızımızın adını da Qızılgül qoyduq. Eh, qızım, mənim uşaqlığım, gəncliyim qızılgülün məskəni Şəkidə keçib. Gəlinlik duvağımı üzümə burda salıblar. (*Sonra fikirli sükuta gedir.*) Gərək, Əli gedib oxumayaydı Moskvada. Heç özüm də bilmirəm nə danışıram. Bəyəm, ancaq oxuyanları həbs edirdilər? Əlinin ağlına haradan gələrdi ki... (*Sükut.*) Neçə il qürbətdə qalıb oxumuşdu ki, gəlib camaatına bir gün ağlasın.

L a l ə. Xala, yoldaşınızın nə günahı var idi ki, onu həbs etdilər?

Ə f r u z. Bircə məqalənin üstündə. (*Fikrə gedir.*) Məqalə bizim Zəngəzur, Göyçə torpaqlarımızın taleyindən idi, bala. (*Pıçıltıya keçir.*) İyirminci ildə torpaqlar ermənilərə verildi. Peşkəş verildi, bala, peşkəş. Axı torpaqlar bizim idi. Ermənilər hələ Qarabağa, Naxçıvana da iştahalarını itiləmişdilər. Əli dözə bilmirdi. Torpaqlar yadlara paylanılırdı. Heç kəs dillənə bilmirdi. Danışanı gecəylə gəlib evdən aparırdılar. Azərbaycanı məhv etmək üçün əvvəlcə onun ziyalılarını aradan götürürdülər. (*Sükuta gedir.*) Əli Moskvadan gələndə mənim on yeddi yaşım vardı... (*Susur.*)

L a l ə. Danışın da, xala. Mən qulaq asmaq istəyirəm.

## İKİNCİ ŞƏKİL

Səhnə dəyişir. Əligilin evi. Güllü-çiçəkli bir həyət. Əli eyvana çıxır, çiyninə pencəyini salıb. Şəhərli geyimindədir.

Ə l i. Elə bil dünyanın bir parça yaşıllığına düşmüşəm. Gör neçə ildir kəndimin yazını görmürdüm. Əsil cənnətdir buralar. Heç yana getməyəcəyəm. Düzdür, şəhər həyatı çəkir adamı, ancaq bu yerləri heç nəyə dəyişmərəm.

T o v u z   x a l a (*evdən çıxıb oğluna yaxınlaşır*). Qadavu alım sənin, ay Əli, darıxmırsan ki?

Əli. Yox, ana, adam da öz evində darıxar? (*Qızılgüldən dərib iyləyir.*) Ana, Yusif əmigildən bir xəbər yoxdur. İstəyirəm, bir onlara da dəyəm.

Tovuz xala. Hamısının canuva duası var. A bala, birdən o boyda Möskövəyə öyrəşərsən, buranı bəyənməzsən ha...

Əli. Nə danışırsan, ana. Adam da qürbəti öz vətəni hesab edər? Hər kəsin öz evi, öz eli.

Tovuz xala (*sevinir*). Nə yaxşı, oğul, onda gəl mən deyənə.

Əli. Sən nə deyirsən ki?

Tovuz. İstəyirəm səni evləndirəm axı.

Əli (*tutulur*). Nə tez, ana, bir mafar ver də.

Tovuz xala. Hər şeyin vaxtı-vədəsi var axı. Yaş ki ötür, daha yaşın yiyəsini yola gətirmək mümkün olmur ki, evləndirəsən. Sənin də yaşın ötür, bala. Qohum-qonşuda da qızlar çoxdu, hansının qapısına getsəm, yox deməzlər.

Əli (*zarafatla*). Nə bilirsən yox deməzlər. Mən kiməm ki?.. Göydən düşmüşəm?

Tovuz xala. Əlbəttə, mənim balam, göydən yox ey, lap elə göyün yeddinci qatından düşmüsən. Hansı köpəyin qızıdır ki, sənə yox deyə.

Əli (*gülür*). Gəlini indidən söymə də, ana. Yoxsa indidən belə eləsən...

Tovuz xala. Lap söyərəm, o yana da keçərəm. Adımı dəyişərəm biləm ki, səni görüb sənə yox deyələr. Sən bircə razılığını ver. Hansı qapıya əlini uzatsan gedib dayıdostunla əmidostunu götürüb elçiliyini edərəm. Lap elə bu saat.

Əli. Ana, lap gerçəklədin ki... (*Gülür.*) Yox, hələ evlənmək məsələsi qalsın sonraya.

Tovuz xala (*məyuslaşır*). Vallah, səndən baş aça bilmirəm. Hələm-qələmlik eləmə də. Mənim də arzum var, diləyim var axı.

Əli (*fikirli var-gəl edir*). Ana, camaatımızın vəziyyəti pisdir. Savad yox, dolanışıq yox. Qoy görüm neylərəm. İşləmək lazımdır, ana, işləmək.

Qədir kişi əlində tar, oğlu da yanında həyətdən keçir.
Əlini görüb ayaq saxlayır, baxır-baxır.

Qədir kişi. A bala, Əli döyülsən?

Əli (*yaxınlaşıb əl tutur*). Əliyəm də, Qədir dayı, tanımadın?

Q ə d i r   k i ş i. Ay səni xoş gördük, bala! (*Əlini qucaqlayıb öpür.*) Xoş gəlmisən. Qədəmlərinə qurban olum. Axır ki, oxumağını qurtardın. (*Tovuza.*) Gözün aydın olsun, Tovuz bacı.

Ə l i. Sağ ol. Ağzun dualı olsun. Gəl çay içginən.

Q ə d i r   k i ş i (*tarı oturduğu stula söykəyib əlindəki zənbili yerə qoyur*). İndi harada işləmək fikrin var, oğul?

Ə l i. Darülmüəllimdə. Tarixdən dərs demək istəyirəm.

Q ə d i r   k i ş i. De, bala, de. Bizə, bisavadsızlara bir gün ağla. (*Sükut.*) Salma bizi o əyyaş usta Təvəkkül kimilərin əlinə. (*Tarı göstərir.*) Bu gün o kələkbaz usta Təvəkkül yaman mənə kələk gəldi, köpək oğlu. Uşaq olmasaydı, məni dolayacaqdı. (*Gülür.*)

Ə l i. Nolub, Qədir dayı? Kim səni aldadıb?

Q ə d i r   k i ş i. Kim olacaq? O fırıldaqçı Təvəkkül.

T o v u z   x a l a (*evə keçib çay gətirir*). Sən allah, şirniyyatdan qoy ağzuva. Əli gətirib Möskövədən.

Q ə d i r   k i ş i (*şirniyyatdan birini ağzına atır*). Ağzın şirin olsun, ağzımı şirin elədin. (*Oğluna.*) Sən danış.

O ğ l u (*gülür*). Yox, dədə, sən danış.

Q ə d i r   k i ş i. Yox, sən danış.

O ğ l u. Yox, sən danış.

Q ə d i r   k i ş i. Danışım deyirsən, danışım da. (*Başını bulayır.*) Biyabır elədim özümü. (*Əli tarı əlinə alıb ora-burasına əl gəzdirir.*) Bu tarı, Əli bala, aparmışdım usta Təvəkkülün yanına. Dedim baxsın, görsün simi-zadı yerindədimi. Uşaq tez-tez şikayətlənirdi ki, tarım sözümə baxmır. Usta Təvəkkül, o kələkbaz tara baxan kimi dedi, Qədir kişi, tarın zəhərlənib. Dedim nə danışırsan, kişi. Dedi, tar zəhərlənib ki, zəhərlənib. Əli, Tovuz bacı, kişi məni necə inandırdısa düşdüm ayaqlarının altına. Yalan olmasın, ilan dili çıxartdım. Dedim, sən olasan o göydəki Allaha gör bu tarı neylərsən. Tar xarab olsa, uşağı kiridə bilməyəcəm. Dedim, ayə, bu tar nə təhər olub zəhərlənib? Dedi, meşədə bu tarın ağacına əfi ilan – meşənin əclaf sürünənlərindən biri gəlib zəhərini töküb.

Ə l i (*qəhqəhə çəkib gülür*). Zəhərini töküb?

Q ə d i r   k i ş i. Hə, elə beləcə dedi. Dedim, usta Təvəkkül, bunun bir çarəsi varmı? Dedi, var. Dünyavi-aləmdə elə bir şey yoxdur ki, onun çarəsi tapılmaya. Lap qaldım məəttəl, dedim bu bic vələdüzzina nəsə bir şey eləyəcək. Hə, dedi, getməlisən bazara. Bir şüşə

araq, yarım girvənkə Kəlbəcər balı, yarım girvənkə kərə yağı, on dənə yumurta, beş-altı dənə lavaş. Bunların gərək, hamısı əlimin altında ola, aparacağam bu aldığım şeyləri padvalıma. O qaranlıq padvalımda gərək məndən savayı bir ins-cins görünməyə. Əstəğfürullah, dedim, yaxşı bu nəmənə olan işdi. Dedi, ay avam, bu tardı. Hə, dedim, tardı, dedi o alacağın lavaşı bürüyəcəyəm bu tara, balı yaxıb o alacağın lavaşı üstünə qoyub nazik iplə sarıyacağam. Tarın da, dedi, həm altından, həm də üstündən oyuq açacağam. Tarın üstündəki oyuqdan arağı tökəcəyəm ki, tarın nə zəhər-zühəri var o biri oyuqdan çıxsın. Daha sənin uşağının tarına zaval olmayacaq.

Əli (*gülür*). Demək, sən də gedib bu təamları aldın?

Qədir kişi. Aldım, bala, aldım. Aparıb verdim o nadürüstə. Uşaq gəlib çıxmasaydı...

Oğlu. Əli əmi, heç tar da zəhərlənər?

Əli. Onu atandan soruş, qardaş.

Qədir kişi. Hə, o Təvəkkül elə əlimdəkiləri qamarlamışdı ki, bu bic bala qoymadı. Kişinin ağzı sulana-sulana qaldı. (*Gülür.*)

Əli (*tar əlində öz-özünə qüssəylə*). Qədir əmilərə baxıram, camaatın gününə ağlayıram. Savadsızlıq, cəhalət aləmi bürüyüb. (*Bir tərəfdə oturub tarı yoxlayır. Öz-özünə.*) Tarı da bizə çox görürlər. Azərbaycanın bu gözəl alətini qadağan etmək istəyirlər. (*Öz-özünə zümzümə edir.*) Oxu tar, səsindən ən lətif şeirlər dinləyim. (*Qədirə.*) Qədir kişi, tar əladır. İcazə versəydin, bir şey çalardım.

Qədir kişi. Çal, bala, ürəyimiz bir az açılsın.

Əli (*çalır, hamı qulaq asır. Sonra Əli tarı Qədir kişiyə verib ayağa qalxır*). İnşallah, qoy işim yoluna düşsün, darülmüəllimdə musiqi dərnəyi açdıracağam.

Qədir kişi (*getməyə hazırlaşır*). Bax, bu əla olar, bala. Sağ olun, Allah süfrənizi açıq eləsin. (*Əliyə.*) Bir bizim tərəflərə də keç. (*Gedir.*)

Tovuz xala da dil-ağız edir.

Əli. Baş üstə, Qədir əmi, gələrəm. (*Pencəyini geyinir.*) Ana, mən istəyirəm bir Yusif əmiyə dəyəm. (*Gedir.*)

Tovuz xala (*ardınca baxıb əlini göyə qaldırır*). Ay Allah, bu uşağı yola gətirginən.

Səhnə dəyişilir.

## ÜÇÜNCÜ ŞƏKİL

Yusif əminin evi. Ev xalça ilə döşənib. Əfruz evdə oturub kitab oxuyur, sonra nə fikirləşirsə kəlağayısını açıb güzgünün qabağına keçir və saçlarını darayır. Əli gəlib qapının kandarında dayanır. Əfruz güzgüdə, Əli isə arxadan ona baxır.

Əli (*heyrətlə öz-özünə*). Bu gözəl qız kimdi? Yəni Əfruzdu? Mən Moskvada olanda bu qız lap uşaq idi ki... (*Əfruzu səsləyir.*) Əfruz!

Əfruz (*çaşıb bilmir nə etsin və əliylə üzünü qapayır*). Bıy, Allah məni öldürsün.

Əli. Əfruz, salam, yəni sən doğrudan Əfruzsan?

Əfruz (*öz-özünə*). Bu ki Əhməd bəyin oğlu Əlidi. (*Əliyə.*) Xoş gəlmisiniz. (*Sükut.*) Sənə kim lazımdır ki?

Əli. Mənə? Heç kim. Ancaq sən doğrudan Əfruzsan?

Əfruz. Lap elə Əfruzam. Nolsun Əfruzam.

Əli. Söz soruşmaq olmaz? Mən nə dedim ki, belə hirslənirsən?

Əfruz (*çaşır*). Sən? Nə bilim nə dedin?

Əli. Onda məni niyə acılayırsan? Niyə belə qarşılayırsan?

Əfruz. Mən? Nə vaxt?

Əli. İndi bu saat.

Əfruz. Mən?

Əli. Hə də, sən.

Əfruz yenidən üzünü qapayır. Güzgüdə daha qızın üzü görünmür. Əli qızın gur, qara saçlarından gözlərini çəkmir. Sonra Əfruza elə gəlir ki, oğlan çıxıb gedib. Əllərini çəkib qapının kandarına baxır. Əli getməmişdi və birdən qəhqəhə çəkib gülür. Əfruz əvvəlcə istəyir yenidən hirslənsin, ancaq o da Əliyə qoşulub gülür.

Maral xala (*o biri otaqdan gəlir*). Əfruz, a bala, haradasan? Bəs sənə demədim ki, təndiri qala. Xəmir qıcqırır. Buy, bu qız yenə güzgüyə baxır ki... A bala, bu güzgüyə az bax da. Vallah, o qədər baxacaqsan ki, axır iraq səndən dəli olacaqsan.

Əfruz (*öz-özünə*). Biyabır elədin ki, məni. Mən də vaxt tapdım güzgüyə baxmağa.

Maral xala (*gəlib qızının saçlarına tumar çəkir*). Dur başına bir şey at, adam-zad gələr.

Əfruz yenə də əliylə üzünü qapayır.

M a r a l  x a l a (*çönüb Əlini görür*, *diksinir*). Əli? (*Yaşmaqlanır.*) Ay oğul, xoş gəlmisən, səfa gətirmisən. (*Görüşürlər.*) Gələn ayaqlarına qurban olum.

Ə l i. Çox sağ ol, Maral xala. Xoş gününüz olsun.

M a r a l  x a l a. Vallah elə gələcəkdim sizə. Tovuz bacıya gözaydınlığı verməyə.

Ə l i (*bir gözü Əfruzda*). Maral xala, gəldim Yusif əmiyə baş çəkim. Necədir Yusif əmi, əhvalı babatdırmı?

M a r a l  x a l a (*üzünə kədər çökür*). Əhvalı? Nə deyim, bala?! (*Sükut.*) Zəmanə yaman dəyişib. İt yiyəsini tanımır, oğul. Yusif əmin də... Ayaq üstə durma, Əli, keç əyləş, kişini bu saat çağırım. (*Əfruza.*) Ay Əfruz, qonağı nəyşə ayaq üstə saxlatmısan. O kətillərdən gətirsənə. (*Gedir.*)

Ə f r u z (*kəlağayısını başında düzəldə-düzəldə*). Kətil niyə? Odey mütəkkə, otursun da yerdə.

Ə l i. Zəhmət çəkmə, Əfruz, elə yerdəcə oturacağam.

Ə f r u z (*dili açılır*). Şəhərli oğlan yerdə otura bilməz, ayaqları ağrıyar.

Ə l i. Mənə niyə şəhərli oğlan deyirsən? Mən də bu kəndin uşağı deyiləm?

Ə f r u z. Nə bilim. Bulaq başında qızlar deyirlər ki, guya sən özünü yaman çəkirsən. Geyimin də ki, belə bir cürədir ey.

Ə l i (*gülür*). Mən çəkirəm? Sənə düz deməyiblər, Əfruz.

Ə f r u z. Eh, nə bilim. Şəhəri görənlər buranı bəyənməzlər. Kim burdan gedirsə qayıtmır. Yəqin sən də...

Ə l i. Yox, Əfruz, mən burda qalmaq istəyirəm. Darülmüəllimdə dərs deyəcəm.

Ə f r u z. Dərs deyəcəksən? Aman Allah. (*Özünü itirir.*) Onda mənə də dərs deyəcəksiniz ki? (*Bilmir necə hörmət etsin.*) Bu saat kətil gətirərəm. Bu saat. (*Qaçır.*)

Ə l i (*özü-özünə*). Əfruza nə oldu, görən, qorxdu.

Y u s i f  ə m i (*gəlir*). Ay bala, xoş gəlmisən, səfa gətirmisən! (*Öpüşürlər*). Ay Maral, yemək hazırla.

Ə l i. Əmi, nə zəhmət çəkirsiniz. Çox oturmayacağam. (*Tez-tez Əfruz gələn tərəfə baxır.*)

Maral otaqdan çıxır.

Y u s i f  ə m i. Ay uşaq, çay gətirin.

Ə f r u z (*kəlağayısını üzünə tutub, utana-utana çay gətirir*). Buyurun.

Y u s i f  ə m i. Ay oğul, işin-gücün nə yerdədir?

Ə l i. Pis döyül, Yusif əmi. (*Bir gözü Əfruzda.*) Qalıb burda işləmək fikrim var. Sizin dolaşığınız nə təhərdi?

Y u s i f  ə m i. Nə deyim, vallah. (*Pıçıltıya keçir.*) Bilmirəm, bala, aləmi niyə qatıb-qarışdırdılar. Olan-qalan nəyimiz vardı aldılar əlimizdən. Dedilər kolxoz yaradırıq. (*Fikrə gedir.*) Camaatın əli işdən soyuyub. Bu kolxozdu, arteldi-nədi. Bilmirəm bunların axırı hara gedib çıxacaq. Nəyim vardı özüm könüllü aparıb təhvil verdim təzə hökumətimizə. Öz əlimlə, zəhmətimlə qazanmışdım. Bircə sağır inəyi də bizə çox gördülər. Nə deyim, oğul, yenə buna da şükür.

Ə l i (*fikirli*). Hər şey yaxşı olacaq, Yusif əmi, çətini başlamaqdı.

Y u s i f  ə m i. Allah ağzından eşitsin. Dedilər savadsızlıq ləğv edilməlidir. Oğlanlarıma tikdirdiyim mülkləri verdim hökumətə, dedim, götürün məktəb eyləyin. Qoyun camaatın uşaqları oxusun. Qızı, Əfruzu (*Əli Əfruzun adını eşidib diksinir, qapıya sarı baxır*) birinci mən qoydum məktəbə. Fikirləşdim ki, mən buraxmasam Əfruzu məktəbə, o birilər də qızlarını buraxmazlar. Maşallah, Əfruzdan çox razıyam. Oxumağı yaxşıdır. (*Əfruz gəlib boşalmış stəkanı götürür. Əliylə baxışları rastlaşır. Az qalır stəkanı əlindən salsın.*)

Ə f r u z. Nə bilirsən... ata, yaxşı oxuyuram? Heç də yaxşı oxumuram.

Y u s i f  ə m i (*gülür*). Bilmirəm, bu qız tərslikdə kimə çəkib? Nə deyirsən onun tərsini deyir.

Ə f r u z (*incimiş*). Ata, niyə eylə deyirsən, mən nə dedim ki?

Ə l i (*zarafatla*). Yusif əmi, görünür, Əfruza mən də dərs deyəcəyəm. Əgər dərslərini pis qavrasa, sizə çatdıraram.

Əfruz tərs-tərs baxıb otaqdan çıxır.

Y u s i f  ə m i. Çox sağ ol, oğul. Gözün qızların üstündə olar. Sənin kimi müəllimlər bu yerlərə çox lazımdır. Valideynlərin çoxu qız uşaqlarını məktəbə buraxmırlar. Əfruzla bərabər bir neçə qız da bu il qurtaracaqlar məktəbi. Ümidimiz bunlaradır. Məktəbdə müəllimlik etsələr, xeyli qızlarımız darülmüəllimdə oxuyarlar.

Ə l i (*sevincək*). Bu lap əla olar. (*Sükut.*) Yusif əmi, bayaq sizə sual verdim, üstündən keçdiniz. Sizi incitmirlər ki?

Y u s i f  ə m i (*gözləri yol çəkir*, *kədərli*). İncitmirlər də sözdü?! Hər yığıncaqda durub varımı-yoxumu başıma qaxırlar. Qolçomaq deyib ələ salırlar. (*Pıçıltıyla.*) Gərək Səfəralının sözünə baxaydım. Elə o vaxtlar arvad-uşağı da götürüb Türkiyəyə adlayaydım. İndi evimdə böyüyən, süfrəmin qırağında oturan mənə böyüklük eləyir. Vallah özümün də gülməyim tutur. O dəfə çağırıb məni yanına. İnsafən pis adam döyül. Deyir Yusif əmi, sənin çörəyinlə böyümüşəm. Yetim oğlan idim, acından ölürdüm. Sən məni də, qardaşımı da qanadının altına alıb böyütdün. Üzüm gəlmir sənə bir söz deyim, amma yuxarıdan göstəriş gəlib, bizdən icazəsiz kənddən bir addım da ayağını kənara qoymamalısan. Adın qara siyahıdadır. Ürəyimdə dedim, bərəkallah, oğul. Sən də belə. Bu da mənim yaxşılığım. Apar öz əlinlə malını-mülkünü verginən. Özün də bilmirsən kimə verirsən. Axırda da ol düşmən.

Ə l i (*fikrə gedir*). Düz eləmirlər, Yusif əmi. Özbaşınalığa son qoymaq lazımdır. Ürəyini qısma, əmi. Allah kərimdi, haqq öz yolunu tapacaq. Sən fikir eləmə.

Evin eyvanında Əfruz görünür. Ancaq Yusif əmiylə Əli onu görmürlər.

S a y a d (*çiynində güyüm Əfruza yaxınlaşır. Əfruz həyəcanla bacısına baxır*). Ay Əfruz, heylə niyə baxırsan? Nolub? Evdə qonaq var?

Ə f r u z. Hə, bacılı, Əhməd bəyin oğlu vardı ha, Əli, bizdədir.

S a y a d. Bıy, ağrın alım. Nolar ki, bizdədir. Xoş gəlib, səfa gətirib. Sən nəyşə çaşıb qalmısan? Göylükdə bizim o yanmış qızlar elə ondan danışırdılar. (*Maraqla.*) Sən allah, de görüm, nə təhər geyinib. Deyirlər başında furaskası var. Əynində də nənəmizin pencəyi kimi uzun pencəyi var. Düymələri də qızıldan. (*Gülür.*)

Ə f r u z. Nə bilim? Ona elə çox baxan var? Neyniyim geyinib. (*Pıçıltıyla.*) Bilirsən, bacı, o mənə nə dedi?

S a y a d (*maraqla*). Nə dedi ki?

Ə f r u z. Belə dedi ey! Sən o balaca Əfruzsan? Nə tez böyümüsən? (*Qaşqabağını tökür.*) Mən də onu acıladım.

S a y a d (*çaşqın*). Nə dedin ki?

Ə f r u z. Dedim ki, sənə nə var ki, tez böyümüşəm.

S a y a d (*bic-bic gülür*). Aha, demək torbada pişik var.

Ə f r u z. Nə pişik? (*İncimiş.*) Yenə başladın?

S a y a d (*otağa boylanır*). Yaxşı, əgər torbada pişik yoxsa, bəs niyə belə qızarmısan?

Ə f r u z. Mən? Heç də qızarmamışam, bax. Bax. (*Əlini üzünə sürtə-sürtə bacısına yaxınlaşır.*) Heç gör qızarmışam. (*Gözlərini yumur və qapıdan çıxan Əliylə toqquşur, o az qalır yıxılsın.*)

Ə l i (*yavaşca Əfruzun qolundan tutur*). Üzr istəyirəm, Əfruz, sizi görmədim.

S a y a d (*gülümsəyir*). Xoş gəlmisən, Əli qardaş.

Ə l i. Xoş günün olsun.

Sayad xudahafizləşib gedir.

## DÖRDÜNCÜ ŞƏKİL

Əligilin evi. Tovuz xala bardaş qurub oturub.
Qabağındakı sandığı açıb içindəkilərə bir-bir baxır.

T o v u z  x a l a. Ey yeri-göyü yaradan Allah, sən oğlumu ağıla gətir. O nə söz idi mənə deyir. Hələ evlənməyəcəyəm. Niyə, bala? Sənin taylarının bir sürü balaları var. Oğul-uşaq yiyəsidirlər. Mənim də əl-qolumu soyudur. Bu qədər pal-paltar almışam ki, nişan aparam, toy eləyəm. (*Parçaları, şalları bir-bir açıb baxır, sinəsinə sıxır. Əli həyətdə dayanıb. Anası onu görmür.*)

Ə l i (*özü-özünə*). Yusif əminin qızı Əfruz necə də gözəlləşib. Görən, istəklisi yoxdur ki... Onu görəndən fikrim lap qarışıb. Gözəl qızdır. Görən, anamdan soruşsam, pis çıxmaz ki... Anam duyuq düşəcək. Gərək, o dəfə anamı acılamayaydım. Evlənməyin işə nə maneçiliyi. İndi anam deyəcək noldu, bala, bəs evlənmək istəmirdin! (*Yaxınlaşır.*) Salam, ana!

T o v u z  x a l a. Bıy gəldin, bala. Əleykəssalam. Nə təhərsən?

Ə l i. Yaxşıyam, ana.

T o v u z  x a l a. Bala, səni fikirli görürəm. (*Gəlib yanında əyləşir.*) Nə fikirləşirsən? Olmaya işin yoluna düşmür?

Ə l i. Yox, ana. İşim qaydasındadır. O nədi elə, tökmüsən yenə.

T o v u z  x a l a. Nolacaq, bala. Belə gəlinimin palı-paltarı. Nişan üçün aldığım xırım-xırda şeylər. Sən də ki, görürəm evlənməknən aran yoxdu.

Ə l i. Yox, ana, niyə yoxdu ki. Onu kim dedi sənə?

T o v u z  x a l a (*təəccüblə oğluna baxır*). Nə dedin, bala?

Ə l i. Heç... Ana, səndən bir şey soruşum. (*Çəkinə-çəkinə.*) Tez-tez Yusif əminin qızını görürəm darülmüəllimdə. Bir-iki günə onlara da dərs deyəcəyəm. Onun haqqında bir şey soruşmaq istəyirəm. Heç bilmirəm nə deyim... ana... (*Çəkinə-çəkinə.*) Ana, qızın nişanlısı-zadı yoxdur ki?

T o v u z  x a l a (*dirçəlir*). Necə bəyəm? (*Öz-özünə.*) Deyəsən, qarğa məndə qoz var ha...

Ə l i (*gülümsəyir*). Soruşuram da, ay ana. Soruşmaq olmaz?

T o v u z  x a l a (*öz-özünə*). Demək belə. (*Əliyə.*) Deyiklisi var. Niyə yoxdur ki. Ağluva qurban olum sənin. Elə mənim də ürəyimdən Əfruz keçirdi.

Ə l i (*diksinir*). Kimdir ki? (*Səsi titrəyir.*)

T o v u z  x a l a. Kim olacaq? Sən.

Ə l i. Mən?

T o v u z  x a l a. Hə, bala, səndən artığına getməyəcək ki. Çoxdan gözaltı eləmişdim o qızı sənə. Sən Mösküvədə olandan.

Ə l i (*tərəddüdlə*). Bəs necə bilmək olar?

T o v u z  x a l a. Dədəsinin, nənəsinin fikrini öyrənərəm, bala. Sən bircə razılığını ver. Sabah əmidostunla dayıdostunu götürüb gedərəm qapılarına.

Ə l i. Bəs Əfruz? Onun, ana, fikrini bilmək lazımdır.

T o v u z  x a l a. Əfruzun? Görəcəkli günlərim varmış. Əfruz nəkarədir bir söz desin. Yusif kişi nə desə odur. (*Öz-özünə.*) Mösküvə, deyəsən, balamı korlayıb. Qızın fikrini bilmək istəyir. Başıma xeyir. O boyda dağ kimi atası durub qabağında, gör, mənim gədəm nə danışır.

Ə l i (*öz-özünə*). Qızın mənə meyli olmasa, onu necə məcbur etmək olar? Necə yəni qız nəkarədir?Əgər Əfruzun ürəyincə deyiləmsə, onu necə yola gətirmək olar. Yox, nahaq dedim anama. Gərək əvvəlcə özüm həll eləyəydim. (*Anasına.*) Yox, ana, fikrimi dəyişdim. Qalsın sonraya.

T o v u z  x a l a (*incimiş*). Nə vaxta, bala? Vallah səndən baş aça bilmirəm. Gah belə deyirsən, gah elə. Mənim də arzum var, diləyim var axı. (*Sandıqdakı şeyləri hirsli-hirsli bir-bir yerinə qoyur.*)

Ə l i (*özü-özünə*). Mən Əfruzla danışmasam, onun fikrini öyrənməsəm, anamı Yusif əminin qapısına göndərməyəcəyəm. (*Bu vaxt qonşu uşaq həyatdə görünür.*)

Q ə d i r i n  o ğ l u. Əli müəllim, sizi məktəbə çağırırlar. Deyirlər iclas saat 2-də başlayır.

Ə l i. Bu saat gəlirəm. (*Gedir.*)

## BEŞİNCİ ŞƏKİL

Yol. İki tərəfi ağaclıq. Əfruz qızılgül kolunun yanından keçir. Əliylə üz-üzə gəlir.

Ə l i (*tərəddüdlə*). Salam, Əfruz!

Ə f r u z. Salam!

Ə l i. Olar sizdən bir şey soruşum? (*Səsi titrəyir.*)

Əfruz dinmədən ayaq saxlayır.

Ə l i. Əfruz, sizdəki güzgü var ha, onu mənə bağışlarsan? (*Gülümsünür.*)

Ə f r u z. Nə güzgü? (*Özü-özünə.*) Yenə də güzgü? Kaş o günü güzgüyə baxmayaydım.

Ə l i. O dəfə sizə gələndə qabağında dayanmışdın ha. Həmin güzgü. Anamı göndərəcəyəm, güzgünü verərsən. Əgər razılıq versən, yaxşı?

Ə f r u z. O güzgünü verə bilmərəm.

Ə l i. Niyə?

Ə f r u z (*şıltaqcasına*). Ona görə ki, o güzgünü sındırmışam.

Ə l i. Sındırmısan? Təəssüf. Yaxşı güzgüydü.

Ə f r u z (*maraqla*). Nə bilirsən ki, o yaxşı güzgüydü?

Ə l i. Çünki o güzgüdə gördüyüm qız çox gözəl qız idi. Güzgünü versəydin o qıza, tez-tez baxardım.

Ə f r u z. Aa...

Ə l i. Bəlkə, sınıqları durur. Onu da verməzsən?

Ə f r u z. Sınıqlarını atdım zibilliyə. (*Əfruz istər-istəməz gülür.*)

Ə l i. Onda neyləyək?

Ə f r u z. Nə bilim?

Ə l i. Heyf o güzgüdən? (*Sükut.*) Onda gəl bir yerdə bir şey fikirləşək. (*Gülümsünür.*) Mənim bir təklifim var.

Ə f r u z (*maraqla*). Nə təklif?

Əli. Anamı göndərim sizə. Qoy sənin ananla danışsın. O güzgüdəki qızı alıb gətirsin bizə. Əgər o güzgüdəki qız razılıq versə? (*Əfruz çaşqın halda oğlana baxır və birdən ayılmış kimi gülümsəyib qaçır.*)

Səhnə dəyişir. Avtobus dayanacağı. İşıq Əfruzla dayanacaqda dayanan qızın üzərinə düşür.

Əfruz (*köks ötürür*). Hə, bala, bir həftə keçməmişdi ki, bizim evdə nişan oldu. Şirnimiz içildi. Mənə Əlinin nişan üzüyünü taxdılar. (*Həyəcanlanır.*) Əlimin nişan üzüyünü! (*Gözləri yaşarır.*) Sonra, sonra toyumuz oldu. (*Xəyala dalır.*)

Səhnə arxasında musiqi səsi eşidilir. Bir müddət Əfruz "Vağzalı" havasına qulaq asır. Musiqi səsi eşidilir. Səhnə yenidən dəyişir. Gənc Əfruz, yanında da Əli gəlibkeçirlər. Hər tərəf qızılgüllərlə bəzənilib.

Əfruz (*xəyaldan ayrılır*). Həmişə fikirləşirdim ki, elə adama ərə gedim ki, öz istəyimcə olsun. Əlisiz dura bilmirdim, o da mənsiz. Toyumuz ürəyimizcə oldu. Toy qızılgül ayına düşmüşdü. Məktəbdən gələndə Əli otağımızı qızılgüllə bəzəyərdi. İndi, qızım, əlindəki qızılgülə baxıram, toyumuz, Əliylə keçirtdiyimiz o xoşbəxt günlər yadıma düşür. Bu güllər mənim torpağımda yetişir axı. (*İyləyir.*) Gör, necə doğma ətri var. Əli darülmüəllimdə müdir, mən müəllimə işləyirdim. Biz xoşbəxt idik. Elə xoşbəxt idik ki... İki qızımız oldu. Birinin adını Qızılgül qoyduq, o birininkini də Tovuz, qayınanamın adını. (*Sükut.*) Əlini bir il keçmədi ki Bakıya, nazirliyə çağırdılar. Bakıya köçdük. Bakıda Tibb İnstitutuna daxil oldum. Müşfiqin arvadı Dilbərlə oxuyurdum. Əhməd Cavadın arvadı Şükriyyəylə, Hənəfinin arvadı Səyyarə ilə rəfiqə idik. Faciəmiz bu illərdə başladı. (*Pıçıltıya keçir.*) Həmin illərdə üçlüyü xalqımızın ən namuslu, vətənpərvər, ziyalı oğullarına divan tutuldu. Tutatut ili başlandı. Elə bir ev yox idi ki, o evdə göz yaşı axıdılmasın. O günlər səksəkə içərisində yaşayırdıq. Müşfiq, Ə.Cavad, Cavid həbs edilmişdi. Matımız-qutumuz qurumuşdu. Qızları yıxıla-dura böyüdürdük. Bir yay ikisi də göyöskürəyə tutuldular. Həkimlərin məsləhətiylə dəniz kənarındakı Novxanı bağına köçməli olduq.

## ALTINCI ŞƏKİL

Əncirli, üzümlü bir bağın eyvanı. Zivəyə paltar sərilib. Əfruz xörək bişirir. Tovuzla Qızılgül qumun üstündə oynayırlar. Bülbül radioda xalq mahnısı oxuyur. Əfruz fikirlidir! Hərdən də gözləri yol çəkir. Dayanıb bir an yola nəzər salır. Anaxanım xala hasarın o tərəfindən boylanıb gəlir.

Anaxanım xala. Xoş gəlmisən, ay Əfruz. Bu il nə tez bağa köçmüsünüz?! (*Görüşürlər.*)

Əfruz. Çox sağ ol, Anaxanım xala. Köçdük də. Şəhər çox istidir. Necəsiniz? Uşaqlar necədirlər?

Anaxanım xala. Yaxşıdırlar. Əli qardaş necədir? Ay qızım, eşitmişəm, doktorluğun institutuna girmisən. Sağ-salamat qurtarasan, bala, oranı.

Əfruz. Çox sağ ol, Anaxanım xala. Əli şəhərdə qaldı. Bu gün gəlməlidi. Elə gözüm yolda qalıb. İşi vallah başından aşır. Qızlar da yaman öskürürlər. Deyirəm qumun bəlkə xeyri dəydi.

Anaxanım xala (*pıçıltıya keçir*). Əfruz, qızım, şəhərdə nə var, nə yox? Bu nə tutatutdu, qızım? Bizim kənddə də neçəsini apardılar. Qulağıma çatıb şairlərimizdən də neçəsini tutublar. Eşidəndən bəri özümə yer tapa bilmirəm.

Əfruz (*üzünə kədər çökür*). Anaxanım xala, vallah, biz də çaşbaş qalmışıq. Hənəfi Zeynallı var ey, eşitməmiş olmazsan. Keçən il bağa da gəlmişdilər. Nə vaxtdı onlardan xəbər tuta bilmirəm. Nigaran qalmışam.

Anaxanım xala. Sənin xəbərin yoxdu, qızım. Bu il başıma gör nə iş gəlib. (*Evə keçib əlindəki balaca bir şəkillə qayıdır*, *Əfruza sarı uzadır.*) Bu şəklə bax, qızım.

Əfruz (*baxır*). Kimdir ki, bu? Nə gözəl qızdı.

Anaxanım xala (*pıçıltıyla*). Məmmədəminin qızıdır də. Müsavatın böyüyünün. Heç kəsə demə, mənə qohumluğu çatırdı. Sənə bu qızdan danışım bala. Ruslar ki buraları tutdular, müsavatın üzvlərinin başlarına min oyun açdılar. Məmmədəminin dostları çox idi. Onu, deyilənə görə, Türkiyəyə keçirtdilər. Yazığın evi ondan sonra dağıldı. Anasını, arvadını uşaqlarıynan Qazaxıstana sürgün elədilər.

Əfruz (*təşvişlə*). Nə vaxt?

Anaxanım xala. Bir il olar. Yazıqlardan bir xəbər də yoxdur. Oğlu Rəsulu, deyilənə görə, iyirminci illərdə güllələdilər. Yazıq

arvad bilmirəm o soyuqlara davam gətirə biləcəkmi?! (*Ağlamsınır.*) Hə, onu deyəcəkdim axı. O yazığın burada bir qızı qalmışdı, ərdəydi. Ona nədənsə dəyib-dolaşmırdılar. Sonra qız yoxa çıxdı. Sən demə yazığı izləyirmişlər. Yazıq qızcığaz o qapıda-bu qapıda gizlənə-gizlənə, bir gün gəlib bizə çıxdı. Gördüm qapı döyülür. Getdim açdım. Qapının arxasında görürəm cır-cındırın içərisində cavan gəlin dayanıb. Deyirəm, a bala, sən kimsən? Gördüm gözləri yaşardı. Deyir, Anaxanım xala, məni tanımadın? Mənəm də. Adını deyən kim, bağrıma basdım. "Ay bala, – dedim, – bu günə nöş düşmüsən? Ərin hanı?" "Ərimi, – dedi, – tutub apardılar, məni də axtarırlar".

Ə f r u z. Yazığın təqsiri nə idi ki?

A n a x a n ı m  x a l a . Nə olacaq. Heç nə Məmmədəmin Rəsulzadənin qızı döyül. Gərək bu qansızlar kişinin (*səsini alçaldır*) nəslini kəssinlər. Bala, qızın palın-paltarın dəyişdirdim, çimizdirdim, bir aya kimi qızı yanımda saxladım. Qarın da ki, gündən-günə böyüyür. Demə vaxtı imiş. Bir gün tifilin ağrısı tutdu. Ay Allah, neynim bunu mən. Əlacsız qalıb xəstəxanaya apardım. Aparmağımla azad olmağı bircə saat çəkdi, oğlu oldu yazığın. Qaçdım evə quymaq çaldım. Əsgidən-üsgüdən apardım qıza. Fikirləşdim, day, kimdi ona dəyib-dolaşan. Hər gün xəstəxanaya xörək aparırdım. Deyirdim, ay Allah, şükür daha qıza dəyib-dolaşmayacaqlar. (*Ağlayır.*) Ay Əfruz, belə zülmü Allah heç kəsə göstərməsin. Xəbər tutublar qızın xəstəxanada yatdığını. Bir gün xörək hazırladım, dəyişəcək götürdüm, elə xəstəxananın həyətinə yaxınlaşmışdım ki, gördüm oranın xadiməsi mənə göz eləyir ki, bu yana keçim, sözü var. Keçdim. Dedi, ay bədbəxt, qurd ürəyi yemisən-nədi. Məmmədəminin qızını apardılar. Uşağıynan birgə. Bir qara maşınnan gəlmişdilər. Basdılar maşına üzü şəhərə tərəf sürdülər. Sən də, dedi, buralarda az hərlən. Yoxsa səni də o qızcığaza qatacaqdılar. əgər burada olsaydın. Ağlaya-ağlaya suyu süzülmüş evə gəldim. O gündən qızdan xəbər yoxdu. Allah bilir, başına nə oyun açdılar. (*Ağlayır.*) İndi də tutatut başladı.

Ə f r u z. Yazıq.

A n a x a n ı m  x a l a. Bəs bu işin axırı nəylə qurtaracaq, bala? Əli nə deyir?

Ə f r u z. O da məəttəl qalıb. Bilmirəm mənə təskinlik verir, ya nəyə görəsən... Deyir heç kimə heç nə etməyəcəklər. Deyir hər şeyi aydınlaşdırıb buraxacaqlar.

A n a x a n ı m  x a l a. Allah ağzından eşitsin.

Uşaqlar eyvana çıxırlar. Anaxanım qızların üzündən öpür, danışdırır.

A n a x a n ı m   x a l a. A Tovuz, de görüm, ananı çox istəyirsən, atanı?

T o v u z. İkisini də. (*Anasını qucaqlayır.*)

A n a x a n ı m   x a l a. Ağıllı bala, ikisini də istə. Mənim nəvələrim bilmirəm bicliyi hardan öyrəniblər. Ataları yanında olanda deyirlər atamı, anaları olanda deyirlər anamı. Yaman şuluq uşaqdılar, Allah saxlamışlar. Ay Qızılgül bala, bəs keçən yay mənə deyirdin sənə noğul gətirəcəm. Hanı bəs?

Q ı z ı l g ü l. Bu saat gətirim. (*Evə qaçıb bir ovuc noğul gətirib Anaxanım xalaya verir.*) Bax, yadımdan çıxmayıb. Ye, ağzın şirin olsun.

A n a x a n ı m   x a l a (*noğulun birini ağzına alır*). Ay bala, sənin də ağzın şirin olsun. İndi bildim ki, Qızılgül məni hamıdan çox istəyir. Mənim gül qızım. Noğul kimi şirin olsun həyatın, qızım.

Əfruz da dil-ağız eləyir. Uşaqlar yenə bağa düşürlər. Anaxanım xala gedir.

Ə f r u z (*əncir ağacına baxır*). Əliyə, gərək, tapşırım şəkər alıb gətirsin. Əncir mürəbbəsini uşaqlar çox sevirlər.

Q ı z ı l g ü l (*qaça-qaça gəlir*). Ay ana, qum yandırdı ayağımı.

Ə f r u z (*gülür*). Yandırmaz, gülüm. Get oyna. Öskürəyinə xeyirdi axı.

Q ı z ı l g ü l. Bəs ata gəlməyəcək bu gün?

Ə f r u z. Gəlməlidir, quzum... Gəlməlidir.

Qızılgül anasının üzündən öpüb qaçır.

Ə f r u z (*fikirli-fikirli*). Əlidən çıxmayan iş, həmişə bu vaxtlar evdə olardı. Görəsən başına bir iş gəlməyib ki...

Yenidən bir xeyli yola sarı boylanır. Maşın səsi eşidilir.
Əli hasarı adlayır. Salamlaşırlar.

Ə l i (*gülümsünür və yaxınlaşıb arvadının saçlarına sığal çəkir*). Əfruz, yaman darıxmışam sənin üçün, uşaqlar üçün. Kaş bircə həftə sizinlə bir yerdə olaydım.

Ə f r u z. Məzuniyyətini götürə bilməzsən?

Ə l i. Nə bilim. (*Dalğınlaşır.*) İş çoxdur. Bəs uşaqlar hanı? Əmələ gəlirlər?

Ə f r u z. Babatlaşırlar. Niyə bikefsən, Əli? Şəhərdə vəziyyət necədir?

Ə l i. Hələ ki, yaxşı heç nə deyə bilmərəm.

Ə f r u z. Əli, bəzən elə vahimələnirəm ki... Axır vaxtlar pis-pis yuxular görürəm.

Ə l i. Fikir eləmə, gülüm. Mənə elə gəlir ki, haqq öz yolunu tapacaq.

Ə f r u z. Nə bilim. Sən deyən olsun. Hənəfigilə getmədin?

Ə l i (*ah çəkir*). Səndən gizlətmək istədim, Əfruz, Hənəfini tutublar.

Ə f r u z (*gözləri dolur*). Sən nə danışırsan, Əli! Bəs Səyyarə? Səyyarə hardadır?

Ə l i. Səyyarə bacıdan xəbərim yoxdur. Hənəfinin görüşünə getdim. Dedi narahat olmağına dəyməz. Beş-on günə sorğu-sual edib buraxarlar. Məni arxayın saldı.

Ə f r u z. Hənəfini nəyin üstündə tutublar ki?

Ə l i. Hələ ki, heç nə demirlər. Özü isə çox sakitdir. Təmiz adama neynəyə bilərlər ki, Əfruz?

Ə f r u z (*sakitləşir*). Şəhərə gedən kimi Səyyarədən xəbər tutarsan.

Qızılgüllə Tovuz hay-küylə qaça-qaça gəlib atalarının qucağına atılırlar.

Q ı z ı l g ü l. Ata, nə vaxt gəldin biz görmədik? Maşınla gəldin?

Ə l i. Yox, gülüm, uça-uça gəlmişəm. (*Qollarını açır.*) Uçdum, uçdum, gəlib sizin yanınıza düşdüm.

T o v u z (*atasının gətirdiyi zənbili eşələyir*). Mənə nə almısan, ata? Bu alça, bu gilas? Bəs ərik? Axı mən ərik istəyirəm, ata.

Ə l i. Ərik hələ yetişməyib, Tovuz. Yetişsin ondan da alacağam.

T o v u z. Mən indi istəyirəm.

Ə f r u z (*qızına təpinir*). Kiri, ay qız. Atan yoldan gəlib, yorma atanı.

Ə l i. Uşağın xətrinə dəymə. (*Əli qucağında özünə yer eləyən qızının üzündən öpür.*)

Q ı z ı l g ü l. Heç gör, ata, mən istəyirəm? Mən heç nə istəmirəm ki...

Əfruz (*yemək tədarükü görə-görə*). Ona görə ki, sən ağıllı qızsan. Qarınqulu döyülsən Tovuz bacın kimi.

Tovuz inciyib ağlamaq istəyir.

Əfruz. Tovuzun da üç yaşı yaxınlaşır axı.

Əli (*sevinmiş kimi*). Doğrudan ha. Heç yadıma düşmür. Bu gün ayın neçəsidir? Beşi?

Əfruz. Şənbə gününə düşür.

Əli. Görüm imkan tapsam, bir gün qabaqdan gələrəm. Ətdən, toyuqdan da alıb gətirərəm, qeyd edərik uşağın yaşını.

Tovuz (*sevincək*). Ərik də alarsan, ata. Ərik yadından çıxmasın, ha...

Əfruz. Fikri elə əriyin yanında qalıb, ha. (*Əfruz gülüb qızının üzündən öpür.*) Qızım, atan ürəyin nə istəyirsə hamısından alacaq. Hər şey. Sənin yaşındı axı. Qızılgülün də yaşında ona alacaq.

Qızılgül (*qulaqlarını şəkləyir*). Mənim ad günümdə, ana, qoy ata mənə qırmızı ayaqqabı alsın. Daha heç nə istəmirəm.

Tovuz (*ağlamsınır*). Mən də qırmızı ayaqqabı istəyirəm.

Əli (*zarafatla*). Tovuz, ikisindən birini de. Ya ərik, ya qırmızı ayaqqabı.

Tovuz (*çaşqın-çaşqın*). Nə? Ərik, yoxsa ayaqqabı. Ərik, yox ayaqqabı.

Əli ilə Əfruz gülürlər.

Əli (*Əfruzun gətirdiyi çayı içə-içə*). Zarafat edirəm. Tovuz, nə istəyirsəniz anan bir vərəqəyə yazsın, alıb gətirərəm. (*Əli yenidən qızının üzündən öpür.*) Hər şey alacağam sizə, quzum. Ərik də, ayaqqabı da, konfet də.

Ər-arvad deyib gülür. Bu bağın mülayim, həzin mehini, sərinliyini uda-uda uşaqlarını əzizləyirlər. Bu vaxt telekamera "Üçlüyün" portretini göstərir. Onların qəddar, boz sifətləri görünür. Vahiməli musiqi səslənir. Gecədir. Telekamera qaranlıq otağı göstərir. Bu otaq Əlinin kabinetidir. Əlini əlləri dallarına qapanmış vəziyyətdə aparırlar. Sonra yenidən bağ evi görünür. Əfruz, uşaqlar əlləri qoynunda yola boylanırlar.

Anaxanım xala (*öz evindən boylanır*). Nolub? Ay Əfruz? Niyə bikefsən?

Ə f r u z. İki gündür nigaranıq Əlidən. Əli gəlməliydi. Gəlib çıxmayır.

A n a x a n ı m  x a l a. Fikir eləmə, bala. Gələr. Əlbət işi var ki, gəlib çıxmayır.

Ə f r u z (*doluxsunur*). Yox, Əlinin başında nəsə var. Yoxsa uşağın ad gününə özünü çatdırardı.

Sayad ağlaya-ağlaya özünü hasardan içəri salır. Əfruzun rəngi ağarır. Yıxılmaqdan özünü saxlayaraq külafirəngiyə söykənir.

Ə f r u z. Sayad, danışma, bacı. Bilirəm niyə ağlayırsan. Heç nə demə mənə. Demə Əlini apardılar! Danışma, sus. (*Bacılar qucaqlaşıb ağlayırlar.*)

S a y a d (*ağlaya-ağlaya*). Elə kabinetindəcə aparıblar. Papağı da qalıb mizin üstündə. (*Əllərini göyə qaldırıb.*) Bu zülmün axırı hara gedib çıxacaq, ya Tanrı, özün kömək elə. Haqqı nahaqdan ayır. (*Əfruz əlləriylə üzünü örtür*, *hönkürür.*)

## İKİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Həbsxana həyatı. Əfruz başında qara örpək, əlində bağlama qapının ağzında prokurorun qəbulunda növbəyə dayanmışdı. Ondan başqa bir neçə adam da növbəyə durub.

Ə f r u z (*ürəyi döyünə-döyünə içəri keçir*). Salam.

P r o k u r o r (*ayağında xrom çəkmələr var-gəl edir. Əfruzu görüb ayaq saxlayır. Əfruzu başdan-ayağa süzür. Sonra gümrahcasına gərdişini saxlayıb əyləşir. Əlini stulların birinə sarı uzadır. Öz-özünə.*) Nə gözəl qadındı. Bu cür mələyi ələ keçirmək, məncə, pis olmaz. – Buyur, əyləş, xanım. Sizi böyük məmnuniyyətlə dinləyirəm.

Ə f r u z (*oturmur*, *başını aşağı salaraq*). Yoldaşımın görüşünə gəlmişdim. Dedilər görüş bundan sonra olmayacaq. Bilmirəm nə səbəbə? (*Əfruz doluxsunub danışa bilmir.*)

P r o k u r o r. Yoldaşınız kimdir ki? Famili?

Ə f r u z (*köksünü ötürür*). Əli Əhməd oğlu Əlibəyov.

Prokuror. Əlibəyov? Aha, deməli, Əlibəyovun qadınısınız. "Zövqün pis deyilmiş, Əlibəyov". (*Bir an dalğınlaşsa da kefin pozmadan gözünü Əfruza dikir.*) Sizin kimi mələyin ayaq üstə durmağı məni lap narahat edir.

Əfruz naəlac qalıb oturur.

Prokuror. Savadlı qadına oxşuyursunuz. İşləmirsiniz?

Əfruz. Yox. Oxuyuram.

Prokuror. Harda? (*Maraqla.*)

Əfruz. Tibb İnstitutunda.

Prokuror. Oho, gələcəyin həkimi. Gözəl qadın ağ xalatda. (*Həris baxışlarla Əfruza baxır.*)

Əfruz (*ikrah hissilə ayağa qalxır*). Siz mənə yoldaşım haqqında bir söz deyəcəksinizmi?

Prokuror. Mən çox təəssüf edirəm, çox təəssüf edirəm ki, sizin kimi gözəl dələduzun, qardaş xalqları arasında intriqa salanın qadınıdır.

Əfruz (*Əfruzu yaş boğur*). Mənim kimin qadını olmağım sizi narahat etməsin, yoldaş prokuror. Yoldaşım haqda mənə bir söz deyin, ona böhtan atmayın!

Prokuror. Böhtan? Onun yazdığı məqalənin adı nə idi? "Vətəndə vətənsizlər" Kimlərə eyham vururdu bizim bu göyçək Əlibəyov. Kimdi vətəndə vətənsizlər. Zəngəzurlu azərbaycanlıları nəzərdə tutur? Heyf! Göyçə gölü belə getdi, Ağrı dağımız qürbətdə qaldı. Bu boş, cəfəng yazılarıyla xalqlar arasında düşmənçilik toxumu səpir sənin həyat yoldaşın (*sözlərini uzadaraq*). Əlibəyov onsuz da öz cəzasını çəkəcək, çünki dövlət çevrilişində də iştirak edib, ancaq sizin kimi gözələ adamın heyfi gəlir.Biz onu on il müddətinə sürgünə göndərdik.

Əfruz (*gözləri böyümüş halda*). Sürgün! Nə sürgün? Mənim yoldaşım təmizdir! Təmizdir! Ona böhtan atıblar. O təmizdir! (*Ağlayır.*)

Prokuror. Həyəcanlanmayın, xanım. Sizə əsəbiləşmək yaraşmır. Təəssüf ki, sizin kimi qadın xeylaqları çox sadəlövh olur. (*Sükut.*) Yoldaşınız sürgünlə canını qurtaracaq, ancaq sizin burda vəziyyətiniz çətin ola bilər. Bəlkə mənim köməyimi qəbul edib yol-

daşınızın damğalanmış ləkəsini adınızdan silməyə çalışasınız. Mənli, sənli, (*bığaltı gülümsəyib*) necə deyərlər, çalışaq adınızdan götürək.

Ə f r u z (*onu eşitməyərək öz-özünə*). Sürgün? Nəyə görə? Axı nəyə görə? (*Hıçqırır və ayılmış kimi.*) Nəyi adımdan silməliyəm? Hansı günahı?

P r o k u r o r (*yumşaqcasına*). Siz ki, əzizim, savadlı, oxumuş qadınsınız. Bunu bilməlisiniz. Hər bir müqəssir öz cəzasını çəkmə-lidir.

Ə f r u z. Mənim yoldaşımın günahı yoxdur! Yoxdur! Ona böhtan atıblar!

P r o k u r o r. Eh, qadınlar, bilmirəm niyə belə hissə qapılırlar. Əlibəyov başını götürüb getdi, ancaq, gözəl xanım, sizi incidə bilər-lər. Sizi... Ona görə də mənimköməyimi qəbul etməyinizi rica edi-rəm. Rədd etməyin. Həmişə qulluğunuzda hazıram.

Ə f r u z (*nifrətlə prokuroru süzür*). Nəyə görə, nəyə görə siz mənim qulluğumda dayanmalısınız?

P r o k u r o r. Əfruz xanım, sizin kimi, qadınlar mənim zövqümü oxşayır. Demək istəyirəm ki, zövqümə uyğun mələksiniz. Bax elə buna görə də...

Ə f r u z. Nə yaxşı. (*Hirslə.*) Ünvanınızı səhv salmısınız. Siz əri-min heç dırnağı ola bilməzsiniz. (*Əfruz ağlaya-ağlaya bağlamanı götürür.*) Yoldaşım təmizdir! Əli təmizdir! Sizin... sizin kimilər yoldaşıma böhtan atırsınız. Sizin kimilər! (*Ağlaya-ağlaya otaqdan çıxır. Öz-özünə danışa-danışa evinə sarı gedir.*) Qurban olum, Əli. Səni, demək, sürgün ediblər. Yolunu gözləyəcəyəm, Əli. Başımdakı bu qara örpəyi sən gələnə kimi açmayacağam. Sənin amanatlarını – o bir cüt körpələrini bir saçımı ağ, o birini qara hörüb yolunu gözləyə-gözləyə qoruyacağam! And içirəm! Bizə nahaqdan dəyən bu zərbələri biz bağışlasaq da, Allah bağışlamayacaq, Əlim!

Əfruzun şəhərdəki evi. Əfruz başında qara örpək dərdli, hüznlü
adamlar kimi gah Sayada, gah da İsmayıla baxır.

İ s m a y ı l. Əfruz, bacım, sənin, uşaqların taleyi bizi narahat edir axı.

Ə f r u z (*Sayada baxır*). Sözlü adama oxşayırsan, Sayad? Mənə nə demək istəyirsiniz?

S a y a d. İsmayıl, bəlkə Əfruza sən başa salasan.

Ə f r u z (*narahatcasına*). Əlidən bir xəbər eşitmisiniz?

S a y a d. Əlidən? Vallah ondan bir xəbər yoxdur. (*Sayad pıçıltıya keçir.*) Sən özün görürsən ki, ailənin başıpapaqlılarını vətən xaini adıyla tutmaqla ürəklər soyumur. Bacı, özün şahidsən ki, neçəsinin arvadlarını, uşaqlarını bir gecənin içində evindən-eşiyindən eləyiblər, qapılarına kilid salıblar. Qadan alım mən də, İsmayıl da bu işlərdən qorxuruq. Ona görə də sən, bacı, sözə bax. (*Sayad ağlaya-ağlaya bacısının boynunu qucaqlayır.*)

Ə f r u z. Axı mən nə etməliyəm ki?

S a y a d. Gərək Əlidən boşanasan. Onun familiyasından çıxasan. Bəlkə bunun bir köməyi dəydi. (*Üzünü Əlinin divardakı şəklinə sarı tutub pıçıldayır.*) Bağışla məni, Əli. Sən özün bilirsən ki, mən sənin xətrini nə qədər istəyirəm. Başqa çıxış yolumuz yoxdu.

Ə f r u z (*qıy çəkir*). Əlidən boşanım? Yox! Sayad! Yox! Yenə də yox! Yox! Yox! Yox! Mən ömrümün axırına kimi onun olacağam. Qoy mənə nə edirlər etsinlər. Mən Əlinin yolunu gözləyəcəyəm. Nə qədər ki, nəfəsim gəlib-gedir. (*Əfruz qalxıb şkafa sarı gedir. Əlinin şkafdan asılmış paltarlarını çıxardıb qucaqlayır. Üzünü paltarlara sürtüb xəyala dalır.*)

Əfruz keçmişə qayıdır. Qulağına Əlinin səsi gəlir.

Ə l i (*qapıda dayanıb*). Əfruz!

Ə f r u z (*diksinir və əlindəki darağı bilmir hara qoysun*). Bıy, Allah məni öldürsün!

Ə l i. Əfruz, nə tez böyümüsən? Mən ki səni uşaq qoyub getmişdim.

Ə f r u z (*çaşqıncasına*). Mənə nə, yox sənə nə, nə tez böyümüşəm.

Ə l i (*incimiş*). Mən nə dedim ki!..

Ə f r u z. Sən? Nə bilim nə dedin.

Ə l i. Onda niyə məni acılayırsan?

Ə f r u z. Mən? Nə vaxt?

Ə l i. İndi. Lap bu saat.

Əfruz yenidən əliylə üzünü qapayır. Sonra əllərini üzündən çəkib
qapının kandarına baxır. Əli çıxıb getməmişdi və
qəhqəhə çəkib gülür. Əfruz da gülür.
Əfruz qara örpəkdə Əlinin paltarlarını qucaqlamış halda.

## İKİNCİ ŞƏKİL

Gecənin yarısı. Əfruzun qapısı döyülür. Uşaqlar çarpayıda yatırlar.
Əfruz paltarını əyninə keçirib qapıya yaxınlaşır.

Əfruz. Kimdi qapını döyən.

Minas. Evlər idarəsinin müdiri Minasdı. Aç qapını. Hökumət adamları gəlir. Evdə axtarış aparmalıyıq.

Əfruz qapını açır. İki nəfər nataraz adam Minasla içəri girir.

Əfruz. Nə axtarış?

Minas. İnanmırıq, julik, xalq düşməni Əlibəyovun evindən əliboş gedək.

Əfruz. Xalqın düşməni? Əlini yaxşı tanımırsınız! Yaxşı tanımırsınız Əlini! Bu böhtandı.

Eynəkli kişi (*evi axtarır*). Oho, mən nə görürəm. Xalq düşməni Cavidin kitabı Stalinin səsi yazılmış valın yanında... Harınlığa baxın. (*Əlinə alır. Minasa.*) Bunu da qeyd elə. Cəld edin, vaxt yoxdur.

Minas. Tez yığış. Bu yoldaşları gözlətmək olmaz. Uşaqlarını da durğuz. Evin əşyaları siyahıya alınmalıdır. Geyinin. Əlli tərpənin, vaxt yoxdur. Qız, uşaqların paltarını ayrı yığ. Çoxlu isti paltar götür özünə.

Əfruz. Axı niyə? Nəyə görə? (*Özü-özünə.*) Bəlkə bizi Əliylə görüşdürdülər. Ay Allah, kaş Əlini görəydim. (*Qızları durğuzur.*) Tovuz, Qızılgül, durun, geyinin atanın yanına gedirik.

Kişilər bir-birlərinə baxıb kinayəli-kinayəli gülümsünürlər.

Eynəkli kişi. Uşaqlarınızın şəklini də götürsəniz, pis olmaz.

Əfruz (*çaşqın-çaşqın qara örpəyini axtarır*). Şəkil? Şəkil niyə? Qızılgül, mənim qara örpəyim hanı? (*Tapıb örpəyini bağlayır.*)

Minas. Tez ol da. Örpək-mörpək yeridir?

Əfruz (*nifrətlə Minasa baxır*). Sən burda qaşıq bulandırma. Satqın!

Minas (*hirslə pıçıldayır*). Hələ harasıdır. Kökünüzü kəsəcəyik süzün.

Əfruz əsəbi-əsəbi divardan ərinin, uşaqlarının şəklini çıxardıb çamadana qoyur.
Qucağında Tovuz, bir əliylə Qızılgülü tutub pilləkənləri düşür.

Q ı z ı l g ü l . Ana, bizi hara aparırlar?
Ə f r u z. Bilmirəm, qızım, bilmirəm.
Q ı z ı l g ü l . Atamı istəyirəm. Gedək atanın yanına.
Ə f r u z. Ata uzaqdadır axı.

Maşının sürücüsü uşaqlı ananı görüb cəld maşından düşür. Tovuzu Əfruzun əlindən alıb ona maşına minməyə kömək edir.

S ü r ü c ü . Yavaş elə, qızım, uşaq yuxuludu. Yıxıla bilər. Görək, bu zülmün axırı hara gedib çıxacaq.
Ə f r u z. Əmi, bizi hara aparırlar?
S ü r ü c ü . Enkevediyə, qızım, Enkevediyə.

Maşın qaranlıq küçəylə şütüyür.Buz kimi soyuq otaq. İki tərəfinə kətil düzülmüş stol qoyulub. Əfruz uşaqlarla burda oturub. Əfruzu gətirən eynəkli kişiylə hərbi paltarlı bir adam içəri keçir.

H ə r b i  p a l t a r l ı  a d a m (*əlini Əfruza tuşlayaraq*). Əlibəyovun qadını budur?
E y n ə k l i  k i ş i. Bəli, yoldaş Qarəlliyev, özüdür ki var.
Ə f r u z (*maraqla gah qapıya*, *gah da kişilərə baxır*). Bəs mənim yoldaşımdan... bir məlumat...
H ə r b i  p a l t a r l ı  a d a m (*asta-asta pəncərəyə yaxınlaşır*, *sonra dönüb ötəri Əfruzu*, *uşaqları yenidən süzür*). Siz həbs edilirsiniz. (*Uşaqları göstərir.*) Bunları isə indi elə bu saat yetimxanaya aparın.

Əfruz boğulan adamlar kimi dəhşətlə hərbi paltarlı adama baxır. O isə uşaqları eynəkli kişiyə göstərərək sözünü yenidən təkrar edir.

– Yetimxanaya!
E y n ə k l i  k i ş i. Bu saat. (*Cəld uşaqlara yaxınlaşır*, *qızlar analarına sarmaşırlar. Əfruz gözləri böyümüş halda heç nə dərk etmədən uşaqları buraxmır.*)
Ə f r u z. Çəkil!
E y n ə k l i  k i ş i (*hərbi paltarlı adama*). Neynim indi mən? (*Hərbi paltarlı adam üz-gözünü turşudur.*)
Q ı z ı l g ü l (*özünü anasının qucağından almaq istəyən eynəkli kişiyə*). Get, mən anamı istəyirəm. Ana, qoyma məni aparsınlar, ana! Qoyma! (*Ağlayır.*)

Qızılgülü Əfruzun əlindən alıb otaqdan çıxardırlar.

Q ı z ı l g ü l (*dəhlizdən səsi eşidilir*). Ana! Ana!

Ə f r u z (*qızını vermək istəmir. Tovuzu iki qolları arasına alıb buraxmır və hıçqıra-hıçqıra qışqırır*). Vermərəm, səni! Tovuzum! Vermərəm!

E y n ə k l i k i ş i. İndi mən neyləyim bu həyasızla?

H ə r b i p a l t a r l ı a d a m. Oyun çıxarmayın. Üzüsulu verin uşağı. Görünür biz sizi, sizin kimi vətən xainlərini çox qudurtmuşuq.

Ə f r u z (*yenə də müqavimət göstərib qışqırır*). Vermərəm balamı! Vermərəm!

Eynəkli kişi zor gücü ilə Tovuzu anasının əlindən dartışdırır. Əfruz qara örpəyi başından sürüşüb düşsə də Tovuzu qolları arasından buraxmaq istəmir. Sonra bir an kişiyə nəzər salır. Kişinin əlini dişlərinin arasına alır. Eynəkli kişi ağrıdan dikəlir.

E y n ə k l i k i ş i. Kökünüzü kəsmək lazımdır süzün (*Əfruzu təpikləyir, uşağı onun əlindən alır. Əfruz ağrıdan döşəməyə sərilir*).

## ÜÇÜNCÜ ŞƏKİL

Həbsxananın həyəti. Bir neçə qadın kamerada oturub. Qadınlar qara nimdaş paltarlarda dəmir barmaqlıqların arasından görünürlər. Şükriyyə ağlamaqdan şişmiş gözlərini bir nöqtəyə dikib, bir neçə qadın halsız oturub. Bir qadın süd gələn döşünü tənziflə tutub gülümsəyir. Hiss olunur ki, ruhi xəstədir. Başqa bir qadın çarşabını açmadan döyükə-döyükə ətrafına baxır. Hiss olunur ki, bura düşməyinə özü də çaşıb qalıb. Həyətdən gələn səslər kamerada eşidilir. Böyük Oktyabr inqilabının iyirmi illiyi qeyd olunur. Konsertdən sonra şüarlar eşidilir.

– Böyük rəhbərimiz Stalinə eşq olsun!

– Yaşasın, şanlı Böyük Oktyabr inqilabı!

Bu vaxt kameranın qapısı açılır. Əfruzu huşsuz halda içəri salırlar. Əfruzun başına yığışıb onu dövrəyə alırlar. Qadın özünə gəlib gözlərini açır.

Ə f r u z. Mən hardayam?

Ş ü k r i y y ə. Əfruz?! Sənsən?

Ə f r u z. Mənəm. (*İnildəyir.*) Sən kimsən? (*Key-key soruşur.*)

Ş ü k r i y y ə. Mənəm, Şükriyyə. Əhmədin arvadı.

Ə f r u z (*Şükriyyəni qucaqlayır*). Əhməd Cavadın? Şükriyyə, səni niyə bura salıblar? Bura haradır?

Ş ü k r i y y ə. Türmədi, bacım, türmə. (*İkisi də ağlayır.*) Əhmədi də tutdular. Dünən apardılar.

Ə f r u z (*ağlaya-ağlaya*). Qızları aldılar əlimdən, Şükriyyə, qızları. Bilmirəm hara apardılar.

Yenə də kameraya musiqi səsi dolur. Şüarlar eşidilir:
– Müsavatçıların kökü kəsilməlidir.
– Kulaklar, bəylər, vətən xainləri məhv edilməlidir.
– Yaşasın Sovet hakimiyyəti.
– Leninin ideyalarını həyata keçirin.

C a v a n g ə l i n. Ay Allah, mən nə edim? Süd paltarımı isladıb.

Ş ü k r i y y ə. Tənziflə bağlamaq lazımdır. Əgər bağlasan, döşünün südü kəsilər.

C a v a n g ə l i n. Yox, yox, bağlamaram. Bəs döşümü bağlasam, uşağımı kim əmizdirər. (*Gülür.*)

Ə f r u z. Kimdi o qadın, Şükriyyə? Niyə elə gülür?

Ş ü k r i y y ə (*ağlamsınır*). Südəmər uşağını alıblar əlindən. Özünü də bura salıblar. Əvvəllər ağlı başındaydı. Uşağın fikri qızı dəli eləyib. (*Pıçıldayır.*) Yazıq gecələr uşağına paltarlardan beşik düzəldib, laylay çalır. Nə qədər təskinlik veririk, heç nə kömək eləmir.

C a v a n g ə l i n (*gülə-gülə*). Bu gün balamı görəcəm.

Ə f r u z (*qəzəblə*). Ay Allah, bu zülmü bizə niyə çəkdirirsən? O körpə uşağın, bu cavan gəlinin günahı nədir?

Ç a r ş a b l ı q a d ı n (*onlara yaxınlaşır*). Ay bacı, qurban olum, adınızı da bilmirəm. Bir məni başa salın görüm məni niyə bura salıblar? Təqsirim nədir? Ərim, vallah, fağır kişidir. Çoban idi ərim. Bir ay olar gəlib aparıblar. Ölüsündən, dirisindən xəbərim yoxdur. Uşaqlarımı qayınanamın ümidinə qoymuşam.

Ş ü k r i y y ə. Ərini tutanda demədilər ki, niyə aparırıq o bədbəxti.

Ç a r ş a b l ı q a d ı n (*ağlamağını kəsib fikrə gedir*). Dedilər, bacı, guya ərim kənddə beş-on adamın yanında deyib ki, bilmirəm, bu qoyun-quzuya nolub. İndiki zamanda heyvanlar gündən-günə geri düşürlər. (*Ağlayır.*) Gecəynən kişini gəlib apardılar. İndi bilmək istəyirdim, bacı, bizi niyə evdən-eşikdən pərən salıblar? Günahımız nədi axı?

Ş ü k r i y y ə (*oturub divara söykənir*). Yox, biz əlimiz qoynumuzda oturmamalıyıq. Əfruz, yuxarıların bizim faciəmizdən xəbəri

yoxdur. Biz məktub yazmalıyıq, hamımız imza atmalıyıq. Haqq-ədalət yolunda. Kimdə qələm var? (*Qələm-kağız tapıb yazmağa başlayır. Qadınlar Şükriyyənin başına yığışırlar.*)

Bu zaman qapı açılır. Kameranın işçisi əlində qara çörək,
bir qəfədan su içəri girir və gözü vərəqəyə sataşır.

Kamera işçisi. O nədir yazırsınız? Bura verin. (*Qadınlar geri çəkilir. Vərəqəni Şükriyyədən alıb oxuyur.*) Pah, partizanlıq edirsiniz. Stalin yoldaşa! (*Diksinib ayağa qalxır.*) Gör bu qadınlar kimə məktub yazırlar? Stalin yoldaşa. (*Əlindəkiləri qadınların üstünə atır.*) Bugünkü payınızı yeyin, Allahınıza şükür eləyin. Çığır-bağır da salmayın. Sabah səhər sizi yola salırıq, hamınızı bir nəfər kimi. (*Barmağını tuşlayaraq qadınları sayır. Bir-bir adlarını soruşub dəftərçəsinə qeyd edir.*)

Şükriyyə (*keşikçiyə yaxınlaşıb təşvişlə soruşur*). Bizi hara göndərirlər?

Keşikçi. Qazaxıstana. Bu gün yuxarıdan göstəriş gəlib. Sürgün olunursunuz. (*Gedir.*)

Qadınlar bir-birilərini qucaqlayıb ağlaşırlar. Çarşablı qadın
heç nə başa düşmədən qadınların birinə yaxınlaşır.

Çarşablı qadın. Qadan alım, o qardaş nə deyir? Bizi buraxırlar? Nə yaxşı. Sabah?

Şükriyyə. Ay zavallı. Buraxmaq nədir, biz qaragünləri uzağa sürgün eləyirlər.

Çarşablı qadın bu sözü eşidib qışqırır və ürəyi gedir.

Kamera işçisi (*yenidən gəlir*). Əfruz Əlibəyova! Beş dəqiqəlik görüş. (*Əfruz tələsik kameradan çıxır.*)

Sayadla əri həbsxananın həyətinin qapısında dayanıb Əfruzu gözləyirlər.
Dəmir barmaqlıqların arxasında Əfruz görünür. Sayadla Əfruz
bir-birilərinə baxıb ağlayırlar.

Əfruz (*hıçqıra-hıçqıra*). Sayad, bacı, hanı mənim Qızılgülüm, hanı Tovuzum? Onları hara aparıblar? Yerlərini barı bilirsənmi?

S a y a d. Qorxma, Əfruz. Yerini tapmışıq. Yetimxanadadırlar. 1 nömrəli yetimxanada.

Ə f r u z (*yalvarıcı səslə*). Səndən xahiş edirəm, bacı. Səndən, Maral anamdan başqa mənim yaxın adamım yoxdu. Qoymayın onları yetimxanada böyüsünlər. İtərlər, bacı, itərlər orda. (*Hıçqırır.*) Gəlib tapa bilmərəm, bacı, balalarımı.

S a y a d (*ağlayır*). Səni hara göndərirlər ki, Əfruz? Bu da təzə çıxdı. (*Təşvişlə.*)

Ə f r u z. Hamımızı sürgün edirlər. Ya Sibir tərəfə, ya da Qazaxıstana. On il müddətinə. Məktub yazacağam ordan. Əlidən xəbər tutsanız, ünvanını mənə yazarsınız. Sayad, uşaqları götürün ordan. İsmayıl qardaş, onları Allah amanatı qoruyun. Mən gələnə kimi. Qoruyun onları. Axı mən Əliyə söz vermişəm. Axı o uşaqlar Əlinin yadigarıdır.

S a y a d (*zənbildən yun şal çıxardır*). Əfruz, bunu örtərsən başına, axı oralar soyuq olur.

Ə f r u z. Yox, bacı. And içmişəm bu qara örpəyimi bağlayacağam. Nə vaxt Əli gəlsə, onda başımdan açacağam. (*Görüş bitir. Əfruzu aparırlar.*)

## DÖRDÜNCÜ ŞƏKİL

Səhnə dəyişir. İşıq yenidən Əfruzla Lalənin üzərində dayanır.

Ə f r u z. O günün səhəri bizi yük qatarlarına mindirib Qazaxıstana yola saldılar. Düz on beş gün yol getdik. Ac-susuz. Bizimlə gedən qocalar, xəstələr soyuğa, aclığa davam gətirmirdilər, elə yoldaca keçinirdilər. Axır ki, mənzilbaşına gəlib yetişdik. Çöllü biyabanda zəif, xəstə, taqətsiz qadınlar nə edə bilərdilər? Bizi baraklarda yerləşdirdilər. Əzablı günlərimiz başlandı. Sənə haqqında danışdığım çarşablı qadın bir il keçmədi ki, öldü. Uşaqlarının həsrətinə davam gətirmədi. Mən də sətəlcəm oldum. Ancaq, yox canım bərk idi. Ölmədim və burda bədbəxt dədəmə rast gəldim. Sayad bacım atamın sürgün olduğunu mənə yazmışdı. Ancaq yerini-yurdunu bilmirdilər. Sən demə, mən qalan qəsəbənin qonşuluğundaymış. Qəsəbə bizim baraklardan beş kilometr aralıda idi. Atam soraqlaşa-soraqlaşa mənim qaldığım yerə gəlir. Mən onda qızlarla reyslərin kənarından kisələrdə torpaq daşıyırdım. Gördüm saçı-saqqalı ağappaq nurani bir kişi

mənim adımı çəkir. Keşikçi də yanında. Əlində əsa, addımlarını güclə atırdı. Yaxınlaşdım qocaya. – Sizə kim lazımdı, əmi? – soruşdum. Atam mənə baxıb ağlayırdı. Atamı güclə tanıdım. Üstünə atıldım. Qucaqlaşıb ağlaşdıq. Atamın halı pis idi. Axır günlərini yaşayırdı. Mənə doyunca baxıb ayrıldı. Keşikçi qabağına salıb atamı apardı. Sonra eşitdim ki, atamın halı pisləşib məni arzulayır. Çox çətinliklə icazə alıb atamın yanına getdim. Bir keşikçinin nəzarəti altında. Təhlükəli canilə də belə rəftar etmirlər. Atam məni görüb dirçəldi, elə bil gülümsədi də. Sevinirdi ki, doğma qızının yanında can verir. Ağlamaq məni tutdu. Atamı qucaqladım. Elə qucağımda keçindi. Rəfiqələrimin köməyilə atamı müsəlmansayağı basdırdım. Artıq həyatdan bezmişdim. Vətənimi, uşaqlarımı, elimi görmək arzusu mənim yaşadırdı. Budur, qızım, gəlib çıxmışam. Şükür, inanmağım gəlmir ki, bir neçə saatdan sonra balalarımı görəcəyəm.

Lalə (*sarsıntı içərisində Əfruza yaxınlaşıb onu qucaqlayır*). Xala. (*Ağlayır.*) Həyəcanlanmayın. İndi avtobus gələr, öz övladlarınıza qovuşarsınız. (*Gülləri Əfruza verir.*) Bu gülləri götürün, xala, axı siz qızılgülü sevirsiniz.

Əfruz. Çox sağ olun, qızım. Götürməyəcəyəm. O gülləri axı siz kiməsə aparırdınız. Mən öz Qızılgülümü istəyirəm. Eh, qızım, qürbətdə vətənin həsrətini çəkmək çox ağırdır.

Lalə. Yox, xala, alın. (*Əfruzu qucaqlayır*, *gülləri ona verir.*) Ünvanınızı verin mənə. İstərdim həmişə sizinlə görüşüm.

Əfruz (*kədərli-kədərli*). Ünvanım var ki, evimi əlimdən aldılar. İndi bacım Sayadgilə gedirəm. Qızılgülüm, Tovuzum ordadır. (*Üzünə təbəssüm qonur.*) Bu gün görəcəyəm balamı. (*Bu zaman avtobusun səsi gəlir. Hər ikisi avtobusa tərəf gedir.*)

Sayadın evi. Sayad fikirli oturub.

Qənirə (*gəlir*). Sayad, nolub, nə fikrə getmisən, bacı? Az dərd çək, sən allah.

Sayad. Nə olacaq, ay Qənirə. Əfruzun dərdi məni çürüdəcək. Bədbəxt bacım, bilmirəm neçə il o şaxtalı-sazaqlı günlərə necə dözüb?

Qənirə. Ay Sayad, sən allah, nə yazır bacın? Məktub-zad alırsanmı Əfruzdan?

Sayad (*ah çəkir*). Alıram. Bu yaxında birini də almışam.

Q ə n i r ə . Nə təhərdi? Allah bilir uşaqlarının xiffətindən bağrı çatlayır.

S a y a d. Aclıq, soyuq çox adamın əhdini kəsib. İndi də ən ağır işi onlara gördürürlər. Dəmir yolun qırağından torpaq daşıyırlar. Yun corab, əlcək istəmişdi. Toxuyub göndərmişəm. Elə hər məktubunda uşaqlarını, Əlini soruşur. Deyir ki, Əlinin ünvanını ona göndərək. (*Sayad kamodun siyirməsini çəkir. Əfruzun məktublarını əlinə alıb birini seçir.*) Əhməd Cavadın, Hənəfi Zeynallının arvadları da Əfruzla bir yerdədirlər. Şükriyyəylə Səyyarə. Qulaq as, ay Qənirə məktubun bu yerini oxuyum. Qışda yazıb bu məktubu.

"*Bizi yenə də reyslərin kənarında işlədirlər. İşimiz çox ağırdır, bacı. Ağır yükə, soyuğa davam gətirə bilmirik. Səyyarə, Ceyran, Şükriyyəylə bir barakdayıq. Nə yaxşı ki, onlarla bir yerdəyəm. Sayad, qızlar necədir? Böyüyürlərmi? Bilmirəm, bacı, sizin mənə elədiyiniz yaxşılığın əvəzini necə çıxacam. Sayad, qurban olum, Ceyranla Şükriyyə hələ də uşaqlarından bir xəbər tuta bilməyiblər. İsmayıla de, qoy uşaq evlərini gəzsin. Bəlkə tapa bildi onları.*

*Yığışıb yoldaş Stalinə – o böyük rəhbərə məktub yazdıq. Moskvadan bura sürgün olunmuş rus qadınları qoymadılar məktubu yola salaq. Dedilər yazmağın mənası yoxdur. Onun hər şeydən xəbəri var. Əl-qolumuz yanımıza düşdü. Ancaq ümidimizi üzmürük. O böyük rəhbərə yenə də məktub yazmaq istəyirik.*

*Bu gün yenə də Azərbaycandan bir vaqon qadın gətirdilər. Onları o biri baraklarda yerləşdirdilər. Bəkir Çobanzadənin, Əli Nazimin, Biləndərlinin arvadını vaqondan düşürtdülər. Görüşüb ağlaşdıq.*

*Bacı, Tovuz hər gün yuxuma girir. Xəstələnməyib ki? Bəlkə məndən gizlədirsiniz? İki gün bundan qabaq ilk dəfə Azərbaycan mahnısına qulaq asdıq. Patefon bura sürgün olunan ailələrdən birinin idi. Ailələri komalarda yerləşdiriblər. Patefonda Bülbülün səsini eşitdik. Hamımız ağladıq*".

*Məktubu stolun üstünə qoyub gözlərinin yaşını silir.*

Bacımın vaxtı qurtarsaydı, rahat nəfəs alardım.

Q ə n i r ə. Neçə ayı qalıb bədbəxtin?

S a y a d. Bir-iki ayı. Qızlar yaman analarının xiffətini eləyirlər.

Q ə n i r ə. Anaları döyül bə? Əfruz sürgün olanda Qızılgülün gərək ki altı yaşı vardı.

S a y a d. Hə, elədi. Anaları tutulanda Tovuzla Qızılgülü yetimxanaya aparmışdılar. Bir zülmnən çıxartdıq uşaqları ordan, bacı. Vermirdilər ki bizə.

Q ə n i r ə. Tovuz Şəkidə darıxmır ki?

Ə f r u z. Yox, ay Qənirə, nənəsi baxır da ona. Maral anam. Maşallah, yekə qız olub.

Qızılgül gəlib salamlaşır. On beş-on altı yaşındadır.

Q ə n i r ə. Qızılgül, qızım, sən allah, ananı görsən tanıyarsan?

Q ı z ı l g ü l (*fikirli*). Bilmirəm, Qənirə xala. Mənə hər şey dumanlı gəlir. Anamın gözləri, bir də əlləri yadımda qalıb. Həmişə xəstələnəndə, istiliyimiz olanda ovcumuzu dodaqlarına alardı. (*Doluxsunub fikrə gedir.*) Atamın isə gülüşü yadımdadır. Dəniz kənarında qaçdı-tutdu oynayardıq. Bizi dənizdə çimizdirərdi.

S a y a d (*pıçıldayır*). Əvvəllər qızları ovundura bilmirdik. Atalarından da bir xəbər çıxmadı. (*Başını yelləyir.*) Sağ qalsaydı, məktub yazardı, yerini-yurdunu bildirərdi. Heç nədən yazığı vətən xaini elədilər. Gül kimi ailəni pərən-pərən saldılar. Zalımlar!

Q ə n i r ə (*ah çəkir*). Bu nə oyundu xalqımızın başına gətirdilər, ay Sayad! Kimin kimdən xoşu gəlmirsə, kimin kimdən hayfını alırdısa gedər-gəlməzə yollayırdılar: mənim əmim nəvəsini o vaxtlar güllələmədilərmi? Pantürkist adıynan, heç sözdü, sən allah. Lap elə türkəm, özü də türkpərəstəm. Ay zalımlar, ay qansızlar! Gəlib yerimi işğal eləməkləri bəs deyilmiş kimi ən savadlı, ən namuslu adamlarımızı gülləyə tuş elədilər. Eh, nə deyim bu dünyanın işlərinə. Təki, Əfruzla yoldaşı sağ-salamat gəlsinlər.

S a y a d. İsmayılla nəzir demişik. Gəlsinlər ayaqlarının altında qurban kəsək.

Q ə n i r ə. İnşallah. Allah nəzirini qəbul eləsin.

Sayad evə keçir. Qənirə küçəyə çıxıb bir əlində çamadan, bir əlində gül tərəddüdlə evə sarı boylanan Əfruzu görür.

Ə f r u z. Bacı, bura Sayadın evidir? Bilmirəm düz gəlmişəm, yoxsa...

Q ə n i r ə (*Sayadı səsləyir*). Ay Sayad, ay Sayad!

Q ı z ı l g ü l (*həyətə düşür*). Nolub, Qənirə xala?

Q ə n i r ə. Bir qadındı məndən Sayadı soruşur. Deyir bilmirəm düz gəlmişəm, ya yox. Bura adamına oxşamır.

Ə f r u z (*Qızılgülə baxır*). Qızım, zənnim məni aldatmayıb ki? Sayadın evi buralarda olmalıdır.

Qızılgül. Bəli, xala, buradır. Siz Sayad xalamı istəyirsiniz?

Əfruz. Hə, qızım. (*Yaxınlaşır.*) Sayad lazımdır mənə.

Qızılgül (*çaşqınlıqla*). Siz kimsiniz ki?

Əfruz. Mən... Mən? Sayadın bacısıyam. Sürgündəki bacısı... Əfruz!

Qızılgül (*heyrətlə anasına baxır*). Demək, siz mənim... Siz mənim... (*Özünü anasının üstünə atır.*) Ana, anacan! (*Hıçqıra-hıçqıra ağlayır.*)

Əfruz. Qızılgül, qızımı (*O da ağlayıb qızını köksünə sıxır.*)

Qızılgül (*göz yaşları içində*). Heç bilirsən mən səni nə vaxtdan gözləyirəm, ana?! Düz altı yaşından gözləyirəm. Düz altı yaşından, ana!. Bacım da mənim kimi. Mənim əzabkeş anam. Bəs niyə gəlib çıxmırdın, ana? Səni hər gün yuxularımda görürdüm, hər gecə saçlarımı sığallayırdın, ana! Bax beləcə. (*Anasının saçlarını sığallayır.*) Niyə saçların ağarıb, ana?! Axı mənim yadımda sən qapqara saçlarınla qalmışdın. Niyə belə tez qocalmısan, ana? Aç başındakı bu qara örpəyi, aç. Sənə qara örpək yox, qara saç yaraşırdı.

Əfruz (*başındakı qara örpəyi tutub qoymur qızı açsın*). Yox, qızım, yox. Atan nə vaxt gəlsə, nə vaxt qapımızı açıb içəri girsə, bax onda açacağam bu örpəyi, qızım, onda açacağam.

SON

# ELÇİN MEHRƏLİYEV

(1952)

*Mehrəliyev Elçin Əli oğlu Ağdam rayonunun Güllücə kəndində anadan olub.*

*Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.*

*Elmi, publisist və bədii yaradıcılıqla məşğuldur. Filologiya elmləri namizədidir. "Pərvin" povest və hekayələr (1981), "İttiham" roman (1991), "Hər kəs öz taleyini yaşayır" pyeslər, hekayələr, məqalələr (1998), "90-cı illər" roman (2004) və digər bədii və publisistik kitabların müəllifidir. "Müharibə və ədəbiyyat" (2000), "İnsana poetik, publisistik və elmi baxış" (2001) monoqrafiyaları nəşr edilib. "Yurd yeri", "Məhəbbət qocalmır", "Çörəkli adam" pyesləri radio və televiziya ilə nümayiş etdirilib.*

*Yaradıcılıq uğurlarına görə "Qızıl qələm", "Nailiyyət", "Açıq söz" və başqa bir sıra mükafatlarla təltif edilib.*

## YURD YERİ

### BİRİNCİ HİSSƏ

### İŞTİRAK EDİRLƏR

| | |
|---|---|
| Mahal | – yurd sahibi, 70 yaşında |
| Güllü | – Mahalın arvadı, 65 yaşında |
| Sədrəddin | – Mahalın oğlu, professor |
| Fəxrəddin | – Mahalın oğlu, deputat |
| Ələddin | – Mahalın oğlu, polis rəisi |
| Nurəddin | – Mahalın oğlu, jurnalist |
| Yeganə | – Mahalın qızı |
| Əlimərdan | – qonşu, 65 yaşında |
| Təhməz | – polis nəfəri |
| Silahlı yeniyetmə | |

Musiqi

Daş-daş əkdik – yurd bitirdik,
Daş kök atdı, bar gətirdi.
Ha qazandıq, çox itirdik,
Elə qalan yurd yeridi.

Ocaq – isti, dünya – bölük
Kök üstündə özümüzük!
Bir dam altı – yerdən böyük,
Elə qalan yurd yeridi.

Zaman axar, daş qaralar
Torpaq donar, daş qar alar.
Daş üstündə daş qaralar,
Elə qalan yurd yeridi.

Mahalın həyəti. Yaz səhəri. Arada top-tüfəng səsi eşidilir. Dərinlikdə ev görünür. Ətraf çəpərlənib. Mahal fikirli-fikirli yer belləyir. Yorulub oturur.

M a h a l (*ürəyində*). İnsan torpağın qucağında körpə kimidir. Uşaq əmdiyi südün qoxusuna, duyduğu mehrə sığındığı kimi torpaq da insanı beləcə özünə çəkir. (*Bir ovuc torpaq götürüb qoxulayır.*) Bu ətirdə nə böyük doğmalıq var. Kim nə deyir desin, insan – insan övladı, cəmi insanlar – torpaq övladıdır. Yoxsa hər zülmümüzə dözməz, pisimizi, yaxşımızı sevməyə məhkum olmazdı... Bu nə sirdir ilahi, adam yaşa dolduqca torpağa mehri-məhəbbəti artır, torpaq sevgisi külli-aləm sevgisini üstələyir.

Əlimərdan çəpər başında görünür.

Ə l i m ə r d a n. Sabahın xeyir!
M a h a l. Aqibətin xeyir!
Ə l i m ə r d a n (*həyətə girir*). Yorulmayasan!

Mahal ayağa durub onunla əl tutur.

M a h a l. Bu yaz gecikdim, Əlimərdan. Xəstəlik aman vermədi. Deyirəm heç olmasa göydən-göyərtidən əkim.

Ə l i m ə r d a n. Lazımdı, qonşu. Bizim ruzumuz torpaqdandı. Allah bu torpağı bizə çox görməsin.

M a h a l. Amin!

Ə l i m ə r d a n. Eşitdim uşaqların gəlib. Gözün aydın!

M a h a l. Aydınlıq içində olasan!

Ə l i m ə r d a n. Yəqin yatırlar. Şəhərlilər belə erkən durmaz.

M a h a l. Hə, yatırlar...

Ə l i m ə r d a n. Allah canlarını sağ eləsin! Onlar ki yığışıb gəliblər ata-baba yurdlarını qorumağa, ömürləri uzun olsun.

M a h a l. Səninkilərdən nə xəbər?

Ə l i m ə r d a n (*köks ötürür*). Mənim çəkdiyimi daş-divar çəksə, əriyərdi. Bu yaz illəri tamam olur. Nə öldülərindən xəbər var, nə qaldılarından.

M a h a l. Özünü çox üzmə. Dünyanın işlərini bilmək olmaz... Odu Fərrux Rusiyadan gələn gədəsindən iki ildən sonra xəbər tutdu. Əsir imiş Deyirlər, dəyişməyə çalışırlar.

Ə l i m ə r d a n. Eşitmişəm. Təki cəmi itkinlərimiz geri dönsün, mənimkilər də içində.

M a h a l. Amin!

Ə l i m ə r d a n. Yaxşı, oğulların nə xəbər gətirib? Müharibə çoxmu çəkəcək?

M a h a l. Çox qarışıq danışırlar. Deyirlər bu, Azərbaycan-Ermənistan davası döyül. Böyük dövlətlərin oyunlarıdı. Axırı da hələ görünmür.

Ə l i m ə r d a n. Səninkilər oxumuşlardı, vəzifə adamıdırlar. Əgər bu işin axırından baş açmırlarsa, vay bizim halımıza.

M a h a l. Çətin işə düşmüşük, Əlimərdan, çətin!

Güllü məcməyidə çay gətirir.

G ü l l ü. Sabahın xeyir, Əlimərdan qardaş!

Ə l i m ə r d a n. Sabahın xeyir, Güllü bacı! Gözün aydın, balalarını yığmısan başına.

G ü l l ü. Sağ ol, gün olsun səninkilər qayıtsınlar. Gəl, çay iç.

Ə l i m ə r d a n. Maşallah, sizin o Cəlildən yaman danışırlar. Deyirlər şir kimi döyüşür.

G ü l l ü (*ah çəkir*). O gedəndi, üzünü görməmişik.

Ə l i m ə r d a n. Uzağa ha getməyib, o dey bu dağlardadı. Başına dönüm igid oğullarımızın, onların hesabına dayanıb kəndimiz.

M a h a l. Elədir. Amma, Əlimərdan, yaxşıların torpağa yolu daha yaxındır. Gör necə oğullar itirdik!

Əlimərdan. Demə, demə! Canının hayına qalanlar baş götürüb qaçdılar, qeyrəti olan qaldı, bir də bizim kimi qoca-qaltaq.

Güllü. Budey, mənimkilər də yığışıb gəlib ki, sizi köçürdürük, qoca adamlarsız, topun, güllənin altında niyə dayanmısız?

Pauza. Mahal pərt olur. Əlimərdan üstünü vurmur.
Ələddin gəlir. Uzaqdan ağlaşma səsi eşidilir.

Ələddin. Sabahınız xeyir! Əlimərdan dayı?! Xoş görmüşük!

Əlimərdan. Xoş günün olsun, a bala!

Ələddin. Uşaqların itkin düşməsini eşitdim, çox pis oldum. Bir xəbər-zad yoxdur hələ?

Əlimərdan. Hələ ki yoxdu...

Ələddin. Allah özü kömək olsun! Əlimərdan dayı, deyirəm mən də sənin bir oğlun, bu günə vertolyot danışmışıq, indi gələsidi, bizimkilərlə bir yerdə səni də götürərik. Heç fikir eləmə... Şəhərdə şərait də yaradarıq.

Pauza.

Əlimərdan. Di mən gedim... quzular tövlədə qalıb...

Mahal. Dayan, mən də çıxıram. Görüm belə sübh tezdən nə ağlaşma səsidir bu?

Uzaqdan ağlaşma səsi eşidilir. Mahal və Əlimərdan gedirlər.

Ələddin. Ay ana, axşamdan fikir verirəm, köçmək söhbəti gələndə belə birtəhər olursuz ey. Başa düşə bilmirəm sizi, görmürsüz burada qalmaq qorxuludu? Odu, erməni gəlib kəsdirib kəndin üstünü. Gecə-gündüz dağlardan od yağdırır başınıza. Güllə səsindən yatmaq da olmur.

Güllü. Bilirsən, ay oğul, bu söhbət mənnik döyül. Hər şeyi dədən həll edir. Söz onundu.

Ələddin. Dədəm nə deyir axı? Bu boyda kənddə cəmi beş-on adam qalıb...

Güllü. Nə deyim... Kişini qınamaq da olmur. Ömrü boyu əynindən, boğazından kəsib, dişiynən-dırnağıynan ev-eşik düzəldib, necə atıb getsin? Məni darıxdıran bircə bu qızdı, ayrı heç nədən qorxum yoxdur. Cəlil gedəli qoyun-quzunun əlində yesir olub. Ha deyirəm,

aparma otarmağa qırılmışları, onsuz da bir gün erməni qabağına qatıb aparacax. Baxmır sözümə, tərs qızı, tərs! Budu, yenə səhərin gözü açılmamış heyvannarı da aparıb gedib. Hə, heyvan demiş, qız toğlulardan birini saxlayıb tövlədə. Çayınızı için, sonra kəsib kavab eləyərsiz.

Ələddin. Ay ana, indi yeyib-içmək vaxtıdı? Mən deyirəm vertolyot gələcək, sən də başlamısan toğlu kəsək, kavab eliyək...

Güllü. Dedim də, a bala, dədəniz gəlsin, oturun danışın. Necə məsləhətdi, elə də eləyin.

Qardaşlar evdən çıxırlar.

Fəxrəddin. Oh-o, rəis bəy, sabahın xeyir!

Sədrəddin. Cənab rəis bizim təhlükəsizliyimizə təminat yaradıbmı?

Ələddin. Hə, yaratmışam, hörmətli professor, buyurun! (*Vedrəni götürüb qardaşlarına su çiləyir.*)

Sədrəddin. Ədə, neyniyirsən, ay yaramaz, xəstələndirərsən bizi...

Fəxrəddin. Yaxşı ifadədi, ömründə polisdən xeyir görən olmuyub. Gör üstümü neylədi?

Sədrəddin. Özü də polis yox a, rəis bəy ola! Mütləq xəstələnəcəm, mənim başım islanıb.

Nurəddin. Bütün gecəni qorxudan cınqırlarını da çıxarmayıblar. İndi gör nə qoçaqlaşdılar.

Ələddin. Al, bu da sənin. (*Vedrədə qalan suyu Nurəddinə atır.*)

Nurəddin. Ay ana, sən bu çəpişi görürsən?

Ələddin. Nə dedin, ə? (*Nurəddini qovur.*)

Nurəddin. Ana, denən də! (*Anasının yanına qaçır.*)

Güllü. A bala, nə dedi sənə, uşaqlıq adını çağırdı də. Balacalıqda çox atılıb-düşürdün, ona görə adına çəpiş ayaması qoşmuşduq.

Qardaşlar gülürlər.

Sədrəddin. Biabırçılıq! Çəpiş hara, rəislik hara?

Ələddin. İndi mən də deyərəm ha?

Fəxrəddin. Nə deyərsən? Durub professora, bir alim adama koramal deyəssən?

Ələddin. Ay dilinə qurban olum, de!

G ü l l ü. Sədrəddin guya fağırımız idi, çalmazdı, çalmazdı, birdən elə çalardı, yerinizdə qalardınız. Lap koramal kimi. (*Gülür.*)

S ə d r ə d d i n. Bəs bizim hörmətli mühəndisimiz, möhtərəm deputatımız? Onu niyə demirsiz? Yoxsa şanapipik yadınızdan çıxıb?

G ü l l ü. Yox, Fəxrəddin çıxardı ağaca, cibində də daş. Elə ağacda da qozları sındırıb yeyərdi.

N u r ə d d i n. Bir gün də təpəsi üstə gəldi yerə.

S ə d r ə d d i n. Yıxılmağı heç e. Dədəm çubuğu götürüb cumdu üstünə: "Əyə, kopayoğlu, şanapipiksən, yerdə sındırıb yeyə bilmirsən?" – deyib vurdu ha.

G ü l l ü. Adı qaldı şanapipik.

F ə x r ə d d i n. Ana, bir belə çəkil.

N u r ə d d i n. Ay ana, qoyma!

F ə x r ə d d i n. Heç nə eləmirəm, eləcə baxmaq istəyirəm.

G ü l l ü. Nəyə baxırsan? Görməmisən Nurəddini?

F ə x r ə d d i n. Bir görüm pərvazdanıb, ya ətcədi, bizim jurnalist? (*Guya əlini ağacdakı yuvaya uzadır.*)

Qardaşlar gülürlər.

Ə l ə d d i n. Yox, ətcədi hələ, yuvadividi. Yazıqdı, dəymə!

S ə d r ə d d i n. Ə, eləcə göstər baxaq, yenə yerinə qoyarsan.

F ə x r ə d d i n. Vay dədəm vay! Ə, bu ki ilanmış! Hə, ətcə Nuruş, de görüm mən bərk dəydim yerə, ya sən? Çubuq kimin kürəyində sındı, sənin, ya mənim? Ay ana, bir onu mənə ver, o yuvadivini...

N u r ə d d i n. Ana!

G ü l l ü. Allah axırını xeyir eləsin! Neçə ildi heç belə gülməmişdim... Gəlin, gəlin əlinizi yuyun, çay verim. Ədə, a yuvadivi, get qardaşlarının əlinə su tök!

N u r ə d d i n. Evin kiçiyi olunca, çölün eşşəyi olasan.

Kəndə qrad atılır. Hamı diksinir. Güllü halını pozmadan evə keçib süfrə hazırlayır. Çəmənlik. Yeganə qoyun otarır. Hərdən əyilib kol dibindən bənövşə yığır.

Y e g a n ə. Gör nə qədərdilər! (*Bənövşələri qoxulayır.*) Oxqay!!! Məndən olsa, hamınızı bircə-bircə üzüb bağrıma basaram. Ah, deyəsən incitdim sizi. Neyləyim, çox istəyirəm də... Yadınızdadı,

məktəbdə oxuyanda, oğlanlar sizi yığıb qızlara gətirərdilər. Solmaza Cavidi bəlkə də siz sevdirdiniz, a bənövşələr. Onuncunu qurtaran kimi də evləndilər. Heyf, müharibə qoymadı onları xoşbəxt olmağa. Ermənilər Cavidi öldürdülər. Solmaz necə soldu, necə soldu... Kənddə toy-düyün də Cavidin ölümüylə getdi elə bil. Sevən sevgisini ürəyində gizli saxlayır indi. Neyləsinlər, hamı el qınağından çəkinir. Vallah, ölüm-itim olmasaydı, mən qızlığımla heç kəsdən, heç kimdən çəkinməyib sizi öz əllərimlə Təhməzin döşünə taxardım... Təhməz... Taleyin işinə bax, gör hardan gəlib, hansı dövranda bəxtimə çıxdın. Bir istəyirəm soruşum, Bakıda qızmı azdır? Sevdaya düşməyə vaxtmı tapdın? (*Şıqqıltı səsinə diksinir.*) Buyy, bismillah! (*Təhməzi görüb bənövşəni qoynunda gizlədir.*)

T ə h m ə z. Qorxdun yoxsa?

Y e g a n ə. Yox, qəfil gəlişindən səksəndim...

T ə h m ə z. Bayaqdan arxın o tayında dayanıb sənə baxıram. Elə fikrə getmisən, erməni gəlib qoyunları aparsa, xəbərin olmaz.

Y e g a n ə. Allah vurmuşdu ermənini!

T ə h m ə z. Eşitdim qardaşların gəlib, xeyirdi?

Y e g a n ə. Nə bilim,.. deyəsən köçürmək istəyirlər bizi...

T ə h m ə z. Hə... İnanmıram atan gedə. Yurdunu sevən adamdı... O günü məni yolda saxlayıb nə desə yaxşıdı: a polis, uşaqlara de, sənə bir avtomat versinlər, əliyalın qalma. Dedim, dayı, kəndin içində mənə avtomat gərək deyil, tapançanı da vəzifə başında olduğum üçün götürürəm. Dedi: – Dağlara qalx da, a bala, kəndin içində erməni var?

Y e g a n ə. Atamın döyüşə getməyən cavanlardan acığı gəlir. Siftə vaxtlar Cəlil də evdəydi. Bir dəfə düşdü üstünə, nə düşdü. Dedi, a Cəlil, sən məni qorumalısan, mən səni? Ayə, kişisən, burax qoyun-quzunu, qalx dağlara! Qardaşım dedi, ay ata, qoyun-quzu cəhənnəmə, bə səni kimə tapşırım, naxoşsan axı. Atam lap çıxdı özündən: Ə, kopayoğlu, erməni gəlib sağaldacax məni, yoxsa həkimsən? Cəlil o gedəndi, gedib...

T ə h m ə z. Deməli, atan məni qorxaq hesab eləyir. Ta bilmir, Təhməz elə cəbhəyə göndərilməyi xahiş eləmişdi, kəndə qarovulçu yolladılar. Eybi yox, vaxt gələr hünərimi də görər. Amma, a Yeganə, bir tərəfə baxanda düz deyir Mahal dayı. Hamı səfərbər olmalıdı. Görmürsən ermənilər nə qədər qüvvə toplayıblar. Srağagün o Cümşüdgil var ha, sürüyə-sürüyə bir zənci meyiti gətirmişdilər. Zənci ha! Dedilər, sənin qardaşın vurub. (*Gülür.*) Meyit qaldı bir tərəfdə,

arvadlar düşdülər uşaqların üstünə. – A qırılmışlar, bu mundar olmuşu rədd eliyin burdan! – deyib qışqırdılar.

Yaxınlıqda mərmi partlayır. Təhməz Yeganəni yerə yıxır.

T ə h m ə z. Uzan!

Y e g a n ə. Çəkil! Bir də əlini mənə vursan, özündən küs, ha-a!

T ə h m ə z. Deyirsən, qəlpə dəysin?..

Y e g a n ə. Dəyər dəyər də, sənə nə?

T ə h m ə z (*yumşaq və təsirli bir səslə*). Sən öldün, elə bil Təhməz öldü.

Y e g a n ə (*ayağa qalxır*). Yaxşı, bəs belə tezdən niyə gəldin? İstəyirsən yenə bir yerdə görsünlər bizi? Hə?

T ə h m ə z. Acıqlanma, vidalaşmağa gəlmişəm. Gedirəm.

Y e g a n ə. Hara?

T ə h m ə z. Dağlara. Dağlara, Yeganə. Düşmən bizi yurdsuz-yuvasız qoymaq istəyir.

Y e g a n ə (*kövrəlir*). Nə vaxt gedirsən?

T ə h m ə z. Sabah. Sabah saat ikidə sizin evin qabağından keçəcəm. İmkan tap, yola çıx. Görüm qalası olduz, ya gedəsi. Yaxşımı?

Y e g a n ə. Yaxşı... Di mən getdim... (*Gedir.*)

Mahal kişinin həyəti. Hamı çəmənlikdə sərilmiş süfrə başında cəm olub.
Mahal keçib yuxarı başda əyləşir. Heç kəs danışmır.
Yeganə çay gətirir. Hərdən atəş səsi eşidilir.

G ü l l ü. Nə xəbər öyrəndin, a kişi? Yenə nə ağlaşma səsidi?

M a h a l. Qaçqınlardandı. Gecə alaçıqlarına ilan girib. Yatdığı yerdə anaynan balanı çalıb.

G ü l l ü (*içini çəkir*). Müsibətə bax ey, sən allah! Ermənininin gülləsindən qaçıb canını qurtar, ilan-çayan tələf eləsin.

M a h a l. Yazıq camaat... Yaz girəndən neçəsini ilan, əqrəb vurub.

Pauza.

M a h a l. Nədi, söz tapmırsız danışmağa?

Ə l ə d d i n. Vəziyyət göz qabağındadı da... Nə də deyirik, ağzımızdan vurursan.

M a h a l. Elə söz danışın ağzınızdan vurmayım.

S ə d r ə d d i n. İndi hamımızın fikri-zikri sizi burdan sağ-salamat çıxartmaqdır.

M a h a l. İndi bütün fikir-zikir o olmalıdır ki, yurd-yuvamız əldən getməsin, ay oğul!

F ə x r ə d d i n. Başa düş, ay ata, yüz fikir bir borcu ödəməz. Havayı yerə qurban verməklə torpaq xilas edilər? Burda böyük oyunlar gedir...

M a h a l. Bu sözlərinizi eşitmişəm. Qarabağda kənd-kəsək qalmadı. Hamısını talan elədilər, yandırdılar. Burdan oyana nə qalır? Nəyi gözdüyürsünüz? Ananız Güllünün əsir düşməyini, ya mənim ölüm xəbərimi?

N u r ə d d i n. Bacı, mənə bir stəkan çay süz.

Yeganə durub çay gətirməyə gedir.

F ə x r ə d d i n. Ay ata, kəndi tutub durmağnan tankın, topun qabağında neyniyə biləcəksən? Dövlət olan yerdə biz kimik, nəkarəyik? Əlimizdən nə gəlir? Guya başqaları köçəri quşlardı, elə sənə qalıb yurd qorumaq dərdi...

M a h a l. Kim qurddu-quşdu, özü bilər. Mənim əslim-köküm bu torpaqdan yaranıb. Ulu babamın babasının sümükləri bu torpağa qarışıb. Mən də bu torpaqda öləsiyəm.

G ü l l ü. Hövsələynən danışsana, a kişi, niyə özündən çıxırsan? Ay oğul, a qadan alım, kəndçinin komasından, bir parça torpağından savayı nəyi var? Onu da əlindən aldın, elə hesab et başını kəsdin. Tutalım biz də qaçdıq. Sonra? Sonra noolsun? Axı bu kənddə eləsi var, qapısını açmağa, sığınacaq istəməyə bir simsarı yoxdur. Bəs onlar neyləsinlər? El-oba adamı qınamazmı? Axı mənim Cəlilim o qara boyanmış dağlardadı, onu kimin umuduna qoyub gedək? Kimin?

Pauza.

Ə l ə d d i n. Bilmirəm bu nə həyatdı yaşayırıq. Siz burda güllə altında, biz də orda ürəyimiizi yeyirik. Vallah dost-tanışın üzünə də baxa bilmirik. Deyirlər oturmusuz şəhərdə, qocaları qoymusuz kənddə, niyə gedib gətirmirsiz? Nə deyim onlara? Söz tapıb cavab verə bilmirəm ey!

F ə x r ə d d i n. Nə deyəsən axı? Deyirsən atam çıxmaq istəmir kənddən, deyirlər, oğlu deyilsən, get başa sal, ev-eşik candan şirin

olmayacaq ha! Ta bilmirlər, bu neçə ildə biz deyib, biz eşitmişik. Mahal kişi inadından dönmür ki, dönmür. Hə, tutalım qaldınız kənddə, bir bədbəxtçilik baş verdi, onda necə olsun?

M a h a l. Əcəldən qaçmaq olmaz, bala! Bir də ki, can nə qədər şirin olsa şərəfdən, ləyaqətdən yüksəkdə dura bilməz.

N u r ə d d i n. Ay ata, qurban olum, mən səni başa düşürəm e, amma dediklərin Koroğlu dövrünə aiddir. Hərənin bir qılıncı vardı, meydana çıxıb gücünü göstərərdi. İndi, budey, qrad atırlar, top atırlar. Sabah başınıza bomba tullayacaqlar. (*Səksənir.*) Bax, yenə atdılar!

S ə d r ə d d i n. Deyəsən lap yaxına düşdü...

G ü l l ü. Zəhrimarın səsi elə gəlir, elə bil evin ortasına düşdü. Bilmirəm, yerin-göyün yiyəsi necə dözür buna?!

Ə l ə d d i n. Demişəm də, buradan sağ-salamat çıxa bilsək, böyük işdi.

G ü l l ü. Allah komanızı başınıza uçursun, a qaniçənlər!

Qardaşlar həyətdə var-gəl edirlər. Ələddin onlara yaxınlaşır.

Ə l ə d d i n. Yaxşı, nooldu? Nə qərara gəldiz?

S ə d r ə d d i n. Neyləyək, danışmaq olur kişiynən?..

F ə x r ə d d i n. Vaxt keçir, bir azdan vertolyot gələcək.

Ə l ə d d i n. İşə düşmədik... Sən öl, mən bir şeyi başa düşə bilmirəm. Ə, bu camaatı niyə köçürmürlər? Əliyalın adamları güllə altında saxlamaqla düşməni dayandırmaq olar?

F ə x r ə d d i n. Dövlət eləməlidi də bu işləri, kim eləməlidir?!

S ə d r ə d d i n (*əsəbi halda var-gəl edir*). Qoyursuz dövləti işləməyə?! Balaca bir ölkədə əlli partiya yaratmısız, hərəniz bir yana çəkirsiniz.

F ə x r ə d d i n. Əhsən! Bu da dövlət adamının cavabı. Başa düşə bilmirəm, demokratiya nə vaxtdan dövlət işinə mane olmağa başlayıb?

S ə d r ə d d i n. Əvvəla, mən dövlət adamı deyiləm. Dövlət adamı sənin qardaşındır – kişi nazir müavini idi, çıxardıb rayona rəis göndərdilər. Bu da onun şəstinə toxundu. İndi sizinlə bir yerdə iqtidara qənim kəsilib. İkincisi, mən demokratiyanın yox, bu ağır vəziyyətdə cəbhələşmənin, partiyalaşmanın əleyhinəyəm. Ay başınıza dönüm, müharibə gedən bir ölkədə hakimiyyət davası bəyəm demokratiyadır?

Ə l ə d d i n. İqtidarın sözləridir, mən ölüm, bircə-bircə təkrar edir.

F ə x r ə d d i n. Kişi iqtidarın komandasındadı, o boyda instituta rektor qoyublar, niyə müdafiə eləməsin.

S ə d r ə d d i n. Bəli, müdafiə eləyirəm. Ona görə ki, sizin kimilər yenidən hakimiyyət eşqinə düşüb. Onuncu əsrdə, Bağdadda, xilafət üstündə mübarizələr nəticəsində xəlifələr məğlub edilir, gözləri çıxarılırdı. Bax, sizin iddialı liderlərin taleyi həmin xəlifələrin acınacaqlı taleyinə bənzəyir.

Ə l ə d d i n. Sədrəddin müəllim!.. Sədrəddin müəllim! İndi onuncu yox, iyirmi birinci əsrin astanasındayıq. Demokratik cəmiyyətin sükanı bir nəfərin əlinə sığmır, balam, sığmır, onu xalq idarə etməlidir, xalq.

S ə d r ə d d i n. Xalq, yəni sizlər. Daha doğrusu, sizlərdən birinizin mənsub olduğu partiya.

N u r ə d d i n. Yenə başladılar. Heç mübahisə vaxtıdır?

S ə d r ə d d i n. Görmürsən, qardaşlarının içi göynüyür. Birinin vəzifəsini kiçildiblər, o birisinə də vəzifə vermirlər.

Ə l ə d d i n. Darıxma, sən heç darıxma, hakimiyyət dəyişəndə rektorları da dəyişirlər, mən ölüm.

N u r ə d d i n. Siz allah, qurtarın deyişməni! Bu saat vertolyot gələcək. (*Sədrəddinə*). Sədrəddin, sən hamımızdan böyüksən. Keç içəri, atamnan təkbətək söhbət elə.

F ə x r ə d d i n. Düz deyir, sən get, onu başa sal, vaxt daralır.

Yaxınlıqda mərmi partlayır.

Ə l ə d d i n. Get, get, budey, sizin hakimiyyətin kəramətindəndi, başımıza dəmir yağır.

Sədrəddin narazılıqla başını bulayıb atasının yanına gedir.
Güllü və Yeganə stəkanları yuya-yuya söhbət edirlər.

G ü l l ü. A bala, sən yır-yığış elə, qardaşlarınnan get!

Y e g a n ə. Sizi bu vəziyyətdə qoyub hara gedim, ay ana?

G ü l l ü. Bizdən nigaran qalma, xalq necə, biz də elə. Allah eləməmiş, ələ keçib eləsən, özüm Mahalın tifağına od vuraram! Sən get, ürəyimiz bir az toxtasın.

Y e g a n ə (*ağlamsınır*). Məni niyə qovursan ey? Dədəm təzəcə ayağa qalxıb, xəstə adamdı, onu atıb gedim? Səni ev-eşiyin əlində tək qoyub gedim?

G ü l l ü. Allah mərdimazarı neyniyim-necə eliyim dərdinə salsın, necə ki, bizi saldı... Hə, bura bax, ay qız, bu doğrudu ki, o polis kölgə kimi səndən əl çəkmir? Ananam, ay bala, ürəyinin sirrini mənə açmayıb, kimə açacaqsan?

Y e g a n ə. Ana, heç bu söhbətin vaxtıdı?..

G ü l l ü. Deyirəm, bəlkə, odu tutub səni saxlayan burda?

Y e g a n ə. O gedir bu gün... Dağlara qalxır...

G ü l l ü. Hə-ə?.. Allah qada-baladan qorusun! Camaat danışır, mərifətdi oğlandı. Deməli, o da gedir... Cəlil qadasın aldığımdan görən nə xəbər var, ay Allah. Nə yeyir, nə içir, necə dolanır?.. Dayan, getmə, bə sənə söz dedim, nə cavab verdin?

Y e g a n ə. Siz getsəz – gedəcəm, qalsaz – qalacam. (*Məcməyini götürüb gedir.*)

Mahal kişi evdə təkdir. Sədrəddin ona yaxınlaşır.

S ə d r ə d d i n. Ata, qadan alım, belə fikirli durma! Noolub, şükür Allaha, ölənimiz yox, itənimiz yox. İnşallah, Cəlil də sağ-salamat qayıdıb gələr.

M a h a l. Gəl əyləş, sənə bir-iki kəlmə sözüm var. Bax belə. Oğlum, de görüm, qonşumuz Əlimərdanın qardaşı nədən öldü? Nəbini deyirəm, yadındadır?

S ə d r ə d d i n. Hə, xatırlayıram, naxırçı Nəbi. Nədən öldü?

M a h a l. Həmin bu Əlimərdan cavanlığında şofer işləyirdi, əli gətirirdi. Nəbi isə lütün biri idi. Bir gün Əlimərdan qardaşına deyir: “ Qardaş, arvad-uşaq arasında söz-söhbət olur, gəlsənə o çəpəri götürüb, yerinə daş hasar çəkdirim?” Nəbi razılaşır. Əlimərdan hasar çəkdirir. Amma hasarı çəpər yerindən yox, qardaşının həyəti tərəfdən çəkdirir. O vaxtdan Nəbi bu işi özünə dərd elədi. O bir qarış torpağın xiffətini çəkə-çəkə vərəmlədi. Ay oğul, insan ömrü qardaşın qardaşdan qopartdığı bir qarış torpağa da bərabər ola bilməz.

S ə d r ə d d i n. Bəlkə Nəbi xəstə imiş, yıxılıb ölüb, camaat da sözdü quraşdırıb?

M a h a l. Yox, torpaq dərdi bütün dərdlərdən ağır olur. İndi adamlar həm də bu dərddən qırılır. Allah rəhmət eləsin Cövdət kişiyə, o da tab gətirə bilmədi. Heç bilirsən camaat onun hüzur yerində nə deyirdi? Deyirdilər, xoşbəxt adam imiş Cövdət, öz yurdunda öldü, dəfn olundu...

S ə d r ə d d i n. Dediklərin doğrudur... Amma insan çətin anda mübarizə aparmalıdır. Adam hər şeyi ürəyinə salsa, əlbəttə, ölə də bilər.

M a h a l. Bizim bu qonşu kənddəki Qurgeni tanımamış olmazsan.

S ə d r ə d d i n. Qurgen?

M a h a l. Qurgen... Usta Qurgen. Yadına gəlmir? Bizim evin çardağını da o vurdu.

S ə d r ə d d i n. Hə, hə, Qurgen kişi...

M a h a l. Bu qış odunumuz çatmadı. Yeganəyə qıymadım, özüm düşdüm çay qırağına. Elə balaca bir şələ düzəltmişdim, çayın o tayından məni səslədilər. Gördüm Qurgendi. Silahlıydı. Nə qədər duz-çörək kəsmişik onnan, gizlənməyi arıma sığışdırmadım. Dedi, qorxma, vurmaram, çox yaxşılıqların keçib mənə. Dedim, nədən qorxacam, a Qurgen, sən də, mən də ömrümüzü yaşamışıq. Cavan-cavan oğullarımız tələf olur, onlardan artıq döyülük ha. Dedi, Mahal, sən gəl çıx aradan, bilmirsən ey bizim arxamızda necə böyük qüvvə durur. Dedim, bilirəm, Qurgen, ancaq çoban canavar üstünə itini qısqırdar, çünki cırılan itin dərisidir. Nə qədər gec deyil, qayıdın bu yoldan. Qurgen mənə tərəf bir güllə atıb qışqırdı ki, geriyə yol yoxdu, kirvə, bu torpaq bizim olmalıdır! Qurgenin gülləsi məni tutmadı, amma sözü ürəyimi odladı. İndi de görüm, ay oğul, Qurgen özgə torpağını almayınca ölənə qədər vuruşmağa razıdır, mənim öz halalca torpağımı qorumağa qeyrətim çatmasın? Mən öz dədə-baba ocağımı qorumasam, kim gəlib mənim yerimə özünü ölümə verər? Sən elm adamısan, savadlısan axı, deyək ki, qardaşların başa düşmür, sənə noolub?

S ə d r ə d d i n. Ata... Bilirsən, siyasətdə heç nə göründüyü kimi deyil. Azərbaycanda böyük dövlətlərin maraqları toqquşur. Bizə təsir göstərməyə çalışırlar. Torpaqlarımızın işğal olunması bununla bağlıdır. Amma, dünya dünənki dünya deyil. Dövlətlərin suverenliyini, ərazi toxunulmazlığını müdafiə edən güclü beynəlxalq təşkilatlar var. Onlar hadisələrə nəzarət edirlər. İnan mənə, erməninin tutduğu torpaqların hamısı qaytarılacaq! Ömür isə insana bir dəfə verilir. Onu havayı yerə itirməklə biz heç nə qazanmırıq.

M a h a l. İnsan toxum kimidir, oğul. Nəsil-nəcabət torpaq üstə kök atar. Onu məkanından ayırmaq – kökündən qoparıb yazıq, miskin bir canlıya çevirmək deməkdir.

S ə d r ə d d i n. Dedim axı, torpaqlar qaytarılacaq. SSRİ dağılandan sonra dünyanın siyasi balansı pozulub. Elə baş verən hadisələr də həmin balansın tarazlaşdırılmasına xidmət edir.

M a h a l. Yox, səni başa düşə bilmirəm. Deyəsən öz dilində danışmağı yadırğamısan. Vay sənin tələbələrinin halına! Get, Fəxrəddini bura çağır. (*Sədrəddin otaqdan çıxır.*)

Mahalın həyəti. Sədrəddin qardaşlarına yaxınlaşır.

Ə l ə d d i n. Nooldu?

F ə x r ə d d i n. Razılaşdı?

S ə d r ə d d i n. Yox, səni çağırır.

Ə l ə d d i n. Necə yox?

S ə d r ə d d i n. Əşi, kişiynən danışmaq olur bəyəm?.. Elə bil filosofdu...

F ə x r ə d d i n. Bəs məni neyniyir?

S ə d r ə d d i n. Nə bilim...

F ə x r ə d d i n. Gedim, görüm... (*Gedir.*)

Ə l ə d d i n. Bura bax, görüm yox e, kişiynən ciddi danış. Axı nə deyib inad göstərir o?

Fəxrəddin gedir.

N u r ə d d i n. Dedim də, havayı zəhmət çəkib getməyin, atam gəlməyəcək.

Ə l ə d d i n. Heyif vertolyota verdiyim puldan.

S ə d r ə d d i n. Sən elə pulunu hesabla! Düşünün görək nə tədbir görək?

Ə l ə d d i n. Böyüyümüz getdi, yarıtdı. Görək ikincisi nə iş görür?

Güllü və Yeganə gəlirlər.

G ü l l ü. Ay oğul, havayı zəhmət çəkməyin. Mahal heç yana gedəsi döyül. Onnansa o toğlunu kəsib kavab eləyin. Ələddin, sənin xoşladığın içkidən küpdə qalıb hələ.

Ə l ə d d i n. Hı, nə danışırsan, ay arvad? Mənə bir küp çaxır yox e, bir küp qızıl da versəz, bircə gün də burda qalmaram. Əşi, siz nə təhər adamsınız? Siznən necə dil tapaq biz?

G ü l l ü. Neyniyək, ay oğul, taleyimizə nə yazılıb, onu da görəcəyik. Siz sağ olun, balalarınız salamat olsun!

N u r ə d d i n. Onların balalarına noolub, birininki Türkiyədə, birininki Amerikada, o birininki Rusiyada... Qorxma uzaqdadılar...

S ə d r ə d d i n. Nə demək istəyirsən? Cavan oğlansan, get vuruş də, niyə vuruşmursan? O xidmət etdiyin partiyanın qəzetini çıxartmaqdansa, get cəbhədə jurnalistlik elə, olmaz?

Ə l ə d d i n. Müharibə əsil müharibə olsa gedər, niyə getmir. Lazım olar mən özüm də gedərəm.

Y e g a n ə. Əsil müharibə nəyə deyirsən, ay qardaş? Gör nə qədər kəndimiz, şəhərimiz əldən gedib, talanıb, yandırılıb. Camaat ev-eşiyini itirib qurd-quş kimi çöllərdə yaşayır.

Ə l ə d d i n. Sən başa düşməssən bu işdəri, uşaqsan.

Y e g a n ə. Uşaq niyə oluram. Gözüm görmür? Ağlım kəsmir? Vallah belə getsə, özüm silah götürüb qalxacam o dağlara.

Ə l ə d d i n. Əhsən sənə, a bu dağların Həcəri! Bəs niyə dayanmısan, get də! Get, niyə durmusan?

Y e g a n ə. Gedərəm, siz getməyəndə, mən gedərəm.

G ü l l ü. Ay qız ey, boş-boş danışma, get işinnən məşğul ol. Siz də deyişməni kəsin.

Yeganə incimiş gedir. Fəxrəddin gəlir.

Ə l ə d d i n. Hə, nə xəbər?

F ə x r ə d d i n. Qoydu ki, ağzımı açım? Kişi elə bil prokurordu, düşüb üstümə məni ittiham eləyir.

Ə l ə d d i n. Nə deyir ki?

F ə x r ə d d i n. Heç... Deyir, o deputatları başına yığıb söz güləşdirməynən məşğulsan.

S ə d r ə d d i n. Onu düz deyir.

Ə l ə d d i n. Daha nə deyir?

F ə x r ə d d i n. Nə bilim e! Elə hey eyhamnan danışır, guya mənim ordum var, erməniləri qırıb-çatacam.

S ə d r ə d d i n. Ordun olmasa da mühafizəçilərin az deyil.

F ə x r ə d d i n. Bura bax, bilirsən nə var, sən də bəsdir! Özünü elə aparırsan, guya işdəklərindən xəbərimiz yoxdur.

S ə d r ə d d i n. Ay bərəkallah qanacağına!

N u r ə d d i n. Yenə başlamayın, siz allah! Bəsdirin!

G ü l l ü. Niyə bir-birinizi qırırsınız, a başınıza dönüm? Nəyiniz artıq düşüb bölə bilmirsiniz?

F ə x r ə d d i n. Sən fikir vermə, ay ana.

S ə d r ə d d i n. Etdiyim yaxşılıqlardı, qarşıma çıxır. Hamısı əlimdən su içib, yol göstərmişəm, çətinə düşəndə əl tutmuşam. İndi böyük adam olublar! Hm, mənə cavab qaytarırlar...

G ü l l ü. Ay Allah, bu nə həşirdi, baş tapmıram. Elə bil bir köynəkdən çıxmayıblar! Elə bil bir dam altda böyümüyüblər bunlar! (*Gedir.*)

Pauza.

N u r ə d d i n. Əlәddin, sən atamızın ən istəkli oğlusan. Get, bəlkə səni eşitdi.

S ə d r ə d d i n. Hə, hə, sən dilnən-felnən ilanı yuvasından çıxararsan.

Ə l ə d d i n. Gedim, amma heç inanmıram. (*Gedir.*)

Otaq. Mahal və Ələddin söhbət edirlər.

Ə l ə d d i n. Ata, yadındadı, bizi hey danlayırdın ki, biriniz bir ağac əkmirsiniz. Bir gün meşədən bir ağac gətirib bağçada əkdim. Dururmu o ağac? Bar verirmi?

M a h a l. Bu hardan yadına düşdü? Sən onu o zaman əkəndə bilirdim ki, bar verən deyil. Zoğalnan mundarçanı səhv salmışdın. Ancaq əl vurmadım. İndi də yadigarın kimi qalır. Yekə ağac olub.

Ə l ə d d i n. Yox əşi?! Doğrudur, o vaxt bağ-bağat işinə həvəsim yox idi. Amma indi... Dəniz kənarında öz əllərimlə bir bağ salmışam, gəl görəsən! Azərbaycanda o ağac yoxdur ki, orda olmasın.

M a h a l. İnanmıram özün becərəsən.

Ə l ə d d i n. Vallah, öz zəhmətimin bəhrəsidir. Amma sənin kimi bağbandan ötrü ölür ha. Dəniz havası... İkimərtəbəli yaşayış evi... Çarhovuzu, quyusu, su kəməri... Hələ desən saunası da var e.

M a h a l. Yaxşı görək...

Ə l ə d d i n. Vallah! İki göz istəyir tamaşasına dursun.

M a h a l. Sağlığına qismət! Bağ-bostan onu yetirənə şirindi. Heç görmüsən bağban, ya bostançı becərdiyi məhsuldan doyunca yesin?

Ə l ə d d i n (*çiyinlərini çəkir*). Nə deyim...

M a h a l. Görə bilməzsən. Bağban da, bostançı da yetirdiyi məhsulun fərəhindən doyur.

Ə l ə d d i n. Ay ata, səni and verirəm o bir Allaha, tök daşı ətəyindən! Gəl razılıq ver, anamı, bacımı da götürək, çıxaq gedək. İstərsiz bir yerdə qalarıq, istərsiz bağda yaşayarsız. Ayrıca mənzil də ala bilərik sizə. Allah qoysa, müharibə qurtarsın, özüm qaytaracam sizi. Yenə öz yurdun, öz bağ-bağatın olacaq.

M a h a l. Fikirləşirdim ki, söhbətin torpağa yaxındı, deyəssən burada sizinlə qalıb yurdumu-ocağımı müdafiə edəcəm.

Ə l ə d d i n. Bilmirəm bu sadəlövh inam hardandı səndə?! Torpağı dövlət qorumalıdı, sən-mən yox! Heç olmasa girov götürülən arvad-uşağın, qız-gəlinin halını düşün. Anam, bacım sənə görə qalır kənddə. Deyirsən namusumuz tapdalansın? Yeganəni fikirləş, daha yekə qızdı, istiyəni var. Bu gün-sabah toyunu eliyəsiyik.

M a h a l. Paqon adamı ki ağciyər oldu, nəinki elin-obanın, heç öz evinin də şərəfini qoruya bilməz. O dağlardakı oğullar isə qorxaq deyillər. Elə namusumuzu qorumaq üçün düşmən qabağına çıxıblar.

Əlǝddin hirslə otaqdan çıxır.
Kənd yolu. Mahalgilin darvazasının ağzı.
Təhməz çiynində avtomat Yeganəni qarşılayır.

T ə h m ə z. Uşaqlar getdilər. Bayaqdan həyətinizə boylana-boylana qalmışam.

Y e g a n ə. Qardaşlarım həyətdədi, çıxa bilmirdim.

T ə h m ə z. Nooldu, aparırlar sizi?

Y e g a n ə. Deyəsən atam getmir.

T ə h m ə z. Bəs sən necə?

Y e g a n ə. Atam getməsə, mən də qalacam.

T ə h m ə z. Al bu kağızı, Bakıdakı qohumumun telefon nömrəsini yazmışam. Elə eləyək ki, bir-birimizi itirməyək.

Y e g a n ə (*kağızı alır*). Yaxşı... Cəlildən muğayat ol...

T ə h m ə z. Heç gör deyir özündən muğayat ol?!

Həyətdən səs gəlir. Yeganə! Yeganə!

Y e g a n ə. Ay aman, məni çağırırlar.

T ə h m ə z. Yeganə, yol üstündə bir söz de mənə.

Y e g a n ə. Nə deyim... Birdən gəlib görəllər bizi.

T ə h m ə z. Getsən, zəng vurub yerini deməyi unutma haa!..

Y e g a n ə. Yaxşı...

T ə h m ə z. Di salamat qal! (*Getmək istəyir.*)

Y e g a n ə (*hövlnak*). Təhməz!

T ə h m ə z. Hə!

Y e g a n ə. Al! (*Qoynundan bənövşə dəstəsi çıxarıb Təhməzə verir və həyətə keçir.*)

T ə h m ə z (*çılğın bir sevinclə*). Mən səni dünyalar qədər sevirəm, Yeganə!

Mahalın həyəti. Qardaşlar dilxor və narahatdırlar.

Ə l ə d d i n. Yaxşı, neyliyək? İş-gücümüzü buraxıb, ev-eşiyimizi, ailəmizi başsız qoyub buralarda qalaq? Görək bu kişi nə vaxt insafa, mürvətə gəlir?

S ə d r ə d d i n. O boyda institutu başlı-başına buraxmaq olar? Allah bilir, aləm qarışıb yenə.

F ə x r ə d d i n. Mənim bircə gün də ləngiməyə imkanım yoxdur. Sabah nümayəndə heyətinin tərkibində Amerikaya getməliyəm.

N u r ə d d i n. Sabah bizim qəzetin çıxan günüdür... Mən hələ burdayam.

Vertolyot səsi, top gurultusu eşidilir.

F ə x r ə d d i n. Vəssalam, bu da bizim əziyyətin nəticəsi.

Ə l ə d d i n. Heyif, bir ətək pul vermişdim...

Güllü və Mahal gəlirlər.

G ü l l ü. Ay bala, ay oğul, bu gələn sizin vertolyotdu?

Ə l ə d d i n. Yəqin bizimkidi...

N u r ə d d i n. Nooldu, heç biriniz gedəsi olmadız?

G ü l l ü. Yox, a qadan alım. Bizdən nigaran qalmayın. Yol durur, biz dururuq.

M a h a l. Nə fərqi var, ya göynən qaçdın, ya yernən.

Ə l ə d d i n. Siznən danışmaq çətin məsələdi.

Həyətə silahlı yeniyetmə gəlir.

S i l a h l ı  y e n i y e t m ə. Sədrəddin əmi, vertolyot gəldi ey!

Ə l ə d d i n. Bilirik...

S i l a h l ı  y e n i y e t m ə. Kapitan dedi, kənddə çox dayana bilmərəm, vertolyotu vura bilərlər.

Ə l ə d d i n. Denən, gəlirlər.

S i l a h l ı  y e n i y e t m ə. Yaxşı! (*Şəstlə avtomatı çiyninə keçirib gedir.*)

G ü l l ü. Gör bir kəndi kimlər qoruyur, a başına dönüm! Sən bir bunun boyuna bax, silah gəzdirməyinə bax!

S ə d r ə d d i n. Ana... (*Qucaqlayıb öpür.*) Di salamat qal. (*Sonra atası və bacısı ilə görüşür.*) Salamat qalın...

M a h a l. Yaxşı yol!

G ü l l ü. Mənim əvəzimdən nəvələrimin üzündən öpün...

Qardaşlar növbə ilə ata-anaları və bacıları ilə görüşüb ayrılırlar.
Yeganə qardaşlarının arxasınca su atır.

G ü l l ü (*ürəyində*). Eh, nağıldı bu həyat, nağıl. Ağlagəlməz işdəkləri var. Zulumnan, zillətnən bala böyüdürsən, pərvazlanan kimi hərəsi bir yana uçur. Yerindən duran şəhərə üz tutmasaydı, el-oba vaxtında el-oba olsaydı, erməni də üstümüzə ayaq açmazdı. Doğub-törətmək asandı, yurda, torpağa bağlamaq çətin. Bəlkə bu dağların, bu torpağın qarşısında günahlarımızdı, çəkirik. Eh, özümüzük günahkar, özümüz. Gedin, deyirdik, gedin, oxuyun, adam olun. Getdilər, oxudular, vəzifə adamı oldular, boya-başa çatdıqları bu yurda, bu torpağa nə verdilər, nə qaytardılar?

M a h a l (*ürəyində*). Getdilər... Heç üzlərini doyunca görə bilmədim... Mənə qalan yenə quruca təsəlli oldu: sağ-salamatdılar... Yox, valideynin övladdan küsməsi mümkün deyil, insan doğub-törətdiyinin əsiridir. Görünür ürəyimdən keçənləri anlada bilmədim. Yoxsa, onlar ehtiyacımın mənasını başa düşərdilər. Ah, bircə başa sala bilsəydim ki, el-oba qarşısında fəxarət, şərafət hissi nə deməkdir! Anlada bilsəydim ki, yurd yolunda, ocaq eşqinə qılınc kimi sıyrılmağın misli nədir! (*Əlini sinəsinə aparır.*) Uf... ürəyim heç belə sancmamışdı... Əhvalım heç belə təlx olmamışdı... Yaman yerdə, yaman gündə daş dəydi qəlbimə... Yox, yox... Sərsəmləmə, qoca! Şeytanın-şayanın qara-qura fikirlərini yaxın qoyma! Səndən törəyənlərə – öz ciyərparana qorxaq deyib özünü günaha batırma! (*Sakitcə ağlayır.*) Qayıdın, ay oğul! Bir qaşıq qanın qızartısı rəngdi,

bir ovuc torpağın mayası xislət. Xislətinizdən dönməyin! Siz allah, qayıdın! Torpaqdan gedən – itkidi, torpağa qayıdan-artım. Torpaq itirə-itirə azalar, arta-arta dirilər, çoxalar. Eşidirsiz məni? Eşidirsiz? (*Səndirləyə-səndirləyə bağçanın dərinliyinə gedir.*)

Musiqi

Daş-daş əkdik – yurd bitirdik,
Daş kök atdı, bar gətirdi.
Ha qazandıq – çox itirdik,
Elə qalan yurd yeridi.

Ocaq – isti, dünya – bölük,
Kök üstündə özümüzük!
Bir dam altı – yerdən böyük,
Elə qalan yurd yeridi.

Zaman axar, daş qaralar,
Torpaq donar, daş qar alar.
Daş üstündə daş qaralar,
Elə qalan yurd yeridi.

*Birinci hissənin sonu.*

*may, 1994.*

## İKİNCİ HİSSƏ

İŞTİRAK EDİRLƏR

Mahal – yurd sahibi, 75 yaşında
Sədrəddin – Mahalın oğlu, professor
Fəxrəddin – Mahalın oğlu, xalq deputatı
Ələddin – Mahalın oğlu, polis rəisi
Nurəddin – Mahalın oğlu, jurnalist
Yeganə – Mahalın qızı
Təhməz – Mahalın qızının əri
Əlimərdan – qonşu, 70 yaşında
Çimnaz – Sədrəddinin arvadı

H ü s n i y y ə – Fəxrəddinin arvadı
R a u f – Sədrəddinin oğlu
Hüseyn – Raufun dayısı
Əjdər – Mahalın yerlisi
Satıcı
M ü h a f i z ə ç i və q a ç q ı n l a r

Əhvalat bir neçə ildən sonra qaçqınlar düşərgəsində vaqe olur. Mahal öz daxmasında çarpayıda uzanıb siqaret çəkir, fikirlidir. Arada qalxıb peçə çır-çırpı atır, yenə uzanır, üşüyürmüş kimi yorğanı sinəsinə çəkir. Sakitlikdə göynərtili uşaq ağlaması eşidilir.

M a h a l (*ürəyində*). Bu qışı da çadırlarda keçirtdik. Altı ildir... Bir igidin ömrüdür altı il. Kənd salamat qalsaydı, neçə ev tikilmiş, neçə bağ salınmışdı... hm... (*Acı-acı gülümsünür.*) Kənddən çıxhaçıxda bir-iki ting calamışdım, salamatdılarsa indi bar verir... Eh, Güllü dözmədi bu dərdə, gözləyə bilmədi. Torpaq deyə-deyə, Cəlil deyə-deyə getdi. Yurd dərdinə tab gətirməyənlər beləcə qırılırlar. Nə sorğusunu soruşan var, nə hesabını aparan. Haqdan-ədalətdən, insan hüquqlarından dəm vuran dövlətlər görmür bunu? Dünya niyə belə kar, lal olub? Yox, insan hər zülmə dözər, amma inamsız yaşaya bilməz, laqeydliyə, biganəliyə tab gətirməz. İnamsız yaşamaq, kafir olmaq kimi bir şeydir.

Uşaq ağlaması güclənir. Mahal daxmadan çıxıb qonşuluqdakı alaçığa yaxınlaşır.

M a h a l. Ay Səltənət bacı! A qızım, Qönçə!

İçəridən səs gəlir.

S ə s. Hə-ə...

M a h a l. A qızım, o uşaq niyə elə ağlayır? Niyə ovutmursuz onu?

S ə s. Neyniyim, "Bakuş" istəyir bu canıyanmış...

M a h a l. Bakuş nədi, a qızım?

S ə s. Heç nə, şirni. Ə, kiri, ə, bizi biyabır eləmə!

M a h a l (*ürəyində danışa-danışa çadırların, qarğı çovustanların, palçıq daxmaların arası ilə addımlayır*). Hm... dünən qoşa-qoşa camış saxlayan Kərim bu gün nəvəsinə şirni ala bilmir. Torpaq getdi – kəndlinin canı getdi, hardan qazansın, hardan gətirsin? Yox, bu zulum

o zulumdan döyül, torpaq qarşısında günahlarımızdı çəkirik. Vaxtında qədrini bilsəydik, vaxtında əl-ələ verib qorusaydıq, indi bu günə düşməzdik. Gör milləti necə tovladılar, necə aldatdılar, necə ağlını başından alıb çöllərə səpələdilər. Bu milləti başa salan olmadı ki, yurd əldən getsə, ağız birliyimiz də pozulacaq, süfrəmizdən bərəkət də sovulacaq. (*Ayaq saxlayıb yardım alanlara baxır.*) Həyat deyil bu, rəzalətdir! Milləti, insanlığı təhqirdir! Kəndimizin ən kasıbı, ən kimsəsizi qonaq-qara üçün süfrə açardı, indi özgə payına göz dikmişik.

Yol kənarındakı qarğı köşkə yaxınlaşır.

M a h a l. Salaməleyküm! A bala, bakuşdu-nədi, varındı onnan?

S a t ı c ı. Var, var.

M a h a l. Al bu pulu, ondan Səltənətin nəvəsinə göndər.

S a t ı c ı (*pulu alır*). Bu pula üç bakuş düşür.

M a h a l. Hə, nə düşür, göndər.

Sonra bir yerə toplaşıb söhbət edən adamlara yaxınlaşır. Salam verir və fikirli-fikirli danışıqlara qulaq asır.

I q a ç q ı n. Həsən kişi, sən yardım aldın, nə verirlər?

II q a ç q ı n. Nə verəcəklər, yenə düyü, lobya.

I q a ç q ı n. Buna da şükür, bazarda satdırıb puluna ətdən-zaddan alarsan.

III q a ç q ı n. Deyir, o biri düşərgədə yaxşı şeylər paylayıblar. Yağ da veriblər, pal-paltar da.

IV q a ç q ı n. Əşi, onların da günü bir gün döyül, iki aydı heç nə almırdılar.

V q a ç q ı n. Xəbəriniz var, Sadığın vəziyyəti ağırlaşıb.

VI q a ç q ı n. Yox əşi?!

V q a ç q ı n. Axşam üzünü qibləyə çevirmişdik.

VI q a ç q ı n. Sadıq ölməsin neyləsin, dərd çox, dərman yox.

III q a ç q ı n. Məsmə xalanın da halı pisləşib, elə bu gün-sabahlıqdı.

V q a ç q ı n. Ona nolub, kürəkəni o boyda rayonu yedi dağıtdı, gedib yıxılsın yanına da.

III q a ç q ı n. Gedə bilmir, elə bilirsən hər adam gedir?..

Mahal adamlardan aralanıb yenə fikirli-fikirli addımlayır.

M a h a l (*ürəyində*). Bir yaz xalaoğlu bir ting gətirmişdi, dedi, özüm calamışam, özüm də həyətində əkəcəm. Əkdi, amma mən deyən yerdə yox, həyətin girəcəyindəki küllükdə əkdi. Ting göyərər-göyərməz quruyub gövdəsindən zoğ verdi. Bildim ki, bu ağac bitsə də cır meyvə verəcək, amma xalaoğlunun xatirinə toxunmadım. Düşündüyüm kimi də oldu. Mühit təkcə ağacı yox, insanı da cırlaşdırır. Yurdunun, torpağının davasını yox, qarın dərdi çəkən insan başından quruyub gövdəsindən zoğlayan ting kimidir, sabah ondan nə məhsul gözləyəsən? Yox, biz onda səhv etdik ki, öz gücümüzə yox, özgələrin şirin vədlərinə inandıq. Onda alçaldıq ki, torpağımız alınanda, bizə göstərilən yardımdan imtina edib haqq-ədalət tələb etmədik, başımızın hayına qalıb qoltuğa sığındıq. Bir parça çörək gözümüzü tutdu. Gərək acından öləydik, qırılaydıq, amma dəyanətimizlə, vüqarımızla dünyaya meydan oxuyaydıq.

Mahal düşərgənin yaxınlığındakı ağaclığa gəlir. Əlimərdan oradadır.

M a h a l. Yenə tənhalığa çəkilmisən?..

Ə l i m ə r d a n. Hə, burda sakitlikdir... Deyirəm günlər, aylar ötüb-keçir, amma nə ölənimizdən xəbər var, nə qalanımızdan soraq.

M a h a l. Mənimki öldü, Əlimərdan, Cəlil o dağlarda qaldı. Bilirdi ki, düşmənin qabağından qaçsa, üzünə baxmayacam. Döyüşüb həlak oldu. Heç meyitini də görə bilmədim...

Ə l i m ə r d a n. Allah rəhmət eləsin!

M a h a l. Sənsə səbirli ol... O xarabada hələ o qədər girovlarımız, əsirlərimiz var ki...

Ə l i m ə r d a n. Səbirdən keçib daha. Düşünəndə ki, öyrətdən-züryətdən bir kəs tapılıb cənazəmi yerdən qaldırmayacaq, az qalır başıma hava gəlsin. Sən get, Mahal, get balalarının yanına. Nə qədər ömrün qalıb get, onlarla qayna, qarış! Sonra gec olar, Mahal, gec olar.

M a h a l. Nə gizlədim, Əlimərdan, qalmışam odnan su arasında. Torpağımız abad olanda kənddən çıxmağı ağlıma belə gətirmirdim. İndi isə kəndimizin qaraltısı buraxmır məni. Bir tərəfdən də övlad-uşaq. Görürsən? (*Əlini gözünün üstünə qoyub baxır.*) Elə bil bu yaxınlıq bir təskinlik verir mənə, ümidimi artırır.

Ə l i m ə r d a n. Mən səni yaxşı başa düşürəm. Neynək, bizimki də belə gətirdi. Amma yaşamaq lazımdır. Maşallah, Bakıda beş

övladın – beş evin var. Get, hansında istəyirsən yaşa, nəvə-nəticəni başına yığ. Nə qalıb ey ömrümüzdən?

M a h a l. Bilmirəm, Əlimərdan... Bilmirəm... Bəlkə getdim...

Ə l i m ə r d a n. Get, Mahal, həm də bu tikanlı məftillərdən danış ordakılara. (*Əlini tikanlı məftillərə uzadır.*)

M a h a l. Məgər xəbərləri yoxdur ordakıların?

Ə l i m ə r d a n. Baxma, səninkilər vəzifə adamıdılar, sən bir onları tərpət, məsələni qəti qoysunlar, BMT-yə yazsınlar. Belə olmaz axı, qardaş. Torpaqlarımızı işğal eləyiblər, indi də başlayıblar tikanlı məftildən sərhəd qurmağa.

M a h a l. Biz daşıq, dəmirik, bu dərdə dözürük. Niyə bu tikanlı məftillər gözümüzü tökmür? Bu məftilləri əllərimizlə doğramaqdan özümüzü necə saxlaya bilirik? İnan, etiqad elə, Əlimərdan, gözümü yuman kimi, görürəm, həmən bu tikanlı məftilləri yarıb kəndə gedirəm. Baxıram, evim-eşiyim talanıb, uçurulub, yandırılıb. Həyətdəki ağaclar da quruyublar. Amma evdən çıxanda macal tapıb ayağından kəndirini aça bilmədiyim inəyimiz elə dartına-dartına, böyürə-böyürə qalıb.

Ə l i m ə r d a n. E-e. Sən nə qoyub nə axtarırsan, a kişi. Biz öz canımızın hayında idik.

M a h a l. Nəyə lazımmış bu can bizə? Gör kimlərə məğlub olduq, kimlər bizi bu günə saldı?! Yox, Əlimərdan, heç cür özümə haqq qazandıra bilmirəm. İndi də əlimiz qoynumuzda dayanıb baxırıq. Bu tikanlı məftillərə baxırıq.

Ə l i m ə r d a n. Arxalı köpək qurd basar, a Mahal, bizi yaman sındırdılar. Boynumuz elə qoltuqlar gördü, burnumuz elə ovuldu, gözüqıpıq olduq.

M a h a l. Yox, gedəcəm Bakıya. Görüm orda neyniyirlər bunlar, indi nəyi gözdüyürlər. Donuza hır deməknən darıdan çıxandı bəyəm?!

Ə l i m ə r d a n. Siyasət çətin işdi, balam, biz elə zor deyirik, zor, zor, amma zor üçün də siyasət lazımdır.

M a h a l. Hər halda, bu millət öz başının çarəsini qılmalıdır, ya yox? A kişinin oğlu, bu millət nə vaxt əl-ələ verib dərdinə dərman eliyəcək? Halva-halva deməknən ağız şirin olar?

Ə l i m ə r d a n. Elədi, a qonşu, elədi. Bizi Allah onda qarğıdı ki, bir pətəkdən ayrılıb, min budaqdan sallandıq. Yalançı beçə verənlərin dızıltısı ağlımızı aldı başımızdan.

M a h a l. Hə, çoxları bal kəsmək sövdasına düşdü. Day demədilər, arı saxlamaq istəyənin bir arıçılığı da olmalıdır.

Mahal Bakıdadır. Sədrəddinin mənzili.

Ç i m n a z. Oyy, gör kim gəlib?! Gün hayandan doğub belə, ay Allah?! Rauf! Smotri kto prişel?! Ded Maxal prişel, ded Maxal! Çox xoş gəlmisiniz! (*Görüşürlər.*) Gözümüzün kökü saraldı səni gözləməkdən. Rauf!

R a u f. İdu, idu!

Ç i m n a z. Keç içəri. Daje ne veritsya, boje moy... Sədrəddin eşitsə, sevincindən bağrı çatlayacaq. İşə bax, sabah Raufçikin banketidi, deduşkası da burdan gəldi.

M a h a l. Nə banketdi elə?

Ç i m n a z. Bəs institutu qurtardı da Raufçik – MQU-nu.

M a h a l. Çox mübarək! Kənd-kəsək yerində qalsaydı, bir toğlu gətirərdim.

Ç i m n a z. Da tı ne bespokoysya, hər şeyimiz var. Allah canın sağ eləsin Sudikin.

Rauf gəlir.

Ç i m n a z. İdi, obnimi deduşku!

R a u f. Zdrasti! (*Əl verir.*)

M a h a l. Salaməleyküm! Böyük oğlan olub, maşallah. (*Nəvəsinin alnından öpür.*) Bəs, niyə öz dilində danışmır bu?

Ç i m n a z. Russko yazıçnıdı da. Rusca oxuyub. Siz gəlin əyləşin, mən bir çay gətirim.

M a h a l. Nə zəhmətdi çəkirsiz...

Mahal əyləşir. Çimnaz gedib çay gətirir.

Ç i m n a z. Rauf, pozvani papu, skaji ded Maxal prişel.

R a u f. Ya uje zvonil, sekretarşa qovorit, u pape soveşşanie.

Ç i m n a z. Niçeqo, koqda pridet, qlazam ne verit, eta daje luçşe. Toqda pozvani druzey, vsex priqlasi. Krome Tarana, slışiş, ona tebe ne para.

R a u f. Da ladna...

Ç i m n a z. Yenə çay verim? Bəlkə aclığın var? Sabahkı banketə başım qarışıb, heç nə bişirməmişəm. Buterbrod var, gətirim?

M a h a l. Sağ ol, a bala, elə bir aclığım yoxdur.

Ç i m n a z. Yol gəlmisən, keç uzan, dincəl.

M a h a l. Yox, deyirəm, bir uşaqlara da baş çəkim. (*Ayağa durur.*) Çoxdandı Bakıya gəlmirdim, dedim, gedim, görüm nə var, nə yox?

Ç i m n a z. Lap əcəb eləmisən!

M a h a l. Bilirsən, a qızım, o tərəfdə vəziyyət lap ağırlaşıb... Ermənilər torpaqlarımızda tikanlı məftildən sərhəd çəkir...

Ç i m n a z. Hə, elə danışırlar... Yazıq camaat... Amma Sudik deyir ki, bu yaxın vaxtlarda torpaqlar qaytarılacaq.

M a h a l. Eh, sənin Sudikin çoxdan deyir bu sözləri... (*Qapıya yaxınlaşır.*)

Ç i m n a z. Mahal dayı, birdən səni buraxmasalar, sabah heç olmasa banketə gələrsən.

M a h a l. Yaxşı, uşaqlarnan gələrəm. Sağ olun! (*Qapıdan çıxır.*)

Ç i m n a z (*öz-özünə*). Hə... Bir problem də burdan çıxdı.

Fəxrəddinin yaşadığı bina. Mahal binaya daxil olmaq istəyəndə mühafizəçi qarşısını kəsir.

M ü h a f i z ə ç i. Hara gedirsən, ay əmi?

M a h a l (*təəccüblə*). Sənə nə var hara gedirəm, a bala?

M ü h a f i z ə ç i. Kimi axtarırsan?

M a h a l. İşə düşmədik. (*Getmək istəyir.*)

M ü h a f i z ə ç i. Ora olmaz!

M a h a l. Boy... Yəni mən öz evimə gedə bilmərəm?

M ü h a f i z ə ç i. Sən orda yaşamırsan.

M a h a l. Düzdür, yaşamıram, amma orda mənim oğlum yaşayır, nəvəm, gəlinim yaşayır. Olmaz, a bala?

M ü h a f i z ə ç i. Sənədini göstər!

M a h a l. Axı sən kimsən, nəyə görə məni yoxlayırsan?

M ü h a f i z ə ç i. Mən mühafizəçiyəm. Bu blokda yaşayanları tanıyıram. Kimin yanına gedirsən, de, zəng edim aydınlaşdırım.

M a h a l. Belə de... Fəxrəddingilə gedirəm. Onun atasıyam.

M ü h a f i z ə ç i. Bir dəqiqə. (*Əlindəki telefonla danışır.*) Hüsniyyə xanım, bura bir nəfər gəlib, deyir, Fəxrəddinin atasıyam. (*Mahala.*) Adın nədir?

M a h a l. Mahal.

M ü h a f i z ə ç i. Buyurun.

Hüsniyyə qapını açıb Mahalı qarşılayır.

M a h a l. Salaməleyküm!

H ü s n i y y ə. Salam! Salam! Xoş gəlmisiniz! Həmişə siz gələsiz! Bəs Fəxrəddini görmədiz? Elə qabağınızca çıxdı.

M a h a l. Yox, görmədim... Bəs hara getdi Fəxrəddin?

H ü s n i y y ə. Uşaq Nyu-Yorkdan zəng vurmuşdu, xərclik istəyirdi. Gəldi, bir az pul apardı göndərsin. Dedi, sonra Milli Məclisə gedəcək, ordan da iş yerinə. Deyəsən İngiltərənin səfirini qəbul edəcək.

M a h a l. Gec qayıdar onda... Deyəsən sən də harasa getməyə hazırlaşmısan?

H ü s n i y y ə. Hə, mən də elə çıxırdım... Üçüncü saat dərsim var. Eybi yox, zəng vuraram əvəz eliyərlər məni. Keçin də içəri. Bura da sizin öz eviniz...

M a h a l. Əlbəttə, o nə sözdü... Amma bir halda ki, Fəxrəddin gec qayıdacaq, mən gedim o biri uşaqların yanına, sən də işindən qalma. (*Qapıya tərəf qayıdır.*)

H ü s n i y y ə. Heç elə iş olar? Bir stəkan çay da içmədiniz...

M a h a l. Çay-çörək qaçmır ki... Amma, qızım, sən o müəllim yoldaşlarını başa sal ki, ermənilər lap ağ eliyir. Biz torpağımızı azad eləməkdən danışırıq, erməni tikanlı məftildən sərhəd qurur. Biz yurdumuza qayıdacağımız günü gözləyirik, erməni həyət-bacamızı özəlləşdirir. Belə də dərd olar?

H ü s n i y y ə. Nə bilim vallah... Nə deyim...

M a h a l. Yaxşı, mən getdim... Sabah banketdə görüşərik.

Mahal qapıdan çıxır. Fəxrəddinin arvadı nigarançılıqla onun arxasınca baxır...
Bakının küçələri. Mahal ətrafa baxa-baxa addımlayır. Yaraşıqlı imarətlər, böyük tikililər, əcnəbi dillərdə yazılmış reklamlar onu heyrətə gətirir.
Fikirli-fikirli düşünür.

M a h a l (*ürəyində*). Düz deyirlərmiş, Bakı yaman dəyişib. Elə bil xarici ölkədəsən. Gör nə qədər təzə bina, imarət tikilib. Belə çıxır, adamlar varlanır, dövlətlənir. Elə bizimkilər də pis dolanmırlar. Allah başacan versin! Amma... hələ bircəciyi qaçqınların yanına gəlib, bir dərdə yaramayıblar. Biri gəlib deməyib ki, ay camaat, sizin uşağınız ayaq üstə dərs keçir, mən bu beş dənə partanı bağışlayıram ki, oturub dərs keçsinlər. Biri gəlib beş-on dava-dərman gətirməyib ki, Sadıq kimiləri özünü müalicə elətdirib yorğan-döşəkdən qalxa bilsinlər. Ancaq gələ bilərdilər... Gəlməliydilər... Gəlib, nəvəsinə bir bakuş ala bilməyən Kərimin halını soruşmalıydılar.

Mahal səkidə mer-meyvə satan adamı tanıyıb ona yaxınlaşır.

Mahal. Əjdər, bu sənsən?

Əjdər. Mahal kişi? Əşi, sən hara, bura hara? Deməli, sən də gəldin?

Mahal. Gəldim, hə...

Əjdər. Sən allah, oralarda nə var, nə yox? Neyniyir camaat?

Mahal. Nə olacaq? Ölən ölür, qalan qalır. Erməni də gözümüz görə-görə torpağımızda tikanlı məftildən sərhəd çəkir. Dedim, gəlim burdakılara deyim, bir hərəkətə gəlsinlər, tədbir görsünlər. Bəs sən neyniyirsən burda, ay Əjdər? Bu mer-meyvə hardandır?

Əjdər. Taleyimi vermişəm ruzigarın ixtiyarına, Mahal kişi. Bu gün çörəyim bu mer-meyvədən çıxır, kənddən-kəsəkdən gətirirlər, mən də alıb bahasına satıram. Neyniyim, orda yardıma göz dikməyi şəstimə sığışdırmadım. Burda da belə...

Mahal. Barı, bir yer-yurd eliyə bilmisənmi özünə?

Əjdər. Kiçik gədəmin yanındayam, o da nə müddətdi işsizdir, zavodları dayanıb. Elə birtəhər başımızı girləyirik... Di gedək evə, sən allah.

Mahal. Yox, Əjdər, uşaqlara baş çəkməyə gedirəm. Salamat qal.

Əjdər. Yaxşı yol! Bizimkilərə salam de.

Mahal gedir. Əjdər alverində davam edir.

Əjdər. Gəl, ay müştəri!

Milli Məclisin binası. Mahal qapıda dayanıb oğlu Fəxrəddini gözləyir. Fəxrəddin gəlir.

Fəxrəddin. Ata?!

Mahal. Xoş gördük!

Görüşürlər.

Fəxrəddin. Yaxşı, bura niyə gəlmisən? Xeyirdimi?

Mahal. Evə getdim, dedilər, burdasan.

Fəxrəddin. Axşam qayıdacaqdım da. Oturub dincələ bilmirdin?! A kişi, sən nə narahat adamsan...

M a h a l. Narahatam oğul, narahatam... Bax, belə hesab eləyək ki, mən heç sənin atan deyiləm, elə yoldan keçənin biriyəm, gəlmişəm sənə dərdimi deyəm.

F ə x r ə d d i n. Kişi, sən nə danışırsan? (*Ətrafa baxır.*) Yaxşı di gəl əyləş maşına, gedək evimizə, söhbətimizi eliyək.

M a h a l. Dedim ki, mən bura deputat yanına gəlmişəm. Qoy sözümü deyim.

F ə x r ə d d i n. Elə indi, burda? Ayaq üstə?..

M a h a l. Onu sizdən soruşmaq lazımdır. Yanınıza gələnləri belə qəbul eliyirsiz?

F ə x r ə d d i n. Baho... Yaxşı, buyur içəri.

Qəbul otağına keçirlər.

F ə x r ə d d i n. Əyləş, ata! (*Əyləşirlər.*) Buyur, şikayət elə!

M a h a l. Ay oğul, a başına dönüm, gəlmişəm qaçqınların dərdini sənə deyəm. Orda vəziyyət çox ağırlaşıb. Yox, mən camaatın dolanışığını, güzəranını demirəm. O heç!.. Dözmüşük, yenə dözəcəyik. Amma orda ermənilər torpaqlarımızı tikanlı məftilə alır, sərhəd çəkir, bax buna dözmək olmur. Axı siz deputatlardan camaat çox şey gözləyir. Niyə dinmirsiniz? Niyə dünyaya səs salmırsız? Bəs bu işin davasını siz də çəkməsəniz, kim çəkəcək, ay oğul?

F ə x r ə d d i n. Qurtardın, Mahal kişi?

M a h a l. Hə, gəlmişdim elə bunu deməyə.

F ə x r ə d d i n. Çox sağ ol! İndi dur gedək evimizə. Gedək!

M a h a l. Görürəm, çox eyhamnan danışırsan... Yəqin fikirləşirsən ki, atam qocaldıqca, ağlın itirir.

F ə x r ə d d i n. Ay ata, ay sənə qurban olum, nə istəyirsən məndən? Nə deputat, deputat deyib durmusan?! Dövlət olan yerdə biz kimik, nəkarəyik?

M a h a l. Deyirsən dünya dərəbəylikdi? Elə ağlımız kəsə-kəsə, tikanlı məftillərə baxa-baxa çürüyək, ölək? Ay oğul, sən özün bu torpağın, bu elin övladı döyülsən?

F ə x r ə d d i n. Doğru deyiblər, içim özümü yandırır, çölüm özgəni. A kişi, bizim əlimizdən nə gəldi ki, biz eləmədik? Yaxşı... (*Fəxrəddin özünü təmkinli aparmağa çalışır.*) Bilirsinizmi, Mahal kişi, elə məsələlər var ki, onu dərhal həll eləmək çətindir, çox çətindir. Yox, mən demirəm ki, camaatımız elə yurdsuz-yuvasız qalacaq.

Xeyr! Hər şey düzələcək, hər şey qaydasına düşəcək. Ancaq hər işin öz vaxtı, öz məqamı var. (*Pauza.*) Ay ata, sən allah, gəl qurtaraq bu söhbəti!

M a h a l. Nə deyirəm, qurtaraq deyirsən qurtaraq da. Amma bu sözümü qulağında sırğa elə: torpaqdan qazanan çox olar, torpağa yarıyan az. Xoşbəxt o adamdı ki, xoş gündə də, yaman gündə də eli-obası üçün əziz olsun. Mən gedirəm, salamat qal.

F ə x r ə d d i n. Hara, a kişi? Hara belə?

M a h a l. Uşaqların yanına. Gedim onlarla da görüşüm.

F ə x r ə d d i n. Ay ata...

M a h a l (*xüsusi intonasiya ilə*). Narahat olma, sabah banketə gələcəm. (*Gedir.*)

Ələddinin yaşadığı bina. Tanımadığı bir nəfər
Mahalın qolundan tutub yuxarı dartır.

M a h a l. Əstəğfürullah! Nədi, a bala, sən nə istəyirsən? Yoxsa, sən də mühafizəçisən?

Ş ü k ü r. Xeyr, vətəndaş, mən polis nəfəriyəm. Sizi şübhəli şəxs kimi saxlamışam.

M a h a l. Məndən şübhələnirsən? Nəyə görə?

Ş ü k ü r. Bir dəyqə. Rəisimi çağırım aydınlaşdıraq.

M a h a l. İşə düşmədik... Bu Bakı tamam korlanıb ki... Bəs hanı sənin rəisin?

Ə l ə d d i n (*gülə-gülə gəlir*). Mən burdayam, Mahal kişi! Rauf zəng vurmuşdu, bildim ki, bir yerdə beş dəyqə qərar tutmayassan. Odur ki, Şükürə dedim, gedək bu kişini tapaq gətirək.

M a h a l. Ay cüvəllağı! Ay cüvəllağı!

Ə l ə d d i n. Ay sənin qadan alım! (*Qucaqlaşırlar. Ələddin ağlamsınır.*) Bilsən səni necə həsrətlə gözləyirdim... Elə hamımız gözləyirdik... Dəli eləmisən e bizi sən.

M a h a l. Yaxşı görək!

Ə l ə d d i n. Gəl, gəl qalxaq yuxarı. Dedim, evdə bir kəs yox, gəlib görəssən qapı bağlı, qayıdıb gedəssən. Di gəl axtar tap Mahal kişini, görüm harda tapırsan?

M a h a l. Niyə, hardadılar uşaqlar?

Ə l ə d d i n. Toğrul Ankarada, axırıncı kursdadır. Pəri də bir balaca ağrıyırdı. Tuğaynan göndərdim Ankaraya. Dedim, həm özünü həkimə

göstərsin, həm də gələndə Toğrulu gətirsin. Sabah Raufun banketidi, ya bu axşam gələcəklər, ya sabah tezdən. Gedək, hələ ora da zəng vurmalıyam.

Mənzilə daxil olurlar.

Ə l ə d d i n. Xoş gəlmisən! (*Atasını bir də qucaqlayır.*) Bu ev də, bu eşik də sənə qurbandı! Hələ dayan, banketdən sonra səni aparacam bağa. Gör nələr yaratmışam, nələr əkib-becərmişəm.

M a h a l. Hə-ə...

Ə l ə d d i n. Ədə, Şükür, keç bir çay dəmlə.

Ş ü k ü r. Baş üstə, rəis.

Ə l ə d d i n (*gülür*). Özüm qurmuşdum ey oyunu, Şükürə acıxlanıb eləmə. Hə, qoy bir əlüstü Ankaraya zəng vurum, aeroporta gecikib eləyərəm, arvadın yanında biyabır olarıq. (*Zəng vurur.*) Alo! Davud bəydirmi? İyi günlər, Davud bəy! Əvət, benem, nasılsınız? Qarım, cocuqlarım nasıldılar? Şükür olsun, ben də iyəm. Hansı uçaqla? Kaç saatda? Siz gəlmiyorsunuzmu? Xanımınız da gəlmiyor? Bu olmadı, əfəndim, bu beni memnun etmədi. (*Gülür.*) Olur, əfəndim, olur. Bir xalı nədir ki? Tamam. Ayni xalıdan, anladım. Bəkliyoram! Mərhaba! (*Dəstəyi asır.*)

M a h a l. Oğul, o türkə deyəydin ki, ermənilər torpaqlarımızda sərhəd qurur, tikanlı məftil çəkir... Deyə bilməzdin, oğul?..

Ə l ə d d i n. Bu barədə sonra, ata. Qoy başımız açılsın, oturub hər şeyi sakitcə danışarıq. Şükür, planlarımız dəyişdi, əvvəlcə gedirik işə, sonra aeroporta.

M a h a l. Bu axşam gəlirlər?

Ə l ə d d i n. Hə, atacan, bir saatdan sonra Bakıda olmalıdırlar. Sən belə elə, biz gedib gələnə kimi hamamlan, şkafdan hansı paltarı istəyirsən seç, gey. Yaxşı istirahət elə. Niyə elə baxırsan?

M a h a l. Yox, uşaqların yanına gedəcəm.

Ə l ə d d i n. Əşi, nə qaça qaçdı, sabah görüşərsən də, hamısı banketdə olacaq.

M a h a l. Dedim, yox də! Yeganənin telefonunu ver mənə?

Ə l ə d d i n. Telefonları yoxdu.

M a h a l. Ünvanlarını ver.

Ə l ə d d i n. Əşi, onlar kvartirant adamlardı, gündə bir yer dəyişillər. (*Duruxur.*) Düzü, dedilər, Alatavaya köçmüşük, amma dəqiq ünvanlarını öyrənməmişəm. Sabah öyrənərik.

M a h a l. Onda Nurəddini görüm, o, yerlərini bilər. Yenə elə partiyanın qəzetindədi?

Ə l ə d d i n. Hə, ordadı. Yaxşı, gedəndə səni aparram Nurəddinin yanına. Amma bir günlüyə ha, sabah banketdən sonra bizim evdə yaşayassan. Düzünü de, uşaqların hamısından çox məni istəmirsən? İstəyirsən! Mən harda yaşayıramsa, orda da yaşayacaqsan. Şükür, çay qaldı, getdik!

Ş ü k ü r. Oldu, rəis.

Evdən çıxırlar. Gecədir. Sədrəddinin evi.
Fəxrəddin də buradadır. Çay içirlər.

S ə d r ə d d i n (*gülə-gülə*). Deyirsən Mahal kişi gəlmişdi parlamentin binasının qabağına?

F ə x r ə d d i n. Eh, Allahın altında görəydin o səhnəni. Biabır oldum e!

S ə d r ə d d i n. İş tələb eləyirdi?

F ə x r ə d d i n. Yox, iş tələb eləsə nə vardı.

S ə d r ə d d i n. Sonra hara getdi?

F ə x r ə d d i n. Nə bilim, mən dedim, yəqin sənin iş yerinə gedər.

S ə d r ə d d i n. Əşi qoy görək e...

F ə x r ə d d i n. Mənim canım üçün, kişidə səbir deyilən şey qalmayıb, nə desən eliyər. Bir də gördün durub gəldi sənin iş yerinə, müəllimlərin, tələbələrin gözünün qarşısında bir biabırçılıq çıxartdı gəl görəsən.

S ə d r ə d d i n. Əh, sən də söz tapdın danışmağa.

Ç i m n a z. Eliyər, eliyər...

S ə d r ə d d i n. Yaxşı, neyləyək, bir təklifin-zadın yoxdur sənin?

F ə x r ə d d i n. Nə deyim...

S ə d r ə d d i n. Sən öl neçə ildi qalmışıq bu Mahal kişinin əlində də. Qanımızı içir e. Nəsə bir şey düşünməliyik.

F ə x r ə d d i n. Yox, təklif-filan hamısı boş şeydi. (*Xüsusi ibarə ilə.*) Mahal kişinin xırdaca bir tələbi var: torpaqlarımızı qaytarın, vəssalam!

S ə d r ə d d i n. Hə, çox xırdaca tələbdir. (*Bir gözü qəzetdə.*) Bura bax, beş hərfli, sözündən dönməyən, belə tərs adam mənasında nə ola bilər?

F ə x r ə d d i n. Allah köməyin olsun, yaz ora: Mahal!

Gülüşürlər.

Ç i m n a z. Allah sizi güldürsün... Çay süzümmü?

F ə x r ə d d i n. Yox. Gedirəm mən...

S ə d r ə d d i n. Yaxşı... Mən də yorğunam, durum yatım.

F ə x r ə d d i n. Gecəniz xeyrə qalsın! (*Gedə-gedə.*) Uşağın yığıncağı sabahdır də?!

S ə d r ə d d i n. Ə, heç nə lazım deyil, özünü çox əziyyətə salma...

Ç i m n a z. Evdə salam deyərsiniz.

F ə x r ə d d i n. Sağ olun! (*Qapıdan çıxır.*)

Ertəsi gün. Restoranda banket səhnəsi.
Musiqi. Rəqs qurtaran kimi Fəxrəddin ayağa qalxır.

F ə x r ə d d i n. Ay çox sağ olun! Çox gözəl rəqs etdiniz! Əyləşin... Əyləşin... Hörmətli məclis iştirakçıları, bizim əziz Raufun bu, günkü banketinə onun babası, hamımızın ağsaqqalı, gözümüzün işığı Mahal kişi də gəlib. Gəlin onu alqışlayaq!

Hamı əl çalır. Yerbəyerdən səslər gəlir.

– Bir söz desin!

– Ona söz ver!

F ə x r ə d d i n. Allah heç kimi böyüksüz eləməsin! Mahal kişi bizim elin-obanın sayılan kişilərindəndir. Bizim böyüyümüz, dayağımız, yol göstərənimizdi. Bəli?.. Əlbəttə, buyursun. Elə bilirəm ki, bugünkü məclisə onun da sözü var. Ata, xahiş edirəm. Alqışlar!

Hamı əl çalır. Mahal əlində qədəh ayağa qalxır.

M a h a l (*həyacanlı*). Arzu edirəm qazancımız itiyimizdən çox olsun! Gözünüzü dikdiyiniz həyat ağaclarının gülü-çiçəyi barabəhərə dönsün. İnsanın xoşbəxtliyi əkdiyinin-becərdiyinin barını görməkdədir... Amma adi ağaclar kimi həyat ağacları da – nəvələrimiz, nəticələrimiz torpaq üstə kök atır, məhsul verir... Əzizlərim... A ciyərparalarım, orda, işğal altda qalmış torpaqlarımız tikanlı məftillərə alınır. Bizim gözümüzün qarşısında... Anlayırsız?..

F ə x r ə d d i n. Yaxşı, yaxşı, həyəcanlanma. Həyəcanlanma, ay ata!

Y e g a n ə (*ağlamsınır*). Ata... qurban olum...

T ə h m ə z. Qoy kişi sözünü desin!

F ə x r ə d d i n. Yeznə, elə eləmə səninçün mikrafonu birdəfəlik söndürək. Hə, çox sağ ol, ata, güclü sözlər dedin. Amma, ata, sən heç narahat olma, gec-tez Azərbaycanın yiyəsi tapılacaq, torpaq da qaytarılacaq, talanmış yurdlarımız da abadlaşdırılacaq.

S ə d r ə d d i n. Bir dəyqə... Bağışla... Əvvəla gəlin şənliyimizi siyasi məclisə döndərməyək. İkincisi də, Azərbaycanın yiyəsi var, torpaqlarımızın qaytarılması üçün ardıcıl və məqsədyönlü iş aparılır. Əlbəttə, nəinki xaricdə, hətta öz daxilimizdə bu işə mane olan, əngəl törədən qüvvələr də vardır.

Ə l ə d d i n. Heç gör hənanın yeridir?

N u r ə d d i n. Yenə başladılar.

S ə d r ə d d i n. Ancaq əmin olun, heç bir kəs, heç bir qüvvə bu işə mane ola bilməyəcək.

Ç i m n a z. Bravo!

F ə x r ə d d i n (*istehza ilə əl çalır*). Alqışlar!

Ə l ə d d i n (*ehtiyatla*). Mərhəba, əfəndim!

H ü s n i y y ə. Neva maynd![1]

Ç i m n a z. O-o, dayte slışat...

S ə d r ə d d i n (*əllərini yuxarı qaldırır*). Sakit, cənablar! Xanımlar... Bir dəyqə... İcazə verin, məclisimizi davam etdirək.

Ə l ə d d i n. Tamam, əfəndim, sonra konuşarıq...

F ə x r ə d d i n (*istehza ilə*). Buyursunlar... Vəziyyəti nəzərə alıb sizlərə güzəştə gedirik.

N u r ə d d i n. Yenə vaxt tapdılar didişməyə...

Çalğıçılar oynaq hava çalır. Müğənni oxuyur. Musiqi.

Bizimdir, bizimdir
Gözəl Gəncə bizimdir
Fizuli də bizimdir.
Bizimdir, bizimdir
Naxçıvan da bizimdir.
Dağlıq Qarabağ bizimdir
Bizimdir, bizimdir...

---

[1] Heç gör sözdür.

T ə h m ə z (*ayağa qalxır*). Ay camaat! İmkan verin Mahal kişi sözünü axıracan desin!

Y e g a n ə. Yazıq dədəm...

R a u f (*dostlarına*). O çyom idyot spor?

S ə d r ə d d i n. Bir dəyqə... Sakit...

Musiqi

Bizimdir, bizimdir
Gözəl Şuşa bizimdir
Kəlbəcər də bizimdir
Amerika da bizimdir
Türkiyə də bizimdir
Bizimdir, bizimdir...

Bir dəyqə... Mən sözü Raufun dayısına verirəm. Hüseyn müəllim gənc də olsa yeni iqtisadiyyatın parlaq nümayəndələrindən biridir. O həmişə deyərdi: Rauf, institutu qurtar, sənə bir "Mersedes" bağışlayacam. (*Yerbəyerdən səslər.*) O, vədinə əməl etmişdir. Qapıda dayanmış, yağın içində, nömrəsiz "Mersedes" həmin "Mersedesdir". Buyurun, Hüseyn müəllim!

Hüseyn qabağa çıxır. Cibindən açar çıxarır.

H ü s e y n. Axşamınız xeyir... Bilirsiz, mənim gözəl sözlər deməkdə səriştəm yoxdur... Mənimki işdir. Rauf, bura gəl!

Rauf ona yaxınlaşır. Hüseyn onu öpüb, açarı verir. Yerbəyerdən alqış sədaları ucalır. Hüseyn əvvəl çalğıçılara, sonra məclisə üz tutur.

Bir rəqs! Bəylər xanımları rəqsə dəvət edir.

Musiqi. Rəqs.Mahal qələm çıxarıb kağıza yazır: "Mən qaçqınların yanına getdim. Orda..."Sonra banket zalını tərk edir. Rəqs davam edir. Ələddin Mahalın əyləşmiş olduğu stula yaxınlaşanda qeydi görür, oxuyur və əlləri ilə başını tutur.
Qaçqınlar düşərgəsi. Mahal yolu tutub gedir. Bərk fikirlidir.
Hərdən ona salam verənlərin salamını da eşitmir.

M a h a l (*ürəyində*). Uşaq vaxtı babamla pay-piyada bu yolu qohumlara gedərdik. Gedən başı mən qabağa düşərdim, qayıdan başı babam. Bir dəfə gileyləndim: "Ay baba, heç gedəndə belə yerimirsən, qayıdanda sənə çatmaq olmur..." Babam dedi: "Gedəndə maraq

səni qabağa çəkir, qayıdanda yurd məni". O vaxt bu sözlərin mənasına varmadım. Eh, adi bir sözün hikmətini başa düşmək üçün bəzən bir ömür yaşamaq lazım gəlir. Qocalanda yurduna qayıtmaq, öz torpağında ölmək arzusunda olanlar o qədərdi ki... İnsanınmı, yurdunmu faciəsidir bu? Hansı daha çox itirir? Hansı daha günahkardır? (*Əllərini gözünün üstünə qoyub uzaqda qaralan kəndə baxır.*) Budu ha, nə qalıb daha... Daşına, kəsəyinə qurban olduğum adamı maqnit kimi özünə çəkir. Ehey, ay dədəm ocağı, qaraltına qurban olum, gəlirəm!

Tikanlı məftillərə doğru addımlayır. Ordan-burdan səslər eşidilir.

– Ayə, Mahal kişi kəndə gedir!
– Kişi sərsəmliyir, deyəsən.
– Niyə sərsəmliyir, halalca, doğmaca yurduna gedir.
– Ədə, qoymayın kişini vurub eliyəllər!
– Ay camaat, kişini tək qoymayın!

Adamlar təkbir, cütbir onun ardınca gedirlər. Ələmdar da onların arasındadır. Adamlar getdikcə gurlaşır. Uzaqda kənd qaralır. Mahal əllərini açaraq tikanlı məftillərə uzadır...

Musiqi.

Daş-daş əkdik – yurd bitirdik,
Daş kök atdı, bar gətirdi.
Ha qazandıq – çox itirdik,
Elə qalan yurd yeridi.

Ocaq – isti, dünya – bölük
Kök üstündə özümüzük!
Bir dam altı – yerdən böyük
Elə qalan yurd yeridi.

Zaman axar, daş qaralar,
Torpaq donar, daş qar alar.
Daş üstündə daş qaralar,
Elə qalan yurd yeridi.

**İkinci hissənin sonu**

*sentyabr, 1996.*

# FİRUZ MUSTAFA

(1952)

*Mustafayev Firuz Qədimalı oğlu – filosof, nasir, dramaturq, publisist. F.Mustafayev bir çox elmi ("Mənəvi tələbatın inkişaf dialektikası", "Sərhədsiz dünya", "Mir bez qrani" və s.), bədii ("Göyəm kolları", "Dünyanın rəngi", "Kəhrəba", "Çəhrayı tunel", "Teatr meydanı", "Adsız", "Buz üstə sətirlər" və s.) əsərlərin müəllifidir.*

*F.Mustafanın bir çox publisistik və tərcümə kitabları, mindən çox məqaləsi nəşr olunmuşdur.*

*C.Cabbarlı mükafatı laureatı F.Musafanın "Ağıllı adam", "Qəfəs", "Tabut", "Vida marşı", "Müqəvva", "Musiqili məktublar", "İlğım", "Sevməsən ölərəm", "Ayı təbəssümü", "Dəhliz", "Sənə sözüm var", "Adsız", "Əqrəb bürcü" pyesləri Bakı, Sumqayıt, Naxçıvan, Şuşa və Qazax dövlət teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur.*

## MÜQƏVVA

(*İki pərdəli monodram*)

İŞTİRAK EDİRLƏR

Qadın
Səslər

## BİRİNCİ PƏRDƏ

Müasir zövqlə bəzədilmiş mənzil. Yaxası açıq xalatda qadın. Hiss olunur ki, o indicə yuyunub hamamdan və ya saunadan çıxıb. İri bədənnüma güzgünün qarşısında dayanıb fenlə saçını qurudur. Qadın arabir əlini qalın saçlarına çəkib zümzümə edir. Otağın küncündə kişi müqəvvası: uzun saçlı, boy-buxunlu, ayaq üstə qoyulmuş müqəvvanın "əyninə" şortik geyindirilib. Qadın zümzümə edə-edə müqəvvaya yaxınlaşır, fenlə onun "uzun saçını" – parikini qurutmağa başlayır. Televizorda solo çalınır. Qadının zümzüməsi sanki ifa edilən melodiyanı tamamlayır. Ümumiyyətlə, televizor tamaşa boyu işləyir. Qadın əlini müqəvvanın uzun saçlarına çəkir.

Q a d ı n. Hə, necədir? Sənə isti deyil ki? İstidir? Elə ona görə soyundurmuşam da səni? İstəyirsən lap şortikini də soyundurum. Utanırsan? Utanma, əzizim... Ta utanmaq zamanəsi ötüb getdi. Bir də ki, kimdən utanmalısan axı? İkimizik burada... (*Qadın əlini uzadıb şortikin belindən tutub rezini dartır və buraxır: şappp... şappp... Sonra qadın əli ilə müqəvvanın arxasına, yanlarına şappıldadır*). Hə, bax belə. Əsil kişisən... Yox, hələ kişi qırığısan... Tezliklə sən mənə alışacaqsan... Yəqin ki, elə mən də sənə... Görürəm üz-gözündən mərdlik tökülür. İndi sənin kimiləri yoxdur. Bəyəm, indi əsil kişi var ki? Bəlkə də var, amma mən beləsini tanımıram... Mən bir az qəribə qadınam, elə deyilmi? Yox, mən cəngavərlər dövründən-zaddan qalmamışam. Özüm də istəmirəm ki, kimsə eyvanımın altında serenada oxusun... Yox, yox, qətiyyən... Sadəcə olaraq, adi, normal bir kişi tapmaq indi müşkül məsələdir. (*Mobil telefon zəng çalır. Qadın dolabın üstündən telefonu götürüb kresloda əyləşir.*) Hə, eşidirəm... Kim? (*İngilis dilində bildiyi beş-on kəlmədən istifadə edərək müsahibinə anlatmaq istəyir ki, bu gün görüşmək imkanı yoxdur, sabah zəngləşərlər.*) Helo! Hau ar yu, mister? Vi kant mit tudey. Tumorro. Okey... Si yu tumorrro. Okey, mister. (*Qadın mobil telefonu söndürüb müqəvva ilə üz-üzə dayanır.*)

Sənin sahibin idi mənə zəng vuran. Yəni səni mənə satan adam. Deyəsən ingilisdir. Satan deyəndə ki... Hələ sənin haqq-hesabını ödəməmişəm. Heç sənin keçmiş sahibinin ingilis olub-olmadığını da düz-əməlli bilmirəm... Əşi, qoy rədd olub getsin... Ta mən kişilərlə qurtarmışam. Elə sən bəsimsən. (*Qadın əlini müqəvvanın böyür-başına gəzdirir.*) Fikir eləmə.

Zəng. Qadın əvvəlcə jurnal stolunun üstünə qoyulmuş telefona yaxınlaşır, dəstəyi götürür. Amma zəng bir də çalınanda, səhv etdiyini anlayır. Çalınan qapı zəngi imiş. Qapını açır.

S ə s (*bayırdan*). Bajı, qatıq istəyirsən? (*Qadın hiddətlə qapını örtür.*)

Q a d ı n. Rədd ol! Qatıq! Get başına çək o qatığı! (*Yenə zəng. Qadın yenə qapıya yaxınlaşır. Sonra hiss edir ki, bu, telefon zəngidir. Jurnal stoluna yaxınlaşıb dəstəyi götürür.*) Hə, salam! Necəsən? Səsini eşidək. Mən əla! (*Pauza.*) Ha-ha-ha! (*Gülür.*) Ərə getmişəm. Hə, doğru sözümdür. İnanmırsan? (*Gülür.*) Niyə? Bəyəm əbədi subay qalmaq elə mənim alnıma yazılıb?! Hamı sənin kimi ola bilməz ki! Maşallah, nəyi nə vaxt könlünə düşür, özünə əla kavaler tapırsan.

Vallah, sənin tilsimin var. Mənə rast gələnlərin hamısı o söz... İndi bir ciddi adam qalıb ki? Hamı elə-belə məşğulat etmək, kef çəkmək istəyir. Amma bu... Yox, bu elə kişilərdən deyil. Ha-ha-ha! (*Gülür.*) Bu, heç vaxt xəyanət etməyəcək. Bilirəm! Lap onun yerinə and da içə bilərəm... Hə, yanımdadır. Ucaboy, eynəkli, qəşəng oğlandır. Dəstəyi ona verim?.. Yox, utanır, danışmaq istəmir. Düzünü bilmək istəsən, o, laldır. (*Pauza.*) Elə lal yaxşıdır. Mənə elə bu cür adam əl verir. Mən ona sonacan sadiq qalacağam... Elə o da mənə... Haradan bilirəm? Bilirəm də... Özüm sevib-seçmişəm. (*Qapı zəngi. Qadın əsəbiliklə.*) Bir dayan görüm! Deyəsən, gələn var... (*Qapıya yaxınlaşır.*)

S ə s (*bayırdan*). Xlor! Xlor istəmirsiz ki?

Q a d ı n. Əşi, rədd olun! Xlor! Elə hamınız xlorlanmalısınız! Üfunət yağır hamısından. (*Qapını çırpıb*, *dəstəyi götürür.*) Heç... Elə-belə... Köhnə tanışlardan biri idi. Qovdum. Ərli qadınam... Nə olsun ki, bu lal-kardır, axı görür, başa düşür. Yox, gözlüklü olsa da görür... (*Pauza.*) Əlbəttə, çox yaraşıqlıdır. Özün bilmirsən ki, mən necə vasvasıyam? Hər adam sinəmə yatmaz. Bu, super kişidir. Hə! Supermendir, bəli! İnanmırsan? Hə, kişin gəldi? Yaxşı, sonra zəngləşərik. Muğayat ol ölmüşdən, yemək-içməyini vaxtlı-vaxtında ver... (*Dəstəyi qoyur. Müqəvvaya yaxınlaşır.*) Hə, rəfiqəmdir. Ərlidir, amma ərinə tez-tez xəyanət edir. O da o cür qadındır. Amma görürsənmi, mən ərli olmasam da... Yox, sən mənim ərimsən. Mən sənə xəyanət etmərəm. Amma biri lap bezdirib məni. Hər gün mənə zəng edir. Guya dərdimdən dəli-divanədir. Yox, mən onu tanımıram. Guya ki, o məni haradasa görüb, vurulub, aşiq olub. Allah bilir, telefonumu haradan ələ keçirib. Elə bu vaxtlar zəng edir hər gün. Nə bilim, bəlkə də məzələnir? Amma çox məlahətli səsi var. Xırıltılı, gur, qaba səslə danışır. Amma məni ovsunlayıb köpək oğlunun səsi. Nə bilim, bəlkə də özü əbləhin biridir. Amma o gur, o xırıltılı səs məni ram eləyib... Biz qadınlar axmağıq. Bəs eşitməmisən ki, qadınlar qulağı ilə, kişilərsə gözü ilə sevir. Sən lal-karsan. Bəs gözünə nə olub sənin? Görürsən? Qoy bir maç edim səni. (*Müqəvvanı öpür.*) Sən də məni öp də... Eybi yox, öyrənərsən... Çox dilsiz-ağızsızları sonra bülbül kimi ötən görmüşəm... Qısqanc deyilsən ki? Rəfiqəm əməlli-başlı inandı mən deyənlərə... O, hər il ərini dəyişir, mən cəmi bircə dəfə ərli olmuşam. Əlbəttə, rəsmi nikahı deyirəm. Mən and içirəm ki, sənə heç vaxt yalan deməyəcəyəm. Mən sənə xəyanət etməyəcəyəm. Mən sənə sadiq qalacağam. Mən sənə həmişə həqi-

qəti deyəcəyəm. Təkcə sənə... Başqalarına demədiyim və heç vaxt deməyəcəyim həqiqəti... (*Telefon zəngi. Qadın jurnal stoluna yaxınlaşır*, *dəstəyi götürür.*) Bəli, eşidirəm... Bilirsinizmi, mən boş-bekar adam deyiləm...

S ə s (*sanki reproduktorla danışır*). Bütün günü evdə olmusan?..

Q a d ı n. Mən heç kəsə hesabat vermirəm...

S ə s. Xahiş edirəm ki, mənimlə o tonda danışma. Mən həssas adamam.

Q a d ı n (*gülür*). Elə səsinizdən hiss olunur.

S ə s. Bura bax, məni ələ salma... Mən sənə öz sözümü demişəm... Ünvanın məlum, telefonun məlum... Mən zarafatı xoşlamıram... Yaxşısı budur, görüşüb söhbətləşək. Onsuz da mən səni görmüşəm. Elə ilk baxışdan vurulmuşam. Məncə... Bəlkə də ərdə olmusan, eybi yoxdur. Elə mənimki də gətirməyib. Bu həyatdır... Nə etmək olar?

Q a d ı n. Çox qəribə adamsız, ha... Gedin özünüzə bab adam tapın. Mən artıq ailə qurmuşam.

S ə s. Axı, yalan deyirsən...

Q a d ı n. Haradan bilirsiniz?..

S ə s. Səsindən, nəfəsindən. (*Qapı zəngi.*)

Q a d ı n. Dayan, qapının zəngini vururlar.

S ə s. Dəstəkdə gözləyirəm...

Qadın qapıya yaxınlaşır.

S ə s (*bayırdan*). Xanım, işığın pulunu çoxdan ödəmirsiz...

Q a d ı n (*əsəbiləşir*). Əşi, əcəb eləyirəm! Nə olsun ki...

S ə s (*bayırdan*). Xahiş edirəm, qışqırmayın. Keçək içəri, danışaq... Bir sayğaca baxım...

Q a d ı n. O sayğac, o da sən... Nə qədər istəyirsən bax özünçün... (*Qapını çırpır*, *gəlib dəstəyi götürür.*) Hə, eşidirəm...

S ə s. Kim idi?

Q a d ı n. Heç, qonşu...

S ə s. Nə istəyirdi?

Q a d ı n. Hamı nə istəyirdisə, o da ondan istəyirdi...

S ə s. Hamı? Hamı nə üçün? Hərə bir şey istəyə bilər. Məsələn, mən səni istəyirəm...

Q a d ı n. Elə o da sən istəyəndən istəyirdi...

S ə s. Qovdun?

Q a d ı n. Qovdum... Hər yoldan ötəni içəri dəvət etməliyəm?

S ə s. Deməli, gəlsəm, məni də qovarsan?

Q a d ı n. Bura baxın, gəlsənə bu siçan-pişik oyununu qurtaraq...
S ə s. Olsun. Amma bir şərtlə... Görüşüb söhbət edək, sonra. Axı sən məni görməmisən...
Q a d ı n. Sizə o gün demişəm, yenə də deyirəm. Mən əvvəla, küçə qadını-zad deyiləm. İkincisi də ee, öz adamım var. Belə bilmək istəsəniz, ərə getmək ərəfəsindəyəm.
S ə s. Bu, yaxşı sonluqla qurtarmaz, ha!..
Q a d ı n. Nədir, mənə xox gəlirsiniz?
S ə s. Mən sözümü dedim...
Q a d ı n (*duruxur*). O məsələnin axırı necə oldu? Sizin prezidentin...
S ə s. Bizim prezidentin qatili hələ tapılmayıb. İstintaq gedir...
Q a d ı n. Kimdən şübhələnirlər?
S ə s. Elə şirkətin bütün işçilərindən.
Q a d ı n. Sizdən də?
S ə s. Sən haradan bilirsən?
Q a d ı n. Axı özünüz dediniz ki, hamıdan şübhələnirlər...
S ə s. Hə... cəhənnəmə ki... Qoy şübhələnsinlər... Məni tanıyanlar tanıyır...
Q a d ı n. Axı siz məni də hədələyirsiz...
S ə s. Bəli, hədələyirəm. Sən mənim olmalısan...
Q a d ı n. Əgər bu mümkün olmasa, onda necə?
S ə s. Bu, ölümlə nəticələnə bilər...
Q a d ı n. Məni hədələmə! Bildin?..
S ə s. Mən öldürə bilərəm özümü. Mən intihar edə bilərəm. Bildin?
Q a d ı n. Siz lap şiziksiz ki?.. Vallah, indi adam hər şeyə inanmaq istəyir. Onsuz da dəlilərin sayı günü-gündən artır... (*Qapı zəngi.*) Yaxşı, yenə gələn var, qapını döyürlər...
S ə s. Sağ ol. Yaxşı-yaxşı fikirləş ha!
Q a d ı n. Yaxşı, yaxşı... (*Dəstəyi qoyub qapıya yaxınlaşır.*) Nə olub? Nə istəyirsiniz?..
S ə s (*bayırdan*). Biz dilənçi deyilik... Əgər nəziriniz varsa... Əgər əhdiniz varsa...
Q a d ı n. Mənim heç nəyim yoxdur. Bildiniz?! (*Qapını çırpır.*) Biri gedir, biri gəlir. (*Qadın divardan asılmış şəklə yaxınlaşır, diqqətlə şəkildəki kişiyə baxıb onun üzünə tüpürür.*) Tfu sənin sifətinə!.. (*Müqəvvaya yaxınlaşır.*) Qorxma... O səndən əvvəlki ərimdir. Yəqin

ki, o öz evində olsaydı, indi sən də öz əvvəlki vəzifənin icrası ilə məşğuldun. Bəlkə də lap ömrünün sonunacan subay, ya da ki, dul qalacaqdın. Heç əvvəllər evlənmisən? Yox?! Amma iş yerindəki qızlar yaman fırlanırdılar sənin başına. Hər gün əyin-başının tozunu alır, saçını darayırdılar... Deyəsən bir az ərköyünsən, hə? Xeyr, burada belə nömrələr keçən deyil. (*Mobil telefonun zəngi eşidilir. Qadın telefonu götürür.*) Salam, salam... Nasılsın, efendim? Eyimisin? Yarın müheqqeq görüşelim. Evet, evet. Yarın, yarın. Anladınmı, efendim? İyi günler... Mutluluq diliyorum, efendim. (*Telefonu dolabın üstünə qoyub müqəvvaya yaxınlaşır.*) Qısqanırsan, hə? Türk tanışımdır. Məni dönər yeməyə çağırır. (*Əlini kiminsə arxasınca qulaclayır.*) Ala ey, öləsən səni! Guya bu səfehin dönərindən ötrü burnumun ucu göynəyirmiş. Dönərin qoxusu burnuma dəyəndə bir həftə iştaham olmur. Ala ey, axmaq adam. Ağlını verib o birilərinə. Yəni doğrudan mən belə ucuz olmuşam?! Dönər yeməyə... (*Yamsılayır.*) Yarın gələrsin... Nasıl gəlmədin? Müheqqeq gelerim... Ay gəldim ha! Hərif tapıb özüyçün. Mən acam, amma içalat acı deyiləm, quyruq acıyam, axmaq, səfeh, danabaş... (*Müqəvvaya.*) Görürsən də... Hamı məni bəxtəvər hesab edir. Amma üzdən tanıyırlar məni, astarıma bələd deyillər. Əslində, əsil xoşbəxt elə sənsən, çünki təkcə üzün var, astarın yoxdur. İndi sənin kimiləri o qədərdir ki, saymaqla qurtarmaz... Əsas zahiri görünüşdür, daxilə baş vuran kimdir? Kimə gərəkdir sənin için, daxilin, ürəyin, qəlbin? Düz demirəm? Görünən yerin gözə xoş gəldi, vəssalam... İndi adamın ürəyinə tüpürürlər. İndi ürək lazım deyil. İndi o necə deyirlər ey, forma lazımdır, musmun yox! Forma da maşallah, səndə. Göz dəyməsin, üz-gözündən də ki, ləyaqət tökülür. Elə deyilmi?

(*Telefon zəngi. Qadın jurnal stoluna yaxınlaşıb dəstəyi qaldırır. Ayaqlarını bir-birinin üstünə aşırır.*) Hə, eşidirəm... Kişiciyin getdi? Hara? İclasa? İclaslar yenə qüvvədə qalır? (*Pauza.*) İndi nəyi həll edirlər? Amma sənin rast gəldiklərin də düz-əməlli adam çıxmır ha... Düz deyirsən, elə onların hamısı bir bezin qırağıdır... Mənimki? Dilsiz-ağızsızın biridir... Ha-ha-ha. (*Gülür.*) Yoxsa, doğrudan inanmısan ərə getdiyimə?! Yox, əşi!.. Mənim nəyimə gərəkdir ər?.. Müqəvva almışam ey!.. İnanmırsan? Doğru sözümdür. (*Pauza.*) Belə əsil müqəvva. O vitrinlərdə gördüyün müqəvvalardan... Hə, çuçela, çuçela, maneken... Kişi müqəvvası. Əla bir manekendir. (*Pauza.*) Nə bilim ey?.. Mağazanın vitrinində görmüşdüm... Xoşuma gəldi... İçəri

keçib bir xeyli ora-burasına tamaşa elədim. Gördüm bir kişi yaxınlaşdı. Yəqin səfeh elə bildi ki, müqəvvaya geyindirilmiş kostyumdan xoşum gəlib. Axı özün bilirsən, mən bir az ingiliscə qırıldada bilirəm. Mənə dedi ki, bəs, pliz, missis... Di yu layk ve kot? Pliz teyk it. Di yu vont... Dedim, bəli, xoşum gəlir, amma kostyumdan yox, kostyumu geyən adamdan. Yəni manekendən. Bir az ordan-burdan mırt vurduq. Hal əhli imiş. Dedi ki, tezliklə həmin müqəvva başqası ilə əvəz olunacaq, mən onu sənə bağışlaya bilərəm. (*Pauza.*) Nə isə, bağışladı bu qəşəng kişini mənə. Mən indi buna ərə getməyə hazırlaşıram. Gətirmişəm evə. Həmin ingilis onu mənə elə kostyumlu-zadlı bağışlayıb. Yox, pul almadı. Deyəsən özü də vurulub mənə. Tez-tez zəng edir. Amma isti olduğu üçün bu kişiciyi soyundurmuşam. Yox ey, lap lüt-üryan deyil. Şortik geydirmişəm. Hə, gözlüyü də var. Ziyalı görkəmlidir. Ha-ha-ha. (*Pauza.*) Necə yəni nəyimə lazımdır? Elə ərim ölmüş də müqəvva kimi bir şeydi də! Bəyəm mən ondan bir kişilik gördüm ki?! Üstü bəzək – altı təzək idi... Lap canlı maneken... Əşi, özün bilmirsən niyə ayrıldım? Həm arvadsifət idi... Həm də ki, çox yaltaq adamdı... Mənim rəisimin qabağında elə əriyirdi ki... Elə rəisin özü ölürdü mənimçün. Fikirləşdim ki, elə bu cür qanuni ərdən o cür qeyri-qanuni ər daha yaxşıdır. Özün bilirsən də, mən mərd adamları xoşlayıram. Özünə baxma, mən ürək adamıyam. Hə, elə ona görə dalından dəydim, tərkini verdim. (*Pauza.*) Nə? İt? Eee... İtdən iyrənirəm. Elə it saxlayan adamlardan da zəhləm gedir. Gül kimi kişidir ey... Ucaboy, qəşəng, yar-yaraşıqlı. Mənə o cür ərdən beləsi daha sərfəlidir. Eşidib-bilən nə deyər? Nə deyirlər desinlər! Lap eqoistəm, sonra? Lap elə o cür desinlər! Nəyi? Eh, sən də!.. Mənim hər şeyim yerindədir. Başım da. Ha-ha-ha. (*Gülür.*) Bir şey fikirləşib taparıq. Bu, problem deyil. Bəyəm kişilik elə onunla ölçülür?! Ay-hay... Qətiyyən... O elə hamıda var. (*Pauza.*) Camaat kimdir ey... camaat. Mən təkəm, camaat deyiləm... Hansı oğlan? Hə, bildim... O oğlan da elə hər gün zəng edir. Gah mənə hədə-qorxu gəlir, gah da deyir ki, intihar edəcək... Düzü, səsi xoşuma gəlir, mərd adama oxşayır. Hə də, səsindən... Əşi, nə bilim ey... Televizorda? Yox. Nə var ki? Hə, deyəsən oxuyan odur... Özüdür ki var. (*Televizora baxır. Televizorda kişi müğənni oxuyur.*) Hə, bir az sınıxıb, qocalıb... O da bir kişi çıxmadı... Nə olsun ki?.. Deyərdi ki, sənsiz bir gün də yaşaya bilmərəm. Axırı nə oldu? Çərhəyanın birinə ürcah oldu... İndi eşitmişəm başında qoz sındırır... Qoy canı

çıxsın... Əlbəttə, evimdəki ondan gözəldir. Əsil kişidir... Yaxşı, qoy bir qulaq asım, yarama köz basma!.. Amma zalım oğlu yaman nalə çəkir ha... Hə, o vaxt birgə oxuyardıq o mahnını... (*Pauza.*) Oldu, oldu... Gülürsən? Sən də qəribə adamsan ha!.. Qoy görüm bir nə deyir? Evdəkini deyirsən?.. Qoy o da eşitsin. Bir azdan zəngləşərik. Oldu. Maç edirəm. Ay qız, niyə gülürsən? Yaxşı, yaxşı...

Televizorda muğənni oxuyur. Qadın müqəvvaya yaxınlaşır, əlini onun çiyninə qoyur. Sonra qollarını kəpənək qanadları kimi açıb müğənniyə qoşulur, onunla səs-səsə verib duet oxuyur.

Kişi səsi (*televizorda oxuyur*).

Səsini eşitmirəm,
Bəlkə də kar olmuşam.
Üzünü görəmmərəm,
Bəlkə də kor olmuşam.

Qadın.

Dözdüm kədərə, qəmə,
Əl açmadım heç kimə,
Mən sadiqəm eşqimə,
Vəfalı yar olmuşam.

Kişi səsi (*televizordan*) və Qadın.

Sən atlı, mən piyada,
Yaşayıram röyada...
İndi yoxam dünyada
Bir zaman var olmuşam.

Qadın. Ay öləsən səni! Bax belə yanarsan ha!.. (*Mahnı başa çatır. Qadın rəqs edə-edə müqəvvaya yaxınlaşır. Onun saçına sığal çəkir.*) Mən səndən heç nəyi gizlətmək istəmirəm. Mən özümü heç də müqəddəs Məryəm hesab etmirəm... Vaxtilə bax, onunla sevişmişik. Hə, onu deyirəm, o oxuyanı. (*Televizordakı müğənni başqa bir mahnını oxuyur.*) Bax, onda o, cavan idi. Lap şumal bir oğlandı.

Olur də... Bu həyatdır... İndi isə təkcə səni sevirəm. Yalnız səni... Nəyə istəyirsən and içə bilərəm. Mən ta heç bir kişi ilə görüşməyəcəyəm. Mən onlardan hər cür ikiüzlülük, xəyanət, satqınlıq görmüşəm. Düzdür, sən də kişisən. Amma indi mən tək əminəm ki, səndən heç bir xəyanət görməyəcəyəm. Yox, bəlkə səhv edirəm? İndi elə bir zəmanə gəlib ki, elə müqəvvadan da xəyanət gözləmək olar. (*Qadın keçib kresloda əyləşir. Dolabın üstündən siqaret qutusunu götürür. Bir siqaret çıxarır, damağına qoyub alışdırır.*) İcazə verirsən? Yoxsa tüstünü xoşlamırsan? Arabir çəkirəm. Mən ömrüm boyu məclislərdə olmuşam. Özü də ən çox kişi məclislərində. Elə çəkməyi də onlardan öyrənmişəm. Sən necə, çəkən deyilsən? (*Ayağa qalxıb müqəvvaya yaxınlaşır, "kişiyə" siqaret təklif edir. Qadın qutudan bir siqaret götürüb, onun qulağının üstünə keçirir.*) Hə, bax belə. Nə vaxt könlün istəsə, götürüb çəkərsən. (*Qadın gəzişir. Dibçəkdəki gülün dibinə su tökür. Siqaretinə qullab vura-vura dolaba yaxınlaşır; dolabın gözündən konyak şüşəsi və şokolad çıxarır. Konyakdan piyaləyə süzüb müqəvvaya baxır. Gülümsəyir.*) İcazə verirsən, içim bunu? Elə içməyi də kişilərdən öyrənmişəm. Ümumiyyətlə, mənə bütün pis vərdişləri sənin həmcinslərin öyrədib. Susursan? Susmaq razılıq əlamətidir. Deməli, içmək olar, hə? (*Qadın piyaləni başına çəkir. Şokoladdan bir parça qoparıb yeyir. Siqaret tüstülədir.*) Bəs sən özün necə, içən deyilsən ki? Bəyəm, kişi deyilsən? İndi yıxıb ağzına tökəcəyəm bu konyakı. Yoxsa, ideal olmusan mənimçün? Hə? Ola bilər. Yalnız müqəvvalar ideal ola bilər. (*Qapı döyülür.*) Dayan, qapı döyülür. Niyə zəngi çalmırlar? Əşi, qoy rədd olsun. Allah bilir, yenə hansı yumurtasatan, xlorsatandır?

Bayırda səs-küy. Televizorda müğənni oxuyur. Bayırın səs-küyü otaqda eşidilir. Hiss olunur ki, iğtişaş, canlanma var. Müxtəlif şüarlar eşidilir: "Çörək!", "Azadlıq!" və s. Qadın pəncərədən bayıra baxıb geri qayıdır. Otaqda var-gəl edir. Qapı yenə döyülür. Qadın gedib qapını açır. Bayırdan qonşunun səsi eşidilir.

Səs (*bayırdan*). Qonşu, salam... Getmirsən?

Qadın. Hara?

Səs (*bayırdan*). Həyətə... Küçəyə... Hamı meydana toplaşıb. Camaatın bir hissəsi lap sizin-bizim eyvanın altındadır. Çıxıb tamaşa edək... Evdə tək-tənha neyləyəcəksən ki?

Q a d ı n (*əsəbi*). Yox, mən tək deyiləm, qonağım var, qoyub gedə bilmərəm. (*Qapını çəkir.*) Paho, camaat yığışıb. Gözümüz aydın. (*Müqəvvaya.*) Sən necə, çıxmaq istəyirsən? Yox! Bəlkə bir az konyak vurasan?! Heç səsin gəlmir. Susursan? Eləsə, vurmaq istəyirsən! İç! Unut dünyanı! (*Qadın konyak dolu qədəhi müqəvvaya sarı uzadır. "Kişi"dən bir tərpəniş görməyən qadın əlini onun boynuna dolayıb qədəhi müqəvvanın ağzına uzadır. Sonra hirslənib konyakı onun sifətinə çırpır.*) Hə, bax belə! Yoxsa, özünü çox ləyaqətli hesab edirsən?! (*Bayırda səs-küy... Müxtəlif şüarlar səslənir. Qadın pəncərəyə yaxınlaşır.*) Baho, izdihamın quyruğu lap bizim eyvana dirənib ki?! (*Müqəvvaya.*) Səs-küyü, hay-harayı eşidirsənmi? Ax, qışqıran, yüyürən, gövşəyən müqəvvalar. Ah, bir-birini əzən, didən, parçalayan manekenlər. Necə bilirsən, bəlkə birlikdə enək həyətə? Yox, nəyimizə gərəkdir? Bəs onların başçısı hanı? Bəlkə özüm düşüb bu kütləyə rəhbərlik eləyim? Onların səsini sən də eşidirsənmi? Hərə bir şey istəyir. Çörək, iş, pul, azadlıq, həqiqət, düzlük, qanun-qayda... Sənə onların heç biri gərək deyil, çünki... Çünki səndə bunların hamısı var. (*Piyaləni konyakla doldurub başına çəkir. Eyvana yaxınlaşır. Kimlərəsə əl eləyir. Bayırdan səs-küy eşidilir: "Aşağı düş!", "Kimi gözləyirsiz?!" və s. Qadın eyvana çıxıb əl eləyir. İzdihamın səs-küyü otaqda aydın eşidilir.*)

Bəlkə aşağı düşüb camaatı sakitləşdirim? Axı onlar başsızdır? Budur, pəncərədən baxıram, onların hamısı müqəvvaya-manekenə, yəni sənə oxşayır. Yox, sən onların çoxuna baxanda daha canlı, daha yaşarı görünürsən. Sən canlısan, onlarsa müqəvva... Müqəvvalar da cana gəlməli, dil açmalı, nəfəs almalıdırlar. Mən indi onları bayırdakı o müqəvvalardan cana gətirərəm! Mən indi onların dilini açaram! Bir dayan! Bax, indi bu dəqiqə! Mən hər şeyi yoluna qoyaram!

(*Qadın xalatını düymələyir, üst-başını səliqəyə salır, saçını darayır. Konyak dolu qabı başına çəkir, siqareti külqabıya basır. Güzgü qabağında firlanıb eyvana yaxınlaşır. Üzünü bayıra – səsi, şüarı, tələbi eşidilən izdihama sarı tutub əvvəlcə sakit, təmkinli, sonra isə çılğın bir tərzdə danışmağa başlayır.*) Sakit olun, qışqırmayın! Axı siz nə istəyirsiniz? Mən kiməm?! Mən də sizin biriniz... Adi, sıravi bir vətəndaşam... Nədir sizin tələbiniz? Məqsədiniz nədir? Yox, mən aşağı düşməyəcəyəm. Elə bura – bu eyvan mənimçün ən yüksək tribunadır. Əgər səsimi eşitmirsinizsə, səsucaldanları yaxına gətirin. Qoy hamı eşitsin məni! Hamıya, hamıya, hamıya! Hə, indi

necə, aydın eşidilirmi?! (*Səsinin tonunu yüksəldir.*) Siz azadlıq tələb edirsiniz?! Siz pul tələb edirsiniz?! Elə deyilmi? Axı azadlıqla pul bir yerdə, bir arada ola bilməz! Azadlıq! Bəyəm yer üzündə azadlıq var ki, siz də onu qazanasız? Mənə bir azad adam göstərin. Göstərin də! Niyə susursunuz? Siz həm heyvan kimi işləmək istəyir, həm də azadlıq arzulayırsınız! Siz həm pul qazanmaq niyyətindəsiniz, həm də azadlıq... Bu necə ola bilər? Pulun köləsinə çevrilən azad ola bilərmi? Azadlıq adamın öz içindən başlayır. Əvvəlcə öz daxilinizi kin-kidurətdən təmizləyin, sonra azadlıq istəyin! (*İzdihamlı səs-küy eşidilir.*) Sakit olun! Qulaq asın!

Yer üzündə azad olan bir kimsə yoxdur. O ağac da, o quş da, o ot da, o it də cəhənnəm əzabı çəkir. Onların heç biri azad deyil. O ağac torpağın girovuna çevrilib, o quşsa göyün. Heç Allah özü də azad deyil. Əgər insanları – sizi, bizi Allah yaradıbsa və öz yaratdığına azadlıq bəxş edə bilməyibsə, onun özü necə azad ola bilər? Allah bizim, yəni öz yaratdığı insanların girovuna çevrilib. Biz Allahı əsarətdən qurtarmalıyıq! Biz Allaha azadlıq bəxş etmək üçün ilk növbədə özümüz azad olmalıyıq!

Bəs nədən, haradan başlayır bizim azadlığımız? Öz nəfsimizdən, öz xislətimizdən, öz daxilimizdən, öz xaricimizdən... başlayır. Əvvəlcə ürəyinizi azad edin, sonra ruhunuzu. Sonra da bütün bədəninizi. (*Qadın get-gedə daha çılğın şəkildə danışmağa başlayır.*) Qışqırmayın! Sakit olun!

Sizin hamınız məhbussunuz! Sizin hamınız məhkumsunuz! Siz özünüz özünüzü məhkum edibsiniz, özünüz özünüzü həbsxanaya salıbsınız! Özünüz özünüzü azadlıqdan məhrum edibsiniz! Siz azad olmaq istəyirsiniz, eləmi? Mən artıq birini azad etmişəm. O burada mənim yanımdadır. Siz əvvəlcə öz murdar nəfsinizdən, qul xislətinizdən, kölə xasiyyətinizdən azad olun. Daxilən azad olduqdan sonra çölünüzə də əl gəzdirin... Lazım gələrsə, hər şeydən – ev-eşikdən, var-dövlətdən, mal-mülkdən, lap elə pal-paltardan belə imtina etməlisiz! Bax, onda siz azad olacaqsız! (*İzdihamın səsi. Səs-küy. Haray-həşir. Musiqi.*)

Siz azad olanda Allah da sizin girovunuz olmayacaq, o da azad olacaq! Bax mən də azad olmaq istəyirəm. Mən özümdən başlamaq istəyirəm bu azadlığı! (*Qadın danışa-danışa əvvəlcə xalatını, sonra ayaqqabısını, corabını soyunub, pəncərədən küçəyə doğru atır.*) Mən öz azadlığıma qovuşmaqdayam! Görürsünüzmü, mən çox şeydən

imtina edirəm. Lazım gələrsə, hər şeydən imtina edəcəyəm öz azadlığım naminə! Hər şeydən. Sizsə, eyni vaxtda həm pul qazanmaq, həm də azad olmaq istəyirsiniz! Axı bu necə ola bilər?! (*Qadın az qala isterika vəziyyətində evdəki qab-qaşıqları götürüb pəncərədən bayıra izdihama sarı tullayır. Hiss olunur ki, o sərxoşdur. O qışqıra-qışqıra danışır.*) Hə, bax belə, bax belə! İndi görürsünüzmü məhbəsdən, məhkumluqdan necə xilas olmaq olar?! Əgər görmürsünüzsə, onda korsunuz. Əgər eşitmirsinizsə, onda karsınız!

(*Qadın geri dönüb müqəvvaya yaxınlaşır. Onu qucağına alıb yataq otağına sarı yönəlir.*) Gəl, ayaq üstə durmaqdan yoruldun. Yatmaq vaxtıdır. Yataq səni gözləyir. Sabah səni özümlə gəzintiyə aparacağam. Hə, gəl, gəl... Əgər istəmirsənsə, gəlmə, axı mən sənə azadlıq bəxş etmişəm. Sən tam azadsan. Elə mən özüm də azadam. Biz indi çox xoşbəxtik, elə deyilmi?

(*Televizorda musiqi. Qadın həmin musiqi ritminə uyğun olaraq oynaya-oynaya müqəvvanı qucağında fırlayıb yataq otağına keçir. İşıq azalır.*)

PƏRDƏ

## İKİNCİ PƏRDƏ

Qadının yataq otağı. Qadın ciddi üslubda tikilmiş kostyum geyib. Pəncərənin qarşısındakı müqəvva da kostyumdadır. Müqəvvaya ağ köynək geydirilib, boynuna qalstuk bağlanılıb, gözlüklüdür. Qadın zövqlə geyinib. Saç düzümü müasirdir. Yerişi inamlıdır, qətiyyətlidir. Otaqda var-gəl etdikcə ayaqqabısının dabanı taqqıldayır. Yataq otağında da telefon və televizor var. Televizorda qısa fasilələrlə verilişlər göstərilir. Arabir musiqi parçaları səsləndirilir.

Q a d ı n (*müqəvvaya*). Hə, yatıb dincəldin? Üz-gözündən hiss olunur ki, gecən yaxşı keçib. Niyə də keçməsin ki? Kim gecəni belə bir qadınla, onun qolları üstündə başa vurmaq istəməz? Amma sənin əzəlki sahibin lap bezdirib məni. O sırtıq ingilisi deyirəm. (*Kiminsə ağzını yamsılayır*). Missis, yu ar vere byutful... Ay vont tu mit viz yu tumurro. Pliz, pliz... (*Yamsılayır.*) Xanım, gəlin görüşək! Padumayeş! Ay görüşdük ha! Öləsən səni! Elə mənə rast gələnin çoxu belədir. Gəlmələrin hamısı bir-birindən betərdir... Elə özümüzünkülər də onların bir tayı. O günləri də İrandan gələn tanışım

var, o zəng edib. Bir-iki dəfə oturub-durmuşuq deyə bəradərim elə bilir ki, ta burada əyləşib hər gün onların yolunu gözləyirik. Deyirəm, halət çeture? Deyir, bəd əst... Bir az bilirəm dillərini. O da bizim dili anlayır. Deyirəm kar çeture? Deyir, bəd əst... Deyirəm, ay bədəst, onda bu qədər yolu basa-basa niyə gəlmisən bura? Deyir, əz səmimi qəlb təşəkkor mikonəm. Deyirəm, befərmain, ağa, onda xudahafiz. Sonra eşidirəm ki, pədərsüxtənin qızıl dükanı varmış. (*Müqəvvaya üz tutur.*) Görürsən də, insanların xislətini, sifətini. Hamısı bu cürdür. Ələlxüsus də kişilər.(*Telefon zəngi. Qadın dəstəyi götürür. Gəzişə-gəzişə danışır.*)

Hə, salam, ciyər, nə olub ki? (*Pauza.*) Yox bir... Düz deyirsən, sən mənim canım? Ay qız, tamam unutmuşam ey! Elə bilirəm ki, bütün bunları gecə yuxuda görmüşəm. Gör bir, sən allah. Lap biabır oldum ki! Yəni televiziyada da göstərdilər? Paho!.. Lap çılpaq idim, hə? Yox! İndi-indi xatırlayıram. Qonşu gəldi ki, aşağıda izdiham var. Heç bilmirəm camaat küçəyə nəyə görə çıxmışdı. Eşitdim ki, "azadlıq!", "azadlıq!" deyə qışqırırlar. Mən də doğrusu, həm bir az içmişdim, həm də əsəbi idim. Heç əsəbi də demək olmaz. Belə də... gedib nəsə danışdım. Nə danışdığımı unutmuşam. Yanımda kim var? (*Pauza.*) Kiminlə? Tək. Ərimlə birlikdə. Nə olsun ki, dilsiz-ağızsızdır? Onu sən deyənlərin heç birinə dəyişmərəm. O sakitcə dayanıb baxır. Hə, di yaxşı... Bir qulaq as, deyirəm də, bir az da qəzəbli, hirsli-hikkəli idim. Qəzəbimi tökdüm camaatın üstünə! Səhər yuxudan duranda elə bildim ki, bütün bunlar gecə gördüyüm yuxudur. Yəni deyirsən, lüt-üryan idim hə? Yəqin camaat elə bilib ki, dəlixanadan qaçmışam?! Yox?! Teleşərhçi dedi ki, mən kiməm? Qiyamçı?! İnqilabçı? Xalqın səsi? Sən ərinlə birlikdə baxırdın televizora? Hə, o nə dedi? (*Pauza.*) Dedi ki, rəfiqənin başına hava gəlib? Qoy desin. Mən o vaxt öz ərimlə qucaqlaşıb yatırdım. Nə olsun ki, müqəvvadır?! Bəs səninki nədir, müqəvva deyilmi? Mənim ölmüş ərimdən bu daha canlıdır. O hər gün işdən gəlib divana uzanır, ayağını ayağının üstünə aşırıb qəzet oxuyurdu. Sonra çay gətir, çörək ver, kürəyimi ovxala. Özü də arvad kimi bəzənib-düzənməyi sevirdi... Zəhləm gedir üst-başına ətir səpən kişilərdən... Kişidən siqaret qoxusu gələr... Eh, nə isə... Amma bu... Sakitcə durub... Hə, ayaq üstə. Yazıq əmrə müntəzirdir. Dili-ağzı da yox. Nə çay istəyir, nə çörək. Kefim istəyəndə söyüb-döyürəm də! (*Pauza.*) Hə, arabir o da olur. Bəyəm kişi deyil? Hər şeyi yerindədir. Ha-ha-ha... (*Gülür.*)

Ərimin şəklini asmışam divardan, özün görmüsən də. Hə, elədir! Hər gün bir dəfə tüpürürəm onun arvad sifətinə. Niyə? Əcəb eləyirəm. Ona o da azdır. Mənim ağzı-çənəsi boş kişilərdən zəhləm gedir. Kişini kişi kimi görmək istəmişəm həmişə: mərd, qoçaq, səxavətli, qeyrətli... Mənimki ölmüş bir az xoşqeyrət idi. Bilirdi ki, rəisimlə aramızdan su keçmir... Əlbəttə, hər şeyi anlayırdı. Amma yenə gəlib kişinin qarşısında boyun əyirdi. (*Yamsılayır.*) "Bizim xanım evdə həmişə sizdən danışır, sizi tərifləyir. Mənim həyat yoldaşım hər adamı bəyənmir, amma sizin xətrinizi çox istəyir!" Əbləh! Əlbəttə, hamısını özündən uydururdu. Mən evdə o kişinin söhbətini heç vaxt etməmişəm. O özü quraşdırardı bunları. Hə də, ərim. Nə üçün? Nə bilim, o da bu cür manyak idi. İstəyirdi ki, rəisimin nüfuzundan istifadə edib iri vəzifəyə keçsin. (*Pauza.*) Eh, sən belə şeylərə fikir verən deyilsən. Amma mən çox vasvasıyam. Mən hissiyyatlı, duyğulu adamam. Nə bilim ey, mən də bu cürəm də! Hərə bir cür dəlidir. İndi də peşman deyiləm. Düz hərəkət etmişəm. Yaxşı eləyib qovmuşam, dalından dəymişəm. Belə parazitlərin axırına çıxmaq lazımdır. Yəqin ki, elə dünənki qəzəbim də o çıxışı, deyirəm, bununla bağlı imiş. Televizorda? Yox, baxmıram. (*Pauza.*) Yenə məni göstərirlər? Bəs kimi? (*Televizora baxır.*) Hə, hə, o ortadakını deyirsən? Tosqunu? O ki fırıldaqçının biridir! Əlbəttə, tanıyıram. Tez-tez mənim rəisimin yanına gələrdi. Yaman pulgirdir. Ondan-bundan pul alıb, işə adam düzəltməklə məşğul idi. Həmişə qəbul otağına girəndə əlimdən öpərdi. Deyərdi ki, rəisinə təriflə məni. Mən isə əksinə, həmişə pisləyərdim onu. Çoxlu adamlara "atmışdı". Barəsində cinayət işi açılmışdı. Ora haradı elə? Məhkəmə zalıdır? Yox! Nə, nə?! O indi deputat olub? Bəs onda haradır ora? Hə belə de... Paho! Onda mən... mən gərək... (*Pauza.*) Yanındakını deyirsən? O hündürü? Ucaboyu? Uzundrazı? Hə də, cavan adamdı. Mənim ərimin yaltaqlıq üzrə partnyoru idi. Amma hiyləgərdir, o yanındakına baxanda səxavətlidir. Əlbəttə, bizdə də olub. (*Pauza.*) Ha-ha-ha! Ta orasını deməzlər... Ay qız, onların çoxu tanışdır. Hə də. Bizim idarə elə yer idi ki, oraya çoxlarının işi düşürdü. Rəisim də, özün bilirsən də, xeyirxah adam idi. Çalışırdı ki, hamıya hörmət eləsin. Hə, bax, o qadın da tez-tez gələrdi. O yumurtasifəti deyirəm. Deyəsən aralarında nəsə vardı. Düzü, mən qısqansam da, üzə vurmazdım. Axı zabitəli, ciddi adam idi bizim rəis... Ay qız, deyəsən bütün fırıldaqçılar elə oraya toplaşıb. (*Pauza.*) Paho, o agent də ora-

dadır ki! Hə də, onu deyirəm. Hamı onu xəbərçi, "stukaç" adlandırırdı. İşverən idi... Xəbərçilik etdiyinə görə bir dəfə bizim rəis onu elə kabinetdəcə şapalaqlamışdı... Özü də qorxağın biridir. Hamının zəhləsi gedirdi ondan. Vallah, bunları görəndən sonra bir də eşidəcəksən ki, elə o məclisə gedib çıxdım! Dünənki çıxışdan birini də orada edəcəyəm. Özü də möhkəmcə vurub gedəcəyəm! İçəndən sonra dilim yaman açılır. Amma bu dəfə təkcə çıxış etməklə iş bitməyəcək. Onların hamısının üzünə tüpürəcəyəm. Necə ki, ərimin hər gün üzünə tüpürürdüm. Hə də, şəklini deyirəm. Amma onlara şəkildə yox, televizorda yox, elə orada, o iclasda... (*Pauza.*) Mən heç nədən, heç kimdən qorxmuram. (*Qapı zəngi.*) Hə, bir dayan, qapı döyülür. Görüm yenə kimdir gələn? (*Qapıya yaxınlaşır. Gözcükdən baxıb qapını açır.*) Sizə kim lazımdır?

Səs (*bayırdan*). Salam, a bacı!..

Qadın. Sizə nə lazımdır?

Səs (*bayırdan*). Elə sən lazımsan, a bacı!

Qadın (*əsəbi*). Axı siz kimsiniz? Nə istəyirsiniz?

Səs (*bayırdan*). Mən yanğınsöndürmə idarəsindənəm.

Qadın. Nə?

Səs (*bayırdan*). Pajarnıyam, a bacı. Yanğına nəzarət edənəm. Hamamda kalonkan var?

Qadın. Bu istidə nə yanğın, nə hamam, nə kalonka? Mən indi yalnız soyuq çilək, ılıq duş qəbul edirəm. Axı hava istidir.

Səs (*bayırdan*). Nə olsun ki? Bunun qışı var, soyuğu var... Sir-sifətin yaman tanış gəlir! Anam-bacım olasan, elə bil yüz ilin tanışısan. Bıy, hə, dünən televizorda görmüşəm səni. Deyəsən deputatsan, hə? Bir seçici kimi mənim də öz umu-küsülərim var. Möhtərəm... mmm...

Qadın. Gəlib qəbuluma yazılarsan... Qəbul günləri...

Səs (*bayırdan*). Bəlkə elə indi qəbul edəsən, a bacı? Həm kalonkaya, hamama baxaram, həm də dərdimi-azarımı deyərəm... Mənimki uzun dərddi ey. Möhtərəmmmm...

Qadın. Əşi, dedim qəbula gələrsən... Xoş getdin! Özünü içəri təpmək istəyir... (*Qapını çəkir.*) Həyasızın biri həyasız. Mənə qaş-göz oynatmağına bax... Ağlını verib o bəzi-bəzi deputatlara... Axmaq, onların içində nə qədər ləyaqətli adam var... Yanğını söndürmək istəyənə bir bax! (*Qadın dəstəyi götürür.*) Hə, televiziyadan idi. Müsahibə almaq istəyirdilər. Yox, qovdum. Razı olmadım. Xalq məni

deputat görmək istəyir. Çıxışım hamının ürəyindən olub. (*Mobil telefon zəng çalır.*) Sən gözlə (*dəstəkdəki adama*), əl telefonum zəng çalır. (*Mobil telefonu götürür.*) Hə, xanım qız, eşidirəm. Mən? Bəli, bəli! Mən siyasi fəaliyyətlə məşğul deyiləm. Mən bu xalqın adi bir övladıyam. (*Pauza.*) Yox, müsahibə-zad vermək istəmirəm. Səbəblər çoxdur. (*Pauza.*) Oldu! Sağ olun. Gülə-gülə, xanım qız. (*Mobil telefonu söndürür. Dəstəyi götürür.*) Hə, köhnə tanışlardan idi. Görüşmək istəyir... Yox! (*Pauza.*) Axı mən sənə dedim, bütün kişilərlə əlaqəni üzmüşəm. Qoy rədd olsunlar. İndi mənim öz kişim var. (*Televizoru göstərir.*) Odu ey, görürsən, hə-hə-hə, onu deyirəm. O çox təmiz adamdır, bilmirəm, o haradan düşüb o məclisə? Necə haradan tanıyıram? Mənə dərs keçib, müəllimim olub. Bir dəfə uşaqlardan biri ona sual verdi ki, rüşvətə necə baxırsan? Yox, özü rüşvət alan deyildi, amma gözəl qızları çox sevirdi. Di, yaxşı də. (*Pauza.*) Ha-ha-ha... Hə, elədir. Onu deyirəm, soruşdular ki, müəllimlərin rüşvət almasına münasibətiniz necədir? Dedi ki, bu vicdansızlıqdır. Vicdanını pula satmaqdır. Mən tənəffüsdə ona yaxınlaşıb dedim ki, müəllim, elələri də var ki, bədənini pula satır, buna necə baxırsız? Qayıdıb dedi ki, səncə, hansı daha qiymətlidir: bədən, yoxsa vicdan? Dedim, əlbəttə, vicdan. Dedi, düz deyirsən. Bu cür adamların hər iki sortu fahişədir, amma bədənini satan vicdanını satandan bir az əxlaqlı olar. İndi onu televizorda gördüm, bu əhvalat yadıma düşdü. (*Pauza.*) Ha-ha-ha! Əlbəttə, sən daha əxlaqlısan!.. Axı sən heç vaxt vicdanını satmamısan. (*Pauza.*) Mənim kişimi deyirsən? Heç, elə sakitcə dinləyir, susur. Mən ona dil öyrədəcəyəm, o danışacaq... Yox, bəlkə də elə lal olsa daha yaxşıdır. Hə, elə bu cür... (*Pauza.*) Yaxşı, çox əngə verdik. Bir azdan hamama girəcəyəm. İstəyirdim mağazaya düşüb yeməyə bir şey alım. Amma ərinirəm enməyə. Siqaretim də azalıb... Hə, yenə çəkirəm. Çəkəcəyəm də, içəcəyəm də... Bir az yorğunam. (*Pauza.*) Nə bilim ey? Yaxşı, oldu... Kişiciyin necədir? Hə də, sənin danışan müqəvvanı deyirəm. (*Pauza.*) Hə, elədir, nə adamı var, nə də adamlığı. Sənin bəxtin onda gətirib ki, ərlərinin hamısı əfəl çıxıb. İndiki də o birilərinin bir tayı. Özünü sevdirə bilirsən... Mənsə özümü zorla sevməyə məhkum etmək istəmirəm. Müqəvvam mənim məhəbbətimdir. O əsil insan etalonudur. Hər bir qadının belə bir ideal əri olmalıdır. Bəzən maneken adamdan həssas olur. (*Pauza.*) Hə, oldu... Biş-düşünlə məşğul ol.

(*Qadın dəstəyi qoyub. Siqaret çıxarıb alışdırır. Tüstünü acgözlüklə sinəsinə çəkir. Televizorda kiminsə şəklini göstərirlər? O iricüssəli, gözlüklü, uzun saçlı oğlandır. Onun barəsində nəsə məlumat verirlər. Şəkli göstərilən adamın şəklini belə bir titr əvəz edir: "Axtarışdadır" "Axtarışda" olan adamın bir suyu müqəvvaya bənzəyir. Qadın müqəvvaya yaxınlaşıb onun üstünə tüstü püfləyir.*)

Hə, deyəsən səni axtarırlar. O səfeh ingilis birdən məni məhkəməyə-zada verər. (*Mobil telefon zəng vurur. Qadın telefonu götürür.*) Salam, efendim. Nasılsın? Eyimisin? (*Pauza.*) Yarın, yarın... Müheqqeq. Ben etibarlı bir hanımım. Evet, evet... Olur, olur. Yapalım. (*Telefonu söndürür.*) Ay yapdım ha! Öləsən səni. Elə bilir yapmaq asan məsələdir. Elə öyrəniblər müftəmüsəllah yapmağa. (*Televizorda türk müğənnisi oxuyur. Qadın musiqinin ritminə uyğun elastik hərəkətlər edir. Yenə telefon zəngi. Televizorda kadr dəyişir. Qadın dəstəyi götürür.*)

S ə s. Salam...

Q a d ı n. Eşidirəm sizi.

S ə s. Bir qərar qəbul etdin, yoxsa yox?

Q a d ı n. Nə qərar? Hansı qərardan söhbət gedir? Siz çox hökmlü danışırsınız. Heç ərim də mənimlə bu cür danışmır...

S ə s. Nə ər? Hansı ərdən danışırsan? Mən uşaq-zadam bəyəm? Hə, yaxşı yadıma düşdü. Dünən səni hansısa kanalda göstərirdilər televizorda. O nə idi elə? Deyəsən rol oynayırdın...

Q a d ı n. Yəqin siz məni kiminləsə səhv salırsız. Mən ev xanımıyam. Bayıra çıxan deyiləm...

S ə s. Nəsə sənə oxşatdım. Amma bu gün də məni göstərdilər.

Q a d ı n. Mənə nə? (*Pauza.*) Mahnı-zad oxuyurdunuz? Yeni vəzifəyə təyin olunmusunuz? Yoxsa bəlkə deputatsınız? Ha-ha-ha!

S ə s. Niyə gülürsən? Mən axtarışdayam. O cinayət işini mənim boynuma qoymaq istəyirlər. Sənə demişdim də... Şirkətin prezidenti öldürülmüşdü. Çoxlu adam tutublar. Hiss etdim ki, məni də dama basmaq istəyirlər, çıxdım aradan. İndi gizli bir ünvanda yaşayıram.

Q a d ı n. Əgər təqsiriniz yoxdursa, niyə gizlənirsiniz? Deyir, od olmayan yerdən tüstü çıxmaz.

S ə s. Eh, qəribə adamsan. Od olmayan yerdən tüstü nədir ey, bəzən elə alov tapırlar ki... Heç o olmayan alovu yanğınsöndürənlə də söndürmək olmur.

Q a d ı n. Bizə də arabir yanğınsöndürən gəlir.

S ə s. Nə üçün? Tanışındır?

Q a d ı n. Heç, elə-belə... Olmayan alovu söndürmək üçün... Hə, deməli, axtarışdasınız? Aydındır. Yaxşısı budur, qaçıb gedəsiniz xaricə...

S ə s. Xaricə? Yox. Mən bu işin nəticəsini öyrənmək istəyirəm. Axı mən sifarişçiləri yaxşı tanıyıram.

Q a d ı n. Tanıyırsınızsa, onda gedib lazımi yerlərə deyin də. Qoy tədbir görsünlər.

S ə s. Tanıyıram ey. Nə olsun ki? Amma əlimdə sübutum yoxdur. Bir də ki, onlar bu işi təşkil edən adamlar çox güclüdür. Əllərində imkan da var, vəzifə də, pul da. Onlar mənim axırıma çıxarlar. Amma mən həqiqətə, haqqa inanıram. Ona görə də səbir edib gözləməliyəm. Nə isə... Sən nə qərara gəldin? Nə vaxt görüşürük?

Q a d ı n (*gülür*). Kefdəsiz e... Bir yandan axtarışdasız, o biri yandan eşqə düşmüsüz... Siz allah, işinizlə məşğul olun... Mən ərə getməyə, ailə qurmağa hazırlaşıram. Eşidib bilənlər olar, qınayarlar məni. Mən hiss edirəm ki, siz səmimi adamsız, gəncsiz, ağıllısız... Amma bilirsinizmi, mən artıq bir dəfə ərdə olmuşam. İndi yenə ailə qurmaq ərəfəsindəyəm... Bildiniz?

S ə s. Sən doğru deyirsən? Axı mən öyrənmişəm, sən indi heç kəslə görüşmürsən? Sən subaysan, ərsizsən, gözəlsən, cazibədarsan... Mən bəzən sənin arxanca düşüb yerişinə uzun-uzadı baxmışam. Sənin addım səslərin indi də ürəyimdə əks-səda verir... İnan buna...

Q a d ı n (*gülür*). Siz neçənci əsrdən baş götürüb qaçmısınız? Nə yeriş, nə duruş? Mən adi bir qadınam... Lap adi... Özü də bilmək istəsən, kişilərə nifrət edirəm...

S ə s. Amma ərə getməyə hazırlaşırsan?

Q a d ı n. Bəli... Amma o dilsiz-ağızsızın biridir. Mən onunla özümü daim azad hiss edəcəyəm. O məni aldatmayacaq, mənə yalan danışmayacaq, məni təhqir etməyəcək, mənə ağıl verməyəcək, ən əsası, məndən heç nə, heç nə tələb etməyəcək! Bildiniz? Mən onunla çox xoşbəxt olacağam.

S ə s. Sənin dediklərindən belə çıxır ki, o kişi yox, müqəvvadır, manekendir. Hə?..

Q a d ı n (*duruxur*). Qoy olsun müqəvva. Mənə qəbuldur. Bir də ki, xahiş edirəm siz mənim işlərimə qarışmayın. Bildiniz?

S ə s. Bəs sən neçənci əsrdən gəlmisən? Yaxud bəlkə göydən, aydan, ulduzdan enmisən, hə? Bəlkə məni dolayırsan? Ələ salırsan məni?..

Q a d ı n. Qurtardıq...

S ə s. Yaxşı, olsun. Əlvida! Eləsə, eşit və bil: sən bir daha... mənim səsimi eşitməyəcəksən! (*Telefonda atəş səsi.*)

Q a d ı n. Aaa... Bu gic deyəsən güllə atdı. Birdən özünü öldürüb eləyər... Nə desən olar. Heyif ki, telefon nömrəsini bilmirəm. Yoxsa zəng çalıb yoxlayardım. Görəsən doğrudan vurdu özünü? Bəlkə zarafat edir? Axı atəş səsi eşitdim... Amma çox cazibəli, ürəyəyatan səsi vardı. Yazıq... (*Müqəvvaya.*) Sənin üz-gözünə alışdığım kimi, onun da səsinə öyrəşmişdim. Nahaq dəydim xətrinə. Bəlkə də tanış olmaq mümkündü. Bir az fırlanıb nə yuvanın quşu olduğunu da öyrənmək olardı. Axtarışdadır. Nə olsun ki? Lap elə ərə getmək məsələsini də... Yox, ta mən ərə getməyəcəyəm. Mən tüpürdüyümü yalayanlardan deyiləm. Elə ərimin də arxasından tək bircə dəfə dəydim, rədd olub getdi... Nə qədər xahiş-minnətiçi göndərdisə də, "yox!" dedim, vəssalam... Nə ər? Əlavə qayğılar, artıq yük... Mənə o canlı müqəvvalardansa, belə cansız müqəvva daha əlverişlidir. O da azaddır, mən də. O da iddiasızdır, mən də... (*Müqəvvaya*). Belə deyil, kişi? Ay sağ ol. Biz ikilikdə xoşbəxtik, üçüncü artıqdır. Mənimçün kişilər adadovşanıdır – mən onların üzərində nə qədər təcrübə keçməliyəm? Hər cürünü gördüm onların – ağıllısını da, gicini də, əyrisini də, düzünü də... Cəsurunu da, qorxağını da... Hamısı bir bezin qırağıdır. (*Müqəvvaya.*) Təkcə sən onların heç birinə bənzəmirsən... Sən ayrı cürsən. Öz-özümə fikirləşirəm ki, birdən sən də onlar kimi ağlını itirərsən... E-e-e... Başına ağıl gələr, sən də çıxarsan cızığından... Nə desən olar... (*Qadın dolaba yaxınlaşır. Konyak şüşəsini çıxarıb piyaləyə içki süzür... Şokoladla konyak içir. Sönmüş siqaretini təzədən alışdırır.*) Hə, görürsən bu şüşəni? Bax, ömür də beləcədir – vaxt ömrümüzü sümürüb içir, axırda tükənirik... Görürsən bu siqareti? Bax, ömür də bu siqaret kimidir – zaman bizi damağına alıb sümürür, bizsə tüstüyə dönüb uçuruq, uçuruq... Axırda, lap sonda qalan bu zəhərli kötüyümüzü torpağa gömürlər. Üstümüzü betonlayıb... hərdən başdaşı da qoyurlar. Bax, əbədi olan o başdaşıdır. Elə sən də əbədisən. Mən özüm də sənin kimi olmaq istəyirəm... Mən də müqəvva olmaq arzusundayam. Əgər mən maneken olmaq arzusunda olsaydım...

Qapı döyülür. Qadın gedib qapını açır.

S ə s (*bayırdan*). Qonşu, bizim uşağı görməmisən ki?

Q a d ı n. Yox! Necə bəyəm? Nə olub ki?

S ə s (*bayırdan*). Bu səhərdən yoxdur uşaq. Son vaxtlar bir az xəstətəhər idi. Evdən çıxıb, qayıtmayıb...

Q a d ı n. Mən evdən çıxmamışam. Bəlkə evdən çıxsam, mən də bir daha qayıdası olmadım...

S ə s (*bayırdan*). Nə? Hə... Anladım səni, qonşu, anladım... Sağ ol...

Q a d ı n (*qapını örtür*). Anladı. Axır ki, anladı. İndi evindən çıxanın çoxu evinə qayıtmayır. Niyə? Çünki hamı azad olmaq istəyir... Elə bir vaxt gələcək ki, heç kəs öz evinə qayıtmaq istəməyəcək. (*Müqəvvaya.*) O vaxt hamı sənin kimi, mənim kimi azad olacaq. (*Televizorda yenə Qadının "köhnə tanışı" müğənni oxuyur.*) Bu axmaq son günlər yaman tez-tez çıxır ekrana. Deyəsən pullanıb. O vaxt ölürdü dərdimdən. Deyirdi ki, bütün nəğmələrimi səninçün oxuyuram... Nə bilim, bəlkə də doğru deyirdi. Onda lap cavan, şumal oğlandı. Elə mən də pis deyildim... Birinci ərimdən əvvəl. (*Müqəvvaya.*) Mən rəsmi ərdə cəmi bir dəfə olmuşam, ay müqəvva oğlu, müqəvva! Of, nə istidir... Zalım oğlu gözəl oxuyur. O vaxt mənim də ona qoşulub oxumağım vardı... Duet oxuyardıq. Sonra atdım oxumağın daşını... Lap əcəb elədim... Hərə özü üçün oxumalıdır... Hərə öz mahnısını oxumalıdır... Öz ürəyi istəyən kimi... (*Qadın televizorda oxuyan müğənniyə qoşulur, onlar birlikdə duet oxuyurlar.*)

K i ş i (*televizordan oxuyur*).

Vüsala çatmaq üçün  
Biz həsrəti qovaq, gəl.  
Qoşa göyərçin olub,  
Bir budağa qonaq, gəl.

Q a d ı n.

Dünyamız öz işində,  
Zaman öz gərdişində.  
Bir eşqin atəşində  
Alışaq gəl, yanaq gəl.

K i ş i (*televizorda*) və Q a d ı n.

Sən mənsiz güləmmirsən,
Dərdimi biləmmirsən.
Yanıma gələmmirsən,
Həsrətimə qonaq gəl...

Q a d ı n. Bax, belə mələyərsən! Ay gəldim ha! (*Qadın mahnı bitəndən sonra müqəvvaya yaxınlaşır.*) Sənin nə vecinə! Baxıb həzz alırsan. Xoşuna gəldi səsim? Susursansa, deməli, razılıq edirsən. Görürsən, nə istidir? Bəlkə gedib soyuq duş qəbul edək? Yaman bəzənmisən ha! İstəyirdim bu gün çimərliyə gedim, amma fikrimdən vaz keçdim. Sənsiz nə çimərlik? Elə deyilmi? Onda belə edək, əvvəlcə mən gedib yuyunum, sonra isə sən. Yuyuna bilməzsən? Eybi yoxdur. Səni vannaya uzadaram. Lap suyun içinə... Yenə sərinləşərsən də... Tərləmisən ki? Qalstuk sıxmır ki, boynunu? Yox? Təki elə olsun... Aaa... Mənə niyə elə baxırsan? Yox, mən sənin gözünün qabağında soyuna bilmərəm. Mən nəsə səndən utanıram. Qəribədir, kişilərdən heç vaxt belə utanmamışam... Amma səndən... Qoy sənin üzünü divara sarı çevirim... Bax, belə... (*Qadın müqəvvanın yönünü divara sarı çevirib soyunmağa başlayır.*) Yox, birdən çevrilib baxarsan mənə sarı, biabır olaram. Sənin çox zəhmli baxışların var... Belə getsə... Mən səni də qovacağam. Yox, zarafat edirəm. Qovmaram səni. Sən mənim idealımsan... Sən mənim ruhumsan. Əclaf, sənin özünün necə, ruhun var?.. Eh-h... (*Qadının azacıq sərxoş olduğu hiss edilir.*) Bəlkə belə edək: sən keçəsən pəncərə pərdəsinin arxasına, mən də rahatca soyunum. Olar? İncimirsən ki? İncimə! Axı mən ev qadınıyam. Mən küçə qadını-zad deyiləm ki... Yəqin ki, sən də məni ləyaqətli bir qadın hesab edirsən. Necə ki, mən səni dünyanın ən ləyaqətli kişisi hesab edirəm... Gəl, gəl görüm. (*Qadın "kişinin" – müqəvvanın qolundan tutub sürüyə-sürüyə pəncərənin tül pərdəsinin arxasına keçirir; pərdəni çəkir. Müqəvva pərdənin arxasında qalır. Qadın soyunur. Sonra zümzümə edə-edə hamama keçir... Su şırıltısı eşidilir. Televizorda skripka çalırlar: qəmli, üzüntülü, sızıltılı bir ritm eşidilir... Bir azdan suyun şırıltısı kəsilir. Televizordakı musiqi davam etməkdədir. Qadın hamamdan çıxıb gəlir, çiynində məhrəba, ayağında çəkələk. Saçlarını qurulaya-qurulaya yenə zümzümə edir. Sanki skripka onu müşayiət edir. Qadın*

*pəncərəyə yaxınlaşır.*) Hə, darıxmadın ki? Darıxma, qoy qurulanım, indi səni aparıb vannaya uzadacağam... Səpsərin suyun altına. Özün soyuna bilmirsən? Eybi yoxdur... Mən soyunduraram. Özümə baxma, səni soyundurmaqdan utanmaram... Mənim təbiətim belədir. Sonra özün öyrənərsən soyunub-geyinməyi... Axı biz hər ikimiz sərbəstik, azadıq. (*Pərdəni azacıq aralayıb baxır. Sanki "kişi" – müqəvva canlı adamdır. Qadın diksinir, tez pərdəni çəkir.*)

Bu nədir. Yuxu deyil ki? Bəlkə mən sərxoşam? (*Gözlərini tez-tez yumub-açır, ətrafa baxır.*) Deyəsən, yox... Aha! O, elə bil ki, nəfəs alırdı. Bəlkə canlanıb, bəlkə nəfəs gəlib ona?.. Yəni bədəninə ruh gəlib?.. Bu bəxt ki, məndə var, nə desən ola bilər. Ey, sən doğrudan... dirilmisən... Yox, o, ölü deyildi, axı... Ey, niyə dillənmirsən? (*Qadın pərdəni yenidən yana çəkir. "Müqəvva" – kişi bir addım irəli çıxır: o, eyzən müqəvvaya oxşayır-ucaboy, gözlüklü, uzun saçlı. Elə geyimi də müqəvvanınkı kimidir-son dəbdə kostyum geyib.*)

İlahi, görəsən bu yuxudur, yoxsa həqiqət?! Aman Allah! Ey-y-y... Mənə kömək edin! Bəlkə mən ağlımı itirirəm? Elədirmi? Heç olmasa bir cavab ver? (*Dalı-dalı yeriyir.*) Mən ağlımı itirməmişəm ki? Yox? Niyə susursan, hə? Cavab ver! Deyəsən mən yuxu görürəm, hə? Sən müqəvvasan, yoxsa adam?!

Kişi – "müqəvva", qadına yaxınlaşıb başını bulayır, yəni "yox",
yəni "dəli olmamısan". Kişi gülümsəyib ona yaxınlaşır. Qollarını irəli uzadıb
Qadını qucağına alır. Bu anlarda Qadın daha çox müqəvvaya bənzəyir.
Deyəsən kişinin qucağındakı məhz müqəvvadır, Qadın deyil
Sanki indi rollar dəyişib – Kişi"canlanıb", Qadınsa "müqəvva"ya çevrilib.
Kişi Qadınıqolları üstünə qaldırıb otaqda obaş-bubaşa gedir.

Musiqi.

PƏRDƏ

SON

# ƏMİR PƏHLƏVAN

(1959)

*Hacıyev Əmir Pəhləvan oğlu – publisist, nasir, dramaturq – Naxçıvan MR-in Şahbuz rayonunun Mahmudoba kəndində anadan olmuşdur. C.Məmmədquluzadə adına Şahbuz orta məktəbini bitirmiş (1976), əsgəri xidmətdə olmuş (1977-1979), ADU-nun jurnalistika fakültəsində təhsil almışdır (1980-1985). Eyni zamanda Azərbaycan radiosunun Cənub verilişləri redaksiyasında "Gəncliyin səsi" proqramının yaradıcısı kimi fəaliyyətə başlamışdır (1981). "Baku", "Bakı" axşam qəzetlərində (1985-1988), "Azərbaycan müəllimi" qəzetində (1988-1990) müxbir, "İlham" qəzetinin təsisçisi və baş redaktoru olmuşdur (1990-1992). "Step LTD" kinoşirkətini təsis etmiş (1995), şirkətin xətti ilə bir çox filimlərin ("Fransız", "Qarabağ şikəstəsi", "Spasibo", "Qız qalası" bədii; "Bakı nefti və Nobellər", "Avtoritet", "Göyçay yəhudiləri", "Doqquzuncu oğuz-uyğurlar", "Kurqanlar", "Hunqoriya" sənədli) müəllifi və rejissoru olmuşdur.*

*1998-ci ildə ABŞ-ın Kaliforniya ştatında – Hollivudda sənədli filimlərin festivallarında "Spasibo" filmi mükafata layiq görülmüş, Los-Anceles şəhərindəki 18 televiziya kanalı ilə bütün dünyaya yayımlanmışdır.*

*2001-ci ildə Fransanın Nait şəhərində keçirilən "Üç qitə" festivalında "Bakı nefti və Nobellər" üçhissəli sənədli filmi 2 medala layiq görülmüşdür.*

*7 kitabı Azərbaycanda, 4 kitabı isə Avropa ölkələrində və Amerikada çap olunmuşdur. "Bakılı Nobel" sənədli romanı və "Bakı nefti və Nobellər" üç hissəli sənədli filmi DVD diski formasında Almaniyada işıq üzü görərək, milyon tirajla dünya oxucularına və tamaşaçılarına təqdim olunmuşdur.*

*"İnsan və İblis" pyesi Bakı Bələdiyyə teatrında (1999) səhnələşdirilmişdir.*

# İNSAN VƏ İBLİS

İŞTİRAKÇILAR

İblis
Hökmdar
İnsan
Dilbər
Şükriyyə
Mircəfər Bağırov
Prokuror
Hakim
Müstəntiq
Müşfiq
Birinci şahid
İkinci şahid
Birinci vəkil
İkinci vəkil
Birinci şair
İkinci şair

## BİRİNCİ ŞƏKİL

Hökmdarın sarayı. Hökmdar öz taxt-tacına əyləşib. O çox fikirlidir. Qovluqdakı sənədləri nəzərdən keçirir. Bu vaxt İblis içəri daxil olur. O, hökmdara baş əyib ehtiram göstərir.

İblis. Çoxdandır ki, tapşırıqlarınızı və sifarişlərinizi almırdım. Fikirləşdim ki, Allah eləməmiş, birdən aramıza kimsə girən olar. Nə çoxdur axmaq adamlar. Odur ki, özüm təşrif buyurdum, kefinizi xəbər alam və yeni "zakaz"larınızın müntəziri olam.

Hökmdar. Səncə, keyfim necə olar?

İblis. Əla!

Hökmdar. Şəhərdə, bazarda vəziyyət necədir? Camaat nə deyir?

İblis. Sizdən çox razıdırlar, qibleyi-aləm. Amma...

Hökmdar. Nə amma?

İblis. Əmması odur ki, camaat arasında bəzi ağzıgöyçəklər hərdən sayıqlayırlar.

H ö k m d a r. Onlar nə deyir?

İ b l i s. Deyirlər ki, bu hökumət artıq ölkəni idarə edə bilmir. Rüşvət baş alıb gedir. Əhalinin çoxu dilənçi kökünə düşüb.

H ö k m d a r. Yaxşı, yaxşı bildik. Elə bundan ötrü gəlmisən?

İ b l i s. Xeyr! Hakim sağ olsun, həm də yeni zakazlarınız üçün təşrif buyurdum.

H ö k m d a r. Yenisi hansıdır?

İ b l i s. Möhtərəm hökmdar, axır vaxtlar şəhərdə hamı bir-birini əzizləyə-əzizləyə, ehtiram göstərə-göstərə müraciət edirlər: insanlıq elmi yayırlar. Deyirlər ki, daha bəsdir, innən sonra hamı insan olmalıdır.

H ö k m d a r. Bəs nə eləməlidirlər?

İ b l i s. Ehtiramın da, məhəbbətin də bir əndazəsi var. Əgər belə getsə, biz özümüz ifşa olunacağıq. Adam nə qədər mədəni olar? Odur ki, biz onları özümüz qabaqlamalıyıq.

H ö k m d a r. Necə?

İ b l i s. Hökmdar sağ olsun! Bunun bir yolu var: elə eləmək lazımdır ki, hamı bir-biri ilə düşmən olsun. Çünki hamının başı bir-birinə qarışanda məmləkətdə sakitlik olar.

H ö k m d a r. Düz deyirsən, İblis!

İ b l i s. Yoxsa, məmləkətimizin bütün şair-yazıçısı insanlığı yüksək səviyyədə şişirdib, buranı "xoşbəxtlər" ölkəsinə çevirərlər. Kənardan baxanlar da bizə bəxtəvər deyər.

H ö k m d a r. Ha, ha, ha! Qoy desinlər də! Noolacaq.

İ b l i s. Yadımdan çıxmamış qoy onu da deyim. O, adına İnsan dediyimiz köpəkoğlu nə siz deyəni, nə də biz deyəni deyir. Tərsin biridir. Bu işlərin başında da elə o özü durur. Onun dərsini vaxtında vermək lazımdır.

H ö k m d a r. O böyük şairdir, İblis. Böyük şairin böyük də ürəyi olar. Mən onun şeirlərini oxuyanda özümdə toxtaqlıq tapıram, dünyanı yenidən kəşf edirəm.

İ b l i s. Vallah, ondan da yaxşıları var. Qabağa getməyə qoymurlar. Amma bu İnsan yaman bərk gedir. Özü də yaman qudurub. Heç siz də onun gözlərinə görünmürsünüz.

H ö k m d a r. Ola bilməz!

İ b l i s. İnanmırsınızsa, köməkçinizi çağırın, ondan soruşun.

Hökmdar köməkçini yanına çağırır. İblis köməkçini görən kimi
öz fizionomiyasına məxsus qaş-gözlə ona işarə vurur.

Hökmdar. De görüm, o şair var – İnsan! O, hökumətdən, dövlətdən nə istəyir?

Köməkçi. Hökmdar sağ olsun! İnsan istedadlı olmağına çox istedadlıdır, amma bir iş var ki, harda durub-oturur, başlayır hökumət haqqında zayıllamağa. O qədər qudurub ki, hökuməti də saymır.

Hökmdarın keyfi pozulur. Səksəkəli halda o biri köməkçisini çağırır.

Hökmdar. Yaxşı, söylə görüm, o şair var e... İnsan! Onun heç səs-sorağı gəlmir.

İblis iki daşın arasında məqam tapıb ona da qaş-gözlə işarə vurur.

Köməkçi. Hökmdar sağ olsun! Harada olacaq: yeyib-içməkdə! Ya da arvadbazlıqda. Əxlaqsızlıqla məşğuldur. Bəyəm o hökumət-zad sayır? Bilmirsən hansı dinə, məssəbə qulluq edir. Ağzına gələni yazıb gündə bir kitab çap elətdirir.

Hökmdar. Yaxşı, get işinlə məşğul ol!

İblis. Siz nə qədər susacaqsınız. Bu qədər də mərhəmət sahibi olmaq olar? Heç oğlunuzun adı bir o qədər millətə bəlli deyil, amma bu İnsanın görün nə qədər hörməti var. Üstəlik də hökumət, dövlət tanımaya. Dəhşətdir!

Hökmdar. Çox maraqlıdır. Doğrudan da, oğlumu bir o qədər tanımasalar da dibil də deyil axı?! O da istəsə, zəhmət çəkər, İnsanın qazandığı hörmətdən də çox qazanar. İndi İnsanın nə günahı var? O işləyir, əziyyətə qatlaşır, halallığa isə baş əyib hər şeyə qane olur.

İblis. O bizik ki, halallığa baş əyirik. İnsan heç vaxt onu edə bilməz. O ancaq yazı-pozusunda həqiqətə hakim kəsilir. Özünü artistliyə qoyub. Elə sizi çaşdıran da onun cızma-qarasıdır.

Hökmdar. Nə demək istəyirsən, İblis!

İblis. Qurbanlıq qoyun kimi başımı hansı istiqamətə kəssəniz, qanım sizə halaldır. Amma deyin görək, bir şair – yazıçı özünü Sizə qurbanlıq edərmi?

Hökmdar. Sayıqlama, İblis! Mən heç vaxt istəmərəm ki, kimsə mənə qurbanlıq qoyun olsun. Heç sənə də razı olmaram. İnsandan insana, sənin dediyin kimi. o cür qurbanlıq günahdır. Səfehləmə!

İblis. Möhtərəm hökmdar, hakimiyyət qurbanlıq tələb edir.

Hökmdar. Hə... hə... İblissən ki, İblis! Sənin bilmədiyin şeyə qurd düşər. Amma qurbanlığı İnsandan yox, başqasından başlamaq lazımdır.

İ b l i s. Onsuz da, məni hər gün daşa basırlar. Şeytana nə qədər daş atmaq olar? Hələ bu azmış kimi İnsan köpəkoğlu başlayıb mənnən şeir yazıb, cümleyi-aləmdə biabır eləyir. Buna birtəhər dözmək olar, amma yazanda ki, hökmdarın da yan-yörəsi hamısı şeytanlardan ibarətdir. Bax buna dözmək çətindir. Onda o sizə də işarə vurur.

H ö k m d a r. Ola bilməz!

İ b l i s. Ocağımız haqqı.

H ö k m d a r. İblis atan sağdımı?

İ b l i s. Bəli!

H ö k m d a r. Neçə yaşı var?

İ b l i s. Yüz otuz beş. Hələ babam, nənəm də sağdır.

H ö k m d a r. Hə, onda ocağınızın hələ gücü var.

İ b l i s. Çox sağ olun!

H ö k m d a r. Yaxşı, vaxtım yoxdur. Sözün qurtardımı? Daha nə istəyirsən?

İ b l i s. Heç nə, adil hökmdar! Bircə İnsanın cəzasını vermək kifayətdir. Cəzasızlıq mühiti yaratmaq olmaz. Yoxsa, onun əl-qolu genişlənib bizi üstəliyə bilər.

H ö k m d a r. O mənim üçün heç nədir. Ondan da dəhşətliləri var. Şair onların yanında toya getməlidir.

İ b l i s. Mən heç, bəs, köməkçilərinin söylədiklərinə nə deyirsiniz?

H ö k m d a r. Bax məni çaşdıran da elə budur. Amma bir şey var. Şairin hakimlə nə işi?! Nəsə inanmağım gəlmir. Bir də biz insanlar çiy süd əmmişik. Nə desən gözləmək olar. Bir daha bu barədə fikirləşərəm.

## İKİNCİ ŞƏKİL

İşıqlar dəyişir. İblis qiyafəli, canlı İnsanla üzbəüz dayanıb. Səhnə tərtibatında iki pəncərə görünür. Biri İblis dayanan tərəfdə, o biri isə İnsan dayanan tərəfdə. İblis dayanan tərəfdə olan pəncərənin tayları açıqdır. İnsan isə sakit təbiətlə fikirli halda bir yerdə dayanıb. İblis olduqca əsəbidir. Amma əsəblərini özgələrə bildirməmək və cilovlamaq üçün ilk baxışda pərişan görünməyə çalışır. Əslində isə əgər məqam tapsa, qarşısındakı İnsanı bir anın içində məhv edər.

İ n s a n. Yaman pərişansan, İblis! İşlərin necə gedir?

İ b l i s (*diksinən kimi olur*, *gülür*). Yağ kimi!

İnsan. Mən İnsanam! Canlıların əşrəfi belə adlanır: İnsan!

İblis. Ali hisslərə toxunursan. Özünə çox məftun olma. Bəs mən kiməm? Elə mən də İnsanam da!

İnsan. Yaman hazırcavabsan İblis! De görüm, səndə İnsani hiss varmı?

İblis. Əsil İnsan mənəm!

İnsan (*sağ əlini gicgahına aparır*). Maraqlıdır, bu adı bizə necə qoyublar? Bəlkə, bu ünü, bu səsi küləklərin vıyıltısından, dalğaların hənirtisindən almışıq. Bəlkə heyvanlar İnsan ifadəsini özlərinə təhlükə kimi qəbul edəndə yaradıblar?

İblis. Hə... Bəlkə, elə o vaxtdan "İnsan" deyilən canlılar hər şeyə qənim kəsiləndən üzü bəri bu ad dillərdə yurd qurub, amma ürəklərdən perik düşüb!

İnsan. O sənin ürəyindən perik düşə bilər!

İblis. Bu ad hələ səni çox yandırıb-yaxacaq.

İnsan. İnsan yanar, şölə saçar, o işıq indidən mənim qəlbimdədir. Çünki Tanrı "Adəm" dedi, biz isə "İnsan!"

İblis. Yəni Adəm peyğəmbər və onun nəsli "İnsan" biz özümüzük də!

İnsan. Anlamıram, sən yenə də özünü İnsan sayırsan?

İblis. Sözü çürütmə, dostum, axı dedim ki, əsil İnsan mənəm. Nə tez yadından çıxdı. Bilirəm yaddaşın korlaşıb. Yaxşı, onda de görüm, başqa canlıların adlarını Adəm necə çağırıb? Eləcə, Şeytana sübut üçünmü?

İnsan. Bax, indi mən deyənə gəldin. Bəli, məhz sənə – Şeytana sübut üçün onların hərəsinə bir ad qoyub.

İblis. Bəs cəmiyyətdə?! Axı cəmiyyətdə sən dediyin İnsanlıq meyarı çatışmır. İnsan adlanan "böyüklər" İnsanları zümrələrə parçalayırlar.

İnsan. Deməli, sən "İnsan" olmaq üçün İnsanları əzməlisən, parçalamalısan, qorxutmalısan? Onu bil ki, adamlığını itirəndə o İnsan dediyin üstünə gələ bilər... səni əzər!

İblis. Biz say etibarilə elə İnsanıq. Biz qorxuruq ki, özümüz daha tez əzilək. Əslində, sən də qorxudan danışırsan, mən də. Sən məndən, mən isə səndən ehtiyat edirəm.

İnsan. Çünki sən həmişə fürsət axtarırsan. Məqam tapan kimi çökürsən boğazına, alırsan canını. Gərək İnsan olan kəs heç vaxt buna imkan verməsin. İnsan güclü olmalıdır.

**İblis.** Güclü olanda biz məhv oluruq. Siz buna həmişə hazırsınız. Biz isə bir dəfə məqam gözləyirik.

**İnsan.** Özünü tülkülüyə qoyursan. Axı bizi başqa canlılardan şüurumuz fərqləndirir? Biz ağlımıza hakimik.

**İblis.** Elə ağlın faciəsi də sizdən başlayır. Onu bil ki, Adınızın kölgəsi sizin dalınızca qarabaqara gəzir. Sən heç öz kölgənə də sığına bilməzsən.

**İnsan.** Sənin kimi şeytanlardır kölgəmə sığınan.

**İblis.** Mən kölgəsiz İnsanam!

**İnsan.** Dəhşətə bir bax: hamı özünü İnsan adlandırır. Nə möcüzə ad imiş İnsan?!

**İblis.** Ay binəva, heç özünnən xəbərin yoxdur. Bilirsən ki, səni öz müqəddəs dininlə üzbəüz qoyublar: ya İslam, ya da sən. Fikirləş, bəlkə kökünü kəsmək, toxumuna lənət oxumaq üçün bu adı qoyublar bizlərə.

**İnsan.** Biz içimizi vəhşilik dolu ehtiraslardan təmizləməliyik. Bəlkə müsəlmanlaşmalıyıq. Bəlkə də İnsanlaşmalıyıq. Bunların dilemması, ikiliyi, dialoqu, çarpışması gedir. Bir yanda İnsanlaşma, bir yanda müsəlmanlaşma. Tarix bu iki anlayışı yenidən üz-üzə qoyub. Adımızı müsəlman qoyub qırırlar. Əfsuslar ki, sənin kimi şeytanların ucbatından adımızı İnsan çağırmağa güc tapa bilmirik. Rədd ol gözümdən, əclaf!

İblis oynaya-oynaya və gülümsəyə-gülümsəyə divarın bir
küncünə qaçır və deyinir. İşıqlar dəyişir.

**İblis.** Yoox, yoox... məni dinlə, İnsanlıqla qorxudurlar. Bir buna bax! Hələ arxı adlamamış gör necə meydan sulayırlar. Yoox, gərək başıma çarə qılam, bu işlərə mane olam, öz gücümü göstərəm.

İşıqlar dəyişir.
İnsan onu tədbirli görüb bir-iki addım ona tərəf gəlir.

**İnsan.** Küncə sıxılıb yenə kiməsə nə tələ qurursan? Onu bil ki, bir gün özgəsi üçün qazdığın o quyulara özün düşəcəksən. Çünki sənin ürəyin insan ürəyi deyil. Sənin ürəyinin sümüyü var, İblis!

**İblis.** Lap dahilər kimi danışdın. Bir vaxtlar birisi mənə əsər də yazmışdı. Sonradan cəhənnəmə vasil elədilər onu.

**İnsan.** Yaxşı açıb iç üzünü. Sifətindəki maskanı yaxşı yırtıb çıxardıb. Sən xainsən!

**İblis.** Nə çoxdur minbir sifəti olan. Onlardan borc maska, borc sifət ala bilərəm. Amma onun üzü yoxdur başqasından borc almağa. Bax elə mənə günah elədiyi üçün də cəzasını aldı- sürgün edildi.

**İnsan.** Abır-həya borc verilmir. Sən ancaq maska borc ala bilərsən.

**İblis.** Mən aldığım maskanı həm də yiyəsinə qaytarmalıyam. Bir də ki, borclu borclunun sağlığını istəyər. Mən ki mərdimazar deyiləm?!

**İnsan.** Axır ki, özün öz sifətini yaxşı açdın. Məhz sən özünsən mərdimazar. Yəni mərdə məzar qazansan. Bax sən busan.

**İblis.** Sənə dedim, mənim xətrimə dəyənin aqibəti ya qəbir, ya da Sibir olur.

**İnsan.** Yanılırsan, İblis!.. Sibirə gedənlər Uzaq Sibir qəbiristanlığında böyük Türk qibləsinin işığını yandırdılar. Soyuq ürəklərə onun hərarətini gətirdilər. Əzəli Türk torpaqlarında əcdadlarımızın ruhlarına yoldaşlıq elədilər.

**İblis.** Ha, ha, ha! (*Gülür.*) Yaxşıca yozmağın var. Yox bir, vəzifə vermişdilər onlara?! Ha, ha, ha... Sən nə bilirsən siyasət nədir? Ha, ha, ha...

**İnsan.** Artistlik eləmə. Əgər siyasətdən başın belə yaxşı çıxırsa, onda de görüm, bugünkü siyasətçilər niyə haqdan qaçırlar?

**İblis.** Niyə?

**İnsan.** Haqqı torpaqda axtarmaq lazımdır. Torpaqdır İnsanı yetişdirən.

**İblis.** Pa atonnan, ağzından lap dürr tökülür, göz dəyməsin. Sən nə vaxtdan torpağın aşiqi olmusan?

**İnsan.** İndi hamının əl-ayağı torpaqdan üzülüb. Bəlkə elə torpağın özü də biz İnsanlardan bezib və bizi özündən uzaqlaşdırıb. Sənin kimilər elə bilir ki, torpaqla üz-üzə durmaq asandır. Bir də görürsən ki, torpağın becərilməsindən danışan dövlət məmuru torpaq kimi müqəddəs bir neməti o şəklə salır ki, nəinki onun həyatını qorumaq, hətta ona qulluq edənlərin çoxunun da əl-ayağı soyumağa başlayır. Ömrü boyu torpaqla əlləşənlər dünyanın İnsanlıq çağlarını yaşayırlar. Həmişə stol, kürsü aşiqləri isə hələ İnsanlığı tapa bilmədikləri üçün torpaqdan mühazirələr söyləməyi xoşlayırlar. Çünki torpaq özü onları çoxdan rədd edib. O, çirkablardan yaxasını birdə-

fəlik qurtarıb. Elə Sizin nəsil kimi. Görürsənmi nə babanı, nə nənəni heç torpaq da qəbul eləmir.

İblis. Ağzını təmiz saxla. Bir buna bax. Kor kora kor deməsə bağrı çatlar. Heç özünnən xəbərin yoxdur: sənin taylarının qəbri də itib. Nə moizə oxuyursan?

İnsan. Sənin kimilər müqəddəsliyi alçaq niyyətlərə qurban verir, əcdadını bazara qoyub satır, hərraclıq eşqi ilə yaşayır...

## ÜÇÜNCÜ ŞƏKİL

İşıqlar dəyişir. Yazıçılar İttifaqı. Dəhliz və divarlara sosializmin və Şura hökumətinin tüğyan etdiyini bildirən qəzet materialları, plakatlar, afişalar və Stalinin şəkilləri vurulub. Birinci şair (öz-özünə) deyinir. Deyəsən bu İnsan ağıllı-başlı şair imiş. Sən öl, bu zalım oğlu yavaş-yavaş bizdən çox hörmətə minir... Yoox, ona sübut edəcəyəm ki, mən səndən yaxşı yazıram. Bir də ki, onu belə buraxmaq olmaz Vaxtında qabağını almaq lazımdır. Bu vaxt İkinci şair ona yaxınlaşır, salam verir və siqaretini yandırır.

Birinci şair. Bu gecə səhərə qədər oyaq qalıb Stalin babama şeir yazmışam.

İkinci şair. Noolsun, sən yuxuna haram qatıb onu mədh eləyirsən, İnsan isə gah İrandan, gah da Turandan yazır. Bilirsən də, xalq da İnsan deyəni deyir.

İkinci şair. Nə dedin? İnsan onu söyür?.. Mədh etmir?

Birinci şair. Bəs nə bilmişdin, üstəlik yazılarında sətiraltı deyimlərlə onun qarasına yazır.

İkinci şair. Sən də nə xalq-xalq salmısan? Bəyəm xalq var?

Birinci şair. Necə yəni xalq yoxdur?

İkinci şair. Ayə, dilbilməz, hakimiyyət var, hakimiyyət! Bildin! Orada, burada səfehləmə! Heç bilirsən, rəhbərimiz Stalin ad günündə nə deyib?

Birinci şair. Nə deyib?

İkinci şair. Deyib ki, ziyançılar və diversantlar bandası əmələ gəlib. Onları darmadağın etdirəcəyəm.

Birinci şair. Onun bizə nə dəxli?

İkinci şair. Necə nə dəxli? İnsanın adını ziyançılar cərgəsində hallandırmağımız kifayətdir. Bilirsən də, yoldaş Bağırov da bir himə bənddir. Stalin babamın “darmadağın” sözünə heç olmasa iki-üç yüz

qurbanlıq verəcək. İnsan da olsun onlardan biri. Dünya qara geyinməyəcək ki!..

B i r i n c i  ş a i r. Məni lap qorxutdun: "iki-üç yüz" dedin, ürəyim ayağımın altına düşdü. Birdən o çıxışın oduna biz də yanarıq ha?.. Seyidin ipiylə quyuya düşmək sənə asan gəlməsin.

İ k i n c i  ş a i r. Adə, ay başı boş, odur ki, İnsanı nişan vermək lazımdır. Məsələni belə qoymaq lazımdır ki, İnsan yararsız şeylər yazır. Millətin şüurunu korlayır. Burjua mühitini təbliğ edir.

B i r i n c i  ş a i r. Düz deyirsən, Azərbaycan əməkçilərinin mübarizəsi qalıb bir tərəfdə, xalqın çatışmayan problemlərindən yazıb filosofluq edir.

İ k i n c i  ş a i r. Çünki o, burjua romantizminin məktəbində yetişmişdir.

B i r i n c i  ş a i r. Bəxtiyeyin köpəkoğlu! Yazdığı cızma-qaralara görə Şanlı Partiyamız tərəfindən almadığı mükafat yoxdur. Bunun müqabilində də nə qədər həyasız olasan ki, Azərbaycan əməkçilərinin mübarizəsinə bir əsər həsr eləməyəsən?!

İ k i n c i  ş a i r. Əşi, yazmamağı cəhənnəmə, ədəbiyyatımıza panislamizm, pantürkizm ideyalarını gətirib.

B i r i n c i  ş a i r. Hələ Azərbaycan dilinə qarşı çıxıb, Osmanlı türklərinin dilini ədəbiyyatımıza gətirməyindən heç danışmırsan?!

İ k i n c i  ş a i r. Adə, o, Azərbaycan xalqını kiçik, məhdud tarixli bir xalq hesab edir. Buna görə o öz yaradıcılığında özünəməxsus burjuaziya romantikası ilə osmanlılara arxalanır, öz dilini və tematikasını da oradan alır. Biz heç kimə haqq verməməliyik ki, minillik ədəbiyyat tarixi olan xalqımıza İnsan kimiləri yuxarıdan baxsın, onu məhdud xalq adlandırsın. Məsələni bu cür qoymaq lazımdır. Bildin!

B i r i n c i  ş a i r. Bəli!

İ k i n c i  ş a i r. Onda farağat durma, başla hərəkətə...

İşıqlar sönür.

İ b l i s. Xəbərin var? Bilirsən, bu İnsan köpəkoğlu nə işlərdən çıxır?

B i r i n c i  ş a i r. Nə olub?

İ b l i s. Nə olacaq. Şəhər-bazar İnsana ehtiram göstərir. Ona hörmət edir. Deyirlər gözəl əsərlər yazır.

B i r i n c i  ş a i r. Saxla. Sən nə danışırsan, adə. Elə şey ola bilməz. Mən qalaq-qalaq kitablar yazmışam. Ölkənin bütün kitab mağazalarında satılır.

İ b l i s. Yaman satılır. Kimdir onları alan, ay yazıq. Amma İnsanın kitablarını əldən-ələ gəzdirirlər. Alverçilər hər küçədə, döngədə dayanıb onun kitablarını əlbəəl satırlar.

B i r i n c i  ş a i r. Nə? Əllərdə satırlar. Kül mənim başıma ki, İnsanın şorba iyi gələn bir-iki əsəri əl-əl gəzirmiş, mənim xəbərim yox?!

İ b l i s. Nə bir-iki əsəri, nə danışırsan. İnsanın on kitabı çap olunub. Al, bu da axırıncı. (*Əlindəki qəzetə bükülmüş kitabı ona göstərir. Birinci səhifədəki ön sözü oxuyur.*) İndi gördün ki, onuncudur. Bəs, sənin neçə kitabın var?

B i r i n c i  ş a i r. Dörd kitabım.

İ b l i s. Bu il nəşriyyat planına neçə kitabın düşüb?

B i r i n c i  ş a i r. Heç birini də plana salmayıblar.

İ b l i s. Amma İnsanın iki kitabını çap eləmək planlaşdırılıb.

B i r i n c i  ş a i r. Hə, doğrudan e, gör nə həngamədən çıxırmış bu əbləh?! Lap fil qulağında yatmışam ki! Eybi yox. Məni yaxşı ayıltdın. Görərsən onun başına nə oyun açacağam. O, İnsan olsun, mən də – mən.

İ b l i s. Mənim yanımda danışmağa nə var ki? Hünərin var, başqasının yanında danış! Səni o dəqiqə bir xoruza yükləyərlər.

B i r i n c i  ş a i r. Mən heç kəsdən qorxmuram. Lap İnsanın sifətinə deyərəm.

İ b l i s. O indi heç kəsi saymır. Heç sənin Yazıçılar İttifaqını da saymır.

İ b l i s (*əlini düyünləyib stola çırpır*). Yaxşı, mən bilərəm nə eləyərəm. Onunla mənimki qalsın sonraya...

B i r i n c i  ş a i r.

İnsanın şeirləri bütün millətin olub,
Yayılıb məmləkətə – şöhrəti min-min olub.

İ k i n c i  ş a i r.

Çox da tərifləmə mənə sən onu,
Tutub duman onu, tutub çən onu.
Düzür cümlələri, sözü – toxuyur,
Nə yazır, nə pozur – özü oxuyur...

Birinci şair.

De görüm, çap olub neçə əsərin,
Ya da yazdığının varmı kəsəri?!

İkinci şair.

Sayı qırxı keçib kitablarımın.

Birinci şair.

Öz qırxın necə?..
Üzündə həyası olar adamın?
İnsanın yüzlərlə nəğmələri var,
Onun sevgilisi olub adamlar!

İkinci şair.

Ağzını təmiz saxla!

Birinci şair.

Sən də sandığının ağzını bağla!
Sənin yazdıqların... öz eybini bil,
İnsan yazanların dırnağı deyil!

İkinci şair.

Ə, kiri!..

Birinci şair.

Sən sus, sərsəri!..
İnsan yazdıqları bir həqiqətdir,
Əzəli, sonu da, bil, təriqətdir...

İkinci şair.

Onun baxtı var...

Birinci şair

Onun – şeriyyətdə qızıl taxtı var!!!

## ÜZLƏŞMƏ

İblis-müstəntiq (*ikinci şairə üz tutur*). Buyur, nə sözün varsa, de! Bura sənə istintaq təcridxanası deyil, bura məhkəmədir.

İkinci şair. Nə deməliyəm?

İblis-müstəntiq. Özün yaxşı bilirsən, nə deməlisən. İfadə verəndə İnsanı keçi qiymətinə satmağın, bir xoruza yükləməyin

yadından çıxıb bəyəm? Ona-buna qara yaxmağını necə, bəlkə unutmusan. Otur yerində yaxşıca-yaxşıca fikirləş!

İkinci şair. Məni divara qısnama. Bilmək istəyirsənsə bil. Nə hoqqalar varsa, hamısını birinci şahid eləyib. Yaxşısı budur qoy özü danışsın.

İblis-müstəntiq. Adə, sənin çörəyin lap dizinin üstündə imiş ki? Özgə vaxt onunla bir yerdə gəzib-dolanırsan, bir süfrədən çörək kəsirsən, indi də at kimi üzünə durursan. Nə bişərəf adamsan?

İkinci şair. Məni təhqir eləmə, məndən əl çək. Məndən əl çək də!

Bu vaxt Müstəntiq bir anlığa fikirləşir, yerində var-gəl edir və qəfildən ayaqlarını bir yerə cütləyib birinci şairə tərəf dönür.

İblis-müstəntiq. Eşitdinmi, kar-zad deyilsən ki? İndi məsələni olduğu kimi danış.

Birinci şair. Vallah, nə deyim e...

İkinci şair. Yaxşı. Özünü naza qoyma, danış.

Birinci şair. Arvad özünü naza qoyar. Mən arvad deyiləm. Arvad İnsandı. O əsil "diversantdı", ziyançılar dəstəsinə mənsubdur. Sosializmi təhrif eləyir. Quruculuqdan yox, İrandan-Turandan yazır. O, stalinizmə qarşı çıxır, başa düşdün? Kommunizm xoşbəxtliyindən, insanpərvərliyindən sui-istifadə edir. Əsərlərində o cür nəhəng kişini yüngülsaqqal eləyir. Harada oldu onun qarasınca danışır.

İblis-müstəntiq. Yaxşı, yaxşı, sən getdikcə lap özündən çıxırsan. Qızışma, bir az nəfəsini dər. Bəlkə ikinci şair sənin sözlərinə qüvvət versin.

İkinci şair. Mən ancaq və ancaq rəhbərimiz haqqında xoş sözlər danışa bilərəm. Mən ancaq ona şeir həsr edə bilərəm.

Adın – atamızdan əzizdir bizə,
Zülmətdə işıqsan gözlərimizə,
Sönməz günəşisən bizim ölkənin,
Xoşbəxt yaşayırıq sayəndə sənin.

Süfrədə duzumuz, çörəyimizsən,
Sinədə döyünən ürəyimizsən,
Bütün yazıçılar, bütün şairlər,
Səndən ilham alır – ey ulu rəhbər.

Körpə çocuqlarıq, atamızsa – sən,
Bizim namusumuz, qeyrətimizsən,
Daima qayğınla gəlirik coşa,
Yaşa rəhbərimiz, səni min yaşa!

İndi gördünüzmü, hiss etdinizmi ki, böyük, şanlı rəhbərimizə olan ümumxalq məhəbbətini mən öz əsərimdə necə tərənnüm etmişəm.

İşıqlar dəyişir. *Yazıçılar İttifaqının iclası. İnsan söz alıb kürsüyə qalxır.*

İnsan. Yadımdadır, uşaq vaxtı başımın altındakı yastığın içindəki yunu anam çubuqla döyəcləyib yumşaldardı. Axşamlar yuxuya getməzdən əvvəl o nazik, şivərək taxta çubuq gözlərim önünə gələrdi. Rəngi qara idi. Başımı yastığa qoyanda elə bilirdim ki, anam o yastığı çubuqla döyəcləyir. Hərdən isə başımı çeviklikla sağa-sola çəkirdim ki, çubuqlar mənə dəyməsin. Bu xof böyüdükcə gözlərim qaranlığa alışırdı. Sonra bu çubuqları molla əlində gördüm. "Bismillah"la qalxıb-enən o çubuq yenə yuna vurulan kimi bu dəfə əllərimi döyəcləyirdi. Artıq çubuq başdan ələ düşmüşdü.

Yuxuda həmişə o çubuğu mollanın əlindən almaq istəmişəm. Özümdən qeyri-ixtiyari əllərimi yastığa aparıb onu dartışdırmışam. Lakin heç nə alınmayıb və diksinib yerimdən durmuşam.

Sovet çubuğu isə yastığa yox, başlara enib, sonra pambığı döyəclədi. Onda yun yastıqları pambıq əvəz etdi. Başımızın altına pambıq qoymağa başladıq. Preslənib kəsilmiş pambıqlar. İndi çubuqları da pambıq özü əvəz edir. Mən isə yuna qayıtmaq istəyirəm, cənablar!

Gün gələcək, siz də ona qayıdacaqsınız. Amma onda gec olacaq. Hələlik isə çubuqlayın, darıyın milləti!

Biz dirijor musiqisindən çox öz musiqimizi çalırıq. Lakin dediyimiz hələ ki, iynəsi sınmış köhnə patefon valının üstündə ilişib qalıb. Yenisi isə o valı oxuda bilməyəcək.

Mən burjua şairiyəm, proletarlar eşqinə. Eşqiniz varmı sizin? Mənim sevgi Allahım var, mən keçmişlə imanlanan məhəbbət aşiqiyəm. Aşiqliyiniz varmı sizin? Mən dərdin ədəbiyyatıyam, eşidirsinizmi?! Dərddən yaxa qurtaranlar vəzifə alırlar. Sizin kimi! Stalin "babamızın mərhəmətinə". Əslində isə dərd də sizdən üz döndərib. Siz millət dərdi çəkəmməzsiniz. Ağırdır o! Dərdi açıqürəklilər daşıyır həmişə: günahları olmadıqları üçün.

Başqalarında axtardığım həqiqətlər mənə nəyinsə xofunu açıqlayır. Bu məndən asılı olan şey deyil. Hamıda olduğundan bir pay da mənim içimdədir. Xof! Daxilimizi yeyə-yeyə böyür-başımızı, yan-yörəmizi iynələyə-iynələyə yoldaşlıq edir bizimlə.

Bax, beləcə fərdlərin içindən illərlə yol tapan bu xof indi millət daxilində kök salıb. Sizsə məni xof şəklində qurban vermək istəyirsiniz. Xofu canlandıraraq məni də hərəkətə gətirmək istəyirsiniz. Amma bilmirsiniz ki, xof sabah sənin, o biri gün isə özgənin canına düşəcək. Mən nə özümdən, nə də ki sizlərdən xoflanıram. Sizi isə xoflandıran mənəm – İnsan! Keçmişinə sevgisi, məhəbbəti olan bir şair, bir Tanrı bəndəsi.

Bu vaxt kimsə bir məktub gətirir və İnsana təqdim edir. İnsan məktubu oxuyur və iclas iştirakçılarına bildirir ki, onu Mircəfər Bağırov çağırır. Zalda əyləşənlərin kefləri durulur, eyinləri açılır, üzlərə təbəssüm qonur və sevinclərindən bir-birinə gözaydınlığı verirlər.

## DÖRDÜNCÜ ŞƏKİL

İşıqlar dəyişir. İnsanın arvadı və qızı fikirlidirlər. Dərdləşirlər. İnsanın xeyli müddət olmaması onları təşvişə salıb.

Dilbər (*öz-özünə*, *İnsanın şəklini əlində tutub ona baxır*). İstəmirəm o canı ki, sən yoxsan!

Sonra şəkli stolun üstünə qoyur.

Eh... istəmirəm, istəmirəm o dərdi ki, təsəllim şeytan kələyi. Bir ana qadını, bir qız mələyi – aldada boğazdan yuxarı şirin dilinə.

İstəmirəm min öldürüb bir heykəli nişan verən qaniçən hakimləri. İstəmirəm göyləri yandırsın ahım. Dolansın başıma acı taleyim. Gör nədən dünyada nəfə düşmüşəm. Kədər alverindən kalan taleyim...

İstəyirəm sevəm yenə – ürəyimə verəm dirək. İstəyirəm dönəm geri – ümidimə olam şərik.

...Allahın işinə bir bax.

Əvvəl tərifləyirlər, şərəfinə quru-quru sağlıq deyirlər, sonra da öldürüb məhv edirlər. Aradan illər ötür, günahlarını yumaq üçün heykəl düzəltdirirlər. Neynirəm o heykəli? İnanıram bir gün gələcək: o heykəllər canlanıb qırmızı lentlərə ümid bağlayanların cavabını verəcəklər. İnsanı daş eləyən Allah, bir gün daşı da insan eylər.

Ş ü k r i y y ə. Ana, əgər atam üzə çıxmasa, demək, başında nəsə faciə var.

D i l b ə r. Onsuz da, çoxlarının gözü götürmürdü onu. Elə bil bir daş olmuşdu düşmüşdü çoxlarının başına. Eh... Bu millət də zəlil, şikəst adamları qəbul edir. Rəhm onda üzə çıxır. Millətin önündə gedənlərin isə başından vururlar. Zəlillik və şikəstliyi totemizm kimi qəbul edirik. Yəni bu millətə şil olmaq sərfəlidir. Əgər şil olsan, səni onda qəbul edirlər. İnsan kimi sağlam əqidəli istedad isə özünün faciəsidir.

Ş ü k r i y y ə. Ana, bəs indi biz neynəyək? Kimdən kömək gözləyək?

D i l b ə r. Heç kimdən! Kimin var? Belə anlarda qohum-qardaş da adamdan üz döndərir. Sən ondan qorx ki, gəlib bizim özümüzü də həbs etməsinlər.

Ş ü k r i y y ə. Axı atam kimə neyləmişdi?

D i l b ə r. Onun istedadı başqaları üçün düşmənçiliyə çevrilmişdi. Xalqın aşağı və orta təbəqələrinin sevdiyi adamı yuxarılar heç vaxt xoşlamır. Məhz ona görə onu aradan götürdülər.

Ş ü k r i y y ə. Demək artıq yoxdur atam? O bir də heç vaxt olmayacaq?

D i l b ə r. Allah bilir. Bir gecədə neçələrini gedər-gəlməzə göndərirlər. Bu da onlardan biri, harada olduğunu bilsəydik, heç olmasa başımıza çarə qılardıq.

Ş ü k r i y y ə. Axırıncı pyesini teatra təqdim etmişdi. Bəlkə onlarla əlaqə saxlayaq?

D i l b ə r. Bilirəm, teatrın bədii rəhbəri hər vasitə ilə ona mane olurdu. Bəlkə də bu işlər elə ondan keçib. Gündə min sifətə düşən adamla əlaqə saxlamağa dəyməz.

Ş ü k r i y y ə. Bəlkə, Yazıçılar İttifaqına xəbər verək?

D i l b ə r. Qurd ağacı içinnən yeyər, qızım. Onlara da çox bel bağlama.

Ş ü k r i y y ə. Ana, bir də atasız məktəbə getməyəcəyəm.

D i l b ə r. Mənim ağıllı qızım, məktəb də sənə dar gəlir. Nə çoxdur xalq düşməninin qızı, sən də onlardan biri. Onlar da heç məktəbə getmirlər. Görünür sizin də bəxtinizə belə yazılıb. Qismət olsa, atan sağ-salamat qayıtsa, onda arzuna çatarsan.

Ş ü k r i y y ə. Ana, məgər məktəbdə oxumaq üçün mütləq valideyn olmalıdır? Atasız uşaqları bəyəm məktəbə qoymurlar?

D i l b ə r. Qızım, hələ atandan bir xəbər tutaq, məktəb məsələsini sonra həll edərik.

Ş ü k r i y y ə. Ana, mən atamı istəyirəm.

D i l b ə r.

Yollar da bezibdir gedən-gələndən,
Bir xəbər veriniz nə olub axı?
Yollar yorğununu mən hər ötəndən,
Nə qədər soruşum hər axşamçağı.

Ş ü k r i y y ə.

Oturub daş üstə ağlama, ana!
Sən verdin oğlunu Azərbaycana!

D i l b ə r. Ayrılıq yol gedirmiş. Ayrılıq bərk gedirmiş. Ayrılıq düz gedirmiş üzü şimala.

Ayrılıq xəyal deyil. Ayrılıq güman deyil. Ayrılıq cavan deyil, özü gedir eləcə. Ayrılıq qatarlanıb dəmir xətlərlə gedir. Bir bölük kədərin özündən uzaq. Tanrı dərgahından imdad diləmir. Bir şair ömrünün açarı kimi.

Ayrılıq cığırlanıb şimal çöllərinin düzünə tərəf. Burulmur cığırlar son mənziləcən. Aparır üfüqün qürub yerinə. Aparır buludlar donan tərəfə.

Ayrılıq hasarlanıb dəmir barmaqlıqlar içində. Dərddən xalı toxuyub üşüyür ümidləri...

Ayrılıq soyuqlanıb Yenisey çayının sahillərində. Sibir meşəsinin buz bağlayan ağaclarının budaqlarından sallanıb.

Ancaq buz bağlayar ayrılıq... vüsal günəşi doğana kimi...

Ş ü k r i y y ə.

Ağlamağa göz tapılmır,
Kül içində köz tapılmır,
Söyləməyə söz tapılmır,
Vətən, sənin nə günündür?

Allah bizdən yuxarıda,
İman dizdən yuxarıda,
Ölü, bezdən yuxarıda,
Vətən, sənin nə günündür?

## BEŞİNCİ ŞƏKİL

Həbsxana. Müstəntiq İblis rolunda. O, İnsana mühasibat qurur.

Müstəntiq. Müttəhim Əhmədov, necəsən?

İnsan. Gördüyün kimi.

Müstəntiq. Deyəsən kefin kökdür...

İnsan. Öz kefinizin üstündə kökləmək istəyirsiniz yoxsa məni? Əsas məsələyə keç. Bilirəm sual-cavaba tutmağa gəlmisən. Amma gəlməyə də bilərdiniz. Çünki məhkəməyə təqdim etdiyiniz sənədlərdə dünyanın elə bir lüğətindən istifadə etmisiz ki, onu, ancaq daxilində heyvani hissləri olan müstəntiqlər yaza bilər.

Müstəntiq. Hələ bizim əlimizdən yaxanı qurtarmamış yaxşıca xoruzlanırsan.

İnsan. Düz deyirəm. Bir nəfəri həbs etmək üçün gör nə cür böhtan, şayiələrlə izahatlar, üzləşmələr aparmısınız. Mənim "cinayətkar maketimi" vəhşi heyvanın varlığından da çox qəddar göstərmisiniz. Təki məhbəsə göndərməyə əlinizdə dəlil-sübut olsun. Elə bil heç səni ana doğmayıb.

Müstəntiq. İnsan, sən bilirsən ki, haradasan? Nə professorluq eləyirsən. Sən artıq "türemşiksən". Artıq bitdi sənin yazı-pozun. Ağlını başına yığ, otur dustaqlığını elə məhbəsdə!

İnsan. Məhbəs! Dünyanın neçə-neçə zəkası, neçə-neçə böyük ürək sahibi yaşadığı mühitə, yaşadığı əsrə bu adı verib. Məhbəs, yazılmış və yazılmamış qanunların insan üzərində qaldırılmış abidəsidir.

Müstəntiq. Deyəsən məhkəmə hökmün oxunmamış başına hava gəlib. Hələ gözlə, çox sayıqlayacaqsan.

İnsan. İnsana verilən ən ağır cəza – gözləmək cəzasıdır. Onsuz da İnsana verilmiş bu az ömürdə ürəyində baş qaldıran neçə-neçə arzunun həyata keçəcəyi günü dəmir barmaqlıqlar arxasında gözlə! Gözlə ki, gün gələcək, onsuz da, İnsan istəyini ayaqlayan, onun arzusunu məhv edən bu biganə və soyuq dünyada əhdinə çatmaq üçün ona doğru ümid dolu bir addım atacaqsan. Gözlə ki, göy üzündə gəzən dünyanın heyvanına bərabər bir azadlıq alacaqsan və bu azadlığınla öyünəcəksən. İstəyəcəksən ki, adın qürurla səslənsin. Çünki İnsan adı daşıyırsan. Amma sənin kimi İnsan adı daşıyanlar lal məhbəsdəki soyuq divarlardan daha dəhşətli bir biganəliklə, daha soyuq bir

üzlə sənin arzuların qarşısında qorxunc kimi duracaqlar. Duracaqlar ki, bu dəfə sən öz içində boğulasan. Öz içində öləsən.

Müstəntiq. Sənə bir sual verəcəyəm. Görürəm özünü idarə edə bilmirsən. De görüm, yaşamaq istəyirsən? Əgər istəyirsənsə, mən sənə kömək edə bilərəm.

İnsan. Dünyada yaşamaq adında bir sənət var. O adamlar daha firavan, daha azad, daha yüksək ömür sürürlər ki, yaşamaq sənətinə tüpürürlər. Mənəviyyatı ilə, əxlaqı ilə, arzusu ilə başqaları üçün, elə özü üçün də yaşamağı zəhərə döndərirlər. Hər şeydən imtina edirlər. Vəzifəni də, adı da, namusu da pulla ölçürlər. Bu dünyada belələrinin yalnız bir yeri var. O da məhbəsdir. Məhbəs həmişə olub və həmişə da olacaq. Nə qədər ki, azadlıq bayraqları qaldırılır, nə qədər ki, İnsan ümidinə inanır, nə qədər ki, yaşamaq eşqi var, dünya məhbəssiz qalmayacaq. Yolumuz sabah da bu mənhus, bu lal, bu cansız, bu hissiz və soyuq divarlardan, tez-tez bağlanan, gec-gec açılan dəmir qapılardan keçəcək.

Müstəntiq. İndi nə demək istəyirsən? Elə burda qalıb çürümək istəyirsən? Sənə belə xoş gəlir bura?

İnsan. Xahiş edirəm, buraxın gedim. Qızım üçün yaman darıxmışam. Bir də mənim yazı-pozularım var idi. Sizin gözətçilərə yazıb vermişdim. O yazılar dururmu?

Müstəntiq. Sənin yazılarından qan iyi gəlir. Burda hamı bir-birinə nəzarət edir. Bəlkə də sənin yazılarını gizlində, xəlvətdə oxuyublar.

İnsan. Yaxşı yadıma saldın. Mən xəstəxanada müalicə olunanda orda bir Lyudmila Nikolayevna adlı həkim var idi. Onu görürsənmi, tanışlığın varmı?

Müstəntiq. Bildim kimi deyirsən. Hərdən sizə mahnılar da oxuyurdu.

İnsan. O mahnıların sözlərini mən yazmışam.

Müstəntiq. Onu siyasi mahnılar oxuduğuna görə güllələdilər.

İnsan. Demək, o da mənim badıma gedib. Allah ona rəhmət eləsin!

İnsan bir anlığa xəyala dalır və qeyri-ixtiyari divarın küncünə tərəf gələrək şeir söyləməyə başlayır:

Xalını min rəngə toxumadılar,
Səninçün gül ətri qoxumadılar,

Yüz nədir, bir yol da oxumadılar,
Qismətdən yuxarı varmış, əzizim.

Səni İlahitək bilsələr yenə,
Eşqin xanimanı salar düyünə,
Birdən özgəsiylə görsələr, demə –
Qismətdən yuxarı varmış, əzizim.

Günəşi şığıyır xətt-bucağının,
İşığı közərir qəlb ocağının,
Şüası sınıqdır bəxt qucağının,
Qismətdən yuxarı varmış, əzizim.

Müstəntiq. Şair, şeir vaxtı deyil, özünü ələ al, qulaq as mənə! ...Bu yaxınlarda yanıma bir qız gəlmişdi. Lyudmila Nikolayevna haqqında xatirələr, sənədlər, fotoşəkillər toplayırdı. Soruşdum, dedi ki, qızıyam.

İnsan. Ah, yazıq qızcığaz! O vaxt anası özü ilə xəstəxanaya gətirərdi. Mən də onu bağrıma basıb üzündən-gözündən öpərdim, elə bilərdim ki, Şükriyyəmdir.

Müstəntiq. Taleyin işi belədir. Neyləmək olar?!

İnsan. Qızımın şəklini həmişə üstümdə gəzdirərdim. Axırıncı dəfə sizinkilər məni yoxlayanda üstümdən götürdülər. Sən allah, gör kimdədirsə, onu al, özümə qaytar.

Müstəntiq. Çalışaram!

İnsan. Yadıma lənət qapıları düşdü.

Müstəntiq. Harada?

İnsan. Birincisini Bağırovun yanına gedəndə keçmişəm. Onun iş otağının qapısı idi. O birilərini isə deməyə ehtiyac yoxdur. Sən özün də yaxşı bilirsən.

Müstəntiq. Bildim nə deyirsən.

İnsan. Amma sən allahın, məni haradan aparırsan apar, o qapılar olan ünvanlardan aparma.

Müstəntiq. Gözləmək lazımdır.

İnsan. Gözlə cəzaların son mənzilini. Gözlə insanların gor məkanını. Kainat dəyişsə, yer-göy uçulsa, gözlər gözləyənin göz əli olar. Uzaqda göz yaşı tökən gözəlin, ümid yelkənində xəbəri gözlə. Gözlə ki, gələcək doğma balan da! Gözəllik cəzaymış ömür yaşında, gözəllik həyatın hər qarışında – gözləyir əsirlik çağına kimi... Biz millət halından çox insan olmalıyıq. Millət halındakı

vəhşiliyi İnsan halındakı müdrikliyə qurban verməliyik. Biz İnsan yoluna çıxmalıyıq. İnsan gözləməliyik...

Müstəntiq. Sənin istedadın da belə getdi.

İnsan. Sən İblismişsən! Tanıdım səni. Rədd ol! iblis, İblis! (*Qışqırır.*)

## ALTINCI ŞƏKİL

Dilbərin ümidi hər yerdən üzülür və çətinliklə hökmdarın qəbuluna düşür.

Dilbər. Qibleyi-aləm, İnsanın həyat yoldaşıyam. Onun nə dirisindən, nə də ölüsündən xəbər var. Neçə vaxtdır ki, yoxdur. Göydə Allah, yerdə Siz kömək edin.

Hökmdar. Bəs, bu vaxtacan niyə xəbər verməmisiniz, şikayət etməmisiniz?

Dilbər. Qadın xeylağıyam. Mənim gücüm nəyə çatır. Qızıma güc-bəla ilə baxıram. Bir də ki, hər şeyi öz heyvani hisslərinə qurban verən müstəntiqlərin və məhbəs gözətçilərinin yanına necə gedəydim? Odur ki, dərdi içimdə çəkirdim. Artıq dərd də tab eləmədi. Dəlilik dərəcəsinə çatdım.

Hökmdar. Sakitləşin, özünüzü ələ alın, hələ dəli olmağınıza çox var. Özünüzü məhv eləməyin!

Dilbər. "Məhv olmaq" səadəti heç də hamının qismətinə yazılmır. Məhv ola bilməyənlər təklənir, ağlın faciəsi də elə bu vaxtdan başlayır.

Hökmdar. Siz niyə belə təşvişlə danışırsınız? Ərinizin günahı yoxdursa, yəqin ki, o üzə çıxar. Siz özünüzə qəsd etməyin.

Dilbər. Möhtərəm hökmdar, inanmaq olmur ki, insanlıq haradasa bitib-tükənir. Rabitəsiz bir nitq kimi haradasa bir sonluqda, nöqtədə başa çatır. Qəlbin dərdi asan unudulur, ağlın faciəsi isə dözülməzdir. İctimai mühit "fərdi" təkləyəndə, tapdalayanda, əzib üzüm cecəsi kimi suyunu çıxaranda insan ağlını itirir. O, ağlını itirəndə ədalətsizliklə cəmiyyət İnsanı "itirir". Mənim kimi, artıq mən də o dərəcəyə gəlib çıxmışam.

Hökmdar. Filosofluq edirsən, xanım. Danışığına sərhəd qoy! Necə ki, mən hökmdaram, cəmiyyət heç vaxt "İnsan" itirməyəcək. O ki qaldı ərinizin məsələsinə, o günahkardır. Etdiyi pisliklərin cəzasını çəkir. Günahlarını yumaq istəyənlərin aqibəti, məhz, belə olur.

D i l b ə r. Nə günahı var onun?

H ö k m d a r. Mən müstəntiq deyiləm sizin üçün. Özünüzün harada, kimin hüzurunda olduğunuzu deyəsən unutmusunuz.

D i l b ə r. Qibleyi-aləm, bağışlayın! Həyəcandan belə danışıram. Bu mənim axırıncı ümid yerim və axırıncı şansımdır. Rəhminiz gəlsin, kömək edin bizə!

H ö k m d a r. Mən sizi qadın kimi tökdüyünüz göz yaşlarına bağışlayıram. Çalışaram ki, kömək edim. Amma onu da bilin ki, əriniz günahkardır.

**YEDDİNCİ ŞƏKİL**

İşıqlar dəyişir. Bu vaxt İblis peyda olur. İnsanın evinə qayıtmasına
mane ola bilmədiyi üçün məyusdur və gücsüzlüyünü dərk edir.
Artıq o uduzubdur, bir sözlə, əlinin dalını yerə qoyub.
Məhbəs kamerasında onunla görüşür.

İ b l i s. Mənimlə az mühasibat qur! Mən torpaqdan güc alıram!

İ n s a n.

Torpaqla bir oyan, torpaqla bir dur,
Bu qara torpağın üzündədir nur!
Üzünü hər səhər torpaq ilə yu,
Ətir də ondadır, üzağlığı da!..

İ b l i s. Mənə ağıl öyrədirsən, şairim! Sən ki məni yaxşı tanıyırsan? Torpaqla nə işin. Yoxsa, vaxtın çatıb?

İ n s a n.

Torpaq adamları – ərənim, ərim,
Torpaq adamları – qızılım, zərim...
Torpağa toxum yox, baş əkənlərin –
Axırda bilinər yazıqlığı da...

İ b l i s. Yazıqlıq göylərdən gəlir.

İ n s a n. Sən ki ondan uzaqsan?!

İ b l i s. Gəl dost olaq...

İ n s a n. Dostlarımın mənə arxa çevirməyini bildiyindənmi belə deyirsən?!

İ b l i s. Yox, əfəndim! Onlar həm də mənim dostumdurlar. Gəl, gəl, gəl dost olaq...

İ n s a n.

Dəli dənizinə dönüb bu torpaq,
Arzular, ümidlər boşa çıxıblar.
Göylər yerə enib, yer qalxıb göyə
Başı olmayanlar başa çıxıblar.

İ b l i s. Başdakıların qadasın alım. Onlar bir başa qulluq edirlər. Elə əsil kişi onlardır.

İ n s a n.

Neyləyək, şükür edək, dözək buna da,
Zaman öz sözünü bulacaq "qağa".

İ b l i s. Zaman dediyin elə indinin özüdür. Zamandan heç nə gözləmə, gəl əlinin dalını yerə qoy, inadından da dön!

İ n s a n. Nə pis yerdə axşamladıq, İblis! Amma indi əlimdən çətin qurtarasan. Sənin nazınla bəsdir oynadım.

İ b l i s. Əsəbiləşmə, bir dəqiqə dayan. Bayaq torpaqdan danışırdın, de görüm, haqqı torpaqda axtarmaq lazımdırmı? Torpaqdırmı insanı yetişdirən?

İ n s a n. Bəlkə elə torpağın özü də biz İnsanlardan bezib və bizi özündən uzaqlaşdırıb. Bu torpağın qızılından, neftindən sənin kimi dəmvuranlar İnsanlıq aləminə dönmək istəmirlər.

İ b l i s. Niyə? Poçemu?

İ n s a n. Çünki bu zəmanədə dinindən, məzhəbindən asılı olmayaraq hökmranlıq, tiranlıq hissi əsil İnsanlığı üstələyib.

İ b l i s. Sönük vücudu ilə insanın adəmə meydan oxuduğu bu əsrə lənət yağdıraqmı? Bəfərmayid!

İ n s a n. Meydanı sənin kimilər oxuyurdu. Məhz lənət sənə yağmalıdı İblis! İndi isə gecdir, gücün çatmır artıq, səni bu saat bu kamerada məhv edəcəyəm.

İ b l i s. Yaxşı onda bu sualıma da cavab ver. Səninlə mənim fərqim nədir?

İ n s a n. Mənim vücudum sədaqətdən, səninki isə xəyanətdən yoğrulub. Xəyanəti isə mən heç vaxt bağışlamıram...

İşıqlar dəyişir. İnsan onun üstünə getmək istəyir.

İ b l i s. Dayan! Onsuz da məni aləmdə rüsvayi-cahan eləmisən. İndi nə istəyirsən?

İ n s a n. De görüm, bura nəyə gəlmisən?

İ b l i s. Dost olmağa!

Qeybdən səs gəlir.

– Mən İnsanam! (*İblis özünü itirir və əllərini üzünə tutur, əsməyə başlayır. Bu vaxt yenə səs eşidilir.*)

– Mən İnsanam!

İblis yerə uzanır.

İ n s a n. Çalışırdın ki, isti ocağıma, doğma evimə qayıtmayım. Gücün çatmadı. İndi sürünürsən, imdad diləyirsən. Cavab ver, əclaf!

İ b l i s. Mənə yazığın gəlsin. Olan olub, keçən keçib, gəl əl-ələ verib barışaq.

İ n s a n.

Yoox, yoox, xain İblis,
Bədbəxtliyə bais...

**SƏKKİZİNCİ ŞƏKİL**

İşıqlar dəyişir.
İş otağında tək olan Mircəfər Bağırov öz-özünə danışır.

M i r c ə f ə r B a ğ ı r o v. Nə etdiyimi yaxşı bilirəm. Deyəsən məni yaxşı tanımırlar?! Moskva özü bilir mən kiməm. Əjdahaların içində baş çıxarmaq hər kişinin işi deyil. O mənəm ki, hətta Mərkəzi Komitə də hərdən məndən ehtiyat edir. İndi bu Atamançı qruppası, deyəsən mənim o biri üzümü yaxşı görməyib. Eyb etməz, onlara da zəhmimi tuşlayaram. Qoy bilsinlər hökmümü! Qarayev, Cəbiyev qurd ürəyi yeyiblərmi? İnsanı himayə edirlərmi? Mənim iradəmə qarşı çıxırlarmı? Hələ ki, hakim mənəm! Hökmü mən çıxarıram. Bu gün qəddar burjua millətçilərini, sabah isə sovet millətçilərini... Əgər o günü görə bilsəm, bəli, sovet millətçilərini də...

Bu vaxt xoflanır: pəncərəyə, qapıya boylanır. Radionun şunurunu dartıb yerindən çıxarır.

Bu gün dahi rəhbər Stalinin sözü mənə Quran ayəsi kimi əzizdir. Onun kəsdiyi başa söz ola bilməz. Gürcü balasının bığlarına qurban olum! Onun bığının hər tükünə, yeri gəlsə, bir yazıçı yox, yüz yazıçı qurban verərəm, yüz artist! Hələ, bu bədbəxt millət bilmir ki, rəhbər yolunda qurbanlıq gərəkdir. Lazım gəlsə, mən də qurban gedərəm. (*Təntiyir və özünün qurban getməsi üçün dediyi sözə peşman olur, daha da əsəbiləşir və əlini telefon dəstəyinə aparır.)* Sürgün eləmək lazımdır.

İşıqlar dəyişir. Bu vaxt İnsanı gətirirlər.

Mircəfər Bağırov. Eşitmişəm özünə arxa yığırsan, şair? Yəni məni belə aciz başçı hesab edirsən? Yəni mən bu günə qalmışam?

İnsan. Yoldaş Bağırov, Siz hansı gününüzə ağlayırsınız? Əmriniz tez icra olunmadığındanmı? Kəsilən başları gözünüzlə görmək istəyinizdənmi öz gücünüzə şübhəylə baxırsınız? Mənim günahım nədir?

Mircəfər Bağırov. Mənim üçün sənin varlığın günahdır, şair! Mənə deyirdilər, inanmırdım. İndi gözlərimlə görüb, qulaqlarımla eşidirəm. Məhz sizin kimilərə aman vermək lazım deyil. Milləti sizlərdən təmizləməliyik.

İnsan (*ah çəkir*).

Kimdən nə gözləyək, kimdən nə umaq,
Millət qan ağlayır, millət ov verir,
Bizim şairlərin mükafatını,
Verir bolşeviklər, Bağırov verir.

Mircəfər Bağırov. Əgər vicdanın oyansa, sovetləri təriflə, məni, yoldaş Stalini mədh elə. Bəli, onda sənə mükafat verilər, lap vəzifə də!

İnsan.

Nə vaxt ki, bulaqlar bulanır başdan,
Nə vaxt ki, başçılar vicdansız olur.
Dəyişir adını, din-imanını,
Azəri övladı qeyrətsiz olur.

Mircəfər Bağırov. Qeyrətdən, namusdan danışırsan, şair! Vaxt gələr, sən də adını dəyişərsən. Mənim hökmüm qətidir. Millətin gələcəyi naminə səni həmişəlik həbs etdirirəm!

İnsan. Mən millətin gələcəyi naminə özümü qurban verirəm. Amma sizin əlinizlə yox! Millətin gələcəyinə isə sizin heç bir aidiyyətiniz yoxdur. Siz məhz millətin gələcəyini həbs edirsiniz. İmanınız, Tanrınız yoxdur sizin?

Mircəfər Bağırov. Mən ateistəm...

İnsan. Həm də seyidsiniz...

Mircəfər Bağırov. Deyəsən son ümidini seyidliyimə bağlamısan. Ha, ha, ha. (*Gülür.*) O hərdən, hətta mənim öz yadımdan belə çıxır.

İnsan. Yəqin tumunuzda, nəsil-nəcabətinizdə nəmlik var, hökmdar! Mənim millətimdən bəlkə elə ona görə qisas alırsınız?!

Mircəfər Bağırov. Nəslimin qurbanı sənsən, şair!

İnsan. Əgər türk olsaydın, ölümün mərd üzünü tapardın.

Mircəfər Bağırov. Ölüm, elə ölümdür. Onun heç bir üzü yoxdur.

İnsan. Hə... indi bildim ki, Əzrayılla qohumluğun var.

Mircəfər Bağırov. Mənim iş yoldaşlarım ruslar, ermənilər və yəhudilərdir. Onlar necə, Əzrayılla qohumdurlarmı?

İnsan. Saydığınız iş yoldaşları millətin mənəviyyatını, genini, kökünü sünnət eləyirlər. Sizsə ah-nalələrdən ləzzət alırsınız. Gün gələcək, elə onların özləri də sizi belə sorğu-suala tutacaqlar.

Mircəfər Bağırov. Onlar mənim meyitimdən də ehtiyat edirlər.

İnsan. Yanılırsınız, yoldaş Bağırov! Sizin düşməniniz mən yox, onlardır.

Mircəfər Bağırov. Sayıqlama, şair. Mənə sədaqətlə qulluq edənlərə şər atma. Sənin kimi yüzünü onların dırnağına dəyişmərəm. Azərbaycan beynəlmiləl sovet diyarıdır. Sənin kimi yazar isə ləkədir cəmiyyətimizə.

İnsan. Mən lənət qapısından keçdim içəri. Bu qapı mənim taleyimə sizin yanınızda açıldı.

Mircəfər Bağırov. Hanı o qapı?

İnsan. Budur. (*Əli ilə göstərir.*) Sizin kabinetin qapısı...

Mircəfər Bağırov. Von otsuda, niqodyay!

İnsan.

Mən hansı xanədə tutdumsa qərar,
Hər gəda məkrlə bir "şah" eylədi.
Ey Tanrım, gör necə kür taleyim var
Məni nadanlara ürcah eylədi.

M i r c ə f ə r  B a ğ ı r o v. Şair, sözlərin mənə toxunsa da, hiss edirəm ki, səninlə söhbətdən sonra elə bil başqa adam olmuşam. Buyruğumda müntəzir duranların "bəli" və "baş üstə"ləri mənə zəhər kimi görünür.

İ n s a n. Siz "bəli", "baş üstə"lərlə çox nahaq qanlar tökmüsünüz. Rəhmətlik qoca nənəmin sözləri yadıma düşür. O deyərdi ki, həyatda hər şey eləmək olar, təkcə Günahdan başqa.

Siz isə o qədər günahlar eləmisiniz ki, çətin xoşbəxt olasınız.

M i r c ə f ə r  B a ğ ı r o v. Bilirsən nə var, sən böyük şairəsən. Qürurun, mənliyin var. Başqaları kimi deyilsən. Vicdanın təmizdir. Məhz təmiz adamlar faciə burulğanına düşürlər. Onları həyatın eybəcərlikləri özünə çəkib gətirir. Gətirir ki, bəlkə o çirkablardan təmizləndilər. Ona görə mən səni qoruya bilmədiyim kimi özümü də qoruya bilmirəm.Hələlik vəzifəm var. Sənin isə heç bir vəzifən yoxdur. Əslində bu məmləkətdə çoxlarını, o cümlədən mənim kimilərini də "stul"lar xilas eləyir. Bu, əsil faciədir. Belə isə nə mənim, nə də ki kürsünün səni qorumağa heç bir gücü çatmır. Çünki mən özüm qorunuram. Mən səni qoruya bilmədiyim kimi, özümü də qoruya bilmirəm.

İ n s a n. Bildim. Belə yaşamaqdansa...

M i r c ə f ə r  B a ğ ı r o v. Dayan, mənə diqqətlə qulaq as: bilirsən ki, bu millət heç vaxt öz şahını axıra qədər qoruyub saxlamayıb. Ya öldürüblər, ya da qaçırdıblar. Onların heç papaqlarını da saxlaya bilməmişik. Şahlarımızın papaqları indi haradasa Avropa muzeylərindədir. Bəs ora kim aparıb onları. Bəlkə elə apar-gətir dünyasında şah itkisi belə yaranıb. Sən şairsən, daha yaxşı bilərsən. Axı bu sözü bütün dillərdə də "şah" kimi tələffüz edirlər. Anladın mənim fikrimi. Mən əslində səni bəlalardan hifz eləmək üçün sürgünə göndərirəm. Bəlkə sürgündə salamat qala bildin.

İşıqlar dəyişir. Bağırov seyfin üstündəki şahmat taxtasını götürür və İnsana uzadır. İnsan təkdir.

İ n s a n (*öz-özünə*).

Dayanıb pusquda ov gözləyir, ov
Sanki Əzrayıla təndir, yarıdır...
Sadıqov, Kərimov, Əsəd Axundov,
Qanlı əllərinin qurbanlarıdır.

(*Sonra dərindən köks ötürür, əllərini başına aparır, dərin fikrə dalır. Daha sonra bir anın içərisində diksinir və Türk dünyasının ağrı-acılarını, dərd-sərlərini çiynində daşıyan bir adam kimi deyinməyə başlayır.*) – Əfsuslar ki, tarixə hökm edən türklər bu son minilliyi yalnız öz şahlarına qarşı aparılan oyuna həsr etdilər. Əgər şahmatda türk qambiti olsaydı, onda şah mütləq özü qambit, yəni qurban verilən fiqur seçilməli idi. Bu isə şahmat oyununun məntiqinə sığmır.

Ya şahlar bizim olub, məmləkət özgənin, ya da məmləkət bizim olub, şahlar özgənin.

## DOQQUZUNCU ŞƏKİL

İşıqlar dəyişir. Uzun ayrılıqdan sonra İnsan geri dönür. Onu tanıyanlar və yaxınları qarşılamağa çıxırlar. Şükriyyə birinci dayanıb.

Şükriyyə. Nə gec gəldin, baba?

İnsan. Məni indidən sorğu-suala tutma qızım! Özün danış!

Şükriyyə. Nəyi baba?

İnsan. Bu gün dərsə getmisən?

Şükriyyə. Yox, baba! Müəllim bizə icazə verib. Sinfimizin bütün uşaqları ilə birlikdə səni qarşılamağa gəlmişəm.

İnsan. Müəlliminiz də gəlib?

Şükriyyə. Gəlib, baba!

İnsan. Adı nədir?

Şükriyyə. Müşfiq!

İnsan. Mənim tələbəm Müşfiq?

Müşfiq. Bəli.

İnsan. Qızım necə oxuyur?

Müşfiq. Əla!

İnsan. Sağ ol, qızım. Sən də sağ ol, Müşfiq!

Şükriyyə. Daha istəmirəm xeyir-duanı, daha istəmirəm alın yazısın – səndən ayrı.

İnsan. İstəmirəm qisməti alıb boynuma, çıxım tufanların qonan yerinə, soyuq məzarların donan yerinə. Bir də dönməyəcəyəm o uzaqlığa.

Şükriyyə. Baba, üstünü ört, soyuqdan gəlmisən.

İnsan. Orada yorğanım qar idi, burada günəşdi, qızım.

Şükriyyə. Bəs, niyə üşüyürsən?

İnsan. Vətən üşüdür. Heç doyunca sizin qulluğunuzda durammadım, nazınızla, şıltaqlığınızla oynayammadım. Bağışla, qızım.

Şükriyyə. Baba, sən gələn yollara qurban olum. Axır ki, bu yollar arzumuzu ürəyimizdə qoymadı. Bizə sən lazım idin, sən də gəldin.

İnsan. Gəl gedək, qızım, anandan danış. De görüm, sizi necə saxlayıb?

Şükriyyə. Özündən soruş, baba?

İnsan. Qohum-əqrəabalar necədir?

Şükriyyə. Yaxşıdırlar, lap yaxşı.

İnsan. Yaxşı, qızım gedək...

İşıqlar dəyişir. Bir ailənin həsrət görüşü.

Dilbər. Üfüqə dirənən cığıra düşdün, qoymadın sönməyə ümidlərini, bir vətən həsrəti, övlad yanğısı doldu gözlərinin dərinliyinə. İtirdin dünyanın qapılarını.

İnsan. Özün nəzərdən deyil. İnsan o İnsan deyil...

Dilbər. Nə tez əlçatmaz oldun? Heç doyunca çəkəmmədim nazını, heç doyunca görünmədim gözünə. Yəqin gözündən tez düşmüşəm. Yəqin sevəmmirəm daha. Yaşayıram səndən ayrı.

İnsan. Hayqırdım səsimlə İrana-Türkə. Dedim ki, yalqızam – sənnən ayrı.

Dilbər. Sevirəm səni – səndən ayrı.

İnsan. Bir tale çuxasını atıb çiynimə, bəxtin sazağından qorunam gərək. Biləm ki, şərqimi yollar aparır – sevgi kimi sən də apar. Gözləmişəm eşqimi, darıxmışam, yaman darıxmışam.

Dilbər. Yollara inanmıram. Sənə sığınmışam – səndən ayrı.

İnsan. Məni yollarda axtarın – üzü şimala. Döyəcləsin üzümə şerim, sənətim. Məndən uzaq qalan yetim Vətənim. Kölgənə sığınmışam – səndən ayrı.

Dilbər. Uzaq səfərlim mənim. Dərdi yəhərlim mənim. Gözü kədərlim mənim. Bu yollarda yaman yoruldun? Sakitləş...

Şükriyyə. Baba, elə həmin yurddayıq – Azərbaycandayıq, elə həmin saydayıq. Ağaclar çiçəkləyib, iydələr tumurcuqlayıb, çölarmudu yetişib. Arılar şan toxuyur. Dəniz də yerindədir. Dalğası köpüklənir, inci qumlar qızarıb, qayalar mamırlanıb, neftin yenə iyi gəlir – təkcə sən yoxsan.

İnsan. Özünüzü ələ alın.
Dilbər.

Taleyim tuş gəldi bədnəzərlərə,
Düşdüm min böhtana, düşdüm min şərə,
Nə olsun, hər axşam min ah eylədim,
Adını başımda bayraq eylədim.

İnsan.

Nursuz gözlərimin leysan yağışı,
Yu apar taledən gələn qarğışı,
Fələk, neynəmişdim, axı, mən kimə?
Niyə qılıncını çəkdin üstümə?

Şükriyyə.

Bir əlçim ömrüm var, ata, bəsimdir,
Qartalsan, qəlbimi döndərdin dağa.
Mənim bu dünyada varım səsimdir,
Başladım adınla nəğmə yazmağa.

İnsan.

Sən məni ruhların özündən soruş,
Soruş ki, atanın kefi necədir?
Bu qara yazını yazandan soruş,
Soruş ki, soruş ki, günahım nədir?

Şükriyyə.

Dağların qoynunda ocaqlar çatıb,
Dənizdə təlatüm qopardın, ata.
Özünlə düşdüyün oyuna qatıb,
Mənim oyunumu da apardın, ata.

İnsan.

İndi qayıtmırlar bahara qədər,
Durna qatarları görünsə belə,
İndi qayıdırlar payıza qədər
Ağaclar yarpağın tökərsə belə.

Şükriyyə.

İçimizdən bir xof keçib,
Bir gözü göy, rəngi kürən.
Baba, bu xof bizi seçib
İgid-igid, ərən-ərən.

## ONUNCU ŞƏKİL

İşıqlar sönür. Dövri-zaman dəyişib. İnsan isə məhbəsdən birdəfəlik buraxılıb. O qaranlığa, zülm və işgəncəyə qalib çıxıb. İnsan yenidən hökmdarla görüşür və onun qəbulunda müntəzirdir.

Hökmdar.

Şairim, səsini min səs eylədim,
Səni qəbirlikdən xilas eylədim.
Yaşatdım, məhv olmuş inadlarını,
Özünə qaytardım qanadlarını.

İnsan.

Dağıldı millətin qəflət yuxusu,
Sındırdım buzunu o key anların,
İndi "Cəngi" olub səsim-sorağım,
Gəlir o tayından okeanların...

Hökmdar.

Kəsdi çox dalğanın fitnəkar səsi,
Qıy vuran qartallar önümdə endi...
El gücü yığılıb biləklərimə,
Yumruğum poladdan möhkəmdi indi...

İnsan.

İllər üşüdürdü məni bir azca,
Bilmirdi içimdə qaynayan qanam.
Bilmirdi Türk adlı, Göytürk nəfəsli,
Odlar torpağıyam, Azərbaycanam.

Hökmdar.

Qızıl qanlar axan damarımızda,
Xəyanət odunu donduraq, gəlin.
Necə söndürmüşdük çırağımızda,
Onu məşəl kimi yandıraq, gəlin.

İnsan. Mənim ruhum danışır. Bəlkə haqsızam. Bəlkə məni yenə cəza gözləyir?

Hökmdar.

Gəlirəm əlimdə Babək qılıncı,
Gəlirəm gözümdə şimşək çaxarı.
Zaman süzgəcindən özü keçirər,
Kim haqlı, kim haqsız ona baxarıq.

İnsan.

Biz az görməmişik hakim, hökmdar,
Qurban kəsilmişik şirin dillərə...
Sizin könlünüzdə bilmirəm nə var,
Məni qaytardınız doğma ellərə...

Hökmdar.

Ey millət şairi, yenidən hayqır,
Hakim də dəyişib, indi zaman da.
İndi millət qanı çağlamalıdır –
Vətən övladının damarlarında...

İnsan.

Millətin belini hökmdar, qırar,
Hökmdar eyləyər milləti millət.
Adil hökmdara daim hörmət var,
Xalqsız hökmdara lənət, min lənət...

Hökmdar.

İnsan, ürəyini buz kimi saxla,
İndi o gördüyün buzlar əridi.
Mən səni axtarıb, gəzdim çıraqla –
Hakim də haqq sözün müntəziridir.

İnsan.

Onsuz da İnsanın bəxti kəm olub,
Ruhu hey fırlanıb, könlü şən olub,
Taleyi dənizdə bir yelkən olub,
Külək də məlumdu, tufan da məlum.

## ON BİRİNCİ ŞƏKİL

İşıqlar dəyişir. İnsanın gəlişindən bütün Şərq oyanır.
Azərbaycan adlanan məmləkət isə xitabət kürsüsünə çevrilir.
İştirakçılar yeni hökm yazırlar.

Birinci vəkil. Günahkar zamandı.
İkinci vəkil. Günahkar düşüncəmizdir.
Birinci iclasçı. Bu xalqa bel bağlamaq olmaz.
İkinci iclasçı. Yanan da bizik, yandıran da.
Qeybanə zəhmli səs. Qalxın insan gəlir.
İnsan. Vaxt özü hökmdür.

Hakimlər, hakimlər atmayın məni,
Ala danalara qatmayın məni,
O yana-bu yana dartmayın məni
Bu yanğı mənimdi, bu ad mənimdi.

Hakim. Sizdə heç bir günah görmürəm. Çünki sizləri bir cümlə ilə mühakimə ediblər. Və ondan sonra ah-nalə qapılarında qalmısınız.

İnsan. Üzümüzə açılan bir ah qapısı dünyanın ağıları oxunan zamandan ömrümüzü özünə qonaq edir. Qəlbin qapısına çəkilən ahların məxfiliyi hələ körpəlikdən dünyanın bir üzü ağ, bir üzü qara bəxtinə tuşlanıb. Zərrə-zərrə böyüdüyümüz illərin lent yazısı çəkilən ahlarımızı özümüzə oxudur. Bir ah qapısından gəlir səsimiz. Bir qəlbi tarımda saxlamaq üçün. Bir ah çəkiləndə süzür gözümüz, buludlar yağışın tökənə kimi.

Hakim. Onda belə idi: əstəğfürullah, yaratdığı İnsanı cani qismində görəndə belə qəzəblənməyən Allahın qəzəbindən də çox qəzəbli idi müstəntiqlər.

İnsan. Bəs indi necə? Bəyəm cildlərin dəyişiblər?

Hakim. Bəli!

İnsan. İnanmıram!

Hakim. Bütün şübhələri yox etmək, ədalətə qovuşmaq üçün hakim, məhz, siz özünüz olmalısınız. Mən öz hökmümü belə çıxarıram:bu gün Zamanın hakimi sizsiniz. Buyurun!

Şüurlarda təmənna prinsipinə müəllimlik edənlərin göstərişilə qalxıb-enən dirijor çubuqlarından xilas olmağa can atan şahidlik də yeni biçimdə.

Birinci şahid. Что сказат?

İnsan.

Quş olub çəkilib öz yuvasına,
Bu yazıq dəlini tanımaq çətin.
Danışmaq istəmir ana dilində,
Vallah, bu milləti tanımaq çətin.

Birinci şahid. Йа не понял. Почему "танымамаг". Я же русскоязычный?

İnsan.

Danır soy kökünü, nəcabətini,
İlahi, insanda qeyrətə bir bax,
Dağa dırmandırır ağlı olanı,
Sən bu millətdəki qeyrətə bir bax.

Birinci şahid. Хорошо, не ругайсая, буду разговариват на родном йазыке: Tarixin üzünə durummu?

İnsan. Sən türksən, yoxsa...

Birinci şahid. Doğrusu, heç özüm də bilmirəm.

İnsan. Əsil faciə. Tanıya bilmədik özümüzü. Uzun illər süni şitillər əkildi məmləkətimizdə. Sortumuz qarışdırıldı, hamımız azərbaycanlaşdıq. Özümüzü çətin izah edək. Eh... Elə sən də İblisin bir balasısan da...

Birinci şahid (*həyəcanla*). Vallah, mənim təqsirim yoxdur. Öyrədiblər məni, hətta dostlarımın, qohumlarımın, öz halal arvadımın da üzünə durmuşam.

İnsan. Çünki ləyaqətsizsən. Ləyaqət yaradır mənliyi. Mənliyin yoxdur sənin.

Birinci şahid. Yoxdur da neyləyim?

İnsan. Özün öz hökmünü ver. Yəqin ki, ona da öz iradən çatmaz. Ona görə sən işgəncəyə layiqsən.

Birinci şahid. Sən allah, elə eləmə, yazığam. Mən yaxşı yaşamaq xətrinə eləmişəm.

İnsan. Bəs səni ana doğmayıb, kiminsə belindən əmələ gəlməmisən? Zatın bilinmir? Zaman görünmür gözlərinə?

Birinci şahid. Ata-anamdan heç xəbərim var ki mənim?

İnsan.

İnsan bir günəşdi şüası aydın,
Günəş gözlərinin ziyası aydın,
Atası aydındı, anası aydın.
Büllur gözlərində zaman görünür.

Bu vaxt prokuror görünür.

Prokuror. Təəssüflər ki, öz vəzifəmi Yer kürəsinin xoşbəxt ölkələrindəki prokurorlar təki yüksək səviyyədə icra edə bilmirəm. Bu nə mənim, nə də sənin günahındır? Yaşadığımız region və mənsub olduğumuz millətin günahıdır.

İnsan. Mənim heç bir günahım yoxdur. Öz günahlarınızı mənim üstümə yıxmayın.

Prokuror. Sizin də günahınız var!

İnsan. Yoxdur! Çünki siz ananı baladan, qardaşı bacıdan, arvadı ərdən ayıran "Sosialist" qarğışısınız.

Prokuror. Bəs siz kimsiniz?

İnsan. Mən İnsanam.

Prokuror. Mən sizi məhbus kimi dərk edə bilmirəm. Çünki Azərbaycan kimi Şərqlə Qərbə qapıları açılan bir məmləkətdə məhbəs qanunlarıyla heç siz də məhbusluq etməmisiniz. Məhbəsin öz qanunları var. Təəssüf ki, sovet məhbəsləri deyilən bir məfhumun varlığını şübhə altına qoydu. Heç sizlərin çoxu məhbəsə düşməyə hazırlaşmamış getmisiniz. Çünki məhbəs hər kəs üçün görünən bir yerdir. İstəyənin olmalıdır məhbəs! Sizlər isə əmrlə ora doldurulursunuz. Pambıq ilanı kimi! Əslində isə məhbəs əmrlə heç kəsi qəbul etmir. Elə ona görə də məhbəs qanunlarına heç siz özünüz də lazımınca əməl və hörmət etməmisiniz.

İnsan. Mən onu bilirəm ki, məhbəsin yazılmamış qanunları yazılmış qanunlarından daha güclüdür. Başqa heç nə bilmirəm.

P r o k u r o r. Amma Siz hər şeyi bilməlisiniz!

İ n s a n. Bayaq dediniz ki, biz qapısı Qərbə və Şərqə açılan Azərbaycan məmləkətində yaşayırıq. Bunun məsələyə nə dəxli?

P r o k u r o r. Çünki doqquz təbii iqlimi, nefti, yeraltı, yerüstü sərvəti olan bu məmləkəti qanunlarla idarə etmək çətindir. Bəlkə də buranın havası dəyişkən olduğu üçün, küləkləri gözlənilmədən əsdiyi üçün insanları da, qanunları da dəyişkəndir.

İ n s a n. Min dona girən, məhz siz özünüzsünüz. Çünki sizin kimilər müttəhim qarşısında və zaldakıları həmişə özünüzə sərf edən "professional" çıxışlar eləmisiniz. Bu çürük bir sistemin sizə öyrətdiyi çürük bir sovet elminin əxlaqıydı. Siz, deyə bilərsinizmi, nə millətisiniz?

P r o k u r o r. Azərbaycanlı.

İ n s a n. Hər şey aydındır.

P r o k u r o r. Mən öz hüquqlarımı və vəzifəmi qoruya bilmədiyim üçün buranı tərk edirəm.

İ n s a n. Yeni qanunlar yazılmalıdır. Qanunları isə İnsanlar yazır. İnsan öz qəlbinin səsini eşitməlidir, öz iradəsinə hakim olmalıdır. Qəlbin səsi isə heç vaxt unudulmur. O səsin şüası həmişə qaranlıqları işıqlandırır. Sözü bu gün xalq özü deməlidir. Hamı öz qəlbinin hökmünü çıxarmalıdır...

Bu vaxt səhnəyə İblis daxil olur.

İ n s a n (*üzünü İblisə tutaraq*).

Əl vermə, əllərin çox qanlar görüb,
Çəkil bir addım da geriyə, İblis!
Olsaydı imkanım, bir qoyun kimi
Qatardım mən səni sürüyə, İblis!

Başda kim oldusa, "him"in qalmadı,
Tərsə çalmadığın simin qalmadı.
Alıb-satmadığın kimin qalmadı?
Baxmadın ölüyə, diriyə, İblis!

İ b l i s. Vallah, sən deyən kimi də deyiləm.

İ n s a n. Bura niyə gəlmisən?

İ b l i s. Günahlarımı yumağa.

İ n s a n. Nədir günahın?

İ b l i s. Sayı bilinməyən evlər yıxmışam.

İ n s a n. Yəqin ki, bu hələ davam eləyir.

İ b l i s. Şübhəsiz, bu mənim qanımdadır, iliyimə keçib. Başqa cür də ola bilməz. Tərgidəmmərəm.

İ n s a n. Hə, deməkməhşər ayağındasan...

İ b l i s. Bilmirəm nə deyirsən. Amma başqa yolum da yoxdur.

İ n s a n. İndi etiraf vaxtı deyil, İblis. Sən heç vaxt yuya bilməzsən günahlarını. Nə yaxşı ki, öz ayağınla gəlmisən. Sonluq həmişə belə olur.

İblis təntiyə-təntiyə öz yerində var-gəl edir, aradan çıxmaq istəyəndə ona mane olurlar.

İ n s a n (*üzünü vəkilə tutaraq*). Get, onu müdafiə etməyə ehtiyac yoxdur. Ən böyük müdafiə qanun özüdür. Onun qanuna, qanunun isə ona heç bir dəxli yoxdur. Özü də bunlar böyük bir dəstədirlər. Onlarla mən özüm danışacağam. İblislik dövranı artıq bitdi. Xalq özü İblisləri ittiham edir.Son qərar nə hakim, nə şair, nə də hökmdarındır, onu xalq özü verməlidir. Çünki, bu məmləkətdə şairlərin başına gələn fəlakətlər axırda hökmdarların başına gəlir. Ona görə xalq öz sözünü deməlidir.

S t e n o q r a f ç ı  q ı z. Mən danışa bilərəmmi?

İ n s a n. Buyur, Xuraman, yavrum.

S t e n o q r a f ç ı  q ı z. Mən şərqilər oxumaq istəyirəm.

Mən də başlamışam indi yazmağa,
Yazını-pozunu belə yozmağa.
İnsan yollarını indi cızmağa,
Gecikdim bir azca məni, bağışla.

# ELÇİN HÜSEYNBƏYLİ

(1961)

*Hüseynbəyli Elçin – yazıçı-dramaturq, publisist – Cəbrayıl rayonununda anadan olmuşdur. 1989-cu ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsini fərqlənmə diplomu ilə bitirib. İnsan Haqları üzrə Helsinki Fondunun Varşava Yay Məktəbinin müdavimi sertifikatını alıb.*

*Müxtəlif ədəbi orqanlarda çalışıb. Azərbaycanda ilk müstəqil TURAN İnformasiya Agentliyinin yaradılmasında iştirak edib. 1995-1998-ci illərdə "Azadlıq" radiosu Azərbaycan redaksiyasının daimi müxbiri olub, radionun Bakı bürosunu təşkil edib.*

*"Rəqs edən oğlan" hekayələr toplusunun, "Qurdun şərqisi" povestinin, "Tut ağacı boyunca", "Balıq adam" və "Yovşan qağayılar" romanlarının, "Fanatlar", "İlğım", "Labirint", "Axırı sakitlikdir", "Hamının günahı", "Fatihə", "Xərçəng" və "İki nəfər üçün oyun" dramlarının, yüzlərlə ədəbi-bədii,publisistik yazıların müəllifidir.*

*Yusif Səmədoğlu adına ən yaxşı povest, roman mükafatçısı, eləcə də "Nar budağı", "Qara qalxan" ən yaxşı nəsr ödüllərinin sahibidir. 1995-ci ilin yekunlarına görə Sülh və Demokratiya İnstitutunun "Demokratiya uğrunda ən cəsarətli jurnalist" baş mükafatını alıb.*

*Azərbaycan Yazarlar Klubunun (AyAK) sədri, Azərbaycan Yazıçılar Birliynin orqanı "Ulduz" jurnalının baş redaktorudur.*

## İKİ NƏFƏR ÜÇÜN OYUN

(Akutaqava, Kortasar, Murakami, Mrojek və Qaraçuxanın birgə layihəsi)

*2 hissəli, 8 şəkilli pyes*

İŞTİRAK EDİRLƏR

K i ş i (ikinci hissədə M i - M i)
Q a d ı n (ikinci hissədə L i - L i)

## BİRİNCİ HİSSƏ

### BİRİNCİ ŞƏKİL

Sadə otaq. Təxminən 35 yaşlı Qadın, 40 yaşlı Kişi. Orta dəbli geyimdə. Stol, stul, əlüzyuyan, divan, televizor. Səhnənin dərinliyində pəncərə, solda qapı, yaxud əksinə (hər şey səhnənin quruluşundan asılıdır).

Pərdə açılarkən hiss olunur ki, personajlar söhbət edir. Qadın qab yuyur. Kişi stulda oturub qəzet oxuyur. Romantik ovqat.

Qadın (*qab yuya-yuya*). O böyrüstə uzanmışdı. Mənsə arxası üstdə. Üzümə dəsmal örtmüşdüm ki, gözümə gün düşməsin. Birdən o dedi ki, bədənin ağrıyırsa, qoy ovxalayım. Əslində bəhanəydi. Sadəcə istəyirdi ki, əlini mənə vursun.

Kişi (*gözünü qəzetdən ayırmır*). O yatmışdı. Toppuş ayaqları gün işığının altında parıldayırdı. Birdən mənə elə gəldi ki, mən çayın kənarında dayanıb balığa baxıram. Onu sığallamaq istədim. Ancaq gün gözümə düşdüyündən bunu eliyə bilmədim, ona görə də...

Qadın. Həmin vəziyyətdə o elə gülməliydi ki... Guya ayağımı ovxalayırdı, ancaq başını qaldırıb gülümsünə-gülümsünə elə hey mənə baxırdı, gözlərini üzümdən çəkmirdi. O elə sevimliydi ki... Sanki mənə yalvarırdı. Balaca və sədaqətli itlərə oxşayırdı. (*Gülür. Pauza.*) Sahilin qırağında uşaqlar qaçışırdı. Mən xəyalımda onları öz uşaqlarımıza bənzədirdim.

Kişi (*qəzet əlində ayağa durur və pəncərə ehtimal olunan səmtə baxır*). Səhərə kimi yata bilmədim. Evdə bəhanə elədim ki, gün bədənimi yandırdığına görə yata bilmirəm. Səhər durub onlara getdim. Külək həyətlərinin qapısını ora-bura çırpırdı. Bir qədər durub baxdım. Külək qumu gözlərimə doldururdu. Sonra o, pəncərəyə gəldi, mənə baxmağa başladı. Mənsə küləyin gözümə doldurduğu qumu çıxarmağa çalışırdım, gözlərimi ovxalayırdım. Sonra onu görmədim. Külək qoymadı...

Qadın. Sonra çıxıb getdi. Heç nə demədi.

Kişi. Biz onunla yenə də eyni yerdə görüşdük. Bu dəfə onu öpmək istədim, ancaq qoymadı. Mən də nə edəcəyimi bilmədiyimə görə çıxıb getdim.

Qadın. O gedəndə üzümdəki dəsmalı götürüb baxdım. Mən onun qara tüklü qılçalarını və gündən qıpqırmızı qızarmış ayaqlarının altını görürdüm.

K i ş i. Mən qayıdanda o yox idi. Bayaq uzandığı yerdə silueti qalmışdı. Darıxdım. Lap bir-iki dəqiqə əvvəl mən onun hamar bədənini sığallayırdım. Elə bil ipəkdən paltar geymişdi. Birdən o, dənizdən çıxıb üstümə yüyürdü. Mən onu qucaqlamaq istədim, ancaq utandım.

Q a d ı n. Mən onun nəfəsini duyurdum. Ürəyinin döyüntüsünü hiss eləyirdim. Onun nəfəsindən yarpız iyi gəlirdi. İstəyirdim ki, məni bərk qucaqlasın, öpsün...

K i ş i. İki gün sonra mən onu öpdüm. O, sudan təzəcə çıxmış balıq kimi qollarımın arasında çapalayırdı.

Q a d ı n. Sonra o gəlmədi. Mən onu axşama kimi gözlədim. Mənə elə gəldi ki, o, dənizin içinə girib məni gözləyir. Mən onu Biseyə bənzədirdim. Mənim Biseyim... Gün qüruba enirdi. Ancaq o məni gözləyirdi. Onun ölənə kimi məni gözləməsini istəyirdim. Ona görə də həmin gün görüşünə getmədim. Sonra... sonra isə saqqızımı oğurladı.

K i ş i. Mən ağzıma, burnuma dolan suyu hiss edirdim. Ancaq sudan çıxmaq istəmirdim. Ona görə də o gəldi. Bəlkə də yazığı gəldi...

Q a d ı n (*fikirli-fikirli*). Bəlkə də ona arxa lazımıydı.

Pauza.

Bəlkə də... Kim bilir?

K i ş i. Kim bilir?

Q a d ı n. İlk gündən mənə çoxlu vədlər verirdi. Deyirdi ki, uşaqlarımız olanda onları hər fəslə uyğun geyindirəcəm. Yayda bədən rəngi, qışda ağ şuba. (*Qadın romantik ovqatdan sərtliyə doğru dəyişir.*)

K i ş i. Ulduzların sayı o qədər çox idi ki... Birinci dəfəydi ki, ömrümdə o qədər ulduz görürdüm...

Q a d ı n. Sonra hər şey dəyişdi... Heç ad günlərim də yadında qalmadı. İsti nəvazişlər – soyuqluqla, gül-çiçəklər – tikanlı sözlərlə əvəzləndi. Evliliyimizin ildönümləri də yada düşmür. (*Qabları şaqqıltıyla yerinə düzür.*)

K i ş i (*istehzalı*). Deyilənlər çin olsaydı, onda dünyanın işi düz gedərdi ki...

Q a d ı n. İşi bərkə düşəndə həmişə belə deyərdi...

K i ş i. Həmişə deyərdi ki, qapıdan girən kimi qabağına qaçacam, paltonu alıb yerindən asacam, sən qəzet oxuyacaqsan, mən də sənə çay gətirəcəm. Sonra hamısı yaddan çıxdı. (*Əlindəki qəzeti bürmələyir.*)

Q a d ı n (*əsəbi*). Çünki adamlar qocalır, qocaldıqca huşsuzlaşır.
K i ş i (*qəzəbli*). Mənəm huşsuz?
Q a d ı n (*istehzalı*). Balam, səninlə danışan var?
K i ş i. Bəs bayaqdan kimin haqqında danışırsan?
Q a d ı n. Mən? Əlbəttə, məni vaxtilə sevmiş bir cavan və gözəl oğlanın. Hər halda sənin kimi qoca əfəlin yox.
K i ş i. Mənəm, qoca və əfəl. Mənəm? (*Qışqırır.*)
Q a d ı n (*zümzümə edir, onu cırnatmaq istəyir*). Bir axşam taksidən düşüb payıza, o kobud əfəlin yanına qaçdım...
K i ş i (*əsəbi*). Qadınlar isə şöhrətpərəst və quşbeyin olurlar.
Q a d ı n (*istehzayla*). Olsun. Heç incimirəm də. Onsuz da öyrəncəliyəm. (*Zümzüməni davam etdirir.*) ...Sonra da mən onun yanından qaçıb, üzünə sözləri ox kimi sancdım...

Pauza. Çöldən səslər gəlir: "Qarabağ!"
Qadın gedib pəncərəni bağalyır.

K i ş i. Aç pəncərəni, istidən bağrım çatladı.
Q a d ı n. Mənə soyuqdur.

Səslər davam edir: "Qarabağ!"

K i ş i. O nə səsdir elə?
Q a d ı n. Özün bax!
K i ş i (*pəncərədən baxır və geri dönüb istehza ilə*). Qarabağı almağa gedirlər. O biriləri də onların qabağını kəsib deyir ki, Qarabağı özləri alacaqlar.
Q a d ı n. Nəhayət ki, qeyrətə gəldilər. Sənsə otur evdə, bəlkə yumurta çıxartdın. Heç olmasa, ac qalmarıq. Mənə deyən gərək, həkim oğlanı, hüquqşünası, belə prokuroru qoyub, bu yetimə niyə ərə gəlirdin hə?
K i ş i (*istehza və qəzəblə*). Niyə? Hə? Niyə?
Q a d ı n. Kül mənim başıma. Nə biləydim. Dedim, yaxşı rəssamdır. Adı ölkəynən birdir. Nişanımı da qaytardım e, buna görə. Yazıq anam dedi, mən eşitmədim.
K i ş i (*onun ağızını yamsılayır*). Dedi mən eşitmədim. Bəs mən? Elə bilirsən səni alıb ağ günə çıxmışam? Sən bu evə gələndən işlərim baş-ayaq olub. İlham pərim də səni qısqanıb, qaçıb dədəsi

evinə. Hələ ora qaçsaydı yaxşıdı. Qorxuram ki, başqa rəssamların yanına gedə. Onda vay mənim halıma. Aləmdə biabır oldum. İndi yerindən duran məni bəyənmir. Yadlarından çıxıb ki, bir zamanlar bu ölkədə rəssamlıqda inqilabı mən eləmişəm.

Q a d ı n (*istehzalı və hündür səslə*). O ölkədə. Öldü o dədən. İndi yeniləşmə zamanıdır. Doğma uşaqların da səni bəyənmir.

Pauza.

K i ş i (*romantik*). O ölkə gözəl idi. Biz axşamlar kinonu səbirsizliklə gözləyirdik. Mən onu Şeron Stouna oxşadırdım.

Q a d ı n (*romantik*). Mənsə onu Riçard Girə. O elə yaraşıqlıydı ki...

K i ş i. Ah cavanlıq. Biz onu gözəl yaşadıq.

Pauza.

K i ş i (*ciddi*). Vallah biz dəli olmuşuq. Hamısı da uşaqlardandır. Onların kürrüyünü eləyirsən? Kəndə göndərməyə vaxt tapdıq. Kasıb nə bilir, istirahət nədi. (*Bu sözləri deyə-deyə o Qadına yaxınlaşır və başını sığallayır.*)

Q a d ı n (*başını onun çiyninə qoyur və qayğılı*). O günü Ceyhun zəng eləmişdi. Deyir, a toppuş, goppuş mamam. Mən də deyirəm, can, a mənim quzu balam. (*Başını Kişinin sinəsindən qaldırır və onu itələyir.*) Sonra da ağlayıram. Bu günümə ağlayıram e... (*Səsinin tonunu artırır.*) Mən boyda gözəl toppuş qızı gör nə günə qoydun. Səni mən günə qalasan elə. Qoca arvadlara oxşayıram. Halbuki mənim taylarım hələ ərə getməyib.

K i ş i. Guya mənim taylarım evlənib?

Q a d ı n. Orasın sən bilərsən. Gündə min eşqə düşürsən.

Kişi pəncərəni açmağa gedir. Bu zaman ayağı ilişib, yıxılır.
Qadın tez özünü ona çatdırır. Kişi durub ufuldayır.
Uf, uf, uf, uf... Kişi oturur.

Q a d ı n (*gəlib onun qarşısında çömbəlir*). Ağrıyır?

K i ş i. Yox!

Q a d ı n. Necə yəni ağrımır, görmürəm ağrıyır, qançır olub. Qoy sarıyım.

K i ş i. Dedim ki, ağrımır, sarıma.

Q a d ı n. Bah. İgidliyi tutub bunun. Sarıyacam.

Gedir tənzif və yod gətirməyə. Kişi ufuldamaqda davam edir.
Qadın onun ayağını sarıyır. Kişi Qadının başını sığallayır.
Qadın başını Kişinin dizinə qoyub pəncərəyə tərəf baxır.
Kişi Qadının saçından öpür.

K i ş i. Mənim Madonnam...
Q a d ı n. Mənim Riçard Girim...
K i ş i. Mənim Şeron Stounum.
Q a d ı n. Mənim Banderasım.

Pauza.

Q a d ı n (*ayağa durur*). Gün çıxıb. Sizə gələn günün səhəri atan mənə Günəşi bağışladı.

K i ş i. Atam genişürəkliydi.

Q a d ı n. Kasıblığı ört-basdır eləmək üçün ən orijinal yoldu... Görək indi sən mənə evliliyimizin ildönümü nə hədiyyə edəcəksən?

K i ş i. Bu sürprizdi. (*Ayağa durur və gəlib Qadını öpür.*)

Q a d ı n. Allah axırından saxlasın.

Birdən Qadın pəncərəyə tərəf baxır.

Q a d ı n. Orda kimsə var.
K i ş i. Harda?
Q a d ı n. Orda. (*Küncü göstərir.*)
K i ş i. Mən heç nə görmürəm.4
Q a d ı n. Sən heç vaxt heç nə görmürsən.
K i ş i. O kimdir ki?
Q a d ı n. O odur.
K i ş i. Necə yəni o odur.

Q a d ı n. Sözdü də dedim. Orda heç kim yoxdur. Sadəcə mənə elə gəlir.

K i ş i. Sənə həmişə elə gəlir.

Q a d ı n. Necə yəni mənə həmişə elə gəlir. Demək istəyirsən ki, dəli olmuşam?!

K i ş i. Mən belə demədim.

Q a d ı n. Hər halda dediyindən belə çıxdı.
K i ş i. Sözdən söz çıxarma.
Q a d ı n. Düzünü bilmək istəyirsənsə, orda kimsə var.
K i ş i. Kim var?
Q a d ı n. Qumru quşları. Onlar sevgilidir. (*Gülür.*) Mən ondan utanıram.
K i ş i. Utanırsan, get pəncərəni bağla.
Q a d ı n. Get özün bağla.

Qapı döyülür.

K i ş i. Get qapını aç.
Q a d ı n. Özün get.
K i ş i. Mənim ayağım ağrıyır.
Q a d ı n. Bəs deyirdin ağrımır?
K i ş i. İndi ağrıyır.
Q a d ı n. Demək istəyirsən ki, mən bağlayandan sonra ayağın ağrıdı?!
K i ş i. Mən elə demədim.
Q a d ı n. Hər halda demək istədin.
K i ş i. Sənə söz çatdırmaq olmur.

Gedir qapını açmağa və qayıdır.

K i ş i. Dilənçiydi.
Q a d ı n. Nə istəyirdi?
K i ş i. Deyir ki, oğlum türmədən təzə çıxıb. Mən də əhd eləmişəm ki, oğlum türmədən çıxanda, qapı-qapı düşüb dilənəcəm.
Q a d ı n. Sən də inandın?
K i ş i. İnanmamağa əsasım yoxdur.
Q a d ı n. Pul verdin?
K i ş i. Götürmədi, dedi ki, azdı və acıq eləyib getdi.
Q a d ı n. Oğlu nə üstündə tutulub ki?
K i ş i. Beş adam öldürüb.
Q a d ı n (*təəccüblənir*). Camaatın kişiləri heç olmasa, adam öldürür.
K i ş i. Bəlkə səndən başlayım.
Q a d ı n. Məndən niyə? Onsuz da sizin əlinizdən özümü öldürəcəm. Atacam metronun altına.

K i ş i. Tələs, orkestr metronun yanında durub səni gözləyir.

Pauza.
Kişi televizoru açır.

Q a d ı n. Sən dalı açıq qızlara bax.
K i ş i. Camaat Avropada kef eləyir.
Q a d ı n. Biz o günləri görmədik.
K i ş i. İstəsən görərsən!
Q a d ı n. Onsuz da bir gün sizin əlinizdən qaçacam.
K i ş i. Qaçmağa öyrəncəlisən.
Q a d ı n (*əsəbiləşir*). Yenə də başladın?
K i ş i (*təslim olur*). Yox, yox...
Q a d ı n. Dayanan deyiləm... (*Ağlamsınır.*) Mən külbaş sənə görə bu günə düşdüm. Əgər sənin ilan dilin olmasaydı... İndi əncir ağacının dibində oturub əncir yeyirdim. İndi əncir fəslidi. Yəqin həyətimizdəki əncir ağacı barlayıb.
K i ş i. Mən niyə? Zəhmət çəkib, ayaqlarını örtəydin.
Q a d ı n. Niyə örtürdüm ki, gül kimi ayaqlarım var. (*Ayaqlarını göstərir.*)
K i ş i (*yumşalır*). Orası düzdür.
Q a d ı n. İstəyirsən o da görsün?
K i ş i. O, yəni kim?
Q a d ı n. O də.
K i ş i. Yox, istəmirəm. Bəs sən?
Q a d ı n. Mən qorxuram.
K i ş i. O hardan çıxdı e?..
Q a d ı n. Bilmirəm... İstəyirsən danışım?
K i ş i. Bir halda ki başlamısan, danış!
Q a d ı n. Qısqanmazsan ki?
K i ş i. Bir az. Bir də ki, bunun nə dəxli.
Q a d ı n. Aha, demək istəyirsən ki, qısqanmazsan?
K i ş i. Mən elə demədim. Sadəcə hisslər boyatlaşıb.
Q a d ı n (*fikirli*). Boyatlaşıb. Mənə elə gəlir ki, o səndə heç zaman olmayıb.
K i ş i. Nə olmayıb?
Q a d ı n. O olmayıb. Daha doğrusu olub. O vardı. İstəyirsən danışım. (*Cavab gözləmədən davam edir*, *aktyor tam sərbəstdir*)*:*

– Sən işə gedəndən sonra mən həmişə pəncərənin yanında oturub, səni gözləyirəm. (*Təsəvvür olunan pəncərənin yanına gəlir.*) Darıxıram. Elə bil nəysə gözləyirəm... (*Pauza.*) O, ağacın dibindən çıxdı. Yamyaşıl rəngi vardı. Çox eybəcər idi. Sürünə-sürünə gəlib, qapının ağzında dayandı. Qapını döyməyə başladı. (*Qapı döyülə bilər.*) Mən qorxumdan əsirdim. Sonra qapı öz-özünə açıldı. O sürünə-sürünə mənə tərəf gəlirdi. (*Burda ya rolu aktyor oynaya, ya da personajlar özləri onu imtiasiya edə bilərlər, ya da hadisələri tamaşaçının təsəvvürünə buraxmaq olar.*) Xırdaca gözləri vardı. O mənə baxırdı. Elə bil yalvarırdı. Gözləri bir zamanlar çimərlikdəki oğlanın gözlərinə oxşayırdı. Mən donub qalmışdım. Sonra o yalmanmağa başladı. Dili yapışqan kimiydi. Mən elə bildim ki, su istəyir. Ona su gətirdim. Ancaq içmədi. Sonra çörək verdim. Götürmədi. Bir müddət mənə baxdı. Mən də ona baxdım. Elə bil baxmağa ayrı yer yox idi. "Görən, o nə istəyir?" ürəyimdə fikirləşdim. Sonra ağlamaq səsi eşitdim. Elə bil kimsə adam kimi ağlayırdı. Sonra onun gözlərindən yaş axmağa başladı. O ağlayırdı. Mənim ona yazığım gəldi. O elə köməksiz və yazıq idi ki... Mən yavaş-yavaş ona tərəf gəldim və başını, üzünü sığallamağa başladım. Əvvəlcə ətim ürpəşdi. Sonra qorxum çəkilib getdi. Onun başını sinəmə sıxdım. O ağlamaqda davam edirdi, ancaq indi səsi çıxmırdı. Mənim ürəyim döyünürdü. Mən onu öpməyə başladım. O mənə daha bərk sarılmağa başladı. O mənim içimə girmək istəyirdi. Məni elə bərk qucaqlamışdı ki, son zamanlar məni kiminsə elə ehtirasla qucaqladığını duymamışdım. Mən onu sevməyə başladım. Elə bu zaman o əsməyə başladı və qollarını məndən çəkdi. Sonra yerə yıxılıb qıvrılmağa başladı. O yerdə qıvrılırdı. Göz yaşları onu da, məni də boğurdu. Sonra o yox oldu. Hər şey mənə yuxu kimi gəldi... Mənə elə gəlir ki, onun yox olmasına səbəb mənim onu sevməyim oldu... O gündən sonra mən hər gün onun ağlayan səsini eşidirəm, ancaq üzünü görə bilmirəm. Səninlə yatağa girəndə də elə bilirəm ki, o bizi görür... (*Pauza.*) O nə zamansa gələcək. Ona görə də səninlə bu evdən çıxmaq istəyirəm.

K i ş i. Taledən qaçmaq olmaz... Ancaq düzünü bilmək istəyirsənsə... (*Pauza.*)

Q a d ı n. Hə, nə oldu?.. Sözünü de.

K i ş i. İnciməzsən?

Qadın çiynini çəkir.

K i ş i. Bu şizofreniya əlamətidir. Sənin təsəvvürlərin Hollivud kinolarından da irəli gedib.

Q a d ı n. Ancaq mən duyuram ki, o hardasa buralardadır. Sənsə bunu duya bilməzsən. Çünki kişilər belə şeyləri heç zaman anlamır.

K i ş i. Sən allah, yadından çıxart bu cəfəng fikirləri. Bu, sadəcə sənin təxəyyülünün məhsuludur.

Q a d ı n. Ancaq o, gerçək idi. İlan kimi sürüşkəniydi.

Pauza.

Hərdən mənə elə gəlir ki...

K i ş i. Sənə elə gəlir ki, o Biseydir, dənizin qırağında durub səni gözləyir. Bunları azı əlli dəfə mənə demisən.... Və əgər düzünü bilmək istəyirsənsə, mən onu görmüşəm.

Q a d ı n (*təəccüblənir*). Sən onu görmüsən?

K i ş i (*başı ilə təsdiqləyir*). O kənardan durub sənə baxırdı. Deyəsən şəklini çəkirdi. Sonra üzməyə başladı. O üzürdü. Birdən ürəyimdən keçdi ki, onu suyun altında boğum. Batım və çıxmayım.

Q a d ı n. Və sən?

K i ş i. Bəlkə də mən onu dəyişdirə, başa sala bilərdim. Ancaq vaxtım, daha doğrusu, cəsarətim çatmadı.

Q a d ı n. Halbuki dəyişmək elə də çətin deyil.

K i ş i (*həyəcanlı və əsəbi*). Bilirəm, indi deyəcəksən ki, insan bioloji varlıq kimi dəyişməyə məhkumdur... Nə bilim, nə. Ancaq yadından çıxarma ki, həmin fikirlər mənə məxsusdur.

Q a d ı n. Onda, zəhmət çək dəyiş!

K i ş i. Bu saat! Ancaq bir şərtlə ki, gözlərini yumasan və mən deyənə kimi açmayasan.

Qadın gözlərni yumur. Kişi pencəyini şifonerdən götürür, geyinir.
Şkafdan şampan şərabı çıxarır, bokalları və şərabı stolun üstünə qoyur.
İşıqları söndürür. Şam yandırır.

K i ş i. İndi gözlərini aça bilərsən! (*Qadın gözlərini açır*).Mən sizi restorana dəvət edirəm, xanım.

Q a d ı n. Restorana?

K i ş i. Bəli, restorana. (*Stolu göstərir.*) Bu mənim sürprizimdir. Biz restoranı evimizdə düzəldəcəyik.

Qadın narazı-narazı ona baxır.

K i ş i. Düzdür, biz indi hansısa restoranın eyvanında və üzü dənizə tərəf oturmayacağıq, dənizdən əsən meh kandelyabrların işığını əsdirməyəcək. Ancaq bugünkü gecə hökmən bizim yadımızda qalacaq.

Q a d ı n (*gülür*). Bəs, ofisiant.

K i ş i. Ofisiantımız da var. Sən darıxma, mən bu saat.

Kişi cibindən "baboçka" çıxarıb boğazına bağlayır.

K i ş i. Bu da ofisiant. (*Özünü podiumdakı kimi nümayiş etdirir. Qadın heyran-heyran ona baxır.*)

Kişi boşqabları stola düzür. Çörək gətirib doğrayır, Qadın isə bu zaman musiqi taktı altında özüçün fırlanır, zümzümə edir. Kişi soyuducudan pendir-çörək, kolbasa çıxarır və deyir.

– Bu bizim "xolodnumuz". İsti xörəyi də indi qazın üstünə qoyacam.

K i ş i (*şampan şərabı süzür*). Şərəfə!

Q a d ı n. Şərəfə. (*Onunla toqquşdurur.*)

Kişi siqaret çıxarır. Qadına təklif edir və Qadının siqaretini yandırır. Qadın bir qullab alan kimi öskürür. Kişi onun kürəyinə vurur. Su dalınca qaçır. Qadın özünə gəlir və boşluğa (pəncərəyə tərəf) deyir.

Ah, sən gəldinmi, əzizim! Mən səni çox gözlədim. Səni gözlərindən tanıdım. Sən məni rəqsə dəvət edirsən?
(*Guya onunla rəqs edir.*) İndiyə kimi hardaydın? ("*A*", *guya cavab verir.*) Harda? Narodnı Zbroskoda? ("*A*", *guya təkrar edir.*) A... Mrojekin vətənində?! Ah, nə gözəl. Onda sən terroçusan? ("*A*", *guya ona qulaq asır.*) Ancaq burda hamı antiterrorçudur.

Pauza.

Q a d ı n. O qədər miskin bir həyat. Narodnı Zbroska yaxşıdır, yəqin. Orda hamı azaddır.

Pauza.

Məni aparmaq isətyirsən? Yox, yox, hara? Mənim ərim var.

Qadın, guya tərəddüd edə-edə, həm də onunla birgə rəqs edə-edə səhnədən çıxır. Bu zaman Kişi əvvəlki paltarında gəlir. Boğazında baboçka yoxdur. Qadını görməyəndə təccüblənir.

K i ş i. Ey, əzizim, hardasan? (*Səs gəlmir.*)

Pauza.

Anladım. (*Baboçkanı cibindən çıxarıb boynuna taxır. Ofisinat rolunda stula tərəf müraciətlə, guya orda Qadının əri oturub*). Bağışlayın, xanımınız dedi ki, onu gözləməyəsiniz, o bir daha geri qayıtmayacaq.

Qadın gözüyumulu rəqs edə-edə gəlir. Gözləri yumuludur. Kişi onun qabağına gedir. Qadın ona dəyir. Qadın gözlərini açır.

Q a d ı n. Ah, əzizim, səndən ötrü darıxdım. Hardaydan? Narodnı Zbroskada?

Kişi təəccüblənsə də, heç nə demir və onlar rəqsi davam etdirir.

K i ş i (*Qadının saçlarının ətrini ciyərlərinə çəkir*). Yenə də mənim xoşladığım ətri vurmusan... Saçların yüngül dənizdən əsən mehi xatırladır.

Q a d ı n (*nazlana-nazlana*). Oy kirpiklərin üzümü qıdıqlayır. Elə-mə...

K i ş i. Çoxdandır sənin qarderobunu təzələmirik. İndi gödək gecə köynəkləri dəbdədir. Onları hər gün reklam edirlər.

Q a d ı n (*onun saçlarını qarışdıraraq*). Saçların gödək olanda sən daha şirin olursan.

Bir an belə dayandıqdan sonra Kişi başını aralayır və Qadının gözlərinə baxaraq deyir.

K i ş i. Bəlkə, yataq otağımızı dəyişək. Küçədə gedən maşının işıqları məni hövsələdən çıxarır...

Q a d ı n. Əvvəllər hər ikimiz bu işıqları sevirdik, xüsusən də sən... (*Pauza.*) Gecə işığının altında bir-birimizi əzizləməkdən zövq alırdıq.

K i ş i. Mən həsrətlə gecənin düşməsini gözləyirdim, sənin bədəninin bəyazlığını görmək üçün... (*Pauza.*)

Onlar ayağa durub, hərəsi otağın bir küncünə gedir.
Söz tapmırmışlar kimi, barmaqlarını oynadır, stolun,
yaxud məhəccərin üstünü qurdalayırlar...

Q a d ı n. Gəlsənə, səyahətə gedək. (*Statiklik dinamiklik və canlılıqla əvəz olunur.*)

K i ş i. Əla fikirdir... Ancaq hara?

Q a d ı n. Narodnı Zbroskoya.

K i ş i. Ora haradır elə?

Q a d ı n. Qəribə yerdir. Merigil oradan təzəcə qayıdıb.

K i ş i. Meri kimdir?

Q a d ı n. Məryəmi deyirəm də. Orada hamı onu Meri çağırırmış. Bilirsən nə deyir?.. Ora qəribə adamlar gəlir. Hamı adını dəyişir. Uydurma ad qoyurlar. Kim nə istəyir danışır. İstəyirsən biz də ora gedək? Ancaq bir aydan sonra qayıtmalıyıq. İstəyirsən?

K i ş i. İstəyirəm. Ancaq bu dəfə ayrılıqda, lakin həmin yerə. Yəni...

Q a d ı n. Yəni?

K i ş i. Yəni oyun oynayaq.

Q a d ı n. Oyun?.. (*Pauza.*) Onların əvvəli-axırı olmur.

K i ş i. Qəfil başlayan və qəfil kəsən yağış kimi.

Q a d ı n. Bəs uşaqlar?

K i ş i. Qoy onlar öz oyunlarını oynasınlar. Hərənin öz oyunu olmalıdır.

Q a d ı n. Onda oynayaq. Özü də təptəzəsini. (*Sevincək ayağa durur, Kişinin də əlindən tutub qaldırır.*)

K i ş i (*sevinə-sevinə*). Mən və sən hər ikimiz başqa-başqa təyyarələrdə və başqa-başqa günlər eyni yerə uçuruq.

Q a d ı n. Uçuruq.

K i ş i. Və orada tanış oluruq.

Q a d ı n. Təsadüfən...

K i ş i. İstəsən, adımızı da dəyişərik. Məsələn, Lalə – Li-Li, Mikayıl – Mi-Mi.

Onlar gəzişə-gəzişə dialoqları davam etdirirlər.

K i ş i. Bizi bir-birimizə təqdim edərlər.

Q a d ı n. Peşəmizi də dəyişə bilərik.

K i ş i. Onsuz da hər şey müvəqqətidir.

Q a d ı n. Yeni tanışlar taparıq.

K i ş i. Onları heç axtarmaq da lazım deyil.

Q a d ı n. Sonra bir-birimizə onlar haqqında danışarıq.

K i ş i. Ancaq ətrafdakılar bizim ər-arvad olduğumuzu bilməməlidirlər.

Q a d ı n. Oxşar soyadlar o qədərdir ki...

K i ş i. Heç kim buna fikir verməz.

Q a d ı n. Birdən hər şey dəyişsə necə?

K i ş i. Kodeks hazırlayarıq.

Q a d ı n. Hər ikimizçün və heç kim o kodeksdən kənara çıxmamalıdır.

K i ş i. Gəl əvvəldən heç nəyi mütləqləşdirməyək.

Q a d ı n. Ancaq adamlar tez dəyişəndir.

K i ş i. Biz ki bir-birimizi sevirik.

Q a d ı n. Sevirik. Onda...

K i ş i. Onda...

Q a d ı n. Birincisi, ayrıca gedirik.

K i ş i. İkincisi, eyni mehmanxanada, ancaq ayrı-ayrı otaqlarda qalırıq.

Q a d ı n. İstirahətin bütün nemətlərindən istifadə etmək şərtilə.

K i ş i. Üçüncüsü, bir-birimizi qınamalı və sancmamalıyıq.

Q a d ı n. Bir-birimizi mühakimə etməməliyik.

K i ş i. Dördüncüsü, müəyyən vaxtlarda və yalnız təəssüratlarımızı bölüşmək üçün görüşürük.

Q a d ı n. Bu oyun bizə lazım idi, ya yox, bunu soruşmuruq.

K i ş i. Beşincisi, hər şey öz yerinə qayıdır və birlikdə evə uçuruq.

Q a d ı n. Həmişə və hər zaman dördüncü punktu yaddan çıxarmırıq.

K i ş i. Qayıdandan sonra hər gecə bir-birimizlə keçirdiyimiz günlər, adamlar barədə danışırıq, dəniz kənarından yığdığımız balıqqulağılarından gələn səslərə qulaq asırıq. Çox gözəl və romantikdir deyilmi?..

Q a d ı n. Əladan da əladır... (*Pauza.*)

Q a d ı n. Ah... Nardonı Zbrosko... Dəniz... Mən həmişə bunu arzulamışam.

K i ş i. Ora reyslər həftədə iki dəfədir. Mən dördüncü, sən altıncı gün uçursan... Məndən iki gün sonra.

Q a d ı n. Ancaq yadında saxla ki, son gələn bərk gələr. Olsun. Ancaq dördüncü bəndi yadından çıxarma.

Son sözləri deyə-deyə onlar çarpayıya yaxınlaşırlar.

K i ş i. Getdik. (*Qadını qucaqlayır. Hər ikisi sevinclə çarpayıya atılır.*)

İşıqlar sönür. Birinci hissə başa çatır.

## İKİNCİ HİSSƏ

### İKİNCİ ŞƏKİL

Boş səhnə. Diktorun səsi: "Sərnişin gözləyənlərin nəzərinə: Birəbicandan gələn 751 saylı təyyarə 10 dəqiqə bundan əvvəl Narodnı Zbroskonun hava limanında yerə enib".

Səhnəyə Li-Li daxil olur. Əlində səfər çantası var. Li-Li sağ küncdəki qapıya gedir. Sağ küncdəki qapı mehmanxana otağının qapısını əvəz edir.

Sonra Mi-Mi gəlir. Onun da əlində səfər çantası var. Mi-Mi sol qapıya tərəf gedir.

### ÜÇÜNCÜ ŞƏKİL

Ehtimal olunan çimərlik. Stol, iki stul. Kölgəlik.
Pauza.
Sol tərəfdən Mi-Mi yay paltarında, çiynində dəsmal gəlir.
Mi-Mi çimərlikdə ehtimal olunan personajlara salam verir.
Saljur, saljur, saljur... O, əlini gözünün üstünə qoyub tamaşaçılara tərəf baxır və deyir. Buraların mənzərəsinin gözəlliyi adamı valeh edir. Bir tərəf meşə, bir tərəf dəniz. Baxdıqca doymaq olmur... Dənizin səsi gəlir...

Pauza.
Ehtimal olunan personajın dediklərinə reaksiya verir.
Tamamilədoğrudur. Bu gözəlliyi görmək üçün uzun
bir yol gəlməyə dəyərmiş. Səhnənin arxasından Li-Li
yay (bağ) paltarında, başında şlyapa, çiynində dəsmal səhnənin
sol küncünə tərəf, yəni dənizə gedir.

Li-Li (*onu salamlayır*). Saljur!

Mi-Mi. O.... Siz Bicəbidansınız? (*Təəccüblə soruşur və cavab gözləmədən.*) Mən... Mənim adım Mi-Midir. Özüm də geoloqam...

Li-Li. Mi-Mi... (*Pauza.*) Geoloq... Mənim adım Li-Lidir, özüm də ürək həkimiyəm...

Mi-Mi. Ürək həkimi... Mənə elə gəlir ki, qadınlar anadangəlmə həkimdirlər. Hətta... Mən deyərdim ki, dərmandırlar... Kişilərin dərmanı...

Li-Li. Oy, nə gözəl etiraf... Siz çox alicənabsınız... Onda mən belə başa düşürəm ki, siz bir geoloq kimi həmin dərmanların axtarıb tapılmasında çox yaxından iştirak edirsiniz!

Mi-Mi. Bu, biz kişilərdə adətdir.

Li-Li. İcazə verin, etiraz edim. Kişilər hamısı eyni cür olmur. Məsələn, burda biri var. Uğursuz bir diplomatdır. Axşama kimi həyat yoldaşı ilə mübahisə edir. Ancaq arvadı deyir ki, heç şalvarının qabağını da düz-əməlli bağlaya bilmir... (*Gülür. Mi-Mi də gülür.*)

Mi-Mi. Oh, sizin gülüşünüz... Li-Li onun ağzından çıxan sözləri ehtiras və sevinclə gözləyir....Sizin gülüşünüz adamı valeh edir. Adınız da gözəldir... Əgər adınızı deməsəydiniz, elə bilərdim ki, italyansınız.

Li-Li. Siz haqlısınız. Məndə italyan qanı var. Atam türk, anam rus, ana babam isə italyandır. Ancaq adı mənə babam verib. Bu bizdə dəbdir. Uşağa adı babalar verir.

Mi-Mi. Babanızın zövqünə qibtə eləmək olar.

Li-Li (*sevincdən fırlanır*). Buralar doğrudan da gözəldir. Dəniz adama ləzzət eləyir. Hələ dəniz qumunu demirəm. Adamın bütün bədənini qızdırır. Elə bil onillərin soyuğudur canımdan çıxan...

Mi-Mi. Bənzərsiz mənzərə!

Li-Li (*guya balıqqulağı yığır*). Mən bu yekəlikdə balıqqulağıları görməmişdim. (*Əlindəki balıqqulağılarını oynadır.*) Həyat yol-

daşımla şərtləşmişik ki... (*Sözünü yarımçıq kəsir... axı şərtləşiblər ki, yenidən tanış olsunlar.*) Keçmiş həyat yoldaşımla... onlardan kolleksiya toplayaq. Axı balıqların da dişisi, erkəyi olur...

Pauza.

M i - M i. Adamın sizin topladığınız balıqqulağılarına paxıllığı tutur... Bəlkə bir zamanlar onlar da erkək olublar...

L i - L i (*qəmgin*). Onlar, bəlkə də bir zamanlar qərq olmuş gəmilərin sakinləri olub...

M i - M i. Bu sözlər mənə necə də tanış gəlir.

L i - L i. Yəqin, nə zamansa, siz onu eşitmisiniz... Hələ bəlkə dənizdə də olmusunuz.

M i - M i. Ömrümdə bir dəfə də olsun, dəniz görməmişəm...

L i - L i. Ancaq neçə gündür ki, sizə fikir verirəm, siz çox gözəl üzürsünüz. Mənə elə gəlir ki, siz dəniz adamısınız.

M i - M i. Komplimentlərə görə çox sağ olun... Ancaq, doğrudan da, mən dənizi ilk dəfədir ki, görürəm.

L i - L i. Hər halda siz özünüzü çoxbilmiş kimi aparırsınız... Özü də qadınlarla da aranız sazdır. (*Barmağı ilə hədələyir.*) O günü fikir verdim, siz qaradinməz birisilə söhbət edirdiniz... Düzü, sizə acığım tutdu. O kimdir axı, adamayovuşmazın biri. Əyri ayaq, nazik dodaq, xırda göz, sinəsi də ki... fu... Elə bil qadın yox... ikilik taxtadır... Biləsiniz ki, o cür qadınların təkcə dili yox, elə dəriləri də acı olur.

M i - M i. Tamamlə doğrudur... Düzünü bilmək istəyirsinizsə, o özü mənə "qabırğa" olmuşdu, canımı ondan birtəhər qurtardım. (*Gülür.*) Sizinsə onu qısqanmağınız mənə ləzzət eləyir. Boynuma alım ki, sizə yaxınlaşmağa cürətim çatmırdı. Bu gün özümə söz verdim ki, nəyin bahasına olur olsun, sizinlə tanış olacağam... Yaxşı ki, siz buna imkan yaratdınız... (*Reverans edir.*) İcazə versəydiniz, sizi stola dəvət edərdim.

L i - L i. Siz əsil centlmensiniz. (*Şlyapasını çıxarır və stula oturur.*) Siz də əyləşin.

M i - M i. Təşəkkür edirəm. Sizin kimi gözəl bir Qadın üçün mən saatlarla ayaq üstündə durmağa hazıram. Lakin oturmaq da pis olmazdı... (*Oturur.*)

(Bu hissədə Mi-Mi ehtimal olunan bardan içki gətirə bilər.)

M i - M i. Buralar barədə nə deyə bilərsiniz?

L i - L i. Oh, çox gözəldir. "Narodnı zbroska" doğrudan da adına layiqdir. İnsanlar burda çox azaddırlar. Bəzən mənə elə gəlir ki, cənnətə düşmüşəm.

M i - M i. Hə, doğrudan da cənnətməkandır.

L i - L i. Siz hələ nə görmüsünüz ki, bura gəlmək istəyən, bir də geri qayıtmaq istəmir. Hələ dənizi demirəm. Necə də dalğalanır. Ehtiraslı adamlar kimidir...

M i - M i. Sizin gözləriniz dənizi xatırladır, saçlarınız isə Günəşi.

L i - L i (*guya utanır və söz arasına söz qatır*). Buraları mənə göstərməzsinizmi? Mən bilən bir neçə gündür ki, buradasınız.

M i - M i. Dedim axı, mənim adım Mi-Midir. Daha rəsmiyyətçilik niyə?

L i - L i. O, anladım. (*Mi-Minin qoluna girir.*)

M i - M i (*əli ilə yolun açıq olduğunu göstərir*). Böyük məmnuniyyətlə.

DÖRDÜNCÜ ŞƏKİL

Dənizin səsi və boş səhnə. Səhnənin arxasından stolüstü tennis oyununun səsi gəlir, onun arxasınca isə səhnəyə Li-Li daxil olur. Dəsmalla üz-gözünü silə-silə gəlib stolun arxasında oturur. Ofisiant ona kokteyl gətirir.

M i - M i (*Li-Liyə*). Yaxşı tennis oynayırsınız.

L i - L i. Mənə elə gəlir ki, siz neçə gündür ki, qəsdən mənə uduzursunuz. Bu gün isə xüsusən... Səbəbini bilmirəm. Hər halda bu mənimçün xoşdur... (*Stulda oturur.*)

M i - M i (*guya ki, onun sözlərinə əhəmiyyət vermir*). Dəniz bu gün necə də sakitdir. (*Li-Li ilə üzbəüz stulda oturur.*) Lap sizin sifətinizin ifadəsinə oxşayır. Sakit və duru. Ləpələri isə saçlarınız kimi yüngülcə dalğalanır.

L i - L i. Komplimentə görə sağ olun.

M i - M i (*çoxmənalı*). Deyirlər ki, kompliment duvağın üstündən öpüş kimi bir şeydir.

L i - L i. Kim deyibsə, gözəl deyib. (*Gülür.*)

M i - M i. Ancaq sən mənə bircə öpüşü də qıymırsan. Getməyimizə saatlar qalıb, sənsə hələ də məni xoşbəxt eləmək istəmirsən.

L i - L i (*gülür, ayağa durur*). Kişini xoşbəxt edən qadındır, eləmi? Ancaq siz kişilər bunu heç zaman boynunuza almırsınız... Naşükürlər... (*Ehtimal olunan "cütlük" səhnədən keçir və Li-Li onları göstərərək*) davam edir. Onlar necə də xoşbəxtdirlər. Adamın lap paxıllığı tutur.

M i - M i. Doğrudan da elədir. İnsanın xoşbəxt olması üçün çox az şey lazımdır...

Pauza.

L i - L i (*şən ovqatda*). Mənim mehmanxana otaqlarında qalmaqdan xoşum gəlmir. Artıq ikinci gündür ki, mən elə buradaca, dənizin sahilindəki bax o çadırda qalmağa üstünlük verirəm. (*Əli ilə göstərir.*) Gecə dənizin və dəniz quşlarının səsini eşitmək mənə ən gözəl musiqini xatırladır.

M i - M i. Yaralı yerimə toxundunuz. (*Romantik ovqatda davam edir.*) Bilmək istəyirsinizsə, mən gecələr öz otağımdan sizin çadıra necə incə yerişlə girməyinizi müşahidə edirəm və səhərə kimi sizinlə birlikdə dənizin səsinə qulaq asıram. Bəzən mənə elə gəlir ki, dənizin yox, sizin sakit nəfəsinizi hiss edirəm. Gecələr sizi yuxumda görürəm. Mən sizə yaxınlaşıram, ancaq siz yox olursunuz... İlğım kimi... Sizə əlim çatmır...

L i - L i. Oh, necə də xoş, necə də ovsunlu sözlərdir. Çoxdandır ki, bu cür gözəl sözlər eşitməmişdim.

M i - M i. Siz buna layiqsiniz. (*Onun əlindən tutur.*)

Li-Li əlini onun əlindən çəkir. Mi-Mi yenidən onun əlindən tutur. Li-Li utansa da, etiraz etmir.Onlar ayağa dururlar. Həzin musiqi çalınır. Onlar musiqinin müşayiəti ilərəqs edə-edə sağ tərəfdəki qapıya, yəni səhnənin çıxışına doğru gedirlər.Çıxış Li-Linin çadırının qapısını əvəz edir... Çıxışda palma ağacı var. Li-Li qapının ağzında dayanır. Mi-Mi ona baxır, əlini əlindən çəkmək istəmir. Li-Li içəri girir və bir əlini çöldə saxlayır. Mi-Mi onun əlindən tutub içəri keçir. İçəridən, yəni çadırı təsəvvür etdiyimiz yerdən Li-Linin səsi gəlir. Onun səsini musiqi müşayiət edir. Li-Linin səsi Oh... Mi-Mi... yox... lazım deyil...

M i - M i n i n s ə s i. Mən hətta dənizin qırağında olanda da, dənizin yox, yalnız sənin nəfəsini duyuram, onu içmək istəyirəm. Sən yuxularımdasan...

L i - L i n i n s ə s i. Oh... Necə də gözəl sözlərdir... Yox... Mi-Mi... lazım deyil... qıdığım gəlir... Kişilər hamısı belə... Ah hiyləgər. Bu da mı bir oyundur. Ona görəmi mənə uduzurdun... Sən məni zorlamaqmı istəyirsən... De ki, zorlamaq istəyirsən... Deməsən də, məqsədini başa düşürəm... Ay tülkü... (*Səs kəsilir. Musiqi davam edir...*)

## BEŞİNCİ ŞƏKİL

Mi-Mi və Li-Li səhnəyə daxil olur. Onlar əl-ələ tutublar.

L i - L i. Adam heç dənizdən ayrılmaq istəmir.

M i - M i. Heyif ki, istirahətimin sonuna cəmisi 3 gün qalır.

L i - L i. Mütləq getməlisənmi?

M i - M i. Özgə çıxış yolum yoxdur. Biletimi almışam. Bileti isə geri götürmədiklərini özün bilirsən. Burda hamının vaxtı bir aydır.

L i - L i (*ah çəkir*). Təəssüf. ...Biz hələ indi-indi bir-birimizi tanımağa başlamışdıq. (*Pauza.*) Gəl qurtaraq bu qanqaraldıcı söhbətləri. Qarşıda hələ 3 gün var, ondan ləzzət almaq lazımdır. Getdik...

Mi-Mini çadıra tərəf çəkir. Səhnə arxasından gülüş və öpüş səsləri.

## ALTINCI ŞƏKİL

Ay-ulduzlu gecə.

Kişi və Qadın əvvəlki qiyafədə, bir-birilərini görən kimi uşaq kimi sevinirlər, bir-birilərinin əlindən tutub fırlanırlar, çox incə öpüşürlər. Gülə-gülə bir-birilərinə aman vermədən danışırlar. Hər ikisinin əynində yay köynəyi və şortik var. Dialoqlar əvvəldən axıra kimi şən ovqatla müşayiət olunur.

Q a d ı n. Dördüncü bəndi yadından çıxarmamısan ki?

K i ş i. Bir-birimizi qınamamalı və...

Q a d ı n. Töhmətləndirməməliyik...

K i ş i. Birinci sən başla!

Q a d ı n. Yox, birinci sən!

K i ş i. Yox sən...

Q a d ı n. Nə deyim... Mənimki əsil centlmendir. Onda kişilərə lazım olan hər şey var.

K i ş i (*incik*). Deyirsən, yəni...

Q a d ı n. Ey... Dördüncü bənd!

K i ş i. Anladım, anladım... (*Siqaret yandırır.*) Hər şey o saat gözlərindən bilinir. Sən xoşbəxt olanda gözlərin par-par parıldayır. Saçının tumarından hər şey aydın olur.

Q a d ı n. Saçları qapqara gecə rəngidir. Bədəninin əzələləri antik pəhləvanları xatırladır. (*Qadın bu sözləri deyib hərlənir və lap yaxına gələrək, Kişinin köynəyindən tutaraq şən və qayğısız halda.*) Bəs səninki? (*Əlini Kişinin sinəsinə vurur, saçını qarışdırır.*) Pis deyil, ha. Gözləri...

K i ş i. Elə demə, adamın gülməyi tutur. Necə yəni mənimki, səninki. Elə bil nəyisə şərikli yığmışıq, indi bölürük.

Q a d ı n (*bərkdən gülür*). Bəlkə qısqanırsan?..

K i ş i. Yox, əlbəttə, yox, sadəcə...

Q a d ı n. Sadəcə, həmişəki kimi dəyişmək istəmirsən. Kəndçi ki, kəndçi...

K i ş i. Sadəcə, sənin xoşbəxtliyin mənə ləzzət eləyir.

Q a d ı n. Li-Lidən danışsana...

K i ş i. Li-Li. (*Pauza.*)

Q a d ı n. Hə, nə oldu, danışsana...

K i ş i. "Li-Li". Sən bu sözləri deyəndə elə bil, onun adının hərflərini bala batırmısan və dodaqların onu yalayır. Sən ancaq "Li-Li" de və heç nə soruşma.

Q a d ı n. Ancaq "Li-Li". Əclaf! (*Gülür.*) Deməli, hər şey əladır. Ancaq başqa vaxt boynuna almazdın. Bax, buna deyərəm, əsil oyun...

K i ş i. Əladan da əla. Mən, elə bil, təzə həyata başlamışam. Gözəllik, ləzzət burulğanında üzürəm. (*Əllərini qanad kimi açaraq fırlanır.*) Doğrudan da azadlıq hər şeydən üstündür. Bircə dəfə dəyişmək yetərlidir ki, azadlığın dadını duyasan.

Q a d ı n. Biz hər gecə...

K i ş i. Başa düşürəm. Qaraşınların hamısı Dekamerondan çıxıblar.

Q a d ı n. Oh, elə demə, adamın utanmağı gəlir. Demək istəyirəm ki, biz hər gecə çadırdan çıxıb, dənizin kənarı ilə gəzirik, dənizin sakitliyinə, balıqqulağılarından gələn səslərə qulaq asırıq...

K i ş i. Biz isə hər gecə balkondan öz ulduzumuzu axtarırıq. Mən sənin ulduzunu da axtarıram. Və hərdən gülməyim gəlir. Biz cəmisi bir-birimizdən 100 metr aralıda yaşayırıq və o qədər xoşbəxtik ki...

Q a d ı n. Bəy... Yox, yox... Senyor, sizin balkonunuz da var?

K i ş i. Bəli, bayan, pardon... Senyora, özü də iki dənə.

Q a d ı n. Deməli, hər şey gözəldir...

K i ş i. Hər şey...

Q a d ı n. Təbrik edirəm. Mən istəyirdim ki, bizim hər ikimizçün yaxşı olsun. Deməli, yaxşıdır.

K i ş i. Mən də istəməzdim ki, səndən yaxşı olam. Ancaq dördüncü punktu yadından çıxarma ha... (*Sevincək deyir.*) Li-Li dalğaya, dəniz ulduzuna oxşayır...

Q a d ı n. Qırmızı, yoxsa bənövşəyi?

K i ş i. Onda rənglərin hamısından var. Saçları qıpqırmızı çay kimi, dodaqları al-mərcan kimi...

Q a d ı n. Mi-Mi əsil şairdir.

K i ş i. Sən isə onun ilham pərisi... Demişdim axı, ilham pərim əzəl-axır kiminsə başına qonacaq. (*Gülür.*)

Q a d ı n. Deməli, hər şey yaxşıdır.

K i ş i. Əladır.

Q a d ı n. Bizim daha üç günümüz qalır. Onu necə lazımdır elə də keçir. O mənə dedi ki, məni çox dərin sirlərdən agah edəcək.

K i ş i. Yəqin sən mənə sonra bu barədə danışarsan.

Q a d ı n. Əlbəttə. İnanıram ki, sən də mənə qıpqırmızı çayından, al-mərcanından danışarsan.

K i ş i. Deməli, istədiyimiz alındı. Heç nəyi fikirləşmə. Dördüncü punktun üstündə də baş sındırmağa dəyməz... (*Qadının əlindən tutur.*) Bəlkə bu şərəfə viski içək.

Q a d ı n. Viski? Fu... Çox geridə qalmış adamsan. O məni ən yaxşı tekilaya qonaq eləyir.

K i ş i. Centlmenlərdə bu adətdir...

Q a d ı n. Deməli, təyyarədə görüşənədək.

K i ş i. Görüşənədək.

Onlar sevinə-sevinə ayrılırlar. Hərəsi səhnənin bir küncünə gedir.

## YEDDİNCİ ŞƏKİL

Təyyarə səsi.

Səhnə. Həmin mənzil. Bizə tanış olan çarpayı, tumba və gecə lampası. Kişi və Qadın əllərində səfər çantası. Onlar danışmadan yavaş-yavaş ayaqqabılarını soyunurlar. Hərəsi çarpayının bir tərəfində oturur. Hardansa onların istirahətdə olduğu zaman çalınan musiqi səsi gəlir.

Hər ikisi dinləyir. Sonra musiqinin artan səsinə uyğun olaraq eyni zamanda ayağa qalxırlar və bir-birilərinə tərəf gəlirlər. Ovqatlarına uyğun bir-birindən tutub rəqs edirlər. (Hərəktlər statikdir.) Qadın başını Kişinin çiyninə qoyur. Bir an keçdikdən sonra (tamaşaçının hövsələsi çatana qədər) Qadın başını qaldırıb, "Mi-Mi" – deyir.

K i ş i. Li-Li.

İşıqlar musiqinin azalan sədaları altında sönür. Sonluq başqa cür təkrar olunur.

## SƏKKİZİNCİ ŞƏKİL

Qadın və Kişi içəri girir. Hərəsi öz çantasından balıqqulağı çıxarıb tumbanın üstünə qoyur. Sonra Qadın evə baxır. Guya ki, ona tanış deyil. Tumbanın siyirməsini çəkib, ora göz gəzdirir. Saat gecə 12-ni vurur. İstirahətdə olduqları zaman çalınan musiqi. Onlar dinmədən bir-birinə tərəf gəlir və rəqsə başlayır. Sonra Kişi öz çantasından şampan çıxarır. Bokallara süzür. Bokalları götürürlər.

K i ş i. Dostluğumuzun sağlığına, Li-Li!
Q a d ı n. Şərəfə, Mi-Mi!

Sonra Qadın çantasından banka çıxarır. Buterbrod düzəldir və ona verir. Kişi ona buterbrod düzəltməyə kömək edir. Əlləri onun əllərinə toxunur. Onların dodaqları qeyri-ixtiyari bir-birinə tərəf dartınır, öpüşürlər. Sonra onlar paltarlı-paltarlı çarpayıya yıxılırlar. Paltarlarının düymələrini dolaşdıra-dolaşdıra, tələm-tələsik soyunurlar (prosesin axıra qədər davamı vacib deyil). Lampanı söndürürlər... Pauza...

## DOQQUZUNCU ŞƏKİL

İşıqlar yanır. Onlar Kişinin birinci hissədə düzəltdiyi "yalançı" restoranda oturublar. (Tamaşaçıda belə ovqat yarana bilər ki, onlar heç yerə getməyiblər.) Yenidən şampan içirlər, siqaret yandırırlar. Bir-birilərinə baxmırlar. Bir anlıq pauzadan sonra. Qadın deyir:

Q a d ı n. Sən bilən onlar qayıdandan sonra nə olacaq?
K i ş i. Onlar yəqin hər şeyi başa düşüblər. İndən sonra nə eləmək olar ki?!

Q a d ı n. Həmişə nəysə eləmək olar. O (*Mi-Mi*) indi hər şeyi olduğu kimi saxlaya bilməz. Onun üzünə baxmaq kifayətdir ki, bunu başa düşəsən.

K i ş i. Mən şübhə etmirəm ki, o da (*Li-Li*) hər şeyin belə qalmasını istəməzdi. Onlar hər ikisi bunu başa düşdü. Və onların nə edəcəklərini təsəvvür eləmək elə də çətin deyil.

Q a d ı n. Düz deyirsən. Bu elə də çətin deyil. Mən onların nə edəcəklərini görürəm.

K i ş i. Yəqin onlar da bizim kimi yatmayıblar və gözlərini bir-birindən gizlədə-gizlədə söhbət edirlər. Artıq onlar bir-birinə deməyə söz tapmırlar. Yəqin ki, məhz o, bir Kişi kimi təşəbbüs göstərib ayağa duracaq (*stuldan durub*, *küncdəki çarpayının yanına gedir. Tumbanın siyirməsini açır*), yeşiyi açacaq, göy qabdakı dərmanı götürəcək. Bax belə, bax...

Tumbanın siyirməsindən qutunu götürür.(onun yanına gəlir, qutunu onun əlindən alır)

. O dərmanların hamısını bax beləcə sayacaq və yarıbayarı böləcək.
Çünki bu cür məsələlərə həmişə o baxır. Axı o evdar Qadındır.
Hərəyə 16 dənə. (Dərmanların yarısını ona verir.)
Qadın ilə Kişi danışa-danışa çarpayıya otururlar.

K i ş i. Onlar dərmanları iki-iki, tələsmədən, bir-birlərini gözləyə-gözləyə atacaq, üstündən isə su içəcəklər.

Q a d ı n. Dərmanlar yəqin acıdır?

K i ş i. Yəqin ki, turşdur.

Q a d ı n. Hə, bəlkə də, turşdur...

Pauza.

Onlar dərmanları yavaş-yavaş atırlar, üstündən də qurtum-qurtum su içirlər.

Pauza.

K i ş i. Sonra onlar çarpayıya uzanacaq.

Q a d ı n. İşığı söndürəcəklər. Allah bilir niyə?

K i ş i. Onu kim bilsin. Yəqin ki, bir daha ayılmamaqçün... Günəş bir də onların gözünə düşməyəcək.

Q a d ı n. Külək qumu onların gözlərinə doldurmayacaq.

K i ş i. Onlar bütün bu xatirələri özlərilə aparacaqlar...

Q a d ı n. Onlardan ayrılmamaqçün. Və... və bir daha dəyişməməkçün.

K i ş i. Ona görə də onlar işığı söndürəndən sonra qucaqlaşacaqlar. Bilirəm, dəqiq bilirəm ki, qucaqlaşacaqlar. (*Qadına tərəf dönür, Qadın da ona tərəf dönür.*)

Onlar ayaq üstə də, yəni çarpayısız, bir-birinə dayaq olmaq üçün də qucaqlaşa bilərlər. O zaman dialoqlar dəyişməli və təxminən belə olmalıdır.

K i ş i. Sonra onlar qucaqlaşacaq.

Q a d ı n. Bir-birinə dayaq olmaq üçün.

K i ş i. Bir-birilərini ömürlük itirməmək üçün...

Q a d ı n. Qaranlıqda... (*Əlləri ilə onu qucaqlayır və sağ əlini tumbanın üstündəki lampaya aparır və onu söndürür.*) Bax belə, eləmi?

K i ş i. Belə!

SON

*martın sonu, 2000 – mayın sonu, 2004*

# MÜNDƏRİCAT

**Aslan Qəhrəmanlı**
İfritə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .7

**Mustafa İskəndərzadə**
Səni kim unudar... . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .30

**Arif Abdullazadə**
Aqillər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .112

**İnqilab Nadirli**
Sınaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .163

**Elçin**
Qatil . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .244

**Hidayət**
Məni qınamayın . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .302

**Əli Əmirli**
Köhnə ev . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .360

**Kamal Abdulla**
Hərdən mənə mələk də deyirlər . . . . . . . . . . . . . . . . . . . . . . .406

**Mənzər Nigarlı**
Qara örpək . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .427

**Elçin Mehrəliyev**
Yurd yeri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .461

**Firuz Mustafa**
Müqəvva . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .497

**Əmir Pəhləvan**
İnsan və iblis . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .521

**Elçin Hüseynbəyli**
İki nəfər üçün oyun . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .558

# AZƏRBAYCAN DRAMATURGİYASI ANTOLOGİYASI

DÖRD CİLDDƏ

IV CİLD

"ŞƏRQ-QƏRB"
BAKI
2007

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Yeganə Əsgərova* |
| Korrektorlar: | *Fəridə Səmədova*<br>*Pərinaz Musaqızı* |

Yığılmağa verilmişdir 04.05.2007. Çapa imzalanmışdır 05.07.2007.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 36,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 63.

Kitab “PROMAT” mətbəəsində çap olunmuşdur.